Dirilik suyu

"Ənsar əl-Hüseyn 32" diviziyasının "Həzrət Əbülfəzl (ə)" batalyonunun komandiri

General Mirzəməhəmməd Sulginin xatirələri

Toplayan: Həmid Hisam

Kitabın adı:..... Dirilik suyu
Qələmə alan:..... Həmid Hisam
Tərcümə edən:.....Elmar Rəhimov
Çap tarixi:.....2021
Çap növbəsi:.....Birinci
Tiraj:.....1000

«Издательство Полипресс»
Тверь, Комсомольский проспект, дом 19.
Тел.: (4822) 58-19-78, 500-250,

ISBN 127-29-024519-35

Ali Rəhbər Ayətullah Xameneinin rəyi:

Bismillahir rəhmanir rəhim.

Salam olsun imam Hüseynin (ə) silahdaşlarına! Salam olsun Həmədanın "Ənsar əl-Hüseyn" diviziyasına! Salam olsun şəhidlərə, igidlərə, fədakarlara, gündüzün şirləri və gecələrin abidlərinə! Salam olsun ölməz şəhid Mirzəməhəmməd Sulgiyə və onun imanlı və səbirli həyat yoldaşına! Həmçinin salam olsun bizə Sulgi və Xoşləfz kimi inciləri tanıdan Həmid Hisama! Bu dəyərli əsəri oxuyarkən ömrümün yaddaqalan və səfalı saatlarını yaşayır, dəfələrlə dərin həsrətlə deyirdim:

Bir qədər fikrə dalıb, kaş, könlü məftun edən bu bəzmdə mən də,
Ol füsunkar badəyə dodaq toxundura biləydim mən də!
Minlərlə arzu-diləyim varkən qəlbim müştaq, özüm heyran,
Amma əminəm məhbuba sarı yol sala bilərəm mən də.

Zənnimcə, müharibə xatirələrinə dair yazılan əsərlər içində bu ən yaxşılarından biridir. Əsər qələmin sərrastlığı, bədiiliyi, üslub və dolğunluğu ilə seçilir. Hörmətli xanım Zərrabinin ülvi məqam sahibi şəhid Əli Çitsaziana həsr etdiyi əsəri də bu qəbildəndir. Bu iki şəxsiyyət Həmədanın ulduzlarından sayılır.

Yanvar, 2017

Birinci fəsil

Şeyx Əli Məhəmmədin övladı

Mən 1956-cı il mart ayının 21-i Həmədan vilayətinin Nəhavənd rayonunun 25 km-liyində yerləşən Hadiabad kəndində dünyaya gəlmişəm. El-oba adətimizə görə, yeni ilin başlanğıcı ilə oğlan uşağının təvəllüdünün eyni vaxta təsadüfü bol nemət və bərəkət nişanəsi sayılırdı. Yeddinci gün atam qulağıma azan-iqamə oxuyandan sonra fərəhlə demişdi: "Adını Mirzəməhəmməd qoyuram!" Dünyaya göz açandan sonra böyük Sulgi tayfasının xoşqədəmi və sevimlisinə çevrilmişdim. Altı aydan sonra valideynlərim Məşhəd şəhərində saçlarımı qırxıb, çəkisi miqdarında sədəqə çıxarmışdılar. Bir

yaşımda ana yurdum Məhəmmədabad kəndinə köçmüşdük. Kənd dörd tərəfdən qalaya bənzər palçıq divarlarla əhatəyə alınmışdı. Camaat onların arasında özünü asudə hiss edirdi. Canavarlar divarların ardına qədər gələrək ulayır, amma dişləri qoyunlara çatmırdı. Bununla belə, oğruların divarı oyaraq kənddən heyvan oğurladıqlarını da eşitmişdim. O vaxtlar hələ məktəbə getmirdim və mənim üçün canavarla oğru eyni idi. Gün batarkən əhalinin, o cümlədən çobanların dəstə-dəstə qala divarlarından içəri girişi xoşladığım gündəlik hadisələrdən biri idi. Uşaq fikirlərimlə elə bilirdim ki, o divarlar oğru və canavarlar üçün keçilməz maneədir. Kəndə giriş onun önündə yerləşən böyük taxta darvazadan mümkün idi. Kənd təqribən on ailədən ibarət dörd obaya bölünmüşdü. Evlər saman qatılmış palçıqdan idi və döşəmələrinə həsir, cecim, kilim və s. sərilirdi. Adətən, iki mərtəbəli palçıq evlərin üst mərtəbəsində ailələr yaşayır, altda isə toyuq-cücə və mal-qara saxlanılırdı. Bəzən qış sərt keçərkən heyvanlar tələf olduqda, camaat onları qorumaq üçün içəridən ayrıca dalan qazırdılar. Kəndin suyu hər obada qazılan quyu ilə təmin olunurdu. Hər obada ümumi tualet vardı və bir çox işlər, o cümlədən əkin yerlərinin şumlanması birgə və şərikli görülürdü. Şumlamaq üçün artıq mal-

qarası olanlar torpaq sahibindən daha çox sahə ala bilirdilər. Məsələn, bir inəyi olan yalnız bir əkinçi ilə şərik ola bilər, yaxud bir inəyə yalnız bir ulaq qoşa bilərdi. Yəni kəndxuda-rəiyyət dövrü idi və bizim qırx ailəli kəndimizdən əlavə üç kənd bir nəfərin ixtiyarında idi. Torpaq və əkin suyu kəndxudanın, iş və zəhmət isə əkinçinin üzərinə düşürdü. Odur ki, məhsulun altıdan beşi kəndxudaya çatır, bir hissəsi isə əkinçiyə verilirdi. Amma təbii və yağış suyu ilə əldə olunduqda isə paylar bərabər bölünürdü. Kərəmxuda bizim kəndxudamız idi. Atam kimi bütün əkinçilərin ümidi isə ona yox, göylərin Allahına idi və bol yağış olan il üzləri gülər, kefləri kök olardı. Hər halda yağışlı keçən illərdə də bizə düşən payla güzəranımızı çətinliklə keçirərdik. Adətən, kəndxuda və torpaq sahibləri əkinçilərdən çox öz qohum-əqrəbasının mənafeyini güdərdi. Atam nurlu, ürəyitəmiz, doğru danışan, imanlı bir kişi idi və kəndin bütün əhalisi, o cümlədən, kəndxuda belə ona hörmət qoyurdu. O, hər qırx gündən bir hesabat vermək üçün kəndxudanın evinə baş çəkər, bəzən bizi də özü ilə aparardı. Hamı onu şeyx Əliməmməd deyə çağırardı və biz isə ona dədə deyərdik. Uşaqlıq dövrümdən yadda qalan yuxu kimi şirin hadisələrdən biri məni çiyninə alıb, kəndxudanın kəndinə apardığı gün idi. O vaxt dörd-

beş yaşım olardı və qabar bağlayan möhkəm əlləri ilə xırda əllərimdən tutub, bütün övladların sinə dəftərinə çevrildiyi həmişəki nəğməni söyləyirdi: "Ey nazlı balam, gözümün işığı, ey sərvətdən mənə əziz olan, ey mənim həyatım, ay mənim istəklim, ay mənim istəklim..." Onun bu səmimi və ürəyəyatan nəvazişləri məndən qabaq iki böyük qardaşıma tanış idi və məndən sonra üç kiçik qardaş və iki bacım üçün də davam edirdi. Atam bu qədər övladı arasında məhəbbəti elə bölüşdürürdü ki, hamı özünü onun sevimlisi hesab edirdi. O, təhsil almayıb, zahirən savadsız olsa da, dinimizin əksər əxlaqi təlimləri bütün vücudunu bürümüşdü və kəndin əmmamə-qəbasız şeyxi və dindar ağsaqqalı sayılırdı. Ümumiyyətlə, Peyğəmbər (s) və Əhli-beyt (ə) onun bütün sərvəti idi və o həzrətə bəslədiyi hədsiz məhəbbətə görə bütün övladlarının adını onun (s) adı ilə zinətləndirmişdi: Əzizməhəmməd, Şahməhəmməd, Mirzəməhəmməd, Məhəmmədkərim, Şirməhəmməd, Məhəmmədcəfər.

Bir dəfə yenə altı yaşımda ikən kəndxudanın kəndinə tərəf yola düşdük. Bizim kənddən o kəndə iki kilometr olardı. Adət üzrə, yenə atamın çiynində idim. Zöhr vaxtı gəlib, bir arxın kənarında dayandıq. O, məni çiynindən yerə düşürəndən sonra uca səslə azan deyib, namazlarını qıldı. Kəndxudanın evinə

çatanda sanki başqa bir aləmə daxil olduq. Yerə daş döşənmiş geniş həyətin bir guşəsində kərpicdən neçə mərtəbəli bina ucalmışdı, bir tərəfdə "peykan" maşını dayanmışdı və xülasə, istənilən şərait yaradılmışdı. Mətbəxdən gələn bozbaşın iyi hər yeri bürümüşdü və onun dadı hələ də damağımdan getməyib. Adətən, kəndimizdə zəhmətkeş camaat belə təmtəraqlı süfrə təşkil edə bilmirdi.

Atam nadir hallarda rayona gedərdi və hər dəfə hökmən düyü alardı. İldə cəmi bir-iki dəfə, o da ki, yeni il axşamı plov yeyərdik. Amma ondan başqa qalan ərzaq və yeyintini kənddən təmin edərdik. Əhalinin əksər yeyintisini taxıl, xüsusilə də buğda təşkil edirdi. Taxılı özümüz kəndin dəyirmanında üyüdüb, anbara yığardıq. Unumuz hər nə qədər olsa da həmişə ilin axırında çatışmazlıq və ehtiyacla üzləşərdik. O vaxt atam vəziyyəti soruşanda, anam deyərdi ki, neçə günlük unumuz qalıb. Bundan sonra hökmən qənaətlə keçinirdik və onun kənarında çobanın, hamamçının və dəlləyin haqqı da bizi xərcə salan əlavə çətinliklərimiz idi. Çünki belə xərcləri də taxıl və unla ödəməli olurduq. Məsələn, dəlləyimiz həmişə xırman vaxtı gəlib, hələ məktəbə getməyən uşaqların başını dibindən qırxar və ön tərəfdə xırda bir kəkil saxlayardı. Anam hərdən gözəl görünmək üçün kəkilimizi qırla bir

yana yapışdırar, hərdən də göz dəyməsin deyə ona yaşıl muncuq bağlayardı. Dəllək başımızı yalnız iki cür qırxardı; ya bütöv keçəl edər, ya da qabağında kəkil saxlayırdı və hər başa görə də müəyyən miqdarda taxıl alardı. Hamam və çimmək məsələsi isə tamam başqa cür idi. Kəndimizdə hamam yox idi və ona görə də ata yurdumuz Hadiabada getməli olardıq. Belə ki, il ərzində cəmi dörd dəfə və hər fəsildə bir dəfə hamamda çimə bilirdik. Hamamı odunla qızdırardılar və bəzən ocaq o qədər alovlu olardı ki, hamamın suyu samovarın suyu kimi qaynayırdı. O cür isti suyun altına girib çimmək ən əzablı iş idi. Həmişə bədənimiz qıpqırmızı qızarardı. Ondan sonra növbə kisələnməyə keçirdi. Atama and-aman edərək deyirdim ki, bəsdir, kifayətdir, kürəyimin dərisi qopdu. O isə sözümə etina etmədən belə cavab verirdi: "Döz balam, bir də qaldı üç aydan sonraya!" Adətən, qayıdandan üç-dörd gün sonrayadək təmiz qalırdıq və bir həftədən sonra o cür tər-təmiz bədənimiz əvvəlki kökə düşərdi. Anam da hər neçə gündən bir təndirə od salaraq teşt qızdırar və paltarlarımızı içində qaynadandan sonra gün altında Marağa sabunu ilə bədənimizin çirkimizi təmizləyərdi. O da atam kimi savadsız idi. Evin işləri onun üzərinə düşürdü və ibadətdə də atamdan geri qalmırdı. Heç vaxt boş vaxtı olmazdı.

Gündə iki dəfə mal-qaramızı sağmalı olur, nehrə çalxalayır, yağ, pendir, ayran hazırlayırdı. Bir dəqiqə boş oturmurdu. Heyvanlara ot verir, tez-tez ocaq başında olur, çörək bişirirdi. Hərdən də tikiş və toxuma işləri ilə məşğul olurdu. Bu qədər məşğuliyyətə baxmayaraq uşaqların qayğı və tərbiyəsinə də diqqətli idi.[1]

Məhəmmədabadın münbit torpaqları, asayişi olsa da məktəb və məscidi yox idi. Odur ki, atam qışdan sonra buradan da məktəb, məscid və hamamı olan Dehqanabada köçmək fikrində idi. Mənə elə gəlirdi ki, burada qış fəsli daha çox çəkir. Qar yağanda bütün yollar bağlanırdı, boran və şaxtadan hər yer donurdu. Uzun qış gecələrində lampa işığı altında atamın ətrafına toplaşır, onun maraqlı söhbət və nağıllarına qulaq asardıq. Bizə öz uşaqlıq dövründən, babamızın həyatından, onun imanından danışardı. O, Nəhavənddən Kərbəlayadək piyada ziyarətə getmiş, yayın qızmar çağında oruc halda əkin sahələrində işləyib övladlarını böyütmüşdü. Deyərdi ki, atam həmişə bizə (atamla əmimə) tapşırardı ki, harada olmağından asılı olmayaraq, namaz vaxtı hökmən azan deyək. O vaxt altı yaşım var idi. Bununla belə, dərin məzmunlu dini

[1] Anam 2007-ci ildə 81 yaşında dünyadan köçdü.

məfhumları bir müəllim kimi biz uşaqların başa düşəcəyi tərzdə izah edərdi. Məsələn, on dörd məsumla bağlı söhbətlərində qeyd etdiyi bu kəlmə heç vaxt yadımdan çıxmır: "İmam Əlinin (ə) övladı Həzrət Abbas (ə) imam və məsum olmasa da Allah dərgahında onlara yaxın məqama malikdir." Bu söhbətlər əsnası məndə get-gedə Həzrət Abbasa qarşı maraq artırdı. Atamdan həzrət Abbasın özü kimin atası olduğunu soruşduqda, onun "O, su tuluğunun atasıdır!" – cavabını dərk edə bilmədik. Özü də hiss etdi ki, dediyi sözün izaha ehtiyacı var. Ondan sonra mənim uşaqlıq dövrümdən yadda qalan ən acı əhvalatı söylədi: "O, at belində tək-tənha böyük şücaətlə xurma ağacları arasında mövqe seçən düşmən dəstələrini yararaq özünü Fərat çayına yetirir, teşnə olsa da, dilinə bir damla su vurmadan tuluğunu doldurub, geri qayıdır. Yolda düşmənin qəfil hücumuna məruz qalaraq gözlərini və qollarını itirir, o vəziyyətdə çalışır ki, tuluğa bir ox belə dəyməsin. Amma təəssüflər olsun ki, özünü xeymələrdə quş balaları kimi susuzluqdan ağızlarını açan uşaqlara yetirə bilmir." Beləcə, onun qazandığı "Əbül-qirbə"[1] ləqəbi mənim də qəlbimə həkk oldu. O zamanlar atamın əza saxlamağının, həzrət Abbasa

[1] "Su tuluğu atası"

göz yaşı tökməyinin səbəbini anlaya bilmirdim. Anam da ona qoşularaq göz yaşı tökərdi. Mənə maraqlı olan mühüm məsələ Həzrət Abbasın fədakarlıq sərgüzəşti idi.

Atam təkcə azan və namazla kifayətlənməz, demək olar, bütün dini göstərişlərə əhəmiyyət verərdi. Onun oxuduğu həzin dualar vücudumuzu oxşayıb ruhumuzu nəvaziş edərdi. Hətta əhalinin bir çoxu gəlib, ondan Quran oxumağı təlim alardı. Balaca bir kitabçası vardı və həmişə onun üzündən başqalarına Quran oxumağı öyrədərdi. Qurandan başqa hədis və dini rəvayətlərə dair neçə kitabı vardı ki, hərdən onları da mütaliə edərdi. Oxuya-oxuya artıq yazmağı da öyrənmişdi. Namazın vaxtı yetişdikdə hökmən evin damına, ya da hündür bir yerə qalxıb, ucadan azan deyərdi. Namazla bərabər dua və minacata da əhəmiyyət verərdi. Ramazan ayının sübh çağlarında evin damından gözəl avazla dərin mənalı şer parçaları ilə birgə "Səhər" duasını oxuyardı. Heç vaxt sübh namazından sonra yatmaz, Quran və dua oxuyar və namaza gələnlər üçün şəri məsələləri açıqlayardı. Kənddə hamı ona bir molla kimi müraciət etsə də, özü il ərzində dini münasibətlərlə əlaqədar şəhərdən kəndə ruhani dəvət edərdi. Deyərdi ki, indiki zamanda ruhanilər imam Zamanın (əc) əsgərləri sayılırlar, əyinlərinə

Peyğəmbər libası geyinirlər, onlara hörmət borcumuzdur, şəri hökmləri mənim kimisi yox, onlar söyləməli, onlar pişnamaz olmalıdırlar. Hərdən mən də atamla birgə camaat namazına gedər, yolda söhbətlərinə qulaq asardım. Məsələn, addımlarını ehtiyatla və xırda-xırda ataraq deyərdi: "Bəndə məscidə doğru addım atarkən Allahın mələkləri onun hər addımına yetmiş savab yazar. Odur ki, addımların sayı nə qədər çox olsa, savabın da sayı artar..."

Qış fəsli sovuşandan sonra birdəfəlik Dehqanabad kəndinə köçməli olduq. Orada mən məktəbə, atam məscidə gedə bilir, əkinçiliyə və kəndxudaya qulluq məsələləri ilə bağlı problemlərimiz nisbətən az olardı. Dehqanabadın geniş torpaq sahələri daha əkinçinin əl-qolunu bağlamırdı. Dövlət tərəfindən kənddə tikilən neçə evdən biri məktəbə həsr edilmişdi. Bu işlərə görə kəndin adı dəyişdirilərək Şahabad qoyulsa da camaat onun girişindəki tabloya əhəmiyyət vermir, hər hansı nailiyyəti öz əllərinin zəhməti hesab edərdi. Odur ki, kənd adamlarının hansı birindən haralı olduğunu soruşsaydılar, dehqanabadlı olduğunu deyərdi. Kəndimizin rayonla 9 km arası vardı və hər gün səhər oradan kəndə qadın və kişi müəllimləri gəlirdi. Yaşım az olsa da, adətən, qadın müəllimənin hicabsız

olmağından xoşum gəlməzdi. Birinci sinif şagirdi idim. Dindar ailədə böyüdüyümdən az-çox halal-haramla tanışlığım vardı. Atam deyirdi ki, naməhrəmlə üzləşərkən başınızı aşağı salın və baxışlarınıza iffət hicabı çəkin. Məktəbdə yaranan başqa bir çətinliyimiz də şagirdlərin birgə təhsili idi. Otaqların sayının azlığına görə, birinci sinifdən beşinci sinifədək bütün oğlan və qız uşaqları bir yerdə oxuyurdular. Məsələn, neçə müddət mən özüm də bacımla birgə bir sinifdə idim. Hərdən o, kişi müəllimimizdən sual soruşanda üzüm qızararaq qeyrətim coşar, evə qayıdanadək bir-birimizlə mübahisəmiz qurtarmazdı. Axır, atam bu barədə son sözü deyərdi: "Bütün bu problemlər şah səltənəti və zalım hakimiyyətin ucbatındandır!" O vaxt biz bu sözləri anlamırdıq. Bilirdim ki, atamın Nəhavənddə Heydəri[1] adlı bir ruhani ilə rabitəsi var və bəzən

[1] Ayətullah Heydəri inqilabdan qabaq şah rejiminə qarşı mübarizə aparan ruhanilərdən biri idi. O, imam Xomeyninin hərəkatına qoşulduğu üçün dəfələrlə həbs olunaraq ölkənin müxtəlif məntəqələrinə sürgün edilmişdi. İnqilab ərəfəsində sürgündən qayıdarkən mən də atamla birgə Nəhavəndə onun istiqbalına getmişdim. Daha sonra o, Nəhavəndin ilk cümə imamı və rayonumuzdan Milli Məclisə seçilən ilk nümayəndə oldu. Təəssüflər olsun ki, 1981-ci il 28 iyunda İslam Cümhuriyyəti partiyasının mərkəzi komitəsində baş verən partlayış nəticəsində bir çoxları ilə birgə o da şəhid oldu.

dilindən çıxan belə sözlər oradan qaynaqlanır. Hər halda çalışırdı ki, bizim yanımızda hakimiyyətə qarşı fikirlərini açıq deməsin. Onun ölkənin vəziyyəti ilə bağlı məlumatı çox idi. Çoxları hər şeydən xəbərsiz olduğu halda atam bilirdi ki, kəndimizin kişi müəllimi "SAVAK" təhlükəsizlik komitəsinin gizli üzvüdür. O, təlim adı altında kəndlərdə ruhanilərlə rabitəsi olan dindar və mübariz şəxsləri müəyyən edib təhlükəsizlik komitəsinə məlumat verməklə məşğuldur.

Bu minvalla neçə ildən sonra beşinci sinifi başa vurdum. Təhsil və elmə böyük marağım olsa da çalışırdım ki, həmişə atama dayaq olum. Altıncı sinifə keçəndən sonra qonşu kəndə getməli idik. Yolu bir qədər uzun idi. Qış vaxtı gələndə canımıza qorxu düşürdü ki, yolda qurd-quşa yem olarıq. O biri iki sinif yoldaşım məsələni bir az da qızışdıraraq deyirdilər: "Dərs və elm nəyimizə gərəkdir! Elə atamızın kənarında əkinçiliklə məşğul olsaq bundan yaxşıdır."

Altıncı sinifi qurtarandan sonra kitabları qatlayıb, kənara qoydum və əlimə oraq-bel götürərək əkinçiliyə başladım. Atam bütün işlərində olduğu kimi taxıl yetişdirməyə də dəqiq yanaşır, mənə əkinçiliyin üsullarını başa salırdı. Hərdən boş vaxtlarımda mal-qaramızı çöllüyə aparıb, çobanlıq

edirdim. Bu məsələyə də biganə yanaşmayan atam deyirdi: "Oğul, mal-qaranın nə yediyinə əhəmiyyət ver! Elə olmasın ki, ağızları əhalinin əkin sahələrinə dəysin və haram loğma din və imanımıza öz mənfi təsirini qoyacaq." Doğrusu, onun bütün dini və əxlaqi nəsihətləri bizim qulağımızın sırğası idi və yeri gəldikdə bircə-bircə onlara əməl edirdik. Sahədə bir yerdə olduqda da özü azan deyəndən sonra arxasında namaz qılar, sonra süfrə açıb, boğçasına qoyduğu pendir-çörək və göyərtini iştahla yeyərdik.

Dehqanabadda güzəranımız nisbətən yaxşı keçirdi və atamın əl-qolunu bağlayan məhdudiyyətlər yox idi. O, ildə iki dəfə rayondan bizə dəri ayaqqabı alırdı. Möhkəm materialı vardı və saatlarla yeri şumlasaq da ona heç bir təsir etmirdi. Burada bizi narahat edən yeganə məsələ yayın sonlarında sahələrə suyun növbə ilə paylanması idi. Əkinçilərin əksəriyyəti bir-birinə hörmət qoyur, öz payına qane olsa da aralarında həddini aşaraq kobudluqla suyun mənbəyini öz səmtinə kəsib, payından artıq mənimsəyənlər də olurdu. Onlardan birinin həmişə atamla mübahisəsi düşərdi. O vaxt atam susub danışmadıqda isə həmin şəxs bir az da həddini aşardı. Bir dəfə quraqlıq nəticəsində əkin sahələri qurumaq üzrə idi. Növbə bizə çatan gün su mənbəyinə baş çəkməyə getdim. Bu dəfə də mənim

həmin həyasız şəxslə sözüm çəp gəldi. Atamla yaşıd olardı və görkəmindən adam vahiməyə düşürdü. Bura nə üçün gəldiyimi yaxşı bilirdi. Kinli baxışları ilə məni bir qədər süzəndən sonra dedi: "Məmmədin balası, get öz işinin dalınca!" Mən də dedim: "Şimr kimi suyu bizim üzümüzə bağlamaqmı istəyirsən?" Qəzəbindən damarları şişdiyi halda başıma belə çığırdı: "Allah haqqı, indiyədək altı nəfərin nəfəsini kəsmişəm, istəyirsən sən də yeddincisi olasan?" Əlimdəki beldən möhkəm yapışıb, çəkinmədən sinəmi irəli verdim və sonra da suyu öz səmtimizə döndərərək dedim: "Bəli, bilirəm! Amma bu dəfə o nahaq tökülən qanlara görə mən səni o dünyaya göndərəcəyəm!" Orada ikimizdən başqası yox idi. İrəli gəlib, arxın o tərəfində mənimlə üzbəüz dayandıqda, beli başımın üzərində hərlədərək ona möhkəm bir zərbə ilişdirdim. Əl-qol atdıqda, o tərəf-bu tərəfindən də neçəsini endirdim. Ona o qədər nifrət edirdim ki, istəyirdim başını iki yerə bölüm. Axır, məndəki cürəti görüb, aradan çıxdı. Kənddə əhalinin çoxu bu davadan xəbər tutandan sonra ürəkləri şad oldu. Amma atam mənə nəsihət etdi ki, həmişə dava-dalaşdan uzaq olum.

On beş yaşa dolmuşdum. Artıq qolumda güc hiss edir və heç kimin qabağından geri çəkilmirdim. Belə ki, kənddə Mirzədavakar ləqəbini qazanmışdım.

Yaşıdlarım və ya məndən böyüklərlə dava-dalaş düşəndə kimsə mənə bata bilməzdi. Bu məsələ atamı narahat etdiyi halda anam isə deyirdi: "Uşaq gərək heç kimdən çəkinməsin və bu öyüd bizə imam Hüseyndən (ə) irs qalıb!" Axır, bu coşqun ruhiyyəm başıma oyun açdı və davaların birində başıma dəyən bel kəlləmi yardı. Beləliklə, birinci dəfə olaraq rayonda xəstəxanada yatmalı oldum. Orada yatdığım müddətdə neçə dəfə yaramı açıb dezinfeksiya elədilər. Bir müddətdən sonra başısarıqlı kəndə qayıtdım.

Rayona ikinci dəfə yolum 1973-cü ildə düşdü. O zaman ana tərəfdən bizə qohumluğu çatan neçə cavanın yas mərasimində iştirak etmək üçün Nəhavəndə getmişdim. Onlar şah rejiminə qarşı mübarizə adı ilə suçlanaraq Tehranda edam edilmişdilər.[1] Onların təşkil etdiyi qrup sonralar "Əbuzər dəstəsi" adını qazandı. Bəziləri də dayımgilin qohumlarından idi. Bu hadisə məhərrəm ayının axırlarına təsadüf etmişdi. Kəndimiz sanki əyninə qara köynək geyinmişdi, hər yerdə qara parça və qara bayraqlar gözə dəyirdi. Axşamlar

[1] Altı nəfərdən ibarət həmin neçə cavan 1974-cü il fevralın 19-u səhər çağı güllələbaran edildi. Onların şəhadət xəbəri ölkədə böyük əks-sədaya səbəb oldu və bizim Nəhavənd rayonunda da mübarizə hissini artırdı.

bütün əhali məscidə toplaşırdı. Hamı atamın dəvəti ilə şəhərdən gələn ruhaninin söhbətlərini dinləyir, rövzə və əza məclisləri keçirilirdi. Məni isə "Əbuzər dəstəsi" maraqlandırır, onların edam olunma səbəbini bilmək istəyirdim. Atam deyirdi: "Onların sözü elə imam Hüseynin (ə) buyruğu olub, "əmr be məruf" və Peyğəmbərin dinini dirçəltmək. Bu dəstənin üzvləri zülm və fəsada göz yummaq istəmirmişlər. Onlar bu zamanda eynilə "Əshabi-kəhf"ə bənzəyirlər və Allah onları ilahi amal üçün ülgü və nümunə seçib. Bu şəxslər Əbuzər kimi haqq səsini ucaltmış, həzrət Abbas kimi öz dövrünün imamının müdafiəsində canlarını fəda etmişlər..."

Hələ bundan qabaq Aşura günü Dehqanabadda qiyamət idi. Əllərində qara bayraq və ələmlər daşıyan dəstələr kəndin küçələrini dolanaraq məscidin qarşısında bir-birinə qovuşurdu. Bütün dəstələr içrə uzaqdan diqqəti cəlb edən və üzərində "Ya həzrət Abbas" yazılan ən böyük yaşıl bayraq dayımın əlində idi. Xırda uşaqdan tutmuş qocalaradək kəndin bütün əhalisi qara geyinmişdi. Çoxları baş-gözünə palçıq yaxaraq matəm zikrləri deyir, zəncir vurur, əllərində kuzələrlə su daşıyan qoca və seyidlər növhə deyib, ağlayırdılar. Dəstələr yavaş-yavaş gəlib, qəbristanlığın kənarında salınan xeymənin ətrafına toplaşırdı. Adət üzrə, Aşura günü

zöhr namazından sonra xeyməni yandırmalı idilər. İstəyirdim ki, bu mərasimdə mən də su daşıyan dəstəyə qoşulum. Amma atam deyirdi: "Bala, səqqa məqamı Bəni-haşimə[1] mənsubdur və biz isə onlara nökərçilik etməliyik!" Uşaqlıq dövrümdən fərqli olaraq cavanlığımda həzrət Abbasın təkcə şücaəti deyil, atamın "Fərat çayı", "Susuzluq", "Su tuluğu", "Qolları qələm olan" və s. rövzələrini oxuyarkən onun (ə) dindarlıq məramına valeh olur, qəlbimdə ona qarşı nikbin baxışla birgə məhəbbət hissi də alovlanırdı. Aşura günü zöhr vaxtı biz də su daşıyan dəstənin ardınca hərəkət edir, Həzrət Əbülfəzlin döyüş meydanında söylədiyi "Vallahi in qətə`tumu yəmini, inni uhami əbədən ən dini!"[2] – kəlamını deyir, zəncir vurur, dəstələrin tərkibində iştirak edirdik. Günorta vaxtı namaz qılındı və namazdan sonra camaat tərəfindən nəzir və s. ehsanlar edildi. Daha sonra xeyməyə od vurularaq mərasimin ən qızğın çağı başladı. Xeymənin şölələri ucaldıqca onu dövrəyə alan arvad-uşaqların nalələri göyə yüksəlir, üzük qaşı kimi ətrafında dolanan dəstələr hönkür-hönkür ağlayır, başlarına torpaq töküb, belə oxuyurdular: "Dada yet ey Peyğəmbər, xeymələrə

[1] Seyidlər.

[2] "Allaha and olsun, qolumu qırsanız belə mən dinimin keşiyindən geri çəkilən deyiləm!"

od vurdular! Dada yet ey Peyğəmbər, xeymələrə od vurdular!..."

İkinci fəsil

İlahi rəng

Dehqanabadın yaxınlığından Tehran səmtinə doğru şose yolu keçirdi. Hər gün heyvanları otararkən yolun kənarından bir müddət o tərəf-bu tərəfə şütüyən maşınları seyr edərdim. O zaman nə televizor, nə də radiomuz vardı və ona görə də paytaxtda baş verənlərdən xəbərimiz olmazdı. Mərkəz barədə məlumatımız yalnız məktəbdə kitablarda oxuduğumuz qədər idi. Heç ağlıma da gəlməzdi ki, on beş yaşında ikən bir gün mənim də ucqar kəndimizdən paytaxta yolum düşsün. Belə ki, böyük qardaşım Məhəmməd işlə əlaqədar atamı razı salaraq məni də özü ilə Tehrana apardı. Orada ilk

əmək fəaliyyətim tikinti işlərində fəhləliklə başladı. İşlədiyim yerdə adi araba da yox idi və kərpic, sement, əhəng, qum və sairi xərəklə daşıyırdıq. Demək olar, səhərdən axşamadək əlimizdə xərək birimiz dalda, o birimiz də qabaqda işimiz yük daşımaq idi. Belə ağır işdə işlədikcə fiziki cəhətdən də bədənim günü-gündən qüvvətlənirdi. Bununla belə, bəzən ayaq və qollarımızda güc qalmır, başım hərlənərək səndələdiyim zaman xərək əlimizdən düşür, yükümüz alt-üst olurdu. Amma özümü o yerə qoymamaq və üzrxahlıq etməmək üçün tələsik materialı xərəyə yığaraq işimə davam edirdim. İki aydan sonra əllərim o qədər qabar bağlamışdı ki, hər dəfə xərəyə əl vuranda neçəsi deşilərək suyu çıxırdı. Əllərim yandıqda atamın sözləri yadıma düşərdi: "Bala, halal çörək əlin qabarı ilə qazanılır və ləzzəti var!"

Bir müddətdən sonra qardaşım məni öz yanında rəngsazlıq işinə cəlb etdi. Onun mənzil və otaqların rəngsazlığından başı çıxırdı və bunu öz ustası Əkbərdən öyrənmişdi. O da halal-haram tanıyan, mehriban xasiyyətli bir insan idi. Tehrana yolum düşəndən sonra sanki başqa dünyaya ayaq qoymuşdum. Kəndin özünə xas ehtiyac və məhdudiyyətlərininin əksinə olaraq buranın mühiti tam azad idi və açıq-saçıqlıq hökm sürürdü. Belə bir

fəzada insan özünü yalnız din və təqva ilə qoruya bilərdi. Günümüz burada daim geniş və hündür binalarda keçdikcə yavaş-yavaş kəndin daxmalarında keçirdiyim günləri yaddaşımdan silirdim. Burada hər şey insanın öz ixtiyarında idi. Odur ki, əksər ev və mənzillərdə qız və qadınlar hicaba riayət etmir, hərdən bir mənzildə səslənən musiqi sədaları bütün binanı başına götürürdü. Belə hədsiz ziddiyyətli mühitdə əl-qolumuzun və göz-qulağımızın halal-harama riayətində əlimizdən tutan yalnız atamın verdiyi gözəl dini tərbiyə idi. İşlədiyimiz evlərin sahibləri varlı adamlar idi. O dövrdə ailələrin çoxlarının aldığı mənzilin daxilini rəngləməyə imkanları yox idi və əllinci illərdə içərisində rəngsazlıq işləri aparılan əksər binalar belə varlı şəxslərə və dövlət idarələrinə mənsub idi. Qürbətdə işləmək özü çətin olsa da daha çətini mühitə hakim olan mədəni-ictimai problemlər idi. İş zamanı bir çox ailələrdə din və şəriətə riayət olunmur, qız və qadınlar açıq-saçıq gəzib dolanırdı. O zaman biz də əzab çəkərək işlərimizi başıaşağı görməli olurduq. Əlbəttə, həmişə belə olmur, bəzən ev sahibi kilidi bizə verərək çıxıb gedirdi. İşin sonunadək orada qalardıq və qalmağa şərait olmadıqda da başqa yerdə otaq icarə edər, biş-düş, paltar yumaq və s. işlərimizi özümüz görərdik. Zöhr

və məğrib zamanı atamın tövsiyəsi üzrə qardaşım Məhəmməd də azan deyərdi. Onun, eləcə də ustasının belə saf xislətinə görə əksər ev sahibləri evi bütün avadanlığı ilə birgə iş qurtaranadək onlara tapşırmaqda əsla tərəddüd etməzdilər. Belə hallarda istər-istəməz sınaq meydanına düşürdük. Belə ki, ətiqə əşyalardan tutmuş nağd puladək hər şey göz qabağında olurdu və heç birinə gözümüzün ucu ilə də baxmazdıq. Yadımda ikən, atam bizə heyvanlarımızın başqasının sahəsinə bir ağız belə uzatmağa icazə vermədiyini xatırlayarkən burada da belə hallarda öz öhdəmizdən yaxşı gələ bilirdik. Hələ iş zamanı fəhlə paltarı almaq üçün neçə dəfə yolumuzun gömrük idarəsinə düşdüyü də yadımdadır. Camaat arasında ora Firəng (Avropa) məhəlləsi[1] adlanırdı. Orada adamın şeytanın toruna düşərək ayağının büdrəməsi təbii idi. Hər dəfə Allaha pənah apararaq işlənmiş bir paltarı alandan sonra, fəsad aləmindən arxasınca it düşənlər kimi qaçırdım.

İş zamanı istər-istəməz adamın başına müxtəlif hadisələr gəlirdi. Bir dəfə taxtabəndin taxtalarından biri sürüşərək başıma düşdü və ikinci dəfə olaraq başım yarıldı. Üst-başım bütöv rəng və qan içində

[1] Camaat arasında bu haqda ən çox dilə düşən məsəl bu idi: "Hər yer firəngdi, de: rəngbərəngdi!

idi. Fəhlələr məni klinikaya apararkən bir-birimizlə zarafatlaşır, gülüşərək deyirdik: "Hər yer firəngdi, de: rəngbərəngdi!"

Bir ildən sonra ciblərimiz dolduqdan sonra qardaşımla kəndə baş çəkməyi qərara aldıq. O vaxt qoşulduğumuz yeni usta bizə özümüzlə sovqat aparmağı təklif etdi. Dedi ki, mənim bu sovqatımı özünüzlə kəndə aparın. O, hakim rejim və şahın tərəfdarı olduğundan bizə böyük ölçüdə onun bir tablosunu hədiyyə verdi. Qardaşım şəkilə baxaraq şahın kənarında onun açıq-saçıq yoldaşını gördü. Əsəbiləşib şəkili cırıq-cırıq elədi. O illərdə belə bir işi yalnız qurd ürəyi yemiş şəxs edə bilərdi. Hər halda usta bir söz demədi və biz də ondan ayrılıb, kəndə qayıtdıq.

Kəndə qayıtdıqda hamı bizə maraqla baxır, diqqəti cəlb edirdik. Tehranda olarkən üst-başımıza fikir verirdik, güzgü qabağında durub saçımızı səliqə ilə darayırdıq. Atam gözucu məni süzərək kinayə ilə qardaşıma "ondan muğayat ol" – dedi. Üzünü mənə tutub soruşdu: "Tehranda nə xəbər?" Dedim: "Nə deyim, vallah. Hər yer firəngdi, de: rəngbərəngdi!" Qulağına rəng sözü dəyən kimi Qurandan "Allah rəngi! Və hansı rəng ondan daha

gözəl ola bilər?!"[1] – ayəsini misal çəkərək belə izah etdi: "İnsan hər bir halda Allahı nəzərə alsa, heç bir rəngin gözəlliyi onu çaşdıra bilməz!" Atamın savadı olmasa da həmişə dünya görmüş təcrübəli bir şəxs kimi insana yerindəcə gözəl nəsihətlər verərdi. Odur ki, şəhərdəki şəraiti dərk edərək dolayı yolla Qurandan misal çəkib, növbəti günlərimiz üçün səfər torbamıza mənəvi azuqə qoyurdu. Məhəmməd məndən iki yaş böyük olduğu üçün əsgərliyə getməli və mən də Tehrana tək qayıtmalı idim. Buna baxmayaraq atamın dəyərli tövsiyələri hər bir halda mənə dayaq idi.

Artıq keçən bir ildə o qədər təcrübə toplamışdım ki, əlimin altında bir neçə fəhlə işləyirdi. Adət üzrə günortalar Məhəmmədin azan deməyini xatırlayaraq işdən əl çəkir, özümü məscidə çatdırırdım. Kənarımda olmasa da yerini ustası Əkbər doldururdu. Yayın qızmar çağında oruc tuturduq. Bəzən susuzluqdan əldən düşdükdə, atamın sözləri qulağımda cingildəyərək özümə ürək-dirək verir, nə orucumu pozur, nə də işimi dayandırırdım.

Tehranda iş fəaliyyət və həyat təcrübəmi artırarkən bir də ayıldım ki, əsgərliyə çağırış vəsiqəsi

[1] "Bərəqə" surəsi, ayə 138.

əlimdədir. Beləliklə, 1975-ci ilin sentyabr ayında əsgərliyə ezam olundum. Camaatın gözündə əsgərlik xidməti bir növ icbari zəhmət sayılırdı və bir yolla onu başa vurmaq lazım idi. Xidmətdən qayıdanların əksəri oradakı vəziyyətin ağırlığından, xüsusən də əsgərlərə qarşı təhqir və hörmətsizlikdən danışır, beləcə, cavanlarda qürur hissi məhv olurdu. Bəziləri də deyirdi ki, adam əsgərlikdə bərkə-boşa düşərək möhkəmlənir. Qısası, ilk təlim kursunu keçmək üçün bizi Azərbaycan vilayətinin qərbində yerləşən "Celdian" hərbi hissəsinə göndərdilər. Orada yerləşəndən sonra birinci toplanışda yeni gələn əsgərlərin hamısını tövlələrə saldılar. Deyəsən, bu iş bəri başdan hamının gözünü qorxutmaq məqsədilə edilirdi. Çoxları "Heyvan-zad deyilik ki, bizi bura salıblar!" – deyərək dodaqaltı deyinsələr də cürət edib, irəli çıxan olmadı. Mən özümü qabaqcadan hər hansı çətinliyə hazırlamışdım. Bəzən hədsiz hörmətsizlik və təhqirlərdən cana doysam da xidmətdən yayınmaq fikrim yox idi. Dörd aylıq kursda bir dəfə də olsa məzuniyyət verilmədi və işimiz yalnız təlim, keşik və yuxusuzluqdan başqa bir şey olmadı. Dözə bilməyənlər fürsət tapan kimi aradan çıxırdılar. Amma mənə bütün hallarda rəqabət hissi ümid bəxş edirdi. Cəldlik, çeviklik və qolumdakı gücüm

sayəsində çalışırdım ki, həmişə birinci olum. Əsgərlər arasında məndən başqa bir nəfər də namaz qılır, gündəlik vəzifəsini yerinə yetirir, hətta belə şəraitdə orucunu belə tərk etmirdi. Təəssüflər olsun ki, mən isə təlimlərin ağırlığından oruc tuta bilmədim.

Ağır təlimlər keçdikdən sonra bizi yenidən qruplara bölüb, ayrı-ayrı məntəqələrə yolladılar və mən Abadan jandarmeriyası tərkibindəki polklardan birinə düşdüm. Ərvənd çayının sərhədyanı bölgəsi ilə Fars körfəzinin başlanğıcını əhatə edən Abadan adasına nəzarət bizim polka tapşırılmışdı. İşimiz çayın o tayında yerləşən İraq sahillərinə nəzarət etməkdən ibarət idi. Çayın o tayından Xürrəmşəhrin gömrüyündən yayınıb, ölkəyə gizli qaçaqmal daşıyan qayıqların qarşısını almalı idik. Burada təlim kursundakı kimi çətinliyimiz olmasa da iki ölkə arasındakı rabitə və sərhəd nahiyəsindəki həssaslıq rahat durmağa imkan vermirdi. Əsgərlər qaçaqmal daşıyan böyük qayıqlara "Küveyt bazarı" deyirdilər. Gecələr onların daxilində gizli şəkildə o taydan istənilən mal keçirilirdi. İki tərəfin sahilyanı ərazisində yerləşən ərəbdilli əhali arasındakı qohumluq və get-gəl rabitələri işimizi çətinləşdirirdi. Vaxtaşırı keçirilən toylar və s. günlərdə o tay-bu taya doğru qayıq karvanları hərəkətə düşür, camaat

şənlik edərək əylənirdilər. Bəzən təhlükəsizliyi təmin etməklə bağlı tam hazırlıq əmri verilirdi. Bir vaxtlarda hər şeyə ciddi nəzarət artır, sərhəd boyunca fövqəladə vəziyyət hakim olurdu. Bir dəfə göygöz və hündürboylu bir şəxsin o taydan bu taya gizli nüfuzu barədə məlumat almışdıq. Onun tutulmasına dair hətta mükafat təyin edilmişdi. Bu minvalla üç sutka ciddi keşik və axtarışa cəlb edildik və heç yerdə belə bir fərd qeydə alınmadı. Doğrusu, bu qədər hazırlıq və axtarışlardan sonra anladıq ki, şah rejimi üçün bir müxalif və mübarizin ələ keçməyi nə dərəcədə böyük əhəmiyyət kəsb edirmiş. Bəzən qaçaqçılar silahlı şəkildə Mino adasına daxil olurdular. Qayıqları sahilə yaxınlaşan kimi qabaqcadan hazır dayanmış maşınlar xurma bağları arasından çıxaraq onlara yaxınlaşır və hava işıqlanana qədər yükləri maşınlara vurub, aradan çıxırdılar. Çox vaxt həmin nahiyədə bizim nəzarət etdiyimiz körpüdən keçməli olurdular. Bir dəfə onların karvanı mənim növbəmə təsadüf etdi. İlk qarşıdurmada təhdid olunsam da əsla qorxub, geri çəkilmədim. Birinci maşın xəbərdarlığıma əhəmiyyət vermədən körpüdən keçdikdən sonra daha ciddi şəkildə "dayan" əmrini verib, dizlərimi yerə qoydum, avtomatla təkərlərini nişan alandan sonra atəş açdım. Birinci maşın dayandıqda, qaçaqçılar

özlərini itirdilər. Bundan sonra o biri əsgərlər də cəsarətlənib, irəli çıxdılar və ardınca komandirimiz də gəlib çatdı. Bütün qaçaqmal müsadirə edildi və mənə bu münasibətlə dörd min tümən mükafat yazdılar. Mükafat komandirimizə veriləndən sonra, məni evinə çağırıb qonaqlıq təşkil etdi, bir qarın yeməklə başımı aldadaraq pulu özünə götürdü. O zaman dörd min tümən həqiqətən böyük məbləğ sayılırdı. Hər halda çarəsiz qalıb, haqqımdan keçdim və daha bir söz demədim. Beləliklə, polkda ad-san qazandım və hamı artıq məni tanıyırdı. Amma bir dəfə keşik növbəsində özümü saxlaya bilməyib, rütbəsi məndən yuxarı olan biri ilə çəkişməli oldum. Vaxtında keşik növbəsini əvəz etməyib təxirə yol verdiyi üçün birbaşa yanına getdim. Mənə etiraz edərək ağzından çıxanı dedikdə, avtomatın süngüsü ilə qolunu yaraladım. Çəkişmədə qolundan qan fışqıraraq üst-başımızı və döşəmənin qıpqırmızı qana boyadım. Hamı hay-küyə yuxudan ayılıb, başımıza yığışdı. Ertəsi gün səhər məni elə o halda komandirin otağına apardılar. Həmyerlimiz olan komandirimiz zabit Turabi[1] ciddi və nizam-intizama əhəmiyyət verən bir şəxs idi. Məni tanısa da qanlı

[1] Komandir Turabi 1359-cu ildə (1980) mayor rütbəsinə yüksələrək müharibə illərində böyük rəşadət göstərəndən sonra şəhid oldu.

üst-başıma nəzər salaraq sərt tonla dedi: "Özünü kim hesab edirsən?!" Mən də qürurla sinəmi qabağa verərək dedim: "Şeyx Əliməmmədin oğlu!" Atamın adı dilimdən çıxandan sonra özüm də peşman oldum. Onun nəsihətləri yadıma düşdü. Nurlu siması gözümün önünə gələrək zehnimdən "Oğul, başına oyun açma və sakitcə işinlə məşğul ol." – kimi fikirlər keçdi. Bu zaman zabit dedi: "Şeyx Əliməmməd oğlu, səni elə yerə göndərərəm ki, atanın adını belə unudarsan!" Elə fikirləşirdi ki, özümdən çıxıb, reaksiya göstərəcəyəm. Amma susaraq başımı aşağı saldım. Beləliklə, il ərzindəki bütün məzuniyyətlərimi ləğv olundu və qovluğuma bir ay da əlavə xidmət müddəti yazdı. Daha sonra Abadanla Mahşəhr arasında yerləşən "Xərdərəxt" hərbi hissəsinə sürgün edildim.

Demək olar, xidmətdə olanların əksəriyyəti İran-İraq arasındakı sərhəd bölgüsü ixtilafından xəbərsiz idi. Sadəcə, hərdən bəziləri milli hissləri coşdurmaq üçün dillərinə düşən bu şüarı zümzümə edərdilər: "Həsən əl-Bəkr[1] ağılsızdır, Şəttül-ərəb İranındır!"[2]

---

[1] İraqın sabiq prezidenti.

[2] Beynəlxalq sazişlərə əsasən, "Şəttül-ərəb" (Ərvənd çayı sahilləri) İranla İraq arasında su sərhədi sayılırdı. O vaxt İraq və Səddam Hüseynin ölkəmizə təcavüzünə səbəb də Şəttül-ərəbin onlara mənsub olması iddiası idi.

Növbəti hərbi hissəyə sürgünümdən bir il keçdi. Bu müddətdə bir dəfə də olsun valideynlərimlə görüşə bilmədim. Sadəcə, hərdən məktub yazıb, sağ-salamat olduğumu xəbər verirdim. Nəhayət, bir ildən sonra ilk məzuniyyətimi alıb kəndə yollandım. Eşitmişdim ki, böyük qardaşım da təzəlikdə əsgərliyini başa vurub. Odur ki, mən kəndə çatanda anamın qohum-əqrəbası onu görmək üçün bizə gəlmişdilər. Görüş zamanı təsadüfən gözüm valideynləri ilə bizə qonaq gələn bir qıza sataşdı. Adətən, naməhrəmlə üzləşəndə başımı aşağı salardım. Amma bu dəfə sanki ixtiyarımı əldən verdim və onun iti baxışları məni özünə cəlb etdi. Hətta bir anlıq unutdum ki, camaatın arasındayam. Hələ o vaxt atam anama demişdi: "Artıq Mirzəməhəmmədin üzünə tük gəlib və Tehran mühitində pozula bilər. Yaxşı olar ki, qohumlardan birinin qızını ona alaq." Anam da əsil-nəsəbli qohumlarımızdan birinin hicablı qızını bəyənərək mənim üçün gözaltı eləmişdi. Amma o isə mənim ürəyimə yatmırdı. Bilmədim, nədənsə bir anın içində bu qıza elə vuruldum ki, sanki neçə illərdir onu axtarırdım. Sən demə, onun özü də həmin anda mənə qarşı belə bir hiss keçiribmiş.

Qonaqlar gedəndən sonra atamın üzünü turşutduğunu hiss elədim. Sanki ilk baxışda

ürəyimdən nələr keçdiyini duymuşdu. Utandığımdan hələ birinci görüşdə aşiq olduğumu deyə bilməzdim. Amma geri qayıtdığım gün mənə dedi: "Oğul, o şəhərli, biz isə kəndliyik. İnanmıram şəhəri atıb, sənin lə kənddə yaşamağa razı olsun." Yenə də həya edərək ürəyimdən keçən hissləri açıb-ağartmağa üzüm gəlmədi.

Xərdəxt hərbi hissəsində xidmət dövründən bir müddət keçirdi. Bu dəfə nədənsə daha tez evə görə darıxmağa başladım. Ailəmizdən əlavə o qızı görmək üçün ürəyim lap çox darıxırdı. Belə hallarda məncə məktublaşma daha yaxşı üsul idi. Xoşbəxtlikdən, o da öz ailəsində təhsil alan yeganə savadlı şəxs idi. Qohumluq rabitəmizdən istifadə edərək məktubu valideynin adına göndərir, sonda bir neçə cümlə yazaraq qızın hal-əhvalını soruşurdum. Bilirdim ki, o da tərbiyəli, nəcib və dindar bir ailədə böyüdüyündən mənə olan hissini açıb deyə bilməzdi. Bunu onun göndərdiyi cavab məktublarından anlayırdım. Nəhayət, əsgərlik müddətimin sonuncu ayı gəlib yetişdi. Qayda üzrə son məzuniyyətə icazə verməli idilər, amma axırıncı günədək orada saxladılar.

Kəndə qayıdandan sonra neçə günü yalnız evdə ailəmin kənarında keçirdim. Bir gün özümdə cürət toplayıb, atama dedim: "İstəyirəm özüm tək

Nəhavəndə elçiliyə gedim!" Atamgil deyirdi ki, qızın ailəsi onu kəndə ərə verən deyillər. Daha utancaqlığı kənara qoyaraq dedim: "Əgər siz icazə versəniz, özüm onları razı salaram!" Onlar mənim israrımı gördükdən sonra bir söz demədilər və özüm tək Nəhavəndə yollandım. Xülasə, qapılarının zəngini vurub, içəri girdim. Onlarla son görüşümdən düz bir il keçirdi. Gördüm məndən başqa da qonaqları var. Mən də tanımadığım həmin qonaqların yanında əyləşdim. Təsadüfən onlar da öz oğlu üçün elçiliyə gəlmişdilər. İstər-istəməz dil-dodağım quruyaraq mat-məəttəl qaldım. Nə yerimdə otura, nə də qalxıb gedə bilirdim. Onlar məni tanımırdılar. Odur ki, asudə şəkildə fikirlərini bildirməyə başladılar. Mən isə başımı aşağı salıb, xəcalətdən tər tökürdüm. Hərdən də ürəyim az qalırdı dayansın. Qız o biri otaqda idi və bizim yanımıza gəlmirdi. Ər-arvad öz oğlunun işindən, əxlaq, tərbiyə və dindarlığından danışandan sonra qızın valideynlərinin fikrini bilmək istədilər. Birdən atası əlini mənə tərəf uzadaraq dedi: "Bu Mirzəməhəmməd də qızımın elçisidir və bura təsadüfən gəlməyib!" Sevindiyimdən qanad çalıb, uçmaq istədim. Əsla inanmazdım ki, Xudamurad[1] bu bir kəlmə ilə həm

[1] Qayınatam Xudamurad özü də mömin və təqvalı bir insan idi. Sonralar onun özünə və oğluna şəhədət məqamı qismət oldu.

onların cavabını versin, həm də məni kürəkənliyə qəbul eləsin. Qonaqlar onun cavabını məntiqli və ədəblə qarşılayaraq dedilər: "Yəqin Allahın qisməti belə imiş. İnşallah mübarək olsun!"

Kəndə qayıdarkən sevincimdən uçurdum. Atamla aramızda həya pərdəsi olduğuna görə anamla fikrimi bölüşməkdə rahat idim. Təndirə çörək yaparkən yavaşca ona yaxınlaşıb, dedim: "Razıdırlar! Atama de ki, elçiliyə gedə bilərik." O gündən bütün işlər öz-özünə düzəlməyə başladı. Elçilikdən nikah və toyadək hər şey çox sadə şəkildə başa çatdı. Hələ də inanmırdım ki, şəhərdə böyüyən savadlı bir qız oranı atıb, ibtidai şəraiti olan kəndə köçsün. Cehizimizin ümumi dəyəri on dörd min tümən oldu. Atam bizə köhnə bir xalça, anam da üç şöləli kapsulla işləyən köhnə bir qaz peçi verdi. Özüm də şəhərdən bir paltar şkafı aldım. Onlardan əlavə bir qədər qab-qaşığımız də vardı və elektriklə işləyən heç bir avadanlığımız yox idi. Bütün avadanlığımız 5 kv metrlik balaca otaqda yerləşdi və bu darısqal ev-eşikdə eşq və məhəbbətlə dolu həyatımız başladı.[1]

[1] Yoldaşımın müharibə illərində uşaqlarımızın tərbiyəsində çəkdiyi hədsiz çətinlik və zəhməti vəsfedilməzdir. O, təkbaşına altı övladımıza həm ata idi, həm də ana.

O vaxt məişətin çətinliyi və ailənin dolanışığı üçün on dörd yaşlı cavan yoldaşımı evdə qoyub, Abadana işləməyə getməli oldum. O zaman Abadan bizim Nəhavəndlə müqayisədə daha təmtəraqlı və gur şəhər idi. Oranın əhalisinin dolanışığı da yaxşı idi. Xürrəmşəhrin limana yaxınlığı, o cümlədən, Ərvənd çayının sahili boyu iki ölkə arasındakı idxal və ixracın təşkili nəticəsində orada işsiz cavan tapmaq olmurdu. Bu şəhərdə eyş-işrətə də tam şərait vardı. Gecələr Karun çayının sahili camaatla dolu olardı. Biz iki qardaş yenə də başımızı aşağı salıb, evlərdə rəngsazlıq işləri ilə məşğul olurduq. Qazancımız pis deyildi. Səhərdən axşamadək işləyirdik. Günorta vaxtı yaxınlıqda məscid olsaydı ora gedər, olmadıqda isə elə işlədiyimiz yerdə namazımızı qılardıq. Yoldaşımın şəkili həmişə üstümdə idi. Cümə və tətil günlərində Abadandan Xürrəmşəhrə yolumuz düşəndə, heç vaxt içərisində qadın olan taksiyə minməzdim. Həqiqətən Xürrəmşəhrin hər yerindən şadlıq və təmtəraq duyulurdu; özü əməlli-başlı bir İran idi. Onun geniş limanını, yük vurmaq üçün kilometrlərlə sıraya düzülən konteyner və ağır yük maşınlarını görəndə, adam vəcdə gəlirdi. Heç kim bilmirdi ki, bura iki ildən sonra güclü zəlzələnin törətdiyi qədər ağır hadisələrin şahidi olacaq. Hərdən əsgərlik dövrüm də yadıma düşər, acı və

şirin günlərini xatırlayardım. Bəzən də sahil kənarında yerləşən gözəl mənzərəli villalarında işləyərdik. Gecələr evin damından Ərvəndin coşan sularını seyr edər, çıraqları ulduz tək sayrışaraq o tərəf-bu tərəfə, hətta Fars körfəzinin başlanğıcınadək hərəkət edən qayıq və gəmilərə tamaşa edərdim.[1]

Bir gün Məhəmmədlə namaz qılmaq üçün Xürrəmşəhrin cümə məscidinə getmişdik. Namazdan sonra bir ruhani minbərə qalxıb çıxış elədi. Hələ sözü başa çatmamış, məscidin həyətindən hay-küy səsləri eşidildi. Gördük ki, "Savak" məmurları əldə silah məscidə daxil oldular, həmin ruhanini minbərdən aşağı çəkib, özləri ilə apardılar. Bu hadisə 1977-ci ilin payızında baş verdi. Atam həmişə deyərdi ki, indiki zamanda ruhanilər imam Zamanın (əc) əsgərləri sayılır. Elə o gündən ürəyimdə şahın məmurlarına qarşı güclü nifrət hissi baş qaldırdı. Bu arada çoxları rejim əleyhinə şüar söyləməyə başlayarkən biz də onlara qoşulduq. Vəziyyət gərginləşdikdə və məmurların sayı artdıqda, tələsik səhnəni tərk etməli olduq.

Abadan və Xürrəmşəhrdə altı ay fəaliyyətdən sonra kəndə qayıtdıq. Gələndə özümə

[1] Amma 1365-ci ildə (1986) isə bizim batalyon çayın o tərəfində yerləşən düşmən xəttini qırmaq üçün elə həmin nöqtədən – bu dəfə isə – fişənglərin işığı altında hərəkət edirdi.

Xürrəmşəhrdən bir eynək, bir də batareya və elektriklə işləyən maqnitofon almışdım. İşə düşəndə xırda rəngli lampaları parlayaraq gözü qamaşdırırdı. O vaxtadək kəndimizdə heç kəs belə bir şey görməmişdi. Kəndə yaxınlaşanda radionu işə saldım. Təsadüfən bir müğənni qadın oxuyurdu. Abadan və Xürrəmşəhrdə belə mahnı və nəğmələrə qulağım adət etmişdi. Gördüm ki, atam tərs-tərs baxır, mehriban simasından əsər-əlamət qalmayıb. Qəzəb və hiddətdən az qalırdı gözləri hədəqəsindən çıxsın. Salam verərkən maqnitofonu əlimdən dartıb, var-gücü ilə bir tərəfə elə tulladı ki, o dəqiqə sınaraq işdən düşdü. Əsəbi halda dedi: "Mirzə, deyəsən, şəhərə gedəndən sonra özünü itirmisən! Camaat ustad Kafini dinləyir, sən isə əcnəbi qadının haram səsinə qulaq asırsan!" Başımı aşağı salaraq xəcalətdən tər tökdüm. Gözucu anamla yoldaşıma nəzər salıb, birbaşa öz otağıma daxil oldum. Abadanda olarkən qulağıma ustad Kafinin də adı dəymişdi. O zaman onun səsi inqilabın sədası sayılırdı və söhbətləri kasetlə hər tərəfə yayılırdı. Təsadüfən neçə aydan sonra atam özü Ayətullah Heydərinin vasitəsilə ustad Kafinin söhbətləri yazılan kasetlərini evə gətirdi. Bu dəfə əlimizdə kaset olsa da maqnitofonumuz yox idi. Bilmədim, necə oldusa, bu xəbər kənddə təhsil adı ilə gizli

fəaliyyət göstərən "Savak" məmurlarının qulağına da çatdı. Məmurlar axtarışa gəlincə dərhal atamla kasetləri aparıb, kəndin kənarında bir çalada sellofanın içində torpağa basdırdıq. Orada atama dedim: "Əgər maqnitofon xarab olmasaydı, indi kasetlərə qulaq asa bilərdik." O da qaşlarını çataraq dedi: "Haram səslənən cihazla rövzəyə qulaq asmaq olmaz!" Bəzən onu razı salmaq çox çətin olurdu. Məsələn, şəhərdə evində televizoru olan qohum və tanışların evinə getməzdi, getdikdə də ona hörmət olaraq ev sahibi televizoru söndürər, ya da özü arxası televizora tərəf əyləşərdi. Halal-harama qarşı belə ciddi və qəti mövqeyi olan şəxsin şah dövründə öz oğlunun maqnitofon alması ona lap dözülməz idi. Həyatındakı belə məhdudiyyətlərə baxmayaraq bütün aləmdən xəbərdar idi. Misal üçün, imam Xomeyninin şah tərəfindən Nəcəfə sürgünündən böyük təəssüf və ürək ağrısı ilə danışar, 1963-cü ilin iyun ayındakı hadisədən sonra müctəhid və ruhanilərə qarşı amansızlıqlardan söz açar, dini yolda mübarizəyə qalxan inqilabçı "Əbuzər" dəstəsini yüksək qiymətləndirər, şah rejiminin devrilməsi üçün qurban nəzir etdiyini və s. fikirlərini açıq bildirərdi.

İnqilabın qələbəsinə neçə ay qalırdı. Artıq Ayətullah Xomeyninin adı hər yerdə açıq çəkilirdi.

Bununla belə, dövlət məmurları hətta kəndlərədək hadisələri izləyirdilər. Bir gün balaca qardaşım Məhəmmədkərim ruhaniləri təhqir edən müəllimlərdən birinə ciddi etiraz eləmişdi. Beşinci sinif şagirdi olmasına baxmayaraq atam kimi qeyrətli idi. Bu hadisədən sonra atamı məktəbə çağırdılar, Kərimin qovluğunu qoltuğuna verərək dedilər: "Bu uşaq məktəbdən ixrac olunur və siz özünüz də kəndi tərk etməlisiz!" Hakimiyyətin sonuna bir şey qalmadığını görən atam o vaxt başqa reaksiya göstərmir. Amma Kərim məğrur bir yeniyetmə olduğundan lap özündən çıxır. Əlinə bir külüng alıb, məktəbin arxa tərəfdən palçıq divarını sökərək deyir: "Bura bizim əcdadımızın torpağıdır! Burada bizim haqqımız var! Heç kəs bizi buradan çıxara bilməz..." Kəndimizdə bizimlə problemi olan təkcə şahın adamları deyildi. O zaman su payı üstündə dalaşdığım bığıburmadan başqa qoçuluq edənlərin də sayı az deyildi. Həmin davadan neçə il keçməsinə və məndən on beş il böyük olmasına baxmayaraq hələ də başına ilişdirdiyim belin əvəzini çıxmaq üçün fürsət axtarırdı. Özü də dövlətə məlumat verənlərin başçısı idi. Hərdən İmamın sürgün məsələsinə tənə vuraraq deyirdi: "Təsbeh və çarıqla hökuməti idarə etməkmi olar?!"

1979-cu ilin qışı idi, hər yerdə əkinçilik işləri tam başa çatmışdı və bizim kimi cavanlar küçənin tinində dayanıb, özünü günə verirdilər. Kənddə bizim qalmağımızı istəməyənlər əvvəl gəlib siyasi məsələlərdən söz açar, mübahisə qızışdıqda isə dava-dalaş salardılar. Hər söhbətdə hökmən o bığıburma ilə çəkişməli idim. Axır, atam araya qarışandan sonra onun hörmətinə görə istər-istəməz səsinin tonunu dəyişərək susmalı olurdu. Bəzən də atama şikayətlənərək deyirdi ki, bu uşaq əsla sizə oxşamır. Atam da onun sözlərinin həmin köhnə kindən qaynaqlandığını hiss edərək ədəblə cavabını verir və söz-söhbətə son qoyurdu.

İnqilab hissi coşduqca yavaş-yavaş Nəhavəndin küçə və prospektlərində də mitinq və aksiyalar özünü büruzə verməyə başlamışdı. Biz də iki qardaş hər gün motosikletə minib, özümüzü cavanların toplaşdığı məscidə çatdırırdıq. Adətən, ora "Əbuzər" dəstəsinin yolunu davam etdirmək istəyən mübariz cavanlar yığışardı. Hamı bir nəfər kimi məscidin ruhanisi Xəlil Bəhirayiyə[1] tabe idi və onun bir əmri ilə küçələrə axışaraq şüar verərdi. O zaman hələ də Ayətullah Heydəri sürgündə idi. Buna baxmayaraq bir çox böyük şəxslər, o cümlədən, Ayətullah Fakir

[1] O, Nəhavəndin mübariz ruhanilərindən biri idi və sonralar bir oğlu da müharibədə şəhid oldu.

Xorasani, Ayətullah Mömin, Ayətullah Gerami Nəhavəndə gələr, şəhərimizin inqilabçı şəxsiyyətlərindən olan Səbbağianın evində xalq hərəkatının təşkili ilə bağlı müzakirələr edərdilər. Biz iki qardaş da Nəhavəndə çatan kimi birinci əmimgilə baş çəkərdik. Onların özü də ailəlikcə inqilabçı idilər. Biz aksiyalara gedəndə, əmioğlu Əhməd də bizə qoşulardı. Ən çox getdiyimiz yer "Mücəssəmə" meydanı idi. Orada dindar xalqın göz dağına çevrilən şahın heykəli yerləşirdi. Aksiyalarda coşan cavanların əksəriyyəti heykəli aşırmaq istəyirdilər. Ona görə də daim ətrafında əli silahlı polislər keşik çəkirdilər. O vaxt biz də motosikletlərlə onların yanından sürətlə ötərək "Ölüm olsun şaha!" – deyib, sürətlə aradan çıxardıq. Polislərin bizə əli çatmasa da elə hərəkətlərin çoxu təhlükəsiz deyildi. Hətta bir dəfə jandarmeriyanın qabağından keçərkən yumruğumu onlara göstərərək ucadan belə dedim: "Şəhidlərin qanına and olsun, sizin şahınızı özüm öldürəcəyəm!" Məhəmməd motosikletə elə qaz verdi ki, polis çaxmağı çəkib, atəş açınca qarşıdakı küçəyə dönərək aradan çıxdıq. Yavaş-yavaş bu etiraz üsulu cavanlar arasında təsirli taktikaya çevrildi və əməlli-başlı bir qrup yarandı. Beləcə, motosikletlər tərkində əyləşərək küçə və prospektləri dolanır, lazım gələn yerlərdə birgə şüar

verirdik. Yavaş-yavaş camaatın da qorxu-hürküsü çəkilməyə başladı və hər yerdə "Allahu-əkbər" və "Ölüm olsun şaha" sədaları eşidilirdi. Axır, bu gərgin günlərin birində neçə cavan şahın heykəlini uçura bildi. Məncə, o vaxtadək ölkə üzrə Nəhavənd birinci şəhər idi ki, zülmün timsalını aşırırdı. O gündən sonra xalq şah meydanını "Əbuzər" meydanı adlandırdı. Get-gedə kəndimizdə də inqilabi hisslər dirçəlir və hamı bu haqda danışırdı. Əhali radio ilə ölkədə baş verən hadisələrlə tanış olurdular. Şəhərlər bir-birinin ardınca sel kimi axışan kütlələrin cövlanına çevrilirdi və yavaş-yavaş zülmün kələyi kəsilmək üzrə idi. Daha heç yerdə şah və onun muzdurlarına pənah yeri qalmırdı.

İnqilabın qələbəsindən sonra atam öz nəzirinə əməl edərək qurban kəsdi. İnqilabın baharı bütün ölkəyə yeni can bəxş elədi. Hər yerdə iş və fəaliyyət hissi dirçəlməyə başladı. Torpaq yeni nəfəs aldığı kimi onun üzərində əkin-biçinlə məşğul olan biz kəndlilərin də əhval-ruhiyyəsi tamam başqa idi. Təzəlikdə evə radio almışdıq və hər axşam radionun kənarına yığışıb, xəbərləri izləyirdik. Bir müddətdən sonra xəbər verildi ki, bolşevik əqidəli separatçı qruplar ölkənin qərbində yerləşən Kürdüstan vilayətində neçə məntəqəyə təcavüz edib və Sənəndəc bölgəsi əks-inqilabçıların əlinə keçib. Elə o

vaxt əmim oğlu Məhəmməd Sənəndəcin 28 nömrəli piyada briqadasında əsgərlik xidmətində idi. Hamımız ona görə nigaran idik. Odur ki, neçə nəfər əmimə qoşularaq özümüzü Kermanşaha çatdırdıq. Kermanşahdan Sənəndəcə get-gəl azalmışdı və çoxunun ora getməyə cürəti yox idi. Şoferi bir cür başa saldıq ki, orada qohumlarımızı görməyə gedirik. Şofer özü kürd idi və bizə dedi ki, yolda qabağımızı kəsib sorğu-sual edən olsa, siz qətiyyən dinməyin. Maşın Sənəndəcin girişinə çatanda, kənardakı təpədən neçə nəfər aşağı enərək qabağımızı kəsdilər. Kürd paltarlı neçə silahlı şoferə yaxınlaşıb soruşdular: "Sərnişinlər kimdir?" O da dedi ki, özümüzünkülərdir. Onları tanımadığımız üçün hələlik qorxu-hürkümüz yox idi. Amma şəhərə daxil olandan sonra anladıq ki, düz əjdahanın ağzına girmişik. Demək olar, hər yer əks-inqilabçıların əlində idi və bütün dövlət idarələrinə onlar rəhbərlik edirdi. Bizə elə gəldi ki, hökmən hərbi hissə də onların əlinə keçib. Əmioğlu barədə bir xəbər əldə etmək üçün yeganə yer bələdiyyə idi. Özümüzü bələdiyyəyə yetirəndən sonra gördük ki, bura lap hərbi qərargaha bənzəyir. Əlisilahlı adamlar bu otaqdan o otağa girir, aləm bir-birinə qarışıb və

nizam-intizam deyilən şey yoxdur.[1] Əks-inqilabçıların arasında bizim, o cümlədən, əmim yoldaşının çadrasından məlum idi ki, qəribik. Daha heç nə sorğu-sual etmədən hərbi hissənin adresini aldıq, Allaha təvəkkül edərək yola düşdük. Xoşbəxtlikdən, Allahın lütfü, həmçinin hərbi hissənin mömin, imanlı zabit və əsgərlərinin müqaviməti sayəsində ora hələ də ələ keçməmişdi. Hərbi hissəyə yaxınlaşarkən uzaqdan ara-sıra atışma səsləri eşidilirdi. Özümüzü bir təhər onun girişinə çatdırıb dayandıq. İçəridən hərbçilər bizə geri qayıtmağımızı bildirsələr də əmim qətiyyən razılaşmayaraq deyirdi: "Gəlmişəm oğlumu görməyə! Hətta ölüsü olsa belə cəsədini aparacağam!" O şəraitdə nə qədər təkid etsək də xeyri olmadı və əmimdən başqa hamımız geri qayıtdıq. Nəhayət, özü oğlu ilə görüşəndən sonra belə demişdi: "Oğlum yerini tərk etmə və bu dinsizləri axıradək vuruş!"

[1] O zaman Komule və Demokrat separatçıları kürd millətinin azadlığı şüarı altında ölkənin Kürdüstan vilayətini ələ keçirmişdilər. Ölkəni parçalamaq istəyənlərin çoxu hər tərəfdən axışıb, Kürdüstana yığışmışdılar və əksəriyyəti də kürd deyildi. Həmçinin ələ keçirdikləri ərazilərdə dövlət və hərbi əmlakın qarəti ilə məşğul idilər.

Nəhavəndə qayıdandan sonra bizim zonada da hərdən ara qızışdıran təhrikedici söz-söhbətlər eşidilirdi. Əlbəttə, burada silaha əl atan yox idi və sadəcə küçə-bazarlarda mübahisələr olurdu. Separatçılardan ürəyim dolu olduğundan hökmən mübahisələrə qarışmalı olurdum. Belə mübahisələrin birində qulağıma nalayiq söz dəydi. Üzümü söyüş söyənə çevirərək soruşdum: "De görüm, nə dedin?" Cavab verdi ki, əgər eşitmədinsə, bir də deyim. Ağzını açınca yumruğumu ona elə ilişdirdim ki, əlim sanki ağzının içinə girdi və qabaq dişləri töküldü. Bu arada yoldaşlarından biri bıçaq çəkib, arxadan mənə endirmək istəyərkən əmim oğlu başqa birisinin köməyi ilə əlindən tutub, onu geri çəkdilər. O da qolu zorbalının biri idi və iki nəfər onun öhdəsindən çətinliklə gəlirdi. Mən isə dişləri tökülənin dalınca qaçaraq onu şil-küt etmək istəyirdim. Bu qarma-qarışıqlıqda bıçaq çəkən də ona qoşularaq aradan çıxdı. Orada öyrəndim ki, həmin şəxs Çulək kəndi əhalisindəndir. Sonra eşitdim ki, hər yerdə məni öldürəcəyini deyirmiş.[1]

[1] Xoşbəxtlikdən, sonralar onunla yaxın dost və döyüş yoldaşı olduq. Müharibə başlayandan sonra Allahın lütfü ilə onda dəyişiklik baş verdi. Könüllü surətdə cəbhəyə gələrək təsadüfən mənim batalyonuma qoşuldu. Əlbəttə, həmişə onunla üzləşəndə xəcalət çəkir və halallıq istəyirdim.

O vaxtlar tez-tez motosikletlə Nəhavəndə get-gəl edir, belə mübahisələrdə iştirak edirdim. Dava-dalaş düşəndə neçə zərbə mənə dəyirdisə, bir neçə dəfə çoxunu da mən vururdum. Bəzən mənə dəyən həmin tək-tük zərbələr yaman ağır olurdu. Bir dəfə məsciddə moizəyə qulaq asandan sonra asudə şəkildə çölə çıxırdım. Sən demə, əlimdən yanıqlı olanlar çöldə dayanıb, məni pusurlarmış. Başımı söhbətə qatdılar və fikrim yayınarkən onlardan biri üstümə şığıyaraq düz burnuma var-gücü ilə bir kəllə endirdi. Başım gicəlləndi və bilmədim nə baş verdi. Ağız-burnumun qanı bir-birinə qarışdı, yerə yıxıldım və onlar da üstümə tökülüşdülər. Gözlərim qaranlıq çalırdı, heç yeri görmürdüm. Biri deyirdi ki, bu həmin hər yerdə dava-dalaş salan kəndçidir və nə qədər döyülsə haqqıdır.

1980-cı ildə ilk övladımız dünyaya gəldi və adını Mustafa qoyduq. Artıq oğul sahibi idim və kəndli bir şəxs üçün oğul övladı məhsuldarlıq və bərəkət nişanəsi, ata üçün dayaq sayılırdı. Başımı işə qatmışdım. Qırx gün ardıcıl olaraq, taxıl biçini ilə məşğul idim və yorulmaq bilmirdim. Şəhərdən qulağıma xəbərlər gəldikcə, yenə mübahisə və dava-dalaşa can atırdım. Amma məhsul yığımı mövsümü olduğundan işdən ayrıla bilməzdim. Məndən qabaq iki böyük qardaşımın keçindiyi darısqal otağımızda

artıq üç nəfər yaşamalıydıq. Atamın adəti üzrə ailənin sayı nə qədər artsa da bir-birimizin kənarında son dərəcə sadə və səmimiyyətlə keçinməli idik. İşləyib qazandıqlarımızı bir yerə toplayar, ata-anadan tutmuş sonbeşiyədək böyük bir süfrə arxasında oturaraq çörək yeyər, güzəranımızı keçirərdik. Yoldaşım da şəhərdə böyüyüb boya-başa çatmasına baxmayaraq, bu adətlə razılaşaraq uşağın qayğısı ilə məşğul olurdu.

Bir müddətdən sonra yenə Tehrana qayıdaraq əvvəlki işimlə məşğul olmağa başladım. Bu dəfə əmim oğlu da bizə qoşulmuşdu. Özümü təcrübəli usta hiss edirdim. Burada Nəhavənddən fərqli olaraq xalq arasında mübahisə və qalmaqallar daha geniş səviyyədə müşahidə olunurdu. Axşamüstü işdən əl çəkib, elə həmin iş paltarında özümü Tehran universitetinin qabağına yetirirdim. O vaxt ora mübahisələrin mərkəzi sayılırdı. Bir sıra ziyalı boşboğazlar mübahisə edəndə özümü saxlaya bilmir, araya girib deyirdim: "Belə çıxır ki, fəhlə sinfinin mənafeyini fikirləşirsiz! Mən bir fəhlə kimi ucadan elan edirəm ki, yalan deyirsiz! Siz özünüz varlı sinfin balalarısız və donunuzu dəyişmisiz! Yəqin ki, əlləri qabar-qabar olan əkinçinin həyatından xəbərsizsiz! İşiniz yalnız şüar

söyləməkdir! Dünənə kimi bizi xortdan[1] saydığınız halda, xeyir ola, indi bizim mənafeyimizdən dəm vurursuz!" Onlar bəzən təhqiramiz və ya kobud cavab verərkən istədiyim çəkişmə və dava-dalaş baş verirdi. O vaxt Dehqanabadın Mirzədələduzuna dönərək o ki var dalaşırdım və bütün üst-başım onların al-qanı ilə bulanırdı. Belə mübahisələrin birində nalayiq söz deyən şəxsin dalınca qaçarkən birtəhər əlimin altından çıxıb ağaca dırmaşdı. Ona dedim: "A kişi, mən həmin hüquqlarını müdafiə etmək istədiyin fəhləyəm! Bəs, əlimdən hara qaçırsan?!" Camaat da barmaqları ilə ona işarə edərək gülüşür, hərə bir yerdən onu masqara edirdi. O yazıq camaat dağılışmayınca ağacdan yerə enmədi.

İnqilab baş versə də tam inqilabi təəssürat hələ də hiss olunmurdu. Gündə avazı məlum olmayan bir qəzet çıxır, yeni-yeni cərəyanlar peyda olurdu. Əhalisi kürd olan vilayət və şəhərlərdən xoşagəlməz xəbərlər eşidilirdi. Belə görünürdü ki, paytaxt və rayonlarda xalqı təhrik edib, iğtişaş törədənlərlə Kürdüstanı ələ keçirənlər arasında gizli əlaqələr var.

---

[1] Bu məsələ heç vaxt yadımdan çıxmaz. İnqilabdan qabaq varlı şəxslərin evlərində işləyərkən bəzən ev sahibləri xırda uşaqlarını sakitləşdirmək üçün bizi onlara göstərərək deyərdilər: "Əgər sakit olmasan, səni onlara verərəm yesinlər!"

Artıq küçə və prospektlərdə bihudə mübahisələrdən bezmişdim və yalnız Tehranın cümə namazında iştirak etməklə təskinlik tapırdım. O vaxt cümə imamı Ayətullah seyid Mahmud Taliqani idi. Daha rəngsazlıq işi ürəyimi açmırdı, kəndin taxıl sahələri və biçin mövsümü üçün darıxırdım. Nəhayət, Tehranı tərk edib kəndə qayıtmalı oldum və yenidən əlimə bel alaraq əkinçiliyə başladım...



Soldakı əmim oğlu Heydərseyfdir və sağdakı özüməm.

Bu şəkil dava-dalaş saldığım və Mirzədələduz ləqəbini qazandığım illərə təsadüf edir. Nəhavənd, 1971

Qardaşlarım və əmimlə birgə. Sağdan sola ayaq üstə duranlar: Şahməhəmməd, Şirməhəmməd, Məhəmmədkərim, Mirzəməhəmməd (özüm). Sağdan sola oturanlar: Məhəmmədcəfər, Əzizməhəmməd, əmim Vəliyullah Sulgi və qarşısındakı oğlum Mustafa. Tehran, 1981

Anamın kənarında, Dehqanabad kəndi

Arxamızdakı evin guşəsi evlənəndən sonra məskunlaşdığımız həmin darısqal otaqdır

Nəhavəndin mübariz və inqilabçı "Əbuzər" dəstəsi. Onlar edama məhkum olunandan sonra 1973-cü ildə "Qəsr" zindanında gülləbaran edildilər. Əbuzər dəstəsinin mövqeyi ilə tanış olanlar istər-istəməz imam Xomeyninin hərəkatına qoşulurdular.



Şəhid Məhəmməd Talibian, Əbuzər dəstəsinin təşkilatçısı. Onun Əbuzər dəstəsinin bizim, eləcə də bir çoxlarının dünya görüşündə dəyərli rolu olub. Son nəfəsədək mübarizə və cəbhə meydanlarında oldu və nəhayət, münafiqlərin törətdiyi çaxnaşmalarda şəhidlik məqamına yüksəldi.



Aşura mərasimləri. İslamla atamın dəyərli tövsiyələri və hələ şah dövründə kəndimizdə keçirilən dini mərasimlər sayəsində tanış oldum.

Müharibə başlayandan sonra mənim kimi əsgərlik xidmətini bitirən bir çoxları hərbi səfərbərliyə çağırıldı. Əvvəl bizi Həmədanın "Şəhid Noje" hərbi hava donanmasına, sonra da Dezfula göndərdilər.

"Şəhid Noje", Həmədan, 1980

Briqada komandiri pasdar şəhid Səid Qəhhari, Nəhavəndin ilk komandiri, 1980.

Cəbhədə olduğum ilk aylarda pasdar libasında elə şəxslərlə tanış olurdum ki, əsil mənada Allah yolunun mücahidləri idilər. Onlara məftun olaraq həmişə arzulayırdım ki, kaş, mən də bir pasdar olaydım.

Üçüncü fəsil

Abbas (ə) bayrağı altında

Sahəmizdə ata və qardaşlarımla yer şumlayırdıq. Birdən qəribə uğultulu səslər diqqətimizi səmaya cəlb elədi. Həqiqətən inanmalı deyildi. Deməli, buludların arasında üç təyyarə bir-birinin ardınca düşərək atəş açırdılar. Onlardan ikisi qartal kimi şığıyaraq üçüncüsünü vurmaq istəyirdi. Bir-birinin ardınca gah aşağı enir, gah da yuxarı qalxırdılar. Belə söykənib, diqqətlə onları izləməyə başladım. Hamımız mat-məəttəl qalmışdıq. Atam dedi: "Deyəsən, hərbi təlimdir." Dedim ki, yox ata, əməlli-başlı davadır. Onlardan ikisi eyni və üçüncüsü başqa

rəngdə idi. Bilinmirdi hansı bizimki, hansı düşmənindir.

Mənim ehtimalım düz çıxdı. Belə ki, 1980-cı il sentyabr ayının 22-də İraq quru və hava qoşunlarını yeridərək ölkəmizin ərazilərinə təcavüz etdi. Bunu sahədən evə qayıdandan sonra radiodan eşitdik. Hələlik televizorumuz olmasa da amma atam inqilabdan sonra radio almağa icazə vermişdi. Əsgərlik zamanı iki ölkə arasındakı sərhəd ixtilaflarından xəbərdar olduğum üçün İraqın ölkəmizə təcavüzü mənə qeyri-adi görünmədi. Elə o gündən özümü Nəhavəndin mərkəzi sepah qərargahına yetirib, üzv olmaq istədim. O zaman Nəhavəndin sepah şöbəsi yeni təsis olmuşdu. Sayları az olsa da hər kəsi üzvlüyə qəbul etmirdilər. Əqidə və mənəvi baxımdan onlarla özüm arasında böyük fərq görürdüm.

Bir müddətdən sonra radiodan 1977-ci ildə əsgərlik xidmətini başa vuranların səfərbərliyə çağırıldığını eşitdim. İnqilabdan qabaq əsgərliyim orduda keçdiyindən qayda üzrə sepaha yox, ordu sıralarına müraciət etməli idim. Atam hələlik razı deyildi və bütün ailəmiz nigaran idilər. İçimdə mübarizə hissi coşduğundan bütün müxalifətlərə rəğmən özümü hərbi qərargahlardan birinə təqdim etdim. Çağırışa həm gələnlər, həm də gəlməyənlər

vardı və onlardan bir çoxu sonradan aradan çıxdı. Qüvvələr təşkil ediləndən sonra bizi Həmədanın "Şəhid Noje" hərbi hava donanmasına göndərdilər. Orada eşitdim ki, müşahidə emdiyimiz təyyarələr arasındakı çəkişmə həqiqətən hərbi hava döyüşü imiş və onlardan ikisi bizim, o birisi isə düşmən təyyarəsi olub. Düşmən təyyarəsi aradan çıxa bilsə də yolda Həmədan hava müdafiə korpusu tərəfindən atəşə məruz qalaraq məhv edilib. Beləliklə, düşmən təcavüzün birinci günündə ilk təyyarəsini əldən veribmiş.[1]

Bura yerləşəndən sonra ilk tapşırıq ümumi şəkildə donanmanın mühafizəsi, o cümlədən, təyyarələrin yerləşdiyi platformaların keşiyini çəkmək idi. İnqilabdan sonra hakimiyyəti devirmək üçün təşkil edilən, lakin vaxtında qarşısı alınan çevriliş cəhdi burada vəziyyəti bir az da gərginləşdirmişdi. Hələ də bir çox şöbələrdə sabiq rejimdən qalan kadrlar fəaliyyət göstərirdi və onlar hakimiyyətə qarşı müxalif olduqlarını açıq-aşkar elan edirdilər. Bununla belə, inqilabçı və dindar qüvvələr çoxluq təşkil edirdi. Bəzən istər-istəməz aramızda

[1] Hərbi statistik sənədlərə əsasən, düşmənin Suxo-22 növlü təyyarəsi məhv ediləndən sonra onun pilotu zabit Rəd əsir düşür. Hal-hazırda həmin təyyarənin qalıqları müharibə illərinin xatirələrini əks etdirən muzeydə bir eksponat olaraq saxlanılır.

qarşıdurmalar yaranırdı. Məsələn, bəzi hərbçilər münafiqlərin yaydıqları elanları donanmaya gətirir, öz aralarında paylaşaraq rahat oxuyurdular. Belə hallarda onların qarşısını almaq istəyərkən müxtəlif təhdidlərə məruz qalırdıq. Vəziyyət o yerə gəlib çıxdı ki, ayrı-ayrı məsul şəxslər üçün mühafizəçi nəzərdə tutuldu və mən də Muradi familyalı dindar və inqilabçı bir şəxsin cangüdəni təyin edildim. O da eynilə atam və böyük qardaşım kimi namaz vaxtı yetişdikdə azan deyərdi. Donanma daxilində vəziyyət belə idi. Amma xariclə əlaqədar müharibə şəraitinə görə vaxtaşırı bombardmana məruz qalırdıq. Neçə il qabaq əsgərlikdə olsam da bombardman və partlayış hadisələri ilə tanış deyildim. İlk günlərdə qırmızı vəziyyətlə qarşılaşarkən çöldəki ağacların altına çəkirdik. Amma güclü partlayışlar nəticəsində on və hətta iyirmi metr dərinliyində çalalar əmələ gəldiyini gördükdə isə məcbur olub, özümüzə pənahgah qazmalı olduq. Hər halda o da bəzən neçə bal gücündəki zəlzələ kimi hər yeri lərzəyə salan bombalara davam gətirməyə qadir deyildi.

İki aydan sonra elan etdilər ki, 1977-ci ildə əsgərlik xidmətini bitirən bütün əsgərlər cəbhəyə ezam olunur. Hamımızı Herakl S-130 təyyarəsinə mindirib Dezfula yola saldılar. Dezfulun Şəhid Vəhdəti

aeroportunda yerə enərkən diqqətimi cəlb edən ilk şey iki məntəqə arasındakı iqlim fərqi idi. Bir saatın içində Həmədanın sümüyə işləyən soyuq payızından çıxıb, Xuzistanın bahar təbiətli iqliminə daxil olmuşduq. Bizi oradan birbaşa yaxınlıqdakı qarnizona yollayıb, hərbi vəsaitlə təchiz etdilər. Hava donanmasındakı kimi burada da mübahisələr, müvafiqlərlə müxaliflər arasındakı siyasi müzakirələr davam edirdi. Hər gecə oxşar bəhs və müzakirələrin şahidi olur, ara qızışarkən hətta fiziki çəkişmələrə də gedib çıxırdı. Bəzən şayiə yayırdılar ki, prezident Bəni-Sədr bizim qarnizona gəlir və buradan cəbhələrə baş çəkmək fikrindədir. O zaman onun tərəfdarları ilə müxalifləri arasında çəkişmələr daha gərgin vəziyyət alırdı. Əlbəttə, ordu sıralarında onun tərəfdarlarının sayı müxaliflərindən çox idi.

Bihudə mübahisələrlə mənasız keçən səkkiz gündən sonra bizi cəbhəyə yolladılar və gəlib, Kərxə körpüsü kənarında yerləşdik. Bu nahiyədə düşmən Əndimeşk-Əhvaz magirstralı yaxınlığınadək gəlib çıxmışdı. Onlar bu yolu ələ keçirdiyi təqdirdə bizim qüvvələrlə cənub cəbhəsi bölgələri arasındakı rabitə böyük təhlükə ilə üzləşə bilərdi. Yaxınlıqdakı təpələrdən birində mövqe seçərkən dəstənin komandiri hər birimizə bir bel verib dedi ki, səngər qazın. Biz də ön cəbhə və "atəş üfüqü"nü nəzərə

almadan təpənin düz başında çala qazmağa başladıq. Birdən o tərəf-bu tərəfimizə neçə minomyot və top mərmisi düşərək şiddətli partlayış qopduqda, özümüzü tamam itirdik. Bu arada əsgərlərdən biri başından yaralandı. Çarəsiz qalıb təpəni üzüaşağı enməyə başladıq. Əsgərlərdən bir qismi heç nəyə əhəmiyyət vermədən qaçıb yoxa çıxdı və biz isə dayanaraq əmri gözlədik. Belə ağır partlayışların şahidi olmadığımız üçün yaman qorxmuşduq. Təcrübəli zabitlərdən biri gəlib dedi: "Atəş üfüqünü nəzərə almadan səngər qazmaq olmaz. Belə nahiyələrdə hökmən düşmənin hədəfindən qorunmaq üçün səngəri təpənin başından bir qədər aşağıda qazmaq lazımdır." Bu mənim cəbhədə qazandığım ilk təcrübəm idi. Məncə, bizim asudə şəkildə təpənin başına qalxıb səngər qazmağımıza səbəb düşmənin zirehli qüvvələrinin o tayda pərakəndə və nizamsız yerləşməyi idi. Çünki o tərəfdə torpaq sipəri və ya istehkam adlı bir şey müşahidə olunmurdu. Deyəsən, onlar da məntəqəyə təzə çatmışdılar və qüvvələrin nizam-intizamı və döyüş mövqeyinin təşkili ilə məşğul idilər. Bizim dəstədə cəmi iki qumbaraatan vardı və əlimizdəki fərdi silahımız da sadəcə J-3 avtomatı idi. Dəstə komandirindən soruşdum: "Səncə, bu düşmən tankları gözümüz

önündə cövlan etməli, biz də onlara mat-mat baxmalıyıq?! O da dedi: "Gördüyün qoyun sürüsü yox, tanklardır! Biz də çoban-zad deyilik ki, gedib onları bir yerə toplayaq! Tankla döyüş tank, ya da tank əleyhinə texnika tələb edir!" Əlimi həmin iki qumbaraatana uzadaraq "Məgər onlar tanka qarşı silah sayılmırmı?! – deyərkən söylədi: "Tankın qarşısında əlimizdə olan bu silah-sursat oyun-oyuncaq sayılır! Yox canım, bunlarla tankın qabağına çıxmaq olmaz!" Amma elə o gecə səngərdə keşik çəkərkən əyinlərində yaşıl hərbi paltar olan neçə pasdarın həmin qumbaraatanlarla təpəni aşaraq düşmənə hücum etdiyinin şahidi olduq. Onlar gecənin qaranlığı və düşmənin qəflətindən istifadə edərək tanklara yaxınlaşır, onları bir-bir partladırdılar. Biz də uzaqdan sanki bədii filmə tamaşa edirdik. Görürdük ki, onlar deyilən oyun-oyuncaqla tankları bir-bir necə sıradan çıxarır, hətta onlara yaxınlaşaraq üzərinə qalxıb, içərisinə qumbara atırdılar. Bütün bu səhnələri əlimizdəki gecə durbini ilə müşahidə edirdik. Halbuki biz özümüz ön cəbhəni qorumaq üçün burada dayanmışdıq.

Bundan sonra yavaş-yavaş məndə sepaha qoşulmaq hissi artırdı. Eyni cəbhədə olduğumuz halda biz səngərlərə və ya bir partlayışla çalalara

sığınır, sepah qüvvələri isə heç nədən çəkinmədən birbaşa tankların arasına soxulur, onları bir-bir sıradan çıxarırdılar. Hətta bəzən döyüşün ən qızğın yerlərindən yaralı və ya şəhidi öz belinə alaraq arxa cəbhəyə gətirirdilər. Öz-özümə deyirdim: "İlahi, onlarla müqayisədə özümüzü döyüşçü adlandıra bilərikmi?!" Bəlkə də klassik döyüş üsuluna əsasən, komandirimiz haqlı idi. Həqiqətən tankın qabağına tankla və ya müasir texnika ilə çıxmaq lazım gəlirdisə, sepah qüvvələri bu üsulu pozaraq yeni və kreativ metodlara əl atırdılar. Onlar klassik hərbiçilərdən fərqli olaraq təvazökarlıq, cəsurluq, bəndəçiliyin nişanəsi olan axan göz yaşları kimi səciyyələri ilə seçilirdilər. Göz yaşı ilə döyüşün nisbətini qaranlıq çökəndən sonra başa düşürdüm. Belə ki, bu yaşıl paltarlı igidlər gündüzlər kənarımızda adi fəaliyyətlərlə məşğul olar, hava qaralandan sonra bir guşəyə çəkilib, bir neçə saatı ibadət və raz-niyaza həsr edərdilər. Demək olar, onların döyüş vəsaiti əlimizdəki silah-sursat yox, təvəkkül və Allahın yenilməz qüdrətinə bağlılıq idi. Əlbəttə, ixlas və qorxmazlıqlarına qibtə etdiyim bu qardaşlar düşmənə qəfil hücum şərtilə hər gecə neçə tankı sıradan çıxarırdılar. Onların görkəmi, nurlu və gözəl simaları hələ də xatirimdən çıxmır. Belə sadə və səmimiliklərinə rəğmən sonralar hər birinin

yüksək rütbə daşıdığını biləndə, onlara lap çox vurulurdum.

1981-ci ilin yanvar ayında yoldaşımdan bir məktub gəldi. Yazmışdı: "İki aydan sonra növbəti övladımız da dünyaya gələcək. Qızdır. Adını nə qoyaq?" Uşaqlıqdan həzrət Zeynəbin məhəbbəti ürəyimə dolduğundan mən də yazdım ki, Zeynəb qoyun. Uşağın adı ilə bağlı bir daha məktub gəldi. Yazmışdı: "Kənddə, o cümlədən, qohumlar arasında belə bir fikir var ki, Zeynəb dərd və qəm rəmzidir. Başqa bir ad seç." Mən də yazdım ki, yalnız Zeynəb qoyun. Cəbhədə elə də mühüm fəaliyyət və rolum olmasa da oranı tərk edib, qayıda bilməzdim. Ev-eşikdən ayrılığa sepah qüvvələri kənarında olmağımla təsəlli tapırdım. Yavaş-yavaş mən də öz daxilimdə onların mənəvi xüsusiyyətlərini yetişdirməyə çalışırdım. Sanki bu dəfə ikinci olaraq vurulmuşdum və onların aşiqi idim.

1978-ci ildə əsgərlik xidmətini bitirənlərin cəbhə bölgəsindəki əlavə xidmət dövründən altı ay keçirdi. Bu müddətdə neçəsi yaralanıb, neçəsi şəhid olsa da əksəriyyəti sağ-salamat qayıtdı. Mən də qızım Zeynəb doğulandan bir ay sonra qayıtdım. İndi isə evdəkilərdən çox sepah qüvvələri üçün darıxır, sepaha qoşulmağa can atırdım. Fikirləşirdim ki, onlar Aşura bayrağı altında döyüşən imam

Hüseynin (ə) əsgərləridir və mən o qəbil insanlara qoşulmağa layiq deyiləm. Daim Allaha yalvarıb, körpəmin mübarək gəlişi və həzrət Zeynəbin şənini Ona and verər, o cür xalis bəndələrə qoşulmağı təmənna edərdim. Axır, iradəmi toplayıb Nəhavəndin sepaha qəbul şöbəsinə baş vurdum. Atamın təlim-tərbiyəsi nəticəsində dini dünya görüşüm müsbət olsa da təhsil səviyyəm aşağı idi. Hələ müraciət edənlərdən çoxunun universitet və hövzə tələbələri olduğunu biləndə ürəyim əsdi. Qəbul blanklarını doldurandan sonra siyasi-əqidəvi suallardan yaxşı keçdim və tərcümeyi-halım da müsbət qeyd edildi. Belə rahat və tez qəbul olmağıma qətiyyən inana bilmirdim. O zaman Nəhavənd üzrə sepahın baş komandiri Səid Qəhhari idi. Onu görəndə təmkinli sima və görkəminə baxmaqdan doymurdum. Nəhayət, Həmədanın "Əbuzər" qərargahında təlim üçün təyinat vəsiqəmi aldım. Arvad-uşağı valideynlərimə tapşırıb, onlardan ayrılarkən yoldaşım başımın üzərinə Quran tutaraq arxamca su səpdi.

Həmədana yola düşüb "Əbuzər" qərargahına gəldim. İlk təlim müddəti 45 gün idi. Hərbi təlim kursuna Əli Şadmani rəhbərlik edirdi. O, çox zabitəli, vəzifəsində ciddi və peşəkar bir pasdar idi. Səməd Yusifi müavini, Ehsan Təqipur, Həsənihelm

və seyid Hüseyn Fədai də başqa həmkarları idilər. Hər biri tərtiblə silahlarla tanışlıq, minaları zərərsizləşdirmə, döyüş taktikaları, fiziki hazırlıq və döyüş fənlərini təlim verirdilər.[1] Təlim verənlərin arasında arıq bir cavan da vardı ki, saçları arasındakı neçə sarı telləri ilə başqalarından seçilirdi. Onun belə cavan yaşında hərbi təlim verməyi hökmən xüsusi bacarığı ilə əlaqədar idi. Həqiqətən qəribə çevikliyi vardı. Məsələn, təpənin başından mayallaq aşaraq neçə saniyənin içində özünü aşağı yetirirdi və bizə də deyirdi ki, həmin işi görək. Mayallaq aşarkən bədənimizə batan kol-kos və daş-kəsəyin ağrısından çox onun bizə amiranə göstəriş verməyi ağır gəlirdi. Əlbəttə, həmişə özü verdiyi tapşırığı hamıdan yaxşı və kamil yerinə yetirirdi. Çox vaxt bəziləri tapşırığı yarımçıq yerinə yetirir, bəziləri də heç öhdəsindən gəlmirdi. O vaxt heç kimin ağlına belə gəlməzdi ki, həmin bu arıq yeniyetmə sonralar kəşfiyyat-diversiya üzrə müharibənin misilsiz komandirlərindən biri olacaq. Əsgərliyimi ordu sıralarında keçirdiyimdən hərbi təlimlərlə tanışlığım vardı. Burada hakim olan fəzanı əsgərliklə fərqləndirən əsas məsələ əqidəvi dəyərlərin qabarıqlığı idi. Məsələn, təlim dövrünün

[1] Sonralar onların hər biri müharibə illərində şəhid oldu.

ortalarından başlayaraq müəllim kadrına bir cavan da əlavə oldu. Şəvə saqqallı və gözəl simalı bu cavan bizə Nəhcül-bəlağənin şərhindən dərs keçirdi. Onun Nəhcül-bəlağəyə bu qədər dərindən yiyələnməyinə heyran idim. Görkəmli zahiri və cazibəli siması mənə gecələr düşmən tanklarını sıradan çıxaran pasdarlardan birini xatırladırdı. Sonra öyrəndim ki, o, Həmədanın sepah üzrə komandiri Mahmud Şahbazidir.[1] Nəhavənddən bu dərslərdə iştirak edənlərin sayı on iki nəfər idi. O, bizi imam Əlinin (ə) kəlamlarının dərinlikləri ilə tanış edir, Allah yolunda cihad və müdafiə mövzuları qəlbimizə elə hopurdu ki, cəbhə sıralarına qoşulmaq üçün dəqiqələri sayırdıq.[2] Qırx beş günlük hərbi kurs başa çatandan sonra ayrılma vaxtı müəllimlərdən biri dedi: "Siz cihad yolunun müsafirlərisiz və səfərə azuqə ilə çıxmaq lazımdır. İmam Sadiq (ə) buyurur:

---

[1] Komandir Mahmud Şahbazi o vaxt imam Xomeyninin müridləri qismində məşhur olan universitet tələbələri tərkibində Tehranda "Casus yuvası" adlanan Amerika səfirliyinin işğalı və fəthində iştirak edənlərdən biridir. O, Əhməd Mütəvəssilian və İbrahim Himmətlə birgə 1982-ci ilin qışında "Məhəmməd Rəsulullah-27" briqadasını təşkil edirlər. Nəhayət, Mahmud Şahbazi 1982-ci il may ayının 24-də Xürrəmşəhrin azadlığı əməliyyatında şəhid olur.

[2] Qeyd edilən on iki nəfərin çoxu elə həmin ildə Mahmud Şahbazinin komandirliyi ilə Sərpol-zəhabda həyata keçən əməliyyatda şəhid oldu.

Aqil şəxsin üç xisləti var: öz dövrünün hadisələrindən agah olmalı, dilinə yiyəlik etməli və olduğu vəziyyəti ilə razılaşmalıdır!"

Son vaxtlar Nəhavənddə münafiqlər[1] tərəfindən törədilən terror aktları qeydə alınırdı. Odur ki, məsul şəxslərin mühafizəsi ilə bağlı komitə təşkil olundu və mən də rayon üzrə məhkəmə sədrinin şəxsi mühafizəçisi təyin edildim. O hadisələrdə Nəhavəndin cümə imamı Ayətullah Heydərini də təhlükə gözləyirdi. Boş vaxtlarımda onun siyasi-əqidəvi moizələrində iştirak edər, həmişə onun kənarında olmaq istəyərdim. Nəhavənd üzrə sepahın öz tərkibində əqidəvi təlimatla məşğul olan Məhəmməd Talibianla da tanış olmuşdum. O hələ inqilabdan əvvəl "Əbuzər" dəstəsi ilə həmkarlığa görə şah rejimi tərəfindən həbs və işgəncələrlə tanış idi, hətta münafiqlərin başçısı Məsud Rəcəbi ilə də bir kamerada olmuşdu. Sözlərində dəqiq və konkret idi. Hərdən inqilabın tarixi ilə bağlı dərslərdə münafiqlərin roluna, onların elə o zamanlar Marksın

[1] İnqilabdan əvvəl Xalq Mücahidlər Cəbhəsi adı ilə tanınan əks-inqilabçı münafiq ünsürlər 1981-ci ildən başlayaraq silahlı terror əməliyyatlarına əl atdılar. Onların terror prinsipində hər hansı qrup və ya sinif əhəmiyyət daşımırdı və meyar yalnız fərdin yeni qurulan hakimiyyətə inam və dini əqidəsi idi. Adi həqiqi şəxsdən tutmuş bütün hüquqi məsul şəxslərədək hər bir dini əqidəsi olan şəxs terrora məruz qalırdı.

sosializm dünyagörüşündən təsirlənərək əqidələrində təhrifə uğradıqlarına dair mühüm məsələlərə toxunurdu. Onun kimi bir şəxsin də canının təhlükəsi təbii idi.[1] Terror aktlarının dairəsi artdıqca sepah qüvvələrinin bir qismi mühafizə işlərinə cəlb edilirdi. Məsul şəxslərin mühafizəsi əhəmiyyət daşısa da ürəyimiz cəbhədə idi və hər an ora getmək üçün fürsət axtarırdıq.

1981-ci ilin aprel ayında Həmədan vilayətinin sepah qüvvələrinin müharibədə göstərdiyi rəşadətlər, Sərpol-zəhabın düşmənin tank diviziyaları tərəfindən işğalının qarşısının alınması xəbərləri bütün Nəhavənddə böyük əks-səda yaratdı. Şəhərdə qalıb, işimə davam edə bildiyim halda dəfələrlə müraciət və təkidlərdən sonra Nəhavənddən yollanan bir qrup pasdarın tərkibində özümü Sərpol-zəhaba çatdırdım. Şəhərdə əhalidən əsər-əlamət yox idi və hamı ev-eşiyini tərk edib arxaya çəkilmişdi. Sərpol-zəhabla Qəsr-şirin arasındakı cəbhəyə Həmədanın 150 nəfərdən ibarət pasdar qrupu rəhbərlik edirdi. Qüvvələr on beş

[1] O, müharibə illərində Nəhavənd üzrə təhsil və təlim-tərbiyə mərkəzinin sədri vəzifəsində çalışırdı. Amma bəzən cəbhələrə də baş çəkər, müharibənin gedişatı ilə tanış olardı. Nəhayət, o da münafiqlərə qarşı keçirilən sərhədyanı bölgələrin birindəki əməliyyatda şəhadətə yetdi.

nəfərlik dəstələrə bölünəndən sonra üç gün Sərpol-zəhabda qalır, ondan sonra şəhərin 7 km-liyində yerləşən ön cəbhədəki Qaraviz yüksəkliklərində növbə ilə əvəz olunurdular. Gündüzlər növbəni əvəz etmək mümkün deyildi. Şəhərin bütün yolları, prospektləri və hətta dalanları belə Bazideraz və Qaraviz yüksəkliklərində yerləşən düşmən atəşi altında idi. Onlar şəhəri almaq üçün neçə dəfə hücuma keçsələr də hər dəfə güclü zərbə və tələfata məruz qalaraq geri çəkilməyə məcbur olmuşdular. Şəhərin qaranlıq və sükutunu pozan yeganə şey top və minomyot mərmilərinin partlayışı idi və səkkiz aydan sonra daxildə abadlıqdan əsər-əlamət qalmamışdı. Şəhərdaxili hərəkət və irəliləyiş üçün hökmən uçulan ev və binaların daxilini dəlmək lazım gəlirdi. Üç gündən sonra bizim yeni dəstəmizi cəbhə xəttinin 2 km-liyində yerləşən əl-Mehdi adlı qəsəbəyə göndərdilər. Qəsəbə Qaravizdə yerləşən qüvvələr, o cümlədən ön cəbhə üçün yeganə arxa cəbhə sayılırdı və ixtiyarımızda olan ən əhəmiyyətli silah 120 kalibrli minomyot idi. Ondan da ön cəbhədə keşik çəkən qüvvələri himayə etmək üçün gün ərzində cəmi altı mərmi ata bilərdik. Sərpol-zəhab cəbhəsinin müharibənin ilk günlərindəki Kərxə cəbhəsi ilə fərqi buradakı sepah qüvvələrinin kəmiyyətinin azlığı və eyni halda dözüm və

yenilməzliyi idi. Bunları görəndə, ürəyim daha çox yanırdı. Əgər düşmən Qaraviz ətəyində yerləşən səngərlərdəki cəmi on beş nəfər qüvvənin sayından xəbərdar olsaydı, əhatəli bir hücumla hamını əsir tutardı. Belə ki, aprel ayının 28-də baş verən ciddi qarşıdurmada on beş nəfərlik dəstənin hamısı şəhid olsa da Qaraviz ətəyindən bir düşmən tankı da irəliləyə bilmədi və bu, qeyri-bərabər döyüşdə baş verən möcüzələrdən biri idi. Demək olar, günümüz çox da müqaviməti olmayan səngərlərdə keçir, başımıza səhərdən axşamadək bomba-mərmi yağan şəraitə dözməli olurduq. Bu vəziyyət onlar yorulana və ya silah-sursatı qurtaranadək davam edirdi. Gün ərzində şəhid olan və ya yaralananları hava qaralmayınca geri göndərmək olmurdu. Biz cəbhələrdə düşmənin şiddətli atəşi altında, xalq və məsul şəxslər də daxildə münafiqlərin təhlükəsi altında idi. Mən sonralar parlamentdəki nümayəndəmiz Ayətullah Heydərinin şəhadət xəbərini də cəbhədə olarkən eşitdim. O, 1987-ci ilin iyun ayının 28-də İslam Cümhuriyyəti partiyasının mərkəzi komitəsində baş verən partlayış nəticəsində ölkənin 72 nəfərdən ibarət məsul şəxsləri ilə birgə şəhid oldu.[1] Artıq birtərəfli döyüşdən cana

[1] Ayətullah Heydərinin şəhadətindən sonra höccətül-İslam Muğisi onun yerinə təyin edildi. O da şəhid Heydərinin yerini

yığıldığım bir zamanda tezliklə əməliyyat gözlənildiyi barədə gəzişən xəbər yaman ürəyimcə oldu. Həmədan sepah korpusunun komandiri Mahmud Şahbazinin cəbhə bölgəsinə gəlişi, o cümlədən, sərhədyanı və kəşfiyyat qrupları ilə görüşü bu məsələnin qəti olduğunu göstərirdi.

İyul ayının amansız istisi ilə düşmənin mərmi atəşi bir-birinə qarışmışdı və təqribən yeri məlum olan Qaravizin ətəyindəki səngərlərdə sığınmaq gün-gündən çətinləşirdi. Bizim burada dözməyimizə ümid verən yalnız əməliyyat xəbəri idi. 45-ci gün səngərimizin tavanı top mərmisinin dəhşətli partlayışı nəticəsində uçarkən bir anda toz-torpaq, tüstü və qışqırıq səsləri bir-birinə qarışdı. Sanki diri-diri gora basdırıldıq və daş-kəsək və kisələr üstümüzə töküldü. Qulağımın arxa tərəfindən bərk yanğı hiss elədim. Üç nəfər idik və üçümüz də avarın altında qalmışdıq.[1] Yazıq Qulamhüseyn boğulurdu. Neçə dəqiqədən sonra əsgərlər səngərin avarını təmizləyib bizi çıxartdılar. O, burnundan

---

layiqincə tutaraq siyasi-əqidəvi moizə və dərslərin təşkilinə başladı və sepah qüvvələrinin əksəriyyəti onun yaxın müridlərinə çevrildilər.

[1] Birinin adı Qulamhüseyn Əhmədi, o birinin adı isə İbad Zəfəri idi. Qulamhüseyn 1984-cü il Bədr əməliyyatında, İbad da 1982-ci il vəl-Fəcr hazırlıq əməliyyatında şəhadətə qovuşdu.

yaralansa da bir azdan nəfəs borusu açıldı və rahat nəfəs almağa başladı. İbada heç nə olmamışdı. Gözü mənə sataşandan sonra həyəcanla dedi: "Mirzə, beynin çölə çıxıb!" Özüm də təəccübləndim. Çox da dərin olmayan qəlpə yarasından çölə ağ maddə çıxırdı. Qulağımın ardından yandırıcı ağrı hiss edir, boyun və paltarıma qan süzülürdü. Yarama təəccüblə baxan müşahidəçimiz Məhəmməd[1] əsəbi halda İbadın üstünə qışqıraraq dedi: "Nə hay-küy salırsan! Görürsən ki, adi yaradır!" Hələ səhər saat 11 olardı. Arxa cəbhəyə qayıtmaq üçün hava qaralanadək təxminən səkkiz saat gözləməli idik. Hava qaralanandan sonra cəbhə xəttimizin komandiri yola bələd olduğumu soruşarkən dedim ki, bəli, tanıyıram. Əlavə edərək dedi: "Növbəti dəstə ilə saat 12-də dəyişiləcəyik. Odur ki, yolu təkcə gedib, özünü qəsəbəyə çatdırmalısan." Bu neçə saat ərzində çoxlu qan itirmişdim və başım gicəllənirdi. Yavaş-yavaş Qaravizin ətəyi boyunca aşağı enməyə başladım. Heç özüm də bilmədən düşmən səmtinə tərəf hərəkət edirdim. İyirmi-otuz metr aralanandan sonra arxadan qışqırdılar ki, tez geri qayıdım. Geri qayıdıb yolu tapandan sonra hərəkətə başladım.

[1] Məhəmməd Mənuçehri Həmədan üzrə sepah korpusunun ilk hərbi müşahidəçisi idi və 1982-ci ilin payızında Qəsr-Şirində şəhid oldu.

Özümü yaxınlıqdakı təpənin arxasından keçən yola yetirib, qayda üzrə işıqları sönmüş halda yardıma gələn maşını gözləməli oldum. Maşından xəbər çıxmadıqda, qəsəbə yolu istiqamətində 2 km-dək yol getdim. Qəsəbəyə çatanda daha məndə taqət qalmamışdı və özümdən asılı olmayaraq huşumu itirdim. Tibbi yardım məntəqəsində yaramı müayinə edib, başımı sarıdılar. Ön cəbhə ilə arxa cəbhə arası rabitəyə rəhbərlik edən Əlirza Hacıbabayi ilə Həbib Məzahiri də orada idilər. Əlirza gülərüz və zarafatcıl bir insan idi. Başımdakı ağ sarığa baxandan sonra dedi: "Mirzə, bu əmmamə sənə çox gözəl yaraşır!" Yaramın ağrısı kəsilməsə də daha gileylənməyib, özüm də gülümsədim. Onun siması mənə Dezfulda Kərxə cəbhəsindəki pasdarları xatırladırdı. O da gecə olduqda xəlvətə çəkilər, Allah dərgahında için-için ağlayaraq göz yaşı tökər, hava işıqlandıqda isə hətta atəş altında belə çöhrəsindən təbəssüm əskilməzdi.[1] Haçandan-haçana yardım maşını peyda oldu və məni Sərpol-zəhaba köçürtdülər. Orada müharibədən əvvəl şəhərin ümumi kitabxanası olan binanı hərbi xəstəxanaya çevirmişdilər. Möhkəm beton sütunlara malik bu bina o vaxtadək düşmənin

[1] Onlar 1982-ci ildə Həmədanda təşkil edilən ilk müstəqil batalyonların komandirləri idilər və hər ikisi həmin ilin yayı Kuşk cəbhəsində həyata keçirilən "Ramazan" əməliyyatında şəhid oldu.

şiddətli atəşi qarşısında yaxşı davam gətirmişdi. Xəstəxanada cəmi neçə qadın həkim, kişi və qadın feldşeri xidmət göstərirdi. Hələlik üç istiqamətdə – orta, sağ və sol cinahlarda yerləşən cəbhələrdə nisbi stabilliyə görə başları çox da qarışıq deyildi.[1] Orada yarama dərhal tikiş vurdular. Axır, neçə gün müayinə və dava-dərmandan sonra öz məntəqəmizdən cəbhədə xidmət göstərən qüvvələrlə birgə Nəhavəndə qayıtdım.

Dehqanabada dönən yolda maşından düşüb, yavaş-yavaş torpaq yolla kəndə sarı hərəkət etməyə başladım. Uzaqdan ata-anam və qardaşlarımın əkin yerimizdə işlədiyini gördüm. Onlara yaxınlaşarkən başımdakı sarğını görüb, özlərini itirdilər. Atam soruşdu: "Başına bağlanan nədir, ay bala?" Dedim: "Dehqanabadın ruhanisi yox idi. Cəbhədə elmi hövzədə təhsil alandan sonra axund olmuşam!" Sanki sözümdə bir həqiqət vardı. Ertəsi gündən evimizə görüşə gələn əhali üçün Allah yolunda cihaddan danışır, orada öyrəndiyim ayələri misal çəkirdim. Az bir müddətdə bu qədər dəyişildiyimi

[1] Sağ cinaha Kermanşahın sepah qüvvələri ilə ordunun bir qismi, sol cinaha və o cümlədən, Bazideraz yüksəkliklərinə Tehranın "Vəliəsr" hərbi hissəsinin pasdar qüvvələri, Qaravizin yerləşdiyi orta nahiyəyə isə bizim qüvvələr nəzarət edirdi. Əlbəttə, üç cinahda yerləşən qüvvələrin sayı iki batalyondan az idi.

görən atam çox sevinirdi. Bundan sonra onun razılığı ilə bir-bir qardaşlarım da sepaha üzv oldular, həmçinin beş əmioğlum da pasdar olaraq əyinlərinə hərbi libas geyindilər.

1981-ci il sentyabr ayının 2-də radiodan şəhid Bahünərlə şəhid Rəcainin naminə keçirilən əməliyyat elan edildi. Əməliyyat onların şəhadətindən üç gün sonra baş verdi və bu bizim intizarını çəkdiyimiz həmin əməliyyat idi. Əməliyyat uğurla başa çatmadı və bizi əvəz edən dəstə üzvlərinin hamısı şəhid olmuşdu. O hadisəyə görə Nəhavənd, o cümlədən, Həmədan vilayətinin bütün şəhərləri qaraya büründü. Həmədanın sepah korpusu bu əməliyyatda bütün gücünü sınasa da düşmən qabaqcadan duyuq düşdüyündən Qaraviz yüksəkliklərində heç bir irəliləyiş əldə olunmadı. Zahirən səmərəsiz başa çatan bu əməliyyatın xalqa bağışladığı qəribə təsiri nəticəsində sepaha ardıcıllıqla qüvvə cəlb olmağa başladı və müraciətlər o qədər artdı ki, Nəhavəndin sepah şöbəsi könüllülərin qəbulu ilə bağlı şəhərin mərkəzində çadırlar qurdu. Buna oxşar hallar vilayətin bütün şəhərlərində baş verdi və bir həftənin içində Həmədanın sepah qüvvələri iki qat artdı.

Nəhavənd sepah şöbəsinin komandiri Səid Qəhhari məni daxili işlər üzrə müdir təyin elədi.

1981-ci ildə daxili işlər müdiri vəzifəsi sepahın qərargah üzrə rəisi rütbəsinə bərabər sayılırdı və bir çox işlərin və əlaqələrin təşkili ona bağlı idi. Çalışırdım ki, tutduğum yeni vəzifəmi layiqincə yerinə yetirim. Vəzifəmin tələblərinə uyğun olaraq bütün şöbə və vahidlərlə yaxından əlaqə saxlamalı idim. Yəni bütün qüvvələrlə baş komandir Qəhhari arasında rabitələrin təşkili mənə baxırdı. Rabitələr zamanı əməliyyat şöbəsinin rəhbəri Möhsün Ümidinin əxlaq, zabitə və çalışqanlığı məni özünə yaman cəzb etmişdi. Simasındakı parlaqlıq onun nurlu batin və mənəvi dərinliyindən xəbər verirdi. Hərdən sübh namazından qabaq yolum sepahın məscidinə düşərkən onun əllərini göyə qaldıraraq göz yaşları içində raz-niyaz etdiyinin şahidi olurdum. Hətta məscidə nəyə görə gəldiyimi unudaraq onun tamaşasına qərq olurdum. Ürəyimdən səslənən bir nida deyirdi: "Ona yaxşı-yaxşı bax ki, bir zaman sənin ayrılmaz vücudun olacaq!" Peşəsi müəllim olsa da sepahın təşkilatçılarından biri kimi məndən əvvəl onun üzvü idi. Quranla, o cümlədən, məsumların hədis və rəvayətləri ilə yaxından tanışlığına görə başqalarından xüsusi olaraq seçilirdi. Ağzından bihudə söz çıxmazdı, söylədiyi hər bir kəlməsi də ürəyindən coşar və eşidənə təsir qoyardı. Ona tabe

olan əməliyyat vahidinin qüvvələri iki cəbhədə – bir qismi təcavüzkar düşmənlə sərhəd bölgələrində, bir qismi də daxildə nifaq salan separatçı qüvvələrlə döyüşürdü. Bir gün sepahın daxili kəşfiyyat bölümündən Bürucerddə terrorçu bir qrupun izinə düşüldüyü barədə məlumat gəldi. Məlumata əsasən, onlar münafiqlər təşkilatının əli ilə Bürucerddə terror aktı törətməli idilər. Qrupun üzvləri nəhavəndli olduqları üçün məsələyə Nəhavəndin əməliyyat vahidi qarışmalı idi. Təsadüfən qrupun tərkibində münafiqlərə qoşulan Möhsünün kiçik qardaşı da vardı və o özü də bu məsələdən xəbərdar idi. Bununla belə, əməliyyata birbaşa rəhbərlik edərək onu müvəffəqiyyətlə başa çatdırdı və tutulanların içində qardaşı da mühakimədən sonra edam edildi. Adətən, Möhsün həmin hadisəyə çox da toxunmazdı. Amma hər dəfə o haqda söhbət düşəndə, Quran ayələrinə istinad edərək peyğəmbərlərin tarixindən misallar çəkər, ata ilə oğul, qardaşla qardaş və s. arasında olan əqidəvi ziddiyyətlərə dair nümunələr qeyd edərdi. Onun belə sarsılmaz imanı, yenilməz iradəsi və saf xislətinin bir çoxları kimi mən də vurğunu idim.

Bir müddətdən sonra baş komandiri razı salaraq yenidən cəbhəyə qayıtdım. Bu dəfə Mehran məntəqəsinə ezam olundum. 1982-ci ilin fevral ayı

idi və hələ "Fəthül-mübin" əməliyyatına bir qədər qalırdı. Ondan qabaq düşmənin diqqətini yayındırmaq üçün neçə aldadıcı hücumların təşkili lazım gəlirdi ki, onlardan biri də Mehran yaxınlığındakı Zeyl yüksəkliklərində həyata keçməli idi. Mehran cəbhəsi üzrə baş komandir Əli Şadmani Həmədandan gələn sepah və könüllü qüvvələri üç batalyona bölmüşdü.[1] Düşmən qüvvələri Zeyl yüksəkliklərinin ucqar nahiyələrində mövqe seçdiyindən yerləşdiyimiz aşağı təpələr tam nəzarət altında idi. Təsadüfən burada bizə Həmədanda təlim verən üzü buğdayı göygöz cavanla (Əli Çitsazian) rastlaşdım. Burada da yenə komandirlik işləri ilə məşğul idi. Əli Şadmaninin müavini Səid İslami bizim ikimizə növbəti əməliyyatla bağlı taqımın təşkili barədə tapşırıq verdi. Təşkil etdiyimiz taqımın tərkibində kifayət qədər hərbi vəsaitlə təchiz olunan yüzə yaxın pasdar və könüllü vardı. Bu isə formal taqımdan artıq olduğundan müsbət taqım sayılırdı. Əli ilə yeddi il yaş fərqimizə baxmayaraq taqımın təşkili zamanı elə dostlaşdıq ki, o mənim, mən də onun komandir olmağını istəyirdim. Hər

[1] Həmin ərəfədə Həmədan üzrə sepahın komandirinin göstərişi ilə sepahın bir qrup rütbəli şəxsləri "Məhəmməd Rəsulullah-27" briqadasının təşkili və "Fəthül-mübin" əməliyyatının həyata keçirilməsi ilə əlaqədar Dokuhe məntəqəsinə getmişdilər.

birimiz digərini layiq bildiyindən indi də yadıma gəlmir ki, hansımız taqımın komandiri olduq. Keçən müddət ərzində döyüş və hərbi fəaliyyətlərdə artıq təcrübə toplamağıma baxmayaraq Əlinin fərasət və dərrakəsi, döyüş meydanında çevikliyi o qədər yüksək səviyyədə idi ki, cəbhədə kəşfiyyat-diversiyası ilə bağlı ilkin qrupların təşkili onun təşəbbüsü ilə başladı.[1] Onunla yaxın dostluq rabitəsi olanlardan biri də Şirməmməd Əfqani[2] idi. O da özü kimi ortaboy, çevik bir şəxs idi. Şirməmmədin qəliz əfqan ləhcəsi vardı. Hər halda əfqanıstanlı bir mücahidin cəbhəmizə hansı yolla gəlib çıxdığını heç vaxt anlaya bilmədim. Əlinin onun haralı və hansı irqə mənsub olması ilə işi yox idi. Özü kimi hansı birini tapsaydı, onunla əl-ələ verib, xariqüladə işlər görərdi. Məsələn, cəbhə xəttini aşaraq düşmən tərəfə keçər, onların arası və arxa tərəfini gəzib

[1] 1981-ci ildə hələ ayrıca kəşfiyyat-əməliyyatla bağlı müstəqil bölüm yaranmamışdı və ümumi kəşfiyyat işləri batalyon komandirliyinə aid idi. O vaxt 1982-ci ildə ilk dəfə Həmədanın "Ənsar əl-Hüseyn-32" briqadasının tərkibində onun başçılığı ilə belə bir vahid Mehranda təşkil edildi. Əli Çitsazianın yeddi il ərzində rəhbərlik etdiyi kəşfiyyat-əməliyyat vahidinin əməyi nəticəsində ölkənin şimalından cənubunadək sərhədyanı bölgələrdə yerləşən əksər düşmən qüvvələrinin mövqeyi kəşf edildi. Nəhayət, 1987-ci il noyabr ayının 26-da kəşfiyyat zamanı minaya düşərək şəhadətə qovuşdu.

[2] O, 1987-ci ildə elə həmin Mehran cəbhəsində şəhid oldu.

dolanandan sonra sayları, təchizatın miqdarı, səngərlərin mövqeyi və s. barədə bəs qədər məlumatla geri qayıdardılar. Gətirdiyi son məlumatda düşmənin on iki səngərinə baş çəkdiyini qeyd eləmişdi və ondan sonra bizim Mehran cəbhəmiz "on iki səngər" ləqəbini daşıyırdı. Növbəti kəşfiyyatda Şirməmməd özü ilə bir ratsiya qurğusu gətirmişdi və düşmənin rabitə qrupunda qadın hərbiçinin olduğunu görmüşdü.

Hərdən bəzilərinə görə səngərlərdə siqaret paylanılırdı və bu məsələ məncə, cəbhəmizin mənəvi əhval-ruhiyyəsi ilə uyğun gəlmirdi. Siqaret çəkənlərin hamısı Şirməmmədin ətrafına toplaşardılar. O, həmişə siqaret çəkərkən cibindən xırda penisillin şüşəsinə bənzər bir qab çıxarıb, filtrini içindəki mayeyə batırardı. Mayenin şirin dadı vardı və öskürəyin qarşısını alırdı. Onun qəribə, bəzən də qeyri-adi işləri özünü ciddi aparanların xoşuna gəlməzdi. Amma mənimlə Əliyə xoş təsir bağışlayırdı və ona güzəştə gedərdik. Əli ona deyirdi: "Hər nə istəyirsən elə, bircə kəşfiyyat vaxtı siqaret çəkmə..." Bir dəfə mən də onlara qoşulub, kəşfiyyata getdim. Onlar bu yolu neçə dəfə gedib-gəldiyi surətdə arxamca gəlirdilər. Yol boyu dilimdən "Ya Sahibəz-zaman" zikri düşmürdü və bunu bütün vücudumla deyirdim. Həqiqətən də

inanırdım ki, o həzrət qabaqda, biz isə onun arxasınca gedirik. Onlara da deyirdim ki, biz onu (əc) görməsək də həmişə ardınca hərəkət edirik.[1] Ola bilsin, bu əqidəmə görə – kəşfiyyat üzrə təcrübəli olsalar da – məndən qabağa keçmək istəmirdilər. Nəhayət, özümüzü düşmənin on iki səngərinin arxasındakı yüksəkliyə çatdırdıq. Düşmənə səngərləri arxasından tamaşa etmək mənim üçün gözlənilməz təcrübə idi və Allaha imanımı artırırdı. Kəşfiyyatdan qayıdarkən batalyonun komandiri üçün taqımların hərəkəti və əməliyyat planını hazırladıq. İraqlılar qarşı tərəfdən iki cəbhə arasında maneə məqsədi ilə tikanlı məftil çəkmişdilər. Amma yüksəkliyin iki tərəfində yerləşən yamaclardan onları əhatəyə almaq mümkün idi. Tikanlı məftillərin aralarında ötən əməliyyatdan çəkmələri ilişib qalan və cəsədləri parça-parça olan şəhidlər müşahidə olunurdu. Təəssüflə onlara nəzər salandan sonra ruhlarına fatihə oxudum. Artıq hava açılırdı və düşmən bizi görə bilərdi. Əli dedi ki, əməliyyat gecəsi "benqal" torpedası ilə tikanlı məftil sipəri partladıb, yol açmalıyıq. Kəşfiyyat başa

[1] Bəlkə də bu fikir getdikcə insanda qürur yarada bilərdi. Amma buna səmimi qəlbdən əminəm ki, o (əc), həmişə irəlidə, biz isə onun ardınca hərəkət edirik.

çatandan sonra bütün müşahidələrimizi qeydə alıb, əməliyyat planını komandirə təhvil verdik.

Əməliyyata əsasən, yüksəkliyi ələ keçirmək üçün eyni vaxtda üç taqım – hər birində əlli nəfər olmaqla – mənim taqımım soldan, Əli Fəryadrəsin[1] taqımı sağdan, Əlinin də taqımı (tikanlı məftil sipəri yarmaq şərtilə) qarşıdan hücuma keçməli idi. Fəryadrəsin taqımı silah-sursat yerləşdirmək məqsədilə əməliyyatdan qabaq dağın ətəyində böyük qala qazmışdılar. Hətta orada nə qədər qüvvə də yerləşə bilərdi. Gecə saat 3:30-da əməliyyat elan edilərkən taqımlar eyni vaxtda öz istiqamətindən hərəkətə başladı. Bizim taqımla Əlinin taqımı arasında təxminən yüz metr fasilə vardı. Əli Fəryadrəsin də taqımı sağ tərəfdən irəliləyirdi. Əlbəttə, əməliyyatın dəqiqliyi və müvəffəqiyyəti üçün iki amil böyük əhəmiyyət daşıyırdı: Birincisi, ordunun mühəndis qrupu vaxtında benqal torpedası ilə qarşıdan yol açmalı və ikincisi isə taqımlar düşmən səngərlərinə çatmazdan qabaq artilleriyamız onların mövqelərini ağır atəşə tutmalı idi. Hər şey öz qaydasında getdiyi halda xəbər gəldi ki, orta cinah yolun açılmasını gözləyir. Əməliyyat gecikirdi və kəlbətinlə tikanlı məftilləri qırıb yol

[1] Əli Fəryadrəs bizim Nəhavəndin igid oğullarından biri idi.

açmaq böyük vaxt tələb edirdi. Hətta bu müddətdə düşmən duyuq düşə bilərdi. Nəhayət, torpedanın atəşə hazır olduğu elan edildi. Mən Əliyə demişdim ki, hansı taqım atəşə məruz qalsa, bir-birimizi himayə edək. Torpedanın partlayış səsi əməliyyatın başlandığını bildirdi. Eyni vaxtda artilleriyamız da işə düşərək düşmən mövqelərinə bomba yağdırmağa başladı. Əligil cəmi bir itki verməklə qarşıdan düşmən səngərlərinə yaxınlaşdılar.[1] Zərbə elə dəqiq və gözlənilməz oldu ki, düşmən qüvvələri cəbhəni tərk edib, qaçmağa başladılar. O vəziyyətdə bizim taqım onları təqib edərək heç birinə aman vermədi. Səhər açılarkən yanımdakı əsgərlərdən biri dedi: "Elə bilirəm, diri qalan yoxdur və özüm on səkkiz nəfərin cəsədini yaxından müşahidə elədim." Ölənlərin arasında qəfildən bizim şəhidlərdən birini gördüm. Al-qana boyanan saqqalından əks olan günün şüası gözümü qamaşdırırdı.[2] Bizim və Əligilin səmtindən daha atəş səsi gəlmirdi. Amma sağ tərəfdən eşidilən tankın atəş səsləri səhərin sükutunu pozurdu. Biz öz ətrafımızı nəzərə alaraq

[1] Onların düşmənə belə tez yaxınlaşmağının səbəbi artilleriyamızın güclü atəşi və qabaqcadan minalanmış sahənin təmizlənməsi idi. Təmizləmə işində ən çox zəhməti olan Şirməmməd idi.

[2] Kəbudərahən kəndindən 22 yaşlı bir cavan idi.

hər şeydən xəbərsiz halda işin başa çatdığını güman edirdik. Halbuki sağ cinahdan xəbərimiz yox idi. O tərəfdə Əli Fəryadrəsgil düşmən tanklarının atəşinə məruz qalaraq çıxılmaz vəziyyətə düşmüş və neçə nəfər şəhid olmuşdu.[1] Bizdən bir qədər aralı olan iki batalyon da düşmənin şiddətli atəşi ilə qarşılaşmışdı. Bu əməliyyatda yalnız mənimlə Əli cəmi iki şəhid verərək özümüzü yüksəkliyin zirvəsində fateh kimi hiss edirdik. Birdən əməliyyat komandiri ratsiya ilə əlaqə saxlayaraq əmr verdi ki, tez geri qayıdaq. Deyəsən, bu ərazini daha böyük miqyasda mühasirə təhlükəsi gözləyirdi. Gözüm qarşımdakı şəhidin cəsədindən çəkilmirdi. Taqıma göstəriş verdim ki, geri çəkilsinlər. Özüm də başqa bir əsgərlə şəhidin qolundan tutub, sürüməyə başladım. İndi isə düşmənin yardıma gələn qüvvələri bizi təqib edirdi. Mənin taqımımın hərəkətində maneə yaranmasa da, Əligil arxadan daha tez təhlükəyə məruz qaldılar. Uzaqdan görürdüm ki, o özü partizanlar kimi üzü arxaya doğru atəş açaraq necə qaçır. Nəhayət, yamacların birində onlarla birləşdik. Cəsədi yerə qoyandan

[1] Onun həmkarı Heydər Söhrabi o hadisə və Fəryadrəsin şəhadəti barədə məlumat verərək dedi: "Düşmən tankları atəş açarkən Əli təkbir deyirdi. Birdən mərmilərdən biri onun başını bədənindən üzüb apardı..."

sonra gördüm məndə taqət qalmayıb. Bir tərəfdən düşmən də yavaş-yavaş yaxınlaşırdı. Çarəsiz qalıb, onu təəssüflə yaxınlıqdakı kolluğun arasında torpağa uzatdıq...

Əməliyyatda iştirak edən bütün qüvvələr cəbhəmizə qayıdandan sonra sağ cinahla bizdən aralı olan iki batalyonun verdiyi itki və düşdüyü şərait müzakirə edildi. Onların qarşılaşdığı uğursuzluğa baxmayaraq daha böyük tələfatın qarşısı alınmasında xüsusi tədbir və rolu olan neçə nəfərin adı dillərə düşdü. Onlardan biri əməliyyat bölümünün komandiri Möhsün Ümidi və digəri isə tanımadığım seyid Hüseyn Səmavat idi.[1] Cəbhədə döyüşçü yalnız öz silahdaşının canının mühafizəsi sayəsində şöhrət qazanırdı. Müharibə leksikasında komandirlik rütbəsini xalis bəndəlik, təmənnasız zəhmət, şüur və tədbir təyin edirdi. Zeyl yüksəkliklərindəki əməliyyatdan sonra cəbhə bölgəsində neçə nəfərin də adı xüsusi çəkilməyə başladı. Komandirimiz Əli Şadmani çox təcrübəli bir insan idi, potensial istedadı olanları vaxtında kəşf edirdi. O, yaxşı bilirdi ki, əsil döyüş neçə gündən

[1] Sanki Mehran cəbhəsi komandirliklə bağlı döyüş və sınaq meydanı idi. Belə ki, bir il sonra həmin şəxslər yeni təsis edilən "Ənsar əl-Hüseyn" briqadasının batalyonlarının komandirlərinə çevrildilər.

sonra Dezful və Şuş cəbhələri boyu baş verəcək. Biz adı çəkilən yüksəkliyi ələ keçirə bilməsək də nəzərdə tutulan aldadıcı xırda əməliyyatlarda böyük uğur qazanmışdıq.[1] Bununla belə, fikrim hələ də o cavan şəhidin yanında idi. Bilirdim ki, belə şəraitdə hətta hər hansı şəhidin tapılan adi bir sümüyü ailəsi üçün böyük əhəmiyyət daşıyır. Ona görə təəssüfləndikcə elə bilirdim ki, öz uşağımı orada qoymuşam. Həm də o, mənim öz taqımımın üzvü idi. Əliyə dedim ki, neçə nəfərlə gedib onu gətirmək istəyirəm. Dedi: "Düşmənlə həmin yerin arası çox azdır. Ehtiyatlı olun ki, cəsədin ətrafına və ya altına bomabalı tələ qoya bilərlər." Elə həmin gecə yeddi nəfərlə birlikdə yamaca tərəf yollandım. Cəsədə bir qədər qalmış əsgərlərə dedim: "Siz burada gözləyin. Heç bir təhlükə olmadığı surətdə mənim işarəmlə iki nəfər xərəyi götürüb, yanıma gəlsin. Bir hadisə baş versə, gözləməyib cəld geri qayıdın." Cəsədə on metr qalmış yerə uzanıb, sürünə-sürünə irəliləməyə başladım. Neçə metrliyinə çatıb, diqqətlə ayaq tərəfinə göz gəzdirdim. Cəsədin iki gün qabaq uzatdığımız formasında dəyişiklik görünmürdü. Əlbəttə, zahirdə belə hiss olunurdu. Hər halda altında mina olmadığını yoxlamalı idim. Elə

[1] Bir neçə gündən sonra 1982-ci ilin girişi ilə ölkənin cənubunda böyük miqyaslı "Fəthül-mübin" əməliyyatı başladı.

uzandığım halda – adətim üzrə – əvvəl ruhuna fatihə oxudum. Sonra "bismillah" – deyib, iki qolumu ayaqlarının altından keçirərək onu bir qədər özümə tərəf çəkdim. Buradək bir şey olmadıqda dizi üstə oturub, bir qədər də çəkdim. Təqribən bir metr öz yerindən aralandı. Hər hansı bir tələnin olmadığını yəqin etdikdə, arxaya işarə etdim. İki nəfər əyilə-əyilə gələndən sonra cəsədi götürüb, xərəyin üzərinə uzatdıq. Parlaq siması hələ də işıldayırdı, sanki burada iki gecəni rahat yatmışdı. Onu arxaya gətirəndən sonra könlümdən gözü intizar çəkən valideynlərinə baş çəkmək keçdi.

Biz geri çəkiləndən sonra iki-üç gün ardıcıl olaraq düşmənin atəşi çoxaldı və o qədər artdı ki, bəziləri bunu əməliyyatla əlaqələndirərək onların əlinə yersiz əsas verdiyimiz barədə gileyləndilər. Hərdən o qədər dəqiq nişan alırdılar ki, əsgərlər səngəri tərk edib, arxadakı təpələrin arxasında gizlənirdilər. Bu hadisələrdə də istər-istəməz yaralananlar olurdu.

Bir gün səhər gözümü qarşıdakı yüksəkliyin zirvəsinə zilləmişdim. Gördüm düşmənin bir müşahidəçisi durbinlə bizim cəbhəmizi seyr edir. Hər dəfə müəyyən nöqtəni diqqətlə nəzərdən keçirəndən sonra yanındakı ratsiya ilə rabitə saxlayırdı. Məlum idi ki, həssas nahiyələrimizi topxanaya məlumat verir. Aramızda cəmi beş yüz

metr məsafə vardı. Əlimə J-3-ü alıb, atəş üçün münasib vəziyyətdə uzandım. Həmişə təlim vaxtı belə məsafədən nişan alıb, atəş açarkən hədəfin düz ortasına vururdum. Həmin qayda üzrə hədəfi nişan alaraq barmağımı tətiyin üzərinə qoydum, nəfəsimi dərmədən atəş açdım. Ürəyimcə olmadı və güllə onun kənarına dəyərək bir qədər toz qaldırdı. O isə əhəmiyyət vermədən yerini dəyişdi. Onun verdiyi əlamətlər üzrə səngərlərimizin üstünə üç-dörd top mərmisi endirildi. O, yenidən durbinlə səngərlərimizə nəzər salandan sonra məlumat vermək istədikdə nəfəsimi dərmədən növbəti atəşi açdım. Bilmədim güllə başına, yoxsa sinəsinə dəydi. Amma başı aşağı əyilərkən daş kimi zirvədən aşağı yuvarlandı. Bu vaxt hadisəni səngərlərimizdən müşahidə edən qüvvələrimiz çölə çıxıb, təkbir deməyə başladılar. O gün düşmən topxanasının atəşi söndü və hamı başa düşdü ki, bu neçə gün ərzində başımıza yağan od-alov həmin müşahidəçinin əli ilə baş verirmiş.

1982-ci ilin baharı evdən xəbər verdilər ki, atam xəstədir. Məncə, bir hadisə baş verməsəydi, onun kimi dava-dərmandan uzaq və əli əməkdən kəsilməyən bir əkinçinin xəstələnməyi təbii deyildi. Mən kəndə çatanda onu Nəhavəndin xəstəxanasına aparmışdılar. Məsələnin nə yerdə olduğunu

soruşdum. Dedilər: "Atan sahədə işləyərkən yaxınlıqda ulağın belinə ağır yonca çuvalını qoya bilməyən neçə qadın ondan xahiş edir ki, köməyə gəlsin. Onlar çuvalın bir tərəfindən, atam da o biri tərəfindən qaldırarkən bütün ağırlıq onun tərəfinə düşür və böyrəyi şiddətli ağrıya məruz qalır..." Buna görə neçə dəfə dializ edilmişdi. Çarpayısına yaxınlaşıb başı üzərində dayandım. Əlləri və ayaqları şişmiş, bədəni arıqlayaraq zəifləmişdi. Onunla bir otaqda yatanlar deyirdilər ki, işi daim Quran oxumaqdır. Birdən gözlərini açıb sevinclə dedi: "Oğul, lap vaxtında gəlmisən!" Anladım ki, vəsiyyət etmək fikri var. Dedi: "Nə namaz, nə də oruc qəzam var və heç kimin də boynumda haqqı yoxdur. Bununla belə, məni tanıyanların hamısından halallıq alın!" Bu minvalla onun dilindən eşitdiyim son kəlmələr "Zilzal" surəsinin ayələri oldu. Ondan sonra həmişəlik dünyaya göz yumdu. Atamı elə Dehqanabad qəbristanlığında torpağa tapşırdıq. Mərasim vaxtı dəfnə gələnlərin və onu tanıyanların hamısından halallıq istədim. Nəhayət, yeddi gündən sonra ailəmizlə vidalaşıb, yenidən cəbhəyə qayıtdım.

Hələ də Həmədan vilayətinin qüvvələri say baxımından briqada və ya diviziya həddində deyildi. Odur ki, bu dəfə də Sumarda "Müslim bin Əqil" əməliyyatında iştirak etmək üçün iki batalyon

tərkibində "Məhəmməd Rəsulullah-27" briqadasına qoşuldu. "Kumeyl" batalyonunun komandiri Rza Novruzi idi və o şəhid olandan sonra Səid İslami komandir təyin edildi. "Əmmar Yasir" batalyonunun komandiri isə Nəhavəndin keçmiş pasdarlarından Rza Zərgəri idi və mən də onun taqımlarından birinin komandiri idim. Sumar məntəqəsi hər iki tərəf üçün strateji əhəmiyyət daşıdığından İraqın sərhədyanı bölgəsindəki Məndəli şəhəri ələ keçdiyi surətdə paytaxt Bağdada, o cümlədən, hakimiyyətdə olan Bəəs partiyasına ciddi təhdid və təhlükə sayılırdı. Buna əsasən, düşmən itirdiyi əraziləri geri almaq üçün məntəqəyə hətta prezident qvardiyasınadək ən peşəkar qüvvələri yeritmişdi. Bizim qüvvələr əks-hücumların ən gərgin vaxtında bölgəyə daxil oldu. Döyüşlər Tongdan tutmuş Giskəyədək uzanan yüksəkliklər arasında gedirdi. Yeni əzmkar və iradəli qüvvələrin qətiyyətli müqaviməti nəticəsində düşmən sarsıldı və növbəti əraziləri ələ keçirmək sırası bizə çatdı.

"Məhəmməd Rəsulullah-27" və "Seyyidüş-şühəda-10" briqadaları bölgəyə bizdən qabaq daxil olduğu üçün yolları bizdən yaxşı tanıyırdılar. Deməli, kəşfiyyat məqsədi ilə öz taqımımdan üç nəfər seçib, dərələrin biri ilə yola düşdük. İrəlidə bizdən qabaq yola düşən Tehran qüvvələrinə qoşulub, ardını birgə

getməli idik. Yola düşəndə hava hələ işıqlı idi. Yol boyu təpə və dərələrin sayının çoxluğu hətta gündüz çağı düşmənə yaxınlaşmağa imkan verirdi. Amma həmin yolu axıradək motosikletlə keçmək ağlagəlməz məsələ idi. Bununla belə, təqribən yeddi yüz metrədək aralanıb, dərənin sonuna yaxınlaşarkən arxadan iki nəfərin motosikletlə bizə tərəf yaxınlaşdığını gördük. Bu vaxt düşmən dərəyə minomyotla mərmi tökməyə başladı. Öz-özümə dedim: "Bunlar lap dəlidir! Günün günorta çağı motosikletlə kəşfiyyata çıxmaqmı olar?!" Onlar bizə yaxınlaşandan sonra gördüm ki, birinin ayağı axsayır. Ayağındakı sarğısından yaralı olduğu məlum idi. Onda anladım ki, nəyə görə bura qədər motosikletlə gəlib. Hər halda düşmənin duyuq düşdüyünü nəzərə alarkən bu iş məntiqli deyildi. Həmin şəxs yerə kalka və xəritə sərib, çertyojla bizimlə düşmənin mövqeyini, həmçinin onların arxa cəbhəsinədək uzanan vəziyyəti izah elədi. Motosikleti sürən əsgər ona qardaş Çırağı[1] deyərək müraciət edirdi.

Elə orada bildim ki, Çırağı birbaşa 27-ci briqada komandiri Himmət tərəfindən Sumar məntəqəsi üzrə qüvvələrin təşkili və istiqamətləndirilməsi ilə

[1] Sonra öyrəndim ki, Rza Çırağı "Məhəmməd Rəsulullah-27" briqadasının komandirlərindən biridir.

bağlı komandir təyin edilib. Deməli, dəfələrlə həmin ayaqla bura qədər yolu gəlibmiş və irəliyə doğru düşmənin kəşf edilən ərazilərinə tam bələd imiş. Ona görə də buradək motosikletlə gəlməyi yolun ifşası sayılmırdı. Beləliklə, o, çertyoj üzərində bizə hər şeyi başa salandan sonra motosikletə minib geri qayıtdı. Biz də orada işimizlə bağlı müəyyən müzakirədən sonra kəşfiyyatı sabaha saxlayaraq geri qayıtmağı qərara aldıq. Sanki düşmən də yerimizi dəqiq müəyyən etmək istəyirdi və motosiklet qayıdandan sonra ətrafımıza neçə mərmi endirildi. Çarəsiz qalaraq atəş kəsilənədək oradakı çalaların birində pənah seçməli olduq.

Ertəsi gündən başlayaraq gecə və gündüzə əhəmiyyət vermədən düşmənin ön və daxili sıralarınadək kəşfiyyata başladıq. Hər dəfə rütbəli şəxslərdən neçəsini vəziyyətlə tanış etmək üçün özümüzlə apararaq yollara o qədər bələd olduq ki, gecənin zülmət qaranlığında belə heç bir hadisə baş vermədən istənilən yerə rahat gedib qayıdırdıq. Sol cinahda da kəşfiyyat işləri Əli və onun komandirinin rəhbərliyi altında müvəffəqiyyətlə həyata keçirdi. Onun qabiliyyət və peşəkarlığı sayəsində Məndəli şəhərinin şose yolunadək olan ərazilər kəşf edilmişdi. Bu get-gəllərdə Şirməmməd kimi şıltaqlıq edən uşaqlar da peyda olur, vəzifəsindən kənar

qəribə işlər görürdülər. Cəbhə xəttimizə tam nəzarət etmək olmurdu və hətta komandirlər də elələrinin öhdəsindən gələ bilmirdilər. Məsələn, onlardan biri "Ölüyaran" ləqəbi ilə tanınırdı. Gecələr heç nədən çəkinmədən qabaqkı əməliyyatlardan qarşıda qırılıb qalan düşmən cəsədlərinə baş çəkir, onların üst-başlarını ələk-vələk edib geri qayıdırdı. Döyüşçülərin çəkinmədən belə təhlükəli işlərə əl atmağı məni olduqca təəccübləndirirdi. Bir gecə yenə həmin şəxs belə təhlükəli işdən geri qayıdandan sonra qarşısını kəsərək acıqlı halda dedim: "Bundan sonra belə bir iş görməyə haqqın yoxdur! Bu qədər get-gəllərdən nə əldə edirsən?!" Sözümə əhəmiyyət vermədən əlini cibinə saldı, bir neçə siqaret qutusu çıxarıb mənə göstərdi. Əsəbiləşərək dedim: "Bunu bil ki, əgər ölsən, siqaret yolunda şəhid sayılırsan!" O isə kefini pozmadan dedi: "Qardaşım, çaşma. Siqaretdən başqa düşmən səngərlərindən ürəyin istədiyin qədər quru süd gətirmişəm." Daha gülümsəməyimi gizlədə bilməyərək dedim: "Hər halda belə şeylərə görə irəli getməyə haqqın yoxdur!"

Nəhayət, kəşfiyyat işləri başa çatdı. Amma hələ ki, əməliyyatdan xəbər yox idi. Beləcə, 45 gün gəlib keçdi və yavaş-yavaş səngərlərdə geri qayıtmaqla bağlı söz-söhbət yaranmağa başladı. Bəzən

durğunluq və döyüşdən uzaqlaşma cəbhə bölgələrində qəribə yorğunluq hissi yaradırdı. O zaman bir-bir səngərlərə baş çəkir, hər bir dəstə və qrupla söhbət edərək əməliyyat elan olunanadək səbirli olmağı tövsiyə edirdim. İmamın buyruqları, şəhidlərin yolu və boynumuza düşən vəzifədən danışarkən yenidən iradələr möhkəmlənir, cəbhəyə təskinlik qayıdırdı.

Əməliyyatla bağlı son müşavirə üçün Sumarın "Şəhid Behişti" qərargahına yollandıq. Orada yenidən Rza Çırağı ilə görüşdük. O, 27-ci briqadanın komandiri vəzifəsində batalyonların əməliyyata hazırlığı ilə məşğul idi. Batalyonlardan tutmuş xırda dəstələrədək bütün komandirlərə döyüş planı müəyyən edilmişdi. Bizim hərəkət istiqamətimiz "Kumeyl" batalyonunun sağ tərəfində yerləşirdi və qarşımızdakı yüksəkliklər ələ keçdiyi təqdirdə qüvvələri irəlidə yerləşən düzənliyə, o cümlədən, Məndəli şəhərinin girişindəki xurma bağlarına doğru yönəltməli idik. O vaxt müdafiə xəttimizin stabilliyi üçün ideal vəziyyət yaranırdı.

1982-ci il 30 dekabrda axşam "Zeynəlabidin" rəmzi ilə neçə istiqamətdən "Müslim bin Əqil" əməliyyatının ikinci mərhələsi başladı. Əməliyyatda bizim sepah qüvvələrindən başqa ordunun "Aşura-31" və "İmam Rza-21" briqadalarının qarışıq

qoşunları da iştirak edirdi. Bizim taqım həmişə getdiyimiz dərə ilə təyin olunan nöqtəyədək hərəkət edəndən sonra birdən düşmənin atəşi ilə qarşılaşdı. Atəşdən yayınmaq üçün təpənin ətəyi ilə sağ tərəfə dönərək hərəkətə başladıq və kəşfiyyatdan sonra yeni salınan tikanlı məftillərlə qarşılaşdıq. Elə orada sıramız pozuldu və hərə öz ixtiyarı üzrə döyüşə girişdi. Bir qismi davam gətirməyib geri çəkildi, neçəsi isə maneələri sovuşaraq şoseyədək irəlilədi. Təəssüflər olsun ki, onların hamısı orada şəhadətə qovuşdu və cəsədlərini geri gətirməyə imkan olmadı.

Artıq hava işıqlanırdı. Deyəsən, düşmən qabaqcadan əməliyyatdan xəbər tutmuşdu. Bu qədər zəhmətə baxmayaraq müvəffəqiyyətimiz çox cüzi idi. Neçə şəhid və yaralıdan əlavə hələ əsir düşənlərimiz də vardı. Özüm də uzaqdan onların maşına mindirilib aparıldığının şahidi oldum.

Əməliyyatdan sonra kefimiz tamamilə pozulmuşdu və müvəqqəti də olsa, cəbhəni tərk etmək istəyirdim. Ruhiyyəmizi yüksəltmək üçün batalyon komandirinin göstərişi ilə Məşhədə ziyarət səfəri təşkil edildi. Səfərə özümlə ailəmi də apardım. Orada komandirlərdən Səid İslami və Həsən Türklə aramız daha çox yaxınlaşdı. Həsənin gözəl səsi vardı və avazla Quran oxuyardı. Onunla birgə hərəmə

gedər, həsrətlə şəhid dostlarımızı yada salaraq kədərlənərdik. Onun kimi şəhid Əli Şirinin də gözəl səsi vardı. Ona əməliyyatdan qabaq gecə Quran oxuyub, çantasına əsgər adyalı qoyarkən dedim: "Çalış çantan yüngül olsun və silah-sursatdan artıq şey götürmə." Mənə dedi: "Silah-sursatım bunlar yox, Allaha və onun canişinlərinə iman, həmçinin göstərişlərinə əməldir." Elə onda anladım ki, şəhadət həmin gecə onun qismətidir. Hər halda sözümü yerə salmamaq üçün adyalı çıxarıb, yerinə bir qədər giliz və qumbara qoydu.

Hərəmin həyəti və salonlarını dolandıqca bir-bir şəhidləri xatırlayır, bəzən də sanki kənarında dayanıb, mənimlə birgə ziyarətnaməni oxuduqlarını hiss edirdim. Yanımda Həsənlə Səid olsa da uşaqlarını itirən bir ata kimi ətrafı süzür, iztirab içində gözlərim yol çəkirdi. Onlar məndən "Nədir? Kimi axtarırsan?" – deyə soruşduqda, "Uşaqlarımı axtarıram" – deyirdim. Səid zarafatcıl bir insan idi. Məqsədimi anlasa da mənə sataşaraq deyirdi: "Yoldaşından təzə ayrılmısan ki! Ziyarətdən sonra görüşərsən də!" Həqiqətən də yoldaşımın qabağında başım aşağı idi və həmişə evdə tək olardı. Elə inqilabdan qabaq Tehranda və Abadanda işlədiyim zamandan müharibə başladığı və indinin özünədək evdə tapılmazdım və ürəyi qarşıya çıxan belə

ziyarətlərdə şad olardı. Ziyarətdən bir gün sonra Səid dedi ki, tezliklə Həmədanın "Ənsar əl-Hüseyn" piyada batalyonu müstəqil briqadaya çevriləcək və bu məqsədlə ölkə üzrə bütün rayon və şəhərlərin ayrıca batalyon təşkilinə icazə verilib. Beləliklə, uzun-uzadı idarə işləri, müxtəlif briqada və qoşunların tərkibinə qoşulma hallarından xilas olaraq cəbhədə hər hansı əməliyyata rəhbərlik öz ixtiyarımıza keçirdi. Səid sözünün ardınca mənim üçün də müəyyən vəzifənin nəzərdə tutulduğunu qeyd elədi.

Ziyarətdən sonra kəndə qayıtdıq. Tezliklə üçüncü övladımız da dünyaya gələcəkdi. Briqadanın təşkili məsələsi də fikrimi yaman qarışdırmışdı. Ailəmə hədsiz məhəbbətə baxmayaraq, özümü İslamabaddakı hərbi hissəyə yetirməli idim. Yola düşməzdən qabaq fikirləşdim ki, ailəni kənddən Nəhavəndə köçürməyim məsləhətdir və bundan sonra həm yoldaşım valideynlərinə yaxın olar, həm də ayrılığımızı çox hiss etməzlər. Odur ki, qardaşımla şəhərdə şərikli olaraq xudmani bir ev icarə edəndən sonra arvad-uşağımızı orada yerləşdirib, İslamabada yollandıq. Yoldaşım da halımı dərk edərək məndən uşağın dünyaya gəlişinədək gözləməyimi xahiş etmədi.

1983-cü ilin mart ayında Həmədan vilayəti müstəqil briqadasının təşkili başa çatdı. Komandirlərin yığıncağı və müzakirəsindən sonra briqada – cəbhə bölgələrində imam Hüseynə (ə) silahdaşlıq borcunu ifa etmək məqsədilə – "Ənsar əl-Hüseyn-32" adlandırıldı. Yığıncaqda hər bir rayonun və ya neçə rayonun birgə batalyonunun təşkili məsələsi də qarşıya qoyuldu. O vaxt bizim rayon özü ayrıca 350 nəfərdən ibarət batalyon təşkil etməyə qadir idi və bundan sonra onun adı və komandirinin təyini məsələsi qalırdı. Mənə adı əhəmiyyət daşısa da komandirin kimliyi mühüm deyildi və sadəcə bir əsgər kimi hər hansı vəzifədə çalışmağa hazır idim. Hətta eşitmişdim ki, briqadanın komandiri Hüseyn Həmədani[1] batalyonların adlarının təyini üçün Kərbəla şəhidlərinin adlarından seçimlə bağlı Ayətullah

[1] "Xürrəmşəhrin fəthi və Beytül-müqəddəs əməliyyatından sonra Həmədan vilayətinin birləşmiş batalyonlar briqadasının komandirliyi mənə tapşırıldı. Briqadanın adı əvvəlcə şəhid Ayətullah Mədəninin adını daşısa da komandirlərlə müzakirədən sonra "Ənsar əl-Hüseyn" adı ilə əvəz edildi. Batalyonların adının təyini məsələsində də bunu rayonların özünə həvalə elədi. Çünki əksər qüvvələrimizi əhalinin öz içindən cəlb edilən könüllülər təşkil edirdi. Həmçinin yolum Məlayirə düşərkən bu məsələ ilə bağlı Ayətullah Rza Fazilianla da görüşümüz oldu." General Hüseyn Həmədani ilə müsahibədən, 29 iyun, 2014.

seyid Rza Fazilianla görüşüb. Cəbhəçilər üçün bir növ mürşidə çevrilən bu mənəvi kamal sahibi də Kərbəla şəhidlərindən Əbülfəzl Abbas (ə), Əli Əkbər (ə), Əli Əsgər (ə), Qasim (ə), Həbib bin Məzahir, Müslim bin Əqil və s. adları təklif etmişdi. Hər bir ad müqəddəs rəmzi daşıdığı halda mənim üçün həmişə Kərbəla səhrasının səqqası xüsusi məna daşıyırdı. Hər dəfə həzrət Əbülfəzlin adı gələndə keçmiş xatirələrim baş qaldırır, atamın əza günlərində oxuduğu "Əbəl-qirbə"[1] rövzəsi yadıma düşürdü. İmam Hüseynə (ə) təvəssül edərək istəyirdim ki, həmişə həzrət Əbülfəzlin bayrağı altında olaq.

Nəhayət, Hüseyn Həmədani (briqada komandiri), Səid İslami (onun canişini), Mehdi Badami (heyətin sədri) və Cəfər Məzahiridən (plan-əməliyyat üzrə müavin) ibarət briqadanın komandirlik şurasında təşkil edilən yığıncaqda hər bir batalyonun komandiri və adı aşağıdakı ardıcıllıqla qeyd edildi:

1. "Müslim bin Əqil-151", Məlayir rayonunun qüvvələri, komandir Möhsün Zamani, canişini Həsən Tacuk.[2]

---

[1] "Su məşkinin atası".

[2] Bir müddətdən sonra Həsən Tacuk batalyonun komandiri oldu. O, beş il bu vəzifədə çalışandan sonra 1987-ci ildə şəhadətə çatdı.

2. "Əbülfəzl-152", Nəhavənd rayonunun qüvvələri, komandir Cəlal Fütüvvət, canişini Mirzəməhəmməd Sulgi.[1]

3. "Qasim-153", Tuyserkan rayonunun qüvvələri, komandir Möhsün Eynəli, canişini, Möhsün Türkaşvənd.[2]

4. "Əli Əkbər-154", Həmədan və Bahar şəhərlərinin qüvvələri, komandir seyid Hüseyn Səmavat, canişini, Məhəmməd Hacıluyi.[3]

5. "Əli Əsgər-155", Həmədan, Əsədabad və Kəbudərahəng şəhərlərinin qüvvələri, komandir Rza Mirzayi.[4]

---

[1] İki aydan sonra briqada komandirinin məsləhəti ilə batalyon komandirliyi mənə tapşırıldı. Bundan sonra axırıncı dəfə yaralandığım vaxtadək beş il onun komandiri oldum.

[2] Möhsün Eynəli şəhid olduğu 1986-cı ilin may ayınadək dörd il onun komandiri oldu. Ondan sonra tərtiblə əvvəl Möhsün Türkaşvənd, sonra Qasim Məhəmmədi (şəhid), sonra da Əli Məliki (şəhid) onun komandirləri oldular.

[3] Seyid Hüseyn Səmavatın komandirliyi hamıdan qısa çəkdi və o, iki aydan sonra şəhid oldu. Ondan on gün sonra müavini də 1983-cü ilin iyul ayında "Vəl-fəcr" əməliyyatında şəhadətə yetdi. Daha sonra Rza Müstəciri, Mehdi Ruhani, Rza Şükripur (şəhid), Möhsün Ümidi (şəhid), Rza Zərgəri, Salar Abenuş və Bəhram Mübarəki (şəhid) onun komandiri oldular.

[4] Ondan sonra Həmidrza Rəhbər, Səttar İbrahimi (şəhid) və Abbas Zamani onun komandiri oldular.

6. "Hürr bin Riyahi-156", Həmədan və Tabeə məntəqələrinin qüvvələri, komandir Möhsün Ümidi.[1]

Briqadanın digər bölümlərinə də Əli Çitsazian, Həsən Türk və s. qabiliyyətli və təcrübəli kadrlar rəhbərlik edirdi və hər biri ilə qabaqcadan əlaqəm vardı.

Briqada və batalyonların təşkilindən sonra 1983-ci ilin novruz bayramı ərəfəsində evdən xəbər verildi ki, üçüncü övladım da dünyaya göz açdı. Nəhavəndə qayıdıb, ailənin vəziyyəti ilə maraqlanandan sonra sepahın mərkəzi komitəsinə də baş çəkdim. Orada xətrini istədiyim ruhani vəzifəsini daşımaqla bərabər pasdar Əlirza Əkbəri[2] ilə görüşdüm. Bilirdi ki, növbəti övladım olub. Soruşdu: "Adını nə qoymusuz?" Həzrət Əbülfəzlə olan məhəbbətimi nəzərə alaraq tərəddüdsüz "Əbülfəzl!" – demək istəyərkən, ani olaraq duruxub soruşdum: "Səncə, adını nə qoysam yaxşıdır?" O isə cavabımda Həzrət Peyğəmbərdən (s) Salman Farsi

[1] Briqada komandiri lazım gəldikdə ona istənilən vəzifəni həvalə edirdi. O, özü batalyonun təşkilatçısı olduğu halda idarə işlərindəki qabiliyyətinə görə sonralar diviziya canişini təyin edildi. Rza Şükripurun şəhadətindən sonra "Əli Əkbər" batalyonunun komandirliyi də ona tapşırıldı. Nəhayət, Məcnun adasında böyük rəşadət göstərərək şəhadətə qovuşdu.

[2] "Kərbəla-5" əməliyyatında şəhid oldu.

barədə bir hədis nəql etdi: "Salman biz Əhli-beytdəndir!" Beləliklə, yoldaşım, o cümlədən, qohum-əqrəbamız da bu adı bəyəndilər və uşağın adını Salman qoyduq.

***

Yaz fəslinin birinci günü hərbi hissəyə qayıtdım. Hüseyn Həmədani görüşdə dedi: "Bu gündən etibarən sən "Əbülfəzl" batalyonunun komandiri sayılırsan və komandir Fütüvvət Nəhavəndə qayıdır." Belə dəyişiklik briqadanın canişinliyində də baş verdi və Səid İslaminin yerinə Əli Şadmani təyin edildi. Həzrət Əbülfəzldən bir dərs olaraq bilirdim ki, belə hallarda əsas məsələ əmrə və rəhbərliyə itaətdir. Cəlal Fütüvvət dostum, cəbhə yoldaşım və həmyerlim olmasına baxmayaraq, briqada komandirinin əmri ilə rəsmi şəkildə batalyonun komandirliyini öhdəmə aldım.[1]

[1] Sonralar briqadanın komandir canişini və komandiri olan Cəfər Məzahiri bu tələsik dəyişiklik barədə belə məlumat verdi: Mirzə Sulgi briqadada aşağı rütbəli zabitlər arasında xüsusi olaraq fərqlənirdi. Döyüş təcrübəsi, idarə işləri, xalis dindarlığı, Quran və hədislərə dair geniş məlumatı sayəsində hamının gözündə yüksələrək "Kapitanların şeyxi" ləqəbini qazanmışdı. Bu atributları nəzərə alınaraq briqada komandiri tərəfindən batalyonun komandiri təyin edildi." General Cəfər Məzahiri ilə müsahibədən, Həmədan, 27 oktyabr, 2013.

Hərbi hissəmizə yüksək mənəvi əhval-ruhiyyə hakim idi. Sıralarımızda ardıcıl olaraq dəstə-dəstə cavan könüllü və pasdar qüvvələr qoşulurdu. Hər biri öz gəlişi ilə aramıza saf təravət, mənəvi təəssürat bəxş edirdi. Gecə namazları camaat namazlarına bənzəyir, hamı gecələr mənəvi azuqə toplayıb, gündüzlər hərbi təlim alırdı. Bəzən axşam təlimləri səhərədək davam edir, təqribən on səkkiz saatadək ayaq üstə olurduq. O zaman hamının ayaqları qabar bağlayırdı. Belə hallarda dözüm hissini artırmaq üçün Quranın dərin hekayətlərinə və dini moizələrə əl atmaqdan başqa çarəm qalmırdı. Onların qarşısında dayanıb, hər hansı bir mövzuya toxunarkən həqiqətən xəcalət çəkirdim. Yorğun və nurlu gözlərinə baxmamaq üçün hər hansı söhbət və moizələri gecəyə saxlayırdım. Yavaş-yavaş batalyonda gecə moizələrim bir adətə çevrilirdi. Rütbəmi nəzərə almadan əsgərlərlə aramda səmimi rabitəni qoruyur, istənilən vaxt zarafat edir və ya ürək sözlərini deməyə şərait yaradırdım. Bir dəfə taqımlardan birinin komandiri Əhməd Mövləvi moizəm başa çatandan sonra mənə yaxınlaşdı, əllərimi sıxaraq gülümsər halda dedi: "Cəmi altıncı sinifədək təhsil alan bir kəndli balası belə sehirli kəlamı haradan əldə edib?!" Sözündən xəcalət çəkdiyimi görərkən əyilib, əllərimdən öpməyi lap

maraqlı idi.[1] Bəzən təlim zamanı işlərimi müavinimə tapşırıb, hamıdan gizli şəkildə kəşfiyyat-əməliyyat qrupu ilə Sərpol-zəhaba doğru gedir, maşınla Zəhab düzənliyini keçəndən sonra Beşqan qayalıqlarına qədər 10 km yolu piyada getməli olurduq. Hərdən yüksəkliklərdə kəşfiyyat işi uzanarkən gündüzləri orada olan mağaralarda keçirir, hava qaralandan sonra ertəsi gün geri qayıdırdıq. Yayın tez gələn istisində susuzluq amanımızı qırarkən kəşfiyyata olan maraq hissi canımıza qüvvət verirdi. Qayıdandan sonra əməliyyat barədə döyüş planı və taqımların mövqeyi müəyyən edilməyincə hətta yaxın silahdaş və dəstə komandirlərinə belə kəşfiyyat barədə məlumat vermirdim. Qarşıda Beşqan yüksəklikləri bir div kimi baş qaldıraraq ucalırdı və düzənlik boyu bütün cəbhəyə sayə salırdı. Beşqan yüksəklikləri Mehranla Sumarın dağlıq massivlərindən tamamilə fərqlənirdi. Onun ətəklərinə çatmaq üçün heç bir maneəsi olmayan açıq və geniş düzənliyi keçmək və bundan sonra yuxarı qalxmaq lazım gəlirdi. Bu isə qüvvə və cismi baxımdan yüksək hazırlıq tələb edirdi. Odur ki,

[1] Yadımda ikən Əhməd öz toyu günü oruc tutmuşdu və o vaxtdan belə xətrini çox istəyirdim. Batalyonun təşkilindən sonra hər bir mühüm işdə onun rolu vardı. Bu qeyrətli komandir Vəlfəcr-5 əməliyyatında şəhadətə çatdı.

təlimlərdə 50-60 km-lik marafonlar təşkil edirdik. Hərdən qüvvələrin yol boyu bir ovuc su içmədiyini və ya ümumiyyətlə, su qabı götürmədiyini eşidəndə, gecələr onlara moizəmdə Kərbəla səhrasında baş verənləri, həzrət Əbülfəzlin o şəraitdə hətta bir qurtum su içmədiyi kimi hadisələri misal çəkərdim. Söhbətlər matəm və rövzə halını aldıqda isə batalyonun məddahı səsini ucaldaraq Əlqəməni[1] xüsusi hüznlə təsvir edərdi. Rövzə əsnası Beşqan yüksəklikləri gözümün önündən keçərkən həzrət Əbülfəzlə təvəssül edərək deyərdim: "Siz var ikən imam Hüseynin (ə) çöhrəsinə qəm çökmədi.[2] Elə isə bizə də kömək et ki, vəzifəmizə imam Xomeyninin buyurduğu kimi əməl edək və bu çətin əməliyyatdan üzü ağ çıxaq ki, onun da çöhrəsinə qəm-qüssə çökməsin!"

İşimiz irəli getdikcə əməliyyatın əhəmiyyəti və miqyası da bir o qədər artırdı. Bizimlə bərabər "Məhəmməd-rəsulullah-27" və "Seyyidüş-şühəda-10" briqadaları da əməliyyata hazırlaşırdı. Bu əsnada müzakirə üçün Kermanşaha - ordu ilə sepahın müştərək qərargahına çağırıldım. Yığıncaqda əməliyyatda döyüşəcək bütün briqada və batalyon

[1] Həzrət Əbülfəzlin şəhid olduğu məkan.

[2] "Ya kaşifəl-kərbi ən vəchil-Huseyn (ə)..." məşhur duadan bir parça.

komandirləri iştirak edirdi. Bütün qoşunların komandiri pasdar hacı Himmət idi. Onu ilk dəfə Sumarda görmüşdüm və amma birinci dəfə idi ki, söhbətini dinləyirdim. O, mövcud məlumat və materiallar əsasında düşmənlə bizim mövqeyimizi geniş açıqlayandan sonra bir daha hər qoşunun vəzifələrini dəqiq qeyd elədi. Bir çoxları kimi mənim də ağzım açıq qalmışdı. İmamın əsil mücahid təfəkkür tərzi əsasında müharibənin strateji dəqiqliklərinə dair onun dilindən çıxan fikir və ideyalar ağlasığmaz idi və onun sayəsində biz pasdarlar nisbətən yaşlı və təcrübəli ordu zabitləri müqabilində qürur hissi keçirirdik.

Hava qaralandan sonra dəstəmaz alıb, namaza hazırlaşarkən gördüm ki, rütbəsindən asılı olmayaraq yığıncaqda iştirak edənlərin hamısı komandir Himmətin arxasında namaza dayandı. Gəlib camaat namazına qoşulunca ikinci rəkət başladı. Qunutda onun hüznlü və mənəvi raz-niyazına o qədər məftun oldum ki, hətta camaata qoşulmağı belə bir anlıq unutdum...

***

Hərbi hissəyə qayıdandan sonra əməliyyata hazırlıq məşqlərinə başladıq. Bu arada xəbər verdilər ki, "Əli Əkbər" batalyonunun komandiri təlim məşqində təsadüfü açılan atəş nəticəsində şəhid

olub. Əməliyyatdan qabaq sevimli silahdaşımız seyid Hüseyn Səmavatın şəhadəti böyük itgi olsa da bütün batalyonlarda xüsusi təlatüm yaratdı. Briqada komandiri dərhal onun yerinə Rza Müstəcirini təyin etdi. Əməliyyata neçə gün qalmış son təlimləri Beşqana oxşar Dalahunun yüksəkliklərində keçirdik. Təlim vaxtı qoşunları iki hissəyə – öz və fərzi düşmən qüvvələrinə ayırıb, bacarıqlı və təcrübəli qüvvələri nəzərdə tutulan yüksəkliklərdə yerləşdirdik. Bizim qüvvələr Məhəmmədhüseyn Məhcub, Mütəllib Qeysəri və Əliməhəmməd İsfəndiyarinin komandirliyi ilə üç taqımda gecə yarısı qarşıdakı düzənliyə doğru irəliləməli və 20 km hərəkət edəndən sonra yüksəkliklərin ətəyinə yetişməli, nəhayət, düşmən səngərlərinə hücum etməli idilər. Bu zaman fərzi düşmən qüvvələrinin qarşı tərəfdə qorxu yaratmaq üçün havaya istənilən qədər atəş açmağa ixtiyarı vardı. Özüm fərzi düşmən qüvvələrinə tapşırmışdım ki, taqımların təlim zamanı qarşıya çıxan hər hansı nöqsanlarını qeydə alsınlar. Amma iki-üç gün çəkən manevrdə əsasən bizim qüvvələr gecənin qaranlığında düşmənin gözlərindən yayınaraq "Allahu əkbər" sədaları altında qəfil hücumlarla onları yaxalayır və fərzi düşmən əsgərlərini tərki-silah edirdilər.

Əməliyyatdan əvvəl sonuncu dəfə kəşfiyyata getməli olduq. Kəşfiyyatda batalyonların canişinlərindən tutmuş taqım və dəstə komandirlərinədək rütbəli kadrlar iştirak edirdi. Yola düşməzdən qabaq komandirlərdən biri (Əhməd Kərəməli) mənə dedi: "Batalyonumuz həzrət Əbülfəzlin adını daşıdığı üçün susuzluq məşqini keçməliyik." Beləliklə, əlli dərəcə istidə Zəhab düzənliyindən Beşqana kimi neçə kilometrlik yolu piyada gedərək kəşfiyyat-əməliyyat qrupunun köməyi ilə son dəfə qüvvələrin hərəkət istiqamətini dəqiqləşdirdik. Qayıdarkən ciyərimiz susuzluqdan yanırdı, boğazımız qupquru və dodaqlarımız çat-çat idi. O həzrətin məramına hörmət olaraq yol boyu heç kəs su qabına əl uzatmadı.

Yavaş-yavaş Beşqanın divəbənzər heybət və vahiməsi gözümdə o qədər kiçildi ki, əməliyyat əmri verilən kimi tez bir zamanda onun boynunu qıracağımızı düşünürdüm. Amma bu əmrin yerinə briqada komandirliyi tərəfindən başqa xəbər gəldi: "Bütün batalyon komandirləri öz vəzifələrini canişinlərinə tapşırıb, üç saat ərzində Kermanşahın hərbi qərargahında olsunlar!" Bu gözlənilməz xəbər nigarançılıqları artırdı. Halbuki əməliyyata fiziki və ruhi hazırlıq yüksək səviyyədə idi. Deyəsən, şimal-qərb cəbhəsi boyu başqa əməliyyata yollanmalı idik.

Bu xəbəri qərargaha girərkən eşitdim. Hələ neçə gün qabaq radiodan şimal-qərb cəbhəsində böyük əməliyyat gözlənildiyi, o cümlədən, həmin nahiyələrdə qüvvələrimizin müvəffəqiyyəti barədə yaxşı xəbərlər səslənirdi. Amma nədənsə qərargahın komandirliyi bizimlə "Seyidüş-şühəda-10" briqadasını şimal-qərbə – "İmam Hüseyn-14" və "Nəcəf-əşrəf-8" qoşunlarına köməyə göndərərək "Vəlfəcr-2" əməliyyatına başlamağı qərara aldı. Bir tərəfdən "Məhəmməd rəsulullah-27" qoşunu da eyni vaxtda "Vəlfəcr-3" əməliyyatına başlamaq üçün Mehran tərəfə yola düşdü. Sərpol-zəhabla şimal-qərb cəbhəsi arasında məsafə çox idi və biz qoşunlarımızdan qabaq məntəqə ilə tanış olmalı idik. Vaxtı itirməmək üçün təyyarə ilə uçmaq lazım gəlirdi. Dərhal batalyonların və briqada komandiri, eləcə də onun müavinləri ilə birgə Kermanşah aeroportundan nəzərdə tutulan səmtə uçduq. Sərhədlə fasiləmiz az olduğundan düşmənin qəfil quru və ya hava hücumuna məruz qalmamaq üçün təyyarə əvvəl istiqamətini Həmədana döndərib, sonra da Urumiyə tərəfə yönəldi. Təyyarəmiz iyirmi sərnişinlik kiçik təyyarə növündən idi və təsadüfən Nəhavəndin səmasından keçirdi. Nisbətən alçaqdan uçduğumuzdan pəncərədən şəhəri seyr edərkən hətta icarə etdiyimiz evimizi belə müşahidə etdim.

Hüseyn Həmədani mənim diqqətlə aşağı baxdığımı görüb, "Vətənin iyini hiss edirsən?" – deyərkən cavab verdim: "Maraqlıdır, öz evimizi gördüm! Əgər bir az da aşağıdan uçsaydıq, həyətdə uşaqlarımı da görə bilərdim." O da zarafatla dedi: "Nə qədər gec deyil, pilota deyim ki, səni burada endirsin!" Eynəli Müstəciri, Çitsazian, Həsən Türk, Ümidi, Tacuk və başqaları maraqla mənə və mən də şəhərə baxırdım. Bir anlıq hətta harada olduğumuzu unudaraq özümü evdə, arvad-uşağımın kənarında hiss elədim. Üç ay idi ki, sonuncu beşaylıq övladımı görmürdüm. Yuxarıdan aşağı tamaşa edərkən həqiqətən həyəcanımı gizlədə bilmirdim. Kövrəldikcə bütün cəbhə yoldaşlarım gözümün önündə sıraya düzülürdü və anlayırdım ki, batalyonumuzun hamısı neçə aydır mənim kimi ev-eşiyindən uzaq düşüb.

Günorta vaxtı Urumiyəyə çatdıq. Briqada komandiri dedi: "Sabahdan etibarən briqadanın bütün qoşunları Sərpol-zəhabdan yola düşərək bir-iki gün ərzində Nəqədəyə yetişəcəklər". Təyyarədən enəndən sonra Urumiyənin sərin bahar mehi cənubun isti havasında yanan dərimi nəvaziş etməyə başladı. Orada helikopterə minib, əməliyyat məntəqəsindəki qərargaha yollandıq. Şimal-qərbin hərbi qərargahında təşkil edilən yığıncaqda

"Seyyidüş-şühəda-10" briqadasının komandiri Əli Müvəhhid bizə, o cümlədən, yeni gələn qüvvələrə vəziyyətlə bağlı məlumat verdi. Hal-hazırda o, əməliyyat planı və taktikası üzrə komandir canişini vəzifəsini daşıyırdı. Görkəmindən Həsən Türkə oxşadığından bir gözüm onda, bir gözüm də Həsəndə idi və sanki bir almanı yarıya bölmüşdülər. Onları fərqləndirən yeganə əlamət onun bir qolunun olmaması idi. Ötən yığıncaqda İbrahim Himmətin atəşli çıxışı kimi Əli Müvəhhidin kəlamında da qeyri-adi kəsər müşahidə olunurdu. Bu cavan pasdar köynəyinin sağ qolunu kəsilən hissəyədək qatlamışdı. Onun heç bir hərbi təhsili olmadığı halda söhbətinə hətta xaricdə təhsil və təlim alan təcrübəli ordu zabit və komandirləri diqqətlə qulaq asırdılar. Sözlərindən elə görünürdü ki, qoşun bölmələrinin manevr problemi ilə bağlı, bəziləri əməliyyatın davamı ilə razı deyillər. O, verilən suallara dəqiq cavab verərək hamını irəli sürdüyü ideya əsasında əməliyyatın davamına qane etdi. Sonra üzünü Hüseyn Həmədaniyə tutaraq dedi: "Tez bir zamanda "Ənsarul-Hüseyn" briqadasının batalyonlarından biri hava nəqliyyatı vasitəsilə "Kedu" zirvəsinə endirilməli və qalan batalyonlar da İraqın "İmran" hərbi hissəsinin yaxınlığında yerləşəndən sonra əməliyyatın davamı əmrini gözləməlidirlər!"

Allahın köməyi ilə iki min nəfərlik briqada heç bir pusqu və qəfil hücumsuz Sərpol-zəhabdan Nəqədəyə gəlib, böyük bir meydançada yerləşdi. Kedu zirvəsinə mənim batalyonumun göndəriləcəyi təyin edilərkən Hüseyn Həmədani soruşdu: "Mirzəməhəmməd, hazırsan?" Mən də dedim: "Allahın izni ilə, bəli!"[1]

Bir neçə komandirlə qüvvələrin yerləşdiyi Nəqədənin idman meydançasına baş çəkdim. Bu

[1] "Ordu və sepah komandirlərinin Vəlfəcr-2 əməliyyatının davamı ilə bağlı yığıncağında hamını nigaran edən strateji əhəmiyyətli Kedu zirvəsi idi. Bu zirvə sanki qartal kimi caynaqlarını məntəqədə yerləşən bütün yüksəkliklərə salmışdı. Ona hakim olmaq bütün yüksəkliklərə hakim olmağa bərabər idi. Belə strateji əhəmiyyətinə baxmayaraq sıldırım qayalıq və dərələrinə görə iki tərəfdən heç biri ora qüvvə yeridə bilməmişdi. Yayın isti çağına baxmayaraq zirvənin bəzi nahiyələri hələ də qarlı idi. Ora göndərilən qüvvə düşməndən başqa onun sərt soyuğu ilə də mübarizə aparmalı idi. Zirvəyə bizim briqadadan qüvvə göndərilməyi barədə hökm verilərkən mən özüm "Əbülfəzl" batalyonunun münasib olduğunu fikirləşdim və bu məsələ onun komandiri Mirzəməhəmmədin spesifik səciyyələri ilə bağlı idi. Onda bir mücahid üçün tələb olunan əzm, iradə, yenilməzlik, zəka, ixlas, təvəkkül, iman və s. kimi bütün keyfiyyətlər var idi. Batalyon komandirlərinin yığıncağında hansı birinin bu vəzifənin könüllü surətdə öz üzərinə götürməyini söyləyərkən heç kimdən səs-səmir çıxmadıqda, həmin işə hazır olduğunu deyən ilk şəxs Mirzəməhəmməd oldu." "Ənsarul-Hüseyn-32" briqadasının komandiri general Hüseyn Həmədani ilə müsahibədən, Həmədan, 29 iyun, 2014.

rayonun səmimi və dindar şiə və sünni, kürd və türklərdən ibarət əhalisi bizi adi ərzaqdan tutmuş pal-paltaradək elə qonaqpərvərliklə qarşıladılar ki, o zamanacan cəbhə bölgələrində bunun misli görünməmişdi.

Batalyonu əməliyyata hazırlamaq üçün əvvəlcə "Aşura" ziyarətnaməsini oxuduq və sonra qaranlıqda həmişəki kimi onlar üçün söhbət elədim. Sözümün axırında dedim: "Bu, həzrət Əbülfəzl batalyonunun birinci ciddi sınaq meydanıdır və onun özü kimi biz də İmama sadiq olduğumuzu göstərməliyik!" Daha sonra taqım və dəstələrin komandirləri ilə xüsusi yığıncaqda Əli Müvəhhidinin tapşırığı üzrə Kedu zirvəsində əməliyyat planını izah elədim. Zirvəyə tam hakim olmaq üçün hətta dəqiqələr belə əhəmiyyət daşıyırdı. Yüksəkliyin Təmərçin, Qəmtərə, Kinəg kimi bir sıra nahiyələri qabaqcadan azad edilmişdi. Amma İraqın "İmran" hərbi hissəsinin 15 km-liyində yerləşən Kedu zirvəliyi isə hələ də əlçatmaz qalmışdı və oranı hökmən düşməndən əvvəl ələ keçirməli idik. Ora ələ keçdiyi təqdirdə sol cinahdan "Vəlfəcr-2" əməliyyat cəbhəsini təhlükə gözləmirdi.

Kedu yüksəkliyinə enmək üçün "Celdian" hərbi hissəsinə getməli idik. Nəqədədən Urumiyəyə, o cümlədən, hərbi hissəyə gedən yollar təhlükəli idi və

yol ətrafı yüksəkliklərdə "komule" və "demokrat" separatçılarının qüvvələri yerləşmişdilər. O gecə söhbətimdə həzrət Əbülfəzli misal çəkdiyim üçün hamıdan qabağa düşməyə çalışır, təhlükədən çəkinməyərək o həzrət kimi davranmaq istəyirdim.[1] Təhlükəsizliyin təmini məqsədi ilə yol boyu batalyon dəstəsinin əvvəli və axırında 50 kalibrli duşka ilə təchiz edilən toyota maşınlarında "Cündullah zərbə qüvvələri" hərəkət edirdi. Özüm birinci maşında əyləşmişdim və hamıdan qabaqda hərəkət edirdik. Hər yer qaranlıq olduğundan diqqətlə ətrafa göz qoymalı, qəfil hücuma hazır olmalı idik.

Allahın köməyi ilə heç bir hadisə baş vermədən gəlib, hərbi hissəyə yetişdik. Orada quru qoşunlarının komandiri general Səyyad Şirazi bizi gözləyirdi. Birinci görüş o qədər xudmani və səmimi oldu ki, batalyonun könüllüləri onunla yadigar şəkillər çəkdirməyə başladılar və nizam-intizam pozuldu. Onun şan-şöhrətini Sərpol-zəhabda

[1] Əbülfəzl batalyonunun ilk hərbiçi və komandirlərindən olan Mehdi Zəfəri bu haqda belə deyir: "Elə ilk zamanlardan Mirzə Sulgini nümunəvi bir şəxsə çevirən onun söz və əməlində sədaqəti idi. Hər nə deyirdisə, birinci özü qabağa düşürdü. Doğrusu, həmişə əsgərlərinin canı ona öz canından əziz idi." Məşhəd, 27 yanvar, 2014.

xidmətdə olarkən eşitmişdim. İmamın ona və onun da İmama xüsusi rəğbətindən, sepahla yaxın əlaqəsi və ordu ilə sepah arasında həmkarlıqdakı rolundan xəbərim vardı. Odur ki, mən də onunla tanışlıq və görüşdən məhrum olmaq istəmədim. Özümü ona təqdim elədim və beləliklə, o zamandan aramızda səmimi rabitə yarandı. Məndən "Qardaş Sulgi, ağır və sürəkli dava üçün nə qədər hazırlığınız var?" – deyə soruşarkən cavab verdim: "Yüz faiz!" Müavinim Əhməd Kərəməli yanımda idi və silah-sursat və təchizatımızın çatışmazlığından xəbəri vardı. Məni kənara çəkərək dedi: "Heç olmasa, yetmiş faiz deyərdin ki, bəlkə nöqsanımızı aradan qaldıra bilərdi!" Mən də dedim: "Əbülfəzl batalyonunun yüksək ruh və imanına arxalanıram! Döyüşdə birinci məsələ ruh yüksəkliyi və inam hissidir, qalanları isə ikinci dərəcəli sayılır."

Bir qədər sonra dörd ədəd "Şnuk" vertolyotu hərbi hissəyə endi və Səyyad Şirazinin əmri ilə hər birinə əlli nəfər yerləşdirilməklə havaya qalxdı. Uçuşlar batalyonumuzun bütün qüvvələri Kedu yüksəkliyinə endirilinə qədər davam etməli idi. Qərara alındı ki, mənimlə birgə briqadamızın komandiri Hüseyn Həmədani, Səyyad Şirazi və general Abşenasan da Kedunun ətəyinə qədər uçub vəziyyətlə tanış olsunlar. Bu minvalla yarım saatdan

sonra uca bir zirvənin ətəyində yerə endik. Biz ora çatarkən o biri qüvvələr də ardıcıl surətdə yerə endirilir və vertolyotlar geri qayıdırdı. O gecə kəşfiyyat-əməliyyat qrupunun bələdçiləri ilə Kedunun sıldırım zirvəsinə qalxdıq.[1] Zirvəyə heç bir

[1] "Axşamüstü 214 tipli vertolyotla dağın ətəyinə endik. O zaman Əbülfəzl batalyonunun qüvvələri də Şnuk vertolyotu ilə bura köçürülürdü. Belə sıldırım zirvəyə qalxmağın özü böyük risk idi. Buna baxmayaraq, o qaranlıqda Sulginin batalyonu heç bir etiraz və gileysiz yuxarı qalxmağa başladı. Onlar belə sərt soyuqdan qorunmaq üçün lazımi libasla təmin olunmamışdılar. Mənimlə Səyyad Şirazinin əynində pencəyimiz vardı və buna baxmayaraq soyuqdan adamın dişləri şaqqıldayırdı. Belə şəraitdə 400 nəfərlik qüvvəni o cür nahiyədə idarə eləmək hər kəsin işi deyildi. Amma Mirzə Sulgi sözünün ağası idi və qüvvələri də ona tam sadiq idilər. Biz o axşam saat 8-də onlardan ayrıldıq və Əbülfəzl batalyonu isə neçə gün zirvədə qaldı. O şəraitdə soyuqdan bədənlərinin dərisi göyərmişdi. Hərdən ratsiya ilə Mirzədən vəziyyəti soruşanda cavabı bircə kəlmə idi: "Əmin-amanlıqdır!" Halbuki həm düşmənlə, həm də sərt soyuqla mübarizə aparırdılar.

Biz aşağı enərkən səhər ertəsi gün hələ də soyuq canımızdan çıxmamışdı və bilmədik ki, o gecə onlar həmin soyuğu necə keçirtdilər. Öz qüvvələrimdən birindən onların vəziyyəti ilə maraqlanarkən dedi: "Onların səngər hazırlamağa adi bel və külüngü belə yoxdur və belə qayalıqda hər hansı yeri qazmaq da mümkün deyil. Mirzə səhərədək qüvvələrinə baş çəkərək onlara komandirlik yox, məncə atalıq edirdi. Hər birinə baş çəkir, halını soruşur, tam səmimiliklə qayğı göstərirdi." O, indinin özündə də belədir. Əgər müharibəmizin salnaməsində Vəlfəcr-2 əməliyyatında Kedu zirvəsinin fəthi qeyd edilərsə, onun fatehi hökmən Mirzəməhəmməd Sulgi adlanmalıdır. Mən komandiri

hadisəsiz və düşməndən qabaq yetişdiyimizə görə sevinsək də, yayın bu çağında sərt şaxta ilə mübarizə aparmalı idik. Qüvvələr qayalıqlar arası yerbəyer edildikcə səngərlər hazırlayırdılar. Bütün qüvvələr gəlib çatınca ətrafı nəzərdən keçirdim. Zirvənin bir tərəfi tam sıldırım idi və oradan düşmənin hərəkəti mümkün deyildi. Bir tərəfi isə göz uzandıqca asfalt yoladək kəllə qəndinə bənzər (2519 m hündürlüyü olan) zirvəliklər idi. Yolun o tərəfi və sağından yenidən başqa yüksəkliklər ucalırdı ki, əməliyyatın davamında yeni gələn qüvvələr həmin nahiyələri ələ keçirməli idilər.

Ertəsi gün səhər düşmən topları zirvənin ətrafını atəşə tutarkən onların qüvvələrimizin zirvədə yerləşdiyindən xəbər tutduqları məlum oldu. Get-gedə düşmənin minomyot və artilleriya zərbəsi artdı və günortadan başlayaraq vertolyotların raket atəşinə məruz qaldıq. Növbəti gün, demək olar, "Vəlfəcr-2" əməliyyat cəbhəsində birbaşa atəş altında olan nahiyə idik və zirvənin onlardan tez bizim əlimizə keçməyi onun strateji əhəmiyyətini göstərirdi. Üçüncü günədək düşmənin piyada qoşunlarından əsər-əlamət görünmədi. Bu müddətdə top və hava hücumundan qorunmaq

---

kimi həmişə onu yüz faiz müsbət qiymətləndirirəm." General Hüseyn Həmədani ilə müsahibədən, Həmədan, 29 iyun, 2014.

üçün gözümüz yalnız asimana dikilmişdi. Belə hallarda qüvvələr təbii daş-qaya səngərlər ardında pənah seçirdilər. Bəzən vertolyotlar o qədər yaxınlaşırdı ki, qumbaraatanla nişan almaq mümkün idi və bu neçə gündə onlardan ikisini məhv edərək dərəyə yuvarladıq.

Gün ərzində bütün zirvəni dolanır, hər bir səngərə bircə-bircə baş çəkirdim. Əbülfəzl bayrağı altında on üç yaşlı yeniyetmədən tutmuş yetmiş yaşlı qocayadək batalyonun bütün üzvləri səmimi qəlbdən hər bir çətinliyə sinə gərməyə hazır idilər. Ərzaq, pal-paltar və təchizat baxımdan cəmi otuz faiz təmin olunsaq da heç kimin çatışmazlıqdan gileyləndiyini görmürdüm.[1]

Neçə gündən sonra briqadanın təminat vahidi bir qədər isti paltar göndərdi. O vaxtadək hamının əl-üzü soyuqdan qaralmışdı. Hər biri digərinin üzünə baxaraq öz başına nə gəldiyini başa düşürdü. Bizə baş çəkməyə gələn komandirlər çox çətinliklə batalyonun vəziyyəti və səngərlərin mövqeyi ilə

[1] Batalyonun könüllü üzvlərindən olan (və sonralar əsir düşən) Əsədullah Şahbazi deyir: "Bizim dəstəmizdə on üç yaşlı bir könüllü vardı. Həmin çətin şəraitdə özünə bir oyuqda namaz yeri düzəltmişdi. Gecələr keşik növbəsi gələndə hərdən onu qaldırmağa ürəyim gəlməzdi. Sübh namazına oyanandan sonra gileylənərək deyərdi: Komandiri Sulgi olan batalyonda qorxunun mənası yoxdur..." Nəhavənd, 26 noyabr, 2013.

tanış ola bilirdilər. Bizim yuxarıda nə çəkdiyimizi öz gözləri ilə müşahidə edənlərdən biri də komandir Rza Zərgəri idi.[1]

Dördüncü gün düşmənin atəş və bombardmanı o qədər artdı ki, səngərlərdən çıxa bilmədik. Ara sakitləşəndən sonra Mənuçehr adlı könüllü üzvlərdən biri yanıma gəlib, əlində avtomatının sınıq lüləsini göstərərək dedi: "Komandir, mənə silah ver!" Soruşdum: "Bəs, öz silahın hanı?" Dedi: "Bombardman zamanı onu başımın üzərinə qoyub yerə uzanmışdım. Ona dəyən qəlpələrdən sonra, gördüyünüz kimi, yalnız bu boru qalıb."

Düşmən zirvəyə qalxa bilmədiyi müddətdə peşəkar dəstəmiz onlara öz mövqelərində qəfil zərbə endirməyə hazırlaşırdı və həmin könüllü də ona görə silah istəyirdi. Dəstəyə əməliyyat planı və hərəkət tərzi başa salınandan sonra aşağı yollandıq. Çoxu qumbaraatan götürmüşdü və üzbəüz döyüşlərdə əlverişli silah sayılırdı. On beş yaşlı Mənuçehr də bizə qoşulmaq istəyirdi və mənə yalvarırdı ki, ona da icazə verim. Yaşına uyğun

[1] "Zirvədə Mirzə Sulgi ilə görüşərkən soyuqdan bütün çöhrəsinin qabıq saldığını görəndə, ürəyim yaman yandı. Amma qüvvələri üzərində yüksək ruh və əzmlə rəhbərliyini gördükdə isə ona qibtə elədim..." General Rza Zərgəri ilə müsahibədən, 26 yanvar, 2014.

olaraq cüssəsi də xırda idi. Fikirləşdim ki, əgər əsir düşsə, ağır şəraitə dözə bilməz. Odur ki, icazə vermədim. Nə qədər yalvarıb, and-aman etsə də razı olmadım və səbəbini başa saldım. O cür soyuqda xırda isti əlləri ilə əlimdən tutarkən hətta ürəyinin zərif titrəyişini belə hiss elədim. Bütün bunlar onun əməliyyata hədsiz şövqündən irəli gəlirdi. Axır, dözməyib ona da icazə verdim. Xüsusi dəstə iki doqquz nəfərlik qrupa ayrılaraq aşağı enməyə başladı. Əməliyyatda İraq mücahidlərindən bizə qoşulan bir taqım da iştirak edirdi. Zirvədəki qüvvələrin nisbi çoxluğu mənə şəxsən xüsusi dəstəyə rəhbərlik etməyə imkan verirdi.

Sıldırım daş-qayalıqlar arasından aşağı enərək düşmənin səngər və tanklarının yerləşdiyi düzənliyin qarşısınadək irəlilədik. Kənarımda olan bütün könüllülərin şəhadətə hazır olduğuna arxayın idim. Bununla belə, heç birinin yaralanmağına razı deyildim. İri daşların arasında mövqe seçəndən sonra əvvəlcə tanklardan başladıq. Neçə tank partladıqdan sonra sanki düşmən qüvvələri yuxudan ayıldılar. Elə buranı özümüzə pusqu və zirvənin dayaq yeri təyin elədik. İki tərəf arasında atəş kəsiləndən sonra heç bir tələfat vermədən qüvvələrin bir qismini orada saxlayıb, qalanları ilə geri qayıtdım.

Ertəsi gündən hamı pusqu yerinə getməyə can atırdı. Beləcə, hər gecə müəyyən sayda könüllü döyüşçü aşağı enərək dayaq nöqtəmizdən pulemyot və qumbaraatanla düşmənin piyada və tank qüvvələrinə zərbə endirib geri qayıdırdı. Bu qəfil zərbələrdə itki verməsək də sıldırım qayalardan get-gəl zamanı neçə nəfəri əldən verdik. Vəziyyətimizi nəzərə alaraq, polkovnik Səyyad Şirazinin əmri ilə ordu qüvvələri zirvəyə ağır texnika əleyhinə "Səhənd-3" raket qurğusunu yerləşdirdilər. Təsadüfən elə həmin gün düşmənin bir "Miq" təyyarəsi vuruldu və qayalara çırpılaraq məhv oldu. Hamı ucadan təkbir deyərkən bir nəfərin icazəsiz çiyninə qumbaraatanı alıb aşağı endiyini gördüm. Ardınca qaçaraq dedim: "Hara gedirsən? Bəs köməkçin hanı?" Məsuliyyətsiz görünsə də gözündə qorxu deyilən şey yox idi. Soyuqqanlılıqla dedi: "Yazıq qorxub, qabağa gəlmək istəmir." Oradan birbaşa köməkçinin yanına qayıtdım. Böyük bir daşın arxasında gizlənmişdi. Onunla danışınca qumbaraatançı aşağı endi. Daha özümü saxlamayıb başına qışqırdım: "Ay əfəl, cəbhə sənin kimi qorxaqların yeri deyil!" Dilini saxlamayıb dedi: "Sənə dəxli yoxdur!" Əsəbiləşib ona acı cavab verərkən üstümə silah çəkdi. Dedim: "Çəkinmə, vur! Biz elə bura ölməyə gəlmişik!" Əsgərlərdən biri hay-küyü

eşidib bizə yaxınlaşarkən gördü ki, o şəxs məni tanımayıb. Odur ki, acıqlı tərzdə dedi: "Batalyon komandirinə silah qaldırırsan?" Yazığın rəngi qaçdı və üzr istəyərkən dedim: "Heç vaxt yoldaşını tək qoyma!" Sözümdən sonra onun ardınca yola düşərkən aşağıdan atəş səsi eşidildi. Gördük ki, həmin döyüşçü təkbaşına zirvənin ətəyindən düşmən tanklarına sarı atəş açır. Qayıdandan sonra onun rəftarını intizamsızlıq saydım. Ürəkli adamlardan xoşum gəlsə də özbaşınalığı bəyənmirdim. Axşam onların səngərinə baş çəkib, söhbət əsnası dedim: "Döyüş vaxtı hərbi nizam-intizama, xüsusilə, özünü qorumağa əhəmiyyət vermək lazımdır." Dedi: "Sən bir çay içib, qızışınca mən də qorunmağa dair fikrimi deyərəm." Bir lobya konservini boşaldıb, içinə su doldurdu. Sonra bir qədər barıtla onu qızdırıb, içinə bir-iki kisə çay atdı və mənə tərəf uzadaraq dedi: "Buyur!" Başa düşmədiyimi gördükdə, bir siqaret yandırdı. Əsəbiləşib dedim: "Mən sənə nizam-intizamdan danışıram, sən isə bu qaranlıqda siqaret yandırırsan?" Başına adyalı ataraq dedi: "Bu da sən dediyin üsul!" Elə adyalın altında həm çayını içdi, həm də siqaretini çəkdi...[1]

[1] Adı Mahmud Şiravənd idi və həqiqətən şir kimi döyüşürdü. Qabaqlar Nəhavənddə məktəb müəllimi idi və müharibə

"Vəlfəcr-2" əməliyyatına iki gün qalmış komandirlərlə, o cümlədən, Möhsün Ümidi ilə görüşümüz oldu.

***

1983-cü il avqustun 6-sı gecə briqadamızın üç batalyonu növbəti iki zirvəyə hücum etdi. Qarşımızı düşmənin tank qoşunları kəsməsinə baxmayaraq o biri batalyonların işi bizdən də çətin idi. Uzaqdan seyr edərkən düşmən tərəfdən açılan atəşin istiqamətindən görünürdü ki, onlar əməliyyatdan xəbərdar imiş və qəfil hücuma məruz qalmayıblar. Belə görünürdü ki, qüvvələrimiz həmin zirvələrin fəthində çoxlu itki verəcəklər. Eyni vaxtda bütün qoşunlarımız öz istiqamətində şiddətli müqavimətlə rastlaşdı və bütün cəbhə boyu ölüm-dilim mübarizəsi başladı.

Əməliyyatdan sonra səhər ratsiya ilə əlaqə saxlayaraq öyrəndim ki, hər iki zirvə qüvvələrimizin əlinə keçib və düşmən sağ cinahdakı yüksəklikləri əldən verərək strateji əhəmiyyət daşıyan "dərbənd" koridorundan da geri çəkilib. Möhsün Ümidinin komandirlik etdiyi "Hürr bin Riyahi-156" batalyonu

---

başlayandan sonra bizim batalyonun daimi üzvü oldu. Onun əsas bacarığı düşmənin pulemyotçularını susdurmaq idi. 1986-cı ildə Məcnun adasındakı döyüşlərdə elə pulemyot atəşinin qurbanı oldu və cəsədi yeddi ildən sonra tapıldı.

çoxlu yaralı və itkiyə məruz qalsa da öz vəzifəsini layiqincə yerinə yetirib. Özümə maraqlı olduğu üçün fəth edilən yüksəkliklərə baş çəkməyə getdim. Həqiqətən bu zirvələrin fəthi ilahi yardım olmadan mümkünsüz idi. Eşitdim ki, onun batalyonu düşmənlə üzləşərkən hədsiz çıxılmaz vəziyyətlə qarşılaşıb. Macəranı Möhsündən soruşanda dedi: "Düşmənə yaxınlaşınca heç bir reaksiya müşahidə olunmadı. Onların duyuq düşüb döyüşə hazır olduqlarından xəbərsiz idik. Birdən elə şiddətli atəşə məruz qaldıq ki, bütün batalyon daş kimi yerə yapışmalı oldu. Heç kimin başını qaldırmağa cürəti yox idi və onları hətta hər hansı əmr və vasitə ilə də qaldırmaq mümkün deyildi. Gördüm ki, mən qalxmasam, heç kim ayağa qalxan deyil. O əsnada birdən fikrimdən İmam Əlinin (ə) məşhur kəlamı keçdi: "Başını Allaha tapşır!" Həqiqətən başımı Ona tapşırdım və bir anın içində vücudumda elə qüvvə hiss etdim ki, heç nə qabağımı kəsə bilmədi. Zikr deyərək düşmənə tərəf götürüldüm və bütün batalyon da yerdən qoparaq ardımca irəli yüyürməyə başladı!" O, macəranı həyəcanla söyləyir, mən də maraqla dinləyirdim. Ona qibtə edərək ürəyimdən keçirdi ki, kaş, mənim də onun kimi Allahın yenilməz qüdrətinə iman və təvəkkülüm olaydı.

Cəbhəyə sakitlik çökəndən sonra məzuniyyət alıb evə qayıtdım. Anam qızmar günəş altında yanıb qabıq salan üz-gözümü görəndə dedi: "Sən cəbhədə olarkən yuxuda görmüşdüm ki, sifətin əkinçilər kimi tamam yanıb..."[1] Yoldaşım sağ-salamat qayıtdığıma görə çox sevinirdi. Eşitmişdi ki, pasdar qüvvələri şəhərə qayıdandan sonra öz məntəqəsində qalıb, növbə ilə cəbhəyə gedirdilər. O zaman buna "beşdə iki proqramı" deyilirdi. Belə ki, həmişə sepah qüvvələrinin beşdə ikisi cəbhəyə yollanır, qalanları isə öz növbəsi yetənədək şəhərdə qalıb, arxa cəbhədə xidmət göstərirdilər. Odur ki, məndən soruşdu:

– Yenə cəbhəyə qayıdacaqsan?

– Bəli, necə məgər?

– Qonşular deyirlər ki, onların ərləri növbə ilə cəbhəyə gedirlər. Olmaz sən də bu dəfə növbən çatınca...

Qoymadım sözünü tamamlasın və ona, eləcə də ailəmə böyük məhəbbətim olsa da dedim: "Əgər

[1] Həqiqətən anamın yuxuları qeyri-adi olaraq doğru çıxırdı. Məsələn, yoldaşımın qardaşı şəhid olmazdan qabaq demişdi: "Yuxuda görmüşəm ki, qaynanangildəki hovuzun ortasından büllur sulu sərin çeşmə çıxır. Sən məndən soruşursan ki, bu çeşmə nə olan şeydir? Mən də deyirəm ki, bu qaynananın oğlu Əmirin şəhadətinə görə tökdüyü göz yaşlarıdır." Doğurdan da bir müddət sonra Əmir Məcnun adasında hədsiz susuzluqla şəhadətə çatdı.

həyatımızın ayrılıqsız davamını istəyirsənsə, cəbhəyə dair işlərimdən söz açma. Həzrət Əbülfəzlə and olsun, heç nəyi cəbhə ilə dəyişmərəm!" Özü yaxşı bilirdi ki, lorlar o həzrətin adına and içsələr, ondan geri dönən deyillər. Sakitcə başını aşağı dikərkən ona cihadla bağlı bir neçə ayə misal çəkib dedim: "Vəziyyət çətinləşərkən hətta siz və uşaqlar da cəbhəyə yardım etməlisiz! Bildiyin kimi İmam Hüseyn (ə) də dini dirçəltmək üçün bütün ailəsi ilə özünü qurban edib. Siz də həmişə belə mənim yaralanmağıma, əsir düşməyimə və ya şəhadətimə hazır olmalısız!" Həmişə şəhadətdən söz düşəndə, yazığın gözləri dolurdu və razı idi ki, həmişə cəbhəyə gedib, amma sağ-salamat qayıdım.



Sərpol-zəhabın ümumi xəritəsi, 1980.

Sərpol-zəhab cəbhəyə getdiyim ilk məntəqə idi və birinci dəfə də orada yaralandım.



Sağdan, şəhid Əlirza Hacıbabayi, şəhid Həbib Məzahiri, hacı Əli Şadmani.



Sərpol-zəhab, orta cinahın komandiri və məsul şəxsləri, 1981

Soldan şəhid Həbib Məzahiri, şəhid Əlirza Hacıbabayi, Mehdi Ruhani, Hüseyn Həmədani, şəhid Mahmud Şahbazi, Yusif Hadipur, Rza Qulami.



Həmədan sepah korpusunun komandiri və "Məhəmməd rəsulullah-27" briqadasının canişini şəhid Mahmud Şahbazi.

Onunla tanışlığım Quran və Nəhcül-bəlağənin maarifi ilə tanış olduğum dövrlərə təsadüf edir.

Soldan Mahmud Şahbazi (Xürrəmşəhrin fəthi zamanı şəhid oldu), Əlirza Hacıbabayi, "Ramazan" əməliyyatı, 1982

Sərpol-zəhabda olarkən Əlirzanın gecə namazlarındakı raz-niyaz və göz yaşlarını heç vaxt unuda bilmirəm

Sərpol-zəhabın girişi: "Zülmə məruz qalan fatehlərin şəhadət diyarına xoş gəlmisiniz!"



Şəhid Əli Çitsazian, Mehran.

Hər ikimiz bir taqıma komandirlik edirdik və axıradək hansı birimizin komandir olduğu məlum olmadı.



Sağdan seyid Hüseyn Səmavat, Möhsün Ümidi, 1981.

Mehran cəbhəsindəki əməliyyatdan sonra bu iki nəfərin adı xüsusi olaraq dillərə düşdü. Həmədanın "Ənsar əl-Hüseyn" briqadası təşkil ediləndən sonra hər birimiz bir batalyonun komandiri olduq.



"Müslim bin Əqil" əməliyyat məntəqəsi, Sumar, azər ayı, 1982

Bu cəbhənin komandiri Rza Zərgəri idi və mən "Fəth" batalyonunda taqım komandiri idim.

Ayətullah Fazilian (cəbhə qüvvələrinin mənəvi ustadı) və komandir Səid İslami



Səid İslami, "Kumeyl" batalyonunun komandiri, "Zeynəlabidin" əməliyyatı, 1982

O, bir mücahid komandiri əks etdirən bütün zahiri və mənəvi keyfiyyətlərə malik idi

Dördüncü fəsil

Səqqalar batalyonu

Dörd qardaş idik və dördümüz də cəbhəyə gedirdik. Bizimlə bərabər əmim də beş oğlu ilə cəbhələrdə iştirak edirdi. Əgər atam da sağ olsaydı, bilirəm ki, o da hökmən cəbhəyə gedərdi. Qardaşım Məhəmmədkərim Kürdüstan cəbhəsində döyüşürdü və o biri iki qardaşım Əzizməhəmməd və Şirməhəmməd isə briqadamızın ayrı-ayrı bölümlərində fəaliyyət göstərirdilər. Mənimlə Möhsün Ümidinin batalyonları "Əbuzər" hərbi hissəsinin arxasındakı nisbətən təhlükəsiz nöqtədə düşərgə salmışdı. Sonralar bu məkan "Şəhid Babayi hərbi düşərgəsi" adını aldı. Batalyonların qüvvələri

kamil olunca, hələlik burada qalıb hərbi təlimlər keçməli idik. Buradakı dağın zirvəsinin aşağı nahiyələri təqribən Beşqan yüksəkliklərinə bənzəyirdi və orada təlim əməliyyatı təşkil edilməmişdi. Ehtimal verdim ki, qüvvələrimizin bu məntəqədə yerləşməyi Beşqan əməliyyatlarına hazırlıq məqsədilədir. Bu minvalla, kəşfiyyat-əməliyyat qrupu neçə dəfə Beşqan səmtinə baş çəkdi. Amma briqadanın komandir heyəti yığıncağında məlum oldu ki, əməliyyat Mehran yaxınlığındakı Çənqulə nahiyəsində aparılacaq. Beləliklə, tez bir zamanda batalyonlar lazımı qədər könüllü, pasdar və əsgərlə təmin edildi. Əməliyyatdan qabaq batalyonların komandirləri ilə Çənqulə məntəqəsinə baş çəkdik. Ora Mehranın 10 km-liyindəki Mehran-Dehloran magistralı yaxınlığında yerləşirdi. Təxliyə olunmuş bu kənd çoxlu dərə-təpə və iki çay arasında itib-batdığından düşmənin cəbhə xəttini müəyyənləşdirməyi çətinləşdirirdi. Əvvəl "Gerehşir" adlı müşahidə nöqtəsi kimi əhəmiyyəti olan böyük təpə ilə tanış olduq. Böyük təpəni özümüzə ön cəbhə xətti təyin edib, batalyonları buradan qarşıdakı dərə-təpələrin arası ilə düşmənin cəbhə xəttinə göndərməli idik. Onlar ardıcıllıqla bir-birinə birləşərək silsilə yüksəklikləri təşkil edən Tunel adlı dağlıqda

yerləşmişdilər. Tunel dağ silsiləsi iki sərhəd arasında divara bənzər maneəni təşkil edirdi. Bu dağlıq nahiyə əlimizə keçdiyi təqdirdə, İraqın orta cəbhəsi ilə cənub cəbhəsi arasında əlaqə yaradan sərhəd boyunca uzanan strateji asfalt yolu bizim nəzarətimiz altına düşürdü.

Payızın axırlarına təsadüf edən nisbətən soyuq və yağışlı havada kəşfiyyat-əməliyyat bölümünün iki bələdçisi ilə ilkin müşahidə üçün ətrafı nəzərdən keçirdik. Bizimlə bərabər başqa üç patrul dəstəsi də Gerehşirdən aşağı enərək o biri batalyonların komandirləri Möhsün Ümidi və Möhsün Eynəligili məntəqə ilə tanış edirdilər. Birinci axşam Tunelin ətəyinədək gedib qayıtdıq. Amma neçə gündən sonra tapılan əlverişli yolla həmin dəstələr kəşfiyyatı davam etdirməli idilər. Təyin edilən cığır düşmənin diqqətini cəlb etmədən Tunel dağlarının arasından keçərək o taya, yəni onların arxa cəbhəsinə gedib çıxırdı. Əməliyyat gecəsinədək düşmən duyuq düşmədiyi təqdirdə həmin koridorla onların arxa cəbhəsinə, ən azı, min nəfər qüvvə yeridə bilərdik. Növbəti kəşfiyyat əməliyyatlarında Ümidi, Eynəli və bələdçilərlə birgə düşmənin ön cəbhəsindən keçəndən sonra hərəmiz bir tərəfə – mən iki bələdçi ilə sağa, Eynəli asfalta doğru irəli və Ümidi də sol

tərəfə dönərək həmin nahiyələrə dair məlumat toplayırdıq.

İlk baxışda üç batalyonu buradan düşmənin arxa cəbhəsinə yeridib, onlara arxadan hücum etmək qətiyyən əlverişli sayılmırdı. Çünki işi çətinləşdirən məsələ Tunel dağ silsiləsindəki əməliyyatda bizim üç batalyondan əlavə başqa qüvvələrin də iştirakı idi. Belə ki, sol cinahda "Əli Əkbər" batalyonu qarşıdakı yüksəkliyi ələ keçirəndən sonra "Əmirəlmöminin" briqadası ilə, biz də "Nəbi-əkrəm" briqadası ilə birləşməli idik. Nəbi-əkrəm briqadası əməliyyata Tunel dağlığından bir qədər arxada yerləşən "Abbas-əzim" yüksəkliyindən başlamalı idi və ora ələ keçməyincə arxamızda yerləşən düşmənin sağ cinahı öz mövqeyini qoruya bilərdi. Nəbi-əkrəm briqadasının komandiri Əsədullah Naseh və qərb cəbhəsinin komandiri Abbas Möhtacla yığıncaqda müzakirə zamanı bu məsələnin əhəmiyyəti xüsusi olaraq qeyd edildi.

Ardıcıl kəşfiyyatlardan sonra düşmənin arxa cəbhəsinə keçmək o qədər də çətin deyildi. Bir dəfə qərara gəldik ki, arxa cəbhəyə keçəndən sonra asfaltadək irəliləyək. Məqsəd düşmənin arxa cəbhədən ön cəbhəni təchiz və təmin edən yollarını kəşf etmək idi. Koridoru keçəndən sonra hər yeri minalanan və sıx tikanlı məftillər çəkilən böyük

sahəyə çatdıq. Bələdçilər irəli keçib cığır açdılar. Bundan sonra düşmən səngərlərinin yanından ötərək dağın ətəyi ilə aşağı endik. Səmti və məsafəni itirməmək üçün addımlarımızı təsbehimizin dənələrinin sayı ilə müəyyən edirdik. Təqribən gecənin yarısı saat 2-3 radələri idi. Eynəli iki bələdçi ilə birbaşa asfalt tərəfə yollandı, Ümidigil sol tərəfə və biz də sağ tərəfə döndük. Qayda üzrə hər üç qrup günəşin çıxmasına yarım saat qalmış ayrıldığımız yerə qayıtmalı idik. Çevik və iradəli bələdçimizin ardınca irəliləyərək, hətta düşmənin katyuşa və minomyot atan qüvvələrinin yanından ötüb, o tərəfə keçdik. Biz də özümüzü qarşıdakı yola çatdırmalı idik. İrəliləyərkən birdən ayağım məftilə ilişdi. Araşdırıb gördük ki, səhra rabitə xəttidir. Bu onu göstərirdi ki, ön cəbhə ilə arxa cəbhə arasında telefon xətti çəkilib. Əlimizə yaxşı fürsət düşdü və onu tutaraq gəlib, asfaltdan ayrılan qumluq yola çatdıq. Orada gözətçi məntəqəsi yerləşirdi. Bələdçilərdən birini geridə saxlayıb, o biri ilə ora yaxınlaşdım. Gözətçinin balaca köşkündən ucadan "Casim! Casim!..." səsi eşidilirdi. Onların bizi gördüklərini hiss edərək yolun kənarında yerə uzandıq. Gözətçi əlindəki fənərlə bizim on-on beş metrliyimizdən sağa-sola işıq saldı. Əllərimizi başımızın üstünə qoyub, tamamilə yerə sərildik. Əgər əsir düşsəydik,

bütün əməliyyat ifşa olardı. Silahlarımızı o biri bələdçinin yanında qoymuşduq. Məndə bir qumbara olsa da, bütün vücudumla hiss etdim ki, o anda təvəssüldən başqa çarəm yoxdur. Yanımdakı bələdçi də dodaqaltı zikr deyirdi. Yadımda ikən hərbi qərargahın komandiri Abbas Möhtac son yığıncaqda demişdi ki, Çənqulə əməliyyatı düşməni çaşdırmaq üçündür və əsas böyük əməliyyat Hur məntəqəsi və Məcnun adasında baş verəcək. Mənə elə gəldi ki, əgər burada əsir düşsək, növbəti əməliyyatda tökülən bütün qanlara bais və cavabdeh bizik. Əlimi ehtiyatla qumbaraya tərəf yönəldib, çaxmağını çəkməyə hazırlaşdım. Gözətçi bir qədər də yaxınlaşdı. Heç nədən qorxmasaq da ürəyimizin döyüntüsündən az qalırdı bədənimiz lərzəyə gəlsin. Bu zaman növbəti gözətçi gəlib çatdı və o əsgər də yubanmadan növbəsini ona tapşırıb getdi. Bundan sonra arxayın nəfəs aldıq. Lazımı məlumatı toplayandan sonra ayrıldığımız yerə qayıtdıq. Amma Eynəli və Ümididən əsər-əlamət yox idi.[1] Öz cəbhəmizə çatarkən yanımdakı bələdçi dedi: "Həzrət Abbasa and olsun, "Vəcəəlna" ilə "Ayətəl-kürsü"nü o qədər söylədim ki, axırda bu iki ayəni bir-birinə qarışdırdım!" Həmin gecə doyunca gülüb-danışdıq

[1] Kəşfiyyatdan sonra məlum oldu ki, hər üç qrup oxşar hadisələrlə qarşılaşıb.

və əlidolu qayıtdığımız üçün özümüzü yaxşı hiss edirdik.

***

Kəşfiyyatla bağlı briqada və əməliyyat komandirlərinə raport veriləndən sonra Hüseyn Həmədani hamıya müraciətlə dedi: "Bütün raport və məlumatlardan əvvəl hökmən bir ayə və ya hədis qeyd edilməli, bundan sonra kənara çıxmadan əsas məsələlərə toxunmaq lazımdır!" Beləliklə, məlumat verən hər bir şəxs sözə ayə və hədislə başlayırdı və briqadanın təminat məsulu Mahmud Əlivən həmd surəsini söyləyərək dedi: "Mən bircə bunu əzbər bilirəm və təkcə ona əməl edə bilsək, kifayətdir!" Məncə, sözündə həqiqət vardı. Növbə briqadanın kəşfiyyat-əməliyyat bölümünün rəhbəri Əli Çitsaziana çatdı. Onun qrupu 45 gün müddətində hər gecə kəşfiyyata gedərək düşmənin get-gəl yolları və təchizatı barədə mükəmməl məlumat toplamışdı. Ayağa qalxıb, "Vəl-əsr" surəsini söyləyəndən sonra dedi: "Bu cəbhədə biz bir ovuc əfəl qüvvələrlə qarşı-qarşıyayıq. Onların hətta səngərlərindəki azuqə və yemək-içməyinədək əlimizdə məlumat var..." Əli doğru deyirdi. Düşmən cəbhəsinə sərhəd bölgəsi qüvvələri nəzarət edirdi və İraqın zirehli-hərbi qoşunları ilə müqayisədə olduqca təcrübəsiz idilər.

Bununla belə, briqada komandiri dedi: "Hər halda heç vaxt düşməni aciz sanmaq olmaz!"

Nəhayət, hərbi düşərgəmizə qayıtdıq. Hamı bilirdi ki, neçə gün qaib olmağımız səbəbsiz deyil. Odur ki, böyük maraqla bu neçə günü harada olduğumu və əməliyyatın hansı məntəqədə keçiriləcəyini bilmək istəyirdilər. Hələ neçəsi Sərpol-zəhabdan yola düşməzdən qabaq maşının spidometrindəki kilometri qeydə alaraq qayıdandan sonra get-gəl edilən məsafəni tutuşdurub, əməliyyatın hansı nahiyəyə düşdüyünü ehtimal vermək istəyirdi. Mən isə aramızdakı dostluq münasibətlərinə baxmayaraq bunu hətta ən yaxın şəxsə açıb deyə bilməzdim. Mənim fikrimcə, hər hansı komandirin dili ilə – istər bilərəkdən, istər bilməyərəkdən – ifşa olub, düşməni duyuq salan əməliyyatda tökülən şəhid qanlarına o da şərikdir. Qır-saqqız olaraq əl çəkməyənlərə də deyirdim: "Qiyamət günü istənilən komandirin ehtiyatsızlığı üzündən tökülən hər qan onun qarşısına qoyularaq deyilər: Bu qan sənin ucbatından axıb!" Bu qədər söz-söhbətdən sonra heç nə hasil olmadıqda isə zarafata salaraq deyirdilər: "Mirzə, yorğun və yuxulu qiyafəndən görünür ki, Miməkdən və ya Sumardan, ya da Mehrandan gəlirsən!" Hər məntəqənin adı çəkilərkən diqqətlə üzümə baxaraq

göstərdiyim reaksiyadan həmin nahiyəni müəyyən etmək fikrində idilər. Hətta belə kələklərin də xeyri olmurdu. Əlbəttə, onların bu qədər marağı əməliyyata rəğbət və vəzifələrini layiqincə yerinə yetirməklə bağlı idi. Çünki əksər könüllülər arxa cəbhədəki müdafiə xarakterli fəaliyyətlərdən ruhən yorulur, birbaşa döyüş və əməliyyatlarda iştirak etməyə can atırdılar.

Əməliyyatdan qabaq uzun sürən adi vəziyyət yorucu və ona dözmək çətin olurdu. Belə hallarda insanı eyni rejimə qalib edən yeganə şey özü üzərində mənəvi mübarizəsi, dua, zikr, Quran və namazla ünsiyyət idi. Düşərgəmizin həyətyanı sahəsində gözdən yayınaraq raz-niyaz və ibadətə qapılmaq üçün kifayət qədər künc-bucaq vardı. Gecə yarısı olduqda, könüllülər bir-bir çadırlardan çıxır, hərə bir guşəyə çəkilirdi. Aralarında bəlkə də həddi-büluğa çatmayanlar belə özlərinə qəbir qazıb, ibadətə qapılırdılar. Hərdən özüm də maraq üçün gizlicə bir-bir qəbirlərə baş çəkir, onların yanğılı zümzümələrinə qulaq verərdim. Özümü onlarla müqayisə etdiyim zaman nə qədər geridə olduğumu görərkən əzab çəkərdim. İstər-istəməz bir guşəyə çəkilib, Allahdan diləyərdim ki, mən də onlar kimi riyasız, saf bəndən olmaq arzusundayam. Hərdən söhbətlərimdə həmin məsələyə toxunaraq deyərdim:

"Biz silah-sursat və təchizat baxımından düşməndən çox geriyik və onların artilleriya, zenit və hava texnikası bizimlə müqayisə ediləsi deyil. Buna baxmayaraq bizim üstünlüyümüz yalnız və yalnız dini iman və əqidəvi stimulumuzdur..." Bunları dildə deyərkən əmin idim ki, sözlərim mənəvi cəhətdən özlərini paklayan hər bir könüllünün ürəyinə qonur, onları əməl meydanında da özlərinin doğrultmağa hazırlayır. Mənəvi hazırlığın kənarında əməliyyatadək gündəlik hərbi təlimlər, düşmən sıralarına qədər gedib çıxan dəqiq kəşfiyyat əməliyyatları davam edirdi. Bu minvalla Gilanqərbin arxa cəbhəsindəki Çənqulə yüksəkliklərinə bənzər məntəqədə ağır texnikanın müşayiəti ilə son dəfə olaraq döyüş manevri təşkil edildi və yüksəkliklərin fəthi əməliyyatı da müvəffəqiyyətlə icra oldu.

Əməliyyata üç gün qalmış cəbhə xəttinin komandirinin icazəsi və kəşfiyyat-əməliyyat bölümünün təşkilatçılığı ilə taqım və dəstə komandirlərini vəziyyətlə yaxından tanışlıq üçün ön xəttə apardım. Yol boyu dəfələrlə onlara xəritə üzərində məntəqənin ümumi planını, qüvvələrin hərəkət istiqamətini və kəşf edilən yol və cığırları başa salırdım.

***

Briqadanın son yığıncağında batalyon komandirləri tərəfindən xüsusi olaraq qüvvələrin son vəziyyəti, hazırlığı və manevr miqyası barədə məlumat veriləndən sonra əməliyyata başlamaq üçün hər şey hazır idi. Əməliyyat ərazisi və hüdudları iki sağ və sol cinaha ayrılırdı; sağ cinaha Həsən Türk, sol cinaha isə Səid İslami rəhbərlik edirdi. Bir daha Həsən Türklə birgə fəaliyyət göstərməyimə görə şad idim. Həsən deyirdi: "Bəlkə də birinci dəfədir ki, düşmənin arxasına bu qədər qüvvəni yeridib, o səmtdən hücum edəcəyik. Odur ki, hərəkət və ratsiya ilə əlaqə zamanı düşmən qətiyyən izimizə düşməməlidir. Belə isə səhra telefonundan istifadə etməliyik və daha hər hansı rəmz və şifrə ehtiyac olmayacaq. Həmçinin bizim sağ tərəfimizdən "Nəbi-əkrəm" briqadasının batalyonlarından biri hərəkət edəcək. Onunla sənin batalyonun arasında fasilə yaranmamalı və çiyin-çiyinə irəliləməlisiz. Əks təqdirdə, düşmən bu boşluqdan nüfuz edib bizi əhatəyə ala bilər."

Briqadanın məşvərət yığıncağından qayıdandan sonra öz batalyonumun komandirləri ilə görüş təşkil edərək əməliyyat planı barədə məlumat verdim. Təsadüfən həmin gün Mələyirdən Ayətullah Rza Fazilian da cəbhəyə gəlmişdi. Həmişəki kimi onun iştirakı ilə döyüşçülər arasında mənəvi ab-hava

yarandı. Əməliyyatdan qabaq hökmən "xınayaxdı" ziyafəti qurulurdu. Bir batalyon üçün üç-dörd torba xına kifayət idi. Təzə bəylər kimi hamımız bir əməliyyatdan növbəti əməliyyatadək ovcumuza xına yaxardıq. Bu mərasim bizim "Əbülfəzl" və o cümlədən, sair batalyonlarda mənəvi adətə çevrilmişdi. Xınayaxdıdan sonra döyüşçülər bir-birini bağrına basır, hər biri digərindən şəfaət diləyirdi. Ayətullah Fazilianın təklifi ilə onların arasında qardaşlıq əqdi də oxunurdu. Bundan sonra istər-istəməz araya ümid və ayrılıq hissi hakim olurdu. Əməliyyata sağ-salamat qayıtmaq ümidi ilə başlasaq da, şəhadət və şəfaət şövqü həmişə üstünlük təşkil edirdi və bu mənəvi hallar həzrət Əbülfəzlin ülvi adı və məramına sığınmaqla başa çatırdı.

Hava qaralandan və namazdan sonra adətim üzrə söhbətə başladım və ardımca hacı Sadiq Ahəngəran yürüş marşını oxudu:

"Ey Sahibzaman ləşkəri, hazır olun, hazır olun!..."

Bu nəğmələr döyüşçülərin vücuduna yayılaraq unudulmaz xatirəyə çevrilirdi.

Qüvvələri Çənquləyə aparmaq üçün avtobuslar sıraya düzülmüşdü. Buradan yola düşəndən sonra artıq kiminləsə vidalaşmağa imkan yox idi. Mən özüm üzərimə düşən vəzifəmə əsasən, diqqətlə hər

bir döyüşçünün silah və təchizatına nəzarət edir, taqım və dəstə komandirləri də eyni işi görürdülər. Belə hallarda bəzən uzun müddət qardaşlıq etdiyim ən əziz şəxslərlə son dəfə vidalaşmağı unudurdum. Sadiq Ahəngəranı yola salarkən arxadan biri əlini çiynimə vurub getdi. Qaranlıq olduğundan bilmədim kim idi. Sonralar eşitdim ki, o, Əhməd Mövləvi imiş. Halbuki ayrılarkən o məni yox, mən onu soraqlamalı idim...[1]

***

İşimiz çox çətin idi. Ay işığı altında üç batalyon cərgə ilə bir cığırla hərəkət etməli idi. Axşam namazından sonra son dəfə hamıya belə tapşırdım: "Təyin edilən cığıra çatınca hökmən hamı dodaqaltı "İyyəkə nəbudu və iyyəkə nəstəin" zikrini desin!" Nəhayət, saat 10-da min nəfərlik qoşun sıra ilə Gerehşir təpəsindən təyin olunan cığıra doğru yola düşdü. Qoşunun önündə "Qasim bin Hüseyn (ə)" batalyonu hərəkət edirdi. Onlar birbaşa asfalta sarı getdiklərindən hamıdan çox irəliləməli idilər. Ortada bizim "Əbülfəzl" batalyonu gedir, arxamızca da Möhsün Ümidinin komandirliyi ilə "Hürr bin Riyahi" batalyonu gəlirdi. Hər batalyonun ayrıca bələdçiləri və komandiri ilə əlaqə saxlamaq üçün

[1] "Əbülfəzl" batalyonunda dəstə komandiri olan Əhməd Mövləvi həmin "Vəlfəcr-5" əməliyyatında şəhid oldu.

min metr kabeli olan səhra telefonu vardı. Yol boyu qarşıya çıxan maneələri aradan qaldırmaq üçün bir qrup diversant da birinci batalyonun tərkibində hərəkət edirdi. Briqadanın komandiri, plan-əməliyyat üzrə rəhbəri və kəşfiyyat-əməliyyat üzrə məsulu Gerehşir təpəsinə səfərbər olmuşdular. Həmişəki kimi cəbhə bölgəsinə tufandan qabaqkı sükut hakim idi və hətta ratsiyalar da söndürülmüşdü. Bu hala "mütləq sükut" deyilirdi. Hərəkət etdiyimiz nöqtədən təyin olunan cığıradək hətta plan-əməliyyat üzrə komandirlə (Həsən Türk) əlaqə yaratmamalı idik. Məqsədimiz Tunel yüksəkliklərinədək düşmənin gözündən yayınmaq idi. Ora müəyyən edilən vaxt ərzində çatmasaydıq, ay yüksələrək hər yeri işıqlandıra, düşməni duyuq sala bilərdi.

Qeyd edilən vaxt üzrə gəlib, təyin olunan nöqtəyə çatdıq. Həsən Türkün rəhbərlik etdiyi sağ cinahımız məqsədə vaxtında çatsa da, sol cinahın iki batalyonu düşmənin qəfil pusqusu və kəşf edilməyən mina sahəsi ilə qarşılaşmışdı. Problem olmadığı surətdə hər iki cinahın qüvvələri eyni zamanda təyin olunan xətdən irəli keçməli idilər. Belə şəraitdə vaxt itirmək olmazdı. Odur ki, Həsən Türklə əlaqə saxlayaraq nə etməli olduğumuzu öyrəndik. O da neçə dəqiqədən sonra irəli keçməyi göstəriş verdi. Qabaqlar buradan

kəşfiyyata üç nəfərlə gedirdiksə, indi heç bir qarşıdurmasız min nəfərlə keçərək üç şaxəyə ayrılmalı və nəhayət, düşmənə arxadan hücum etməli idik. Hətta bir nəfərin səhvi bütün qüvvələrin qətliamı ilə nəticələnə bilərdi və bu məsələni hamı yaxşı anlayırdı. Hər bir batalyonun qüvvələri öz komandirlərinin əmrini gözləyirdi, komandirlərin də fikri tikanlı məftilləri qıraraq yol açan diversantlarda idi. Neçə dəqiqə ərzində minalar təmizlənərək qarşıdakı çökəklik boyu iki metr enində yol açıldı və qaranlıqda keçid üçün yerə nazik ağ parça sərildi. Qabaqda Eynəlinin batalyonu keçəndən sonra növbə bizə çatdı. Əvvəl birinci taqım, ardınca ikinci taqım və axırda isə üçüncü taqım keçdi. Müavinim Həsən Bəhramniya birinci taqımın tərkibində idi. Əlbəttə, batalyonumuzda kifayət qədər müharibə təcrübəsi olan şəxslər vardı və onlardan biri qabaqlar öz komandirim olan və hal-hazırda mənə yardım edən Cəlal Fütüvvət idi. Hər iki tərəfimizdə düşmən səngərləri yerləşirdi. Tam sükut şəraitində çala-çuxurlarla hərəkət edirdik. Əli Çitsaziangilin kəşf etdiyi bu yol hərbi baxımdan bir şedevr olsa da, bu qədər qüvvənin düşmənin arxasına yeritmək isə ağlagəlməz və məntiqə uyğun deyildi. İrəlilədikcə telefonun kabeli başa çatır və ardına yenisi calanırdı. Bu minvalla yol

boyu neçə dəfə briqada komandiri və Həsən Türklə rabitə saxladıq. Hər şey öz qaydasında ikən birdən Həsən məlumat verdi ki, sol cinahdan Talibinin batalyonu məqsədə çatmayıb və "Abbas-əzim" təpəsində sizə birləşə bilməyəcək. Bu isə bizim sağ cinahdan düşmən tərəfindən əhatə olunmağımızı imkan verirdi. Düşmənin ön cəbhəsindən təxminən 3 km aralanaraq kəşfiyyat zamanı yetişdiyimiz keşik məntəqəsinə çatdıq. Elə bu zaman düşmən səmtindən mini katyuşalar açılmağa başladı və hamı bir nəfər kimi yerə uzandı. Raketlərin qırmızı işıltısı qaranlıq səmanı yararaq cəbhəmizə doğru süzürdü. Atəş xətti ilə aramızda cəmi yüz metr məsafə vardı. Burada bir daha Həsən Türklə əlaqə saxlayıb, vəziyyəti soruşdum. Dedi ki, tələsməyin və əmri gözləyin. Gözlərimiz səmaya zillənib ardıcıllıqla şütüyən katyuşaları süzürdü. Getdikcə hövsələmiz daralırdı və Həsənin göstərişi gəlməyincə gözləməli idik. Eynəligilin batalyonunun səmti bizdən bir az aralı olsa da onların, eləcə də Möhsün Ümidigilin məqsədə çatıb-çatmadıqları barədə heç bir xəbər yox idi. Belə vəziyyətdə hər üç batalyonun komandiri Həsən Türkdən icazəsiz hər hansı addım o biri batalyonu ciddi təhlükəyə sala bilərdi. Mən öz qüvvələrimə arxayın idim və əmin idim ki, məndən icazəsiz heç kəs hərəkət etməyəcək. Amma bizdən

qabaq hər hansı batalyon əməliyyata başlasaydı, onda biz təhlükəyə düşürdük. Elə orada taqımlardan birinə keşik məntəqəsinə gələn yolu bağlamağı tapşırıb, batalyona torpaq yolun kənarı ilə düşmənin ön xəttinə tərəf hərəkət etməyi göstəriş verdim. İstəyirdim ki, fürsəti fövtə vermədən arxadan onların səngərlərinə yaxın olaq.[1] Taqımdan ayrılarkən onun komandiri Məhəmmədəli ilə neçə kəlmə sözüm oldu. Əyninə sepah forması geyinən bu igidə dedim: "Kaş, sepahın formasını geyinməyəydin! Özün bilirsən ki, əynindəki həmin paltarla əsir düşsən, başına nə oyun açarlar!" Sözüm qurtarmamış sakitcə dilləndi: "Məgər döyüşməkdə məqsədimiz nədir? Odur ki, zərrə qədər də əsirliyin fikrində deyiləm!" Batalyonda onun kimi cəsarətli oğullar az olmasa da əməliyyat gecəsi bircə o, fəxrlə sepahın formasını əyninə geyinmişdi.

Cərgəyə düzülüb, yolun kənarı ilə düşmən xəttinə tərəf hərəkət etdik. O qədər irəlilədik ki, qarşımızda

[1] "Axırıncı dəfə Sulgi ilə rabitəmdə ona dedim ki, göstəriş verilməyincə əməliyyata başlamasın. O vəziyyətdə hər kim onun yerində olsaydı, hökmən özündən çıxıb düşmənə hücum çəkərdi. Çünki düşmənin duyuq düşmə ehtimalı çox idi. Hətta mən özüm də komandirimlə razılaşmayıb döyüşə girərdim. Bütün bunlara baxmayaraq o, öz komandirinə itaətdə həddən artıq zabitəli və olduqca hövsələli idi." Briqada komandiri general Hüseyn Həmədani ilə müsahibədən, 29 iyun, 2014.

çoxlu hərbi nəqliyyat vasitələri olan böyük meydan zahir oldu. Bu zaman ön cəbhədən bizə sarı gələn bir maşını müşahidə elədik. Deyəsən, gözətçi məntəqəsinə doğru gedirdi. Buradək çox uzun və dolaşıq yolları qət etdiyimizdən daha mərkəzlə əlaqəmiz qırıldı və çarəsiz qalıb, ratsiyanı işə saldıq. Maşın yaxınlaşdıqca gur işıqları bizə tərəf düşərkən hamı bir nəfər kimi yerə uzandı. Artıq bizi görmüşdülər və ilk atışma qəti idi. Odur ki, Məhəmmədəli ilə əlaqə saxlayıb dedim: "Cəbhədən gözətçi məntəqəsinə tərəf bir maşın gəlir!" Cavab verdi: "Nigaran olma, buradakı tikanlı məftillərlə yolu kəsmişik və əlimizdən qaça bilməz." Maşın bir qədər də irəli gəldi, şoferi bizi görərkən vahimə içində qaza basıb, sürətlə geri döndü. Yenə o biri batalyonları nəzərə alıb, silaha əl atmadıq. Çünki hələ də Həsən Türk tərəfindən əməliyyat əmri verilməmişdi. Taqımların komandirlərinə göstəriş verdim ki, hərə öz qüvvəsini yoldan kənara çəkib, üfüqi şəkildə düzənlikdə mövqe seçsin. Dərhal rəmz və şifri nəzərə almadan komandir Həsənlə əlaqə saxlayıb dedim: "Başlayaq, ya yox?" Dedi: "Bir az da gözləyin." Nigaran halda "Bundan artıq gözləmək faciədir! Başa düşürsən?" – dedim. Həsən məni yaxşı tanıyırdı və bilirdi ki, sözümdə zərrə qədər şübhə yoxdur. Odur ki, çarəsiz qalaraq dedi: "Əgər

elədirsə, onda bismillah!" Əlimdəki dəstəyi yerə qoymadan maşını izləyirdim. Uzaqdan gördüm ki, maşın düşərgəyə çatandan sonra şoferi tələsik yerə enib, neçə nəfərlə danışmağa başladı. Batalyon üç taqımda mövqe seçmişdi və aramızda məsafə az olduğu üçün ratsiyasız da onlara atəş əmrini verə bilərdim. Komandirlər "lor" və "lək" ləhcəli olduğundan öz ləhcələri ilə qışqırdım: "Eşidirsiz, canavar sürüyə hücum edib!" Hamı anladı ki, düşmən duyuq düşüb və biz onlardan qabaq atəş açmalıyıq. Amma dəstəyin ardından daim səsi eşidilən Həsən isə soruşurdu: "Mirzə, aydın deyil, nə deyirsən? Təkrar elə!" Bu vəziyyətdə bir anlıq məni gülmək tutdu və cavab verdim: "Heç nə, elə sən dediyini qüvvələrimə göstəriş verdim." Sözümü deyib, Mütəllibin taqımı ilə bir qədər də yuxarı irəlilədik. Düşmən səngərlərinin əlli metrliyinə çatarkən birdən pulemyot atəşi sükutu pozdu. Doğurdan da maraqlı idi. Bu dəfə düşmən ön cəbhəsindən arxa səmtinə doğru atəş açırdı. Onları qəflətən çıxılmaz vəziyyətə salsaq da güclü atəşi taqımı yerə çökməyə vadar etdi. Bir anlıq "Vəlfəcr-2" əməliyyatında Möhsüngilin başına gəldiyi hadisə yadıma düşdü. Həmin gecə o, bütün vücudu ilə hər şeyi Allaha tapşırıb, özünü düşmən qoşununa vurmuşdu. Mən də "Ya Əbəlfəz!" – deyərək ayağa

qalxıb, atəş açılan tərəfə cumdum. Ayaqlarıma elə qüvvə gəldi ki, sanki uçmaq istəyirdim. Ardımca "Allahu-əkbər" sədaları ucaldı və hamı şahin kimi düşmənə tərəf şığıdı. Bunu görən pulemyotçu özünü itirərək "Abbas-əzim" təpəsinə sarı götürüldü. O biri iki taqım da qarşılarındakı səddi qırdılar. Bir qədər şiddətli atışmadan sonra neçə dəqiqə araya sükut çökdü. Bu mövqedə düşmən qüvvələrinin bir qismi qırıldı, bir qismi Abbas-əzimə tərəf qaçdı, bir qismi də əsir düşdü. Bizdən ölən və yaralananların sayı çox az idi. Könüllülərdən neçəsi özündən çıxmışdı və əsirləri əzişdirmək istəyirdi. Başlarına qışqıraraq dedim: "Biz əsir düşəni öldürmürük! Hələ bu əvvəlidir və qayıdın kanala girin!"

Düşmən bütün Tunel dağlığı boyunca səngərlər arası kanallar çəkmişdi və bizim hər tərəfə hərəkət edib, istənilən nahiyəni təmizləməyimizə imkan verirdi. Bu arada könüllülərdən biri yaxınlıqdakı səngərlərdən birinə qumbara atdı. Neçə dəqiqədən sonra xəbər verdilər ki, ora düşmənin rabitə qovşağı mərkəzi imiş. Ölənlər arasında telefonçu bir qadın da vardı. Özüm də səngərə baş çəkəndən sonra göstəriş verdim ki, dərhal qadının cəsədini basdırsınlar.

Gecə saat dörddən keçirdi. Parlaq ay işığında hər yer aydın müşahidə olunurdu. Gördüm ki, neçə

nəfər könüllü çəkmənin bağı ilə yekəpər bir adamın qollarını bağlayır. Yazığın qorxudan bədəni tir-tir əsir və dili tutulmuşdu. Hətta deyə bilmirdi ki, özümüzdəndir. Sanki lal olmuşdu. Onu görən kimi mənə tanış gəldi. Bir anda yadıma düşdü ki, o, əməliyyatdan qabaq batalyonumuza qoşulan rabitə qrupunun üzvlərindəndir. Məni görərkən dili açıldı və titrək səslə başa saldı ki, rabitəçidir. Dedim: "Tez onun əllərini açın!" Yazıq özünə gəlsə də yenə bədəni əsirdi. Başına sığal çəkib, üzündən öpəndən sonra yavaş-yavaş özünə gəldi.

Vəziyyət məlum olandan sonra hər üç taqım Tunel silsilə yüksəkliklərində dörd təpə arasında salınan kanallarda mövqe seçdi. Özüm bir qədər qüvvə ilə batalyonun sol nahiyəsində idim və fikrim Abbas-əzim təpəsinə sarı yönəlmişdi. Bir daha Həsən Türklə əlaqə saxlayıb soruşdum: "Talibinin batalyonundan bir xəbər yoxdur?" Sözü bu oldu ki, daha onları gözləməyə dəyməz və işləri dolaşıb. Bir göstəriş vermədikdə, başa düşdüm ki, fəth edilən istiqamətlə Abbas-əzim arasındakı nahiyəni özümüz kəsməliyik. Günəşin çıxmağına bir şey qalmırdı. Həmin nahiyədən əhatəyə düşməmək üçün hava işıqlanınca aranı kəsməli idik. Odur ki, ikinci taqımın bir qismi ilə düşmənə tərəf yollandıq. Kanallarda hərəkət zamanı düşmən cəsədləri əl-

ayağa dolaşır, yaralıları isə ah-uf edib zarıyırdılar. Kanalın sonuna çatandan sonra təpənin yuxarısına qalxmalı olduq. Başına çatarkən Abbas-əzim tərəfdən şiddətli atəş açıldı və düşmənin mövqeyi məlum oldu.

***

Düşmənin müqavimətini məhv etmək üçün peşəkar qüvvə seçmişdim. Qarşımızda belə rahat təslim olmaq fikrində deyildilər. Var gücümüzlə döyüşə girdik və bir saatadək pulemyot və qumbaraatanla bir-birimizə zərbə endirdik. Bizdən neçə nəfər yaralandı və neçəsi də şəhid oldu. Düşmənə o qədər yaxınlaşmışdıq ki, daha qüvvələrimizin top və minomyotla arxadan bizi müdafiə etməyinə yer qalmırdı. Məni nigaran edən səhərin açılmağı idi. Əlimi qaldırıb, qüvvələrimizə bizə başımızı qaldırmağa aman verməyən pulemyotçunu susdurmağı göstəriş verərkən, birdən sol qolumu və böyrümdən güclü yanğı hiss elədim. Elə həmin pulemyotçunun atəşi sol qol və böyrümü yaraladı. Sanki qəssab bıçağının ağzından keçərək sol yanım yarıldı. Qolumdan sürətlə axan qan barmaqlarımın ucundan süzülməyə başladı. Bir dəqiqədə bütün sol tərəfim qana boyandı. İstər-istəməz yerə oturdum. Əməliyyat "Ya Zəhra" rəmzi ilə başlamışdı. Əməliyyatdan qabaqkı moizəmdə

demişdim ki, sol tərəfindən yaralanan kəs o həzrətin nə çəkdiyini az da olsa hiss edər. Dodaqaltı "Ya Zəhra!" – deməyə başladım. Ağrım şiddətləndikcə zikr deyərək təskinlik tapırdım. İstəyirdim ki, hava açılınca heç kim yaralanmağımdan xəbər tutmasın. Hər halda ətrafımdakı neçə nəfər hərəkətdən dayandığımı görüb, işin nə yerdə olduğunu başa düşdü. Yerimdən tərpənmək istəməsəm də onların təkidi ilə kanaladək geri qayıtdıq. Kanalda yanımdakılardan biri sanitar idi və dedi ki, səngərlərdən birində təcili yardım üçün lazımı vəsait var. Əyilə-əyilə həmin səngərə tərəf hərəkət elədik. Kanaldan çıxarkən taqım komandiri Hüseyn Kiyaninin qardaşının şəhid olduğunu gördüm. Kənarında peşəkar qüvvələrimdən Əlişir adlı bir nəfər də başını itirərək həlak olmuşdu. Səngərə daxil olanda gördüm ki, Hüseyn də oradadır. O özü məndən qabaq yaralanmışdı və deyəsən, qardaşından xəbəri yox idi. Sanitar yaralarımı sarımağa başladı. Qan kəsilmirdi. Neçə dəfə tənzifi dəyişəndən sonra onu bərk sıxaraq qanın qabağını bir qədər aldı və ağrıkəsici bir iynə də vurdu.

Çöldə atışma davam etdikcə düşmənin müqaviməti məni narahat edirdi. Başıma nə gəldiyindən xəbər tutan müavinim Həsən Bəhramniya tələsik yanıma gəldi. Ona dedim: "Çalış

heç kim vəziyyətimdən xəbər tutmasın! Yüngül yaralanmışam." O isə təkidlə arxa cəbhəyə qayıtmağımı məsləhət gördü. Dedim ki, əlimə silah ala bilməsəm də döyüşə nəzarət edə bilərəm. Fikrimdən daşınmadığımı görüb geri qayıtdı və bunu ratsiya ilə briqada komandirinə məlumat verdi. Ondan sonra komandir Hüseyn Həmədani təkidlə mənə geri qayıtmağı tövsiyə etdi. Axır, yalvararaq onu da qane elədim ki, burada qalmağım məsləhətdir.

Sübh namazının vaxtı gəlib çatdı. Qanlı əllərimi torpağa vurub üzümə çəkdim və qiblə güman etdiyim səmtə doğru dayanıb, qanlı üst-başla namaza başladım. O namaz mənə misilsiz təsir bağışladı. Hava hələ açılmamışdı. Səngərdən çıxıb, kanalın daxili ilə döyüş xəttinin arxa cəbhəsinə tərəf hərəkət elədim. Hiss edirdim ki, canımda taqət yoxdur. Sərt soyuqdan bədənim tamam keyimiş və donmuşdu. Bilirdim ki, hava işıqlanandan sonra düşmənin əks-hücumları başlayacaq. Ona görə də qüvvələrimin başı üstündə olmalı idim. Amma günəş çıxanadək səngərlərin birində istirahət etməyi qərara aldım. Yaxınlıqdakı səngərə girdim. İçi zülmət kimi qaranlıq idi. Əlimi qum kisələrinə sürtə-sürtə dinc bir yer axtardım. Böyrümün ağrısından uzana bilmirdim. Çarəsiz belimi divara söykəyib,

soyuq və ağrı içində yumaq kimi yumuldum. İynənin təsiri çəkilmişdi və ağrılar yavaş-yavaş geri qayıdırdı. Soyuq lap iliklərimə işləyirdi. Fikirləşdim ki, durub, bir az gəzişsəm yaxşıdır. Əlimi yerə dayayıb qalxmaq istədikdə, biləyədək yumşaq və nəm şeyə batdı. Ayağa qalxıb səngərdən çıxdım və girişindən asılan adyalı kənara çəkdim. Ayın zərif şüaları içəri düşdü. Gördüm ki, divara söykənən bir iraqlı əsgərin qarın-bağırsaqları yerə tökülüb.

Dərhal hər üç taqımın vəziyyəti ilə tanış olmalı idim. Batalyonun bələdçisi və ratsiya qrupunun köməyi ilə üçüncü taqımın yerləşdiyi səmtə getdim. Onlar hələ də kanallarda müqavimət göstərən düşmənlə döyüşürdülər. Döyüşənlərin sayı on beş-iyirmi nəfər olardı. Arxada dayanıb, döyüş xətti və taqımlarla əlaqə saxlamağa çalışdıq. Üçüncü taqımın komandir müavini ilə rabitə zamanı dedi: "Düşmən snayperləri bizdən neçə nəfəri həlak ediblər." Özüm yaxına gedib, şəhid olanlardan birinə baxdım. Güllə on altı yaşlı yeniyetmə könüllünün alnından dəymişdi. Üzərinə adyal atmışdılar ki, ondan irəlidə döyüşən on dörd yaşlı kiçik qardaşı bilməsin. Bu zaman o, geri qayıdıb qardaşının vəziyyəti ilə maraqlandı. Taqımın komandir müavini Mehdi ona dedi: "Qardaşın Mürtəza həddən-artıq əldən düşdüyündən uzanıb, istirahət edir." Mustafa daha

heç nə soruşmayıb ön xəttə qayıtdı və bir qədər döyüşəndən sonra yenidən geri dönüb, soruşdu: "Qardaşım hələ də yatır?" Bu dəfə Mehdi ona belə dedi: "Sən bacarıqlı pulemyotçusan! Əgər köməyə ehtiyacın varsa, qoy Mürtəza yatsın, mən sənə kömək edərəm." Uşaq bu dəfə şübhələndi və gedib adyalı kənara çəkəndə, gördü ki, qardaşı şəhid olub. Bizə heç nə demədən kənarında uzanaraq adyalı başına çəkdi. Bu qeyri-adi hadisəyə biganə qala bilməzdim. Yaxınlaşıb adyalı kənara çəkdim. Uşaq əli ilə qardaşının saçlarını sığallayaraq onunla danışır, ürək sözlərini deyirdi. İnana bilmirdi ki, qardaşı şəhid olub. Başını torpaqdan qaldırıb onu çiyninə qoyur, titrək əllərini üzünə sürtürdü. Daha özünü saxlaya bilməyib, ağlamağa başladı, ağlaya-ağlaya birgə olan keçmiş xatirələrindən söylədi. Daha sonra adyalı qardaşının üstünə ataraq dedi: "Dadaş, soyuqdan özünü gözlə, mən indi qayıdıram." Biz isə döyüşün qızğın çağında kənardan belə dərin şəfqət hisslərinə mat-mat tamaşa edirdik. Ayağa qalxıb bizdən soruşdu: "Qardaşımın silahı hanı? İstəyirəm onun silahı ilə döyüşüm!" Ona bir avtomat veriləndən sonra cəld düşmənə tərəf cumdu.[1]

[1] "Yardım qüvvələrinin şəhidləri döyüş məntəqəsindən geri daşıması neçə saat çəkdi. Bu müddətdə Mustafa üç-dörd dəfə irəli

Günəş doğandan sonra qol və böyrümün ağrılarına dözümüm bir az artdı və daha soyuq canımdan əl çəkdi. Neçə saat məni görməyən qüvvələrim başıma toplaşdı. Təqribən hər üç taqım yaralanmağımdan xəbər tutmuşdu. Hava açılandan sonra məlum oldu ki, iraqlılar Abbas-əzim səmtindən geri çəkiliblər. Beləliklə, qüvvələrimizin əhatəyə düşmə ehtimalı aradan qalxdı. Amma saat 9 radələrindən asfalt yol səmtindən onların əks-hücumları başladı. Bizimlə döyüşmək üçün asfalt yolla aramızdakı 3 km-lik yamacla yuxarı doğru irəliləməli idilər. Bu vəziyyət bizə həddən artıq əlverişli, onların piyada qüvvələri üçün arzuolunmaz bir hal idi. Əlbəttə, onlar bunu yaxşı anlayır və artilleriyanın himayəsi altında hərəkət etməli idilər. Odur ki, əvvəlcə düşmən tərəfindən Tunel yüksəklikləri ağır atəşə məruz qaldı. Bu vəziyyətdə sadəcə kanallardan başımızı çıxara bilir, baş verənlərə tamaşa edirdik. Atəşlə bərabər onların helikopterləri də peyda oldu və uzaqdan ardıcıl olaraq raketlərini kanallara tərəf yönəltməyə

---

gedib döyüşəndən sonra geri qayıtdı. Hər dəfə geri qayıdanda gəlib qardaşının yanında uzanır, bir az dincələndən sonra yenidən irəli cumurdu. Xoşbəxtlikdən Mustafa diri qaldı və hal-hazırda orduda xidmət göstərir." General Mehdi Zəfəri ilə müsahibədən, Məşhəd, 27 yanvar, 2014.

başladılar. Bundan əlavə asfalt tərəfdən tank qoşunu da kanalları atəşə tutdu və hətta başımızı qaldırmağa imkan olmadı. Belə vəziyyətdə ağrılarımı unutdum. Hərəkət etməyə qadir olmasam da qüvvələrimin müqavimət və sarsılmaz mübarizəsi mənə ruh verirdi. Məndən başqa yaralananlar çox idi və heç biri onu büruzə vermirdi. Tankların atəşi altında düşmənin birinci piyada qoşunu irəliləyincə üçüncü taqımın peşəkar dəstəsinə tapşırdım ki, onların qarşısını kəsmək üçün ehtiyatla yola tərəf irəliləsinlər. Peşəkar dəstəyə Mehdi Zəfəri özü rəhbərlik edirdi. Onlar qumbaraatanla tankları nişan almaq üçün ən azı 2 km irəli getməli idilər. Peşəkar dəstə düşmənə yaxınlaşıb, döyüşə girişərkən birdən bizimlə Abbas-əzim təpəsi arasındakı nahiyədən atəş səsləri gəldi. Əslində onlar bu taktika ilə fikrimizi asfalta tərəf yönəldib, həmin nahiyədən bizə zərbə endirmək istəyirdilər. O səmti Heydər Söhrabinin taqımı müdafiə edirdi. Bizdən iyirmi metr aralı olan səngərdən düşmən əsgəri silahın ucuna dəbilqəsini keçirib, yuxarı-aşağı hərəkət etdirməklə snayperlərinə bizim mövqeyimizi əlamət verirdi. Bu zaman Heydər öz qüvvələrinə tapşırdı ki, atəş açmasınlar və özü atəşi nəzərə almadan səngərin yamacından sürətlə o səmtə qaçıb, içərisinə bir

qumbara atdı. Beləliklə, onu cəzasına çatdıraraq yenidən şir kimi geri qayıtdı.

Səhər saat 10-da yenidən helikopterlər peyda oldu. Onlar bizə atəş açarkən öz piyada qüvvələrinin arxa tərəfini də bombalayırdılar ki, heç kəs geri çəkilib qaçmasın.

Artıq saat 11 radələrində o qədər zəifləmişdim ki, ayaq üstə durmağa taqətim yox idi. Daim qan itirdiyimə görə su içə bilməzdim. Halbuki susuzluqdan ciyərim od tutub yanırdı. Gözüm yanımdakı qüvvələrdən birinin su qabına düşdü. Bir anlıq suya meyl göstərdiyimə görə özümdən acığım gəldi.

Günortaya yaxın yavaş-yavaş növbəti əks-hücumlar başladı. Zəiflik və halsızlıqdan hər yeri bulanıq görürdüm və gözümə hər şey ilğım kimi görünürdü. Başım tez-tez gicəllənirdi və nəhayət, huşumu itirərək yerə yıxıldım. Haçandan-haçana gözümü açarkən özümü xərəyin üstündə gördüm. Eşidilən qumbaraatan və pulemyot səslərindən anladım ki, hələ də cəbhə xəttindəyəm. Ətrafımda neçə nəfər söhbət edirdi. Biri deyirdi ki, Mirzənin qarnı yarılıb. Böyük zəhmətlə belimi qaldırıb oturdum. Əsla geri qayıtmaq fikrim yox idi. Özümü saxlaya bilməyərək yenidən arxaya yıxıldım. Bir daha huşdan gedincə Cəlal Fütüvvətə yalnız bunu

deyə bildim: "Düşmən təyyarələri yoldadır! Tapşırıq ver ki, heç kim kanaldan çıxmasın..."[1]

Növbəti dəfə ayılarkən hələ də xərəkdə uzanmışdım və neçə nəfər də kənarımda idi. Ratsiyaçıya dedim ki, briqadanın komandiri ilə əlaqə saxlasın. Komandirə dedim: "Mənim vəziyyətim yaxşı deyil. Qoyma Bəhramniyagil tək qalsınlar!"[2]

Fikrim batalyonda ikən onlardan ayrılırdım. Səhra təcili yardım məntəqəsinədək uzun yolu qət etməli idik. Xərəyin üzərində gözlərim asimanda, qulaqlarım isə partlayış səslərində idi və dilimdən "Ya Zəhra" zikri düşmürdü. Yardım məntəqəsində yaralarım dezinfeksiya edilib sarılarkən özüm də sol ayağımdan çıxarılan çəkmənin topuğadək qanla dolduğunun şahidi oldum. Təcili yardım maşını gəlincə baş sanitardan kimlərin yaralanıb və ya şəhid olduqlarını soruşdum. Daxili təlatümdə idim və hansı oğulların Allah tərəfindən seçildiyini

---

[1] "O zaman Mirzə üzünü yerə söykəmişdi. Çoxlu qan itirdiyindən tankların səsi ilə təyyarə səsini səhv salmışdı." Cəlal Fütüvvətlə müsahibədən, Məşhəd, 26 yanvar, 2014.

[2] "Briqada komandiri Hüseyn Həmədani bütün əməliyyata rəhbərlik etsə də Mirzəyə olan xüsusi rəğbət və etimada görə, dözə bilməyib, özünü birbaşa bizim batalyona yetirdi. Həmin əsnada helikopterlərin atəşinə məruz qaldıq və mənə də bir qəlpə nəsib oldu." Mühəndis Həsən Bəhramniya ilə müsahibədən, Həmədan, 30 yanvar, 2014.

bilmək istəyirdim. Cəbhədə bəzilərinin şəhid olduğunu görsəm də dilindən bir-bir sadalanan adları eşidərkən od tutub yanırdım. Döyüş zamanı bütün qüvvələrim kənarımda şəhid olsaydı belə, əsla sarsılmazdım. Amma burada adlarını eşidərkən gözlərim həsrət yaşları ilə dolurdu. Həkim nəm tənziflə quru və çat-çat olan dodaqlarımı silərkən dedim: "Susuz deyiləm." O da cavab verdi: "Mirzə, bir damla suyun qanaxmaya təsiri yoxdur." Bu zaman yadıma birinci əks-hücumdan qabaq səhər gözümün qabağında taqım komandiri müavininin susuzluqdan necə şəhid olduğu hadisə düşdü. Qəhərdən özümü saxlaya bilməyib dedim: "Həzrət Əbülfəzl batalyonu susuzların, səqqaların, ciyərləri para-para olan şəhidlərin rəmzidir!"[1] Bunu deyib bir daha huşdan getdim.

[1] "Aramızda Şeyx ləqəbini qazanan taqım komandiri müavini Əbülqasim dini göstərişlərdə hətta cüzi müstəhəblərədək riayət edirdi. Döyüşün qızğın çağı mən pulemyot ardında idim. Birdən özünü mənə yetirib dedi: "Su qabını ver, sənə su gətirim!" Susuz olsam da başım döyüşə qarışdığından cavab vermədiyimi görüb, belimdən su qabımı açdı və su tankerinin dayandığı dərəyə tərəf yüyürdü. Uzaqdan ona gözucu nəzər salırdım. Qabı doldurandan sonra özü su içmədi və ayağa qalxarkən kənarına minomyot mərmisi düşdü. Tanker deşik-deşik oldu və o da yerə yıxıldı. Əbülqasim orada susuz şəhid oldu və axan qanı ilə su bir-birinə qovuşdu. O gün "Əbülfəzl" batalyonunda bu xəbəri eşidən hər kəs

Helikopter pərlərinin səsinə ayılanda ətrafım yaralı ilə dolu idi. Pilotlar elə bilirdilər ki, sayıqlayıram. Onlara yalvararaq deyirdim ki, əgər baş komandir Hüseyn Həmədani özünü batalyona çatdırmayıbsa, məni geri qaytarın. Neçə dəqiqədən sonra Kirmanşahın mərkəzi xəstəxanasının həyətində yerə endik. Canıma serum və qan yayılandan sonra hər şeydən əvvəl batalyonumun vəziyyəti ilə maraqlandım. Bizim yaralılardan neçəsi kənarımda yatmışdı.

İki gündən sonra yaralılardan biri çarpayının ətrafında dolanmağa başladı. Deyəsən, nə haqdasa məlumat vermək istəyirdi, amma çəkinirdi. Məni ən çox Əhməd Mövləvinin vəziyyəti maraqlandırırdı. Hamı mənə qardaş kimi olsa da nədənsə fikrim onun yanında idi. Allah bilirdi, şəhadət xəbərini eşitsəydim, yəqin ki, dözə bilməzdim. Nigarançılığım əbəs deyildi. Yazıq özünü birtəhər toparlayandan sonra dedi: "Siz geri köçürüləndən sonra Əhməd Mövləvi də şəhid oldu..."

Onun şəhadət xəbəri ilə aramızdakı silinməz xatirə dəftərim vərəqlənməyə başladı. Xəyalımdan ilk tanışlığımız, sepaha gəlişi, batalyonumuzun təşkili zamanı ona qoşulmağı, evləndiyi gün oruc

---

su içmədi." Mehdi Zəfəri ilə müsahibədən, Məşhəd, 27 yanvar, 2014.

tutmağı, həmişə səmimiyyətlə güclü əlləri ilə əllərimi sıxmağı, qəndin üstünə "şəhid" yazıb ağzıma qoymağı və s. yadıma düşərkən qəhərdən boğulurdum. Özü də başqa qəndi ağzına qoyub deyirdi: "Mirzə, şəhadət kəlməsi yazılan qəndin tamı tam başqadır!" Hər bir xatirəsi gözümdə canlandıqca sel kimi yaş tökürdüm. İki-üç gün əvvəl yaralandığım zaman o mənə qibtə edərkən, indi mən onun halına qibtə edirdim. Həmin gün qol və böyrümdən qan süzülərkən mənə birinci ürək-dirək verən o idi. O cür atəşin altında şirin bir tonla soruşdu: "Mirzə, nə etdin ki, qanın süzülməyə başladı?" Gülümsəyərək dedim: "Mənim yox, iraqlıların işidir." Onda belə dedi: "Qanın damla-damla süzülməyinin bir hikməti var və hər damlası bir günahı paklayır!" Mən də dedim: "Əhməd, özündən hədis quraşdırma. Bu kəlam mənə yox, süzülən şəhid qanına aiddir. Ya da ki, Allah istəsə, bu minvalla şəhid olsam, sən deyən düzdür..."

***

Vəziyyətimlə əlaqədar iki ay Tehranın "İbn Sina" xəstəxanasında yatmalı oldum. Hər iki yaramda cərrahiyyə əməliyyat aparıldı. Yaralarım toxtamaq istəmirdi. Odur ki, hər birini açıb yenidən tikdilər və vaxtaşırı dezinfeksiyadan sonra sağalmağa başladı. Bu müddət ərzində bizim palata batalyonumuzun

qüvvələri, ailələri və briqadanın məsul şəxslərinin yığıncaq yerinə çevrilmişdi. Hərdən on beş-iyirmi nəfərin səs-küyü palatanı başına götürürdü. Zarafatlaşır, xatirələrindən danışır, söhbətlər arası şəhidlərə də toxunurdular. Bəzən danışıqlar dramatik vəziyyət alanda tibbi xidmət işçiləri də dinləyicilərimiz olurdu. Briqadanın komandirlərindən Həsən Türk, Möhsün Eynəli və Möhsün Ümidi də mənə baş çəkməyə gəlmişdi. Söhbət əsnası Həsən Türk Ümididən "canavar sürüyə hücum edib" məsələsi nədir deyə soruşduqda, zarafatla cavab verdi: "Heç nə, sürünün arasına girən canavarın dədəsi yandı!" Onun sualı əməliyyatdan qabaq düşmənin ön cəbhəsindən bizə tərəf gələn maşının şoferinin duyuq düşdüyü və vahimə içində geri dönərək öz qüvvələrinə xəbər verdiyi hadisə ilə bağlı idi. Həsən özü də həmin həyəcanlı anlarla əlaqədar başqa xatirələr danışdı.

Neçə gündən sonra anamla yoldaşım və uşaqlarım da görüşümə gəldilər. Mustafanın beş, Zeynəbin dörd və Salmanın da iki yaşı vardı. Uşaqlarımın müharibədən heç bir təsəvvürü yox idi və çarpayımın kənarında o tərəf-bu tərəfə qaçışır, oynayırdılar. Anam hərdən yoldaşımın gözündən yayınaraq qulağıma pıçıldayırdı: "Mirzə, indi ki, yaralanmısan, arvad-uşağının fikrində ol, onları tək

qoyma." Tez-tez nəsihət edərək mənə onların çətin vəziyyətini eşitdirirdi. Onu dinlədikcə fikirlərə dalır, gözümün önünə batalyonumun uşaqları, həzrət Abbasın məramını təmsil edənlər, Əbülqasim kimi susuz şəhid olanlar, səqqalar ordusu gəlirdi...



Seyid Hüseyn Səmavat, "Ənsar əl-Hüseyn" briqadasının birinci şəhid olan batalyon komandiri

Seyid Hüseyn Səmavatın "Vəlfəcr-2" əməliyyatından qabaq şəhid olduğu an, "Bezmirabad" qərargahı, 1983



Batalyonun təşkilindən sonra qüvvələrdə ruhiyyəni qaldırmaq üçün vaxtaşırı moizələr edirdim. Əlbəttə, onların nurlu və pak simalarına baxa bilmədiyimdən söhbətləri hava qaralandan sonraya saxlayırdım. Sərpol-zəhab, 1983

İraqlılar Kedu zirvəsinə qalxa bilmədikləri üçün helikopterlərdən istifadə edərkən neçəsi çox rahat məhv edildi.

Briqada komandiri Hüseyn Həmədaninin Səyyad Şirazi və Abşenasanla batalyonumuzun tərkibində Kedu zirvəsinin ətəyinədək gəldiyi gün.



Cəbhələrdə əsl mənada qardaşlıq hökm sürürdü. Hələ də yanaqlarımda şəhid Məsud Derəxşanın isti öpüşlərini hiss edirəm.



"Vəlfəcr-5" əməliyyatı, Çənqulə, yanvar ayı, 1983

Şəhid Babayi düşərgəsi, "Əbuzər" hərbi hissəsinin arxa nahiyəsi, Sərpol-zəhab, Çənquləyə yola düşməzdən əvvəl.

Soldan taqım komandiri Mehdi Zəfəri



Şəhid Əhməd Mövləvi

Beşinci fəsil

Məcnun adası

Ölüm-dirim savaşı

1984-cü ilin aprel ayında verilən əmrə əsasən, "Ənsar əl-Hüseyn" briqadası ölkənin cənub cəbhəsinə yollandı. Bu, briqadamızın cənub cəbhəsində birinci iştirakı idi. "Əbülfəzl" batalyonu da əməliyyatdan sonra özünü nizama salaraq yeni qüvvələr cəlb etdi. Bu əsnada mənim üçün ən sevindirici xəbər Rza Zərgərinin batalyona qoşulmağı idi. Ona xüsusi rəğbətimə baxmayaraq, batalyonda komandir müavini vəzifəsini daşıdığına görə utanırdım. Halbuki "Müslim bin Əqil"

əməliyyatında Rza özü batalyon, mən isə dəstə komandiri idim. Hər halda məsələni həzrət Əbülfəzə sevgisi ilə əlaqələndirib, bir qardaş kimi hörmətini qoruyaraq qərara gəldim ki, heç vaxt komandirlik barədə söz açmayım. Xüsusilə, briqada komandirini razı salaraq batalyonumuza qoşulmağı məni özünə lap çox cəlb etdi və ona qəlbimdə daha böyük rəğbət yarandı.[1] Sanki gəlişi ilə "Vəlfəcr-2" və "Vəlfəcr-5" əməliyyatlarında şəhid olanların yerini doldurdu. Elə ilk gündən böyük təcrübəsi əsasında batalyonun nizam-intizamı və təlimat işlərinə başladı və mən də asudə halda briqadanın komandir canişini Şükri ilə Sərpol-zəhabdan Əhvaza yollandım.

Şükri özü də bacarıqlı və qabiliyyətli komandir sayılırdı. Dərin mənəvi keyfiyyətləri ilə yanaşı zahirdə həmişə xoşsöhbət və gülərüz idi. Çox ciddi halda məzəli söhbət açaraq adamın könlünü alardı.

---

[1] Rza Zərgəri özü bu haqda belə nəql edir: "Mən briqada komandiri hacı Hüseyn Həmədaniyə Əbülfəzl batalyonuna qoşulmağımı təklif edəndə razılaşmayıb, dedi ki, başqa batalyonu öhdənə al. Cavab verdim ki, məqsədim Mirzə Sulgiyə qoşulmaqdır. O da dedi: Sən əvvəl onun komandiri olmusan və indi necə onun əmri altında çalışmaq istəyirsən?! Mən də ona belə dedim: Mirzə özü, eləcə də bütün batalyon həzrət Əbülfəzlin əlləri altında xidmət göstərir. Beləliklə, sözüm onu qane elədi və batalyona qoşulmağa icazə verdi." General Rza Zərgəri ilə müsahibədən, Məşhəd, 28 yanvar, 2014.

Onlardan keçmiş rejimə aid birini də Sərpol-zəhabdan Əhvaza uzanan yol boyu nəql etdi: "İnqilabdan neçə il qabaq dostlardan birinin maşınında Tehrana getmişdim. Küçələrin birində polis maşını ilə üz-üzə gəldik. Maşında rütbəli şəxslər vardı. Gözüm qabaqda əyləşən polkovnikə düşərkən ona bir ağız əyərək sataşmalı oldum. Yanımızdan ötəndən sonra güzgüdən baxıb gördük ki, maşını döndərərək dalımızca gəlirlər. Aradan çıxmağa imkan olmadığını görüb, ağzımı elə həmin əydiyim vəziyyətdə saxlamalı oldum. Polis maşını bizə yaxınlaşdı və polkovnik pəncərədən hədsiz qeyzlə mənə bir nəzər saldı. Gördü ki, doğurdan da mənim qiyafəm gördüyü kimidir və elə güman etdi ki, anadangəlmə belədir. Bundan sonra polis maşını dönüb öz yoluna davam etdi və mən də rahat nəfəs aldım."

O, yol boyu o qədər maraqlı əhvalatlar danışdı ki, heç bilmədim nə vaxt gəlib, Əhvaz-Xürrəmşəhrin 30 km-liyinə çatdıq. Bura Karun çayına yaxın idi və batalyonlarımız orada yerləşməli idi. Düşərgə şəhid Məhərrəminin adını daşıyırdı. Neçə gündən sonra batalyonlar da bir-bir Sərpol-zəhabdan bura gələrək Xuzistanın tez yetişən isti yayının qonağı oldular. Bütün qüvvələr toplaşandan sonra cəbhə xətti ilə tanış olmaq üçün batalyon komandirləri ilə birgə

Məcnun adalarına yollandıq. Böyük "Xeybər" əməliyyatında iki şimal və cənub adalarının geri alınmasından təxminən iki ay keçirdi. Bu əməliyyat bizim Çənqulədəki əməliyyatımızdan neçə gün sonra Hur məntəqəsində baş vermişdi. Düşmən vəziyyəti dəyişmək üçün ardıcıl əks-hücumlar edir, quru və su döyüşlərini birgə aparırdı. Biz də mövqeyimizi qorumaq və onların müxtəlif taktikaları ilə qarşılaşmaq üçün dağlıq məntəqədə topladığımız təcrübəmizlə adaya daxil olduq. Nəqliyyat vasitələri adadan cənubi adanın cənubundan şimalına getmək üçün Hurun üzərində çəkilən 14 km-lik dirəksiz körpüdən keçməli idi. Adanın cənubu savaşın mərkəzi sayılırdı. Bütün adanın hər tərəfi hələ üzərini su əhatə etməyən üç yolla bir-birinə qovuşurdu. Uzunluğu 8-10 km-ə çatan bu yollara şərqi, orta və qərbi sədd deyilirdi. Sədlərin sağ və sol tərəflərini isə göz işlədikcə qamışlıqlar əhatə edirdi. Hər tərəfi "Xeybər" əməliyyatından qalan cəsədlərin iyi bürümüşdü və suları zəhərli kimyəvi maddə ilə qarışmışdı. Döyüşçülərimiz ilk dəfə burada zəhərli qazların dadını dadmışdılar. Coğrafi baxımdan buranın cəbhəsi başqa yerlərdən tamamilə fərqlənirdi. Düşmənin dalğıc dəstələri və ya qayıqların bizim qüvvələrin arasına soxulmaması üçün dərhal

qüvvələrimizi adanın qərb bucağından şimalda yerləşdirməli idik.

Cəbhə xəttini "Vəliəsr-7" briqadasından təhvil alandan sonra onun komandir müavini Mehdi Kiyani bizi vəziyyətlə tanış elədi. Vəliəsr briqadasını Xuzistanın su, bataqlıq və cənubun əlli dərəcə istisinə öyrəşən qüvvələr təşkil etdiyi halda bizə isə hər şey yeni idi. Şiddətli istidən əlavə bura hər tərəfdən təyyarə, tank, top, katyuşa, minomyot və s. atəşi yağırdı. Odur ki, şimal və arxa adadan keçərək cənubi adanın hər hansı sədd yolu ilə irəliləmək istəyən hökmən bu od-alovun içindən sovuşmalı idi. Hətta məqsədə sağ çatsa belə qabaqcadan düşmənə məlum olan mövqelərdə də yenə atəşə məruz qalacaqdı.

Bura lap Kərbəla səhrasına bənzəyirdi. İstisi adamın amanını qırır, susuzluğu əldən salırdı. O zaman bütün qüvvələrdən qabaq "Müslim bin Əqil" batalyonu cəbhə xəttinə yola düşəndə Həsən Tacuka dedim ki, Kərbəla hadisəsində də İmamın (ə) göstərişi ilə karvandan qabaq Müslim yola düşmüşdü. "Müslim bin Əqil"dən sonra "Qasim" və "Əli Əkbər" batalyonları sədlər boyu mövqe seçdi. Növbə bizim batalyona çatdı. Atəşin şiddəti artdığından qüvvələri bütün ada miqyasında bölüb yaymaqdan başqa çarə qalmadı. Briqadanın

əməliyyat planı üzrə qüvvələri üç bölük tərkibində şimali ada səmtindən cənubi adanın qərb bucağınadək yerləşdirdik.

Nəzərdə tutulan pusqu nöqtəsinin 600 m-liyinə yetişmək üçün qayıqlarla irəliləməli, orada yerə enib, yolun kənarı boyu qazılan kanalla getməli idik. Bir metr dərinliyi olan kanal suya yaxın olduğundan əksər nahiyələrdə dibi lil, palçıq və bataqlığa çevrilmişdi. Odur ki, çəkmə və corablarımızı çıxarıb, boynumuzdan asır, şalvarımızı başımıza dolayır və ya çantamıza qoyub, ilan-qurbağanın arası ilə hərəkət edirdik. İndi isə gözlər yuxarı yox, aşağı zillənmişdi və ayağa dolaşan heyvanlarda idi. Kanalın axırına çatanda bədənimiz qurşağadək üfunətli palçığa batmışdı. Nəhayət, məqsədə çatdıq və ondan sonra gözlər bir daha yuxarıdan atəş yağan səmaya dikəldi.

Belə şəraitdə hər bir əsgər – əlbəttə, gün vurmadığı və ya yaralanmadığı təqdirdə – iki gündən artıq pusquda qala bilməzdi və hökmən əvəz olmalı idi. Gündüz yaralandığı halda da arxa cəbhəyə qayıqla və ya həmin kanalla qayıtmaq üçün hava qaralanadək gözləməkdən başqa çarə yox idi. Burada döyüşdən daha ağırı su ehtiyacı və susuzluq məsələsi idi. Qüvvələrin arxadan özləri ilə gətirdiyi buz kristalları davam gətirməyib, yolda əriyirdi. İlk

dəfə pusqu nöqtəsinə qüvvə yollayanda onlara "Xeybər" əməliyyatından, İmamın[1] adaların qorunmasına dair ciddi təkidindən və adalar uğrunda "İmam Hüseyn" briqadasının komandiri Hüseyn Xərrazinin əlini, "Məhəmməd Rəsulullah" briqadasının komandiri hacı Himmətin başını itirdiyi kimi mühüm məsələləri vurğuladım. İlk dəfə qərbi sədd pusqu məntəqəsinə Mehdi Zəfərinin rotasından bir dəstəni yola saldıq. Bacarıqlı və təcrübəli üzvlərdən ibarət avanqard qrupun irəliyə düşməsi hamını ruhlandırdı. Özüm onlardan 2-3 km arxada batalyonun komandirlik qərargahından ratsiya ilə tez-tez əlaqə saxlayaraq vəziyyəti öyrənirdim. Hiss edirdim ki, vəziyyət həddindən artıq çətindir və cürəti artan düşmən onlara lap çox yaxınlaşıb. Təxminən neçə metrliyinə çatdıqlarına və astadan danışdıqlarına görə, nə dediklərini yaxşı eşidə bilmirdim. Nə qədər bərkdən danışmalarını göstəriş versəm də xeyri olmurdu. Axır, çox çətinliklə başa saldılar ki, onların dalğıcları sağ tərəfdən pusqu məntəqəsinə yetişiblər və aralarında cəmi neçə metr məsafə var. Bundan sonra daha onlardan məlumat gəlmədi. Narahat olub, ratsiyaçı ilə birgə pusqu məntəqəsinə yollandım.

[1] İmam Xomeyni.

Gündüz olduğundan hava o qədər isti idi ki, sanki günəş yerə enmişdi. Rütubət və bürküdən paltarımız su içində idi. Yavaş-yavaş gəlib, 600 metrlik kanala çatdıq. Kanalda paltarlarımızı çıxarıb, bataqlığın içi ilə yıxıla-dura özümüzü pusqu yerinə yetirdik. Qüvvələrimiz məni görən kimi səngərdən çölə çıxdılar. Soruşdum: "Hanı düşmən dalğıclarının cəsədləri?" Dəstə başçısı dedi: "Səngərdən çıxmadığımıza görə aramızda savaş baş vermədi. Onlar səngərə yaxınlaşarkən bizi görüb, atışmasız suya atıldılar, vəssalam!" Bu vaxt hətta yaxınlıqdakı düşmənin eşidəcəyi tərzdə başlarına bərkdən qışqıraraq dedim: "Cəhənnəmə yaxınlaşsınlar! Siz başınızı dik tutmalısınız, onlar yox! Onlar başını torpağa soxmalıdırlar, siz yox! "Əbülfəzl" batalyonunda xidmət göstərən kəs azğın düşmənə aman verməməlidir!" Mən danışdıqca minomyot mərmiləri vıyıldayaraq səngərin ətrafına düşürdü. Bununla belə, onları ruhlandırmaq üçün ayaq üstə danışmaqdan başqa çarəm yox idi. Yavaş-yavaş onların qorxusu çəkiləndən sonra kənarda oturub, palçığa batan üst-başımı yumağa başladım. İçməyə suyumuz yox idi. Hər yeri lilli suların üfunəti bürümüşdü. Qüvvələr çarəsiz qalanda elə həmin sudan istifadə edirdilər. Yaman susamışdım. Biri mənə su qabını verdi ki, susuzluğum yatsın. Susuz

olsam da içmədim. O da dedi: "Bu, ada suyu deyil, onu tankerdən doldurmuşam və hələ də içməmişəm." Nə qədər xahiş etsə də içmədim. Geri qayıdarkən öz-özümə deyirdim ki, bu qədər suyun kənarında susuzluğa dözmək həqiqətən çətindir.

***

Qayda üzrə hər iki-üç gündən bir pusquda olan qüvvələri növbə ilə dəyişir, bəzən özümüz də səhərədək onların kənarında qalırdıq. Adətən, qüvvələrimizdən yaralanmayan və ya şəhid verməyən günümüz olmurdu. İnsafla baxanda, həqiqətən o şəraitdə birbaşa döyüşə girmədən iki-üç gün eyni vəziyyətdə səngəri qorumaq "Vəlfəcr-5" əməliyyatından da çətin idi.

Bir gün batalyonun qərargahında oturmuşduq. Atəşin sakitləşdiyini nəzərə alıb, könlümüzdən çimmək keçdi. Hansı ki, buranın suyu da havası kimi isti və od kimi idi. Rza Zərgəri üzməyi bacarmırdı. Adanın suyunun dərin yeri iki-üç metr olsa da o, özünü itirərək əl-ayaq atır və kənarında olan hər kəsdən yapışaraq onu suyun altına basırdı. Elə bu vaxt cəbhəmizə təbliğə gələn neçə nəfər ruhani tələbənin qərargaha yaxınlaşdığını gördüm. O zaman təbliğat mərkəzindən cəbhələrdə əhval-ruhiyyəni yüksəltmək məqsədi ilə müxtəlif məntəqələrə ruhani heyətlər göndərilirdi. Əlbəttə,

bölgələrdə təbliğ və döyüşlərdə fəaliyyət göstərən tələbələrin də sayı az deyildi. Hər halda bu beş nəfərdən ibarət qrupu qarşılayandan sonra onları dəstə komandiri Abbasa tapşıraraq dedim: "Ruhani qardaşlarımızı irəli pusqu məntəqəsinədək apar, vəziyyətlə tanış olsunlar." Əmin idim ki, belə çətin şəraitdə onların əsgərlərlə görüşü əhval-ruhiyyəyə müsbət təsir edəcək. Amma məntəqənin hər tərəfdən atəşə məruz qaldığını nəzərə alaraq, onları təhlükə gözlədiyinə görə də nigaran idim.

Axşama yaxın Abbas onlarla yola düşdü və bir saat keçməmiş tək geri qayıtdı. Qərara görə o, ən azı bir gecə orada qalmalı idilər. Hiss elədim ki, vəziyyət yaxşı olmadığı üçün belə tez geri qayıdıb. Ondan soruşdum: "Deməyə sözün yoxdur?" O da dedi: "Yolda qabağa getmək üçün istixarə etdilər, amma pis gəldi." Abbas zarafatcıl olsa da bilirdi ki, ruhanilərə böyük hörmətim var, onlara qarşı cüzi kinayəyə belə hövsələm yoxdur. Bir az da ciddi tonla soruşdum: "Nə olub? Bəs tələbələr harada qaldılar?" Cavab verdi: "Nə bilim, çıxıb getdilər." Bundan sonra baş verənləri belə nəql etdi: "Sizdən ayrılandan sonra təxminən 2-3 km piyada getdik. Pusqu məntəqəsinə yaxınlaşarkən gördük ki, neçə nəfər könüllü suyun üzərinə çəkilən körpüdə namaz qılır. Onların elə şəraitdə göz yaşları axaraq xüsusi

təmkinlə namaz qıldığını görən nisbətən yaşlı ruhani üzünü öz həmkarlarına tutub dedi: "Qardaşlar, irfan, əsil mənəviyyat və hər şey elə buradadır!" Bundan sonra biz də onun arxasında dayanıb, məğrib və işa namazlarımızı qıldıq. Namazdan sonra dedim: "Hörmətli ruhani qardaşımız, irfan və mənəviyyatın çoxu hələ qabaqdadır." Beləcə, söhbət edərək könüllülərin yanından keçib, bir qədər irəli getdik. Hələ çox da aralanmamışdıq ki, başımızın üzərindən mərmilər o tərəf-bu tərəfə ötərək ətrafımızda partlayarkən hər biri özünü itirib, əynində əba və əmmamə ilə palçığa yıxıldı. Heç biri partlayış zamanı lazımı reaksiya göstərə bilməsə də xoşbəxtlikdən yaralanan olmadı. Bir az da irəli gedərək kanala çatdıq. Qayda üzrə bütün paltarlarımı çıxartdım və əynimdə bircə tuman qaldı. Üzümü onlara tutub dedim: "Siz də paltarlarınızı çıxarın." Dedilər: "Niyə belə?! Bura necə cəbhədir!" Mən də dedim: "İrfan və mənəviyyatın ən yüksək dərəcəsini görmək istəmirdizmi? Elə isə ona yetişmək üçün paltarları çıxarmaq lazımdır." Sözüm cavabsız qaldı və onlara paltarlarını çıxarmadan kanala girərək palçığın içi ilə ardımca düşdülər. Hərəkət etdikcə hər dəqiqədən bir sağ-solumuza mərmi düşür və hər birinin vıyıltısı ilə kanalın dibinə sərilirdik. Qalxdıqda isə

özümüzü tanımır və gülməli hala düşürdük. Axır, biri arxadan əlini belimə elə ilişdirdi ki, yerə yıxıldım. Soruşdum: "Nə olub?" Dedi: "Bizi harayadək aparmaq fikrin var?!" Cavab verdim: "İrfanın son nöqtəsinədək!" Məlum idi ki, irəlilədikcə vəziyyət bir az da çətinləşir. Odur ki, ayaq saxlayıb dedilər: "Gərək istixarə edək. Görək, bundan o tərəfə davam etmək lazımdır, ya yox." Mən də dedim: "Hacı, qabağa gedən uşaqların heç biri istixarə etməyib!" Daha böyükləri bir söz deməyib geri döndü və qalanları da ona qoşularaq geri qayıtdılar. Arxadan nə qədər and-aman edərək "Ay canım, irfanın axırına cəmi 500 metr qalıb" – desəm də qayıdan olmadı və oradan birbaşa arxaya döndülər." Abbasın hadisəni belə məzəli danışması hamımızın gülüşünə səbəb oldu. Bununla belə, hamımız yaxşı bilirdik ki, ruhanilərin cəbhələrdə fəaliyyəti həqiqətən çox təsirlidir. Əksər cəbhə bölgələrində onların əsgər libası geyinərək döyüşə girişməyi indiki zamanda bizə imam Hüseynin (ə) o zamankı vəfalı səhabələrini xatırladır.[1]

Neçə gündən sonra Abbasın dəstəsini Məhcubun dəstəsi ilə əvəz etdim. Həqiqətən adı[2] özünə

[1] Özüm Favda "Vəlfəcr-8" əməliyyatında bunun misilsiz nümunələrinin şahidi olmuşam və yeri gəldikcə qeyd ediləcək.

[2] Məhcub – həyalı.

yaraşırdı. Heç bir artıq-əskik hərəkətə yol vermədən öz qüvvələrinə bir ata kimi can yandırırdı. Bir yerdə dinc qalmazdı və cüzi bəhanə ilə qərargahı tərk edib, özünü pusqu çəkən əsgərlərinə yetirərdi. Bu isti yay günlərinin birində gördüm ki, neçə dəfə qərargaha gələrək məndən xəbərsiz batalyonun komandir müavini Rza Zərgəri ilə nəyin barəsindəsə pıçıldaşıb geri qayıtdı. Axırıncı dəfə gedəndə hiss elədim ki, gülümsəyir və yaman razıdır. Axır, Zərgəriyə yaxınlaşıb soruşdum: "Məhcub nə istəyirdi?" Dedi: "Özün bilirsən ki, bu öz qüvvələri üçün nə qədər ürək yandırır. Günün bu çağında hər nə yolla olursa olsun, onlara buz aparmaq istəyir. Mən də yolda təhlükəyə görə əsla razı deyildim. Son dəfə məni birtəhər qane edib dəstəsinə buz apardı."[1]

[1] Hadisəni Rza Zərgərinin özü belə nəql edir: "Yayın isti günlərindən birində səhər saat 11 radələrində Məhcub qərargahın səngərinə daxil olub mənə dedi: Uşaqlar səngərdə istidən həlak olurlar, buzları qurtarıb. Dedim: Nə etməliyik ki! İndi irəli getmək mümkün deyil və ora nə isə aparmaq intihar sayılır. Sözümdən sonra Məhcub başını aşağı salıb çölə çıxdı. Amma beş dəqiqədən sonra geri qayıdıb yalvararaq dedi: Axı bizim burada sərin suyumuz olub, onların susuzluqdan yanmağı mənə çox ağırdır! Mən də cavab verdim: Qardaşım, əgər özün və qüvvələrinin salamatlığını istəyirsənsə, bu fikirdən əl çək. Neçə saatdan sonra hava qaralacaq. Qane olub getsə də yenə neçə dəqiqədən sonra qayıdıb eyni tərzdə fikrini bildirdi və mən də ona eyni cavabı verdim. Bu get-gəllər neçə dəfə təkrar oldu və nəhayət, o qədər

Qüvvələrimiz üç dəstəyə bölünərək növbə ilə adada keşik çəkirdi və yeri gəldikcə bir qismini istirahət üçün "Şəhid Məhərrəmi" düşərgəsinə yollayırdıq. Orada döyüş məntəqəsi və atəşdən uzaq olsalar da bir çoxu istinin şiddətindən günvurmaya məruz qalır, ya da bəzilərini ilan-əqrəb çalır və təcili yardım məntəqəsinə göndərilirdilər. Odur ki, qüvvələri hər hansı şəraitə hazırlamaq üçün lazımı tədbir və təlimlər təşkil edilirdi. Adətən, manevrlər gecələr keçirilir, gündüzlər isə onları sərbəst buraxırdıq. Günlərin bir günü günortanın qızmar çağında Abbas mənə dedi: "Qüvvələrimizin türk və lor millətləri arasında münaqişə yaranıb!" Mənə onların arasındakı fiziki çəkişmə daha acı və ürəkağrıdıcı oldu. Tələsik özümüzü hadisə yerinə çatdırdıq. Artıq dava-dalaş sakitləşmişdi. Abbasa dedim ki, dava-dalaşın səbəbi və bais olanları araşdırıb mənə məlumat versin. O da bir qədər sonra hər iki millətin çadırlarından iki qrup yığıb yanıma gətirdi. Hadisəni öz dillərindən dinləməli oldum.

---

israr etdi ki, özüm də xəcalət çəkdim. Bu dəfə dedi: Əbülfəzl batalyonunda səqqalıq və xidmət ən böyük vəzifədir. Mən burada qalıb onların orada susuzluqdan tələf olmağına dözə bilmərəm. Bu söz mənə bir anlıq Kərbəlada baş verən tarixi hadisələri xatırlatdı və mənə elə təsir etdi ki, daha ona razılıq verməkdən başqa çarəm qalmadı." General Rza Zərgəri ilə müsahibədən, Məşhəd, 26 yanvar, 2014.

Lorlar dedilər ki, türklər bizi masqara edir və türklər də cavab verdilər ki, onlar da bizim ləhcəmizə gülürlər. Bir neçə sorğu-sualdan sonra məlum oldu ki, heç biri digərini masqara etməyib və sadəcə qonşu çadırdan eşidilən danışıqlar anlaşılmazlıq yaradıb. Amma bu kiçik hadisə bütün batalyonda qalmaqal yaratdı. Münaqişəni sakitləşdirsəm də əhvalım tamam pozuldu və narahat idim. Hamı başını aşağı dikib dinməz dayanmışdı. Əvvəlcə Qurandan bir ayə misal çəkərək dedim: "Ey insanlar! Biz sizin hamınızı bir kişi və qadından yaratdıq və sizi qisimlərə və qəbilələrə böldük ki, bir-birinizi tanıya biləsiz. Bəs, Allah dərgahında ən üstününüz sizin ən təqvalınızdır![1] Allah deyir ki, aranızdakı dil, qəbilə və qövm müxtəlifliyi fəxr və lovğalıq üçün yox, ayırd etmək üçündür. Bu Səddam özü də qeyri-ərəb müqabilində ərəb millətinə güvənir. Elə isə onunla bizim aramızda nə fərq var?!" Danışarkən hiss edirdim ki, qulağıma astadan ağlamaq səsi gəlir. Kiminsə başını tumarlamağa yer yox idi və gərək tənbeh olunaydılar. Onları Rza Zərgərinin yanına göndərdim. Ertəsi gün səhər toplanışında Rza ilk davaya bais olan iki nəfəri ayırıb əmr verdi ki, günün altında sinəsi üstə sürünsünlər. Hər ikisi

[1] "Hücürat", ayə, 13.

ayaqyalın idi və isti torpağın üstündə dirsəkləri ilə o qədər süründülər ki, əlləri qana batdı. Hamı kənardan onlara tamaşa edirdi. Türk könüllü yerdə süründükcə ağlayır və ardıcıl olaraq "Allaha, onun Rəsuluna və sizin əmr sahiblərinizə itaət edin" – ayəsini söyləyirdi. Nəhayət, hamıya həzrət Əbülfəzli and verərək tapşırdım ki, heç vaxt millət davası törətməsinlər. Bundan sonra Rza da onları öz bölümlərinə göndərdi.

İki ay "Şəhid Məhərrəmi" düşərgəsi və Məcnun cəbhəsində xidmətdən sonra yenidən göstəriş verildi ki, qərb cəbhəsinə qayıtmalıyam. O zaman bu xəbəri eşidən könüllülərdən biri dedi: "Biz gedirik, amma Allah keşik məntəqəsində yerimizi əvəz edənlərin dadına çatsın!"[1] Şəhid olanlar arasında Söhrabi adlı cavan bir könüllünün xatirəsi heç vaxt yadımdan çıxmır. Onun əsgərlik xidməti elə Məcnun adasında başa çatdı və istədiyi vaxt Nəhavəndə qayıda bilərdi. Dəstə komandiri Abbas ona "Xidmət müddətin başa çatıb və geri qayıda bilərsən." – deyərkən o, belə cavab vermişdi: "İndiyədək əsgər idim. Amma bu gündən etibarən üzərimə düşən vəzifə və İmamın hökmünə əsasən, cəbhədə qalacağam!" Həqiqətən verdiyi sözə sadiq qalaraq axırda şəhid oldu.

[1] Məcnun adasındakı iki aylıq müddətdə bizim briqadadan otuzdan çox şəhid olan və yüz əllidən çox yaralanan oldu.

Məcnun adasında cəbhə xəttini növbəti qüvvəyə təhvil verəndən sonra Əhvaza qayıtdım və neçə gündən sonra Nəhavəndə gəldim. Elə həmin gün Nəhavənd bombardmana məruz qaldı. O zaman yoldaşım üç uşağım Mustafa, Zeynəb və Salmanla Nəhavəndin Cavadiyyə küçəsində qalırdı. Partlayışlardan sonra əksər evlərin, o cümlədən, bizim evimizin də şüşələri qırılıb tökülmüşdü. Bununla belə, uşaqların üzündə qorxu hiss etmirdim. İki otaqlı xudmani bir həyət evini kirayə etmişdik. Mətbəx, hamam və tualeti qonşumuz Kərəməli ilə müştərək idi. O da iki övladı ilə bir otaqlı evdə qalırdı və kirayə pulunu da yarı-yarı ödəyirdik. Hər birimizin ayrıca şəxsi ev tutmağa imkanımız yox idi. Odur ki, iki ailə şəri, əxlaqi və qonşuluq münasibətlərinə riayət edərək bir-birinin kənarında yaşayırdı. Evin qapı-pəncərəsinə dəyən xəsarəti görəndən sonra yoldaşıma dedim ki, növbəti övladımız dünyaya gəlincə gedib kənddə qalsın. O isə razılaşmayıb elə burada qalacağını bildirdi. Şəhər bombardmana məruz qalsa da cəbhəyə qayıdıb, batalyonu əməliyyata hazırlamalı idim. Ailəmlə vidalaşarkən dedim: "Zülm çox davam etməz və bu Allahın vədəsidir! Onların cavabını cəbhədə verəcəyik..."

***

İslamabadın qərbi Miməkdə "Salman" qərargahında əməliyyatla bağlı müzakirələr gedirdi və yığıncaqlara Məhəmmədbaqir Qalibaf[1] rəhbərlik edirdi. Ordunun cəbhə məntəqələrində ciddi fəaliyyəti göstərirdi ki, Mimək məntəqəsində də onlarla birgə çiyin-çiyinə çalışmalı və ordunun 81-ci piyada diviziyası sepahın "İmam Rza", "Nəsr", "Nəbi-əkrəm" və bizim "Ənsar əl-Hüseyn" briqadaları ilə birləşməli idi. Miməkdə əməliyyatdan məqsəd düşmənin cənub cəbhəsindəki təzyiqini azaltmaq, sərhəd bölgəsinə bitişən yüksəkliklərə nəzarət etmək idi. Bu yüksəkliklər hələ müharibədən əvvəl iki ölkə arasında münaqişəli ərazilərdən sayılırdı. Məntəqədə yerləşəndən sonra kəşfiyyat işləri başlandı. Qalaləm, Qələmzərd, Ban-təlxab və Gərkəni yüksəklikləri bizim qüvvələrə tapşırıldı. Məlum olduğu kimi qarşıda bizi çətin vəziyyət gözləyirdi. İki cəbhə arasında olan böyük məsafə hər iki tərəfə istənilən yol və yamacların vasitəsilə kəşfiyyata imkan verirdi. Bizə mane olan bircə şey arxadan şose yoluna birləşən yamac idi və oradan bizi düşmənin hər hansı quru və hava təhlükəsi gözləyirdi. Şose özü ardıcıl yamaclıqlar və dərələrin arasından keçib getsə də düşmənin nəzarəti altında

[1] Tehranın sabiq meri və hal-hazırda Milli Məclisin sədri.

idi. Əksər cəbhə bölgələrində düşmənin atəşi üstünlük təşkil etsə də bir çox məsələlərdə vəziyyətimiz onlarla oxşar idi. Məsələn, heç bir tərəf pərakəndə və ardıcıl cəbhəyə malik deyildi. Bölgənin coğrafi quruluşu hər iki tərəfə kəşfiyyat imkanı verirdi və hər birimiz plan və əməliyyata hazırlaşırdıq. Əldə olan məlumat və nişanələr göstərirdi ki, onlar əməliyyata bizdən qabaq başlamaq fikrindədirlər. Odur ki, xüsusi çevikliklə vəziyyəti dəyişməli idik. Elə birinci kəşfiyyatda Çitsazianın və başqa batalyon komandirinin dəstələri ilə gündüz çağı neçə dərə-təpə və çökəkliyi keçərək irəli getdik. Yolda düşmənin kəşfiyyat qrupu da bizdən xəbərsiz yanımızdan ötüb keçdi. Bir az irəli gedib açıq sahəyə çatdıq. Kəşfiyyat-əməliyyat dəstəsinin verdiyi məlumata əsasən, bilirdik ki, bura düşmən tanklarının cövlan etdiyi məntəqədir və özümüz də onları aşkar müşahidə elədik. Daha sonra "İmam Rza-21" briqadasının yerləşdiyi müdafiə xəttinə qayıtdıq. Bizdən bir qədər kənarda xüsusi çalada bir tank ekipajı da istirahət edirdi. Burada azacıq dincimizi almaq istəyərkən birdən minomyotun zil vıyıltısı eşidildi və gəlib düz tankın üzərinə düşdü. Partlayış zamanı beş nəfər həlak oldu və tanka da xəsarət dəydi. Kənara səpələnən əl-ayaq və bədən tikələrini müşahidə

edərkən özümü itirmədən qibtə ilə dedim: "İlahi! Belə al-qana qəltan olan şəhadəti bizə də nəsib elə!" Kənarımdakı qüvvələr də mənimlə həmfikir idi. Şəhidlərin cəsədlərini bir yerə toplayıb, kənarında birgə "Aşura" ziyarətnaməsini oxuduq.

Hələ ki, kəşfiyyatlar davam edirdi. Vəziyyətlə bağlı batalyonların komandirləri ilə birgə "Salman" qərargahının ikinci şöbəsinə məlumat verdik. Manevrin planı hazır oldu. Kəşf edilən dəqiq məlumatlara baxmayaraq, qərargah əməliyyatı yalnız "Feysəl" və "Gərkəni" yüksəklikləri dairəsində məhdudlaşdırdı. Qeyd edildiyi kimi əməliyyata sepah və ordu qüvvələri birgə hazırlaşırdı. Beləliklə, ordudan bir bölük bizim batalyona və bizdən də bir bölük ordu qüvvələrinə qatıldı. Müttəfiq qüvvələr yaxınlıqdakı körpünün altında mövqe seçib, ordunun bölük komandirini gözlədi. Müavini leytenant Xəzai bizə yaxınlaşarkən soruşdum: "Komandiriniz haradadır?" Dedi: "Qırx gündür ki, yoxdur. Hələ qayıtmayıb və çox ehtimal ki, qayıtmayacaq." O da nəhavəndli idi və aramızda qohumluq əlaqəmiz vardı. Ona tapşırdım ki, mənim bölüklə xüsusi söhbətim barədə şərait yaratsın. Bölük bir yerə toplaşandan sonra vəziyyətlə bağlı onlara açıqlama verdim. Xəzai qabaqcadan mənə demişdi ki, ordu qüvvələri könüllülər və pasdarlara

nizam-intizamsız bir qüvvə kimi baxırlar və klassik müharibə üsulu üzrə döyüşmədiyini bildirirlər. Yadımda ikən bu birinci dəfə idi ki, gündüz söhbət edirdim. Sözümün birləşmiş qüvvələrə lazımı təsiri üçün Nəhcül-Bəlağənin 11-ci xütbəsini seçərək dedim: "İmam Əli (ə) hicri tarixi ilə 36-cı il 15 cəmadiül-əvvəldə cümə axşamı Cəməl döyüşündə bayrağı oğlu Məhəmməd Hənəfiyyəyə verərək dedi: Dağlar yerindən qopsa da sən yerində möhkəm dayanmalısan! Dişlərini bir-birinə sıxaraq başını Allaha tapşır və ayaqların yerə mıxlansın! Düşmən qoşununa nəzər sal və onların çoxluğuna göz yum! Bil ki, qələbə yalnız Allah tərəfindəndir!" Həzrətin kəlamını ərəbcə söyləyib, hal-hazırkı vəziyyətimizə uyğun tərcümə və izahına keçdim. Əvvəlki əməliyyatlara dair təcrübələrimdən, Allahın lüftü və s. əhəmiyyətli məsələlərdən söz açdım. Mənim istiqanlı çıxışımdan sonra hiss etdim ki, qüvvələr arasında söhbətlərimlə bağlı müzakirələr gedir. Daha sonra Xəzai özü gəlib, söhbətimin qüvvələrə yaxşı təsir etdiyini bildirdi. Məsələn, deyirdilər ki, pasdarların çoxu əyninə hərbi libas geyinən savadlı ruhanilərdir və ilaxır. Halbuki mən özüm cəmi beşinci sinifədək təhsil almışdım və bizim Quran və Nəhcül-Bəlağə ilə yaxından tanışlığımız cihad və müharibənin nəticəsi idi. Növbəti yığıncaqlarımızda

aramız ordu bölüyü ilə daha da səmimiləşdi və yeri gəldikcə onların istənilən ehtiyaclarını aradan qaldırmağa çalışdım.

Bir gün ordu briqadasının generalı ilə birgə cəbhə xəttinə getdik. Səngərin tavanına düşən minomyotun mərmisi nəticəsində üç nəfər şəhid olmuşdu. Axan qandan görünürdü ki, hadisə təzə baş veribmiş. Səngərin tavanı uçmuşdu və içəridən tapılan durbininin yalnız bir linzası salamat idi. Bu əsnada açılan neçə snayper gülləsindən biri durbinə dəydi və o da parçalandı. Düşmənə o qədər yaxın idik ki, hətta adi gözlə onların komandiri müşahidə olunurdu. Neçə dəqiqədən sonra öz briqadamızın komandiri Hüseyn Həmədani də bizə yaxınlaşdı. Məlum idi ki, hər iki komandir yaxından – müşahidə məntəqəsindən vəziyyəti və düşmənin mövqeyini müəyyənləşdirmək istəyir. Onların qısa söhbətindən sonra ordu komandiri qayıtdı və biz ikimiz isə yaxınlıqdakı başqa təpəyə qalxıb, o səmtdən düşmən xəttinə göz qoymağa başladıq. Həmədani mənə dedi: "Çox güman ki, ordu və sepah qüvvələri bir-birindən ayrılmalı olacaq və qüvvələrimiz əməliyyata müstəqil davam edəcək." Hər halda mən səbəbini soruşmadım. Təpədə müşahidəçimiz kiçik qardaşım Şirməmməd bizi görəndə yaman sevindi. Komandir ona göstəriş verdi ki, qarşıdakı bir sıra

hədəfləri nişan alıb, artilleriyaya atəş əmrini versin. Mərmilər qardaşımın təyin etdiyi səngər və nöqtələrə düşəndə mən də fərəhlənir, Həmədani də onu alqışlayırdı. Burada lazımı məlumatı əldə edəndən sonra geri qayıtdıq.

Taktiki olaraq dəyişilərək sepah və ordu qüvvələri bir-birindən ayrılsa da kəşfiyyat işləri davam edirdi. Bundan sonra batalyon komandirləri öz üsulları ilə əyani tanış olmaq üçün kəşfiyyata xüsusi əməliyyat-məlumat qrupları ilə birgə gedirdilər. Axır, kəşfiyyatların birində bələdçilərdən ikisi minaya düşərək yaralandı.[1]

Zaman keçdikcə düşmənin bombardman və atəşi artırdı. Əməliyyata neçə gün qalmış taktika dəyişdi və qərargahın göstərişi ilə qeyd edilən Feysəl və Gərgəni yüksəkliklərində əməliyyat "İmam Rza-21" və "Nəsr-5" briqadalarına, Xızr dərəsində əməliyyat isə "Nəbi-əkrəm" briqadasına tapşırıldı. Beləliklə, bizim briqada ehtiyat qüvvə olaraq növbəti əmri gözləməli oldu. Həmin günlərdə qardaşım Nəhavənddən görüşümə gəldi və dördüncü övladımın da dünyaya gəlişini xəbər verdi. Qız idi.

[1] Birinin adı Bəhram, o birinin adı Musib idi. Partlayış zamanı Bəhram ayağını itirdi və Musib onu kürəyində neçə km arxaya gətirdi. Musib bir il sonra Vəlfəcr-8 əməliyyatında və Bəhram da süni ayaqla Şələmçədə şəhid oldu.

Qarşıdakı əməliyyatın adı "Aşura" və rəmzi "Ya Hüseyn" olduğundan xəbər göndərdim ki, adını Fatimə qoysunlar. Çox güman ki, evdə hamı özümü uşağın yeddinci günü bütün qohum-əqrəbanın bizə yığışaraq el adəti üzrə qulağına azan-iqamə oxunması mərasiminə çatdıracağıma əmin idi. Heç bilmədim briqada komandiri haradan xəbər tutdu və mənə dedi ki, fürsətdən istifadə edərək evə baş çəkib qayıda bilərsən. Onun sözünü şəri hökm kimi vacib saysam da əməliyyatın başlanğıcı zamanı batalyonumdan bir saat belə ayrı düşməyə ürəyim gəlmirdi. Odur ki, sadəcə bir məktubla yoldaşıma bu qədər ayrılığa və çətinliyə dözdüyünə görə səmimi təşəkkürümü bildirib, gələ bilməyəcəyimə görə üzrxahlıq etdim.

Nəhayət, 1984-cü il oktyabr ayının sonuna yaxın "Aşura" əməliyyatı başlandı. "İmam Rza" və "Nəsr" briqadaları müvəffəqiyyət qazansalar da "Nəbi-əkrəm" briqadası isə çoxlu itki verərək irəliləyə bilmədi. Vəziyyəti nəzərə alaraq hamı elə fikirləşirdi ki, onlara kömək üçün bizim briqada əməliyyata qoşulacaq və lakin belə bir göstəriş verilmədi. Briqada komandiri neçə hərbi hissəni sıradan çıxarmaqla Xızr dərəsindəki mühasirəni qırmaq üçün yardıma "Qasim bin Hüseyn-153" və "Əli Əsgər-155" batalyonlarını göndərdi. Amma düşmən

ayıq idi və qabaqcadan qurduğu pusqularla hər iki qoşuna mane olaraq geri çəkilməyə vadar etdi. Bundan sonra növbə düşmənin əlinə keçdi və itirdiyi yüksəklikləri geri almaq üçün piyada və zirehli qoşunlarını sıraya düzdü. Təxminən yüz ədəd civarında tank qoşunu əməliyyata hazır oldu. Piyada qoşunların hərəkəti ilə ağır artilleriyası da Feysəl və Gərgənin yüksəkliklərini atəşə tutdu. Biz isə arxa müşahidə nöqtəsindən döyüş və müqavimətin şahidi idik. Ardıcıl verilən məlumata görə, qüvvələrimiz şiddətli bombardmana məruz qalmışdı. Hər yerdən çox Feysəl yüksəkliyi təzyiq altında idi. Bununla belə qüvvələrimiz iki gün müqavimət göstərdi. Düşmən isə geri çəkilmək istəmirdi. Nəhayət, əməliyyat komandiri Qalibaf bizim briqada komandiri Həmədanidən yardım istədi və Allahın istəyi ilə yardıma bizim "Əbülfəzl" batalyonu təyin edildi. Mən irəlidə və Rza Zərgəri isə arxada gələrək qüvvələri Feysəl yüksəkliyinə doğru aparıb qürub vaxtı cəbhə xəttinə çatdıq. Cəbhə bölgəsinə yaxınlaşarkən bombardman zamanı mikroavtobuslardan biri partladı, neçə yaralı və itkiyə məruz qaldıq. Sürücünü tanıyırdım, cəbhəyə öz istəyi və maşını ilə gəlmişdi. Daha sonra komandir Həmədani ilə müavini Cəfər Məzahiri bizim batalyonu yaxından idarə və düşmənin əks-

hücumlarına nəzarət etmək üçün müşahidə nöqtəsinə gəldilər. Qüvvələri Feysəl yüksəkliyinin sol tərəfindəki "Şəhidlər" təpəsində yerləşdirib, sağ, sol və orta bölüyə ayırdı. Bizim gəlişimiz "Nəsr" briqadasına yeni can bağışladı.

Hər tərəfdən atəş yağırdı. Tanklar yavaş-yavaş irəliləsə də qumbaraatanların zərbə endirəcəyi məsafəyədək yaxınlaşmırdı. Bir saatdan sonra "Nəcəf" qərargahının əməliyyat müavini Qalibaf bizim baş komandir Həmədani ilə rabitə saxlayıb, onun müavini Cəfər Məzahiri ilə geri qayıtdı. Döyüş əsnasında tez-tez ratsiya ilə bölük komandirləri ilə əlaqə saxlayıb, vəziyyəti öyrənirdim. Xəbər verdilər ki, batalyonun təchizat üzrə müavini Əli şəhid oldu. Batalyonumuzun hava qaralanadək yenilməz müqavimətini görən düşmən geri çəkildi və yalnız minomyot və top atəşi ilə kifayətlənməyə məcbur oldu. Ara sakitləşəndən sonra təpədən aşağı endim. İki-üç gün idi ki, gözümə yuxu getməmişdi. Yatmağa münasib yer yox idi. Müavinimə dedim ki, mən maşınlardan birində yatıram və hər hansı bir hadisə baş versə, məni oyatsın. Maşına yaxınlaşarkən gözüm şəhid olan könüllülərdən birinin cəsədinə düşdü. İki il əsgərlik xidmətini bizim yanımızda keçirmiş və xidmətdən sonra da geri qayıtmamışdı. Onun taleyi də eynilə Məcnun

adasında şəhid olan Əhməd Söhrabi kimi başa çatdı. Təminatın işçiləri onun cəsədini geri aparandan sonra maşına daxil oldum. Hava bir qədər soyuq idi. Ayaqlarımı bir-birinə büküb, başımı rolun üstünə qoydum. Hələ yorğun gözlərimi bükməmiş minomyot mərmisinin səsi eşidildi və gəlib maşının sol tərəfinə düşdü. Bir anlıq sol ayağımda yanğı hiss etdim və saçılan qəlpələr üç yerdən ayağımı yaraladı. Əgər ayaqlarımı bükməsəydim, hökmən sinəmə və ürəyimə dəyərdi. Budum yarıldı və şiddətlə axan qan çəkməmin içini doldurdu. Yerimdən tərpənib, aşağı düşə bilmədim. Maşın deşik-deşik olmuşdu. Hadisəni görənlər tez köməyə gəldilər və məni maşından çıxartdılar. Tərslikdən yardım məntəqəsinə getmək üçün başqa nəqliyyat vasitəsi yox idi. Onlardan Nizam adlı biri məni belinə alarkən ixtiyarsız çığırtım göyə ucaldı. Qaranlıq gecədə bəlkə də 2 km məsafəni məni belində geri daşıdı. Onun da arxadan bütün kürəyi qan içində idi. Nizamın fikri məndə, mənim fikrim isə batalyonda idi. Həmişə əməliyyatdan qabaq Allahdan istəyirdim ki, başıma nə gəlirsə əməliyyatın axırına düşsün. Ürəyimdə ertəsi gün düşmənin yenidən əks-hücumuna görə nigaran idim və bu məsələ məni daha çox narahat edirdi. Ona dedim ki, geri qayıdaq. O isə sözlərimə əhəmiyyət

vermədən məni yardım məntəqəsinə çatdırdı. Orada müvəqqəti olaraq qanaxmanın qarşısını alıb, məni təcili yardım maşınına mindirdilər. Gecə idi və şofer də yola bələd deyildi. Yolda çala-çuxurlarda atılıb-düşərkən dişlərimi bir-birinə sıxıb, yalnız zikrə məşğul idim. Birdən altdan elə təkan oldu ki, xərəkdən göyə qalxaraq başım dəmir tavana dəydi. Yazıq qabağı görmədiyinə görə arxadan qarşıdakı maşına vurmuşdu. İki nəfər köməkləşib məni yerə uzatdılar. Qabaqdan maşının radiatoru qarmon kimi yığılmışdı. Maşının naşı şoferi orada qaldı və məni qarşıdakı maşına mindirib yola saldılar.

Neçə gün Kermanşahın mərkəzi xəstəxanasında yatmalı oldum. Vaxtaşırı sistem qoşulur, qan köçürülür və yaralarım dezinfeksiya edilirdi. Hələlik qəlpələri çıxarmaq mümkün olmadı. Yavaş-yavaş əlimə əsa götürüb, axsaya-axsaya hərəkət etməyə başladım. Cəbhəyə qayıtmaq üçün həkimi qane etməyə çalışırdım. Batalyondan neçə nəfər mənə baş çəkməyə gəldi. Dedilər ki, səndən sonra araya sakitlik çökdü və qüvvələrimiz də cəbhə xəttini möhkəmləndirdilər. Mən də sevincdən gülərək dedim: "Kaş, tez yaralanaydım!"



"Xeybər" əməliyyatının planı, şimali və cənubi Məcnun adaları, fevral ayı, 1984

Ortadakı bölük komandiri şəhid Məhəmmədhəsən Məhcub.



Sağdan hacı Rza Zərgəri

Əməliyyatdan qabaq toplanış, Mimək, 1984

Nəhavənd şəhərinin bombardmanı, 1984

Altıncı fəsil

Aşura gecəsi

Ənsar əl-Hüseyn briqadası

Batalyon istirahət üçün Nəhavəndə qayıtdı. Şəhər hərdən bombardmana məruz qalsa da xalqın çoxu qüvvələri qarşılamağa çıxdı. Mən özüm ambulansda gəlmişdim. Evdə əsanı kənara qoydum. Tam sağalmamışdım və hələ axsayırdım. Qızım Fatimənin təvəllüdündən bir ay keçirdi. Övlad tərəfdən bəxtim gətirmişdi və dörd uşağımın ikisi oğul, ikisi də qız idi.[1] Ailəni görəndən ağrılarımı

[1] O zaman Mustafanın 6, Zeynəbin 4, Salmanın 2 yaşı vardı və Fatimə də 1 aylıq idi.

unutmuşdum. Yenə də özümü yoldaşımın yanında xəcalətli bilirdim. Belə çətin şəraitdə həqiqətən fədakarlıq edirdi. Dörd uşağın qeydinə elə gözəl qalırdı ki, mənim qayğı və tərbiyəmə ehtiyac yox idi. Özü də inanırdı ki, Allah yolunda cihad edənə hökmən dayaq olmaq lazımdır. Amma bu gəlişimdə evə üçüncü dəfə olaraq yaralı qayıdanda ürəyindəkini saxlaya bilməyib dedi: "Allah daha da artıq eləsin! Siz kişilər cəbhələrdə istənilən savabı yığıb behişti qazanır, biz qadınlar isə heç nə!" Mən də ona imam Əlidən (ə) belə bir rəvayət nəql elədim: "Əzizim, o zaman İslam mücahidlərinin evdə qalan qadınları da etiraz olaraq eyni sualı soruşanda, İmam onlara belə cavab vermişdi: Ərinizdən ayrı qaldığınız zamanlarda vəzifəniz səbir və əmanətdarlıqdır! Sizin mükafatınız Allahın yanındadır və mücahidlərlə bərabərdir!" O da dedi: "Lap yaxşı, sən deyəndir! Mən isə mükafat istəmirəm, bircə başımızın üstündə ol!" Sanki dini inanclar ailəmin canına hopmuşdu və şəhadətdən söz düşməyincə heç nədən gileylənmirdilər. Bir gecə Mimək cəbhəsində əməliyyatdan sonra yuxuda şəhid Mövləvini gördüm. Həmişəki kimi şad və gülümsəyirdi. Dedi: "Mirzə, həqiqətən burada yerin yaman boşdur!" Mən də ağlayaraq ondan belə xahiş etdim: "Sənin Allah dərgahında başın ucadır! Ondan

istə ki, mənim aqibətim də şəhadətlə bitsin!" Cavabı ağlamağımı sevincə çevirdi. Dedi: "Heç narahat olma! Sən də şəhid kimi bizə qovuşacaqsan, amma vaxtında. Bircə səbirli ol!" Ayılandan sonra yuxumu böyük şövq və maraqla yoldaşıma danışdım. İstəyirdim o da belə hadisəyə hazır olsun. İstər-istəməz ağlayaraq dedi: "Heç vaxt yanımda şəhadətdən danışma! Görürsən ki, indiyədək cəbhəyə getməyinə mane olmamışam. Daha şəhadət xəbərini eşitməyə taqətim yoxdur!"[1] Mən və yoldaşım əsil mənada bir-birimizin aşiqi idik. Söz bura yetəndə "Hər şey Allahın əlindədir!" – deyərək susdum.

***

Briqada Kermanşah-İslamabad şosesi yaxınlığında Çaharriz boğazı ardındakı eyni adlı ərazidə salınan "Şəhid Şahbazi" hərbi hissəsində yerləşmişdi.

[1] "Özümü şəhadət xəbərindən başqa hər hansı hadisəyə hazırlamışdım. Amma o barədə hətta bircə kəlmə kəsməyə belə taqətim yox idi. Belə sözləri ilə məni qabaqcadan gözlənilməz hadisəyə hazırlamaq istəyirdi. Gözlərimdən yaş tökülən kimi söhbəti dəyişirdi. Çünki 1986-cı ildə atamla bir qardaşım müharibədə şəhid oldular. Odur ki, hər dəfə əməliyyata gedəndə başımı göyə qaldırıb belə deyirdim: İlahi, mən ki, onun qarşısını ala bilmərəm! Elə isə bizi başsız qoyma! Qoy, əl-ayaqsız da olsa diri qalsın! Elə də oldu." Həyat yoldaşı xanım Pərvin Sulgi ilə müsahibədən, Həmədan, 26 noyabr, 2013.

"Aşura" əməliyyatından qabaq çadırlarımızı Çaharrizdə palıd ağaclarının altında qurmuşduq. Həmin ərəfədə qüvvələrin ağacların künc-bucağındakı gecə ibadətləri həqiqətən insanı özünə valeh edirdi.[1] Əməliyyatdan sonra bir qismi şəhid, qalanları isə bu dağlıq məntəqədə hərbi təlim və yürüşlərlə məşğul idi. Təlimlər yorucu olsa da heç birindən cüzi etiraz müşahidə olunmurdu. Hər gün yürüşdən qabaq qüvvələr qibləyə sarı dayanıb, "Fərəc" duasını oxuyurdular. Dizimdəki qəlpə mənə onlara qoşulmağa icazə vermirdi.

Yeni məntəqəyə bələd olmaq üçün briqada komandirliyinin yığıncaq və müzakirələri başladı və heyətin tərkibində cüzi dəyişikliklər oldu. Onun təsisindən etibarən kəşfiyyat-əməliyyat bölümünün rəhbəri olan Əli Çitsazian plan-əməliyyat sahəsinə keçdi və yerinə Rza Müstəciri "Əli Əkbər-154"

[1] "Döyüş meydanında adamın ürəyini açan ən yaxşı mənzərələr qüvvələrin xəlvətə çəkilib, gecə namazını qılmaları idi. O zaman Həzrət Ələbfəzl batalyonuna qoşulan hər hansı adi fərd gecə namazı qılan bir şəxsə çevrilirdi. Gün ərzində Mirzə Sulgi hərbi təlimlərlə yanaşı dini təlim-tərbiyədən yayınmırdı. Hətta kəşfiyyat zamanı belə özü ilə qüvvələri gecə namazından yayınmırdılar. Bir axşam onların arasında oldum. Yaman yorğun idim. Sübh namazına bir-iki saat qalmış yuxudan ayıldım. Elə bildim ki, azan verilib. Gördüm onun əksər qüvvələri oyaqdır və namaz qılırlar..." General Hüseyn Həmədani ilə müsahibədən, Həmədan, 29 iyun, 2014.

batalyonunun komandiri təyin edildi. Əlinin fikri öz qüvvələrinin yanında olsa da briqada komandirinin əmrinə tabe olaraq yeni vəzifə ilə razılaşdı. Bunu mən Sumara əməliyyata getdiyimiz zaman başa düşmüşdüm. Sumar cəbhəsi ilə 1982-ci ildəki "Müslim bin Əqil" əməliyyatından tanış idim. Amma son iki il ərzində İraq Sumar bölgəsindəki açıq və pərakəndə cəbhəni perspektivli və operativ formaya saldığından onun cəbhə xətlərinə nüfuz üçün bir çox maneə və minalanmış geniş sahələrdən keçməli idik. Bizdən qabaq get-gəl üçün lazımı cığırlar kəşf edilmişdi və əldə müəyyən qədər məlumat vardı. Bizimlə düşmənin qapalı cəbhə xətti arasındakı nisbətən böyük məsafə hətta gündüz çağı da kəşfiyyata imkan verirdi. Bununla belə, yalnız tikanlı məftillər və minalanmış sahələrədək gedir, orada dincimizi alaraq vəziyyətlə tanış olurduq. Hər gecə neçə batalyon komandirinin başçılığı ilə bir-iki qrup kəşfiyyata yollanırdı. İraqlılar yerli əhalidən olan bələdçilərlə yaxınlıqdakı uzunsov təpəyədək gəlirdilər. Bir gecə kəşfiyyatdan qayıdarkən özüm onların səsini lap yaxınlıqdan eşitdim. Onlar da kəşfiyyatdan qayıdırdılar və bu cəsurluqları nəticəsiz qalmadı. Belə ki, "Müslim bin Əqil" batalyonunun komandiri Həsən Tacukun kəşfiyyat qrupu həmin təpədə düşmənin qəfil pusqusu ilə

qarşılaşdı. Həsən özü bu hadisədə möcüzəvi şəkildə sağ qaldı. Sonralar özü bunu mənə belə nəql etdi: "Həmişəki kimi gecə təpəni aşmaq istəyərkən düşmənin mühasirəsinə düşdük. Aralarında bizim daxili separatçı kürd ünsürlər də vardı. İlk atışmada iki bələdçimiz şəhid oldu və mən də neçə yerdən yaralandım. Bircə Rza Müstəciri cəldliklə aradan çıxa bildi. Onlar başımızın üstünü kəsəndən sonra özümü ölülüyə vurmaq istədim. Amma diri olduğumu bilmişdilər. Deyəsən, casusların vasitəsilə mənim batalyon komandiri olduğumdan xəbərləri vardı. Mənim sağ qalmağım onlar üçün əhəmiyyət daşıyırdı. Ağır olduğuma görə, iki nəfər topuqlarımdan tutub sürüməyə başladı. Nəhayət, yorulandan sonra yerə atıb, getmək istədilər. Biri söyüş söyərək çaxmağı çəkdi və mən də dilimin altında şəhadət kəlməsini dedim. Üstümə sarı neçə güllə buraxdı. Biri başıma dəyəndən sonra daha huşumu itirdim. Ayılarkən özümü xəstəxananın çarpayısında gördüm. Anladım ki, ölüm mənim qismətim deyilmiş. Daha sonra axtarış qüvvələrimizin vasitəsi ilə geri gətirildim."[1] Amma

[1] "Müslim bin Əqil" batalyonunun cəsur komandiri Həsən Tacuk üç il sonra İraqın Süleymaniyyə vilayətində "Nəsr-8" əməliyyatında şəhid oldu və mən bu xəbəri Almaniyada xəstəxanada yatarkən eşitdim.

Rza Müstəciridən neçə gün xəbər çıxmadı. Hadisə baş verən təpə və onun ətrafında aparılan axtarışın nəticəsi olmadı. Bir müddətdən sonra səsi İraqdan gəldi. O, əsir düşəndən sonra Əli Çitsazian yenidən kəşfiyyat-əməliyyat bölümünə qayıtdı. Bu hadisə kəşfiyyat işlərinin davamına mane olmadı və hətta briqada komandiri belə bəzi əməliyyatlarda iştirak etdi. Hüseyn Həmədaninin bu hərəkəti qüvvələrə xüsusi ruh verirdi. Ayağımın ağrısına baxmayaraq özüm də əməliyyat gecəsi yolun və qüvvələrin təhlükəsizliyindən arxayın olmaq üçün kəşfiyyata gedirdim.

Bir dəfə düşmənin cəbhə xəttindən geri qayıdarkən o qədər susadım ki, hərəkət etməyə taqətim qalmadı. Qrup üzvlərinin heç birində də su yox idi. Qarşıda kükürdlü acı və qoxulu suyu olan bir nahiyəyə çatdıq. Çarəsiz qalıb həmin sudan içdik və susuzluğumuz bir az da artdı. Cəbhəmizə 2 km qalmış daha yerimdən tərpənə bilmədim. Hamı yorulsa da mənim vəziyyətim çox pis idi və hətta bir addım belə ata bilmədim. Sanki ayaqlarım yerə mıxlanmışdı və susuzluqdan boğazım yanırdı. Qrupa dedim: "Siz gedin, mən də bir qədər istirahətdən sonra qayıdacağam. Özüm yola bələdəm." Bələdçilər Tacukla Müstəcirinin başına gələn hadisəni nəzərə alaraq məni tək qoyub getmək

istəmədilər. Təchizatımı özləri götürsələr də xeyri olmadı. Axır, qollarımın altına girib məni çəkə-çəkə geri gətirdilər. Öz cəbhəmizdə mənə serum vurulandan sonra halım yaxşılaşdı.

Ertəsi gün manevrin planı ilə tanışlıq, başqa diviziya və briqadalarla həmrəy və yekdil olmaq üçün qoşun komandirləri ilə birgə birləşmiş qüvvələrin baş qərargahına getdik. Vəziyyətlə bağlı cənubdan birbaşa sepahın komandir müavini Rəhim Səfəvi gəlmişdi və yığıncaqda ordunun ali rütbəli komandirləri iştirak edirdi. Hər biri növbə ilə ixtiyarında olan qüvvələrin vəziyyəti ilə bağlı məlumat verəndən sonra söz mənə çatdı. Mən də adətim üzrə sözə cihad və şəhadətə dair bir ayə və hədis deməklə başladım. Bu dəfə söhbətimin əvvəli İmam Əlinin (ə) qısa kəlamının biri oldu: "Bütün yaxşı əməllər, hətta Allah yolunda cihad belə əmr be məruf və nəhy əz münkərlə müqayisədə dərya müqabilində bir qurtum suya bənzər."[1] Hədisi söyləyərkən mənə elə gəldi ki, cənab Səfəvinin gözləri yumulur və mürgüləyir. Amma elə o vəziyyətdə mənə xitabən dedi: "Bu hədisi bir də söylə, mən onu qeyd edim!" Yığıncaqdan sonra onunla yaxın rabitəsi olan dostlardan biri dedi:

[1] "Nəhcül-bəlağə", hikmətli kəlamlar, 374.

"Rəhimin adətidir. Yığıncaqlarda başı aşağı olsa da hər kəsin sözünü diqqətlə dinləyir." O vaxtdan komandir Səfəvi məni həmin hədislə tanıdı.[1] Daha sonra öz briqadamızın komandir heyəti yığıncağında Hüseyn Həmədani dedi: "Sumarda əməliyyat çətin olacaq, "Vəlfəcr-2", "Vəlfəcr-5" və "Aşura" əməliyyatından da çətin! Odur ki, hər batalyonun ayrıca taqımı olmalı və qüvvələr düşmənin hər hansı atəşi nəticəsində hərəkətdən dayandıqda, həmin taqımlar irəliləməlidir."

Sumardan batalyonumuzun yerləşdiyi "Şəhid Babayi" hərbi hissəsinə qayıtdım. Batalyon həmişəki kimi əməliyyata hazır idi və hamı həvəslə harada keçiriləcəyi barədə maraqlanırdı. Məntəqə və nahiyə barədə heç bir məlumat vermədim ki, istənilən cüzi

[1] "Sumarda əksər nahiyələr təhlükəli olduğuna görə ön cəbhədə problemlərimiz çox idi. Briqadanın kəşfiyyat-əməliyyat komandirinin əsir düşməyi qüvvələrimizə pis təsir bağışlamışdı. Vəziyyətlə yaxından tanış olmaq üçün sepahın baş komandiri Möhsün Rzayi və Rəhim Səfəvi şəxsən bölgəyə gəldilər. Qüvvələr arasında narazılıqlar var idi və bir çoxu etiraz edərək deyirdi: Sumarda əməliyyatın nəticəsi yoxdur. Niyə biz də başqa qoşunlar kimi cənub cəbhəsində vuruşmuruq? və s. Həmin məqsədlə təşkil edilən yığıncaqda növbə Mirzə Sulgiyə çatanda, adəti üzrə bir hədis nəql edib yığıncağın fəzasını tamam dəyişdi. Onun kəlamındakı bənzərsiz kəsəri və xalis niyyəti həmişə işlərimizi rahat edirdi." General Hüseyn Həmədani ilə müsahibədən, Həmədan, 29 iyun, 2014.

işarə ilə məlum olardı. Amma əməliyyatın əhəmiyyəti ilə bağlı iki-üç dəfə söhbətim oldu. Məqsədim qeyd edilən xüsusi taqıma könüllü qüvvə toplamaq idi. Dedim: "Mənə sayıq düşmənin minalanmış meydanına çatarkən özünü qurban verməyə hazır olan qüvvə lazımdır! Belə ki, minanı zərərsizləşdirə bilsin, fürsət olmazsa, özünü mina və ya tikanlı məftilin üstünə ataraq başqalarına yol açsın! Elə birini istəyirəm ki, duşkanı susdurmaq üçün düşmənə yaxınlaşaraq işini süngü ilə bitirsin! Eləsini istəyirəm ki, qarşımızı tank kəsərkən üzərinə qalxaraq içərisinə qumbara atsın! Eləsini istəyirəm ki, Əli Əkbər (ə) və Əbülfəzl (ə) kimi bədəninin tikə-tikə olmağından çəkinməsin..." Sözlərimin təsirindən uşaqların çoxu ağlamağa başladı və böyük şövqlə hər hansı əməliyyata hazır olduğunu bildirdi. Onların arasından iyirmi nəfəri seçmək çətin idi. Nəhayət, dəstə komandirlərinin məşvərəti ilə ən təcrübəli olanları seçib, adını "Şəhadət dəstəsi" qoyduq.

Neçə gün idi ki, hərbi hissədə hamı, o cümlədən, xüsusi dəstə dua və ibadətə qapılmışdı. Heç bir komandir ən ağır əməliyyatlarda belə öz qüvvələrindən kimisə qurban verməyə razı deyildi. Buna baxmayaraq, əksər hallarda bir dəstə könüllü olaraq irəli çıxır, özünü fəda edərək başqalarına yol

açır, gözlənilməz çevikliklәri ilə əməliyyatın taleyini dəyişirdilər. Onlardan iki könüllünün siması hələ də yadımdadır. Özləri də əmin idilər ki, heç vaxt geri qayıtmayacaqlar. Get-gedə üzlərinin rəngi dəyişir, ay kimi parlayırdı. Onları belə bir işə cəlb edərkən öz içimdə də ciddi çəkişmə ilə əlbəyaxa idim. Kimlərəsə elə bir tapşırıq verib, özümün kənardan baxmağıma heç cür razılaşa bilmirdim. Bu fikir zehnimdə ciddi anlaşılmazlığa çevrilərək içimdən məni üzür, əməlsiz alim kimi başqalarını Allah yolunda cihad və şəhadətə çağırdığım halda özüm onlara qoşulmadığıma görə əzab çəkirdim.

Xüsusi dəstəyə ayrıca təlim verilməsi üçün onları Sərpol-Zəhabın "Əbuzər" hərbi hissəsinə yolladım. Daha sonra Sumara qayıdıb briqada komandirinə dedim: "Cənab komandir, ölüm yaxşıdır, amma qonşu üçün!" Soruşdu: "Başa düşmədim!?" Dedim: "Mən arxada dayanaraq xüsusi dəstəyə "belə edin, elə edin" – deyə bilmərəm. Özüm onların rəhbəri olmaq istəyirəm!" Komandir Həmədani özü də çox vaxt əməliyyatlarda hamıdan irəlidə gedirdi. Ona başa salmağa çalışdım ki, mənim xüsusi dəstəyə qoşulmağımla həmin hissi bütün batalyonda oyatmaq olar. Amma komandir dedi: "Sulgi qardaş, əgər sən onlara qoşulsan, batalyonu kim idarə edəcək?" Dedim ki, mənim müavinim. Bir də

soruşdu: "Əgər o və bütün komandir heyəti sənin kimi fikirləşərsə, onda necə?"[1] Bu sözdən sonra sussam da qane olmadan düşərgəmizə yollandım. 1985-ci il martın yeddisi idi. Gilanqərb yolu ilə qayıdarkən hələ düşərgəyə çatmamış birdən ardıcıl partlayış səsləri eşidildi. Başımı qaldırıb, havada neçə təyyarənin İraq səmtinə doğru qayıtdığını gördüm. Özüm rol arxasında idim və qaza basıb sürəti artırdım. On dəqiqədən sonra partlayışların şiddəti artdı. Səsləri bizim düşərgəmiz və Sərpol-Zəhabın "Əbuzər" hərbi hissəsi səmtindən gəlirdi. Yolun hündür bir nahiyəsindən "Əbuzər" hərbi hissəsinə tərəf nəzər saldım. Hərbi hissənin hər tərəfindən qapqara tüstü göyə qalxır, arasından od-alov şölələnirdi. Özümdən asılı olmayaraq qışqırdım: "Ya Əbülfəzl!" Təyyarələr qırğı kimi hərbi hissəyə tərəf süzüb geri qayıdırdı. Tez ratsiya ilə öz düşərgəmizlə əlaqə saxladım. Onlar da mənim kimi 2 km aralıdan hadisəni izləyirdilər və bombardmana məruz qalmamışdılar. Elə həmin vaxt briqada komandiri Həmədani təchizat bölümünün iki üzvü

[1] "Mirzə Sulginin heç vaxt öz qüvvələrindən geri qaldığını xatırlamıram. Onun müvəffəqiyyət rəmzi elə bu xislətində idi. Xüsusi dəstənin seçildiyi zaman məndən təmənna edirdi ki, onların başçısı olsun və vəzifəsini öz canişininə tapşırsın." General Hüseyn Həmədani ilə müsahibədən, Həmədan, 29 iyun, 2014.

ilə arxadan gəlib mənim dayandığım yerə çatdı. Bombardman o qədər şiddətli idi ki, bütün hərbi hissə qapqara tüstüyə bürünmüşdü. Komandir hadisəni müşahidə etdikcə göz yaşlarını saxlaya bilmirdi. Neçə ay tədarük və zəhmətdən sonra indi öz gözü qarşısında hər şeyi əldən verməyi ona olduqca ağır idi. Daha bombardman və heç nəyə fikir vermədən dayandığımız yüksəklikdən hərbi hissəyə tərəf yüyürməyə başladıq. Uzaqdan qüvvələrimizin od tutub yanmağına tamaşa edə bilməzdik. Bombardman saat on radələrindən başlamışdı. O vaxtadək "Məhəmməd rəsulullah" diviziyası hərbi hissəni tərk etsə də neçə ordu qoşunu və sepahın "Nəbi-əkrəm", "Ənsar əl-Hüseyn" və "Seyyidüş-şühəda" briqadaları orada idi. Bir daha düşərgəmizlə əlaqə saxlayıb vəziyyəti öyrəndim. Dəstə komandiri Həsən Əbruzən hər ehtimala qarşı qüvvələri yaxınlıqdakı qayalıqların arasına köçürmüşdü. Nəhayət, özümüzü hərbi hissəyə yetirdik. Daxildə asfalt yollar boyu şəhidlərin paralanmış cəsədlərindən ayaq qoymağa yer yox idi. Bütün nəqliyyat vasitələrinin hərəkəti dayanmışdı və sağ qalıb qışqırışan yaralılara yardım edən yox idi. Hətta neçə mərtəbəli beton binalar ildırım vurmuş ağac kimi çat-çat olaraq od tutub yanırdı. Hər tərəfdən qatı tüstü və qovrulan ət iyi gəlirdi.

Dedilər ki, düşmən əvvəlcə neçə 23 mm çaplı havadan müdafiə sistemini susdurandan sonra arxayınlıqla hər tərəfi bombardman etməyə başlayıb və o vaxtadək iki mərhələli hücumda hətta hərbi hissənin böyük xəstəxanası da ciddi xəsarətə məruz qalıbmış. Günortaya bir şey qalmırdı və hələ də hücumların ardı-arası kəsilmirdi. Naçar qalıb, yaxınlıqdakı binanın alt təbəqəsinə pənah apardıq. Təyyarələr o qədər aşağı enirdi ki, üzərindəki İraqın gerbi və bayrağı aydın müşahidə olunurdu. Növbəti hücumlarda artıq bombardmandan əlavə raket atılır, binalara sarı iri kalibrli pulemyotdan atəş açılırdı. Əmin idim ki, müharibədən dörd il keçməyinə baxmayaraq, heç bir qüvvə bu cür ağır bombardmana məruz qalmamışdı.

Bombardman günortadan sonra saat dördədək davam etdi və təyyarələrə tərəf hətta bir güllə belə atılmadı. Axırıncı dəfə səkkiz ədəd Miq tüstü-dumanın arasından göyə qalxıb uzaqlaşarkən məğribə bir şey qalmırdı. Bir anlıq gözüm "Qüds" məscidinə yönəldi. Son günlərədək onun daxili və ətrafında əsgərlərin birgə namaz qıldığı camaat namazlarında iynə atmağa yer yox idi. İndi isə onun yanıb-sökülən binası adamın ürəyini ağrıdırdı. Həyət və ətraf yollarda o qədər para-para olan cəsədlər, qovrulan əl-ayaq vardı ki, sanitar qüvvələr

yığıb-yığışdıra bilmirdilər. Bombardman zamanı xüsusi dəstəmiz məsciddə dua və zikrə məşğul olduğundan heç biri şəhid olmasa da əksəriyyəti yaralanmış və güclü dalğaya məruz qalmışdı.

Sərpol-Zəhabda "Əbuzər" hərbi hissəsinin bombardmanı müharibənin başlanğıcından indiyədək Həmədan vilayəti üzrə ən ağır və acı hadisə oldu. Bizim və "Nəbi-əkrəm" briqadasından yaralı və şəhid olanların sayı-hesabı yox idi. Sumarda əməliyyatın plan hazırlığı və kəşfiyyatla bağlı olmazın zəhmətlərə baxmayaraq, taktika dəyişdi və biz də briqada komandirinin göstərişi ilə Kermanşahın yaxınlığındakı "Şəhidlər" hərbi hissəsinə qayıtdıq. Qeyd edim ki, bu hadisədən sonra komandir Hüseyn Həmədaninin ştab və batalyon komandirlərinin növbədənkənar yığıncağındakı çıxışı məncə tarixə həkk olunmalıdır. Baş verənləri hərbi baxımdan elə real izah etdi ki, onun bombardman vaxtı ürək yanğısı ilə gözlərindən gilə-gilə yaş axan həmin adam olduğuna heyran qalmaya bilmədim. O, vəzifə və mücahid meyarlarına əsaslanaraq söylədiyi aydın nitqi ilə hamını növbəti əməliyyata yönəltdi.[1]

[1] Bombardmandan sonra briqadanın neçə batalyonu Sumar məntəqəsində qabaqda qeyd edilən uzunsov təpə boyunca "Ühüd" səddi adlı möhkəm cəbhə xətti yaratdı.

***

İki-üç gün idi ki, radiodan Hurul-hüveyzə məntəqəsi ətrafı böyük "Bədr" əməliyyatına dair xəbərlər səslənirdi. Elan edildi ki, tələsik qərbdən cənuba hərəkət etməliyik. Bu bizim batalyonun cənuba ikinci səfəri idi. Hələ də qüvvələrdə bombardmanının acı xatirəsi hiss olunurdu. Həmin gün bizə vilayətimiz Nəhavəndin xalq yardımı komitəsindən 350 min yardım edildi. Yardımlar son qəpiyinədək hesablanır və qənaətlə lazımı ehtiyac və yerlərə sərf edilirdi. Amma bu dəfə acı xatirə ilə bağlı məbləğin müəyyən qədərini taqım komandirləri arasında bölüşdürərək dedim ki, qüvvələrin əhval-ruhiyyəsini dəyişsinlər.[1]

Yolda Xürrəmabadın hərbi səhra yeməkxanası 400 nəfəri təmin edə bilmədiyi üçün Polduxtərə gedib – uşaqlar demişkən – orada yaxşı qəlyanaltı elədik. Qüruba yaxın Karun çayı yaxınlığındakı "Şəhid Məhərrəmi" düşərgəsinə gəlib çatdıq. Özüm qabaqda gedərək məntəqənin vəziyyəti ilə bağlı təşkil edilən yığıncağa qatılmalı idim. Görüşdə hazır

[1] Bizim kimi rayon və vilayət üzrə təşkil edilən batalyonlar elə həmin məntəqənin xalq yardımları ilə idarə olunurdu. Camaatın əksəriyyəti hətta adi azuqəyədək cəbhəyə yardım edirdi. Məsələn, fəsillə əlaqədar meyvə-tərəvəz və s. göndərilirdi. Yük daşıyan şəxsi maşınlar yükü boşaldılandan sonra şoferlər öz istəyi ilə cəbhədə qalaraq könüllü xidmət göstərirdilər.

olandan sonra hiss etdim ki, yığıncağa çox kədərli fəza hakimdir. Sanki hamı hər hansı yeni ağır hadisəni eşitməyi gözləyirdi. Briqada komandiri Həmədani sözə başlayaraq dedi: "Bədr əməliyyatı məntəqəsində vəziyyət düyünlənib. Qüvvələrimizin bir qismi Fərat çayını keçərək strateji əl-Əmmar-Bəsrə magistralına çatsalar da düşmənin güclü müqaviməti nəticəsində əksəri mühasirəyə düşüb. Əldə olan son xəbərə əsasən, düşmən şəhidlərimizin üzərindən tankla keçir, qüvvələri cəsədlərin üzərində at oynadır və bu məsələ onların informasiya vasitələrində geniş yer alıb. İndiyədək "Aşura" qoşununun komandiri Mehdi Bakiridən heç bir xəbər yoxdur. Çox güman ki, o da mühasirədədir və ya bəlkə də şəhid olub. Bu gün qoşunlarınızı geri qayıtmayan əməliyyata hazırlayın. Bu xəbər hətta İmama çatandan sonra deyib ki, mühasirəni qırmaq üçün Möhsün Rzayi və Səyyad Şirazi də ora yollansınlar.[1] Elə bilirəm vəzifəmiz aydındır və imam Hüseynin (ə) Aşura gecəsi səhabələrinə buyurduğu ilə fərqlənmir. Odur ki, qüvvələrinizi vəziyyətlə tanış edəndən sonra bir yerə toplayın ki, onlara da son sözümü deyim!" Komandirin sözləri canımıza Aşura hissini saldı və biz batalyon

[1] O zaman Möhsün Rzayi sepahın və general Səyyad Şirazi isə ordunun quru qüvvələrinin komandiri idi.

komandirləri də onu öz qüvvələrimizə elan etməli idik. Qoşunlar cəbhə məntəqəsinə təzə çatmışdılar və yorğun idilər. Bununla belə, axşam namazından sonra hamı düşərgənin həyətində bir yerə toplandı. Bu zaman briqada komandiri Hüseyn Həmədani çiynində bir avtomat və əlində mikrofon irəli çıxaraq nitqə başladı. Əvvəlcə "Adiyyat" surəsini söyləyəndən sonra üzünü bütün batalyon və qoşun vahidlərinə tutaraq bizə açıqladığı məsələni daha hərarətlə və geniş şəkildə elan etdi. Onun istiqanlı çıxışı ilə bütün qoşun təlatümə gəldi və hamıda Aşura və şəhadət hissi canlandı. Daha sonra Həsəntürk "Aşura" ziyarətnaməsini oxumağa başladı və həqiqətən Aşura gecəsini xatırladan bir səhnə əmələ gəldi.[1]

O gecə özüm ayrıca batalyonun komandir heyəti ilə görüş təşkil edib, əldə olan məlumat əsasında "Bədr" əməliyyatı məntəqəsi barədə məlumat verəndən sonra dedim: "Aşura gecəsi imam Hüseynin dayağı həzrət Əbülfəzl sayılırdı. Sabah bizim batalyonumuz üçün Aşura günüdür. Odur ki, bu adı briqadamız "Ənsar əl-Hüseyn" üçün doğrultmaq bizim üzərimizə düşür. Elə isə

[1] Həmin gecə səkkizillik müharibənin tarixində biz Həmədan vilayətinin "Ənsar əl-Hüseyn" briqadasının qüvvələri üçün Aşura gecəsi kimi yadda qalır.

qüvvələrinizin hər birinə bu məsələni xüsusi qeyd edin." Taqım komandirlərindən biri zarafatla dedi: "Mirzə, qabaqlar hələ Aşura əhval-ruhiyyəsi olmadığı halda hər dəfə Aşura səhnəsini canlandırırdı. İndi ki, vəziyyət real Aşuranı xatırladırsa, onda elə özün hamıya məsələni aydın elə!" İstər-istəməz razılaşdım və bütün batalyonu bir yerə topladıq. Qabaqcadan briqada komandirinin söhbəti lazımı təsiri qoymuşdu. Bununla belə, biz Əbülfəzl batalyonu daha artıq vəzifə hiss edirdik. Onu nəzərə alaraq dedim: "Bu gecə Hüseynlə (ə) onun sirdaşlarının beyət gecəsidir! Həmin gecə o həzrət hamıdan, hətta Əbülfəzlin üzərindən belə beyət vəzifəsini götürdü! O, tarixə bəşəriyyətin haqq yolunu həkk etmək üçün heç kimi israr və icbarla Kərbəlaya çəkib gətirmədi! Ona qoşulan hər sirdaşı Allaha şövqlə, ülvi məqama yüksəliş qəsdi ilə mübarizəyə qoşulurdu hidayət yolunun çırağına çevrildi! Bu gecə mən də sizə sözümü qaranlıqda deyirəm! Çünki özümü heç vaxt həzrət Abbasın adı ilə zinətlənən qüvvəyə başçılığa layiq görmürəm! Sizi onun qırılan qollarına and verirəm, sabah yalnız şəhadətə hazır olanlar gəlsin! Əks-təqdirdə, Quran və ibadətə məşğul olaraq özünüzü başqa gecə və başqa sınaq meydanı üçün ruhi və mənəvi baxımdan hazırlayın! Elə kəs yoxdur ki, Kərbəla ilə sınağa

çəkilməsin! Demək, sabah bu sınağa ləbbeyk deyənlər adlarını taqım komandirlərinə elan etsinlər! Hazır olmayanlar isə heç bir şəkildə məzəmmət olunmayacaq! Ola bilsin, onları da qarşıda növbəti Kərbəla sınaqları gözləyir!"[1] Bura çatanda, qəhər məni boğdu, ağlamağa başladım. Hisslərim mənə elə qələbə çaldı ki, sözlərimi axıradək göz yaşları içində söyləməli oldum. Sanki məhşər bərpa oldu və ağlamaq səsləri bütün sahəni bürüdü. Söhbətimdən sonra hərə bir guşəyə çəkilib, özü ilə əhd-peymana başladı. Hərəkət etdikcə görürdüm ki, biri çadırın, biri kol-kosun, biri qamışlığın ardına çəkilərək özünə qapılıb. Hələ də çoxları ağlayır, bəziləri də əlinə qələm-dəftər alaraq vəsiyyətnamə yazırdı. Könüllülərin yaddaş və məktubları ertəsi gün günortayadək davam etdi. Hər birinin məzmunu ayrıca bir aləm idi. Bir çox sətirlərdən çoxlarının elə indidən ruhunun pərvaz etdiyi görünürdü. Bununla belə, hər bir halda şəhadətə razı olmayanlar da

[1] "O gecə Mirzə Sulgi adəti üzrə yenə qaranlıqda söhbət etdi. Söhbəti qabaqkıları ilə fərqli idi. O, nitqi ilə hamımızı tarixin dərin qatlarına apardı. Sanki bizimlə həzrət Əbülfəzlin arasında zərrə qədər fasilə yox idi. Sanki tarix geri qayıtmışdı və özümüzü o Həzrətin və Fərat çayının kənarındakı xurmalıqda hiss edirdik. Onun sözü ilə həqiqətən də indiki zamanda Fərat çayının kənarında vuruşmalı idik." Həmin gecədə iştirak edən könüllü əsgər Xosrov Kiyani, Nəhavənd, 2014.

vardı. Beləliklə, üç bölükdən təqribən ikisi hər hansı əməliyyata hazır olduğunu elan etdi. Qalan 150 nəfər isə üzrxahlıqla ya yazılı, ya da şifahi şəkildə hazır olmadığını bildirdi. Amma onların bir qismi də iki bölükdəki şur və şövqü görərkən fikrindən daşınıb, könüllü şəkildə şəhadət ləşkərinə qoşuldu. O vəziyyətdə məktub və ya şifahi şəkildə üzrxahlıq edənlərlə rəftarım şəhadətə hazır olanlarla eyni idi və mehribanlıqla deyirdim: "Siz də bacardığınız qədər Quran və dua oxuyun və Ondan imdad diləyin!"[1]

Günortayadək iki bölük hərəkətə hazır oldu və avtomat, pulemyot, qumbaraatan, qumbara və s. yüngül silahlarla təchiz edildi. Hamı təmin ediləndən sonra hər birinin üzündən öpərək şəfaət əhd-peymanı bağladım. Günortadan sonra yola düşməzdən qabaq təbliğat bölümünün məsulu fotoqraf və çəkiliş qrupu ilə gəlib çatdı. Mikrofonu məddahımıza verib, döyüş marşlarından oxumasını tapşırdım. Bir daha qüvvələr arasında Fərat kənarında savaş şövqü canlanmağa başladı. Dünən

[1] Doğrusu Aşura gecəsi bizim ömrümüzün ən yaddaqalan günlərindəndir. Mirzə Sulgi eynilə Aşura gecəsi kimi hamını vəzifəsini seçməkdə azad qoydu. Gözlərindən yaş gəlməyən yox idi və bəzilərinin qarşısı göz yaşlarından islanmışdı." General Rza Zərgəri ilə müsahibədən, Məşhəd, 26 yanvar, 2014.

gecə hər bir sözümü və vəziyyəti açıq elan etsəm də bir daha son sifarişlərimi söylədim.[1]

Maşına minərkən belimdəki çantam mənimlə birgə yollanan qüvvələrin məktubları ilə dolu idi.[2] Hər birini oxuyarkən sahibini ürəkdən alqışlayır, çoxlarının, hələ bığ yeri tərləməyən yeniyetmə və cavanların mərifət və mənəviyyatı ilə tanış olanda Allaha yaratdığı xilqətinə görə həmd-sənadan başqa

---

[1] Həmin gün general Sulginin nitqi təbliğat şöbəsi tərəfindən bütöv lentə alındığından onun bəzi hissələri aşağıda olduğu kimi qeyd edilir: "Bu, Allahın bizə nüsrətini endirdiyi anlardır! Əlbəttə, hər birinə tutumu qədər verilir. Ləyaqəti olmayanlar mənəviyyat və mərifətin nöqsanı ilə bağlıdır. Allahın nüsrəti tutum və yüksək dözüm tələb edir. O, Quran-kərimdə buyurur: "Əgər bu nişanə və ayələr dağa nazil olsaydı, onun qorxusundan parçalanıb tikə-tikə olardı. Amma həmin ayələr Peyğəmbərin qəlbinə nazil olarkən nura, hidayət yoluna çevrilir. Çünki onun qəlbi vüsətlidir. Siz də bu gün və ya sabah Allah tərəfindən enən nüsrətlə qarşılaşarkən bilin ki, eyni fəzilətdir. Qədəmlərinizi hərəkətə qaldırarkən qürbət qəsdi edin və deyin ki, İlahi, sənə görə sənə və sənin əmrinə görə savaşa gedirəm. Hərəkətdən qabaq Quranın altından keçərkən bilin ki, onun himayəsi altındasınız və buna qəlbən əmin olun. Elə oradaca niyyət edin ki, vuruşa qürbətən iləllah qəsdilə girirsiniz. Həmin Qurana and olsun, şəhid olanların saf niyyəti barədə qiyamət günü məhşərdə Quran özü şəhadət verəcək. Bizim bu dünyada cəsədlərimizin torpağın üzərində və ya altında qalmağı mühüm deyil. Sabah qiyamətdə Quranla birgə qalxacaq və bizim səadət vəsiqəmiz olacaq..."

[2] Təəssüflər olsun ki, bütün məktublar Favda "Vəlfəcr-8" əməliyyatında maşınımız yanarkən tamamilə məhv oldu.

sözüm qalmırdı. Onların arasından mənimlə elə əvvəldən batalyonun təşkilində iştirak edən bölük komandiri Heydər Söhrabinin məktubu ürəyimə lap çox yatdı. O da mənim kimi düz-əməlli təhsil almamışdı və çox da savadı yox idi. Bununla belə, yazmışdı: "İlahi, sənin yolunda tikə-tikə olmağa, yanıb külə dönməyə və yenidən bədənə qayıdıb, dirilərək bir daha şəhid olmağa hazıram..."

Qüvvələr nəqliyyat vasitələrinə minərkən imtina edənlər kənardan həsrətlə onlara tamaşa edirdilər. Baxıb görürdüm ki, hamı içindən narahatdır, bəlkə də özlərini danlayırdılar. Sanki behiştdən qovulmuşlar kimi bir qismi ağlayır, bir qismi də başlarını aşağı dikmişdi.[1]

Yolumuzu əvvəlcə Məcnun adasından salaraq şimal adası səmtindən Hurul-hüveyzəyə tərəf yollandıq. Artıq burada ötən gündəki şur və hay-küydən xəbər yox idi və araya qəribə sükut çökmüşdü. Gəlib bir nahiyədə dayanmalı olduq. Bu zaman ratsiya ilə Həsəntürk briqada komandiri tərəfindən gözlənilməz xəbər verdi. Hamımız mat-məəttəl qaldıq. Dedi ki, yeni əmrə görə geri qayıtmalısız. Qane ola bilmədim. Doğrusu, canını qurban etməyə hazır olan qüvvəni bir kəlmə ilə razı

[1] Kitabın üz cildindəki şəkil həmin gün Əbülfəzl batalyonunun komandiri general Mirzə Sulginin çıxışından çəkilən fotodur.

sala bilməzdim. Qaneedici izah istədim. Dedi ki, əməliyyat gecikdiyinə görə ləğv olub. Xəbəri qoşuna deyəndə sükut pozuldu və əməlli-başlı qalmaqal yarandı. Dedim: "İndiyədək vəzifəmiz gəlmək idi və indi isə vəzifəmiz qayıtmaqdır. Komandirin əmri İmamın əmri deməkdir!" Bunu elə inamla dedim ki, heç kəsdə deməyə bir söz qalmadı.

Düşərgəyə qayıdandan və bir qədər Quran oxuyandan sonra təskinlik tapdım. Gedib briqadanın komandiri ilə görüşərək dəqiq məlumat istədim. Məlum oldu ki, doğurdan da bu göstəriş İmamın əmri üzrə verilib. Dedi: "İmama əməliyyatda könüllü şəhadət qrupu iştirak edəcəyi barədə xəbər çatandan sonra oğlu hacı Əhmədə tapşırır ki, komandir Möhsün Rzayinin əmri ilə qüvvələr geri qayıtsın." Mən də düşərgəyə qayıdıb tapşırığın İmamın göstərişi əsasında olduğunu batalyona nəql etdim. İmamın sözü zatən hamıya qanun idi və bundan sonra odun üstünə sanki su səpildi. Allaha and olsun, cəbhə bölgələrində hər hansı anlaşılmazlığı İmamın hökmündən başqa heç nə yatıra bilməzdi...

***

1985-ci ildə ordunun quru qoşunları üzrə komandiri polkovnik Səyyad Şirazi "Bədr" əməliyyatındakı uğursuzluğu aradan qaldırmaq

üçün sepahın baş komandirinə növbəti əməliyyatlarda hər iki qoşunların həmkarlığını təklif etdi. Bu məqsədlə briqadamızdan komandir Hüseyn Həmədaninin göstərişi ilə bizim batalyon təyin edildi. Əməkdaşlıq üçün Əhvaz-Xürrəmşəhr magistralında yerləşən "Kərbəla" qərargahına getdim. Yığıncağa sepahın hər briqadasından bir batalyon komandiri gəlmişdi. Səyyad Şirazi məni görən kimi tanıdı və görüşərkən adımla müraciət edərək məni bağrına basdı. Yadında yaxşı qalmışdım və məni 1983-cü ilin avqust ayında Kedu yüksəkliklərindəki əməliyyatdan tanıyırdı. O zaman iki ölkə arasındakı sərhəd bölgəsinin lap şimal nahiyəsində eyni cəbhədə vuruşmuşduq. Onun yığıncağın təşkili və ordu ilə sepah qüvvələrinin həmkarlığı təklifindən məqsədi qüvvələr arasında təcrübə mübadiləsi və potensial imkanların səmərəli istifadəsi idi. Özü yüksək iradə sahibi olsa da döyüş meydanında könüllü əsgər əhval-ruhiyyəsini əsas meyar sanır, öz sahəsi üzrə peşəkarlıq və güclü zabitəyə malik olsa da könüllü təfəkkür tərzinin vurğunu idi. Ordu qüvvələri arasında dindar və inqilabçı şəxslərin sayı az olmasa da deyirdi: "Siz inqilabın övladlarısız! İnşallah Allahın lütfü, həmçinin İmamın göstərişləri və siz sepahın həmkarlığı sayəsində könüllü və sepah qüvvələri

arasındakı əhval-ruhiyyəni ordunun quru qoşunlarına da hakim etmək qəsdim var." Doğrusu, özü də qeyd etdiyi bütün xislətlərə sahib idi. Məsələn, azan vaxtı hər hansı yığıncağı dayandırar və qərargahın bütün komandir heyəti arxasında sıraya düzülüb, namaz qılardılar. Qurana xüsusi rəğbəti vardı. Ürəkdən hiss edirdim ki, hər şeydə bizdən irəlidir. Ələlxüsus, İmamın etimadını qazanması məni lap çox heyran edirdi. Deyərdim ki, bu məhəbbət qarşılıqlı idi.

Təxminən bir həftə qərargahda qaldığım müddətdə bir çadırda yatıb-durur, bir süfrədə yemək yeyirdik. Əxlaq və mənəviyyat dolu bu fəzaya elə isinmişdim ki, sanki kənarda baş verənlər mənə maraqlı deyildi. Hətta bir dəfə komandirim tərəfindən göndərilən məktubu oxumağa elə də həvəs göstərmədim. Məktubu oxuyandan sonra üzümdəki sevinci hiss edərkən soruşdu: "Sulgi qardaş, deyəsən, yaxşı xəbərdir!" Məktubu eynilə oxudum: "Gözlərin Allahın evinə, Peyğəmbərin (s) məqbərəsinə və Bəqidəki imamların məzarlarına düşərkən dualarında bizi də yaddan çıxarma. Daha yubanma və cəbhəyə görə də nigaran qalma. Yerinə Rza Zərgərini təyin edirəm!" Səyyad Şirazi də dedi: "Lap əla! Kimi gözləyirsən?! Get hacı!"

Əl-ayağımı itirmişdim və az qalırdım ki, qanad açıb uçam. Elə indidən özümü Məscidül-həramda təvaf halında görürdüm. Yerimə Rza Zərgəri gələndən sonra lap arxayın oldum. Amma başqa komandirlər arasında briqada komandiri tərəfindən nümunəvi batalyon komandiri təltifinə görə xəcalət çəkdim. O vaxt 29 yaşım vardı və düz-əməlli ev-eşik sahibi də deyildim. Hətta həcc üçün şəri baxımdan "müstəti"[1] belə sayılmırdım. Cəmi iki min tümən pulum vardı, halbuki ziyarət üçün otuz yeddi min tümən köçürməli idim. Hələ bunlardan başqa heç özümü də belə təltifə layiq görmürdüm. Odur ki, briqada komandirinə dedim: "Özümü bu lütfə layiq bilmirəm və nə də ziyarətə kifayət qədər pulum var!" Komandir buyurdu: "Tək deyilsən və Səttar İbrahimi də sənlə birgə göndərilir. Pul məsələsi də həll olacaq." Səttarın adı çəkiləndə bir az sakitləşdim. Oxşarlıqlarımız çox idi. Hər ikimiz kənd uşağı, evli və dörd övlad sahibi idik. O da mənim kimi briqadanın təşkilindən bu tərəfə mühüm vəzifədə çalışırdı. Dindirməsən danışmazdı, hövsələli və həqiqətən sözünün ağası idi.

Komandir Həmədani məni səfər xərcləri ilə bağlı Məhəmməd Səmavatın yanına göndərdi. Demək

[1] Həcc vacib olan şəxs.

olar, o da bütün ömrünü cəbhə və müharibəyə həsr etmişdi. Əhali və xeyirxah adamlar arasında etibar qazanmışdı və hər kimi imkanlı bir şəxsin yanına yollasaydı, əliboş qayıtmazdı. Beləliklə, adi bir kağıza sifariş yazıb, məni müəyyən banka yolladı və çox rahatlıqla 27000 məbləğdə kredit götürdüm. Amma borc pulla həccə getməyin şərən icazəli olub-olmadığı bir sual olaraq qalırdı. Odur ki, bu barədə Nəhavəndin cümə imamı ustad Muğisidən şəri vəzifəmi soruşdum. Dedi: "Kredit maaşından tutulduğu üçün eybi yoxdur." Hələ bu məsələ ailəmin də nə qədər sevincinə səbəb oldu. Əmin idi ki, daha bir aydan sonra evə yaralı bədənim gəlib çıxmayacaq.

İdarədə adımız qeydə alınarkən məlum oldu ki, həccə iki karvan tərkibində ölkənin müxtəlif nahiyələrindən sepahın yüksək rütbəli komandir və məsul şəxsləri də ezam olunur. Ümumi karvanlarda bizim Nəhavənddən tanış olanlar və şəhid ailələri də vardı.[1] Səfər barədə bizim sepahın hərbiçiləri ilə iki-üç dəfə görüşümüz oldu. Həccin əməlləri, o cümlədən, Məkkədə İmamın nümayəndəliyində zilhəccənin 6-sı "Müşriklərdən bəraət" aksiyasının

[1] Məsələn, Əlimurad Sulgi və Hüseyn Kiyani yadımda qalanlardandır. Hər ikisi vaxtilə mənim müavinim olmuşdu və sonralar hər ikisi də şəhid oldu.

təşkili və təhlükəsizliyinin təmini ilə tanış olduq. 140 minə yaxın iranlı zəvvarın nəzm-intizamı sepah karvanlarının öhdəsinə düşürdü. Həmin görüşlərdə təkidlə qeyd edildi ki, təqribən sepah qüvvələri həmyaşıd və qiyafələri oxşar olduğundan Cəddədə təyyarədən düşəndən sonra Ərəbistan məmurlarının diqqətini cəlb edib, mərasimin sonunadək nəzarət altında ola bilərlər. Odur ki, təyyarədən düşərkən adi əhalinin arasındakı yaşlıların arasına girməli və özümüzlə şübhəli bir şey daşımamalıyıq. Mən isə Allahın evi, Peyğəmbərin (s) və Bəqidəki imamların məzarlarının ziyarəti şövqi ilə özümlə çoxlu sayda İmamın şəklini aparmaq istəyirdim və aqibəti haqda heç nə fikirləşmirdim. Düşünürdüm ki, bu yolda hətta qanım tökülsə belə şəhid dostlarıma qovuşacağam. Beləliklə, sepahın təbliğat şöbəsindən 4000 sayda İmamın rəngli və bir qədər də prezident Ayətullah Xameneinin müxtəlif şəkillərini təhvil aldım. Şəkillərin həcmi və çəkisi o qədər çox idi ki, ayrıca çanta və ya çamadan tələb edirdi və hökmən gizlədilməli idi. Təsadüfən "Həcc və Ziyarət idarəsi"ndən içi geniş və böyük bir brezent sumka verilmişdi. Şəkilləri onun dibinə yığıb, Nəhavənddə mahir bir dülgərin yanına apardım. Ona dedim ki, şəkilləri alt və üstdən iki möhkəm taxta lay arasında yerləşdirib, üzərinə sumkanın öz materialından

brezent parça çəksin. Həqiqətən usta işini çox məharətlə yerinə yetirdi. İradı bircə onun ağırlığı idi və məncə, altındakı təkərləri bu məsələni ört-basdır edə bilərdi.

Cəddə aeroportunda yerə enərkən əvvəlcə tapşırıq verildiyi kimi adi camaatın arasına qarışdıq. Həqiqətən salonda zəvvardan çox məmurlar vardı. Gözləri şübhəli görünən saqqallı cavanları axtarırdı və hər hansı bəhanə ilə camaatdan ayırmaq istəyirdilər. Mən də elə ilk başdan çantamı sürüyərək ürəyimdə və dilimin altında Allahdan istəyirdim ki, şəkilləri başqa ölkələrin zəvvarlarına çatdıra bilim. Tərslikdən yükün ağırlığı nəticəsində təkərlərin biri sınıb qopdu. Bundan sonra onu nə qaldırmaq, nə də rahat sürümək olurdu. Nəhayət, neçə nəfərin əhatəsində onu gətirib, son yoxlama keçidinə çatdırdıq. Qarşımdakı polisin baxışlarından hiss edirdim ki, hər ikimiz şübhəli görünürük. Eynilə düşmənin minalanmış meydanındakı kimi "Vəcəəlna" ayəsi dilimdən düşmürdü. Xoşbəxtlikdən bu təhlükə də sovuşdu. Səttar dedi: "Mirzə, bütün zəvvarlar boş sumka ilə gəlib sovqatla qayıdırlar. Sənin isə əksinədir. Deyəsən, torbada pişik var!"

Hotelə çatandan sonra sumkanı açdım. O vaxtadək Səttara heç nə deməmişdim. Gözü İmamın şəkillərinə düşəndə birini gözünün üstünə qoyaraq

dedi: "Haqqın var imiş! Bunlarla İmamın aşiqlərinin ürəkləri nə qədər şad olar!" Mənim bu fəndim ona da maraqlı gəldi. Şəkillərin çox hissəsini İmamın Məkkədəki Həcc və Ziyarət şöbəsinə təhvil verib, bir qismini də özümüzə saxladıq. Beləliklə, namaz vaxtları Peyğəmbərin məscidinə gedəndə gizli şəkildə şəkilləri başqa ölkələrdən gələn müsəlmanlar arasında paylayırdıq. Hətta bir dəfə kiçik formalı yapışqanlı şəkillərdən birini o nahiyənin polis motosikletinin arxasına yapışdırdım. Hacı Səttar da hərəkətimə maraqla baxıb gülürdü. Neçə gündən sonra bir daha həmin polislə rastlaşanda hələ də şəkildən xəbəri olmadığını gördüm. Bəzən də əynimizə ərəb paltarı geyinib, şəkilləri qoltuğumuzda gizlədərək yaymağa davam edir, hərdən maraq göstərən mağaza sahiblərinin icazəsi ilə çöl tərəfdən pəncərəyə yapışdırırdıq. Amma bir dəfə polis izimizə düşdü. Ardımızca gələrkən azan verilməyə başladı. Tez sıraya düzülən camaatın arasına qarışaraq başıma ərəb şalımı atdım, sıralardan birində yerə əyləşdim. Polis neçə dəfə yanımdan o tərəf-bu tərəfə keçsə də məni ayırd edə bilmədi.

***

Həccə Mədinədən başlayaraq Məkkəyə yollandıq. Təvaf zamanı mənə elə gəlirdi ki, şəhidlərimiz də

bizimlə bərabər təvaf edirlər. Buranın mənəvi ab-havası xatirələrimi bir daha qəlbimdə canlandırır, bəzən onların da əvəzinə təvaf edirdim. Zəmzəm quyusunun kənarında "Əbülfəzl" batalyonunun susuz həlak olan şəhidləri yadıma düşürdü. Hava nə qədər isti olub, susasam da bir o qədər həzz alır və özümü onlara daha yaxın hiss edirdim. Allahdan istəyirdim ki, heç vaxt ayağım şəhidlərin tutduğu yoldan sapmasın və həmişə yenilməz olum.

Zilhəccənin altısı "Müşriklərə qarşı bəraət[1]" aksiyası ilə bağlı nəzm-intizamın və təhlükəsizliyin təşkili birbaşa bizim qüvvələrin üzərinə düşürdü. Hazırlıq üçün qabaqcadan neçə dəfə yığıncağımız olmuşdu və yürüşün hərəkətinə maneçilik törətməyə çalışan məmurlardan əvvəl özümüz onların qarşısını kəsməli idik. Ötən illərdən təcrübəsi olanlar deyirdilər ki, məmurların əsas işi maşınlarla dördyol ayrıclarını kəsərək yürüşü pozmaqdır. Biz isə bu dəfə onların dördyollara gəlişinə imkan verməməli idik. Əgər onlar qabaqcadan həmin nahiyələri kəsə bilsələr, daha bizim əlimizdən bir iş gələn deyildi. Xoşbəxtlikdən, onlar gəlincə zəvvarların köməyi ilə yolları kütlə və qüvvələrimizlə doldurduq. Mən qüvvələrimə

[1] Burada Peyğəmbərin (s) zamanından başlayaraq müşriklərlə hər hansı sazişin ləğvi mərasiminin ənənəvi təşkili nəzərdə tutulur.

demişdim ki, qamçı və dəyənəklə əl-qolunuz sınsa belə, yolun açılmağına imkan verməyin. Əvvəldən axıradək Səttar kənarımda idi və hər hansı işi bir çapar kimi qaçaraq dərhal yoluna qoyur, cərgələri tez-tez nizama salırdı.

Nəhayət, yürüş başladı və qayda üzrə qabaqda məmurlar və arxalarınca da maşınlar dördyollara tərəf hərəkətə başladı. Məmurların komandiri yaxınlaşaraq neçə dəfə ucadan dedi: "Bura bizim ölkəmizdir və zəvvarların da əmniyyəti bizim öhdəmizədir!" Qollarımızdakı rəngli sarğıdan anlamışdı ki, yürüşün nizam-intizamına biz nəzarət edirik. Nə deyirdisə bir qulaqdan alıb, o birindən ötürürdük. Heç nə vecimizə deyildi və o da elə bilirdi ki, dediklərini anlamırıq. Yavaş-yavaş əhvalı pozuldu, rəngi bozararaq boyun damarı qabardı. Mən də özümdən çıxdığımı göstərərək geri çəkilmədikdə, yumşalaraq səsinin tonunu dəyişdi. Bu minvalla onunla bihudə mübahisəni o qədər uzatdıq ki, axır, yumruqlarını sıxaraq qollarını bir-birinə keçirən zəvvarlar "Ölüm olsun Amerikaya! Ölüm olsun İsrailə!" – deyərək, maneəsiz gəlib, yanımızdan keçdilər və sıraları da pozulmadı.

Zilhəccənin 8-i günortadan sonra tələsik Ərəfata getdik və Ərəfə günü günortadan sonra məğribədək orada qaldıq. Axşam isə Məşərül-hərama, ertəsi gün

də ayın onu Qurban bayramı ilə bağlı Minaya yollandıq. Səttar kənd uşağı olduğu üçün heyvan kəsməyi bacarırdı. Özü tək mənimlə birgə on yeddi nəfər üçün qurban kəsdi. Yazığın əl-qolu tamam qan içində idi və nəhayət, bir anbar qurbanlığın arasından çıxıb geri qayıtdıq.

Sovqat və hədiyyə alma vaxtı yetişdi. Mən özümlə yalnız bir qurbanlıq pulu aparmışdım. Səttarın vəziyyəti məndən yaxşı idi və dedi: "Gedək arvad-uşağa bir az sovqat alaq." Bilirdi ki, mənim pulum yoxdur. Odur ki, mənə bir az borc verdi və üstünə bir qədər də Hüseyn Kiyani qoydu. Gəzib-dolanandan sonra hərəmiz bir neçə oxşar şey aldıq.

Məkkədə son günlərimizi keçirirdik. Həmin ərəfədə "Müşriklərə qarşı bəraət"lə bağlı İmam Xomeyninin ərəb dilində bəyanatını paylayarkən yaxalandım. Əlimdə elanlarla neçə polisin mühasirəsinə düşdüm. Qolu zorbalı bir məmur əlimdən möhkəm yapışaraq məni öz idarəsinə çəkib aparırdı. Ucadan qışqırdım: "Səttar! Bunlar məni tutub aparırlar! Tez uşaqlara xəbər ver!" Hiss olunurdu ki, polislər də əsəbiləşiblər. Onlardan biri bütün elanları gözümün qabağında cırıb tikə-tikə elədi. İçimdən od tutub yanırdım. Məni maşınla harasa aparmaq istədikləri zaman Səttar bir göz qırpımında neçə nəfəri toplayıb gəldi. Onlar polisləri

əhatəyə alaraq şüar deməyə başladılar. Sayları onlardan az olsa da cürətləri çox idi. O qədər hay-küy saldılar ki, polislər özləri çaş-baş qaldılar. Mən də fürsətdən istifadə edib, bir anda polisin qolunu buraraq kamandan atılan ox kimi şütüyüb zəvvarların arasına girdim.

Son neçə gündə Səttar Hira dağı və başqa neçə tarixi yerlərdə şəkil çəkdirmirdi. Məndən də xahiş edirdi ki, birgə yadigar şəkillər çəkdirək. Mənim razılaşmadığımı görüb kinayə ilə deyirdi: "Şəhidlərin şəkillə araları yaxşı idi. Axı, sənə nə olub?!" Mən də deyirdim: "Elə ona görə də şəhid olacaqsan."[1]

***

Təqribən üç ildən sonra bizim "Ənsar əl-Hüseyn" briqadamızın təşkilatçısı və komandiri Hüseyn Həmədani sepahın baş qərargahı tərəfindən Gilan vilayəti üzrə yeni təşkil edilən "Qüds" briqadasının komandiri təyin edildi. Bu yerdəyişmə onun müvəffəqiyyətini göstərsə də, yerinə kimin təyin olunması bizə daha mühüm idi. Bu haqda heç bir məlumat yox idi. Beləliklə, briqadanın bütün batalyon və ştab üzrə komandirləri Kermanşahın "Nəcəf" qərargahına dəvət edildi. O zaman

[1] "Əli Əsgər" batalyonunun rəşadətli komandiri Səttar İbrahimi bir il yarım sonra 1987-ci il 3 martda Şələmçədə şəhid oldu.

qərargahın rəisi Əhməd Vəhidi idi. Yığıncaqda söz Hüseyn Həmədaniyə veriləndən sonra vilayətimizin müharibədə rolu, əhalinin cəbhə və cəbhəçilərlə həmkarlığı və s. barədə məlumat verdi. Növbə onun yerinə təyin olunan komandirə çatdı. Dezful əhalisindən olan cənub ləhcəli, nurlu simalı bir cavan idi. Mənə müharibənin əvvəlində Kərxə məntəqəsində döyüşən pasdar qüvvələri xatırladırdı. Cənab Vəhidi komandiri təqdim edərkən yadıma düşdü ki, onu Məcnun adasında qüvvələrin növbələrini dəyişdiyi zaman görmüşdüm. O zaman Xuzistanın "Vəliəsr-7" qoşununun komandir müavini vəzifəsini daşıyırdı. Vəhidi onun müharibənin əvvəlindən indiyədək Abadan qoşununun komandiri və s. mühüm məsul vəzifələrini bir-bir qeyd edərkən anladım ki, sınaqdan çıxmış və təcrübəli bir şəxslə əməkdaşlıq edəcəyik. Adı Mehdi Kiyani idi. Söhbətində müharibənin mahiyyəti və subyektiv dərinliklərinə dair gözəl izah verdi. Mən özüm belə yeni və kreativ təhlillərin aşiqi idim. Deyirdi: "Müharibəyə İslam İnqilabının geniş miqyaslı strukturu qrafikindən nəzər salsaq, özündə inqilabın mədəni, əmniyyətin təmini, iqtisadi, siyasi və s. bütün yönlərini ehtiva edir. Hal-hazırda inqilabın taleyi birbaşa müharibənin şah damarına söykənib. Əgər hərbi

yöndən əlavə başqa yönlərdə də uğur və nailiyyət qazana bilməsək, inqilabın istiqaməti hər hansı təhdid və təhriflə üzləşə bilər. Burada sair yönlərin bünövrəsi mədəni-ictimai yöndür. Biz indi ideologiyamızın əsasları üzrə vuruşuruq və bunlar Seyyidüş-şühəda (ə) və Aşura məktəbindən qaynaqlanır. Bu sivilizasiya proqressiv, coşqun və gələcəyə zamindir." Komandir Kiyani elə bacarıq və qürurla söhbət edirdi ki, bütün qulaqlar onun cazibəli, mətin və ruhlandırıcı nitqinə şəklənmişdi. O danışdıqca mən də dediklərini qeydə alırdım.[1] O, Həmədan vilayətinin döyüşçüləri ilə tanışlığından, bu məntəqənin mədəni, ictimai və tarixi keçmişindən söz açandan sonra briqadamızın ötən əməliyyatlardakı uğurlarına görə öz təşəkkürünü bildirdi. Söhbətlərindən belə çıxırdı ki, bizim "Ənsar əl-Hüseyn" briqadamızın fəaliyyəti bundan sonra qərbə yox, cənuba doğru meyl alacaq. Bunu biz də anlayırdıq ki, müharibənin əsas mərkəzi həmin zonada yerləşir. Beləliklə, orada vuruşan qüvvələrlə ayaqlaşmaq üçün yeni potensial qabiliyyətlərə nail olmalı, dalğıc və hərbi dəniz batalyonunu təşkil etməli idik. O zaman briqadamız Cavanrudda

[1] Adətən, belə yığıncaqlarda mühüm məsələləri yaddaş dəftərçəmə yazırdım və burada da bir çox xatirələri həmin nəqllərə istinadən qeyd etmişəm.

müdafiə mövqeyini seçmişdi və arxa qüvvələr Çaharzəbərdə idi. Daha sonra Kiyani batalyon və başqa vahidlərin komandirləri ilə ayrıca görüşüb, tanış olmağa başladı. O, qardaşların hər birinin səviyyəsi və qabiliyyətləri haqda dəqiq məlumat əldə etmək istəyir və bu işi xüsusi incəliklə yerinə yetirirdi. Mən Nəhavəndin, o da Dezfulun lor əhalisindən olduğumuz üçün aramızda neçə saat səmimi söhbət getdi.[1]

[1] "Ənsar əl-Hüseyn" briqadasına komandir təyin edilən ilk günlərdə batalyon və s. bölümlərin komandirləri ilə tanışlıq zamanı onların səviyyəsi ilə maraqlandım ki, iş strategiyamı sepahın planları üzrə irəli apara bilim. Onların hərbi bacarıqları ilə bərabər ruhi, əxlaqi və əqidəvi səciyyələri ilə də maraqlanırdım və bütün bunlar mənim iki illik komandirliyimdə böyük rol oynadı. Həqiqətən də hər biri öz səviyyəsinə uyğun vəzifəsini yerinə yetirirdi. Mənim üçün onların arasında xüsusi fərqlənən şəxs Mirzə Məhəmməd Sulgi idi. Onunla ilk görüşdə Çaharzəbərdə yayın istisində çadırda neçə saat briqadanın potensial imkanlarından tutmuş cənubda ağır əməliyyatlara dair geniş söhbətimiz oldu. Söhbətimizdən belə nəticəyə gəlirdim ki, onun bir çox qabiliyyətləri hələ üzə çıxmayıb və bir çox böyük vəzifələri öhdəsinə qoymaq olar. Odur ki, ştabın komandirinə dedim ki, bu şəxsin dünya görüşü yaşından artıqdır, bütün vücudundan qeyrət və mərdlik yağır, istənilən çətin şəraitdə 400-500 nəfəri idarə etməyə qadirdir. Dini baxımdan da möhkəm əqidəyə malikdir və zatı sağlam adamdır." Mehdi Kiyani ilə müsahibədən, Tehran, 8 iyul, 2014.

Neçə gündən sonra briqada Çaharzəbərdən bir daha cənuba doğru "Şəhid Məhərrəmi" düşərgəsinə yollandı. Yeni komandirin nəzərincə, bura getdikcə diviziyaya çevriləcək briqadanın düşərgə salmağı üçün münasib yer deyildi. Odur ki, Dezful-Şüştər istiqamətində münasib sahə təyin ediləndən sonra həmin yerə "Şəhid Mədəni" hərbi hissəsi adı verildi.

Günlər ötdükcə hərbi hissə də yavaş-yavaş öz formasını almağa başlayırdı. Burada çadırların kənarında bütöv diviziyanın tam təchizatı ilə yerləşməyinə imkan verən bir sıra tikili və binalar da vardı. Buranın havası da Şəhid Məhərrəmi düşərgəsinə nisbətən mülayim idi. Komandir Kiyani ilk icra işlərində müharibənin əvvəlindən indiyədək öz kənarında vuruşan neçə tanınmış və təcrübəli şəxsi də komandir heyətinə əlavə etdi. Əvvəlcə Əbdülhüseyn Bənadirini briqada ştabının rəisi təyin elədi. Onun tez bir zamanda bölümlərin təşkili və hərbi hissənin hazırlığında operativliyi yüksək bacarığa sahib olduğunu göstərirdi. Ondan sonra seyid Məsud Hicazini briqadanın əməliyyat üzrə müavini seçdi. O da öz işində xüsusi məharətə malik idi və irəli getdikcə onun da hərtərəfli bacarığı ilə tanış olurduq. Daha sonra quru-su vahidlərinin təşkilini Əbdüləli Təmimiyə və artilleriyanın

komandirliyini də Əhməd Hidayətpənaha tapşırdı.[1] Yeni komandirlərin təyini məsələsində bizim Həmədandan olan qüvvələrin üç illik müharibə təcrübəsinə baxmayaraq, heç birindən zərrə qədər etiraz və ya hər hansı əks reaksiya müşahidə olunmadı. Onlara hər bir halda hər şeydən əvvəl üzərinə düşən vəzifə, cihad və Allah yolunda fədakarlıq mühüm idi. Hər hansı ad, vəzifə və rütbə onlara xidmətdən başqa məna və dəyər kəsb etmirdi. Kiyani hətta vaxtilə briqadamızın təşkilatçılarından olub, hal-hazırda Kürdüstanda fəaliyyət göstərən Əli Şadmani və Səid İslami kimi keçmiş komandirləri də yenidən geri çağırdı. Yeni kadrlar təyin edildikcə batalyonlara da yeni qüvvələr cəlb edildi. Briqadanın su və diversiya üzrə bölükləri batalyonlara çevrildi və ayrıca dalğıc batalyonu təşkil olundu. Bütün bu bölümlər qabaqkı dövrlərdə müxtəlif formalarda olsa da, burada – cənubda daha perspektivli və təşkilatlı şəkildə tələb olunurdu. Mehdi Kiyaninin göz qabağındakı dəyişiklikləri briqadanın keçmiş komandirləri arasında yeni canlanma yaratdı. Hamımız növbəti geniş, ağır və çətin əməliyyatlara hazırlaşmağımıza görə şad idik. Batalyon komandirlərindən bir çoxu, o cümlədən,

[1] Əbdüləli Təmimi 1986-cı ilin mart ayı Favda və Əhməd Hidayətpənah isə 1986-ci ildə Şələmçədə şəhadətə yetdi.

Möhsün Ümidi, Rza Şükri, Həsən Tacuk və Həmidrza Rəhbərlə birgə əhd bağladıq ki, bir daha Ənsar əl-Hüseyn briqadasının adını yüksəldək və bu yolda son damla qanımızadək vuruşaq. Getdikcə briqada yeni silah və təchizatla təmin edilməyə başladı və hərbi hissəyə yeni-yeni nəqliyyat vasitələri, qayıqlar, toplar, minomyotlar, istehkam və pənahgahların düzəldilməsi üçün lazım olan ağır yük maşınları və avadanlıqları gətirildi. 1986-cı ilin payızında təchizat və qüvvələrin bir qismi Bostan şəhərinin cənubunda yerləşən Hurul-hüveyzə bataqlıq sahəsindəki cəbhəyə köçürüldü və əməliyyat-kəşfiyyat məqsədilə ilk müdafiə xətti formalaşdı.

***

Müdafiə cəbhəmiz Rəfi adlı kənddə yerləşirdi və ərəbdilli əhalisi didərgin düşəndən sonra bir çox avadanlığı və mal-qaraları sahibsiz qalmışdı. Hurun səfalı təbiəti vardı. Növbənöv quşlar dəstə-dəstə çay və sularında uçuşurdu. Atəş səsləri hələ də onları bu gözəl təbiətdən ayıra bilməmişdi. Amma buradan fərqli olaraq müharibə Məcnun adasının su hövzələrindən bütün köçəri quşları didərgin salmışdı. Məcnun adasının ağır və təhlükəli şəraitini görən qüvvələrimizə buranın cəbhəsi bir gəzinti görünürdü və bəzilərinin fikrincə, həm ziyarət, həm

də ticarət idi. Cəbhəmiz müəyyən sıra və xətt üzrə deyildi. Çoxlu su yolları və qamışlıqlarına görə hər bir qayıq istənilən səmtə yönəlib, istənilən yerdə mövqe seçə bilərdi. Odur ki, həmin adalardakı kimi hər hansı nöqtəni hədəf təyin etmək qeyri-mümkün idi. Kəşfiyyat qrupu ilə tez-tez kəşfiyyata gedirdik. Pusqu yerlərində kateri qayıqla əvəz edib, səs-səmirsiz düşmənin müşahidə qülləsinədək yaxınlaşırdıq. Hər biri qamışlıqların arasından göyə baş qaldırırdı. Bir dəfə onlardan birinin lap altınadək irəlilədik. Əgər keşikçi qarşı tərəfdən dörd nəfərin onun neçə metrliyinə yaxınlaşdığını görsəydi, bağrı çatlayardı.

Kəşfiyyatdan geri qayıdandan sonra işimiz təlim keçmək idi. Tapşırığa əsasən, hər bir batalyonun özünün ayrıca dalğıc dəstəsi olmalı idi. Təlimlər əvvəlcə kəşfiyyat-əməliyyat qüvvələrindən başladı və daha sonra hər bir batalyonun ayrıca dalğıc dəstəsi təşkil edildi. Bizim batalyonun dalğıc dəstəsi Mehdi Zəfərinin bölüyündən seçildi. Qalanları isə sallardan ibarət pusqu məntəqəsində növbə ilə keşik çəkirdilər. Burada ön cəbhə ilə arxa cəbhə arasında elə də fərq görünmürdü və hər yer, hətta pusqu məntəqəsi belə təlim üçün münasib idi. Özümün də bu təlimlərdən xoşum gəlirdi. Dalğıc dəstəsinin tərkibində əynimizə dar rezin libas geyinib, suyun

altında qurbağa kimi o tərəf-bu tərəfə üzürdük. Nəfəs aldığımız şlanqın bir tərəfi çöldə idi və bəzən uşaqlar suyu qəsdən ləpələndirərkən içərisinə dolan su ovuc-ovuc qarnıma gedirdi. Çölə çıxandan sonra həmin qamışdan hazırlanan salların üzərində istirahət edir, özümüzə ördək və ya qaz ətindən şorba bişirirdik. Doğrusu, uşaqlar nahaq demirdilər ki, Rəfi cəbhəsinin gəzinti və səyahətlə fərqi yoxdur.

Bir dəfə kəşfiyyat məqsədilə Mehdi Zəfəri və iki bələdçi ilə ön cəbhəyə yollandıq. Bələdçilərdən biri Əli Çitsazianın və digəri isə "Nüsrət" qərargahının qüvvələrindən idi. Ərəb dilli yerli bələdçimiz Hur məntəqəsini ovcunun içi kimi tanıyırdı. Həmişə özümüzlə götürürdüyümüz dalğıc paltarı bu dəfə də karımıza gəldi. Düşmənin cəbhə xəttinə yaxınlaşarkən birdən içi döyüşçü ilə dolu bir kater bizə tərəf gəlməyə başladı. Biz də qayıqda oturub, səssiz-səmirsiz avar çəkirdik. Aramızda məsafə azalarkən qayığı qamışlıqda gizlədərək dördümüz də suyun altına girdik. Yuxarı qalxmamağımız üçün qamışların gövdələrindən yapışmışdıq və şlanqın vasitəsilə ilə nəfəs alırdıq. Təxminən üç-dörd dəqiqə suyun altında hərəkətsiz dayandıq. Kater o qədər yaxınlaşdı ki, az qaldı pərləri boğazımı doğrasın. Yaranan güclü ləpələr nəticəsində bədənimiz də qalxıb-enirdi. Kater uzaqlaşandan sonra biz də bir-

bir suyun altından çölə çıxdıq. Artıq günorta vaxtı idi. İstirahət və namaz qılmağa yeganə yerimiz qayığın içi idi. Daha sonra yerli bələdçinin ardınca özümüzü qarşıdakı düşmənin pusqu nöqtəsinə yetirdik. Bələdçi dedi: "Daha qayıqla getmək təhlükəlidir. Buradan o tərəfə neçə saat suyun altında irəliləmək olar." Nahara lavaşla balıq konservi vardı. Yeməyimizi yeyib, yenidən suya girdik. İki bələdçi qabaqda, biz də ardınca üzürdük. Suyun dərinliyi üç metrdən artıq olmazdı və hər dəfə yorularkən qamışlardan tutub, istirahət edirdik. Bələdçilər lazımı nahiyələrdə kompasla ölçü götürür və biz də arxalarınca hərəkət edirdik. Nəhayət, gəlib növbəti müşahidə qülləsinə çatdıq. Bu nahiyəni də diqqətlə nəzərdən keçirəndən sonra geri qayıtdıq. Kəşfiyyatdan qayıdandan sonra bütün qeyd və müşahidələrin çertyoju cızılırdı ki, əməliyyat zamanı qüvvələrin hərəkətində hər hansı anlaşılmazlıq yaranmasın.

Növbəti kəşfiyyatda yolumuzu başqa səmtdən saldıq. Bu yol qabaqcadan kəşfiyyat-əməliyyat qrupu tərəfindən ağ sapla müəyyən edilmişdi. Beləliklə, sapın ardını tutaraq onun sonuna yaxınlaşdıq. Orada dalğıc paltarımızı geyinib, suyun altına girdik. Yavaş-yavaş irəliləyərək tikanlı məftillərlə qarşısı kəsilən maneə ilə rastlaşdıq. İti və

kəsici maneələr arasında "fu-qaz" maddəli çəlləklər və başqa partlayıcı tələlər quraşdırılmışdı. Bələdçinin köməyi ilə ehtiyatla ən təhlükəli maneədən sovuşaraq düşmənin cəbhə xəttinə keçdik. İrəlilədikcə onların qüvvələrinin, kater və qayıqlarının asudəliklə hər tərəfə hərəkətini müşahidə edirdik. Balıq kimi suya öyrəşmişdik və heç nədən qorxu-hürkümüz yox idi. Fikrimiz yalnız dəqiq məlumat toplamaqda idi və əmin idik ki, hər an əsir düşə və ya şəhadətlə üzləşə bilərik. Havanın kəsici soyuğunda üşüsək də bədənimizə yapışan dar formamız onun bütün vücudumuza təsirinin qarşısını alırdı. Suyun altında o qədər gəzişib-axtarış apardıq ki, axır, bələdçinin nəzərdə tutduğu yeri müşahidə elədik. Orada quru yol vardı və iraqlılar irəlidə olan müşahidə və pusqu məntəqələrini rahat təmin etmək üçün Hurun sularında torpaq körpü salırdılar. Torpaq yolun neçə metrliyinədək irəliləyib, qamışlıqda bir qədər gözlədik. Başları maşınla torpaq daşıyıb boşaltmağa qarışmışdı və biz də onlara lap ayaqları altından tamaşa edirdik. Heç ağıllarına belə gəlməzdi ki, bir kəşfiyyat qrupu onların neçə addımlığına yaxınlaşıb. Odur ki, yolun qırağında oturan keşikçi əsgər arxayınlıqla papağını gözünün üstünə salıb xoruldayırdı. Yanından gəlib keçənlər ona gülsələr də əsla ayılmırdı. Yarım

saatdan sonra bələdçinin işarəsi ilə sakitcə suya girib, geri qayıtmağa başladım. Gəldiyimiz vaxt hesabı ilə ən azı üç saat suyun altı ilə üzməli idik ki, gəlib qayığı gizlətdiyimiz yerə çataq. Hələ cavan enerjili və sağlam bədənimizə baxmayaraq qollarımızda və canımızda taqət qalmamışdı. Suyun dayaz yerlərində qamışlıqlara söykənib, bir qədər dincimizi alandan sonra yenidən hərəkət edirdik. Yerli və ərəbdilli bələdçimiz qətiyyən danışmır və yalnız əlinin işarəsi ilə yolu göstərirdi. Beləliklə, ardınca düşərək tikanlı və keçilməz maneəyə çatanda yorğun bədənimizə yeni can gəldi və böyük həvəslə onların arasından o tərəfə keçdik. O tərəfə keçəndən sonra Hurun bu tərəfi və suyu eyni olmasına baxmayaraq, mənə elə gəldi ki, batalyonumuza qovuşdum və əsirlik təhlükəsi sovuşdu. Hava qaralmışdı və çox çətinliklə qayığımızı tapdıq. Başqa məntəqələrlə müqayisədə Hur cəbhəsinin ən çətin məsələsi aysız gecələrdə onun zülmət qaranlığı idi. Su, səma və qamışlığı bir-birindən ayırmaq olmurdu və hər yer və hər bir səmt eyni idi. Qayıdarkən yağış yağmağa başladı və bir qədər gözləməli olduq. Birdən yağış elə şiddətləndi ki, üz-gözümüzdən su axırdı. Yağış kəsincə qayıqdakı sellofanı başımıza çəkib, neçə dəqiqəlik Hurun sularından ayrıldıq. Bir qədər sonra yağış

kəsdi və bələdçi bizi kompasla su yollarından keçirərək neçə saatdan sonra kəşfiyyat-əməliyyat qrupunun sal üzərində qurulan qərargahına çatdırdı. Çadırda Əli Çitsazian mənə zarafatla dedi: "Deyəsən Qəndəhara getmişdin!" Sükutu pozaraq dilləndim: "Bu yerli dostlar az qalırdı bizi Bəsrəyə aparıb çıxarsınlar!" Fənərin işığını əllərimin içinə salarkən gördü ki, qan içindədir və qamışların iti yarpaqları ovuclarımı kəsik-kəsik edib. Dedim: "Piyada qoşunları yalnız düşmənin bir-birindən aralı pusqu və müşahidə məntəqələrinədək aparmaq olar. Arada məsafə və maneələr həddən artıq çoxdur." Əli bu məsələni məndən yaxşı bilirdi və neçə dəfə öz qüvvələri ilə irəli gedib, hər şeyi yaxından müşahidə etmişdi. Odur ki, söhbəti dəyişdi. Əllərim uzun müddət suyun altında qaldığından tamam büzüşmüşdü və az qalırdı dərisi qopsun. İsti əllərini soyuq ovuclarıma çəkərək dedi: "Ay səni su! Sənin ucbatından Əbülfəzl batalyonunun komandirinin əlləri qocaldı, amma altıaylıq Əli Əsgərin boğazından bir damlan keçmədi!" Əlinin həmişə ürəkdən dediyi sözlər ürəklərə yatardı və bu dəfə də sözü təsirli oldu. Özümü bu müqayisəyə layiq bilməsəm də onun dilindən çıxdığı üçün mənə yaxşı təsir bağışladı və alnından öpdüm. Bədənimə

yapışan dalğıc formasını çıxarandan sonra paltarımı geyinib, batalyonumuzun qərargahına qayıtdım.

Bizim dalğıc dəstəmiz Rəfi cəbhəsinin dalğıc bölüyünə çevrildi. Mehdi Zəfərinin başçılıq etdiyi bu qüvvələr ön cəbhədə – saldan düzəldilən pusqu və keşik məntəqələri və qamışlıqlarda düşmənin hücumlarının qarşısını kəsir və iki bölük də arxada ehtiyat qüvvəsi kimi hazır vəziyyətdə dayanırdı. Bu vəziyyət beləcə bir müddət davam edəndən sonra bizi başqa batalyon əvəz etdi. Qüvvələrimiz quru və su üzrə təlimləri davam etdirmək üçün Şüştər yaxınlığındakı "Getvənd" səddi məntəqəsinə köçürüldü.

Əksər qüvvələrimiz xidmət müddəti 45 gündən ibarət olan könüllülər idi və vaxtları sona çatmışdı. Söhbət zamanı qarşıda yeni böyük əməliyyatdan söz açıb, qalmalarını xahiş etdim. Əməliyyat adı gələndə hamının əhval-ruhiyyəsi dəyişilirdi. Əməliyyatın hansı məntəqədə keçiriləcəyindən özüm də xəbərsiz idim. İki il əvvəl qış fəslindəki "Xeybər" və "Bədr" kimi böyük əməliyyatları nəzərə alıb, yalnız yeni əməliyyatın miqyasını ehtimal verməyə çalışırdım. Hər halda o vaxtadək batalyon komandirlərinə heç bir məlumat verilməmişdi. Hər iki keçmiş əməliyyatın cənubda su hövzələrində baş verən miqyasını nəzərə alarkən görünürdü ki, yeni

əməliyyat Rəfi cəbhəsində baş verməyəcək. Təcrübəmiz üzrə buna əmin idik və dəqiq məlumatdan yalnız birləşmiş qüvvələrin qərargahı ilə rabitəsi olan briqada komandirimizin xəbəri vardı.

"Getvənd" səddi təlim almaq üçün münasib yer idi. Sıldırım qayalıqlar arasında yerləşən səddin suları onunla əlbəyaxaya vuruşmaq istəyən qüvvələr üçün qollarını açmışdı. Təlimlər gecə-gündüz tanımırdı. Adət üzrə, qüvvələr sübh azanından bir-iki saat əvvəl çadırlarından çıxır, hərə bir guşəyə çəkilir, soyuq havada çiyinlərinə adyal ataraq ibadətlə məşğul olurdular. Hərdən mən də özümü unudaraq onların halına qibtə edir, bu yüksək mənəvi hisslərin içində itib-batırdım. Bəzən də bir-bir onların kənarında oturur, yanğı ilə ətrafa yayılan raz-niyazlarını dinləyərək niyə onlar kimi olmadığıma görə öz halıma ağlayırdım. Azan vaxtına yaxın yumulan göz yox idi və gündəlik ağır məşqlərin yorğunluğuna baxmayaraq, heç biri namazdan yayınmırdı. Sübh namazını batalyonun ruhanisinə iqtida edərək qılır və ondan sonra bir qismi səhər yeməyinədək yatır, bis qismi də başını dua-zikrlə qatırdı. Süfrə salınandan sonra hamı bir-birinin kənarında əyləşir, zarafat və şirin-şirin söhbət edərək yeməyini yeyirdi. Yemək işinə

baxanlar süfrəni açıb-yığmaqdan başqa qabların yuyulması, çadırların təmizliyi, paltarların yuyulması, çəkmələrin mazlanması və s. xidmətləri də göstərirdilər. Bu işlərin bəziləri riya olmasın deyə, gizlində yerinə yetirilirdi. Odur ki, aralarında heç biri hər hansı işi üzərinə götürməkdən utanmırdı və belə xalis xidmət halları heç kimin tənbəlliyinə bais olmurdu. Özüm, o cümlədən başqa rütbəli zabitlər hər hansı işlə bağlı əsgərlərlə aramızda heç bir təfavüt görmürdük və yemək tədarükündən tutmuş ən cüzi işlərdə belə həmkarlıq edirdik. Ümumiyyətlə, düşərgəmizə hakim olan belə atmosfer həmin təmənnasız həmkarlığın nəticəsi idi.[1] Çox vaxt komandirlərdən tutmuş adi əsgərədək hər hansı birinin xüsusi hörməti mənə xəcalət verirdi. Deyirdilər: "Hacı, qoymarıq əlini ağdan-qaraya vurasan!" Mən də öz növbəmdə heç birinə

[1] "Müharibədə hər bir komandirin xalis ibadət və bəndəliyi onun müvəffəqiyyətində mühüm rol oynayırdı. Özü və həmkarları mənəvi cəhətdən yüksəldikcə əməliyyat gecələri həmkarlığı və uğurları da artıq olurdu. Daha doğrusu, əməliyyat gecəsini ondan qabaq həyatda yaşadığı mənəvi səciyyələr təyin edirdi. Sulgi və onun batalyonu da bir çox batalyonlar kimi belə məsələlərə xüsusi əhəmiyyət verir, gecələri ibadətlə keçirirdilər. Odur ki, Sulgi ilə qüvvələri arasında əsil səmimi məhəbbət hakim idi. O, bütün qüvvələrini öz övladı kimi tanıyırdı və hər biri ilə yaxın rabitəsi vardı. Bu müvəffəqiyyətin rəmzi onun sözdə yox, həqiqətən əməl və rəftarda nümunəvi şəxsiyyəti ilə bağlı idi.

qulaq asmır və bütün işləri özüm görürdüm. İşlər növbə ilə yerinə yetirilsə də hamıya tapşırırdım ki, heç kim özünü işdən ayrı sanmasın. Yadımda ikən, onlara imam Səccadın (ə) həyatından bir misal çəkərək deyirdim: "İmam Məkkə səfərlərindən birində tanınmaz şəkildə bir karvana qoşulur ki, yol boyu onun şəxsi işlərini hörmət əlaməti olaraq başqaları yerinə yetirməsin. Biz inqilab etmişik ki, kimsə başqasının ağası olmasın! Heç kim mənə və mənim kimisinə hətta xeyirxahlıq üzündən qulluqçu olmamalıdır!"[1]

Bəndin sahillərində mənəviyyatla səfa bir-birinə qarışmışdı. Günəş boylanandan sonra hərə bir guşədən çıxır, böyük izdiham yaranırdı. Səhər idmanı zamanı əhval-ruhiyyəmiz təzələnir, hamımız xorla hərbi marşlar oxuyurduq. Gündüzlər işimiz quru və su təlimlərilə keçir, axşamlar isə qüvvələri hissə-hissə qayıqla bəndin ortasınadək aparıb, orada suya salırdıq. Bundan sonra özləri üzərək sahilə doğru qayıtmalı və sahildə fərzi düşmənlə qarşılaşmalı idilər. Qarşıdurma zamanı qumbaraatan, pulemyot və s. silahlardan istifadə edilirdi. Açılan atəşlər başları üzərindən neçə metr

[1] İnqilabdan əvvəl əksər komandir və yüksək rütbəli zabitlər özündən aşağı olan zabit və əsgərləri şəxsi işlərini görmək üçün qulluqçu təyin edirdilər.

aralı keçərək tam müharibə şəraiti yaradırdı ki, həm döyüşün gərginliyi duyulsun, həm də qorxu-vahimə hissi çəkilsin. Özüm də kənardan təlimləri və qüvvələrin fəaliyyətini diqqətlə izləyirdim. Dalğıc bölüyü bütövlükdə hər hansı şəraitə hazır olsa da, hərdən atəşin qızğın çağında indiyədək belə ciddi təlimlə tanış olmayan yeni üzvlərin giley-güzarı ilə də rastlaşırdıq.

Aramızda utancaq, azdanışan və ədəb-ərkana riayətdə xüsusi seçilən bir könüllümüz vardı. Əlimin altında olduğu üçün birinci onu suya itələdim. Əynindəki məxsus jiletə görə batmadı. Üzə bilməyənlər, məcburi də olsa, belə şəraitdə öyrənməli idilər. Amma bu azdanışanın dili yaman açıldı və ağzından elə qəribə sözlər çıxdı ki, özüm mat qaldım. Suyun üzündə çapalaya-çapalaya deyirdi: "Qansızlar! Canilər! Siz Səddamdan da pissiniz!" Qayıq hərəkət etdikcə ləpələr çoxalır və su boğazına dolduqca səsi batırdı. Sanki bizi edam məmurları təsəvvür edərək ağzından çıxanı deyirdi. Axır, birtəhər özünü sahilə çatdırırdı və ayağı quruya dəyəndən sonra yenidən əvvəlki adama çevrildi. Utandığından lal-dinməz halda gedib bir guşəyə çəkildi. Ardınca yollandım, ona ürək-dirək verərək üzrxahlıq etdim və o da qəbul elədi.

Doğrusu, belə praktiki təlimlərdən çıxmayanların əməliyyat zamanı çətinə düşməyi təbii və qəti idi.

Başqa bir gecə batalyonun təchizat müavini qaranlıqda neçə saat ləpəli və soyuq suda qalmalı oldu. Onunla birgə neçə nəfərə üzməyi öyrənməyi tapşırmışdım. Təkcə onunla kifayətlənmirdim və hamı üzməklə bərabər suda müvazinətini saxlayaraq avtomat, hətta qumbaraatanla atəş açmağı da bacarmalı idi. Nəhayət, o, haçandan-haçana başılovlu halda özünü sudan çölə atdı. Yazıq söyüd kimi əsirdi və dişləri şaq-şaq şaqqıldayırdı. Soyuq canına necə hopmuşdusa hər nə etsək də titrəməyi çəkilmirdi. Biri adyala bükür, biri çiyinlərini ovuşdurur, mən də ovuclarımla üzünün iki tərəfindən tutmuşdum ki, tərpənməsin. Lakin xeyri yox idi və çənəsi dayanmaq bilmirdi. Zarafatla deyirdim: "Hünərin var, indi də de: Ölüm olsun Amerikaya!" Bununla belə, titrəyə-titrəyə və qırıq-qırıq səslə deyirdi: "Ööllüm o ollsun Aaamerrkaya!" Sözlərinə hamı güldükcə özü də gülümsəyirdi. Bəzən belə gülüş və zarafatın ortasında – hər hansı məsələyə görə – elə ciddi reaksiya göstərirdim ki, qarşı tərəfin üzündə təbəssüm quruyurdu. Məsələn, bir axşam yenə təlim vaxtı cavan döyüşçülərdən biri sudan sahilə çıxaraq sakitcə yanımızdan ötüb keçdi. Əvvəlcə özümü görməzliyə vurdum. Tam etinasız

halda sallana-sallana gedirdi. Təlimlərə ciddi yanaşmaq lazım idi. Onda lazımı ciddiliyi görmədikdə, yerindəcə tənbeh etməyi qərara aldım. Ardınca düşərkən məni görüb aradan çıxmağa çalışdı. Arxadan ona çatıb haqlayarkən üzü üstə yerə yıxıldı. Cəld tərk-silah edib qolunu burarkən dedi: "Ay Mirzə, mənəm, düşmən deyiləm!" Silahını qaytarıb tapşırdım ki, vəzifəsinə ciddi yanaşsın.

İki ay ardıcıl təlimlərdən sonra fərzi düşmən əsil düşmənin rolunu ifa etməli idi. Belə ki, onlar sahili qoruyarkən hücuma keçən qüvvələr səssiz-səmirsiz sudan çıxaraq bir anda düşmənin başının üstünü kəsməli, sahil qoşunları komandiri isə duyuq düşən kimi tapançasından atəş açandan sonra qüvvələri hücum edənlərin başları üzərindən ağır və yüngül silahlarla od-alov yağdırmalı idilər. Son təlimlərin birində Hüseyn Kiyani fərzi düşmənin komandiri oldu. Bizim qüvvələr yavaş-yavaş sahilə yaxınlaşdılar. Mən də kənardan hər iki tərəfin fəaliyyətinə göz qoyurdum. Amma Hüseyn güllə atarkən təsadüfən əlində partladı və əli çox pis yaralandı. Bu bizim ciddi təlimlərdə baş verən nadir hadisələrdən idi. Onu dərhal hospitala yolladıq və həkimin məsləhəti ilə bir müddət orada yatmalı idi. Buna baxmayaraq ertəsi gün hamımızdan qabaq əli sarıqlı halda öz qüvvələrinin başı üstə fəaliyyətə

başladı. Komandirlərin belə sarsılmazlıqları qüvvələrə yüksək ruhiyyə bəxş edirdi. Onun, Rza Zərgərinin, Mehdi Zəfərinin, Müttəlib Qeysəri və başqalarının lazımı ciddiliyi ilə yerində təvazökarlığı, ixlası və səmimiliyi hamının qibtə etdiyi İslamın ümumi tövsiyə edilən nümunəvi səciyyələrini təmsil edirdi. Onlar belə xislətləri ilə hamıya nümunə idilər. Hətta çox vaxt cəbhələrə təbliğ və moizə məqsədi ilə gələn ruhanilər belə onların təsiri altına düşürdülər. Misal üçün, Müttəlib Qeysəri olduqca hazırcavab, sözü kəsərli və xalis bir şəxs idi. Bir dəfə batalyonumuza İslam Təbliğat Mərkəzindən bir ruhani gəlmişdi və moizələrində daha çox rövzə, əza və mərsiyəyə yer ayırırdı. Müttəlib ona "Hacı, imamlarımızın bütün ömrü əza və matəmdə keçməyib ki! Onların da şadlıq edən, xoş keçən günləri olub. Məgər belə deyilmi?" – deyəndə, ruhani soruşdu: "Hansı şadlıqdan danışırsan?" Müttəlib də "Yəni onlar sünnət toyu da keçirməyiblər?" – cavab verərkən yazıq ruhani bilmədi gülsün, yoxsa qaşqabağını töksün. Mat-məəttəl qalaraq susmalı oldu.

1986-cı ilin qış ərəfəsi briqadanın bütün qoşunları Riqabiyyə düzünə toplaşdı. Qışa baxmayaraq əməliyyatın iyi gələndə bahar duyulurdu. Əksər əməliyyatlardan qabaq məşhur məddah Sadiq

Ahəngəranın cəbhələrə baş çəkməyi də qüvvələrə xüsusi ruhiyyə bəxş edirdi. O gün onun məddahlığı və seyid Rza Hüseyninin həzrət Zəhraya (ə) həsr etdiyi rövzəsi canlara meh kimi yayılırdı. Ertəsi gün Mehdi Kiyaninin alovlu nitqi də bütün briqadanı vəcdə gətirdi. Söhbətindən sonra cuşa gələn qüvvələr onu çiyinlərinə alaraq neçə dəfə dövrə vurdular. Onların komandirə qarşı belə hissləri hər hansı əməliyyata hazır olduqlarını göstərirdi. Hansı ki, üç ay olardı, heç biri məzuniyyətə getməmişdi və hamı yorğun idi.

Növbəti yığıncaq "Şəhid Mədəni" hərbi hissəsində təşkil edildi. Görüşdə briqada komandiri təbliğat bölümünün məsuluna belə tapşırıq verdi: "Bütün könüllülər tərəfindən növbəti mühüm görüşdə çıxış üçün döyüşçülərin ürək sözünü deyə bilən və alovlu nitqi olan bir nəfəri seç. Çünki görüşə birləşmiş qüvvələrin baş komandiri, sepahın quru qoşunlarının komandiri və bütün cəbhə qərargahının komandirləri gələcəklər." Həmin fərd xüsusi diqqətlə seçilməli idi. Belə ki, o, öz çıxışı ilə briqadanın – üç ay Rəfi məntəqəsində müdafiə əməliyyatlarında iştirakı və Getvənd bəndi sahilindəki ağır təlimlərə baxmayaraq – növbəti əməliyyata hazır olduğunu çatdırmalı idi. Təbliğat şöbəsi briqadanın bütün könüllüləri arasından "Əli

Əsgər-155" batalyonunun sıravi üzvü Həmid Haşimi adlı yaraşıqlı və sevimli bir cavanı seçdi. Həqiqətən o da özünü tam doğrultdu və bütün ali rütbəli komandirlər onun nitqindən feyz aldılar.[1]

Həmin ərəfədə Həmədan vilayətinin neçə şəhəri, o cümlədən, Nəhavənd də bombardmana məruz qaldı. Sanki bu bir qaydaya çevrilmişdi və hər əməliyyata hazırlıq zamanı düşmən şəhərləri bombardman etməklə cəbhə və döyüşçülərin başını arxa cəbhəyə qatmaq istəyirdi. Radio xəbərlərində dəqiq məlumat verilmədiyindən çoxları Dezful və Şüştərə gedərək oradan evlərinə zəng edib, ailələrinin vəziyyəti ilə maraqlanırdılar. Mənim kimilər isə öz ailələrinin ruhiyyəsinə bələd olduğundan sadəcə bir məktubla kifayətlənirdilər. Qüvvələrin qarşısında özümü soyuqqanlı aparsam da evdə dörd uşaq anası olan yoldaşımın qışın soyuğu və güzəranın çətinliyi ilə necə keçindiyinə görə nigaran idim. Az-çox başqa komandirlərdə də

[1] Həmid Haşimi "Vəlfəcr-8" əməliyyatında Favda ilk şəhid olanlardan sayılır. Onun alovlu nitqi hələ də Həmədan döyüşçülərinin qulağında səslənir: "Bəh-bəh! Kərbəla qoxusu gəlir! Biz könüllülər həmişə bu qoşunun aşiqi olmuşuq! Bunu biz qanımızla diləmişik! Biz bura qələbə və ya şəhadət üçün yox, Allahın razılığını qazanmaq üçün gəlmişik! Bizim harayımız həmişə Allah rizası olub! Amerika, SSRİ və ya hegemonlar kimdir?! Yenilməz qüdrət sahibi Allahdır, Allahdır, Allahdır!..."

bu hiss müşahidə olunurdu. Odur ki, briqada komandiri mövcud şəraiti nəzərə alaraq onlara ailələrini Dezful və ya Şüştərə gətirmələrini təklif edirdi. Bu iki şəhər başqa şəhərlərdən fərqlənməsə də neçə gündən bir ora baş çəkmək rahat idi. Beləliklə, bir qismi əməliyyatdan qabaq ailələrini Dezfula köçürə bildi. Mən isə batalyonumdakı hər bir əsgərin ailəsindən uzaq olduğunu nəzərə alaraq özümü qane edə bilmədim və bu fikirdən vaz keçdim. Mehdi Kiyani özü şəxsən məndən xahiş etsə də dedim: "Mənimlə ailəmin bu yolda çəkdiyi hər hansı məşəqqət və cihadın dəyəri həmin ayrılıqdadır!" Bu minvalla, axır, yoldaşımdan məktub gəldi və yazmışdı: "Nəhavənd güclü bombardmana məruz qaldığından biz də naçar qalıb kəndə getdik. Burada evin yanacaqla təmini çətin olsa da uşaqlar nisbətən asayişdədir. Nefti qardaşım Əmir[1] gətirir. Bizə görə nigaran qalma və Allaha təvəkkül elə!"

Qeyd edilən möhtəşəm toplanışdan sonra bütün qüvvələr əməliyyat məntəqəsi ilə maraqlanmağa başladılar. Onların çoxu – Rəfidəki əməliyyatları nəzərə alaraq – növbəti əməliyyatın Hurul-Hüveyzədə keçiriləcəyini ehtimal verirdi. Bu fikirlər

[1] Əmir cəbhəyə də gələrdi və nəhayət, bir ildən sonra Məcnun adasında şəhid oldu.

çadırlardan tutmuş hətta camaat namazları və əza məclislərinədək söhbətlərin əsas mövzusu olurdu. Bir tərəfdən həzrət Fatimənin (s) şəhadəti ilə bağlı "Fatiməyyə günləri" ərəfəsi də başlamışdı və hərbi hissəmizdə tez-tez əza məclisləri təşkil edilirdi.



Sumar, 1984

Əməliyyatla bağlı Sumarda ardıcıl şəkildə ağır təlimlərimiz olardı.

Batalyonun qüvvələri hədsiz səmimiyyətlə süfrə kənarında.



"Müslim bin Əqil" batalyonunun komandiri Həsən Tacuk, mühasirədə yaralandığı zaman, Sumar, 1984

Həsən Tacuk, Mina, Məkkə.



Komandir Hüseyn Həmədani, adi bir əsgər kimi





Kəşfiyyat-əməliyyat briqadasının komandiri Əli Çitsazian, "Aşura gecəsi", 1984



Həsən Türk, "Aşura gecəsi", Aşura ziyarətnaməsini oxuyarkən

"Şəhid Məhərrəmi düşərgəsi", 1984

Ertəsi gün yola düşməzdən əvvəl batalyonun qarşısında çıxış edərək dedim: "Bu əməliyyata yalnız könüllü olaraq qoşulun! Onu da bilin ki, gedənlər geri qayıtmayacaq!"



Sağdan: Hüseyn Həmədani, soldan: Quru qoşunlarının komandiri Səyyad Şirazi

Belə döyüşçüləri görəndə, onların halına yalnız qibtə edirdim



Səttar İbrahimi. Onunla həcdə həmsəfər oldum. İki il sonra şəhadətə qovuşdu.

"Riqabiyyə" düşərgəsi, 1985

Komandir Mehdi Kiyaninin təsirli nitqindən sonra könüllülər onu qollarına alıb neçə dövrə fırlandılar.



Briqada komandiri Mehdi Kiyani, 1985-1986

Onun komandirliyi zamanı briqadamız diviziyaya çevrildi

Rəfi əməliyyat məntəqəsi, 1985

Hur çayı məntəqəsində batalyonumuz nəzərdə tutulan pusqu nahiyələrində yerləşəndən sonra bir komandir kimi özümü heç vaxt onlardan ayrı hiss etmirdim.

Dalğıclıq təlimləri zamanı, Getvənd səddi, 1985
Göstərişimlə hamı üzməyi öyrənməli idi.

Diviziya komandiri Mehdi Kiyani ilə bütün batalyon və s. bölüm komandirləri.

Diviziya komandiri Mehdi Kiyani ilə bütün batalyon və s. vahid komandirləri. Bu qrupdan yeddisi şəhid oldu.

Yeddinci fəsil

Fav

Salam olsun susuzluğa!

Fevralın əvvəli əməliyyatla bağlı qərargahın yığıncağına çağırıldım. Yığıncaqdan sonra hökmən hamıya əməliyyat məntəqəsi məlum olacaqdı. Görüşdə briqada komandiri bildirdi ki, Hurul-Hüveyzədən Xürrəmşəhr səmtinə yollanırıq. Qeyd edildi ki, Ərvənd çayının kənarında "İmam Rza" briqadasına yardım üçün "Əli Əkbər" batalyonu qabağa düşməlidir.

Xəbər elan ediləndən sonra bütün qüvvələr dərhal Getvənd səddi və "Şəhid Mədəni" hərbi hissəsini

tərk edərək Xürrəmşəhr tərəfə yola düşdülər. Elə həmin gecə "İmam Rza-21" briqadası "Bəvarin"[1] adalarında əməliyyata başladı və "Əli Əkbər" batalyonundan bir bölük də onlara köməyə tələsdi. Qüvvələrimiz hələlik növbədə idi və bir daha əməliyyat məntəqəsi ilə bağlı şübhələr baş qaldırırdı. Çünki Hurul-Hüveyzə və Xürrəmşəhr boyu iki istiqamətdə aparılan əməliyyatlar düşməni çaşdırmaq məqsədi ilə həyata keçirilirdi və bu məsələdən əksər komandir və məsul şəxslərin xəbəri yox idi. Əslində, əməliyyatın mərkəzi Fars körfəzinin deltasına düşürdü. Odur ki, növbəti gecə düşmən qüvvələri neçə cəbhəyə parçalanarkən bütün qoşunlardan toplanan 2000 nəfərə yaxın dalğıc dəstəsi ölkənin lap cənub sərhəd nöqtəsi və Ərvənd çayının Fars körfəzinə birləşdiyi nahiyədən keçərək onların Favdakı güclü müdafiə cəbhəsini yardı. Daha əməliyyatla bağlı artıq təhlil və ehtimala yer qalmadı. Cənubda yerləşən bütün briqada və qoşunlar Abadan adasındakı Ərvənd çayının sahili boyu yerləşən xurmalıqlara tərəf yönəldi və misli görünməyən ağır döyüşə hazır oldu. Bizim batalyon da çaydan çox aralı olmayan "Əbu Şanik" xurmalığında yerləşərək döyüş əmri gözlədi.

[1] Xürrəmşəhrin cənubunda Ərvənd çayı daxilində İraqa mənsub ada.

Briqadamızdan çayın sahilinə yaxınlaşan ilk qüvvə "Qasim bin Həsən" batalyonu oldu və beləliklə, üç bölük tərkibində o taya keçdi. Fava daxil olan ikinci qüvvə isə "Əli Əsgər" batalyonu oldu. Bu iki batalyon düşmənin Favdan Bəsrəyə yönələn şose səmtindən artan təzyiqinin qarşısını almaq məqsədilə göndərilmişdi. Belə vəziyyətdə düşmənin cəbhə xətlərini araşdırmağa fürsət yox idi. Qüvvələr Fava daxil olandan sonra sahil boyu yerləşən şəhəri qorumaq üçün üç cəbhəyə ayrıldılar.

Fevral ayının 15-i axşam həmin batalyonlar iki istiqamətdən düşmənin zirehli qoşunlarına tərəf hücuma keçdilər. Döyüş qızışdıqca onların düşmənin saysız tankları tərəfindən mühasirəyə düşdüyünü bildirən xəbərlər gəlirdi. Onlar bu müddət ərzində düşmənə cüzi zərbə ilə bərabər neçə tankı sıradan çıxarandan, həmçinin çoxlu yaralı və itkiyə yol verəndən sonra səhərə yaxın "İmam Hüseyn" briqadasının yerləşdiyi səngərlərə tərəf qayıtdılar.

Ertəsi gün səhər briqadamızın qərargahına getdim. Görüşdə briqada komandirinin söhbətindən belə anladım ki, iki batalyonumuzun intihari əməliyyatı böyük əhəmiyyət daşıyırmış. Belə ki, hava açılandan sonra düşmən qüvvələri Fava yetişməklə Fav-Bihar və Fav-Ümmül-qəsr yolları

boyunca yerləşən qoşunlarımızı qayçı kimi iki yerə bölə bilərdilər. Bu bizim "Ənsar əl-Hüseyn" briqadamızın Fav yarımadasında atdığı ilk möhkəm addımı, eləcə də düşmənin 5-ci diviziyasının nizamına vurduğu mühüm zərbəsi idi.

Növbəti axşam düşmənin Fav-Ümmül-qəsr şosesi istiqamətindən təzyiqi bir az da artdı. Bizim ardıcıl və güclü müdafiəmizlə qarşılaşarkən iki səmtdən – Bihar-Bəsrə və Fav-Ümmül-qəsr yolları tərəfindən mühasirə fikrinə düşdü. Bihar və Bəsrə yollarına nisbətən Fav-Ümmül-qəsr səmti hər iki tərəf üçün coğrafi baxımdan müəyyən məhdudiyyətlər yaradırdı. Bu yol sol tərəfdən Fars körfəzinin kənarı ilə paralel şəkildə uzandığı halda sağ tərəfdən bataqlıqlarla əhatə olunmuşdu, tank qoşunları və ağır təchizatın, eləcə də piyada qüvvələrin hərəkətinə mane olurdu.

Döyüş Favın 15 km-liyindəki asfalt yol boyu gedərkən briqada komandiri "Əli Əkbər" batalyonunu meydana göndərdi. Onların məqsədi yolun kənarında keşik çəkən postları məhv etməklə "Məhəmməd rəsulullah-27" diviziyasına yardım etmək idi.

Səhər xəbər gəldi ki, batalyonun komandiri Rza Şükri ağır yaralanıbdır. Bununla da iki gün ərzində üçüncü batalyon komandiri idi ki, yaralanaraq

meydandan xaric olurdu. Mən də öz qüvvələrimi irəli yollamaq üçün anları sayırdım. Hamı özünü qəfəsə düşən şir kimi hiss edir, Əbu Şanikin kəndsayağı torpaq evləri ətrafında vəsiyyətnamə yazır və bir-birindən şəfaət vədəsi alırdılar. İntizar anları qəribə həyəcanla sovuşurdu. Çünki İraq hər yeri ardıcıl şəkildə qırıcı təyyarələrlə bombardman edir və indiyədək misli görünməyə kimyəvi silahlardan istifadə edirdi. Odur ki, qüvvələrimin hələ döyüşə girməmiş zəhərlənməsi məsələsi məni yaman qorxudurdu. Narın yağan yağışlar hər tərəfi bürüyən iprit qazının iyini azaldırdı. Ələ düşən belə fürsət və hallarda əleyhqazlarımızı çıxararaq xurmalıqların bir guşəsinə çəkilir, dua və Quran oxumaqla məşğul olurduq. Dostlardan ikisi saqqalları uzun olduğundan maska taxmırdılar. Onlara dedim: "Belə olsa, sizə döyüşə icazə verməyəcəyəm! Elə burada saqqalınızı qısaldın! Sizin başqaları ilə fərqiniz yoxdur! Bu iş zəhərlənib ölməkdən çətin deyil!" Sözümə qulaq asandan sonra biri dedi: "Baş üstə! Bunu qaza görə yox, sizin əmrinizə itaət olaraq edərik."

Həmişəki kimi burada da mənəvi halları yaşayırdıq. Bir qismi hələ döyüşə girməmiş indidən şəhadət qüslü alır və özünü o dünyaya hazırlayırdı. Allah bilir ki, belə səhnələri görəndə həsrətlə onların

halına qibtə edir, Allahdan diləyirdim ki, mənə də bu könüllülər kimi dərin baxış və ləyaqət bəxş etsin. Hərdən bombardman zamanı yağış yağaraq qəribə fəza yaranarkən könüllülər öz adətləri üzrə bir yerə toplaşıb, əl və saqqala xınayaxdı mərasimi təşkil edirdilər. Həmişə araya çökən quru və ciddi münasibəti pozub, mənəvi halı saxlamaqla şıltaqlıq və zarafatından qalmayanlar da olurdu. Onlardan biri Hüseyn Xişvənd idi. O, hamı ilə qaynayıb-qarışar, hətta guşəyə çəkilənləri tapıb deyərdi: "Bir yerdə oturmaqdan nə çıxar?! Çıx qabağa, gücünü, hünərini göstər!" Onlarla qolunun gücünü sınayardı. Neçə nəfər birləşsələr də onun biləyini basa bilməzdilər. O, güləş üzrə idman ustası idi və pəhləvanlıq üsul və qaydalarına yaxşı bələd idi. Hətta mənə deyirdi: "Məndən neçə xal artıq toplasan da kürəyini bir fəndlə yerə vuraram!" Mən də deyirdim: "Gücünü saxla sonraya, neçə gündən sonra iraqlılara göstərərsən!" Rabitə qovşağımızın məsulu Fərəcullah Sulgi də yadımda qalanlardan biridir. Ona on gün icazə vermişdik ki, Nəhavəndə getsin, evlənib qayıtsın. Qayıdandan sonra ona dedim ki, sən batalyonumuzun Hənzələsi sayılırsan. Bundan sonra hamı onu Hənzələ deyə çağırırdı.[1]

[1] Onun şəhadət xəbərini xəstəxanada eşitdim. O, mən yaralanandan neçə saat sonra Fav-Ümmül-Qəsr yolunda şəhid oldu.

Onların arasında hamının diqqətini cəlb edən və qəribə rəftarı olan Əli Əlimurad adlı könüllü idi. Hələ Abadanda olarkən onu tanıyırdım. Əksər hallarda bir guşəyə çəkilərək daim Quran oxuyar, namaz qılardı. Onda bir abid və arifi göstərən bütün nişanələr müşahidə olunurdu. Hətta bəziləri deyirdi ki, bəlkə də imam Zamanla (əc) rabitəsi var. Qəribəlikləri burada daha aşkar görünürdü və Allaha qovuşmaq üçün can atırdı. Neçə nəfərə demişdi ki, batalyonun birinci şəhidi mənəm. Xınayaxdı zamanı öz qoluna da belə yazmışdı: "Nəhavənddən şəhid Əli Əlimurad"

Əbu Şanikdə "Bədr" əməliyyatı qabağı baş verən vəziyyət qarşıya çıxmadı və hamı bir nəfər kimi şəhadətə hazır idi. Batalyonumuz arzulanan əsil "Əbülfəzl" ordusuna çevrilmişdi. Burada hamı elə canfəşanlıq göstərirdi ki, bir qismini Fav cəbhəsinə aparmamaq üçün bəhanə axtarırdım. Onlardan biri qoca ustad Murad idi. O, əksər hallarda oğlu Əli ilə cəbhəyə gəlirdi. Həmişə onların başına bir hadisə gələcəyinə görə nigaran idim. Oğlu "Əli Əkbər-154" batalyonunda xidmət edirdi və hərdən bura gəlib, atasına baş çəkərdi. Görüşlərin birində mənə yalvardı ki, onu da öz batalyonumuza götürüm. Əlimə yaxşı fürsət düşdü və ata-balanın bir-birindən ayrılmamasını bəhanə edərək ustad Muradı arxada

saxlamağı qərara aldım. Ona dedim: "İndi ki, Əli də bizə qoşulmaq istəyir, hələlik ikiniz də burada qalsanız yaxşıdır." O, Quran müəllimi və təmkinli bir şəxs idi. Mənim təklifimdən sonra üzünü turşudaraq dedi: "Məgər Kərbəlada ata-bala birgə vuruşmurdular?!" Susaraq başımı aşağı salarkən söylədi: "Sulgi qardaş, xeyirli iş hamı üçün xeyirlidir, istər ata olsun, istər oğul! Allah Quranda buyurur: "Başqalarını yaxşı işə səsləyib, özünüzü unudursuzmu?! Bütün ömrüm Quran təlimi ilə keçib, hamını yaxşı işlərə çağırmışam. İndi necə özüm bu işdən yayına bilərəm?!" Mən susurdum, o isə ardıcıl olaraq deyirdi və ona cavab verməyə söz tapmırdım. Fikrim baş tutmadı və oğlu kor-peşman öz batalyonuna qayıtdı. Hər halda ustadı Ümmül-qəsr cəbhəsində döyüş meydanından uzaqlaşdırmaq üçün batalyonun təminat-təchizat bölümünə yolladım.[1]

Hələ ata-oğulla söhbətdən ayrılmamışdım ki, başqa bir ata-oğul qarşımı kəsdi. Atası bizim təminat

[1] İki gündən sonra Ümmül-Qəsr yolundakı döyüşlərdə ustad qüvvələrə su və silah-sursat daşımaqla məşğul idi. Axırıncı dəfə bir kanistr su gətirəndən sonra səngərin guşəsində oturub, dincini alarkən yüksək səslə Yasin surəsini oxumağa başladı. Quran oxuyarkən birdən qəlpə onun başını iki yerə böldü və oradaca şəhid oldu. Amma oğlu isə Fav əməliyyatında sağ qaldı.

bölümündə çalışırdı və oğlu Məhəmmədşüca da batalyonumuzun ilk könüllülərindən idi. Aramızda yenə oxşar dialoq baş verdi. Atası deyirdi ki, indiyədək həmişə oğlum ön cəbhədə olub, indi isə mənim növbəmdir. Məhəmməd də atasına baxaraq gülümsəyirdi. Mən də dedim: "Əgər hamı qabağa getməli olsa, onda təminat işinə kim baxacaq?!" Nə qədər israr etsə də razılaşmadım və axır, dilxor olaraq iş başına qayıtdı.[1] Söhbət əsnası briqada komandiri tərəfindən Möhsün Ümidi ilə Əbdüləli Təmimi Əbu Şanikə gəldi. Keçmiş dostum və cəbhə yoldaşım Möhsün "Hürr" batalyonunda yaxşı xidmətinə görə bir müddət idi ki, komandirin canişini təyin edilmişdi. Abadan cəbhəsi üzrə ilk komandirlərdən və Mehdi Kiyaninin silahdaşlarından olan Əbdüləli də Favın quru və su üzrə əməliyyat bölməsinə nəzarət edirdi. Onların gəlişi bizim batalyonun üzərinə yüksək vəzifə düşdüyünü göstərirdi. Söhbət zamanı Möhsün vəziyyəti belə izah etdi: "İndiyədək demək olar sepah bütün briqada və diviziyalarını Fava yönəldib. Batalyonlardan hər biri üç cəbhədə – əl-Bihar, Bəsrə və Ümmül-qəsr cəbhələrində ən azı bir neçə dəfə

[1] Oğlu elə birinci müdafiə əməliyyatında şəhadətə qovuşdu, atası isə sağ qaldı. Atası hələ də o zaman ona icazə vermədiyimə görə məndən gileylidir.

iştirak edib və geri qayıdıb. İraqlılar Bihar və Bəsrə cəbhələrində müvəffəqiyyət qazanmadıqlarından gücünü Ümmül-qəsrə veriblər. Bu günədək briqadamızın bütün batalyonları əməliyyatlarda olub və təkcə sənin batalyonun qalıb." Burada sözünü kəsərək dedim: "Bunları bilirdim. Sözün axırını de!" Ciddi söhbəti səmimi xarakter aldı və mehribanlıqla buyurdu: "Kərbəlada da İmamdan (ə) qabaq meydana girən axırıncı şəxs həzrət Əbülfəzl oldu. Sözün axırı budur!" Soruşdum: "Nə vaxt meydana girməliyik?" O da dedi: "Özün indi, qüvvələrin də neçə saatdan sonra."

Batalyonu Rza Zərgəriyə tapşırandan sonra onlarla birgə Ərvənd çayına tərəf yollandım. Çayın kənarında sıraya düzülən su qoşunlarının qayıqları yolumuzu gözləyirdi və bizi çayın o tayına keçirməli idi. Bu taydan Fav şəhəri rahat görünürdü və partlayan neft çənlərinin qatı tüstüsü bütün şəhəri bürümüşdü. Vaxtı itirmədən dərhal o taya keçməli idik. Birdən bir göz qırpımında düşmən təyyarələri tüstünü yararaq göyə pərvaz etdi. Mən şəxsən o vaxtadək bir yerdə bu qədər təyyarə görməmişdim. Başımızın üstündə dəstə-dəstə miq və miraj təyyarələri cövlan edirdi və çayın kənarındakı müdafiə korpusu hansı birini nişan almaqda çaş-baş qalmışdı. Göydən yağış kimi bomba, raket yağırdı

və partlayış zamanı yerin üst qabığı qat-qat parçalanıb havaya sovrulurdu. Neçə dəqiqə hətta o taya keçməyi belə unutduq. Əbdüləli dedi: "Əgər bombardmanın qurtarmağını gözləsək, gecəyə çəkəcək." Həqiqətən düz deyirdi. Miq və mirajlar geri çəkiləndən sonra ardınca sanki ağ bir div peyda oldu. Bu, nəhəng "Topolov" təyyarəsi idi və onun zərbələri sanki yeri şumlayırdı. Müəyyən fasilə üzrə baş verən partlayışlar bütün Fav cəbhəsini cəhənnəmə döndərdi. Təyyarə o qədər yuxarıdan uçurdu ki, onu heç cürə nişan almaq olmurdu. Birincisi işini qurtarandan sonra başqa birisi peyda oldu və o da əlindən gələni mövqelərimizə endirdi. Qüvvələrimiz indiyədək belə səhnənin şahidi olmamışdılar. Sanki bədii filmə bənzəyirdi. Sözün qısası, aləm bir-birinə dəymişdi. Bundan artıq vaxtı itirmək olmazdı. Nəhayət, qayığa minib yola düşdük. Hələ çayın ortasına çatmamış növbəti təyyarələr peyda oldu. Quruda qaçıb bir tərəfə sığına bilərdiksə, burada hər şeydən əlimiz üzülmüşdü. Ərvəndin adi halda vəhşi suları və dalğaları adama aman vermədiyi halda, belə şəraitdə onun üzərində bir saman çöpü kimi sürətlə Fars körfəzinə tərəf axıb gedirdik. Hər təyyarədən ən azı dörd ədəd bomba atılırdı və neçəsi bizim səmtə tərəf enirdi. Mənə elə gəldi ki, biri lap

başımıza düşəcək. Odur ki, dedim: "Dostlar, artıq şəhadət kəlməsini oxumağın vaxtıdır və o taya çatan deyilik!" Heç kim dillənmədi və hamımız katerin dibinə uzandıq. Sürücü də ayağını qazdan götürdü. Həmin bomba bizdən təxminən 50 metr aralı düşərək partladı. Partlayışdan sonra suda iri dalğa və ləpələr əmələ gəldi və az qaldı kater aşsın. Möhsün üzməyi bacarmırdı və həmişə ona zarafatla deyərdim: "Əgər balaca çalaya düşsən, boğulub ölərsən!" Halbuki o şəraitdə aramızda hamıdan çox o özünü arxayın hiss edirdi. Mən isə suya atılmaq üçün hazır vəziyyətdə idim. Katerə su dolsa da nə çevrildi, nə də batdı. Tələsik əldə olan hər nəyimizlə, hətta papağımız və ovuclarımızla suyu yığıb, çölə atırdıq. Təqribən çayın üçdə ikisini (1200 m) keçmişdik. Dalğalar bir az yatandan sonra sürücü motoru işə salmaq istədikdə, işə düşmədi. Nə qədər əl-ayaq atıb, əlləşsə də xeyri olmadı və motora yapışan gil və palçığa görə işə düşmədi. Çarəsiz qalıb əllərimizlə avar çəkərək özümüzü sahilə çatdırdıq.

Sahildə yerə enəndə üst-başımız palçıq və su içində idi. Sahil, o cümlədən, yaxınlıqdakı kanallar iraqlıların cənazələri ilə dolu idi və əksəri əməliyyatın birinci hücumunda qırılmışdı. Biz bərədə Əbdüləlidən ayrılaraq irəli getdik. Düşmən

təyyarələri bir daha peyda oldu və yenidən hər tərəfi, o cümlədən, şəhid və yaralılarımızın olduğu bərə və estakadanı bombardman etdi. Ordumuzun məntəqədə yeni yerləşdirdiyi "HUG" tipli havadan müdafiə korpusları onların qabağını kəsməyə çalışsa da, daha qırğı kimi aşağı enməyib, yuxarıdan bombardmanı davam etdirirdilər. Möhsünlə Fav-Ümmül-qəsr magistralı səmtində yerləşən briqadanın qərargahına çatanda xəbər verdilər ki, estakada neçə dəfə bombardmana məruz qalmış və bir çoxları ilə bərabər Əbdüləli də şəhadətə qovuşmuşdur. Hələ batalyonumuz çayın sahilinə köçürülməmişdi və mənim üçün onların həmin cəhənnəmdən sağ-salamat keçməyi ən mühüm məsələ idi.

Qərargaha daxil olanda briqada komandirinin toz-torpağa batan yorğun siması bir az açıldı. Ondan və neçə rabitəçidən başqa bütün komandir və zabitlər irəli getmişdilər. Cəbhədən tez-tez xoşa gəlməyən xəbərlər verilirdi. Əbdüləlidən başqa briqadanın plan və əməliyyat üzrə canişini Həsən Türk və hərbi təlim üzrə komandiri Məcid Səmavat da şəhid olmuşdu. Komandir Möhsündən soruşdu: "Mirzəyə hər şey aydındırmı?" O da başını tərpədərək aydın olduğunu bildirdi.

Zöhr vaxtı idi. Namazlarımızı düşmən artilleriyasının atəşinə məruz qalan qərargahın səngərində qıldıq. Çapar motosikleti işə salıb məni gözləyirdi. Mehdi Kiyani son dəfə olaraq təkidlə dedi: "Sizin batalyondan başqa briqadanın bütün qüvvələri əlindən gələni edib! Vəziyyət elədir ki, Ümmül-qəsr yolunda müqavimət qırılsa, düşmən özünü Fava yetirə bilər və bu da Bihar və Bəsrə yollarında qüvvələrimizin mühasirəsi, o cümlədən, cəbhəmizin süqutu və hamımızın qətli-amı deməkdir!"[1] Onun qəriblik duyulan qürurlu sözlərini dinləyərkən özüm də batalyonumuzun

[1] "Ümmül-qəsr cəbhəsində müdafiə döyüşlərinin qızğın çağında artıq briqadamız diviziyaya çevrilmişdi. Həqiqətdə o zaman irəli yollamaq üçün ixtiyarımda olan yeganə qüvvə "Əbülfəzl" batalyonu, eləcə də döyüşün ən çətin mərhələsində Favda cəbhəyə cəlb edilən sonuncu qoşun bizim briqadamız idi. O vaxtadək yalnız Sulginin batalyonu döyüşə girməmişdi və bu da onun özünün və qüvvələrinin xüsusi qabiliyyəti ilə bağlı idi. Mirzə özü çətin meydanlarda sınanmış igid idi və hər hansı çətin işi təmənnasız üzərinə götürürdü. Hər şeyi də ölçüb-biçmədən meydana girməzdi. Ona dedim ki, döyüşün taleyi yalnız sizə bağlıdır. O da tam arxayınlıqla cavab verdi: "Biz həzrət Əbəlfəzə arxalanmışıq!" Favda gedən döyüşlər başqa məntəqələrlə tamamilə fərqlənirdi. Təhlükənin miqyasını bütün vücudumla hiss edirdim. Amma Mirzə Sulgi isə elə arxayın idi ki, onun gözünə çox kiçik görünürdü. Çünki o, əsil mənada Aşuradan qidalanırdı..." "Ənsar əl-Hüseyn" diviziyasının komandiri Mehdi Kiyani ilə müsahibədən, Tehran, 8 iyul, 2014.

üzərinə düşən vəzifənin əhəmiyyətini fikirləşirdim. O zaman komandirin briqadamızı diviziya adlandırmağına fikir vermədim. Yəni briqadamız yenilməzliyi və fədakarlığına görə diviziya rütbəsini almışdı və bu məsələdən heç kimin xəbəri yox idi. Bununla belə, hələ parçalanmayıb, döyüşü davam etdirməyə qalan yeganə mütəşəkkil qüvvə bizim batalyonumuz idi və təkbaşına Fav-Ümmül-qəsr yolunu qorumalı idi. Sözlərindən görünürdü ki, Fav cəbhəsinin taleyi birbaşa bizim batalyonun üzərinə düşür və bu isə vəzifəmizi bir az da artırırdı. Motosikletin tərkinə minərkən Möhsünün Əbu Şanikdə batalyonumuzu Həzrət Əbülfəzlə bənzətdiyi söz yadıma düşərək ürəkdən qəhərləndim. Komandirin bütün qüvvələrdən sonra bizə ümid bəsləməyi əbəs deyildi. O vaxt özümdən asılı olmayaraq İmam Hüseynin (ə) Həzrət Əbülfəzli meydana yollanarkən ona söylədiyi kəlamı yadıma düşdü: "Ey qardaşım! Sən mənim bayraqdarımsan və səndən sonra qoşunum dağılıbdır!" Özümü o həzrətlə müqayisə edərkən bir anlıq sanki yuxudan ayıldım, şeytanın şərindən Allaha pənah apardım və yerimi tanıyaraq dedim: "Sən əkinçi Əliməhəmmədin oğlu hara, Aşura ələmdarı hara! Gör, özünü kiminlə müqayisə edirsən?!"

Çapar motosikleti partlayışlardan əmələ gələn çala-çuxurların arası ilə ziqzaqvarı sürdükcə mən də başımı onun belinə söykəyərək ürəkdən belə deyirdim: "İlahi! Əgər nəfəsim bu yolda kəsiləcəksə, qoy, onda ölüm mənə qüvvələrimdən sonra qismət olsun!" Bunları dedikcə, az qalırdı ürəyim qəhərdən partlasın. Bu fikir məni özünə elə qərq etmişdi ki, ardıcıl olaraq ətrafımızda baş verən partlayışlardan tamam qafil idim. Qabaqcadan məntəqənin coğrafi mövqeyi ilə bir qədər tanış olmuşdum. Məndən əvvəl yollanan bütün batalyon komandirləri isə ilkin tanışlıq olmadan həmin yolu[1] düşmənə yaxınlaşanadək qət etmişdilər. Hansı ki, cəbhə xəttini Favın 15 km-liyindən keçən Ümmül-qəsr asfalt yolu təşkil edirdi. Belə baxanda bizim qüvvələrimiz düşmənin saysız-hesabsız tank və təchizatı müqabilində canlı divara bənzəyirdi.

Ümmül-qəsr yolu göz işlədikcə İran körfəzi boyunca uzanıb gedirdi. Onun sol tərəfini körfəzin suları, sağ tərəfini isə bataqlıqlar və şor su hövzələri təşkil edirdi. Əvvəlki batalyonların döyüş təcrübələri əsasında komandirlər belə nəticəyə gəlmişdilər ki, düşmənlə birbaşa üzbəüz döyüşmək üçün qüvvələri üç dəstəyə ayırıb, birini ön xətdə,

[1] Fav şəhərinin 15 km-liyindəki Ümmül-qəsr yolu cəbhəsi.

ikincini ondan 500 metr arxada yolboyu və üçüncünü isə daha arxada fəth olunmuş səngərlərdə yerləşdirmək lazımdır.

Döyüş qızışdıqca asfalt yol hər tərəfdən şiddətli atəşə məruz qalırdı. Qüvvələrimizin üç qismə bölünərək mövqe seçməyi nəticəsində ikinci və üçüncü dəstələr nisbətən yüngül zərbə hiss edirdilər. Bununla belə, lazım gəldikdə və ya ön xətdə tələfat üz verdikdə, dərhal arxa qüvvələr irəliləyərək onların yerini doldururdular. Təxminən 10 km getdikdən sonra birdən sıra ilə ardıcıl şəkildə baş verən partlayışlar qarşıdakı cəbhə xəttini aşkar etməyə başladı. Sanki hər partlayış küknar ağacı kimi baş qaldıraraq alovlanır və aşağı enirdi. Görünən bu qəribə ardıcıl mənzərə topların ardı kəsilməyən su və quruya endirdiyi zərbələri idi və hər biri partladıqca fəvvarə kimi qalxıb-enirdi və sönmürdü. Ön xəttə yaxınlaşdıqca yaylım atəşindən başqa tank, duşka və pulemyot atəşi də artırdı. Elə bu vaxt motosikletlə bir çapar özünü bizə yetirib dedi: "Cəbhə xəttimiz bura qədərdir!"

Fav cəbhəsində hər şey mənə qəribə gəlirdi; bombardmanların müxtəlifliyi, Ərvənd kənarı döyüşlərin forması, istehkam və səngərsiz savaşlar və sairin hamısı mənə təzə idi. Batalyonumuz burada cəbhə xəttini "Məhəmməd rəsulullah-27"

diviziyasından təhvil almalı idi. Düşmənin ardı kəsilməyən atəşi heç bir halda ekskavator və buldozerin irəliləməyinə imkan vermirdi. Odur ki, bura gələn qüvvələr çarəsiz qalıb, yolun kənarı boyu su və bataqlığa yetişməyən nahiyələrdə qum kisələri ilə səngər hazırlamalı olurdular. Döyüşlərin qızğın çağında təsadüfən gözüm kəşfiyyat-əməliyyat qrupunun komandiri Əli Çitsaziana düşdü. O, "Müslim bin Əqil" batalyonundan qalan bir qədər qüvvənin arasında oturmuşdu və hərdən ayağa qalxaraq düşmənə sarı atəş açırdı. Onun burada olmağı vəziyyətin ən həssas yerə çatdığını göstərirdi. Doğrudan da cəsarətdə onun misli yox idi. Onun gözü mənə, mənim də gözüm briqadanın əməliyyat-plan üzrə canişini Həsən Türkün cansız cəsədinə düşdü. Əli dedi: "Mirzə, uğur olsun!" Soruşdum: "Həsən nə vaxt şəhid olub?" Dedi: "Gecə snayper gülləsinin qurbanı oldu!" Alnından üz-gözünə yayılan qanı hələ də yaş və təzə idi. Onun aram siması məni bir anlıq birgə keçirdiyimiz xatirələrə qərq etdi. Kənarında başqa neçə şəhid də uzanmışdı. Cəsədləri geri göndərmək üçün hökmən havanın qaralmağını gözləməli idik. Hələ ön cəbhədən irəlidə də şəhid olanların sayı az deyildi və hərəsi yolun bir kənarına sərilmişdi. Bu onu göstərirdi ki, neçə gün ərzində bura gələn qüvvə və

batalyonların başına nələr gəlib. Ön cəbhədən bir qədər irəlidə artıq düşmənin pusqu səngərləri və yolun sağ tərəfində əsas piyada qoşunların sığındığı betondan tikilən zastavada yerləşirdi. Hələ də "Əli Əkbər" batalyonundan şəhid olan qüvvələrin cəsədləri zastavanın yaxınlığında yerdə qalmışdı. Əlidən soruşdum: "İraqlılar yalnız qarşıdanmı hücuma keçirlər?" Dedi: "Məgər başqa yolları var?" Dedim: "Onda körfəzdən qayıqlarla gəlib, çox rahat arxadan yolumuzu bağlaya bilərlər ki!" O da gülərək belə dedi: "İndiyə qədər belə qələt etməyiblər. Deyəsən, unutmusan ki, onlar yalnız artilleriyanın gücü və zirehli təchizata arxalanırlar!" Bir daha soruşdum: "Burada yolun sağ-solu başdan-başa su və bataqlıqdır, tanklar necə manevr edə bilir?" Dedi: "Ötən neçə gün ərzində tankları yalnız yolun ortası ilə iki-iki bir qədər irəli gəlib, mərmilərini atandan sonra geri qayıdırdı." Elə orada qərara gəldim ki, qüvvələrim mənə qoşulandan sonra tankların şikarı üçün xüsusi dəstəni irəli göndərməkdən başqa çarə yoxdur. Briqada komandirinə də xəbər göndərdim ki, torpaq sipər hazırlamaq üçün hökmən buldozer yollasın və onsuz cəbhəni qorumaq mümkün deyil. Onu arxayın etdim ki, buldozer gələndən sonra bütün gücümüzü işə salacağıq.

Axşamüstü xəbər gəldi ki, batalyonum Əbu Şanikdən yola düşüb və Ərvəndi keçərək Fava çatıb. Xəbər sevindirici olsa da onların ardınca buldozerin göndərilməsi daha mühüm idi. Batalyonla Rza Zərgəri də gəlirdi. Ratsiya ilə onunla əlaqə saxlayaraq dedim ki, Müttəlib Qeysərinin dəstəsini (üçüncü dəstə) ehtiyat qüvvə olaraq Ümmül-qəsr yolunun başlanğıcında və Hüseyn Kiyaninin dəstəsini isə cəbhə xəttindən 500 metr arxada yerləşdirəndən sonra Mehdi Zəfərinin dəstəsini xüsusi qrupla birgə irəli göndərsin.

Hələ gün batmamış Rza Zərgəri Mehdinin dəstəsi ilə özünü ön xəttə yetirdi. Onların gəlişi düşmən müşahidəçilərinin gözündən yayınmamışdı. Odur ki, ilk zamandan səngərlərdə düşmənin ağır atəşinə məruz qaldıq. Qüvvələrimiz yolboyu bombardmana məruz qalsalar da, sağ-salamat döyüş meydanına gəlib çatdılar. Bu müvəffəqiyyət ilahi yardımın nişanələrindən idi. Qeyd edilən ağır çətin vəziyyətdə heç bir tələfatın olmaması göstərirdi ki, bəri başdan Allahın rəhməti bizimlədir.[1]

---

[1] Mehdi Zəfərinin dəstəsindən Rza Qiyasi ilahi yardımlar barədə bir hadisəni belə nəql edir: "Fafdan Ümmül-qəsrə tərəf yola düşərkən düşmən bizi topxanası ilə qarşıladı. Müəyyən maneələri qaçaraq sovuşarkən birdən bir qırıcı təyyarə bizə sarı şığıdı və düz dəstənin ortasına raket atdı. Hamımız yerə sərilərək, hadisəni

"Müslim bin Əqil" batalyonunun qalan qüvvələri geri qayıdandan sonra cəbhə xətti bizimlə kəşfiyyat-əməliyyat qrupunun ixtiyarına keçdi. Burada neçə müşahidəçi və cüzi təchizatdan ibarət artilleriyamız vardı və hərdən qarşıya sarı top və minomyotdan atılan atəşlər düşmənin ağır korpusu müqabilində heç nə idi. Biz bu kimi qeyri-bərabərliyə adət etmişdik. Yeganə ümidim buldozerə idi və o vaxtadək hələ də gəlib çıxmamışdı.

Birinci gecə düşmənin hərəkət və taktikasına bələd olmaq üçün bir an da olsa durbini gözümdən ayırmadım. Gecə yarısınadək qüvvələrin yerdəyişmələri təbii idi. Axır, onu Rzaya verərək dedim ki, bir saatdan sonra məni oyatsın.[1] Elə oradaca yerə uzandım. Fikirlərə dalarkən yadıma diviziya komandirinin sözləri düşdü: "Əgər arxa cəbhədə kimsə arxayın dincini almaq istəyirsə, hökmən "Əbülfəzl" batalyonunun sayıqlığına bel

---

gözlədik. Raket neçə metrliyimizdəki palçıqlığa düşdü və partlamadı..."

[1] Rza Qiyasi deyir: "Mirzə heç vaxt yorulmaq bilməzdi və yuxunun düşməni idi. Həmin gecə bir gözü salamat olan durbini mənə verərək dedi ki, mən bir saat yatınca gözün düşməndən yayınmasın. Yazıq o bir saatı da yata bilmədi və durbini yenidən əlinə aldı."

bağlayıb!"[1] Yerimdən qalxıb durbini əlimə aldım. Doğrusu, ürəyimə gələn təşviş əbəs deyildi. Gördüm ki, iraqlılar yolun iki tərəfindən əyilə-əyilə bizə tərəf irəliləyirlər. Rzaya dedim: "Düşmən yaxınlaşır! Qüvvələrə de ki, hazır olsunlar. Bir anın içində hamı hərəkətə gəldi və mürgüləyənlər belə yerindən qalxıb, əllərində pulemyot və qumbaraatanlarla asfaltın qıraq-bucağında mövqe seçdilər. Bundan qabaq Əli Çitsazian neçə dəfə buna oxşar əks-hücumların şahidi olmuşdu. Odur ki, dedi: "Hamıya tapşırın ki, nişan almaq üçün əlverişli fürsət yaranmayınca atəş açmasınlar!" Cəbhəmizin eni o qədər də deyildi ki, qeyd edilən əmr kiminsə qulağına çatmasın. Bütün barmaqlar tətiyə dirənmişdi və düşmən də zülmət qaranlıqda arxayın-arxayın bizə tərəf yaxınlaşırdı. Gəlib əlli metrliyimizə çatdıqları zaman açılan birinci atəşlə

[1] "O zaman ön cəbhədə tez-tez hücum və əks-hücumlar baş verirdi. Qoşunun bütün komandirlərini irəli yollamışdım. Hicazi, Əli Çitsazian, Həsən Türk və Mirzə Sulgi kimi komandirlərin rolu böyük əhəmiyyət daşıyırdı. Ratsiya ardından hər birinin şəhadət xəbərini eşidərkən Allah bilir ki, o vaxtadək zərrə qədər sarsılmayan Sulgiyə ürək bağlamışdım. Hətta vəziyyət o yerə çatdı ki, sepahın baş komandiri neçə dəfə onunla rabitəyə girərək vəziyyəti götür-qoy etməli oldu." "Ənsar əl-Hüseyn-32" diviziyasının komandiri Mehdi Kiyani ilə müsahibədən, Tehran, 8 iyul, 2014.

hamımız eyni vaxtda onları amansız güllələbarana məruz qoyduq. Başlarına elə bəla gətirdik ki, irəli gəlib qırılmaqdan, ya yerə sərilib tərpənməməkdən, ya da geri çəkilməkdən başqa çarələri qalmadı. Qısası, bir dəstə piyada qoşundan yalnız yarısı sağ və ya yaralı halda aradan çıxa bildi, qalanları isə qırıldılar. Bundan sonra gecənin yarısı "Allahu əkbər" sədaları göyə ucaldı. Hələ silahlarımızın lüləsi soyumamış və havadan barıt iyi çəkilməmiş arxadan yavaş-yavaş buldozerin də səsi eşidilməyə başladı. O zaman buldozerin gəlməyi bizim üçün düşmənin əks-hücumunun dəfindən daha əhəmiyyətli idi. Eşitdiyimə görə, bundan qabaq diviziyanın mühəndis qrupu tərəfindən torpaq sipərin hazırlığı ilə bağlı təşəbbüs olsa da, düşmənin birbaşa atəşi ilə əlaqədar indiyədək nəticəsiz qalmışdı. Qaranlığın sayəsində sipər hazırlamaq üçün gün çıxanadək cəmi iki saat vaxt vardı. Belə vəziyyətdə buldozer bizim üçün bir tapıntı idi və sipər hazır olandan sonra tam arxayın halda döyüşü davam etdirə bilərdik. Məsələnin əhəmiyyətini və düşmənin qəfil zərbə ehtimalını nəzərə alaraq xüsusi dəstədən altı nəfəri irəli yolladım. Onlar iraqlıların qırıldığı yerədək irəliləyib, orada mövqe seçdilər, eləcə də bütün qumbaraatançı və pulemyotçular cəbhə xətti üzrə hazır vəziyyətdə dayandılar.

Buldozerin şoferinə vəziyyət aydın deyildi. Çünki yolun iki tərəfi su və bataqlıq olduğundan sipər üçün torpaq yox idi. Bununla belə, şofer asudəliklə çalovun caynağını yolun canına saldı və asfaltları qat-qat qopardaraq bir-birinin üstünə yığıb torpağa çatdı. Çox keçməmiş düşmən səmtindən ilkin atəşlər buldozerə tərəf yönəldi. Şofer heç nəyə əhəmiyyət vermədən işi ilə məşğul idi. Bizimkilər də qarşı tərəfi atəşə tutarkən ona işini rahat görmək üçün ara-sıra fürsət yaranırdı. Sipərin əhəmiyyəti bizim qədər düşmənə də mühüm olduğundan atəşin ardı-arası kəsilmirdi. Bu iki saat bizə sanki iki sutkaya bərabər oldu. Əvəzində cəsur şofer bizim üçün əlindən gələni etdi. Belə ki, hündürlüyü iki-üç metr və uzunluğu isə on iki metrə çatan ovalvarı bir sipər öndə, həmin ölçüdə birini də (arxaya düşən mərmilərin qəlpələrindən qorunmaq üçün) on beş metr arxada hazırladı. Sipərin arxasında qıldığımız sübh namazı bizim şükür namazımız da sayılırdı.

Səhər düşmənin vertolyot və tankları hərəkətə gəlincə şofer buldozeri sürüb geri qayıtdı.[1] Hələ ötən günün və gecənin yorğunluğu canımızdan çıxmamış havanın açılması ilə düşmən tankları hərəkətə gəldi.

[1] Əli Əşrəf Məzahiri (buldozerin şoferi) neçə gündən sonra yenidən ön cəbhəyə qayıdıb, şəhid olan döyüş yoldaşının cənazəsini geri aparmaq istəyərkən özü də şəhid oldu.

Onlarla aramızdakı məsafəni yolun kənarındakı elektrik dirəkləri ilə hesablayırdıq. Hər biri digərindən 90 m aralı olan dirəklərdən altısını rahat görə bilirdik. Bizimlə düşmən zastavası arasında təxminən beş dirək məsafə vardı və piyada qüvvələri orada yerləşirdi. Tankları isə sağ-solla hərəkət mümkün olmadığı üçün yalnız yolun ortası ilə irəliləyə bilirdi. Odur ki, hər dəfə bir neçəsi irəli gəlib atəş açandan sonra geri qayıdırdı. Bizimkilər də sipərin ardından fürsət düşən kimi bir-bir onları sıradan çıxarırdı. Hansı biri sıradan çıxırdısa, növbəti tank onu kənara diyirlədib, atəş açır və biz də cavabını verirdik. Eyni vəziyyət səhər saat 10-dək davam etdi və düşmən tanklarından heç biri dördüncü dirəkdən bu tərəfə keçə bilmədi.

Günortaya bir az qalmış top və raket atan helikopterlər işimizi çətinləşdirdi. Tankların qarşısında sipərimiz yaxşı müdafiə sütunu sayılsa da, helikopterlərin atəşindən qorunmaq üçün yararlı deyildi. İxtiyarımızda olan dörd ədəd duşka ilə onların başımız üzərində istənilən manevr etməyinə imkan verməməyə çalışırdıq. Hər halda onların uzaqdan endirdiyi zərbələr nəticəsində neçə yaralı və şəhid verdik. Düşmənin yerdən və göydən endirilən atəşi qarşısında müqavimətlə yanaşı, hər bir döyüşçü kisələri torpaqla doldurub, sipəri bərpa

etməli idi. Onlara azuqə və sudan daha çox sipərin bərpası əhəmiyyət daşıyırdı.

Gün batandan sonra neçə maşın silah, səngər üçün kisə, su və konservlənmiş azuqə gəldi. O vaxtadək otuza yaxın yaralı və şəhidimiz vardı ki, maşınlarla geri göndərildi. Demək olar, hamını tanıyırdım və hər biri ilə xatirələrimiz vardı. Batalyonun birinci şəhidi Əli Əlimuradın şəhadəti isə fikrimdən çıxmırdı. O, sipərin arxasından qalxıb, qumbaraatanla atəş açarkən alnına dəyən güllə nəticəsində qanına qəltan oldu. Tələsik başı üzərinə gedərkən yadıma düşdü ki, batalyondan birinci şəhid olmaq onun arzusu idi. Bu gecə ötən gecələrlə müqayisədə düşmən tərəfdən əks-hücum müşahidə olunmadı və onlar yalnız yaylım atəşi ilə kifayətləndilər. Bununla əlimizə yaxşı fürsət düşdü və kisələri doldurub, sipərin ardına yığdıq ki, tankın ağır zərbələrinə davam gətirə bilsin.

Sübh namazı vaxtı qüvvələrə tapşırdım ki, düşməndən qafil olmamaq üçün hava açılanadək növbə ilə namaz qılsınlar. Yer ağarandan sonra yenidən dünənki taktika təkrar oldu. Belə ki, əvvəl səngərlərimizə sarı ağır atəş açıldı və ardınca da zirehli nəqliyyatla piyada qoşunları irəliləməyə başladı. Tankların qabaqda, piyada qüvvələrin də ardınca hərəkəti üzrə döyüş taktikası düşmənin

əksər əks-hücumlardakı oxşar metodu idi. Həmişə öndəki tankın vurulması ilə arxasındakı piyada qüvvələrin qarışqa kimi o tərəf-bu tərəfə qaçmasının şahidi olurduq. Qarşımızda vuruşan İraqın 5-ci zirehli diviziyası idi. Onlar hər uğursuz hücumdan sonra qüvvələri yenisi ilə əvəz edirdilərsə, bizim cəbhədə döyüşçülər yalnız yaralanma və şəhadətlə geri dönürdülər. Yaralı və ya şəhidləri geri yollayandan sonra ratsiya ilə komandirə deyirdim ki, onların yerinə qüvvə göndərsin. Təxminən on üç gün idi ki, bu cəbhədə ardıcıl olaraq eyni vəziyyət hökm sürürdü.

İkinci gün növbəti əks-hücum düz günorta çağı günəş başımızın üstündə dayanarkən başladı. O zaman qüvvələrimiz yuxusuz və yorğun halda səngərin qıraq-bucağında uzanmışdılar və təkcə neçə nəfər müşahidəçi yola nəzarət edirdi. Birdən sürətlə neçə BMP səngərlərimizə tərəf şütüdü və qüvvələrimiz mövqe seçincə axırıncı dirəkdən də ötüb keçdi. Onlar əlli metrliyimizə çatanda atəş açıldı və çoxları elə bildi ki, gündəlik baş verən adi vəziyyətdir. Batalyonumuza könüllü qoşulan Məsud adlı bir müəllim vardı. Onun vurğunu idim və o da mənə böyük məhəbbət bəsləyirdi. Hamı kimi mən də sipərin arxasında uzanmışdım. Birdən qışqırdı: "Mirzə, düşmən neçə addımlığımızdadır!" Cəld

ayağa qalxıb qarşıya nəzər saldım. Durbinə ehtiyac yox idi və hər şey aydın görünürdü. Maşınlardan hündür qamətli desant qüvvələri yerə enirdilər. Uşaqlar qumbaraatanları işə salınca onlar sürətlə sipərin üzərindən başımızın üstünü kəsdilər. Bir anlıq bir-birimizə qarışdıq və aləm bir-birinə dəydi. Əlbəyaxa döyüşdən tutmuş qumbara, xırda silah və sairə ilə gərgin savaş başladı. Döyüş zamanı gördüm ki, biri həmin müəllimlə əlbəyaxa olub. Onlar bir qədər çarpışandan sonra müəllim əlindən yaralansa da böyük cəsarətlə onun işini bitirdi.[1] Onun kimi hamı canla-başla döyüşürdü. Çitsazianın əlindən qrinov yerə düşmürdü və mən də dalbadal qumbaraatanla mərmi atırdım. Qüvvələrimizi ruhlandırmaq üçün ucadan imam Hüseynin (ə) məşhur kəlamını deyirdim: "Əgər Peyğəmbərin dini yalnız mənim qətlimlə bərpa olacaqsa, onda ey qılınclar, gəlin məni yaxalayın!" Gərgin döyüş və atışmaya baxmayaraq səsim hamının qulağına çatırdı. Neçə dəqiqədən sonra bir qismi əllərini qaldıraraq təslim oldusa, əksəri döyüşə-döyüşə geri çəkilməyə başladı. Həmin əsnada biri sipərin o tərəfində çaş-baş qalmışdı və bilmirdi təslim olsun, yoxsa geri qayıtsın. Bir anın içində sipərin o tərəfinə

[1] Məsud Derəxşan Ümmül-qəsr yolu cəbhəsindəki axırıncı əks-hücumda şəhid oldu.

atılıb qarşısını kəsdim. Silahsız idi. Əlindən tutub sipərin bu tərəfinə gətirdim. Yazıq qorxudan tir-tir əsirdi, qarabuğdayı sifəti tər tökürdü. Ürəyim yandı və üzündən öpərək dedim: "Əxi, ənə muslim!"[1] Sakitləşəndən sonra çəkilib bir kənarda oturdu. Yerdən sipərin üzərinə qalxdım. Gördüm ki, uzaqdan neçə tank öz döyüşçülərinin cəsədləri üzərindən keçərək bizə tərəf yaxınlaşır. Görünürdü, hər yolla olursa olsun, işi qürubadək bitirmək istəyirdilər. Onların ardınca çoxlu sayda piyada qoşun gəlirdi. Tez qüvvələrimdən İbrahimlə Rzaya dedim ki, sipərdən irəli gedib, münasib yerdə pusquda dursunlar. Onlar özləri ilə on beş mərmi götürüb irəli getdilər və münasib bir yerdə irəli gələn ilk tankı sıradan çıxardılar. Həmin atışmada Rza şəhid oldu və İbrahim də hər iki qulağından qan süzülərək yaralı halda geri qayıtdı.[2] Ətrafımda yaralı və şəhidlərdən tərpənməyə yer yox idi. Yaralıların çoxu da ağır yaralandığından zarıyırdılar. Elə vəziyyətdə dava-dərman və yardıma fürsət yox idi və hamı, o cümlədən, müavinim Rza Zərgəri və dəstə komandiri Mehdi Zəfəri dayanmadan döyüşür və mərmi atırdılar. Rza ayağına çəkmə yerinə çəkələk keçirmişdi. Bu işi bəlkə də qüvvələri

[1] "Qardaş, mən də müsəlmanam!"

[2] İbrahim də "Kərbəla-5" əməliyyatında şəhid oldu.

ruhlandırmaq məqsədilə edirdi. Tam arxayın idim ki, başıma bir iş gəlsə, batalyonun üzərində onun kimi cəsur komandir var. Zəfəri də o vaxtadək o qədər mərmi atmışdı ki, artıq qulaqları heç nə eşitmirdi. İkinci gün birinci tank elə onun məharəti ilə məhv oldu. Gözüm irəlidə, ürəyim şəhidlərin yanında, qulağım isə yaralıların ah-naləsində idi. Yenidən həzrət Əbülfəzlə sığınaraq ondan imdad dilədim. O əsnada onun qeyrət doğuran kəlamından başqa bir şey tapmadım. Çünki düşmən yenə əks-hücuma hazırlaşırdı. Odur ki, sipərin arxasından ucadan dedim: "Vallahi in qətə`tumu yəmini, inni uhami əbədən ən dini!"[1] Bunları üzümü düşmənə tərəf tutaraq deyirdim və Allah şahid idi ki, sidq ürəkdən coşan qüvvəmi izhar edirdim. Birdən cəbhəmiz cuşa gəldi və hamı göz yaşları içində sözümü təkrarlamağa başladı. O gün həzrət Əbülfəzlə sığınmaqla hər addımında ən əziz silahdaşlarımızın qanı tökülən cəbhəmizdən bir qarışı belə düşmənin əlinə keçmədi. Nəhayət, ikinci gün 400-ə yaxın İraq qoşunu 40 nəfər əsir, bəs qədər yaralı və yolboyu da nə qədər itki verəndən sonra kor-peşman geri qayıtdı.

[1] "Allaha and olsun, qollarımı qırsanız belə heç vaxt dinimin müdafiəsindən geri çəkilməyəcəyəm!"

Üçüncü günə keçən gecə xüsusi bir hadisə baş vermədi. Bəlkə də onlar bizdən çox yorulmuşdular, yaxud yeni hücumlara hazırlaşırdılar. Amma səhər açılandan sonra bizim ön cəbhəmizdən tutmuş arxa və üçüncü ehtiyat dəstəsinədək uzanan ərazi düşmənin təyyarə, helikopter, raket, tank, top və s. güclü zərbəsinə məruz qaldı və hər yer cəhənnəmə çevrildi. Gözümüzün qabağında hər yer torpaq sahəsi kimi şumlanırdı və yolun heç bir yerində pənah seçməyə salamat yer yox idi. Ön, orta və arxa dəstə arasında get-gəl mümkün deyildi və heç birindən o birisinə salamat gedib çıxmaq olmurdu. Elə vəziyyətdə əl-qolumuz bağlı idi və istəyirdik ki, ötən günlərdəki kimi piyada qoşunla qarşı-qarşıya duraq. Düşməndən əsər-əlamət olmadığı halda hər tərəfdən başımıza bomba yağırdı və hər an dostlarımdan biri gözümün qabağında qanına qəltan olurdu. Belə çətin vəziyyətdə ustad Murad yenə qabaqkı əməliyyatlardakı kimi canfəşanlıq göstərir, birinə su verir, o birinə silah daşıyır və əlindən gələni edirdi. Siması atamı xatırladırdı, elə ikisi də həmyaşıd idi və həm də yaxın rabitələri olmuşdu. Hərdən söhbət düşəndə atamla birgə keçən xatirələrindən söz açar, həmişə deyərdi: "Şeyx Əliməmməd oğlu! Allah atana rəhmət eləsin, yaxşı kişi idi!" Hamının ona böyük hörməti vardı.

Döyüşün qızğın çağında Allahyar adlı bir kənd uşağı yaxınlaşıb, bir kağız parçası verdi. Soruşdum: "Bu nədir?" Dedi: "Bu ustadın öz əlilə yazdığı Ayətəl-kürsüdür. Ustad dedi ki, bunu sizə verim. Bəlalardan qorunmaq üçün onu özünüzdə saxlayın."[1]

Bir dəfə ustad od-alovun içində özünü cəbhəyə yetirərkən zarafatla dedim: "Ustad Murad, nə qədər bu yolu ölçəcəksən? Yol da sənin əlindən yorulub! Əyləş, bir az Quran oxu." Dedi: "Yasin surəsi Quranın qəlbidir. Onu oxuyarkən insanın ürəyi rahatlaşır." Sözünü deyəndən sonra uca səslə Yasin surəsini oxumağa başladı. Oxuya-oxuya yenidən su və silah gətirmək üçün yollandı. Neçə dəqiqədən sonra bir-iki nəfərlə geri qayıdarkən sipərin yuxarısından ona göz qoyurdum. Hələ də dodaqları tərpənir və Quran oxuyurdu. Su kanistrləri və sursat yeşiyini yerə qoyarkən düz onların arasına minomyot mərmisi düşdü və hərəsi bir tərəfə yıxıldı. Dərhal özümü onların başı üzərinə yetirdim. Biri can üstə şəhadət kəlməsini deyirdi və qalan üç nəfəri isə yerindəcə şəhid olmuşdu. Onlardan biri də ustadın

[1] Allahyar Favda şəhid oldu. Ümmül-qəsr cəbhəsində axırıncı müqavimət günü sinəmə qəlpə dəyəndə, Ayətəl-kürsü də deşilərək qana boyandı. Hər dəfə Ayətəl-kürsünü oxuyanda həmin hadisə yadıma düşür.

özü idi və al-qana boyanan başının bir hissəsini qəlpə üzüb aparmışdı.[1]

***

On günə yaxın idi ki, eyni cəbhədə eyni vəziyyətdə müqavimət göstərirdik. Nə düşmən yorulub geri çəkilir, nə də biz əldən düşürdük. Bu on gün ərzində heç kim doyunca yata bilməmişdi. Əbədi yuxuya gedənlər isə yalnız şəhidlər idi. Bizim 400 nəfərlik batalyondan cəmi 80 nəfər sağ qalmışdı. Hər dəfə ön cəbhədə birinci dəstədən itki verdikcə arxadakı iki dəstədən bizə qoşulurdular və beləcə, üç dəstədən əli silah tutub döyüşə bilənlərin sayı o qədər idi. Yəni üç dəstəmiz bir dəstəni təşkil edirdi və əksəri ya şəhid olmuşdu, ya da yaralanmışdı. Hələ də bizə qoşulmağa qüvvə yox idi və ratsiya ilə xəbər verirdilər ki, növbəti batalyon neçə gündən sonra yerimizi əvəz edəcək. Qüvvə çatışmazlığına görə yüngül yaralananlar elə o vəziyyətdə vuruşaraq cəbhəni tərk etmirdilər. Əlbəttə, bəzilərində döyüşü

[1] Durbinlə qabağa nəzər salırdım. Saat təxminən 11 radələri idi. Gördüm, ustad Murad dörd nəfərlə su və sursat gətirir. Onları gətirib, yerə qoyarkən aralarında minomyot mərmisi partladı. Ona böyük məhəbbətim vardı və uşaqların mənəvi atası sayılırdı. O, Yasin surəsini oxuyaraq qanına qəltan oldu. Onun başından ayrılan tikəni əlimə götürüb dedim: İlahi, bu sənin kəlamını əzbər edən şəxsin başının parasıdır! Bundan sonra həmin tikəni elə orada dəfn elədim.

davam etdirməyə aman qalmamışdı. Odur ki, güləş ustası Hüseyn Xişvənd yaxınlaşıb dedi: "Bəzilərinin müqavimət göstərməyə taqəti yoxdur. Yaxşı olar ki, onları ruhlandıran bir moizə və söhbətə başlayasan." Odur ki, onuncu günün səhəri sipərin arxasında ətrafıma toplaşan qüvvələrimə üz tutaraq dedim: "Bu gün və eləcə də bu anlar ömrümüz boyu həsrətlə arzuladığımız günlərdir və ona çatmaq üçün gecə-gündüz "Kaş, biz də o zaman sizin kənarınızda olardıq!"[1] – demişik. Bir ömür həzrət Fatimə üçün göz yaşı axıtmışıq! Yaddan çıxarmamalıyıq ki, batalyonumuz kimin adını daşıyır! O, bu yolda bütün vücudunu oxlara sipər etdi, qolları bir-bir qırıldı, əmud alnını yaraladı! Bununla belə, su məşkini dişlərinə alıb, onu xeymələrə çatdırmaq istədi! Ey Hüseynin silahdaşları, bu gün ona yardım zamanıdır! Əgər meydanda ayağımız büdrəsə, düşmən Favı zəbt edərək şəhidlərimizin üzərindən atla yox, tankla keçib, onları tikə-tikə edəcək!..." Mənim qısa söhbətimdən sonra Hüseyn təkidlə xahiş etdi ki, neçə nəfərlə birgə irəlidəki pusqu yerinə yollansın.[2]

---

[1] "Aşura" ziyarətnaməsindən bir parça.

[2] "Mirzənin alovlu söhbətindən sonra Hüseyn yeddi nəfəri seçərək onlara dedi: "Gəlin həzrət Əbülfəzlin hörməti naminə burada əlimiz silah tutanadək su içməyək!" Sudan imtina hərəkəti

Hər birinin üzündən şəhadət ruhu hiss olunurdu və dünyaya zərrə qədər bağlı deyildilər. Ora sağ gedib, şəhid olmamış və ya yaralanmamış geri dönmək mümkün deyildi. Bununla belə, israrla tələb edirdilər ki, irəli getsinlər. Əslində, onların belə təkidi yorğun qüvvələrimizin arxayınlıqla istirahəti, səngərlərin bərpası, yaralılara qulluq, yemək-içmək və ibadət üçün idi. Hüseynin sarsılmaz imanı və möhkəm iradəsinə zərrə qədər şübhə etmirdim. Bununla belə, nə qədər zəruri olsa da, pusqu yerindəki çətin vəziyyəti ona xatırlamaq üçün dedim: "Özün tək yola düş və bundan qabaq ora gedənlər barədə bizə qəti xəbər gətir!" Axırıncı dəfə pusqu yerinə gedib qayıtmayanlar Nəhavəndin Zəramin kəndindən Rza ilə Türkaşvənd idi.[1] Hüseyn

---

Hüseyndən başlayaraq başqa qüvvələrə də keçdi. Həmin yeddi nəfərdən üçü növbəti günlərdə şəhid oldu. Hüseyn Mirzənin lap müridinə çevrilmişdi. Daha sonra Mirzədən israrla xahiş etdi ki, neçə nəfərlə pusqu yerinə getsin. Sayımız az olduğundan Mirzə onu tək yolladı. Amma geri qayıdıb, ayağını sipərdən daxilə qoyarkən həmişəlik yıxıldı." Rza Qiyasi ilə müsahibədən, Həmədan, 29 dekabr, 2013.

[1] Müharibə illərində təkcə Zəramin kəndindən 350 nəfərə yaxın adam cəbhələrdə iştirak etmiş və 30 nəfərdən çoxu şəhid olmuşdur. Bəzi cəbhələrdə bütün kəndin cavanları eyni vaxtda birgə vuruşurdular. Onların komandiri Müttəlib Qeysəri zarafatla deyərdi: "Favda bütün küfr ünsürləri birbaşa zəraminlilərlə üz-üzə dayanıb!"

hətta bir kəlmə belə kəsmədən əlinə avtomat alıb yola düşdü. Arxadan gözümü ondan çəkmirdim. O qədər irəli getdi ki, hətta üçüncü dirəyə gedib çatdı. İstər-istəməz içimdə peşmanlıq hissi keçirdim. Məlum idi ki, təkbaşına əlindən heç bir iş gəlməzdi. Özü də salamat deyildi və qabaqkı əməliyyatlardan indiyədək on bir dəfə yaralanmışdı. Uzağı, özü ilə yalnız bir nəfərin cəsədini gətirə bilərdi, ya da şəhid olaraq onlara qovuşardı.

Haçandan-haçana qüvvələrimizə dedim ki, bir anlıq atəşdən əl saxlasınlar. Neçə dəqiqə nigaran və iztirab içində Hüseynin yolunu gözlədik. Nagahan, sipərin yuxarısından bu tərəfə aşaraq dedi: "Mirzə, şəhidlərin heç birinin cəsədini müəyyən etmək olmur! Bir-iki nəfər deyil, həm də düşmənin atəşi altında geri gətirmək qeyri-mümkündür!..." Yazığın sözü ağzında yarımçıq qaldı və həmin anda bir mərmi sipərin yuxarısına düşüb partlayarkən başına dəyən qəlpə ömrünə son qoydu.[1] Belə qəfil minomyot mərmisinin partlayışı neçə gün ərzində

[1] "Mən Hüseynin ən yaxın dostu idim. Qabaqcadan bir-birimizdən şəfaət vədəsi almışdıq. Bilirdim ki, çox qalan deyil. İndiyədək dəfələrlə yaralanmışdı və bədənində on bir güllə yarası vardı. Sipərdən bu tərəfə aşıb, Mirzə ilə danışarkən başına dəyən kiçik bir qəlpənin qurbanı oldu." Əli Şahbazi ilə müsahibədən, Həmədan, 27 oktyabr, 2013.

adət etdiyimiz ağır atəşin başlandığını göstərirdi. Deməli, ağır atəşin ardınca zirehli nəqliyyat, onların da dalınca həmişəki kimi piyada qüvvələri yola düşdü. Bu qədər şəhid verməyimizə baxmayaraq qüvvələr ruhdan düşmürdü və yerə yıxılan hər bir şəhidlə damarlarda qeyrət qanı da coşurdu. Son günlərdə göndərilən neçə ədəd duşkanın sayəsində də düşmənin piyada qüvvələrinin irəliləməyə cürəti çatmırdı. Sadəcə uzaqdan atılan tankların zərbəsi nəticəsində sipərin səviyyəsi yarıya enmişdi və arxasındakı neçə laydan ibarət kisə sədd isə yerində möhkəm qalırdı. Səngərimizin üzərinə düşən mərmi tavanı uçurmuşdu və hələ üzünə tük çıxmayan batalyonun ən kiçik üzvü Rəcəbəli avarın altından qalmışdı. Onu torpaqlar altından çıxaranda qətiyyən özünü itirməmişdi. Məncə, on gün ağır döyüşdən sonra yeniyetmə bir cavanın belə yüksək ruhiyyəsini yalnız möcüzə adlandırmaq olardı. Həmin əsnada qəfildən yekəpər bir iraqlı sipəri aşaraq bu tərəfə keçdi. Tək idi və təslim olmaq üçün gəlmişdi. Hamı heyrət içində onun haradan peyda olduğuna baxırdı. Özü könüllü surətdə əsir düşdüyü üçün bizə mühüm məlumatlar verdi. Aramızdan ərəbcə bilən bir nəfər onunla bir qədər söhbət etdi. Sözlərindən belə çıxdı ki, İraq ordusu magistralı geri almaq üçün əlindən gələni əsirgəmirmişdi və hətta onların

böyük generalı Ədnan Xeyrullah özü şəxsən qüvvələrə rəhbərlik edirmiş. Elə həmin vaxt bir neçə helikopter yaxınlıqdakı zastavanın üzərində hərlənməyə başladı. Qəribə orası idi ki, heç birindən bizə sarı raket atəşi açılmırdı. Bir qədər havada fırlandıqdan sonra mikrofonla ətrafa fars dilində belə bir təklif elan edildi: "Diqqət, diqqət! Bütün İran qüvvələri bilsinlər ki, tam mühasirədədirlər! Silahı yerə qoyub təslim olun! " İstər-istəməz şəkkə düşdüm və bilmədim ki, səs arxadan gəlir, yoxsa qabaqdan. Hər halda təəccüblənməmək olmazdı. Səs hər tərəfə yayıldıqca hamının zehnində şəkk-şübhə yaranırdı. Atəş tam dayanmışdı və yalnız mikrofonların səsi eşidilirdi. Mikrofonların helikopterlərdən, yaxud başqa yerdən səsləndiyi dəqiq məlum deyildi. İraqlı əsirin sözlərindən anladım ki, bu fənd və hiylə hökmən Ədnan Xeyrullahın işidir. Odur ki, var-gücümlə çığırdım: "Allaha and olsun, bu, Şimrin həzrət Əbülfəzlə gətirdiyi amannaməsidir! Bu nifaq səsidir! Elə isə Səddamın küfr sədasını susdurun!" Helikopterlərlə aramız uzaq olduğu üçün onları qumbaraatanla vurmaq olmazdı və yalnız duşka ilə uzaqlaşdırmaq mümkün idi. Sözümdən sonra duşkalardan onlara tərəf ardıcıl atəş açıldı. Atəşin səsi mikrofonların

səsinə qarışdı və bu qarışıqlıqda helikopterlər məcbur qalıb uzaqlaşdı.

***

On birinci gün ön cəbhəni gücləndirmək üçün neçə zirehli nəqliyyat vasitəsilə yeni qüvvələr bizə qoşuldu. Əvvəlki günlərə nisbət topxanamız və təchizatımız daha ümidverici idi. Bütün bunlar ön cəbhənin möhkəmləndirilməsi məqsədilə diviziyanın komandirliyi tərəfindən həyata keçirdi. Əlbəttə, onların zəhməti sayəsində şəhadətlə muzdunu alanlar da az deyildi. Məsələn, topxananın komandiri Nasir Abdullahi, hərbi təlim komandiri Məcid Səmavati, kəşfiyyat-əməliyyat komandirinin canişini Müseyyib Məcidi və sairin hamısı həmin ərəfədə şəhadətə çatmışdılar. Uzun müddət birgə olduğum dostlardan ayrılmağın qəmi ürəyimdə ağır yükə çevrilirdi. Qoşunun bütün gücü bura sərf edilmişdi və düşmənin əlinə keçdiyi təqdirdə yerini heç nə doldura bilməzdi. Həmin fikirlərdə ikən birdən ruhani libasında iki cavan tələbə cəbhəmizə daxil oldu. Məlum idi ki, təbliğə bəlkə də bizi ruhlandırmaq üçün gəlmişdilər. Batalyonumuzun yaranan vaxtdan şeyx Əhməd adlı bir ruhanimiz vardı və təbliğat işləri ilə bərabər lazım gəldikdə

döyüşlərdə də iştirak edirdi.[1] Tələbələrdən biri (Ələsgər Məsudi) seyid, o birisi isə şeyx idi. Mənimlə salamlaşandan sonra uşaqlarla görüşməyə başladılar. Həmişə seyidlərə böyük hörmətim vardı. Onları görəndən sonra əhval-ruhiyyəm dəyişdi və elə bilirəm, mənim kimi hamıya da xoş təsir bağışladı. Tez bir zamanda döyüşçülərlə gözəl ünsiyyət yaratdılar. Bir azdan sonra seyid tələbə mənə yaxınlaşıb soruşdu: "Sulgi qardaş, niyə bunları yeni qüvvələrlə əvəz etmirsən?" Ötəri başa saldım ki, qüvvə çatışmazlığı var, indiyədək onları mənəvi ruhlandırmaqla, Aşura təfəkkür tərzi ilə qoruyub saxlamışam. Bununla belə, bəzilərinin baxışlarından burada nə vaxta qədər qalıb, bir-bir canlarını əldən verəcəklərinə dair sual doğuran hissləri də duyurdum. Təsadüfən elə həmin zaman düşmənin yaylım atəşi ilə birgə yenidən növbəti hücum başladı. Daha ona başqa bir dəlil sadalamağa ehtiyac olmadı. Sözümüz yarımçıq qaldı və dərhal səngərlər və sipərin ardında mövqe seçərək savaşa hazır olduq. Belə vəziyyətdə atışmanı görən tələbələr söhbəti kənara qoyub, döyüşçülərə qoşuldular.

Son günlərdə işimiz bir az da çətinləşmişdi. Səngər və ya sipərdən başını qaldıran kəs snayperlə

[1] Bizimki ilə birlikdə və yeni gələn iki ruhaninin başına qəribə hadisə gəldi. Belə ki, hər üçü cəbhədə bir ayağını itirdi.

aradan götürülürdü. Belə ki, düşmənin peşəkar atıcıları sıradan çıxmış tankların arxasında gizlənərək cəbhəmizə göz qoyur və ayağa qalxanın başından nişan alırdılar. Həmin gün o qədər pulemyot və qumbaraatanla atəş açmışdım ki, qulaqlarım heç nə eşitmirdi. Birdən sanki çəkiclə başıma zərbə endirildi və dəbilqəm yerə düşdü. Elə bildim ki, yanımdakı köməkçim dalğa nəticəsində gicələrək başıma daş, ya da kəsək vurub. Əsəbiləşərək ona dedim: "Zarafatın yeridirmi?!" Yazığın təqsiri yox idi və bə zərbə onun işi deyildi. Hər halda səsini eşitmirdim. Amma əli ilə başa saldı ki, mənim xəbərim yoxdur. Bu hadisəni arxadan müşahidə edənlərdən biri mənə yaxınlaşaraq ucadan dedi: "Mirzə! Allaha şükür elə ki, sağsan!" Əlimi başıma çəkərkən hiss etdim ki, həmin nahiyə yumurta boyda şişib. Bir daha mənim eşitməyim üçün ucadan qışqırdı: "Mən arxadan gördüm ki, başına snayper gülləsi dəydi!" Dəbilqəmi yerdən götürüb baxanda gördüm ki, deşilib, amma güllə başıma çatmayıb. Üzümü köməkçimə çevirib üzr istəyəndən sonra dedim: "Hələ mənim getmək vaxtım çatmayıb!"

Qüvvələr atışma zamanı növbə ilə atəş açırdılar ki, hamısı nəfəsini dərə bilsin. Ayağımızın altı güllə, patron, boşalan yeşik və s. ilə dolu idi və ayaq

qoymağa yer yox idi. Maşınlar tez-tez arxadan sursat gətirirdisə, tez bir zamanda sərf edilirdi. Canımız belə hallarda su və azuqədən çox silah-sursata bağlı idi. Belə halda hər şeyə davam gətirmək olardı, silah-sursatsız isə mümkün deyildi. Döyüşlərdə ən çox qumbaraatandan istifadə edilirdi. Odur ki, maşınlar da bizim kimi daim hərəkətdə idi. Döyüş belə davam edərkən təsadüfən bir top mərmisi düz qumbaraatan mərmi yeşiklərinin arasına düşdü. Bütün gözlər heyrət içində həmin səmtə yönəldi və barmaqlar tətiklərdə süst oldu. Rza Zərgəri cəld yerindən tərpəndi və mən də ardınca yüyürdüm. Tez əynimdəki gödəkcəni çıxarıb, alışan yeşiyin üstünə atıldım. Əlim yansa da həmin nahiyə söndü. İkimizin mərmilərin üstünə atıldığını görən uşaqlar da cürətə gəldi və mərmilər o tərəf-bu tərəfə diyirlənərkən hərə bir tərəfdən özünü yetirərək əl altda olan torpaq-qum və sairi götürüb, yanğının üzərinə atmağa başladı. Birgə səyin nəticəsində atəş söndürüldü, təhlükə aradan qaldırıldıq. Bundan sonra səngərə qayıdarkən birdən qumbaraatanın arxasından çıxan qəfil alov üz-gözümün tüklərini yandırdı. Elə bildim yanğın hələ də davam edir. Halbuki alov qarşı tərəfdən gəldi. Özümə gəlib irəli baxanda, gördüm ki, Məhəmməd Delicani məndən neçə metr irəlidə dayanaraq qumbaraatana ikinci

mərmini yükləyir. Ayağa qalxıb, tətiyi çəkərkən snayper gülləsinə məruz qaldı və gözümün qabağında şəhid oldu...

Günorta saat üçün yarısı idi. Hələ namazımızı qılmamışdıq. Çalışırdım ki, hətta döyüş zamanı belə namazı hər bir halda – oturan vəziyyətdə, təyəmmümlə və s. vaxtında qılım. Batalyonun əksər üzvləri də mənim kimi namaza əhəmiyyət verirdilər. Həmişə söhbətlərimdə İmam Hüseynin (ə) Aşura günü günorta vaxtı qıldığı namaza toxunar və deyərdim ki, ümumiyyətlə, Allah yolunda mübarizə və cihad namazın təşkili, əmr be mərufun yerinə yetirilməsi üçündür. Əlbəttə, cəbhəmizdə atəş fürsət verən anlarda al-qan içində gecə namazını tərk etməyən könüllülər vardı. Təyəmmüm etmək üçün yanmış əllərimi torpağa vurarkən gördüm ki, Mehdi Zəfəri ilə birgə neçə nəfər sipəri aşıb irəli getdilər. Dəstə komandiri olan Mehdi çox səbirli və təmkinli şəxs idi və hər bir halda öz vəzifəsini yaxşı bilirdi. Başında həmişə sepahın yaşıl rəngli papağı olardı. Ona zarafatla deyərdim: "Bu papaqla lap aşpazlara oxşayırsan!" O, əlindəki qumbaraatanla tankları nişan ala biləcəyi məsafəyədək irəli getdi. Tanklardan ikisi daha çox irəli keçmişdi. O, münasib yerdə dayanıb birinci atəşi açdı, amma hədəfə dəymədi. Öz-özümə dedim ki, işləri bitdi. Ardınca

ikinci mərmini də göndərdi. Bir anlıq qarşıdakı tank hərəkətdən dayandı. T-72 tipli tanklar idi. Birdən tankın düz ortasından alov qalxdı və od tutub yanmağa başladı. Bu hadisə yolun bağlanması və arxadakı tankların geri çəkilməsi üçün kifayət idi. Bununla belə, Mehdigilin geri çəkilmə fikri yox idi. Özüm də minomyotçumuz Əli Müstəfəvinin kənarından onlara tamaşa edirdim. Onlar irəlidən, biz də buradan tankların başına mərmi yağdırırdıq. Əli bir-bir mərmi yollayır, mən də "sağa, sola, irəli, dala..." – deyərək cəhəti təyin edirdim. Biz burada özümüzü nə qədər zəhmətə salsaq da 60 mm çaplı minomyot mərmisinin T-72-yə heç bir təsiri yox idi. Mərmiləri atdıqca bir az da həvəslənir və bizimlə bərabər topxanamız da əlindən gələni edirdi. Tanklar geri çəkilərək aradan çıxmağa başladı. Hər halda biz öz zərbəmizi onlara endirdik, top və katyuşaların sayəsində düşmənin dörd zirehli tankı məhv edildi. Katyuşanın yanında bizim yumurta boyda mərmilərimiz zarafat üçün yaxşı bəhanə idi. Odur ki, dedim: "Yumurta ilə yalnız tankın üst-başını batırmaq olar!" Elə bu zaman Əlinin düz ayaqları altında düşmənin minomyot mərmisi partladı və ayaqları yerindəcə bir-birinə büküldü. O vaxt başa düşməsəm də azəricə dediyi bu söz yaxşı yadımdadır: "Ya Zəhra, dadımıza çatan bir kəs

yoxmu?" Onu çox istəyirdim. Bu hadisəni görəndə, ürəyim alovlandı. Onun acı naləsinə qulaq asa bilmirdim. Can vermək üzrə idi. Rza Zərgəri dərhal onu sipərdən aşağı çəkib, geri aparmaq istəyərkən canını tapşırdı. On birinci gün başqalarını da əldən vermişdik. Belə görünürdü ki, neçə gündən sonra artıq həmin 80 nəfərdən heç biri sağ qalmayacaqdı. Əlimi ratsiyaya aparıb, komandirə yardıma qüvvə yollamağı məlumat vermək istəyərkən qüvvələrimiz qışqırışdılar: "İraqlılar! İraqlılar!" Elə bilirdim ki, düşmən məruz qaldığı zərbədən sonra geri çəkilib. Halbuki 40-50 nəfərlik piyada qüvvəsi sipərin 30 metrliyinə çatmışdı. Neçə günlük yorğunluğa baxmayaraq bizimkilərin onların qarşısını almağa kifayət qədər təcrübələri vardı. Onların nə qayıtmağa, nə də irəli gəlməyə yolları yox idi. Deyəsən, komandirlərinin əmri ilə belə bir riskə əl atmışdılar. Vəziyyəti anlayanlardan neçəsi silahlarını yerə atandan sonra ağ köynəklərini çıxarıb, başları üzərində fırlada-fırlada bizə tərəf qaçdı. Biz tərəfdən onlara atəş açılmadı. Geri qayıtmaq istəyənlərə isə arxadan öz qüvvələri tərəfindən atəş açıldı və neçəsi də orada yıxılıb qaldı. Bunu görən qalanları isə təslim olaraq bizə tərəf keçdilər. Rza Zərgəri onları bizim yaralılarla birgə maşınlara mindirib arxa cəbhəyə yolladı. Bu qəribə

hadisə yorğun qüvvələrimizə yeni ruh bəxş etdi. Nisbətən dolubədənli cavan döyüşçümüz Siyavuşun göstərdiyi qeyrət hissindən sonra ürəyimdə deyirdim: "İlahi, sənə min şükür! Artıq batalyonumuzda Kərbəla səqqasına pak və səmimi məhəbbət kök salıb!" Qulağım onun sözlərində, gözlərim isə arxaya zillənmişdi. Bilmək istəyirdim ki, Rza bu gün nə qədər yaralı və şəhid yola salıb. Rza qayıdandan sonra seyid (həmin ruhani tələbə) onun qarşısını kəsib, bir neçə dəqiqə söhbət etdi. O, bura gələn gün məndən qüvvələrimi geri göndərməyi xahiş etmişdi. Fikirləşdim ki, yəqin bu dəfə də həmin məsələni Rzaya təklif edir. Rza ondan ayrılıb mənə yaxınlaşarkən birdən seyidin yanında bir mərmi partladı. Partlayış nəticəsində bir ayağını itirdi və bədəni qəlpə ilə doldu. Tələsik özümüzü ona yetirdik. Şəhadət kəlməsini deyərək bizə yalvarırdı ki, əmmaməsini sinəsi üzərinə qoyaq. Onu xərəyin üzərinə uzadanda sağ qalacağına əsla ümidim yox idi və ağır vəziyyətdə yola salarkən şirin ləhcəsi ilə mənə etdiyi ilk təklifi qulaqlarımda cingildəyirdi. Qərara gəldim ki, əgər sabaha qədər sağ qalsam, cəbhəni Rzaya tapşırıb, hökmən diviziyanın qərargahına baş çəkim.

***

On ikinci gün səhər günəş sipərimizdən boylananda artıq yuxusuzluqdan göz qapaqlarım mənə ağırlıq edirdi. Çünki gecələr daha çox düşmənin qəfil hücumuna görə sayıq qalmalı olurduq. Hətta ötən gecə ara nisbətən sakit keçsə də yenə gözlərimə yuxu getmirdi. Elə dünəndən komandir Mehdi Kiyanini yaxından görmək üçün plan cızırdım. Bununla belə, əmin idim ki, o da neçə gün ərzində baş verənlərdən tam xəbərdardır və vəziyyəti yoluna qoymaq fikrindədir. Nəhayət, Rzaya dedim ki, arxa cəbhəyə baş çəkib qayıdıram. O da mənə dedi: "Müşahidəçilərimiz düşmən tərəfdə yeni taktiki hərəkətin müşahidə olunduğunu məlumat verirlər!" Dərhal durbini götürüb, sipərin yuxarısına qalxdıq. Uzaqdan kamaz, yaxud qırmızı rəngli yük maşını görünürdü. "Adi yük maşınıdır!" – deyərək aşağı enərkən topxananın müşahidəçisi dedi: "Mirzə! Maşın altıncı dirəyi keçdi və bizə tərəf yaxınlaşır! Geri qayıdıb, bir də nəzər salarkən maşın beşinci dirəyi də ötüb keçdi. Qüvvələr səngərlər və sipərdən boylanaraq mənim əmrimi gözlədilər. Kamuflyajsız maşının sürətlə sıradan çıxan tankların arasından və öz cəsədlərinin üzərindən sürətlə keçərək bizə tərəf gəlməyi məni şübhəyə saldı. Üzümü Rzaya tutaraq dedim: "Fikrin nədir?" Cavab verdi: "Şübhəli görünür! Əgər təslim olmaq

istəsəydi, hökmən arxadan vurardılar." Maşın dördüncü dirəyi keçəndən sonra təxminən üç yüz metrliyimizə çatdı. Öz-özümə dedim: "Tək bir şoferin əlindən nə gələ bilər?! Hətta özü ilə bir qədər qüvvə gətirsə belə o qədər də əhəmiyyət daşımır!" Qərara gəldim ki, ona birinci dirəyə yaxınlaşanadək fürsət verək və əgər təslim olsa, maşının əlimizə salamat keçməyi özü bir qənimət idi. İki-üç qumbaraatançıya göstəriş verdim ki, hazır olsunlar. Maşın lap yaxınlaşarkən birdən düşmənin artilleriyası üzərimizə yağış kimi bomba endirməyə başladı. Atəş o qədər ağır idi ki, qüvvələrimizin çoxu məcbur olub səngərlərə sığındılar. Qumbaraatançılardan yalnız Məhəmməd kənarımda qaldı. Maşın birinci dirəyi keçəndən sonra atəşin başlanmasından anladım ki, düşmən başqa fəndə əl atıb. Səngərdən çöldə qalanlar mənim əmrimi gözləyirdilər. Nəfəsimi dərib, Məhəmmədə dedim: "Kimi gözləyirsən?! Haydı vur görüm!" Gördüm ki, o tərpənincə maşın özünü sipərə çırpacaq. Dərhal qumbaraatanı əlimə alıb tətiyi basdım. Mərmi düz maşının qarşısından dəydi və partlayış nəticəsində sürücü kabinənin tavanına çırpıldı. Elə bu vaxt maşının arxasından nə qədər qüvvə yerə tökülüşdü. Sanki arı yuvasına çubuq girmişdi. Onların dəli kimi bizə cummaqdan başqa çarələri yox idi. Qabağa

cumana aman vermədik və hamısını ot kimi biçdik. Atışma nəticəsində maşın yenidən atəşə məruz qaldı və alovlanıb yanmağa başladı.

Hava qaralandan sonra Əli Çitsazian öz dəstəsi ilə maşına baş çəkəndən sonra məlumat gətirdi ki, düşmən qüvvələri maşının arxasında quraşdırılan beton boruda yerləşiblərmiş. Ondan sonra hər dəfə gözümüz maşının yanmış qurğusuna düşəndə, zarafata deyərdik: "Troya atı axsaq çıxdı!"[1]

***

On üçüncü gün bir-bir səngərlərə baş çəkərək sağ qalanların sayı ilə maraqlandım. Heç otuz nəfərə çatmırdı və onların da bir qismi zəhərlənmiş, bir qismi də başından kontuziyaya məruz qalmışdı. Simalarında həya və nəciblik hiss olunsa da mənimlə gözləri ilə danışırdılar. Allah bilir ki, heç biri burada nə vaxtadək qalacağı barədə giley-güzar etmirdi.[2] İlk

[1] "On iki gün sərt döyüşdən sonra düşmənin belə bir fəndə əl atması qəribə idi. Bu, eynilə antik dövrdə yunanıstanlıların Troya əhalisi ilə müharibədəki taktikasına bənzəyirdi. Amma iraqlıların kələyi baş tutmadı." Məhəmməd Qüdərzi ilə müsahibədən, Nəhavənd, 29 dekabr, 2013.

[2] "O zaman həmin qüvvələrdən biri mənə deyirdi: Mirzəyə baxanda ondakı cəsarət, qeyrət və əzmkarlıqla fəxr edirəm. Bununla belə, fikirləşirəm ki, görəsən, o, nə vaxtadək bu vəziyyətə tab gətirəcək. Yəni Fav cəbhəsində bizdən başqa qüvvə yoxdurmu? Halbuki hər batalyon bir əməliyyatda bir sutka iştirak edə bilər və

dəfə motosikletin ardında ön cəbhəyə yollananda Allahdan arzulayırdım, başıma hər hansı hadisə gəlirsə, əməliyyatın sonuna təsadüf etsin ki, qüvvələrin qarşısında xəcalətli olmayım. İndi isə onların sayının azlığı və neçə gün ərzində həlak olanların qüssəsi yorğun vücuduma ağırlıq edirdi. Komandirim Mehdi Kiyani ilə son rabitəmdə ona məlumat vermişdim ki, daha əlimin altında bir qüvvə qalmayıb və mümkündürsə, cəbhəni qorumaq üçün bir dəstə yollasın. O da demişdi ki, qüvvə hazır olunca həmin məhdud sayla cəbhəni qoruyum.[1] Bu rabitədən sonra batalyonun sağ qalan komandir heyəti – Rza Zərgəri, Mehdi Zəfəri və Müttəlib Qeysəri ilə hal-hazırkı vəziyyətlə bağlı

---

biz isə on üç gündür ki, eyni vəziyyətdəyik." Rza Qiyasi ilə müsahibədən, Həmədan, 9 fevral, 2014.

[1] "Əbülfəzl batalyonu cəsur və ağıllı komandiri Mirzə Sulgi və başqa komandirlərin rəhbərliyi sayəsində on üç sutka düşmənin piyada və zirehli qoşunlarının ağır hücumları müqabilində böyük rəşadət göstərdi. Əlbəttə, bu döyüşlərdə batalyonun əksər qüvvələri yaralanıb, ya da şəhid oldular. Mənim bütün bu hadisələrdən anbaan xəbərim vardı. Nəhayət, Mirzə axırıncı dəfə əlaqə saxlayıb, qüvvələrin dəyişilməsini xahiş etdi. Ona birtəhər başa saldım ki, bir az da taqət gətirsin. Amma deyə bilmədim ki, əgər onlar da geri qayıtsalar, yerini yalnız mənimlə kənarımda olan ratsiya qrupu doldurmalıdır. O zaman onları əvəz etməyə hətta bir dəstə belə yox idi." Diviziya komandiri Mehdi Kiyani ilə müsahibədən, Tehran, 8 iyul, 2014.

söhbət etdim. Qərara gəldik ki, mənimlə Müttəlib geriyə baş çəkib qayıdınca, Rza ilə Mehdi də cəbhəyə rəhbərlik etsinlər. Müttəlib motosikleti işə salarkən yenə zarafatla dedi: "Mirzə, yaxşı olardı, bu iyirmi-otuz nəfər də şəhid olandan sonra yollanardıq!" Onun həmişəki yüksək ruhiyyəsi və çətin anlarda maraqlı fikirlərindən xoşum gələrdi. Mən də dedim: "Nə bilmək olar, bəlkə də sağ qalan onlar, geri qayıtmayan isə biz olduq!" Əvvəlcədən komandirlə əlaqə saxladığım üçün indi geri qayıtmağa tərəddüd edirdim. Bu fikir müzakirədən sonra heyətin qərarı idi. Həmin fikirlərdə ikən birdən minomyot mərmisi düz su tankerinin üstünə düşdü və onu deşik-deşik etdi. Olan suyumuz deşiklərdən fəvvarə kimi çölə tökülərkən gözlərini ona dikən yorğun qüvvələrim bir az da sarsıldılar. Müttəlib dedi: "Həzrət Əbülfəzl batalyonunun adı alnına yazılıb! Elə isə hökmən geri qayıdıb, həm su, həm də qüvvə gətirməliyik!" O, bunu zarafat olaraq desə də sözü doğru idi. İndidən sonra qüvvə və təchizat çatışmazlığından başqa on üç gündən sonra susuzluğa da dözməli idik. Hamı kimi özüm də susuz idim və ovuclarımı axan suyun altına tutub içə bilərdim. Amma imtina edərək dedim: "Salam olsun Həzrət Əbülfəzlə! Salam olsun susuzluğa!" Müttəlib motosikleti işə salıb, mənə yaxınlaşmaq istəyərkən

60 mm çaplı mərmi aramıza fasilə saldı. Partlayış nəticəsində sinə nahiyəm qəlpələrə məruz qaldı, ağ ciyərimdən yaralandım və az qaldı nəfəsim kəsilsin. Bir anın içində bütün bədənimi tər basdı. Müttəlib dərhal batalyonun sanitarı Abbasini yardıma səslədi. Onun kifayət qədər təcrübəsi vardı. Ciyərimdən açılan qan yavaş-yavaş gəlib, ağzımdan tökülürdü. Təngnəfəslikdən az qalırdı gözlərim hədəqəsindən çıxsın və hətta şəhadət kəlməmi deyə bilmirdim. Abbasi tələsik məni başıaşağı tutdu ki, qan yolu açılsın. Qan axandan sonra nəfəs yolu açıldı və nəfəsimi dərə bildim. Vaxtı itirmədən neçə nəfər məni maşının arxasına qoyub geri yolladı.

Beş il müharibə müddətində beşinci dəfə idi ki, yaralanırdım. Bu dəfə keçən hallarla tamamilə fərqlənirdi. Get-gedə nəfəsim kəsilirdi, sanki kimsə pəncəsi ilə boğazımı sıxırdı. Güc-qüvvəm tükəndikcə kirpiklərimi belə qapamağa taqətim çatmırdı. Çətinliklə can verən adamın halını bütün vücudumla hiss edirdim. Gözümü açıb-yummaq mənə ağır yükü qaldırmağa bənzəyirdi. Maşın asfaltın çala-çuxurlarına düşdükcə mən də ölüb-dirilirdim.

Təcili yardım məntəqəsində oksigen kapsulu ilə ayılanda nisbətən rahat nəfəs aldığımı hiss etdim. Dodaqlarımın altında şəhadət kəlməmi deyə-deyə

yenə huşdan getdim. Bir də gözlərimi açanda özümü helikopterdə gördüm. Qollarıma qan və serum köçürülürdü. Haçandan-haçana Əhvaz aeroportunda yerə endik və oradan da təyyarə ilə birbaşa Şiraza yola salındım. Şirazın mərkəzi xəstəxanasında əməliyyat otağına köçürülməmiş dərhal böyrümdən şlanqla ciyərimə dolan artıq qanı boşaltdılar. Həkimlər bu işi üzərimdə anesteziyasız görürdülər və məndən təkidlə tələb edirdilər ki, hökmən öskürüm. Neçə öskürəkdən sonra böyük bir qan laxtası boğazımdan çıxanda özümdən getdim. Nəfəsimin yolunu tutan həmin tikə idi və o çıxandan sonra halım çox yaxşılaşdı. Artıq əməliyyat otağına köçürülmək üçün hazır idim...

Neçə gündən sonra eşitdim ki, bizim qüvvələr göndərilən ehtiyat batalyonu ilə əvəz edilib və ondan sonra Ümmül-qəsr cəbhəsi "Məhəmməd rəsulullah-27" diviziyasının başqa batalyonuna tapşırılıb.

***

Mənə sinəmdəki dərdim şəhidlərin ayrılığından acı və ağır deyildi. Xəstəxanada tanımadığım şəhid ailələri mənə baş çəkib, halımı soruşurdular. Onları görəndə, batalyonumuzun şəhidlərinin yolunu gözləyən valideynləri gözümdə canlanırdı. Odur ki, hələ Nəhavəndə qayıtmağa üzüm gəlmirdi. On üç

gün ərzində bir batalyondan 80 nəfər şəhid və nə qədər yaralı az tələfat sayılmırdı. Onların hər biri ilə eyni süfrə başında oturmuş, birgə yatıb-durmuş, birgə döyüşüb yaralanmışdım. İndi isə onlar dünyanı tərk etmiş, mən isə sağ qalmışdım. Bunları düşündükcə bəzən qəhər məni nəfəs yolumu tutan laxta qandan artıq boğurdu. O zaman yalnız gözlərim dadıma çatır, süzülən göz yaşlarımla toxtayırdım. Hərdən də yüksək zarıltılarım şöbənin tibb bacılarını otağıma toplayırdı. Qəlpə ciyərimin sağ tərəfini deşmişdi və yaralanarkən təcili yardımda geri qayıtdığımız vaxt maşının on-on beş metrliyinə düşən zəhərli bomba da öz təsirini qoymuşdu. Odur ki, boğazımı arıdarkən sinəmdən laxta qanla qarışıq bəlğəm xaric olur və bu ürəkbulandırıcı hal evə qayıdan zamanadək hər gün davam edirdi.[1]

Yavaş-yavaş ciyərimin yarası sağalmağa başladı, amma hələ də zəhərlənməyə görə gözlərim və ciyərimdə ağrılarım vardı. Hər üç gündən bir göz və ciyərimdən analiz götürülür, yalnız güclü penisillin iynəsi və gözümə damızdırılan dərmanla təskinlik

[1] Kimyəvi zəhərlənməm bir daha yaralanıb, Almaniyaya göndərilənədək davam etdi. Almaniyada mənim müalicəmlə bağlı xüsusi həkim qrupu çalışırdı. O zaman Səddama kimyəvi silahlar satan Almaniya idi və müalicə üsulu da öz əllərində idi.

tapırdım. Təzəlikdə yaralanmağımdan xəbər tutan ailəmə bu vəziyyətim daha gözlənilməz idi. Belə qarışıq yaralanma halı məni şam kimi əridirdi. Bir həftə ərzində neçə kilo arıqlayıb, çox zəifləmişdim. O qədər üzülmüşdüm ki, tərpənməyə taqətim yox idi. Ailəmin məni bu vəziyyətdə görməyinə razı deyildim. Telefonla əlaqə saxlayırdım, onlar səsimi eşidərək rahatlıq tapırdılar. Deyirdim ki, Şiraza gəlməyinizə ehtiyac yoxdur. Xəstəxanada yatdığım son günlərdə Möhsün Ümidi ilə Möhsün Eynəli də mənə baş çəkməyə gəldi. Eynəlinin Favda yaralandığı əli başına bəla olmuşdu. Amma yenə həmişəki kimi gülərüz və gümrah idi. Ümidi də Favdakı vəziyyətdən, Ümmül-qəsr cəbhəsindəki stabillikdən və qarşıdakı növbəti əməliyyatdan söz açdı. Nəhavəndin bir daha bombardmana məruz qalmasından xəbərdar olsam da nə o, bir söz dedi və nə də mən sorğu-sual etdim. Söhbət yalnız cəbhədən getdi və danışıqlar biz üçümüzlə – özüm, eyni palatada yatan "Əli Əkbər" batalyonunun komandiri Rza Şükri və "Müslim bin Əqil" batalyonunun komandiri Həsən Tacukla əlaqədar oldu.

Nəhayət, bir aydan sonra hələ tam sağalmamış Nəhavəndə qayıtdım. Həkimləri razı salmaq üçün ərizə yazmışdım. Əməliyyatdan 30-40 gün keçməsinə baxmayaraq hələ də əksər küçə və

divarlardakı qara parça və şəhid şəkilləri şəhərə matəm hissi bəxş edirdi. Evə çatandan sonra bir daha yatağa düşdüm və otağım xəstə palatasına döndü. Amma burada xəstəxanadakı kimi sükutdan xəbər yox idi. Hamıdan qabaq görüşümə gələn şəhərin cümə imamı Ayətullah Muğisi oldu. Hələ o zaman onunla qardaşlıq əqdi bağlamışdıq. Daha sonra batalyonun sağ qalan üzvləri xəbər tutdu və bir-bir görüşümə gəldilər. Çoxu da mənim kimi yaralı idi. Evimiz bir həftədən sonra şirniyyatla doldu. Evimizə qohum-əqrəbadan tutmuş şəhərin məsul şəxslərinədək gələnlər vardı. Gələnlər arasında ən çox şəhid ailələrindən baş çəkənlərin qarşısında xəcalət çəkirdim. Onlar öz övladlarının haqqında soruşur, mən də hər birinin igidliklərindən danışırdım. Qonaqlar gedəndən sonra da xırda dörd balam belimə dırmaşıb əylənirdilər. Hərdən qoynuma elə atılırdılar ki, səsim göyə ucalırdı və sarığın altından irinli qan çıxaraq bədənimi isladırdı. Uşaqlarla oynamaq şirin olduğu üçün onların belə dəcəlliklərinə göz yumurdum. Yoldaşım da həmişəki kimi böyük təmkinlə biş-düş və yır-yığış işləri ilə məşğul idi. Kənddən anam ona köməyə gəlmişdi. Həmin günlərdə öz ailəsi, məxsusən qardaşı Əmir böyük zəhmət çəkirdi. Hələ beşinci

uşağımız da yolda idi və bilirdim ki, yoldaşım şəhid olmamağım üçün nə qədər nəzir-niyaz edib.

Bir müddətdən sonra ayağımı evdən çölə qoymağa başladım. Batalyonun sağ qalan döyüşçüləri, o cümlədən, Möhsün Ümidi, Rza Zərgəri və s. komandirlərlə şəhid ailələrinə baş çəkməyə gedirdim. Gün ərzində ən azı on evə baş çəkirdik. Məqsədimiz öz gümanımızla onlara ürək-dirək vermək idisə, çox vaxt dilimiz qısa olur, özümüz onların qeyrət və qürurundan ruhlanırdıq. Məsələn, şəhid atalarından biri oğlunun şəhadət hadisəsindən olduğu kimi xəbərdar idi və bunu təfərrüatı ilə elə nəql edirdi ki, sanki cəbhədə onunla çiyin-çiyinə vuruşub. O, bütün bu hadisəni yuxuda görmüşdü.

Bir gün qərara gəldik ki, cümə axşamı Giyan kəndinin şəhidlər məzarında keçirilən mərasimdə iştirak edək və mən orada söhbət edim. Amma mərasimdən qabaq kənddən bir nəfər gəlib belə dedi: "Mirzə, gəlməsən yaxşıdır! Çünki kənddə istənilən əhval-ruhiyyə yoxdur. Qorxuram söhbətinə ağız büzüb, etiraz edələr. Məncə, gəlməməyin məsləhətdir". Mən isə dedim: "Din xalqımızın qanına hopub! Əgər onlar bir gün həzrət Əbülfəzldən üz döndərsələr, hökmən imam Xomeyninin də yolundan sapacaqlar! Mən əminəm ki, heç nə baş

verən deyil!" Onunla gələnlər nə qədər xahiş etsələr də əhəmiyyət vermədim. Tam əzmlə mərasimə yollanıb, bütün vücudumla elə çıxış etdim ki, yaranan atmosfer tam dəyişdi və şəhidlər məzarında hamının birgə şüarı bu oldu: "Müharibə! Müharibə! Dünyanın sonunadək, fitnə tamam yox olanadək!"

Geri qayıdarkən öz aramızda səmimi söhbətimiz oldu. Onlar danışarkən, məxsusən Möhsün sözə başlayarkən susmağa çalışardım. Onun aydın və sərrast nitqi vardı və fikirləri sözündən çox əməlində özünü büruzə verirdi. Hər dəfə şəhadətdən söz açanda qəhər bizi boğur, həsrət hissimiz dözülməz həddə çatırdı. Yol boyu söylədiyi fikirləri, şəhadətlə bağlı söhbəti məndə elə dərin təəssürat yaradırdı ki, aramızdan şəhadətə qovuşan növbəti şəxsin Möhsün olacağına əmin olurdum.[1]

[1] "Bir dəfə Möhsün Ümididən soruşdum: Sənin ən böyük arzun nədir? Dedi: Həzrət Əli Əkbər kimi şəhadətə yetib, bədənimin tikələrinin biyabana səpələnməyidir! Dedim: Sizin kimi komandirlərin şəhadəti arxa cəbhədə xalq arasında yüksək şövq və təlatüm yaradır və cavanları cəbhələrə səfərbər edir. O da dedi: Rəhim, bilirsən nə var? Mən hələ bu şəhərdə çox da tanınmış şəxs deyiləm. Qorxuram şəhadətimdən sonra matəmimdə iştirak edənlərin sayı çox olsun, başqa bir şəhid üçün belə mərasim keçirilmədiyini görən ataların ürəyi sınsın..." Rza Zərgəri, Rəhim Şahbazinin dilindən, Məşhəd, 27 yanvar, 2014.



"Vəlfəcr" əməliyyatı planı, Fav, fevral, 1985

Dezful, 1985. Sağdan irəlidə dayananlar: Sepahın baş komandiri Möhsün Rzayi, onun canişini Əli Şəmxani, Mehdi Kiyani, sepah quru qoşunlarının komandiri Rəhim Səfəvi

Favın fəthindən qabaq bütün hərbi hissə komandirləri bizim diviziyanın qərargahına toplaşdılar.



Diviziyamızın bütün batalyon komandirləri Ümmül-qəsr cəbhəsində iştirak etdi. Həsən Türk də burada alnından snayper gülləsinə məruz qalaraq şəhi oldu.



Diviziyanın quru və su üzrə komandirlərindən Əbdüləli Təmimi

Onunla Ərvənddən Fava keçəndən sonra mən ön cəbhəyə yollandım, o isə bərədə qalarkən bombardman zamanı şəhid oldu.

Plan-əməliyyat üzrə diviziyanın komandiri seyid Məsud Hicazi

Diviziyanın kəşfiyyat-əməliyyat üzrə komandiri Əli Çitsazian

"Müslim bin Əqil" batalyonunun komandiri Həsən Tacuk (dəbilqəli), Fav, Ümmül-qəsr magistralı, 1985



Buldozerin şoferi şəhid Əliəşrəf Məzahiri

Fav, Ümmül-qəsr magistralı, 1985
Durbin heç vaxt əlimdən düşmürdü

Əbülfəzl batalyonu, 13 sutka sipər arxasında

Şəhid Rza Əhmədvənd



Şəhid Əli Əlimurad

Şəhid Məsud Derəxşan

Əmim oğlu şəhid Abbas Sulgi, "Seyyidüş-şühəda" briqadasının komandiri ilə birgə, 1985

Soldan: Əmim Vəliyullah Sulgi, Tehran, 1986.

Oğlu Abbasın matəm mərasimində məndən xahiş etdi ki, neçə kəlmə ürək sözlərimi deyim.

Səkkizinci fəsil

Dirilik suyu

Dezfulun "Şəhid Mədəni" hərbi hissəsinə qayıtmışdım. Yoldaşımın kiçik qardaşı Əmir də – yaşı nisbətən az olsa da – döyüşçülərin sırasına qoşulmuşdu. Özüm onunla başqaları arasında heç bir fərq görmürdüm. Odur ki, yoldaşımın tövsiyələrinə baxmayaraq Əmirin istənilən qoşun bölümlərində, diversiya-əməliyyat qruplarında iştirakına mane olmadım. Hətta bir dəfə zarafatla ona dedim: "Birdən şəhid olsan, keçən qışdakı kimi evimizi neftlə kim təmin edəcək?" O da cavab verdi: "Allah!" Batalyondan sağ qalanların sayı cəmi bir taqım və dəstə qədər olardı. Məktəblilərin imtahan

və əkinçilərin məhsul yığımı mövsümü olduğundan arxa cəbhəyə get-gəl azalmışdı. O vaxt xəstəxanada Möhsün Ümidinin xəbər verdiyi növbəti əməliyyatla əlaqədar tez-tez cəbhə qərargahında təşkil edilən yığıncaqlarda iştirak edirdim. Əməliyyat Favın duz fabriki məntəqəsinə düşürdü.

1986-cı ilin apreli Xuzistanı vaxtından tez gələn isti bürüyərkən Fav şəhərinə daxil olduq. Yenidən "Vəlfəcr-8" əməliyyatından xatirələr, batalyonumuzun sonda bir dəstə ilə başa vurduğu misilsiz qəhrəmanlıqlar gözümdə canlanmağa başladı. Cəbhəmiz Fav-Bəsrə yolu və duz fabrikinin ətrafını əhatə edirdi. Bu əməliyyatda bizimlə düşmən arasında mövcud olan çəpəki cəbhə xətti sərrast formaya düşməli idi. Süqut edən torpaq sipərimiz düşmənin əlinə keçəndən sonra qamətini itirərək aşağı çökmüşdü. İki cinahdan düşmənə verilən fürsət onların sol və qarşıdan irəliləyişinə və o zamanadək çoxlu itki verməyimizə bais olmuşdu. Son qərara əsasən, əməliyyatda "Aşura-31", "Ənsar əl-Hüseyn-32" və "İmam Hüseyn-14" diviziyaları iştirak etməli, hələlik hər biri neçə batalyonla döyüşə girərək qalan qüvvələrini ehtiyatda saxlamalı idi.

Yaralanmağımdan iki ay keçməsinə baxmayaraq hələ də sağalmamışdım və yeriyərkən nəfəsim təngiyirdi. Batalyonun əksər idarə işləri Rza

Zərgərinin üzərinə düşürdü və mən də yeri gəldikcə əməliyyata dair onlarla söhbət edir, cəbhə ilə bağlı məlumat verirdim. Bu məqsədlə, hətta bir dəfə əməliyyat məntəqəsinin xəritəsi əsasında fərzi düşmən xəttinin basılması ilə əlaqədar təlim məşqimiz oldu. Yarıbataqlıq duzlu sularda hərəkət nəticəsində hamımızın gözləri qızarmışdı. Ürəyimdə Allahdan istəyirdim ki, daha burada Ümmül-qəsr yolundakı kimi tələfata yol verməyək.

Əməliyyat gecəsi qüvvələrimizlə müdafiə xəttinədək irəliləyib, ratsiya qrupu ilə orada qaldım. Rza Zərgəri isə Mehdi Zəfəri ilə onları ön cəbhəyə apardı. Bu birinci dəfə idi ki, cəbhədə döyüşçülərimdən ayrı qalırdım. Dəqiqələr olduqca ağır keçirdi. Dilimin altından zikr əskik olmurdu. Əməliyyata "Ya Sahibzaman" rəmzi ilə başladığımızdan özü də o adla yadda qaldı. Qüvvələrimiz ehtiyatla düşmənin sipərinə yaxınlaşıb, yuxarı qalxarkən savaş başladı. Xoşbəxtlikdən, onların sipəri tez bir zamanda süqut etdi və komandirlərin proqnozu üzrə cəbhə xəttimiz sərrast formaya düşdü. Hər üç diviziya qoşunları çox az itki ilə bir-birinə qovuşdu. Bir anlıq "Vəlfəcr-8" əməliyyatındakı acı xatirələr duz fabriki ətrafındakı əməliyyatın şirinliyi ilə əvəz oldu. Qüvvələrimiz qürur hissindən daha geri qayıtmaq

fikrində deyildilər. Bununla belə, bizim komandirə tapşırıq verildi ki, "Ənsar əl-Hüseyn-32" diviziyası növbəti iki – Xürrəmşəhrin gömrük məntəqəsi və Məcnun adasının qərbi müdafiə xəttində yerləşməlidir.

1986-cı ilin may ayında "Əli Əkbər" batalyonu Xürrəmşəhrin gömrük məntəqəsinə, "Qasim bin Həsən" batalyonu isə Məcnun adasının qərbi bucağına göndərildi. Bizə növbə çatınca Dezfulun "Şəhid Mədəni" hərbi hissəsində gözləməli idik. Hər iki cəbhədə qızğın döyüşlər gedirdi. Lakin Məcnun adası qızmar havası və özünə xas iqlim şəraiti ilə başqa cəbhələrdən tam fərqlənirdi. 1986-cı ildə cənubi Məcnun adası bizim qüvvələr üçün ən acınacaqlı və qeyri-bərabər döyüş meydanı sayılırdı. Heç bir briqada və ya diviziya orada neçə gündən artıq davam gətirməyə qadir deyildi. Ora yollanan hər hansı qüvvə ya yaralanır, ya da şəhid olurdu. Bizim Favda on üç sutka davam gətirməyimizə baxmayaraq burada bir sutka belə tab gətirmək böyük hünər idi. Düşmən sanki qarışqa kimi adamın canına daraşmışdı. Onlar müxtəlif qarışıq taktikalara əl atır, suyun səmtini adaya yönəldir, yerdən və göydən ağır atəş yağdıraraq əməlli-başlı cəhənnəm yaradıldı. Xülasə, ora gedən hər kəs geri qayıtmayacağına əmin idi. Odur ki, əli yaralı halda

"Qasim bin Həsən" batalyonunu adanın qərbi bucağına aparan komandir Möhsün Eynəligildən tez bir zamanda xəbər gəldi ki, özü ilə bərabər bir çoxları şəhadətə qovuşublar. Elə vəziyyətdə onların cəsədlərini geri gətirmək mümkün olmadı.[1]

Müharibənin bütün nəhsliyinin ağırlığını çiyinlərimdə hiss edirdim. Ətrafımda o qədər qüvvə yox idi ki, Möhsünün yerini doldurmaq üçün komandir Mehdi Kiyaniyə hazır olduğumu elan edim. Yaram hələ də sağalmamışdı və içimi yandırırdı. Bununla belə, Möhsün məndən daha qabağı fikirləşirdi. Onun qüvvəsi az və yarası mənimkindən ağır olsa da, əməliyyatdan çəkinmədi. İçimdə daim çəkişmə gedirdi və komandirə, mövcud qüvvəmlə adaya yollanmağa hazır olduğumu bildirmək istəyirdim. Daimi silahdaşım və müavinim Rza Zərgəri batalyondan ayrılandan sonra tək qalmışdım və duz fabriki ətrafında

[1] Əziz dostum və silahdaşım Möhsünün şəhadət xəbəri mənə atamın ölümü kimi ağır gəldi. İki-üç ay qabaq yaralı vəziyyətdə məni yoluxmağa gəlmişdi. Söhbətlərində ən çox işlətdiyi kəlmə "inşallah" idi. Hər dəfə bir-birimizlə ratsiya ilə danışarkən deyərdi: "İnşallah uğur qazanacağıq, inşallah çatacağıq, inşallah Allah bizimlədir..." Danışıqlarında bu kəlmədən o qədər istifadə edərdi ki, ona "İnşallah" qardaş deyərdim. Hər halda Möhsün öz istəyinə, cəhənnəmə dönən Məcnun adasında çatdı.

əməliyyatdan sonra ixtiyarımda olan məhdud sayda qüvvəni təhlükənin ortasına yollamaq istəmirdim.1

Möhsünün şəhadətindən sonra adanın qərbi bucağına Səttar İbrahiminin komandirliyi ilə "Əli Əsgər" batalyonu göndərildi. Səttar özü də dözümlü, azdanışan və sarsılmaz bir igid idi. Onunla həcc səfərində sanki iki bədəndə bir ruha çevrilmişdik. Bilirdim ki, o da Möhsün kimi bütün qüvvələrini əldən versə belə adanı tərk edən deyil. Yenə neçə gündən sonra xəbər gəldi ki, Səttargil də düşmənin katerlərlə himayə edilən dalğıc qüvvələrinin qəfil hücumuna məruz qalaraq çoxlu itki vermiş və özü də yaralanaraq həmin nahiyədə mövqelərini əldən vermişlər. Belə vəziyyətdə onların yerini tutmaq üçün yeni qüvvə göndərilməli idi. O vaxt hərbi hissədə bizim batalyondan başqa qüvvə qalmamışdı. Elə bil, Ümmül-qəsr əməliyyatı hadisələri bir daha təkrar olurdu. Orada da biz həmin iki batalyondan sonra ön cəbhəyə yollanmışdıq. Mənə elə gəlirdi ki, hal-hazırda diviziya komandirinin bizi həmin

[1] "Duz fabriki ətrafındakı əməliyyatdan sonra hərbi hissədə diviziya komandiri mənimlə Sulgiyə müraciət edərək dedi ki, ikinizdən biri yeni təşkil edilən "157" batalyonunun komandiri olmalıdır. Bu məsələni aramızda götür-qoy edəndən sonra "Əbülfəzl" batalyonu Sulginin adı ilə yoğurulduğu üçün mən yeni batalyonun komandirliyini öz üzərimə götürdüm." General Rza Zərgəri ilə müsahibədən, Məşhəd, 26 yanvar, 2014.

nahiyəyə göndərməməyi ya keçən əməliyyatdakı ağır tələfatla, ya da mənim yaralı vəziyyətimlə bağlıdır. Hər halda qərara gəldim ki, ona hazır olduğumu elan edim. Bu minvalla onunla görüşə hazırlaşarkən Ümmül-qəsr əməliyyatında yaralanan "Əli Əkbər" batalyonunun komandiri Rza Şükripur sarıqlı vəziyyətdə özünü hərbi hissəmizə yetirdi. Qarnındakı tikişlərinə görə çox çətinliklə oturub-durur, namaz qılarkən yaman əziyyət çəkirdi. Adada baş verənlərdən xəbərdar idi. Öz ağır vəziyyətinə rəğmən şəhərdə qapı-qapı dolanaraq özü ilə əlli-altmış nəfər gətirmişdi ki, batalyonu ilə adanın qərbi bucağına yollansın. Onun gəlib-getməyi lap buluda bənzədi və bu qısa görüşdə yalnız onun ardında namazımızı qıla bildik. O da Möhsün kimi hara getdiyini yaxşı bilirdi və bu yol onu düşmənin daim ağır atəş yağdırdığı səmtə aparırdı. Onun da ayağı həmin nahiyəyə yetişəndən sonra qəfil hücuma məruz qaldı, yaralı canı ilə son nəfəsədək döyüşərək qüvvələri ilə birgə şəhadətə qovuşdu və otuzdan çox şəhidin cəsədi orada qaldı.

Baş verən hadisədən sonra onun yerinə kimin göndəriləcəyi barədə fikirlər diviziya komandirinə tərəf yönəldi. Bu məqsədlə onunla görüşərkən ştab müavini Möhsün Ümidi də orada idi və məndən qabaq həmin vəzifəni öz üzərinə götürmək üçün

Mehdi Kiyanini razı salmışdı. Onun üçün rütbə etibari ilə aşağı sayılan batalyon komandirliyini üzərinə götürməyi əsla əhəmiyyət daşımırdı. İsrarla Mehdiyə deyirdi: "Mən özüm briqadanın təşkili zamanı iki il batalyon komandiri olmuşam və neçə böyük əməliyyatda iştirak etmişəm. Rza Şükripurun cəsədini də özüm geri gətirəcəyəm!" Mehdi də onun bacarıq və təcrübəsini əsas götürərək təklifinə razı oldu. O, yeni qüvvə gələrək cəbhəyə ezam olununca öz vəzifəsində çalışıb, gözləyə bilərdi. Amma söz verdiyi kimi, az sayda qüvvəsi ilə adanın qərb bucağına yollanıb, düşmənin neçə addımlığından Rza Şükripurdan tutmuş bütün şəhidlərin cəsədlərini geri daşıdı. Onun bu fədakarlığı hərbi hissədəki yaralı və yorğun qüvvələrdə yüksək əhval-ruhiyyə yaratdı və hamı adanın qərbində itirilən mövqeni geri almaq üçün ona qoşulmağa hazır oldu. Mənim də əlimə yaxşı fürsət düşdü və ixtiyarımdakı az qüvvəmlə ona qoşulmağı qərara aldım. Möhsünün ruhiyyəsinə yaxşı bələd olduğum üçün bilirdim ki, növbəti şəhid onun özüdür. Amma bu əsnada başqa hadisə baş verdi. Qərb bucağında itirilən mövqenin geri alınması üçün diviziya komandiri Mehdi özü şəxsən adanın cənubuna yollandı və dalğıc kəşfiyyat-əməliyyat bölümünün vasitəsilə neçə kəşfiyyatdan sonra düşməni geri

oturtmaq üçün yeni plan cızdı. Plan üzrə piyada qüvvələrin yerinə neçə dəstə dalğıc kəşfiyyat-əməliyyat qüvvəsi iki – sağ və sol səmtdən suya daxil olaraq düşmənin arxa tərəfinə keçməli idi. Bu plan tez bir zamanda həyata keçdi və iraqlıların adanın qərbi bucağında qüvvələrini möhkəmləndirməyinin qarşısını aldı. Belə ki, dalğıc qüvvələri arxadan onların nizamını qayçı kimi kəsəndən sonra pusqu mövqeyimiz də azad oldu və qabaqkı iki batalyondan qırılanların cəsədləri də geri köçürüldü.

Bu uğurlu əməliyyatdan sonra yenə Möhsünlə hərbi hissədə görüşdüm. Aramız o qədər səmimi idi ki, içimdəkini gizlətmədən sərbəst şəkildə dedim: "Möhsün, elə bilirdim ki, Şükripur və Eynəlidən sonra hökmən sənin növbəndir!" O da saf qəlbindən qönçə kimi açılan şirin təbəssümlə cavab verdi: "Sən dediyin kimidir, bircə vaxtı təxirə düşüb!" O vaxtadək Möhsünün dilindən yersiz və ya şişirdilmiş bir söz eşitməmişdim. Vücudunda zərrə qədər riya və qürur yox idi. Əmin idim ki, verdiyi proqnozu hökmən yaxın zamanda baş verəcək. Söz gəlişi dedim: "Düşmən aldığı zərbədən sonra inanmıram bir də bu yaxınlarda əks-hücum fikrinə düşsün!" O da dedi: "Bəlkə də elədir. Amma düşmənin sarsılan mövqeyi nəzərə alınaraq

"Kərbəla" hərbi qərargahı onları qərb bucağından tamamilə uzaqlaşdırmaq üçün daha böyük əməliyyat planı irəli sürüb!" Soruşdum: "Böyük əməliyyat? Hansı qüvvə ilə?" Dedi: "Qərara alınıb ki, hərbi hissəmizin idarə heyətindən tutmuş təminat, təbliğat, rabitə, sanitar və s. bölümlərinədək hamı cəlb edilməklə "Əli Əkbər" batalyonu yenidən bərpa olunsun. Diviziya komandiri son əməliyyatdakı dalğıcların müvəffəqiyyətini əsas götürərək yeni mütəşəkkil dalğıc batalyonu təşkil etmək fikrindədir. Onun təşkili və piyada batalyonun təkmilləşməsi ilə yenidən düşməni qərb bucağında iki qarışıq taktika üzrə su və quru istiqamətindən qayçı kimi doğrayacağıq..."

Növbəti əməliyyatla bağlı "Nüsrət" hərbi qərargahında təşkil edilən yığıncağa getdim. Yığıncaqda diviziya komandiri Mehdi Kiyani başda olmaqla "Əli Əkbər" batalyonunun komandiri Möhsün Ümidi, kəşfiyyat-əməliyyat qrupunun komandiri Əli Çitsazian, plan-əməliyyat üzrə komandir seyid Məsud Hicazi və s. iştirak edirdilər. Qərargah komandiri Əli Haşimi Əhvazın özündən olan ərəbdilli bir cavan idi və onu iki il əvvəl vuruşduğumuz adada görmüşdüm. İxtiyarındakı qüvvələrin əksəriyyəti yerli əhali və İraqdan bizə qoşulan könüllülərdən ibarət idi. Özləri "Kərbəla"

qərargahına tabe olsalar da cənub zonasının su və bataqlıq nahiyələrində ən potensial qüvvə sayılırdılar. Onun daha geniş izahından sonra Möhsünün sözləri mənə tam aydın oldu. Bizdən başqa "Qəməri bəni-Haşim", "Fəcr-19" və "Seyyidüş-şühəda-10" diviziyalarının komandirlərinin iştirakından anladım ki, əməliyyat dörd diviziyanın birgə həmkarlığı ilə baş verəcək. Amma komandirlərin hər biri öz qüvvələrinin vəziyyəti ilə bağlı məlumat verərkən qüvvə və təchizat çatışmazlığından söz açdılar. Doğrusu, bütün qüvvələr toplansaydı belə cəmi bir diviziya təşkil olardı. Əməliyyat planı üzrə biz Cənubi Məcnun adasının qərb bucağında, "Seyyidüş-şühəda-10" orta nahiyəsində, "Qəməri bəni-Haşim" şərq bucağında yerləşməli və "Fəcr-19" da ehtiyat qüvvə olaraq arxada gözləməli idi.

Kəşfiyyat əməliyyatları ilə bərabər yaxın rayonlarda qüvvə səfərbərliyi ilə bağlı təbliğat işləri də yola düşdü. Amma qeyd edilən isti yay fəslinin gəlişi, o cümlədən, imtahanlar və məhsul yığımı mövsümü ilə əlaqədar çox da qüvvə cəlb olmadı. Bütün bu problemlərin kənarında fürsətdən istifadə edən düşmən orta və şimal-qərb zonasından geniş miqyaslı hücumlara başlayaraq Hacı İmran məntəqəsi və Mehran şəhərini ələ keçirdi. Belə

vəziyyətdə müharibə baş komandanlığının fikrinin o səmtə yönəlməyi və beləliklə, adada əməliyyata hazırlaşan diviziyaların bir qisminin ora ezam ediləcəyi təbii idi. Növbəti yığıncaqlarda elan edildi ki, o biri diviziyalar orta və şimal-qərb cəbhələrinə göndərilib və adanın qərb bucağında diviziyamız özü tək əməliyyata başlamalıdır.

Möhsünün başı batalyona yeni qüvvələrin cəlbi və təchizat işlərinə qarışmışdı. Görüşdə hiss etdim ki, ona neçə diviziya birgə, yaxud bir diviziya və ya öz batalyonunun təkcə əməliyyata girməyi məsələsi əhəmiyyət daşımır. Arvad-uşağını Əhvaza gətirdiyindən xəbərim vardı və qızı təzə dünyaya gəlmişdi. Ailəsinin vəziyyətindən soruşarkən dedi: "Yoldaşımın cürəti məndən də çoxdur və hər bir hadisəyə hazırdır. Uşağın da Allahı var." Onunla ailəvi get-gəlimiz vardı və ailəmi Nəhavənddə saxladığımı bilirdi. Odur ki, soruşdu: "Mirzə, nə əcəb əməliyyatdan qabaq evə baş çəkmək fikrin yoxdur?" Dedim: "Özün baş çəkmisənmi ki, mənim üçün bəhanə quraşdırırsan?!" Cavab verdi: "Əlbəttə, sadə vidalaşma həddində." Anladım ki, şəhadət meydanına yönələn arxayın qəlb sahibinin yanğılı və son dərəcə səmimi ayrılığı olub.

Məhərrəm ayı yaxınlaşırdı və diviziyamız "Ənsar əl-Hüseyn" bütün vücudu ilə matəm tələtümünü

hiss edirdi. Həmin ərəfədə cəbhəçilərin mənəvi ustadı sayılan Məlayirin cümə imamı Rza Fazilian cəbhəmizə baş çəkdi. Onun nurlu siması, təvazökar qaməti və dilindən yayılan məsumların kəlamları canımızı cilalayırdı. O gecə Kərbəlada və qətlgahda baş verənlərə, həzrət Zeynəbin (s) tənhalığına dair söylədiyi rövzəsi ruhumuzu cismimizdən ayırıb aparırdı.

Ertəsi gün ştabdan bir başa evə zəng edib, yoldaşımla söhbət etdim. Söhbət əsnası ona tapşırdım ki, beşinci övladımızın adını Hüseyn qoysun.

Məhərrəm ayı daxil oldu və Hüseyn də dünyaya gəldi. O vaxtadək hələ də evə qayıda bilməmişdim. İmtahanlardan yayınan tələbələrin bir qismi "Əli Əkbər" batalyonuna qoşuldu və batalyon tərkibində "Cəfər Təyyar" adını daşıyan xüsusi dalğıc-diversiya tağımı təşkil edildi. Tərkibi həmin cavan tələbələrdən ibarət taqımın çoxu birinci dəfə idi ki, əyninə dalğıc forması geyinirdi. Halbuki əməliyyata cəmi on gün qalırdı.

Məhərrəmin beşi batalyon Məcnun adasına yollanmağa hazırlaşırdı. Möhsün Ümidi qüvvələri "Şəhid Mədəni" hərbi hissəsinin kazarmasında bir yerə toplayıb, əməliyyatla bağlı Aşura hisslərini

coşduran son sözlərini söylədi.[1] Hamı əyinlərində hərbi forma və təchizatla onu dinləyirdi və mən də arxada dayanıb, onlara tamaşa edirdim. Birdən gözüm yoldaşımın qardaşı Əmirə sataşdı. Yaranan mənəvi ab-havada o da bir çoxları kimi başını silahına dayayıb ağlayırdı. Əmirdən başqa öz batalyonumdan otuz nəfər vəfalı döyüşçümü Möhsünə vermişdim. Allaha and olsun, hər biri eynilə Kərbəla qurbanlarına bənzəyirdi! Batalyona "Vəlfəcr-2" əməliyyatından qoşulan təlim-tərbiyə mərkəzinin işçisi Mahmud müəllimin siması ay kimi parlayırdı. Həmişə duşkanın arxasında durardı və

[1] "Əssəlamu əleykə ya Əba Əbdillah!...

Tutduğumuz yol imam Hüseynin yoludur! Artıq əsil əməl meydanına bir şey qalmır! Bütün ömrümüz boyu söylədiyimiz "Ya Hüseyn" şüarı neçə saatdan sonra silahlarımızdan səslənməlidir! Özünüzü növbəti Kərbəlaya hazırlayın! Kərbəla aşiqi olmadan ona qovuşmaq olmaz! Bu səfərə hansı azuqə ilə getməyi bilməliyik! Kərbəla yolu Aşura dünya görüşünü tələb edir! Bu gecə həmin azuqəsi olmayan sabah meydanda davam gətirməyəcək! Kərbəla səbir və sarsılmazlıq meydanıdır! Özünüzü səmimi qəlbdən Allaha tapşıraraq o meydana girin! Bir-birinizdən halallıq alın və məni də halal edin! Eşq və məhəbbətlə çiyin-çiyinə döyüşün və sözlərimdəki nöqsanları vüqarınızla aradan qaldırın! Qardaşlar, bu gün sizinləyəmsə, mümkündür sabah sizi tərk edim! Odur ki, məndən sonra növbəti komandirinizi tanıyın və ona itaət edin!..." Şəhid Möhsün Ümidinin tarixi çıxışından bir parça, "Şəhid Mədəni" hərbi hissəsi, Dezful, 9 sentyabr, 1986. (Diviziyanın təbliğat şöbəsi arxivindən)

çoxlarından cürətli idi. Döyüşün çətin anlarında uşaqlar ona deyərdilər: "Duşkaçı, susdur!"[1]

Qüvvələri yola salarkən bir-bir hamısının üz-gözündən öpdüm və sıra ilə gəlib, Quranın altından keçdilər. Axırıncı dəfə olaraq həsrətlə Möhsünə baxdım. İkimiz də bir-birimizi doyunca bağrımıza basdıq. Bu dəfə yerimiz dəyişik düşmüşdü. O, ön cəbhəyə yollanır, mən isə ştabda komandirlə birgə qalırdım. Avtobuslar sıraya düzüldü. Uşaqların göz yaşları maşınlara minənədək kəsilmədi. Bu əsnada ştabdan bir nəfər gəlib, Nəhavənddən Əmirə zəng vurulduğunu dedi. Tələsik ikimiz də rabitə mərkəzinə qayıtdıq. Qaynanam idi. Əmirə tapşırdım ki, əməliyyat haqda söz açmasın. Ana-bala danışarkən axırda Əmir iki dəfə dedi: "Ana, halal elə! Halal elə!" Anası həyəcanla dedi ki, dəstəyi mənə versin. Bu vaxt məndən soruşdu: "Mirzə, Əmir nə deyir? Hara gedir ki, halallıq istəyir?" Mən də dedim: "Narahat olmayın! Bu, könüllülərin xasiyyətidir. Uzaqdan valideynləri ilə danışıb ayrılarkən belə deyirlər." Mən anasına təskinlik verərkən Əmir də dedi: "Mirzə, avtobuslar yola düşür, gecikməyim!" Dəstəyi yerə qoydum.

[1] Mahmud Şiravənd əməliyyatın ikinci gecəsi düşmənin duşkasını susduraraq yolu açandan sonra qəfil atəşin qurbanı oldu və cəsədi neçə il adada qaldı.

İndiyədək şəhadət meydanına yollananları çox görmüşdüm, bütün rəftar və danışıqları başqalarından fərqlənirdi. Elə Əmir də onlardan biri idi və ruhu cismindən ayrılmaq istəyirdi. O, avtobusa çatmadıqda mənə dedi: "Xahiş edirəm məni avtobusa yetirin!" Dedim: "Mən bu maşınla onların arxasınca gedirəm, gəl əyləş. Maşının kondisioneri var, avtobusdan sərindir." İstəyirdim ki, axırıncı saatları bir-birimizin kənarında olaq. O isə razılaşmayıb dedi: "Batalyondan ayrı yox, onların arasında olmaq istəyirəm!" Avtobuslara çatandan sonra Əmir maşından düşdü və qaça-qaça əlini yelləyərək mənimlə vidalaşdı. Sanki sudan ayrılmış balıq kimi bir daha suya qovuşdu.

Şimali Məcnun adasınadək hələ dörd-beş saat yol vardı. Yolda qayınanamın titrək səsi və Əmirin qəti əzmi yadıma düşür, xəyalımdan tez-tez müxtəlif xatirələr keçirdi. O vaxt Əmir ilk dəfə cəbhəyə yollananda da eynilə belə hadisə baş vermişdi. Anası deyirdi ki, Əmir uşaqdır, cəbhədə əlindən bir iş gəlməz. On altı yaşlı Əmir də özünü böyük göstərmək üçün böyüklərin gördüyü işlərə əl atır, beləcə, onda kişilik xisləti hiss olunurdu. Hətta bir dəfə anası cəbhəyə yollanan avtobusun qabağını kəsib, Əmiri aşağı düşürtmək istəyərkən elə məharətlə oturacaqların altında gizlənmişdi ki,

maşın Nəhavənddən ayrılınca heç kim onun içəridə olduğunu bilmədi.

Məhərrəmin beşi axşamüstü adanın şimalına çatdıq. Qüvvələr döyüş məntəqəsindən uzaq olan geniş bir nahiyədə düşərgə saldılar. Onlar ertəsi gün axşamadək qərb bucağına yollanmalı idilər. Hava qaralsa da hələ də torpaqdan sanki od qalxır, hamının üz-gözündən tər süzülürdü. Oradan birbaşa diviziya komandirliyinin yerləşdiyi səngərə baş çəkdim. Səngər ratsiya ilə dolu idi və komandir Mehdi Kiyaninin kənarında rabitə və plan-əməliyyat bölmələrinin üzvləri və neçə çapar vardı.

Məhərrəmin altısı günəş adanın şərqindən - qamışların arasından müşahidə olunarkən bir guşəyə çəkilib, "Aşura" ziyarətnaməsini oxudum. Özümü karvandan ayrılan şəxs kimi hiss edirdim. Yeddi ay idi ki, yaralarım məndən fəaliyyət və çılğınlığı almışdı və çox vaxt qüvvələrimin səsini ratsiya arxasında eşitməli olurdum.

Axşam çağı batalyon kamuflyaj edilmiş yük maşınlarında yola düşdü və hava qaralandan sonra adanın qərb bucağında səngərimizə yaxın üçyol ayrıcına çatdı. "Əli Əkbər" batalyonundan qabaq "Cəfər Təyyar" dalğıc taqımı təyin olunmuş zamanda üçyol ayrıcı nahiyəsindən suya daxil oldu. Onlar quru yolun kənarı ilə üzərək irəlidə yeni

salınan yolun bəndin qərbinə birləşdiyi məntəqədə düşmənin arxa tərəfinə keçməli idilər. Bu taktika onların ön cəbhəsi, eləcə də pusqu səngərləri ilə bəndin qərbinə yerləşən arxa cəbhəsi arasındakı əlaqəni kəsirdi və batalyonumuzun piyada və qayıqlarla hücumuna şərait yaradırdı. Əməliyyat planına əsasən, dalğıc taqımı tərəfindən düşmənin ön və arxa cəbhəsi ilə əlaqəsi qırılandan sonra dərhal Əli Əkbər batalyonunun qüvvələri qayıqlarla sağ və soldan qayçı şəklində hücuma keçərək dalğıc taqımına birləşməli və əməliyyatı davam etdirməli idilər. Əgər taktika hər hansı mənzil və mərhələdə ifşa olsaydı, bütün əməliyyat məğlubiyyətlə nəticələnə bilərdi. Düşmənin bir nahiyədə duyuq düşməyi onların bütün qüvvələrinin səfərbərliyi demək idi. Odur ki, əməliyyatın müvəffəqiyyəti birbaşa dalğıc-diversiya taqımının qəfil hərəkətindən asılı idi. Komandir Kiyani məsələnin əhəmiyyətini nəzərə alaraq iki əsas dayağı sayılan plan-əməliyyat komandiri seyid Məsud Hicazi ilə kəşfiyyat-əməliyyat komandiri Əli Çitsazianı da piyada qüvvələrlə birgə irəli yolladı. Əli Möhsüngillə sağ tərəfdən yola düşdü və Məsudgilin qüvvələri də düşmənlə aramızdakı birinci pusqu məntəqəsində mövqe seçərək dalğıc taqımının siqnalını gözlədilər.

Saat 9-da hava tam qaralandan sonra 80 nəfərlik dalğıc taqımı Cənubi Məcnun adasının qərb bucağındakı bircə quru yolu olan sağ səmtdən suya daxil oldu. Onlar nəzərdə tutulan nöqtəyə çatınca bütün siqnal rabitələri kəsilməli və yalnız ön cəbhədə yolun başındakı səngərdə olan taqım komandiri Kərim və seyid Məsudla rabitə saxlamalı idilər. Həmçinin sağ və sol cinahda qüvvə ilə dolu olan qayıqlar da hərəkət əmrini gözləyirdi. Məsafə və təyin olunan zaman üzrə taqım iki saat ərzində özünü düşmənin üçyol ayrıcına yetirməli idi. Amma əməldə bu iş üç saat yarım vaxt apardı. Həm də qəfil zərbə üçün qayıqlar tam qaranlıqda hərəkət etdiyindən onların sırasında nizam pozuldu və bəzisi çaşaraq başqa səmtə yönəldi. Bu çaşqınlıq sol cinahda baş verdi və bir-birindən aralı düşənlər oldu. Bununla belə, hələ də düşmən bu qədər qayığın hərəkətindən duyuq düşməmişdi.1

Növbəti hadisələri diviziyanın komandirliyi səngərindən ratsiya ilə izləyirdik. Hərdən Məsudun Möhsün və ya Əli ilə rabitələri eşidilirdi. Bu minvalla təqribən üç saat sovuşdu və ilk dalğıc qrupları iraqlıların ön və arxa cəbhəsini bir-birindən ayıran üçyol ayrıcına çatandan sonra savaş başladı.

[1] Hər birində səkkiz-on nəfərdən ibarət 16 qayıq sağ, 11 qayıq isə sol cinahdan irəliləyirdi.

Daha qayıqlardakı qüvvələrin avar çəkməyinə ehtiyac qalmadı və dərhal motorları işə salaraq atəş altında sahilə yetişdilər. Qabaqda gedən qayıqlar düşmənin ilk pusqu məntəqəsindən atəşə məruz qalsa da növbəti qayıqlar bir qədər irəli keçərək döyüşə şərait yaratdılar. Möhsünün səsini komandirin ratsiya dalğasından eşidirdim. Əli ilə seyid Məsud yaralanmışdı. Seyid orada qaldı və uşaqlar Əlini qayıqla geri yolladılar. Yarım saat keçməmiş xəbər verdilər ki, onlarla düşmən əsgəri təslim olub və iraqlıların üçyol ayrıcından arxa cəbhəsinin qarşısı tam kəsilib. Lakin birinci pusqu məntəqəsi hələ də müqavimət göstərirdi. Bu məqsədlə Möhsün qüvvələrini iki yerə ayırdı və birini birinci pusqu məntəqəsinə yönəltdi və o birini də – düşmənin əks-hücum ehtimalını nəzərə alaraq – irəli yolladı. Özü də ikinci dəstəyə qoşularaq diversiya qrupunun yolu kəsməyinə kömək etmək üçün irəli getdi. Diversantların işi dalğıc və piyada qüvvələrdən də çətin idi. Onlar döyüş zamanı meydanın ortasına girərək müəyyən xətt üzrə partlayıcı maddələri yerə basdırmalı və sonra da bir partlayışla kanal yaratmalı idilər. Partlayış nəticəsində su əmələ gələn kanala dolmaqla iki tərəf arasında cəbhə xətti formalaşırdı.

Gecə saat üç radələrində xəbər verdilər ki, partlayıcı maddəni daşıyan böyük qayıq sahilə yaxınlaşarkən tikanlı məftillərə ilişib qalıb və diversantlar kisələri çiyinlərində daşımalı olublar. Onlar döyüş meydanına çatınca artıq hava işıqlanırdı və nizamla irəliləyən düşmən tankları da uzaqdan müşahidə olunurdu. Ön cəbhədən arxada olduğum üçün içimdən od tutub yanırdım. Komandir Kiyanidən irəli getməyə icazə istədikdə, razılaşmadı. Mənimlə Möhsünün arasındakı səmimi rabitədən xəbəri vardı. Hər halda vəziyyəti götür-qoy etməmiş qərara gəlməzdi. O vaxtadək diviziya personalının əksəri ya yaralanmışdı, ya da şəhid olmuşdu. Həmişə kənarında neçə rütbəli zabit saxlayırdı ki, lazım gələndə istənilən tapşırığı verə bilsin. Heç nəyi zahirdə büruzə verməzdi və hər bir şəraitdə özünü soyuqqanlı göstərərdi. Hələ özüm də təzəlikdə öyrənmişdim ki, "Vəli-əsr-7" diviziyasında dəstə komandiri olan bir qardaşı iki ay qabaq şəhid olub və biri də əsir düşüb. Bununla belə, ruhiyyəsində zərrə qədər dəyişiklik görünmür, tapşırıq və əmrində qətiyyən hissə qapılmırdı.

Sübh namazımı rabitə qovşağı və ratsiyaların sədaları altında qıldım. Komandirin ala-toranlıqda ön cəbhə ilə rabitəsi zamanı məlum oldu ki, artıq düşmən tankları meydana daxil olub. İrəlidə

döyüşlər eynilə Ümmül-qəsrdəki kimi torpaq yolun ətrafında gedirdi. Möhsün dedi ki, onların snayperləri və tankları ilə aramızda məsafə az olduğundan diversiya qrupunun fəaliyyəti donub.

Hava tam işıqlanandan sonra düşmənin birinci pusqu məntəqəsi müqavimətdən əl çəkdi və qırx-əlli nəfər əllərini qaldıraraq təslim oldu. Dəstəyi əlimə alıb bir neçə dəfə Möhsünlə rabitəyə girməyə çalışdım. Axır, təmkinli və vüqarlı səsi qulağıma dəyərkən bildim ki, irəlidə qızğın döyüş gedir. Amma yenə soruşdum: "Möhsün, vəziyyət nə yerdədir?" Atəş səsləri arasından cavabı bu oldu: "Eynilə Şükripur və Eynəligilinki kimidir!" Səsinin tonundakı arxayınlıq istər-istəməz adamı şəkkə salırdı. Əgər eynilə həmin hadisələr baş verirsə, onda hər şey sona yetib və onun belə adi və təbii mövqeyini anlaya bilmədim. Səsində heç bir təşviş yox idi, yardım istəmirdi və tapşırıq vermirdi. Odur ki, soruşdum: "Ay Möhsün, Allah xeyir versin! De görüm evində rahat stulda oturubmu danışırsan? Düz-əməlli bir xəbər ver!" Nə qədər səsləsəm də cavab gəlmədi və rabitə kəsildi.[1] O halda başı kəsilən

[1] Sonralar o zaman Möhsünün kənarında olan Salar Abenuş həmin hadisəni belə nəql etmişdir: "Möhsün Ümidi son rabitədən sonra dalğanı kəsib ratsiyanı suya atdı. Daha sonra tankların qabağına çıxarkən dedim: Möhsün, cəmi neçə nəfər qalmışıq!

toyuq kimi ön cəbhəyə getmək üçün çırpınırdım. Mehdi Kiyani özü iki sutka idi ki, ağzına bir şey atmamışdı. Nə gözünə yuxu getmişdi, nə də bir şey yemişdi. Bütün bu müddətdə daim ya sepahın "Kərbəla" qərargahının komandirləri ilə, ya da ön cəbhədəkilərlə rabitədə idi.

Səhər saat onda komandir Kiyani ətrafında olan hər kəsi, hətta baş sanitarı belə irəli yolladı və mənə də dedi: "İrəli getmək istəyirdinsə, buyur!" Ondan qürbət hissi doğuran bu qayğılı səsi Fav-Ümmül-qəsr cəbhəsinə yollanarkən də eşitmişdim. O zaman demişdi: "Sulgi qardaş, təkcə sənin batalyonun qalıb!" Ora arxamda Əbülfəzl batalyonu ilə getmişdimsə, burda isə tək-tənha idim. Yubanmadan qayığa mindim. Bundan əvvəl qayıqçı bir dəfə ön cəbhədən yaralı və əsir gətirmişdi və yollara bələd idi. Qayıq suları yararaq Möhsüngilə tərəf irəliləyirdi. Yolda yarıyanmış qayıqları görəndə fikirləşirdim ki, ya irəli gedərkən, ya da geri qayıdarkən atəşə məruz qalıblar. Hərdən gözümə qamışlardan yapışıb, ağır vəziyyətdə olan yaralılar da dəyirdi. Onları geri köçürməyə macal yox idi və

Qüvvələrin əksəri ya yaralanıb, ya da şəhid olubdur! Məncə qayıtsaq yaxşıdır! O da dedi: Mən komandiriniz olaraq sizə əmr edirəm ki, geri qayıdın! Amma mənə komandirim tərəfindən belə bir göstəriş verilməyib!"

Kiyaninin göstərişi ilə özümü ön cəbhəyə yetirməli idim. İrəli getdikcə partlayışların sayı artır, ətrafımıza tez-tez mərmilər düşürdü. Yavaş-yavaş qayıqçı motorun qazını azaltdı və kənarımdakı neçə sanitar da ona qoşularaq daha irəli getməyin mümkün olmadığını dedilər. Qayıqçının başına qışqırıb, sükanı əlimə aldım. Qaza basıb, qayığı atəşin gərgin səmtinə tərəf yönəltdim. Qarşıda yolun kənarından tanklar geri qayıdan qayıqlara tərəf atəş açırdı. Burada hər yan – sağ, sol, suyun üzəri belə yaralı və şəhidlərlə dolmuşdu və düşmən səmtinə gedən bircə bizim qayığımız idi. Onların əlli metrliyindən keçərkən pulemyot atəşinə məruz qaldıq. Atışma zamanı hamı aşağı əyildi və mən də çarəsiz qalaraq geri dönməli oldum. Qayıdarkən özümüzlə yalnız suda rast gəldiyimiz neçə yaralını gətirə bildik...

***

Məhərrəmin səkkizi və tasua axşamı idi. Artıq iki gün qabaq Möhsünün alovlu çıxışını dinləyən əksər qüvvələrin cansız bədənləri adanın qərb bucağında yerə sərilib qalmışdılar. Kimin adını çəkirdiksə, deyirdilər ki, şəhid olub. Onun batalyonuna verdiyim öz döyüşçülərimin (30 nəfər) çoxu da şəhidlərin sırasında idi. O gecə "Şəhid Mədəni" hərbi hissəsində sağ qalan qüvvələrlə birgə "Əli Əkbər"

batalyonunun şəhidləri üçün matəm mərasimi keçirdik.

Məhərrəmin onu Nəhavəndə qayıtdım. Hər yer məhərrəmliyi və "Ənsar" əməliyyatı[1] şəhidlərinin xatirəsini tərənnüm edən plakat və qara parçalara bürünmüşdü. Qayınatamgildə də evin qapısının yuxarısına qara parça vurulmuşdu. Qayınanam deyirdi: "Əmir məndən halallıq istəyəndə, bildim ki, geri qayıtmayacaq..." Artıq beşinci övladımız da dünyaya gəlmişdi. Bütün çətinliklərə səbirlə dözən yoldaşıma qardaş dağı da əlavə olmuşdu. Matəm mərasimindən sonra qayınatamın halı tamam dəyişmişdi və Allahdan istəyirdi ki, neçə aydan sonra şəhid övladına qovuşsun.[2] Hamı məndən Əmirin şəhadətindən soruşur, mən də onun həzrət Əli Əkbərə səmimi məhəbbətindən, yaralı bədənlə fədakarlığından, geri qayıda bildiyi halda o həzrətin şəhadət günündə (8 məhərrəm) onun kimi canfəşanlığından, cəsədinin adanın qızmar torpaqları üzərində qalmağından söz açırdım.[3]

---

[1] Əməliyyat "Ənsar əl-Hüseyn-32" tərəfindən həyata keçirildiyi üçün "Ənsar" adlandı.

[2] Doğrudan da onun duası qəbul oldu və neçə aydan sonra Nəhavəndin bombardmanı zamanı şəhadətə yetdi.

[3] Düz on ildən sonra itkinlərlə bağlı adada aparılan tədqiqat qazıntıları zamanı qalıqları müəyyən edildikdən sonra Nəhavəndə gətirildi.

Nəhavənd əhalisi indiyədək vətən yolunda çoxlu şəhid verməyinə baxmayaraq hamı bu diyarın birinci igidi Möhsün Ümidi üçün əza saxlayırdı. Vaxtilə mənə demişdi ki, özü ilə başqa şəhidlər arasında fərq qoyulmağa razı deyil. Allahdan istəyirdi ki, cəsədi döyüş meydanında qalıb, geri gətirilməsin və matəm mərasimi başqalarından möhtəşəm keçirilməsin. Elə də oldu və cəsədi Məcnun adasının qızmar torpaqlarına qismət oldu. Onun xalis niyyəti bütün qüvvələrinin canına hopmuşdu. Həmin ərəfədə Nəhavəndin cümə imamı Ayətullah Muğisi ilə onun ailəsinə baş çəkməyə getdik. Bizimlə birgə cəbhə yoldaşlarımız və şəhid ailələri də vardı. Məqsədimiz yoldaşına təsəlli vermək idisə, özümüz daha artıq təsəlli tapdıq. Evində diqqətimizi cəlb edən ilk şey divara yapışdırılan əl yazısı idi. Üzərinə öz dəst-xətti ilə həzrət Əlidən belə bir hədis qeyd etmişdi: "Allaha and olsun, mən haqq yolunu tutmuşam və şəhadətin aşiqiyəm!" Bu qısa kəlam göstərirdi ki, Möhsün yoldaşını hər hansı hadisəyə hazırlayıbmış. Ayətullah Muğisi söhbətə başlayaraq Möhsündən neçə xatirə nəql etdi. Bundan sonra həyat yoldaşı ayağa qalxdı və Möhsündən yadigar qalan qızıl qolbağı və üzüyünü çıxarıb dedi: "Cəbhəyə yardım üçün bundan dəyərli başqa şeyim yoxdur!" Bütün

gözlər mənə, mənim gözüm də onun körpə qızı Fatiməyə zillənmişdi. Qızının məsum gözləri yadıma maraqlı xatirə saldı. Mən də öz növbəmdə sözə başlayaraq dedim: "Hərbi hissənin maşını ilə Nəhavənddən cəbhəyə gedirdim. Yolda Möhsünlə rastlaşdım. Ailəsi ilə avtovağzala sarı gedirdi və oradan da Əhvaza yollanmalı idilər. Yəni hər ikimiz cəbhə bölgəsinə gedirdik. Onun da ixtiyarında bütün komandirlər kimi maşın olduğu halda heç vaxt ondan şəxsi işləri üçün istifadə etməzdi. Hətta qızı Fatimə dünyaya gəldiyi gün yoldaşını xəstəxanaya taksi ilə aparmışdı. Eyni yolun yolçusu olduğumuz üçün ona birgə getməyimizi təklif etdim. Qətiyyən razılaşmadı. Dedi ki, biz avtobusla ailəvi yola çıxmağı xoşlayırıq. Bir də xahiş edərək dedim: Onsuz da bu yolu tək gedirəm. Əhvazadək deyib-danışarıq. Mən ölüm, gəl! O isə şəri məsələlərə qarşı həddən artıq həssas idi və hər şeyə riayət etməyə çalışırdı. Axır, israr və xahişlərimdən keçə bilməyib razılaşsa da daxildən narahat idi..." Sözüm söhbətin səmtini onun ailə daxilindəki rəftar və davranışına çəkdi. Məhəmməd Bəhirayi dedi: "Bir dəfə onunla xəstəxanada görüşdüm. Yoldaşı ilə həkim növbəsinə dayanmışdı. Birdən sepah rabitə üzvlərindən biri içəri daxil olub dedi: Ümidi qardaş, diviziya komandiri göstəriş verdi ki, təcili cənuba

yollanasız! Möhsün yoldaşını növbədə qoyub, dərhal yola düşmək istəyərkən xahişlə dedim: Hər hansı tapşırığı varsa mənə deyin, yaxud yarım saatdan sonra çıxın! Razılaşmayıb, tələsik yola düşdü." Məhəmməd danışdıqca qızı anasının qucağında ağlayır, anası da çarşabının bir tərəfini üzünə çəkib, göz yaşı tökürdü. Bu səhnəyə tamaşa etdikcə yadıma başqa qısa xatirə düşdü. Onun dilindən olduğu kimi nəql etdim: "Cəbhədən evə qayıdan zaman qızım məni görən kimi ağlayır. Bilmirəm şövqdəndir, yoxsa başqa şeyə görə. Mən isə hər dəfə onu qucağıma alır, evdə o qədər var-gəl edirəm ki, sakitləşib yuxuya getsin." Bu dəfə hamının göz yaşı süzülürdüsə, Fatimənin gözləri maraqla bizi süzürdü.

Möhsüngilin evini tərk edəndən sonra küçədə bir şəhid atası qarşımı kəsərək soruşdu: "Oğlumun Məcnun adasında susuz şəhadətə qovuşmasına "Səqqa batalyonu" bais olmayıbmı?" Bir çoxları kimi beli bükülən əli əsalı qoca da elə bilirdi ki, orada döyüşənlərin çoxu susuzluqdan şəhid olub. Cavab verməyə sözüm yox idi. Hər halda xalqın Əbülfəzl batalyonuna səqqa məqamı gözü ilə baxmağı mənə həm şövq verir, həm də xəcalət hissi keçirirdim. Odur ki, əyilərək onun titrək əlini öpməkdən başqa çarəm qalmadı.

***

Məhərrəm ayı sona yetdi. Məcnun adalarında vəziyyət hələ də kül altında közə bənzəyirdi. Mehdi Kiyaninin göstərişi ilə növbədənkənar yığıncaq təşkil edildi. Əməliyyatın nəticələri ilə bağlı batalyonun sağ qalan əsgər və komandirlərinin ümumi raportundan sonra öz yekun qərarı belə oldu: "Düşmən 1984-cü ildən başlayaraq 1986-cı ilin avqustundakı son əməliyyatadək orta hesabla hər ay qismən irəliləyərək adanı bütövlükdə ələ keçirmək üzrədir. Bu əməliyyatda ağır itki verməyimizə baxmayaraq düşmən bizdən neçə dəfə çox xəsarət və tələfata məruz qalıb. Onlara dəyən ağır zərbədən sonra hökmən irəliləyişi ləngiyəcək. Belə ki, Məcnun adalarının azadlığından iki il sonra bu birinci dəfədir ki, döyüş prosesinin təyini bizim əlimizə keçir. Bu məsələ hökmən düşmənə əsaslı təsir qoyacaq, bir piyada batalyonla bir dalğıc dəstəsinin İraqın 3-cü korpusunun qarşısında misilsiz fədakarlığı adalarda strateji vəziyyəti bizim xeyrimizə dəyişəcək..."[1]

[1] Həqiqətən əməliyyatın nailiyyətləri ilə bağlı diviziya komandirinin proqnozu düz çıxdı və o zamandan etibarən BMT-nin qərarı üzrə 598-ci qətnamənin qəbulunadək Məcnun adasında İraq tərəfindən elə bir mühüm addım və müvəffəqiyyət müşahidə olmadı.

1986-cı ilin payız fəslinin gəlişi ilə yenidən qüvvələrin səfərbərliyi və ezamında dirçəliş yarandı. Onların içində ən diqqətəlayiqi "Həzrət Məhəmməd" diviziyasının ezam yürüşü idi. Yeni qüvvələr göndərildikcə hərbi hissə və qoşunlarda say nöqsanı aradan qalxır, diviziya və briqadaların tərkibi bərpa edilirdi. Beləliklə, bizim diviziyaya da neçə yeni batalyon əlavə oldu.

Hər il payız və qış fəsillərində qüvvələrin səfərbərliyi məsələsi artıq düşmənə 1983-cü ildən bəlli olan taktika idi. O ildən etibarən hər il qış fəsli cənub zonasında böyük əməliyyatımız olurdu. Əlbəttə əməliyyata üç-dörd ay qalmış qüvvələr hərbi hissələrə cəlb edilməli idi. 1983-cü ildə böyük "Xeybər", 1984-cü ildə böyük "Bədr", 1985-ci ildə böyük "Vəlfəcr-8" əməliyyatlarının şahidi olmuşduq. Düşməndən əlavə adi əsgərədək hamı bilirdi ki, qış fəsli cənubda mütləq növbəti əməliyyat gözlənilir. Hər halda yeri və məntəqəsi baş verən ərəfəyədək çoxlarına, o cümlədən, batalyon komandirlərinə gizli qalırdı. Bizim "Əbülfəzl" batalyonu da 1986-cı ilin payızında yenidən 400 sayda qüvvə ilə "Şəhid Mədəni" hərbi hissəsində təşkil edildi.

Hərbi hissənin həyətində komanda heyəti ilə Nəhavənddən ezam olunan avtobusları qarşılamağa çıxarkən güclü yağış başladı. Könüllü əsgərlərlə

dolu avtobuslar bir-bir önümüzdən keçdi və sonuncu avtobus qarşıdakı çadırların yanında dayanarkən qapısını açıb içəri girdim. Xoşgəldinə fürsət olmadı və hamı birgə salavat deyərək çantalarını götürüb aşağı enməyə başladı. Axırıncı nəfər diqqətimi cəlb elədi. Yanındakı pəncərəyə barmağı ilə belə yazırdı: "Dirilik suyu" Onun incə zövqündən xoşum gəldi və belə yağışlı fəzada zərif və poetik ifadəsi könlümə yatdı. Məncə onu yazmaqda məqsədi vardı. Odur ki, soruşdum: "Dadaş, yazdığın kəlməni mən də ürəyimə yazdım. De görüm, onu yazmaqda məqsədin nə idi?" Qiyafəsindən "Vəlfəcr-8" əməliyyatından qabaq bütün ali rütbəli komandirlərin qarşısında çıxış edən üzü nurlu şəhid Həmid Haşimiyə oxşayırdı. Hətta bir anlıq onu Həmidin özü olduğunu təsəvvür etdim. Cavab verdi: "Su aydınlıq nişanəsidir. Hər bir canlının həyatı sudandır. Su olmasa həyat da yoxdur. Biz cəbhəyə əbədiyyətə qovuşmaq üçün gəlmişik. Bu yağış onun nişanəsidir və Allahın səmasından yağır. Səncə, elə deyilmi?" Cavab verməyib qardaş doğmalığı ilə alnından öpdüm. Mənə elə gəldi ki, indiki zamanda bu kəlmənin iki mənası ola bilərdi: ya dirilik suyu birbaşa həzrət Əbülfəzlin adı ilə bağlıdır, ya da onun aydın zəkasından əməliyyatın məntəqəsinə dair bir

işarədir. Belə ki, Hur, Ərvənd, yaxud yenə Məcnun adasını bildirir. Bu qısa maraqlı görüşdən sonra aşağı enərək qüvvələrin qarşısında neçə dəqiqə çıxış edib, onlara ilkin lazımı məlumatları verdim.

Elə ertəsi gündən hərbi təlimlər başladı. İndiyədək təlimlərdə və əməliyyatlarda topladığımız təcrübələr böyük rol oynayırdı. Manevrlər, tam təchizatla uzun-uzadı yürüşlər, atışmalar, partlayışlar və sairlə birgə dua mərasimləri və camaat namazlarının təşkili onların mənəvi və əqidəvi cəhətdən hərtərəfli formalaşmasında mühüm rol oynayırdı. Amma bütün bu müddətdə həmin könüllünün su haqda duyğusu fikrimdən çıxmır, bütün vücuduma enerji verirdi.

Havalar bir az da soyuyandan sonra Getvənd bəndinə yollandıq. Su ilə qurunu bir-birinə qovuşduran bu bənd hamıda növbəti əməliyyata dair yeni təəssürat oyadırdı. Yenə ötən ilki kimi əksər fəaliyyətimizi dalğıclıq və su əməliyyatlarına həsr etdik. Mehdi Zəfərinin komandirliyi ilə "Şəhid Bahünər" dəstəsi yalnız su, qalan iki dəstə isə su və quru təlimlərinə cəlb edildi. Zaman ötdükcə qüvvələrin əməliyyat məntəqəsi ilə bağlı maraqları artırdı. Dəstələrdə keçmiş əməliyyatlarda iştirak edənlərin sayı az deyildi. Qabaqkı kimi təlimlərdə zarafat və məzəli rəftarların yeri əskilmirdi.

Məsələn, bir dəfə Muradəlinin yanından keçəndə dedi: "Necəsiz, sürünün komandiri?" Mən də dedim: "Bu qədər aciz olma! Yəni məni çoban, özünü qoyun hesab edirsən?! Halbuki təkbaşına bir dəstə canavarın öhdəsindən gələrsən!"[1] Sonralar bu ləqəb yavaş-yavaş Nəhavənd uşaqlarının dilinə düşdü və çoxları məni sürünün komandiri deyə səsləyirdi. Bəzən incə zarafatlar qüvvələr arasında birlik və qardaşlıq hisslərini bir az da artırır, heç vaxt nəzakətsizliyə gedib çıxmırdı. Onların yaş, peşə, xasiyyət və s. təfavütlərinə baxmayaraq səmimi dostluğu yekdil və müttəfiq bir mühit yaradır, hətta yeni gələnlər belə bəzən üzə salaraq istənilən şəxslə qol gücünü sınayır, güləşir, özlərini asudə hiss edirdilər. Qoluzorlu və heç kimdən çəkinməyən dəcəl uşaqlardan xoşum gəlirdi. Belə çəkişmələrdə hərdən sinəmdəki qəlpə yarasının ağrısından çığırtım göyə qalxırdı. Əlbəttə, mənim kimi qabaqkı əməliyyatlarda bədənində güllə-qəlpə yaraları olanlar az deyildi və heç vaxt bildirmək istəmirdilər. Əməliyyat və döyüşlərin çətinliyi nəzərə alınaraq təlimlərdə güzəştə yol verilmirdi. Hər gün eyni çadırda yatıb-durduğum qüvvələrlə bəzən elə kəllə-

[1] Muradəli 1986-cı ilin yanvar ayı "Kərbəla-5" əməliyyatında həqiqətən şir kimi döyüşərək çoxlu sayda düşmən əsgərlərini məhv etdikdən sonra, özü də orada şəhad oldu.

kəlləyə gəlir, elə sərt davranırdım ki, sanki bir-birimizi tanımırıq. Aramızdakı rütbə, vəzifə, əmr və s. inzibati məsələlər böyük əhəmiyyət daşıyırdı. Vaxtaşırı Şəhid Mədəni hərbi hissəsində təşkil edilən batalyon komandirlərinin xüsusi yığıncaqlarında da iştirak edirdim. Diviziya komandiri Mehdi Kiyani əməliyyat məntəqəsinə dair məlumat verməsə də zehnimizdə ötəri şəkildə quru və suya dair təsəvvür yaratmağa çalışır, biz də sözlərinin Fav məntəqəsi ilə daha uyğun gəldiyini düşünürdük.

Əməliyyat məntəqəsinin gizli saxlanılması kəşfiyyat-əməliyyat qrupunun fəaliyyətə başlamasınadək davam etdi. Onların Xürrəmşəhr və Abadanda Ərvənd çayı sahillərindəki, eləcə də, dalğıcların çay daxili əməliyyatları başlayandan sonra, biz batalyon komandirlərinin də ayağı o nahiyəyə açıldı. Növbəti yığıncaqlarda hər qoşunun çayı keçmə istiqaməti və hüdudları, eləcə də o tayda düşmənin cəbhə xəttinin yarılması və s. təyin edildi. Əməliyyat böyük miqyasda "İmam Hüseyn-14", "Nəcəf-8", "Ənsar əl-Hüseyn-32", "Əl-Mehdi-33", və "Vəliəsr-7" diviziyalarına tapşırıldı.[1] Növbəti diviziya və briqadalar isə düşmənin ön cəbhə xətti

[1] Qeyd edilən diviziya qüvvələri tərtiblə İsfahan, Həmədan, Fars və Xuzistan vilayətlərindən gələn sepah və könüllülərdən ibarət idi.

yarılandan sonra əməliyyata qoşularaq onların birinci və ikinci cəbhələrini fəth edib, əl-Bihar-Bəsrə magistralına sarı yeriməli, daha sonra sağa dönərək Bəsrə istiqamətində əməliyyatı davam etdirməli idilər. Burada dalğıcların çayı keçməyi və xəttin yarılması manevri eynilə "Vəlfəcr-8" əməliyyatındakı kimi idisə, bircə fərqi Ərvənd çayının eninin əksər nahiyələrdə nisbətən dar olması idi. Qeyd edilən faktor dalğıcların tez bir zamanda o taya keçməyinə əlverişli imkan verirdi, plan və xəritə üzərində çayın 800 metrlik enini adlamaq onun cənubda "Vəlfəcr" əməliyyatında 2000 metrlik enini sovuşmaqdan çox-çox asan görünürdü. Bununla belə, qarşıda daha böyük təhlükə vardı. O da əməliyyatın ifşa olma ehtimalı və düşmənin indiyədək yüz min sayda qoşunlarımızın əməliyyatadək cənub zonasının müxtəlif hərbi hissə və düşərgələrində təlim hazırlığından xəbərdar olması idi.

Bütün diviziyalar arasındakı müştərək taktiki prinsiplərə rəğmən bu dəfə öz diviziyamızın rolu iki cəhətə görə fərqlənirdi. Əvvəla, birinci dəfə olaraq qüvvələrimizin ilkin hücumda iştirakı məsələsi qarşıya gəlirdi. Halbuki Favdakı keçən əməliyyatda piyada qoşunların tərkibində növbəti hücuma qoşulmuşduq. İkincisi, bizim əməliyyat dairəmiz beş diviziyanın hərəkət planı üzrə ortada yerləşirdi və

dalğıclarımız da iki Karun-Ərvənd çaylarının qovuşduğu nöqtədən suya daxil olmalı idilər. Belə ki, tam gizli şəkildə İraqın oradakı "Ümm əl-rəsas" adasının bir bucağından sovuşub, o taya adlamalı və qəfil gecə basqını əsasında adanın sol nahiyəsində düşmənin 3 km-lik ərazini əhatə edən cəbhə xəttini ələ keçirməli idilər. Həmin nahiyədəki ada İraqa strateji əhəmiyyət daşıdığından hökmən sayıqlığını artırır və bu da dalğıcların işini çətinləşdirirdi. Odur ki, hələ Dezfulda "Şəhid Mədəni" hərbi hissəsində olarkən xəbər verdilər ki, İraq təyyarələri Getvənd səddi kənarındakı "Cəfər Təyyar" dalğıc batalyonunun düşərgəsini bombardman edib və dalğıcların çoxu şəhid olubdur. "Cəfər Təyyar" batalyonu bir zaman Məcnun adasında 90 dalğıcla vuruşurdusa, indi isə üç o qədər qüvvə toplamışdı və hətta piyada qüvvələrin dalğıc üzvləri də onlara qoşulmuşdu. Odur ki, Cəfər Təyyar dəstəsi batalyon səviyyəsinə qalxmışdı. Deməli, onlar kəşfiyyat-əməliyyat qrupunun təyin etdiyi nahiyələrdən nüfuz edərək düşmənin 3 km-lik ərazidəki cəbhəsini yarmaqla qayıqlar və piyada qoşunların iti hücumuna şərait yaratmalı idilər. Amma bombardmandan sonra komandirlər arasında qarşıdakı əməliyyatla bağlı düşmənin məlumat əldə edib-etmədiyi barədə tərəddüd və şübhələr artdı.

Bununla belə, neçə gündən sonra öz personalımla əməliyyat məntəqəsinə yollandıq və Karun çayının sahili və Ümm əl-rəsas adası qarşısından əməliyyat məntəqəmizin əhatəsini müəyyən etdik. Şaqulumuz quru nahiyədə düşmənin arxa cəbhəsində bizimlə "Abdullah" batalyonunun birləşdiyi nöqtə idi. O batalyonla qarşı tərəfin ön cəbhəsi arasında 2 km məsafə vardı. Onların kənarımızda olmağı bizə ürək-dirək verirdi. Hər dəfə irəli nəzər yetirəndə düşmənin müdafiə mövqelərində tez-tez dəyişikliklər müşahidə olunurdu. Onlar cəbhə xəttinin arxasındakı xurmalıqları qırıb, sahilədək quru yollar salır, Ərvəndin daxilini və bu tayı nişan almaq üçün tankların üzərinə qalxa biləcəyi xırda təpəciklər hazırlayırdılar. Eləcə də ön cəbhə boyu kanal tipli beton səngər uzanıb gedir, üzərində sıra ilə pulemyot, duşka, hətta hava hücumuna qarşı zenit top və qurğuları gözə çarpırdı. Bütün bunlar düşmənin əməliyyatdan xəbərdar olma ehtimalını bir az da artırırdı.[1] Hər halda biz vəzifəmizin tələbinə uyğun əməl edir, komandir heyətindəki hər hansı tərəddüdün ixtiyarındakı qüvvələrə keçməsinə

[1] Son dövrdə əldə edilən sirli məlumatlara əsasən, "Kərbəla-4" əməliyyatında qüvvələrimizin bütün hərəkəti təfərrüatı ilə Amerikanın "Avaks" radar aparat və qurğuları tərəfindən izlənilib, vaxtaşırı İraqa məlumat verilirmiş.

imkan vermirdik. Odur ki, əməliyyat məntəqəsinə dair həssas məsələlər həmişə gizli saxlanılırdı. Əlbəttə, diviziya komandanlığının yığıncaqlarında hər birinin öz rəyi dinlənilir, heç bir batalyon komandiri məsələyə laqeyd yanaşmır və diviziya komandiri də hər hansı məntəqədə əməliyyatın qeyri-mümkünlüyü barədə fikir yürütmürdü. Bütün cəbhə zonalarında komandirlər belə tərəddüd və şübhələri inam və təvəkküllə aradan qaldırır, eyni halda şəraitə uyğun lazımı tədbirləri nəzərə alırdılar.

Əməliyyata iki-üç həftə qalmış Mehdi Kiyaninin göstərişi ilə bütün batalyon komandirləri dalğıc kəşfiyyat-əməliyyat qüvvələri ilə birgə düşmənin cəbhə xətti ilə yaxından tanış olmaq üçün Ərvənd çayına baş vurmalı oldular. Necə deyərlər, könlü balıq istəyənin, ayağı suda olmalı idi. Bu zaman fikrim yenə avtobusun şüşəsinə yazılan kəlməyə getdi. Beləliklə, hər gecə bir-iki batalyon komandiri neçə bələdçi ilə dalğıc formasında kəşfiyyata gedirdi. Özüm də üç-dörd dəfə gecənin qaranlığında Ərvəndi keçərək sahildən düşmən qüvvələrinin ümumi vəziyyəti ilə tanış oldum. Xəbərimiz olmadan onlar da bizi izləyir, hələlik atəşə əl atmırdılar.[1] Hər dəfə kəşfiyyatdan qayıtdıqdan sonra

[1] Növbəti "Kərbəla-5" əməliyyatında əsir düşən düşmən komandirlərindən biri bu haqda belə deyir: "İranın dalğıc

donan bədənimizin və şaqqıldayan dişlərimizin soyuğunu çıxarmaq üçün qaynar suda yuyunurduq. Həqiqətən qarşıda bizi çətin əməliyyat gözləyirdi. Əlbəttə, qışın soyuğuna görə Məcnun adasındakı susuzluqdan xəbər yox idi. Amma yenə də su ilə çarpışmalı idik...

---

qüvvələrinin kəşfiyyat əməliyyatlarını gizli surətdə izləsək də verilən tapşırığa əsasən, qətiyyən atəş açılmır və vəziyyətin adi olduğunu nümayiş etdirirdik."

Əməliyyatdan qabaq Məcnun adalarının ümumi xəritəsi, 1986

Şəhid Möhsün Ümidi ilə şəhid Müstəfəvi



Cənubi Məcnun adasına yollanarkən, Şəhid Mədəni hərbi düşərgəsi, Dezful, 1986



Şəhid Möhsün Ümidi (ortadakı şəxs) ilə xatirə şəkillərinə baxarkən



Sağdan: Şəhid Möhsün Ümidi, şəhid Nasir Zeyğəmi, şəhid Səid Qurbani və şəhid Məcid Rəzii



Qayınatam şəhid Xudamurad Sulgi

Soldan: Xudamurad Sulgi, şəhid Əmir Sulgi, qayınanam. Nəhavənd, 1986



"Qasim bin Həsən" batalyonunun komandiri şəhid Möhsün Eynəli

O, bizim diviziyadan Məcnun adasının qərb bucağında şəhid olan birinci komandir idi.



"Əli Əkbər" batalyonunun komandiri Rza Şükripur.

Şəhid olmazdan qabaq camaat namazını onun arxasında qıldıq. Fav döyüşlərində aldığı qəlpə yarasından həmişə əziyyət çəkirdi.

Məcnun adası, 1986

Diviziyamız harada əməliyyat keçirirdisə, ora şəhidlərimizin məzarına çevrilirdi.





Məhərrəm ayının 7-nə keçən gecə, 1986

Məcnun adasına yollanmazdan qabaq təşkil edilən mərasimdə hacı Sadiq Ahəngəranın iştirakı ilə mərsiyə, "Aşura" ziyarətnaməsi oxundu və sinə vuruldu.

Əməliyyatın son anlarında şəhid və yaralılardan mümkün olanları geriyə gətirdik, amma Möhsün və başqalarının cəsədləri bəndin qərb hissəsində qaldı.

Şəhid və yaralıların bir qismi quruda qaldı, qalanları isə suda qərq oldular.

Doqquzuncu fəsil

Biz Əbülfəzl batalyonuyuq

Dekabr ayında Həmədan vilayəti üzrə neçə məsul şəxs, o cümlədən, Həmədan cümə imamı höccətül-İslam Musəvi və vilayət icra hakimi "Şəhid Mədəni" hərbi hissəsinə görüşə gəldilər.[1] Adətən, hər əməliyyat qabağı cümə imamları qoşunlara baş çəkir, vəziyyətləri ilə maraqlanır və döyüşlərdə uğur üçün xeyir-dua verirdilər. Xüsusi olaraq seyidlərə, habelə höccətül-İslam Musəviyə dərin hörmətim vardı. Demək olar, bu rabitə ikimizin arasında qarşılıqlı idi. Həmin gün diviziyanın komanda heyəti yığıncağında Mehdi

[1] Ayətullah seyid Əbülhəsən Musəvi 1981-ci ildə inqilabın rəhbəri imam Xomeyninin sərəncamı ilə Həmədanın cümə imamı təyin edilmişdi. O, səkkiz illik müharibə illərində vilayət hərbi birləşmələrinin maddi və mənəvi dayağı sayılırdı. (vəfatı, 2004)

Kiyaninin əməliyyatla bağlı izahatından sonra höccətül-İslam Musəvi söhbətə başlayaraq Allah yolunda cihadın dəyərindən, niyyətin paklığı və vəzifə borcundan söz açdı və daha sonra "Təvəssül" duası oxundu.[1] Belə mənəvi mərasimlərdə həmişə keçmiş təəssüratlarım yadıma düşürdü. Doyunca ağlayandan və komandir otağından çölə çıxandan sonra höccətül-İslam Musəvini qucaqlayaraq üz-gözündən öpüb, ondan gecə namazlarında aqibətimin xeyirli olması barədə dua etməyini dilədim.

Görüşdən sonra – hər gecə qayda üzrə olaraq – qüvvələrimi bir yerə toplayıb, onlara əməliyyat məntəqəsinin yeri, əhəmiyyəti, mənəvi hazırlığın və qeybi imdadların rolu barədə söhbət etdim. Batalyonumuzun sıralarına eyni ailədən bəzən iki-iki, üç-üç, dörd-dörd qoşulan qardaşlar vardı və başlarına eyni vaxtda hadisə gəlməməyi üçün bir-birindən ayırıb, başqa-başqa bölmələrə göndərirdim. Vaxtımız az olduğundan bu barədə batalyona adi əsgər kimi qoşulan hacı Məhəmməd Talibi[2] ilə məşvərət etdim. O, dini sahədə savadlı

---

[1] "Kərbəla-4" əməliyyatındakı uğursuzluq barədə müxtəlif rəy və nəzərlərə rəğmən qeyd edilməlidir ki, onun başlıca səbəbi düşmənin qabaqcadan əməliyyatın zaman və məkanından xəbərdar olması idi.

[2] İlk fəsillərdə qeyd edildiyi kimi Məhəmməd Talibi inqilabdan qabaq mübariz "Əbuzər" qrupunun müəllimi sayılırdı. Onun əksər şagirdləri "Qəsr" zindanında edam olundu və özü də ömürlük həbsə məhkum edildi. O, şah rejimi devrilənədək zindanda qaldı və inqilabın qələbəsindən sonra bir çox siyasi məhbuslar kimi azad oldu. Qələbədən sonra onun fəaliyyətləri bir az da artdı və yetişdirdiyi cavanların əksəriyyəti cəbhələrə, habelə bizim Əbülfəzl batalyonuna qoşuldu. O, Nəhavəndin təlim-tərbiyə mərkəzinin müdiri olsa belə cəbhələrdə də fəaliyyət göstərirdi. Nəhayət, 1991-

bir şəxs kimi biz Nəhavənd döyüşçüləri tərəfindən əxlaq və mübarizə meydanının ustad və müəllimi sayılırdı. Amma o, komandirlərin fikrinə əks olaraq belə dedi: "Bizim neçə illik müqəddəs müdafiə xarakterli döyüşlərimiz Kərbəla və Aşuradan qaynaqlanan meyarlarla bəzəndiyi üçün qardaş qardaşın, ata övladın kənarında çiyin-çiyinə vuruşmağı daha məqsədə uyğundur..."

Dekabrın 19-da Dezfuldan Abadana sarı yola düşdük. Əməliyyat məntəqəsinə çatınca yol kənarı boyu uçulan karvansara, qonaq evi və s. obyektlərdə gecələməli olduq. İstəyirdim ki, əməliyyat gecəsinədək batalyonumu ən yaxın məntəqədə yerləşdirim. Bir həftə ərzində diviziyanın bütün batalyonları gizli şəkildə əməliyyat məntəqəsinə yaxın nahiyələrdə yerləşdi. Bununla bərabər arxa cəbhədə səhra sanitar ocaqları, yaralı və şəhidlərin arxaya köçürülmə komitələri təşkil edildi və Abadan cəbhə zonasına minomyotdan tutmuş top, katyuşa, zenit qurğularınadək ağır texnika yeridildi. Ayın 23-ü axşamüstü batalyonlar bir-bir Karunun sahilində yerləşən estakadaya doğru yollanaraq çaya 3 km qalmış əməliyyat əmrini gözlədilər. Əməliyyatın müvəffəqiyyəti birbaşa dalğıc qüvvələrinin operativliyindən asılı idi. Hər bir diviziyanın dalğıc batalyonu ilə bərabər "Cəfər Təyyar" dalğıc batalyonu da (Getvənd səddi sahilində bombardmanda çoxlu itki versə də) tez bir zamanda qüvvələrini bərpa edərək əməliyyata hazır olmuşdu. Onlar qoşunlarımızın avanqard birləşməsi olaraq sahilin üç nöqtəsindən çaya baş vurdular. Beş diviziyanın dalğıc qüvvələrinin zaman və hərəkət üzrə yekdilliyi olduqca çətin

---

ci ildə münafiqlərlə döyüş zamanı şəhadətə qovuşdu və heç vaxt cəsədi tapılmadı.

və həssas məsələ idi və hər birinin irəli və ya geri düşməyi vəziyyəti bir az da çətinləşdirə bilərdi. Odur ki, hər giriş nahiyəsinin iki sahil arasındakı məsafə təfavütü, hava-su iqlim şəraiti və s. dəqiq nəzərə alınmışdı. Axşam namazından sonra saat yeddi radələrində qüvvələrimiz növbə ilə səkkiz sərnişin daşıya bilən qayıqlara mindilər. Hamımız dalğıclar tərəfindən düşmənin ön cəbhəsi yarılandan sonra o taya çatmalı idik. Bütün qayıqlar sahil boyu zəncirvarı şəkildə sıraya düzülmüşdü və əmri gözləyirdi. Düşmən cəbhə xəttinin süqutu barədə məlumat dalğıc birləşmələri baş komandiri Kərim Mütəhhərinin atdığı fişənglə əlamət verilməli idi. Bizim batalyon Səttar İbrahiminin "Əli Əsgər" batalyonunun arxasında sıraya düzülmüşdü. Özüm birinci qayıqda, üç dəstə komandiri də məndən arxadakı qayıqlarda oturmuşdular. Hələ saat on radələrində dalğıclar çayın ortasına çatmışdılar. Onlarla plan-əməliyyat komandiri seyid Məsud əlaqə saxlayır, mən də diviziya komandiri ilə rabitədə idim. Zaman sanki yubanır, çox gec keçirdi. Dalğaların enib-qalxması hərəkətə mane olurdusa, hələ sahilə yaxınlaşarkən ləpələrin geri dönməyi isə başqa problem idi. Arabir o taydan eşidilən tək-tük atışma səsləri təbii nəzərə çarpırdı. Amma bir anın içində yer-göy təyyarələrin gurultusu ilə lərzəyə gəldi və aləm bir-birinə dəydi. Müharibədən beş il keçməsinə baxmayaraq gecələr heç vaxt düşmən təyyarələrinin hücumu müşahidə olunmamışdı. Estakadanın o tərəf-bu tərəfi bombardman olunduqca əmələ gələn güclü tələtüm qayıqları bir-birinə qatdı və neçəsi alt-üst oldu. Ardınca gələn başqa təyyarələr başımızın üstünü par-par parlayan xüsusi fişənglərlə işıqlandırdılar. Bundan sonra başları suyun üzərində aydın görünən dalğıc qüvvələrimiz aşkar hədəfə

çevrildi və tək-tük güllə səsləri şiddətli gülləbaranla əvəz oldu. Hər tərəfdən pulemyot, duşka, qumbaraatan və s. atəşi yağırdı. Bütün nahiyəni gün kimi işıqlandıran fişənglər on beş dəqiqəyədək sönmək bilmirdi. Artıq o tayın yüz metrliyinə çatan dalğıcların irəli getməkdən başqa çarəsi yox idi. Saat on bir radələrində bütün ratsiyalar işə düşmüşdü və o taydan verilən məlumata əsasən, dalğıcların bir qismi sahildəki maneələri aşaraq sahil kənarı kanallara və səngərlərə nüfuz etmişdilər. Çıxılmaz vəziyyət hamını çaş-baş salmışdı. Tələtüm nəticəsində qayıqların nizamı tamam pozulmuşdu və qarşıdakı qüvvələr Karun səmtindən Ərvəndə doğru hərəkət edirdi. Daha diviziya komandirinin əmrini gözləmədim. Əmin idim ki, Səttar İbrahimi də hücum göstərişi alıb və düşmənə sarı irəliləyir. Dəstə başçılarına dedim: "Mən Ərvəndin birləşdiyi səmtə hərəkət edirəm və siz də müəyyən fasilə ilə ardımca gəlin!" Məqsədim qüvvələrimin birbaşa atəşə məruz qalmaması idi və yaranan ölüm-dirim mübarizəsindən məlum idi ki, qarşıda hansı həngamə baş verir. Hərəkət etməzdən qabaq bir anlıq başımı arxaya döndərdim. Təsadüfən gözüm suyun rəmzini qeyd edən könüllüyə düşdü. Bir anlıq baxışlarımız bir-birimizə yönəldi və su onları bir-birinə düyünlədi. Qayığın küncündən ayağa qalxarkən içimdən belə bir ilham baş qaldırdı: "Daha yubanma və imam Hüseynin şüarını söylə!" Qulaqları batıran atəş və partlayışların sədaları altında bütün vücudumla "Əgər Məhəmmədin dini yalnız mənim qətlimlə baqi qalacaqsa, onda ey qılınclar, gəlin məni haqlayın!" – deyib, qışqıraraq hərəkət əmrini verdim. İrəlilədikcə atəşin şiddəti artırdı. Yavaş-yavaş Ərvəndin Karuna qarışdığı nahiyəyə yaxınlaşırdıq. Düşmənin "Ümm əl-rəsas" adası

səmtindən atılan atəş yağışı əksər qayıqları işdən salmışdı və göydən üzərinə tökülən fişəng parçaları nəticəsində bir çoxu od tutub yanır, sanki suyun üzərində ocaqlar qalanırdı. Hədsiz qorxu keçirən qayıqçımız qamışlıqların kənarında qayığı saxlayaraq dedi: "Deyəsən, motoru işdən düşdü, hərəkət etmir!" Mən də başına qışqıraraq dedim: "Əgər bu dəqiqə işə salmasan, özüm işini bitirəcəyəm!"[1] Qayıqçı motoru işə salandan sonra yavaş-yavaş irəliləməyə başladıq. Bizimlə bərabər suyun üzü ilə dalğıcların, piyada qüvvələrimizin cəsədləri də Fars körfəzinə doğru hərəkət edirdi və bura əməlli-başlı qətlgaha çevrilmişdi. "Əli Əsgər" batalyonundan yalnız onun komandiri Səttar bu cəhənnəmdən o taya salamat keçərək dalğıclarla birgə döyüşürdü.[2] Bu əsnada seyid Məsud ratsiya ilə məlumat verdi ki, diviziya komandirinin tapşırığına əsasən, Ərvənd sularına daxil olmamış geri qayıtmalıyıq. Məlumatı verəndə,

[1] "Mirzə qüvvələri ruhlandırmaq üçün bəzən qəribə işlərə əl atırdı. Allaha and olsun, o gün döyüşçülər arasında əyninə jilet geyinməyən bircə o idi. Hamı yaxşı bilirdi ki, onda qorxu deyilən şey yoxdur və əsəbiləşməyi də yalnız qüvvələrinə görədir. Həmin gün Ərvəndin birləşdiyi nahiyəyə çatarkən qayıqçı qorxudan bir bəhanə ilə motoru söndürdü. Bunu başa düşən Mirzə ona dedi: "Dörd yüz nəfərin canını öz canına görə təhlükəyə salırsan? Burda hər hansı hadisə baş versə, hamımızın başına gələcək. Bəs, qayığı işə sal, yoxsa özüm sənin kələyini kəsəcəyəm!" Qayıqda hadisənin şahidi olan Rəhmətəli Şahmuradi, Nəhavənd, 24 oktyabr, 2013.

[2] O gecə Səttarın bütün qüvvələri şəhid və ya əsir düşdülər. O öz qardaşı Səmədi də döyüşdə itirdi. Dalğıclarımız iki gündən sonra onu yaralı halda düşmən sahilindəki yarısı yanmış bir gəmidən tapıb geri gətirdilər. Daha sonra Xürrəmşəhrə köçürüldü və 68 gündən sonra Şələmçədə "Kərbəla-5" əməliyyatında şəhid oldu.

özü də Ərvəndin ortasında idi. Doğrusu, geri qayıtmaq fikrim yox idi. Amma cihad meydanında hər hansı əmrdən imtinanın günah sayıldığını yaxşı bilirdim. Dəstə komandirləri ilə rabitə yaradılınca dərhal güclü işığı olan fənərlə onlara əlamət verdim ki, dayansınlar. Daha sonra var gücümlə "Geri qayıdırıq!" – deyərək qışqırdım. Tapşırığım aydın olmayanlara da ratsiya ilə xəbər verdim. Amma həmin qarışıqlıqda ondan çox qayıq dəstədən ayrılaraq irəli düşmüşdü və atəş, partlayış, eləcə də iki çayın qovuşaraq yaratdığı təlatüm nəticəsində hamının qarşısını almaq çətin məsələ idi. Hələ suların üzündə o tərəf-bu tərəfə gedən yaralıların çığırtıları da diqqəti cəlb edirdi. Qərara gəldim ki, əgər qayıdırıqsa, heç olmasa, Ərvəndin sularında neçə dövrə vurub, əlimizə keçən yaralıları xilas edim. Bir az irəliləmişdik ki, yenə qayıqçının əl-ayağı əsdi və qazı azaltdı. Əhvalım lap pozuldu. Düzü, onun da haqqı vardı. Hər tərəfdən güllə yağırdı və qayığımız da istisna deyildi. Elə biri gözümüzün qabağında gülləyə tuş gəldi və qayıqdan aşaraq suyun altına batdı. Çarəsiz özüm sükanı əlimə aldım və heç nəyə əhəmiyyət vermədən Ərvəndin ortasında dövrə vurmağa başladım. Beləcə, yolu itirərək çaş-baş qalan neçə qayığı da Karuna sarı geri döndərdim. Estakadaya çatanda, demək olar, hamımız su və palçıq içində idik. Yaralıları ayrı-ayrı qayıqlara yığmışdıq və hərə bir söz deyirdi. Dəstə komandiri Əhməd Kərəməli dizindən yaralanmışdı və onun kənarında uzanan Fərzad o vəziyyətdə zarafatdan qalmayaraq dedi: "Mirzə, dediyin kimi silahlarımız əla tuşlanmışdı!"[1]

[1] Əməliyyatdan qabaq Fərzad Süleymani belə bir sual vermişdi: "Əgər birdən çayın ortasında birbaşa atəşə məruz qalsaq, o vaxt nə etməliyik?" Mən də dedim: "Artilleriyamız düşmənin ön cəbhəsinə

Məcnun adasındakı əməliyyatdan sonra bu ikinci dəfə idi ki, bütün cəbhə qəm və matəmə qərq olurdu. Əməliyyatda bütün diviziyaların uğursuzluğu təqribən bərabər idi. O taydan düşmən qüvvələri qələbə münasibəti ilə havaya atəş açırdılar. İraq radio xəbərlərində bu əməliyyat "Böyük qələbə" kimi hallanırdı. Zahirən əməliyyat məğlubiyyətlə nəticələnsə də təxminən bütün diviziyalarda cüzi itkidən başqa yalnız dalğıc batalyonları böyük tələfata məruz qalmışdı.[1] Odur ki, növbəti əməliyyat üçün kifayət qədər qüvvə vardı və sadəcə döyüşçülərə hakim olan qəm-kədəri aradan qaldırmaq, yeni ruh yüksəkliyi yaratmaq lazım idi. Belə hallarda yenidən ruhlandırma və psixi hazırlıq işi komandirlərin üzərinə düşən çətin və mühüm məsələ idi. Odur ki, çoxları çəkinmədən "Məlum idi ki, düşmən qabaqcadan əməliyyatdan xəbərdar imiş! Bəs, nəyə görə komandirlər bu haqda lazımı tədbir görməyiblər? Elə isə dalğıcların faciəvi şəkildə şəhadətinə qiyamətdə kim cavabdeh olacaq?!" – deyərək etirazlarını bildirirdilər.

Üst-üstə qalanan bütün dərd-qəm içində hədsiz əzab və sıxıntı keçirərkən qərargahdan əmr gəldi ki, təcili Abadana "Mino" adasına yollanım. Hansı ki, "əl-Məhdi" diviziyası Ərvəndin o tayına həmin nahiyədən keçmişdi. Məni ora çatdırmaq üçün ixtiyarımda maşın yox idi və öz maşınımı da qüvvələrin geriyə daşınması işinə həsr etmişdim. Hansı

---

o qədər mərmi endirəcək ki, başını qaldırmağa fürsət tapmayacaqlar. Həmçinin bu tayda 106 kalibrli toplar birbaşa düşmən səngərlərinə tərəf tuşlanıb və hər hansı atəşi yerindəcə susduracaq."

[1] Bizim diviziyanın "Cəfər Təyyar" dalğıc batalyonunun bir qismi yaralandı, bir qismi şəhid oldu, bir qismi də əsir düşdü.

məqsədlə çağırıldığımı soruşa bilmədim və ehtimal verdim ki, yəqin əl-Məhdi diviziyası düşmənin ön cəbhəsini yarıb və hal-hazırda yardıma – məsələn, bizim batalyona ehtiyac var. Hər halda vəziyyətlə yaxından tanış olmalı idim.

Yollar mənə tanış idi. Neçə illər qabaq əsgərlik xidmətimi o məntəqədə keçirmişdim. Çayın sahili ilə aşağıya doğru irəliləyərək 4-5 km piyada yol getdim və düşərgəyə yetişib, özümü təqdim elədim. Diviziya komandirinin başı öz işlərinə qarışmışdı və tapşırıqdan xəbəri yox idi. Neçə dəqiqədən sonra ratsiya ilə qərargaha məlumat verdim ki, burada heç kim cavabdeh deyil və təyinatımla bağlı maraqlanan yoxdur. Əmr verildi ki, hər iki cəbhədə eyni vəziyyət hakim olduğundan geri qayıdım. Bir daha həmin neçə kilometri piyada geri qayıtdım və səhərə yaxın özümü qərargaha yetirdim.

"Müslim bin Əqil" batalyonunun komandiri Həsən Tacuk qarın nahiyəsindən yaralanmışdı və xərəkdə uzanmışdı. "Əli Əsgər" batalyonunun komandiri Səttar İbrahiminin də vəziyyəti naməlum idi və o taydan salamat qayıdan neçə dalğıcın dediyinə görə, İraqın yanmış gəmilərinin birində gizlənmişdi.

Ertəsi gün səhərdən etibarən batalyonun mühəndis qrupunun rəisi Səid Badami mikrofonla bu taydan o taya uca səslə "Ya Səttar! Ya Səttar!" – deyərək ona əlamət verməyə başladı.[1] Beləliklə, hava qaralandan sonra axşam neçə dalğıc onu yaralı vəziyyətdə düşmənin çəngindən çıxarıb geri gətirdi. Soyuqdan bədəni keyimiş, dişləri kilidlənmişdi. Qaynar su ilə yuyunandan sonra donu açıldı və o tayda baş

[1] Səttar Allahın adlarından biri olduğu üçün düşmənin diqqətini yayındırmaq üçün onun adı nida işarəsi ilə çağırılırdı.

verənləri, ağır tələfatı və qardaşının şəhid olduğunu danışdı. Elə o gün batalyonumuz Əbu Şanik kəndinin kənarındakı xurmalıqlarda düşərgə saldı. Dərhal diviziya komandiri tərəfindən növbədənkənar yığıncaq təşkil edildi və baş verənlər barədə qısa məlumatdan sonra bütün batalyon komandirlərinə belə tapşırıq verdi: "Siz də öz növbənizdə qüvvələrinizi vəziyyətdən agah edin! Bunu bilin ki, "Kərbəla-4" əməliyyatı hələ başa çatmayıb!" Bu, əvvəldən uğurlu əməliyyat məqsədi ilə gələn əksər qüvvələr üçün olduqca sevindirici xəbər idi. Bununla belə, bəzilərini hələ də şübhə və suallar narahat edir, Nəhavəndə qayıtmaq istəyirdilər. Anlaşılmazlığa yekun qoymaq üçün hamıya müraciətlə dedim: "Mən sizə fikrimi açıq söyləyirəm və bundan sonra hər biriniz azadsınız; istəyən getsin, istəməyən qalsın! Allah Qurani-kərimdə buyurur: Biz sizi sınağa çəkərik ki, imtahan zamanı mücahidlər və səbirlilər məlum olsun![1] Səbir və cihad məqsədə doğru aparan iki qanaddır! Dözümsüz və ağrı-acısız cihadın mənası yoxdur! Məgər "Hər gün Aşura və hər yer Kərbəla" şüarı öz mənasını itiribmi? Məgər Allah Peyğəmbərə belə xitab etmirmi: Münafiqlərə de ki, biz öldürsək də, ölsək də qalibik və bu iki dəyərdən biri hökmən bizim mükafatımızdır![2] Kərbəla yolunun sonu Allahın dərgahına qovuşmaqdır! Elə Seyidlər şahının Kərbəlaya yürüşü də həmin məqama yetmək, haqqı bərpa və batili məhv etmək üçün idi! Hər bir döyüşdə qələbə və ya məğlubiyyət bizə ikinci yerdə durur! Biz üzərimizə düşən vəzifənin quluyuq və həzrət Abbasın adını və bayrağını daşıyan batalyon fəxrlə ona bənzəməlidir! Həzrət Əbülfəzl

[1] "Məhəmməd" surəsi, ayə, 31.

[2] "Tövbə" surəsi, ayə, 52.

özü də heç vaxt "yoruldum" demədi, ürəyinə ümidsizlik kölgə salmadı və bütün vücudu ilə qardaşı İmamın qəlbindən qəm-kədəri dəf etməyə çalışdı! Biz də onu özümüzə ülgü bilməliyik!" Allahın mərhəməti ilə sözlərim bütün könüllülərin ürəyinə yatdı və ondan sonra kimsə cəbhədən qayıtmaq barədə söz açmadı. Halbuki o vaxtadək iki ay idi ki, heç kəs məzuniyyətə çıxmamışdı.[1]

***

"Kərbəla-5" əməliyyatına on beş gün qalırdı. Qərara alındı ki, bu müddət ərzində Nəhavənd məntəqəsindən – bizim Əbülfəzl batalyonundan başqa – "Qeys bin Müsəhhər" və "Həbib bin Məzahir" adlı iki batalyon da təşkil edilsin. Hələlik hər birinə kimin komandir seçiləcəyi məlum deyildi. Amma diviziya komandiri "Qeys bin Müsəhhər"ə bizim personaldan komandir təyin etmək fikrində idi. Bundan qabaq Rza Zərgəri "Əli Əkbər" batalyonunun komandiri təyin edilsə də hələ də kənarında Mehdi Zəfəri, Hüseyn Kiyani, Əlimurad Sulgi və Mətləb Qeysəri kimi təcrübəli hərbiçilər vardı və hər biri bu vəzifəni öhdəsinə ala bilərdi.[2]

---

[1] "Kərbəla-4 əməliyyatındakı uğursuzluqdan sonra Əbu Şanikə qayıtdıq. Bütün cisimlər xəstə və yorğun, ruhlar isə qəm-kədər içində idi. Məncə, o zaman heç kəs, hətta Mirzə Sulginin özü belə hakim olan vəziyyəti dəyişdirməyə qadir deyildi. Amma sözləri saf qəlbindən yüksəldiyi üçün olduğu kimi qəlblərə yatırdı. Danışdıqca özümüzü Kərbəlada hiss edir və yekdilliklə hər tərəfi "Ləbbeyk ya Hüseyn!" sədaları bürüyürdü." Hadisənin şahidi Şəmsəli Şahmuradi ilə müsahibədən, Nəhavənd, 23 dekabr, 2013.

[2] "Bu məsələ ilə bağlı diviziya komandirinə Əlimurad Sulgini məsləhət gördüm. Dedim ki, komandirliyə ləyaqəti çatır, Nəhavənddə hörmətli şəxs sayılır, döyüşçülərin etimadını

Komandirin tapşırığına əsasən, onlardan məsləhət bildiyimi təklif etməli və Nəhavəndə gedərək yeni qüvvələrin səfərbərliyi işini yoluna qoyandan sonra geri qayıtmalı idim.

Biz hərbçilərə Sepah öz evimiz sayılırdı. Odur ki, Nəhavəndin Sepah mərkəzi komitəsinə baş çəkib, qarşıdakı əməliyyatın əhəmiyyəti, kifayət qədər qüvvələrin cəlbi barədə xəbərdarlıq etdim. Oranın məsul heyəti bildirdi ki, bütün qüvvələri cəbhəyə cəlb edib, burada fəaliyyəti tamam dondurmaq olmaz. Məncə, düz deyirdilər və qüvvələrin səfərbərliyi və təlim işləri ilə bağlı bir qismin arxa cəbhədə qalması lazım idi. Lakin Kərbəla-4 və Kərbəla-5 əməliyyatları ilə əlaqədar yaranan vəziyyət hamının səfərbərliyini tələb edirdi. Bu barədə ayrıca heyətin sədri ilə danışdım və o da eyni fikri söyləyərək dedi: "Bura dükan deyil ki, qapısını qıfıllayaq!" Mən də ona zaman və məkanın, operativliyin əhəmiyyətini başa salmağa çalışdım. Birini o, birini mən deyərkən sözümüz mübahisəyə çəkdi. Axır, bilmədim ağzımdan nə çıxdısa, fikirləri tamam dəyişdi və məni bağrına basaraq dedi: "Gözlərim üstə, özüm də gələcəyəm!"

Havalar soyumuşdu və hər yerə qar yağmışdı. Qüvvə toplamaq üçün gün ərzində axşamadək işim məscidlərə, kəndlərə baş çəkmək idi. "Ləbbeyk ya Xomeyni" səfərbərlik çağırışı ilə tez bir zamanda "Həbib bin Məzahir" batalyonu təşkil edildi və Əhməd Kərəməli onun komandiri seçildi. "Qeys bin Müsəhhər" batalyonunun komandirliyini də

---

qazanıb... Bunları deyərkən gördüm ki, Mehdi Kiyaninin gözləri yaşardı. Soruşdum: Gözlənilməz hadisəmi üz verib? Dedi: Heç bilmirəm Əbülfəzl batalyonunda nə baş verir. Elə bu gün səndən qabaq onun özü bura gəlib, eyni fikri barənizdə söylədi." Mayor Mehdi Zəfəri ilə müsahibədən, Məşhəd, 26 yanvar, 2014.

sepahda səfərbərlik işlərinə baxan Həsənmurada təklif etdim. Həmin ərəfədə İmamın şur və şövq dolu bəyanatı elə dərin təsir qoydu ki, tez bir zamanda məscidlər və ezam mərkəzləri cihad və cəbhəyə meylli könüllülərlə doldu. O vaxt qısa zamanda döyüş sıralarına bu qədər həyəcanlı axının misli görünməmişdi. Demək olar, kəndlərdə cavan qalmamışdı və hamı cəbhəyə getməyə can atırdı.

Qapısınadək dolu avtobuslarla cənuba döndüm və diviziya komandirinə raport verəndən sonra öz batalyonuma qayıtdım. Batalyonun qərargahına daxil olanda, Hüseyn Kiyani dedi: "Ay xətakar, axır, öz işini gördün!" Onunla, eləcə də Heydər Söhrabi ilə aramızda zarafatımız vardı, bəzən uşaqların gözündən kənar bir-birimizlə tutaşardıq, güləşərdik, həmişə ikisi məni təkləyərdilər.[1] Burada da yenə ikisi birləşərək "xoşgəldin" əvəzinə zarafatla əl-ayağımdan yapışıb, çəkişməyə başladılar. Haçandan-haçana anladım ki, onların narahatçılığı rütbələrinin yüksəldiyinə görədir. Əvvəlcə, hər ikisi dəstə komandiri idilərsə, indidən belə Hüseyn mənim canişinim idi və Heydər də "Qeys bin Müsəhhər"in komandir müavini təyin edilmişdi. Hər ikisinin gözəl xisləti vardı. Heydər kəndçi balası idi və işləməkdən yorulmazdı. Hüseyn də öz məntəqəsində savadlı bir şəxs kimi tanınırdı və azacıq fürsət tapan kimi başını mütaliəyə qatırdı. Elə bil, onun üçün hər gün imtahan idi. Gah Quran oxuyur, gah dua, gah da dini maarifə dair kitablara baxırdı. Hətta yaralandığı vaxt Dezfulda bir sutka kənarında qalarkən yenə də başını mütaliədən qaldırmırdı. Bu qədər mütaliəyə həvəsin nəticəsi onun parlaq baxışı, xalis niyyəti və hər hansı

[1] Neçə gündən sonra hər ikisi Kərbəla-5 əməliyyatında şəhid oldu.

şöhrət və rütbədən imtinası idi. Demək olar, indiyədək batalyonun əsas işləri onun öhdəsinə düşürdüsə, əsla özünü komandir canişini vəzifəsində görmək istəmirdi. Heydər də ondan geri qalmazdı və Allah bilir ki, özüm onların halına qibtə edirdim.

Yanvar ayının 4-ü diviziya və batalyon komandirləri ilə əməliyyat məntəqəsinə baş çəkməyə getdik. Xürrəmşəhrə çatmamış asfalt yoldan dönərək gəlib, əksər nahiyəsini su basan məntəqəyə çatdıq. Yenə də su, yenə də onunla çarpışmaq lazım gəlirdi. Burada Hur və ya Ərvəndin coşan sularından xəbər yox idi. Sadəcə iraqlıların iki cəbhə arasında süni şəkildə saldığı gölməçəliklər idi. Əvvəlcə xəritə üzündən məntəqə ilə tanış olduq. Göllük bizim iki "Kutsəvari" və "Bubiyan" zastavamız arasındakı ərazini əhatə edirdi. Bura sular Şələmçə süni balıq yetişdirmə təsərrüfatından axıb, gəldiyi üçün balıq gölü adlanırdı. Göllüyün 6 kv.km sahəsi və yarım metrdən bir metr yarımadək dərinliyi vardı. Hələ bura su yeridilməzdən qabaq başdan-başa tikanlı məftillər və s. təhlükəli maneələr quraşdırılmış sərhəd bölgəsi idi. Müşahidə qülləsindən qarşıya tamaşa edərkən sadəcə sular və müəyyən fasilə ilə səngər xarakterli təpəciklər görünürdü. Kərbəla-4 əməliyyatından sonra bu nahiyənin seçilməyi əbəs deyildi. Qeyd edilən çətinliklərə baxmayaraq ötən əməliyyatda Ərvənd sularında çarpışarkən sepahın iki "Əbülfəzl-58" və "Fəcr-19" diviziyaları da burada vuruşaraq iki nöqtədən düşmənin cəbhə xəttini yara bilmişdi. Həmin məsələ "Xatəmül-ənbiya" qərargahında növbəti əməliyyatın planını hazırlayanların zehnində qığılcım yaratmışdı. Qüllədən ümumi vəziyyətlə tanış olandan sonra batalyonun təxmini əməliyyat hüdudlarını da nəzərə aldıq. Hamıya

mövcud şəraitə əhəmiyyət vermədən və bəhanə axtarmadan əməliyyatı üzərimə götürməyim bəlli idi. Amma buradakı maneələrdən xəbərdar olandan sonra içimdə bir qədər tərəddüd yarandı.

Qərargahın yığıncağında bu tərəddüdü başqa batalyon komandirləri tərəfindən də hiss etdim. Hamıda eyni fikir yaranarkən komandirin qəti qərara gəlməyi də çətinləşirdi. Onun obyektivliyinə bələd olduğum üçün məsələni hökmən yuxarıya məlumat verdiyinə əmin idim. Hər halda Şələmçədə əməliyyat baş qərargahın yekun rəyi idi. Cihad anlamında "əmr" şəri vəzifə hökmünü daşıyırdı. Amma bu kor-koranə itaət deyil, istənilən sual və məşvərətlə birgə idi. Biz komandirlər kifayət qədər qane olmalıydıq ki, öz qüvvələrimizi də qane edə bilək. Odur ki, yığıncaqda öz fikrimi belə söylədim: "Biz sabiq rejimin əsgərləri deyilik ki, hər şeyə göz yumaraq əmri icra edək. İnqilabdan sonra İmam bizə göstərdi ki, çox yerdə sorğu-sual lazımdır. Vəzifə öz yerində, amma göllükdən hansı vasitə ilə sovuşmağın mümkünlüyü mənə aydın deyil. Hələ suyun altı da maneə ilə doludur. Belə vəziyyətdə altı ilə nə dalğıc və dayaz suyu üzəri ilə nə qayıq və nə də piyada qüvvə hərəkət edə bilər. Nə tam quru və nə bütöv su olmayan ərazidə bilmirəm hansı taktika üzrə döyüşməliyik." Yığıncaqda diviziyanın doqquz batalyon komandirindən dördü iştirak edirdi və demək olar, hamısı bizim batalyonun sabiq üzvləri idi. Bu yerli və məntiqli fikirdən sonra birdən ürəyimə damdı ki, başqalarını da şəkk-şübhəyə sala bilərəm. Ona görə də əsaslı problemlə yanaşı baş qərargahın çıxardığı qərara tabe olduğumu da qeyd etdim. Müzakirənin sonunda komandir vurğuladı ki, hələlik bizim diviziyanın ilk, yoxsa növbəti hücumlarda

əməliyyata qoşulması məlum deyil.[1] Yığıncaqdan sonra ürəyimi Allaha tapşıraraq Quran açdım. Qəribə idi; bu ayə gəldi: "Kim Allaha təvəkkül etsə, ona bəs edər!"[2] Ayə bütün şəkk-şübhələri ürəyimdən sildi və əmin oldum ki, bu döyüşdə Allah bizimlədir və Kərbəla-4 təkrar olmayacaq.

Əməliyyat planına əsasən, diviziyamızdan əvvəlcə "Əli Əkbər", ardınca "Qeys bin Müsəhhər", daha sonra başqa batalyonlar, o cümlədən, bizim batalyonumuz əməliyyata girməli idi.

Yanvarın 8-də axşam "Əli Əkbər" batalyonu göllükdən sovuşandan sonra balıq yetişdirilən kanalın bir nahiyəsini ələ keçirdi.[3] Ayın 10-u "Qeys bin Müsəhhər" batalyonu onların yerini əvəz etmək üçün irəli yollanarkən xəbər verdilər ki, Nəhavənd şəhəri bombardman edilib. Əməliyyat qabağı qüvvələri ruhdan salmamaq üçün bu haqda heç nə demədim və xəbəri olanların da əzmində sarsıntı yaranmadı. Hamı bilirdi ki, düşmən böyük Kərbəla-5 əməliyyatının müqavimətini qırmaq üçün arxa cəbhədə şəhərləri

---

[1] Elə o cür də oldu. Əməliyyat "Seyyidüş-şühəda" diviziyasının dalğıc dəstələrinin iki cəbhə arasındakı nisbətən yaxın nahiyələrdən nüfuzu ilə başladı. Əməliyyatda çoxlu dalğıc şəhid olsa da maneələr aradan qalxdı və qüvvələrimiz balıq göllüyünü keçərək balıq yetişdirilən kanala çatdılar. Ondan sonra da bizim diviziya əməliyyata qoşuldu.

[2] "Tələq" surəsi, ayə, 3.

[3] Əməliyyat qabağı zarafatla onun komandiri Rza Zərgəriyə dedim: "Kərbəlada da həzrət Əli Əkbər həzrət Abbasdan qabaq meydana yollanmışdı!" Əməliyyatda onun batalyonu çoxlu yaralı və itkiyə məruz qalsa da böyük fədakarlıq göstərdi, özü də yaralanaraq geri köçürüldü, növbəti əməliyyatda bir daha yaralandı.

bombardman etməyə, dinc əhalinin qətliamına əl atıb. Özümə də dedilər ki, bombardman zamanı qayınatam şəhid olub və altı aylıq oğlum Hüseyn də yaralanıb. Bunu eşidəndə, istər-istəməz, oğlu Əmir şəhid olarkən onun Allahdan təmənnası yadıma düşdü. Demişdi ki, onun özünü də neçə aydan sonra oğluna qovuşdursun. Mənə cəbhə aləmi əsil mənada Kərbəla idi. Qüvvələrimə əzm və sarsılmazlığı tövsiyə edərkən ona bütün vücudumla inanır, Kərbəla qəhrəmanından ilham almağa çalışırdım. Bu acı xəbəri eşidərkən kənarımda vuruşan doğma qardaşlarıma və yaxın dostlarıma da bir söz demədim və sadəcə onu bir sınaq hesab etdim. Daha çox bir neçə ay ərzində qardaşı və atasını itirən həyat yoldaşıma ürəyim yandı və Allahdan ona Zeynəb (ə) səbri dilədim.

Axşamüstü Həsənmuradla görüşdüm. O da qüvvələrini əməliyyata hazırlayırdı. Neçə illər günlərimizi birgə keçirdiyimiz dostlar gözümün önündə irəli yollanır, hər birinin üzündə şəhadət nuru görünürdü. Əlimurad Sulgi, Heydər Söhrabi, Əlirza Əkbəri kimi igidlərlə vidalaşmalı oldum. Həsənmuradla ayrılarkən üzünü mənə çevirib dedi: "Mirzə, əgər bir də diviziyaya qoşulsam, heç vaxt komandir vəzifəsini üzərimə götürməyəcəyəm!" Soruşdum: "Niyə?" Cavab verdi: "Başağrısı yaman çoxdur! Gah qərargaha, gah o dəstəyə, gah bu dəstəyə daim baş çəkməlisən! Bu da oldu iş?! Elə dəstə başçısı olsam yaxşıdır!" Onun gözəl qaməti, ağ və parlaq siması vardı. Növbəti dəfədən söz açsa da ürəyimə damdı ki, bu nurlu simanın sahibi cismində çox qalmayacaq. Odur ki, dedim: "Yaxşı olar ki, sən bizə şəfaət etməyi yaddan çıxarmayasan!"

Həsənmuradın batalyonu yola düşdü və gecə yarısı balıq yetişdirilən kanalın ikinci körpüsünə çatdı. Onların gəlişindən xəbərdar olan düşmən qarşı və sağ cinahlardan ağır atəşə başladı. Mən ratsiya vasitəsilə onların qərargahla rabitələrinə qulaq asırdım. Eşidirdim ki, göllüyü keçəndən sonra qarşı və sağ tərəfdən düşmənin müqaviməti ilə qarşılaşıblar və bir hücumla sağ tərəfdəki sipər ələ keçib.

Səhərə yaxın yaralılar geri qayıtdıqca kimlərin şəhid olduğu da bir-bir məlumat verilirdi. Həsənmurad bud nahiyəsindən yaralansa da heç kim onun canını tapşıracağını güman etmirdi. Hava işıqlanınca itirdiyi çoxlu qana görə dünyanı tərk etdi.[1] Həmçinin o gecə "Qeys bin Müsəhhər" batalyonunun birinci komandir müavini Əlirza Əkbəri və ikinci müavini Heydər Söhrabi də şəhid oldular. Heydər də Həsənmurad kimi yaralanandan sonra şəhid oldu. Onunla birgə vuruşanlar deyirdilər ki, düşmən sipərini aşaraq o tərəfə addımını basan ilk döyüşçü Heydər oldu. Atışma zamanı qolundan yaralanarkən Əlimurad ona arxadan "geri qayıt" əmrini versə də bir addım belə geri çəkilmədi. Özü də yaxşı bilirdi ki, Heydərin əl-qolu qırılsa da geri dönən deyil. Yoldaşları qolunu çəfyə ilə bağlayandan sonra təkəlli döyüşü davam etdirdi və nəhayət, səhərə yaxın alnına dəyən güllə nəticəsində həlak oldu.[2]

"Qeys bin Müsəhhər" batalyonundan sonra növbə "Qasim bin Həsən"ə çatdı və onlar da eyni bölgəyə yollandılar. O

---

[1] Onun başqa iki qardaşı da bizim batalyonda vuruşurdu və hər ikisi sağ qaldı.

[2] Batalyonun komandir müavini Əlimurad iki aydan sonra İraqın Süleymaniyyə məntəqəsində əməliyyat zamanı şəhadətə qovuşdu.

vaxt hələ də bizim batalyonumuz Abadanda əmri gözləyirdi və mən də diviziyanın qərargahından vəziyyəti izləyirdim. Batalyon komandiri Möhsün Türkaşvəndin verdiyi ardıcıl məlumatdan görünürdü ki, düşmən itirdiyi nahiyəni geri almaq üçün var-gücünü o səmtə yönəldib. Tez-tez qışqıraraq arxadan yardım istəyirdi. Səsinin tonu eynilə ötən gecəki Həsənmuradın səsinə bənzəyirdi. Parolsuz məlumat verdiyi coşqun sədası hələ də qulağımda cingildəyirdi: "Qərargaha məlumat verin ki, biz düşmən qüvvələrinə şilləni ilişdirdik, təpiyi isə başqasına tapşırıram!" Şəhid Eynəlinin yerinə təyin edilən Möhsünlə qabaqcadan tanışlığım vardı və aramız pis deyildi. Odur ki, birbaşa dalğasına girərək dedim: "Möhsün, nə xəbərdir? Yaman hay-küy qoparmısan! Müharibədir də, halva paylamırlar ki!" O da belə cavab verdi: "Mirzə, heç eybi yoxdur! Sənin növbən də yetişər!"[1] Hər halda ikimiz də vəziyyətin nə yerdə olduğunu yaxşı bilirdik. Sirdaş və silahdaş olduğumuz üçün bir-birimizi belə ruhlandırırdıq. Amma həqiqətən haqqı vardı.

Yanvarın 11-nə keçən gecə qərara alındı ki, "Qasim bin Həsən"i əvəz etmək üçün öz batalyonumdan bir dəstəni (İrəc Zəfərinin komandirliyi ilə) irəli göndərib, ikisini ehtiyatda saxlayım. Müavinim Hüseyn Kiyani təkidlə xahiş etdi ki, o da Zəfəri ilə getsin və mən arxada qalım. Razılaşdım və bir-iki nəfəri də onlara qoşdum. Onlar yola düşməzdən qabaq saqqalına dən düşən yaşlı və bədənli bir döyüşçü düşərgənin ortasında əlindəki bayrağı o tərəf-bu tərəfə yellədərək dövrə vurmağa və şüar deməyə başladı. Nədənsə, görkəmi mənə tanış gəldi. Onun "ya Hüseyn" fəryadı mənə 1984-cü ildəki

[1] Növbəti gecə ayağım kanalın ikinci körpüsünə dəyəndə özüm də hər tərəfə yağış kimi yağan mərmilərin şahidi oldum.

əməliyyatı, həmçinin həcc səfərindəki hədsiz həyəcan və şövqünü yadıma saldı.[1] Burada da "ya Hüseyn", "ya Əbülfəzl" fəryadları yük maşınlarına minən könüllü qüvvələrimizi vəcdə gətirir, hər biri (maşın) sinələrinə döyən döyüşçülərin zikr və şüarları altında yola düşürdü. Alın və dəbilqələrinə qırmızı və yaşıl sarğılar bağlayan könüllülər əllərini tərpədərək düşərgə ilə vidalaşırdılar. Özüm də arxadan yola düşərək əməliyyat qərargahınadək onlarla bir getdim.

Qaranlıq çökəndən sonra yağış yağmağa başladı. Qışın sərt soyuğu hətta qərargahın üstü bağlı səngərində belə sümüyə işləyirdi. Məlum idi ki, belə şiddətli yağışda hökmən hamı islanacaq. Hüseyn Kiyani yol boyu neçə dəfə ratsiya ilə əlaqə saxlayıb, vəziyyətlə bağlı məlumat verdi. Hələ cəbhə xəttinə çatmamış partlayış səsləri arasında səsi itib-batırdı. Hər dəfə mənə ağsaqqal deyə müraciət edirdi. Onlar düşmən sipərinə çatınca bir müddət əlaqə kəsildi və bir də yağışın altında piyada ora yetişəndən sonra bərpa oldu. "Qasim bin Həsən" batalyonu kimi Hüseynin "Şəhid Bahünər" adını daşıyan dəstəsi də eyni şəraiti yaşamalı, səhərədək atəş altında keçinməli idi. Hələ düşmənin hücumları qarşısında müqavimət isə növbəti məsələ sayılırdı. Gecənin bir vaxtı Abbas Malmir məlumat verdi ki, Hüseyn Kiyani də Həsənmurada qovuşdu.[2] Artıq neçə illər ərzində hər

---

[1] O, qüvvələr arasında hacı Bəxşi adı ilə tanınan Həbibullah Bəxşi idi. Həmişə "Seyyidüş-şühəda-10" diviziyasının qoşunları arasında dolanardı. Amma hərdən başqa qüvvələrə də baş çəkər, onları da ruhlandırardı. Özü də 2010-cu ildə şəhid övladına qovuşdu.

[2] "O gecə başımıza o qədər mərmi yağırdı ki, bir səngər və çaladan o birinə getmək mümkün deyildi. Bizimlə Hüseyngilin

gözlənilməz hadisə və acı xəbərə hazır idim. Xüsusilə, əmin idim ki, Hüseyn kimi igidlərin xəstə yatağında canını tapşırmağı qeyri-mümkündür və Allah onlara yalnız şəhadəti yazıb. Bununla belə, göz yaşı və qəhərimin qarşısını ala bilmədim. Bir daha sevimli görkəmi gözümdə canlanaraq səmimi səsi qulağımda cingildədi: "Ay xətakar, axır, öz bildiyini elədin!" O sözü mənə canişin təyin ediləndə demişdi. Dərhal diviziya komandiri ilə əlaqə saxlayaraq dedim: "Müavinimlə birgə neçə nəfər şəhid olub! Mövcud vəziyyətlə bağlı ehtiyatda olan iki dəstəni irəli yollamaq üçün əmrinizi gözləyirəm!" O da yanıma yola bələd olan mühəndis qrupunun rəisi Səid Badamini göndərdi.

Bu neçə gün ərzində artıq balıq göllüyündən ön cəbhəyədək torpaq yol salınmışdı. Səid motosikletlə qabaqda, mən maşınımla arxasınca gedir və altı yük maşını da ardımızca gəlirdi. Torpaq tamam islanmışdı və maşınların palçığa batıb yarı yolda qalmağından qorxurdum. Çünki bu hadisə iki gün əvvəl Hüseyngilin başına gəlmişdi. Yol palçıq, sağ-solumuz bataqlıq olsa da, xoşbəxtlikdən, oxşar hadisə baş vermədi. Amma irəlidə yolu səhv salaraq kanalın qarşı tərəfinə gedib çıxdıq. Ön cəbhədən qüvvələrimizin "geri qayıdın" sədaları eşidilirdi. Təxminən düşmənin birbaşa hədəf nöqtəsi altında olsaq da qaranlığa və aləm qarışdığına görə, heç bir atəşə məruz qalmadıq. Belə dar yol və çətin vəziyyətdə maşınları geri döndərib, qayıtmağımızın özü möcüzə idi. Doğrusu, bütün bunları Allaha təvəkkül və Əhli-

---

səngəri arasında neçə metr fasilə vardı. Belə vəziyyətdə birdən onların səngərində güclü partlayış baş verdi və Hüseyn şəhid oldu. Başqa qüvvələr xəbər tutunca cəsədini hava açılmamış geri yolladıq." Abbas Malmirlə müsahibədən, Məşhəd, 26 yanvar, 2014.

beytə (ə), məxsusən, həzrət Zəhraya (ə) və bayrağını daşıdığımız həzrət Əbülfəzlə təvəssüldə görürdüm...

Düşmənlə aramızda partlayışlar nəticəsində əmələ gələn beş-altı metr dərinliyi olan xəndək vardı. Kanala o qədər yaxın idik ki, iraqlılar ucadan danışanda rahat eşidirdik. Əgər xəndək su ilə dolmasaydı, hər iki tərəf neçə addımla o biri tərəfin səngərlərinə girə bilərdi. İndiyədək hər yer alt-üst olmuşdu və şumlanmış sahəyə bənzəyirdi. Havanı başdan-başa qəliz barıt iyi bürümüşdü və Həsən Murad, Hüseyn, Heydər, Əlimurad kimi şəhidlərin ətrinə qarışmışdı. Səngərdən qalxan baş dəqiq atəşə məruz qalır, hökmən kimsə qurban gedirdi. Ona görə də müşahidəçilər gün ərzində düşmən tərəfi xırda şüşə və güzgü ilə düzəltdikləri alətlə izləyirdilər. Hərçənd onların çoxu da qəlpələrə məruz qalaraq sıradan çıxırdı. Qonşu səngərdə neçə azəri dilli könüllümüz vardı və çox vaxt bərkdən deyib-danışarkən o səmtdən iraqlılar da ucadan ərəb dilində cavablarını verirdilər. Öz-özümə gülmək tuturdu ki, bura necə cəbhədir. Atəşin şiddəti azalanda onlara baş çəkib zarafatla deyirdim: "Deyəsən, dilinizi yaxşı tapmısız və bir-birinizə atəş açmamaq üçün sövdələşirsiz!" Kanalın sol tərəfində boş sahə çox olduğundan döyüşlərin əksəri orada gedirdi və mən də hücumların qabağını almaq üçün qüvvələrin çoxunu o tərəfə yönəltmişdim. Burada müharibə tam mənada əks olunurdu və tərpənən canlı yerə sərilirdi. İndiyədək çoxlu yaralı və şəhid verdiyimizdən ertəsi gün axşam bizi başqa batalyon əvəz etdi və geri qayıtdıq.

Növbəti tapşırığa əsasən, bir-iki gün istirahətdən və nöqsanların bərpasından sonra kanalın qərbində yerləşən beşbucaqlı nahiyəyə yollanmalı idik. Beşbucaqlı nahiyə

əməliyyat məntəqəsinin ortasında iri və hündür sipər və istehkamlardan ibarət düşmənin sarsılmaz zastavası sayılırdı. Burada çaşmamaq və hər hansı maneə ilə əlləşməmək üçün xüsusi taktika tələb olunurdu. Demək olar, hər hansı kəşfiyyata əsla vaxt yox idi. Sadəcə hər bir qüvvənin hərəkətindən qabaq onun komandiri neçə bələdçi ilə uzaqdan həmin nahiyəni gözdən keçirəndən sonra geri qayıdıb, xəritə üzündən dəstə başçılarını ümumi vəziyyətlə tanış edirdi. Amma mənə hətta cüzi tanışlıq və müşahidə imkanı yaranmadı.

Yanvarın 17-si axşam üç dəstə tərkibində nəzərdə tutulan cəbhə xəttinə yola düşdük və bu dəfə heç yerdə azmadıq. Atəş başlayarkən yüyürərək özümüzü ön cəbhədəki sipərin arxasına yetirdik. Burada atəşin şiddəti kanalın həndəvərinə nisbət daha şiddətli və döyüş üsulu da daha çətin idi. Hara addım atırdıqsa, neçə qarış aşağı batır, bəzən çarəsiz cənazələrin üzərinə ayaq qoyaraq hərəkət etməli olurduq. Yəni hər iki tərəfdən ölənlər bir-birinə qarışmışdı və bəzən üst-üstə düşmüşdülər. Heç bir tərəf itirdiyi qüvvələri geri daşımağa fürsət tapmamışdı və ümumiyyətlə, heç bir şoferin bura yaxınlaşmağa cürəti yox idi. Biz özümüz də yolun bir qismini zirehli texnika ilə, qalanını da yüyürə-yüyürə neçə nəfəri itirərək gəlmişdik.

Döyüşün qızğın və sərt çağında diviziyanın kəşfiyyat-məlumat bölümünün komandiri bizim batalyona qoşulmuşdu. O da Nəhavənddən idi və diviziyanın yüksək rütbəli şəxslərindən sayılırdı. Bununla belə, sadə əsgər kimi kənarımızda döyüşürdü. Adı Məhcub (həyalı) və özü də adı kimi təvazökar idi. Atəşin şiddəti artanda hamıya "Uzanın!" – deyərkən, o da hamıya qoşularaq yerə uzanırdı. Vəziyyət o

qədər ağır idi ki, qüvvələri bölüşdürüb istənilən səmtə yönəltməyə macal tapmırdıq. Bu əsnada könüllü əsgərlərdən biri dedi: "Mirzə, buranın adı nədir?" Dedim: "Şələmçə!" Yaşı az və möhkəm iradəsi vardı. Üzünü ətrafımızdakı cəsədlərə tutaraq dedi: "Mənə elə gəlir ki, "qələmçə" daha doğrudur və bura dəyən ayaq qələm olur!" O cür ağır şəraitdə adi bir yeniyetmənin dilindən çıxan belə soyuqqanlı kəlmə özü də bir qənimət idi. Mən də dedim ki, süngü və ya hər nəyinlə özünə çala qaz ki, ayağın qələm olmasın.

Qarşıda tanklardan əsər-əlamət olmasa da düşmən istehkamlardan ağır top və katyuşalardan tutmuş adi qumbaraatanadək sipər və səngərlərimizi lərzəyə salırdı və başımız üzərindən ildırım kimi ardı-arası kəsilməyən güllələr sovuşurdu. Ön xətt və mehvər komandiri Səid İslami həmişəki kimi təmkinli və gülümsər görünürdü. Məni buranın döyüş vəziyyəti ilə tanış edərək dedi: "Ümmül-qəsrdəki şəraitlə müqayisədə bura döyüş və müqavimət baxımından daha həssas və daha çətindir. Belə ki, gecələr yalnız atəşdirsə, gündüzlər onunla bərabər hücumlarla çarpışmaq lazım gəlir. Qonşu batalyonların idarə və istiqamətləndirilməsi də onun öhdəsinə idi. Demək, Səid bizdən ayrılandan sonra Abbas və Məhcubla bir-iki dəfə sipər boyunca o tərəf-bu tərəfə dolanaraq qüvvələrimizə baş çəkdik. Hamı gülləbaran və mərmilərin atəşi nəticəsində çala-çuxurlarda yumularaq vəziyyətin sakitləşməyini gözləyirdi.[1]

[1] Sanki düşmənin ovcunun içində idik və başımızı qaldırmağa aman vermirdilər. Atəşin ağırlığından arzu edirdim ki, yer yarılıb bizi udsun və bu cəhənnəmdən xilas olaq. Təqribən ilan kimi sipərin bir küncündə yumulub gizlənmişdim. Birdən gördüm ki, sipərin üzəri ilə bir nəfər hərəkət edir. Fikirləşdim ki, bəlkə də

Gecənin bir aləmi Məhcub dedi: "Mirzə, az da olsa, mürgüləmək fikrin yoxdur?" Düzü, yuxusuzluqdan göz qapaqlarımın ağırlığını belə hiss edirdim. Odur ki, dedim: "Əlbəttə! Amma bir saatdan sonra hökmən oyat!" Sığınmağa yaxınlıqdakı çaladan başqa sipərin hər tərəfi eyni idi. Orada da rabitə qrupunun üç üzvü[1] ilə yeddi nəfər uzanmışdı. Başımdan dəbilqəmi çıxarıb, onların kənarında uzanarkən Məhcub yenə səmimi tonla dedi: "Mirzə, xahiş edirəm, dəbilqə başınızda qalsın!" Sözünü yerə salmayıb, dəbilqəmi başıma keçirdim. O da dincini almaq üçün gəlib, yanımda uzandı. Qışın soyuğu və partlayışların səsi gözümüzdən yuxunu qovurdusa, yanımızdakılardan neçəsi əməlli-başlı xoruldayırdı. Məhcub ayağa qalxdı və haradansa bir parça adyal taparaq gətirib, üstümüzə sərdi. Ondan sonra, deyəsən, yarım saatadək mürgüləyə bildik. Təzəcə yuxuya getmək istəyərkən birdən sanki başımıza səmadan iri bir daş düşdü. Yerdən qoparaq havada neçə dəfə mayallaq aşandan sonra üzü üstə aşağı gəldim. Bütün bədənim ürpəşərək dünya başıma dolandı. Haçandan-haçana anladım ki, kənarımıza düşüb partlayan üçmetrlik katyuşa imiş. Ətrafımda neçəsi başı kəsilmiş toyuq kimi çapalayırdı.[2] Məhcubun xahişi ilə

---

dalğaya məruz qalıb. Atılan fişəngin işığında buğdayı saqqalı və toz-torpaq basmış saçından məlum oldu ki, Mirzənin özüdür. Çiyninə bir avtomat atıb asudə şəkildə gedərək qışqırırdı: "Süngülərinizlə özünüzə səngər qazın ki, sabah bizi daha çətin gün gözləyir!" Əli Şəfai ilə müsahibədən, Nəhavənd, 24 oktyabr, 2013.

[1] Hər üçü növbəti əməliyyatlarda şəhid oldu.

[2] "Partlayışdan sonra üç nəfərin başı üzüldü, rabitəçilərdən biri torpaq altda qalıb boğuldu və Mirzə özü də şiddətli dalğaya məruz

başıma qoyduğum dəbilqəm yerə düşsə də qəlpələrin qarşısını almışdı. Dalğanın təsirindən başım yaman ağrıyır, gözlərim hər yeri dumanlı görürdü. Məhcubun səsindən hiss etdim ki, o da dalğaya məruz qalıb, lakin vəziyyəti məndən yaxşıdır. Neçə nəfər tələsik əllərimdən tutub, məni bir kənara çəkdi. Ardıcıl olaraq öyüyür, içimdə nə vardısa geri qaytarırdım. Az qalırdı, ağrıdan başım və damarlarım partlasın. Demək olar, özümdə deyildim. Abbas özünü başımın üstə yetirib dedi: "Mirzə, bu vəziyyətdə ön cəbhədə qala bilməzsən və hökmən arxaya köçürülməlisən!" O halda hər nə deyilirdisə, beynimə batmırdı. O isə əl çəkmədən eyni sözü təkrar edirdi. Axır, bir təhər iradəmi toplayıb, başına "Bəsdir!" – deyərək qışqırdım. Çarəsiz qalıb başqa yaralıları özü ilə arxaya aparmalı oldu.

Sübh namazını elə o vəziyyətdə hansı səmtə qıldığımı bilmədim. Səhərə bir şey qalmırdı. Uzaqdan başı sarıqlı bir nəfərin gəldiyini gördüm. Yaxınlaşandan sonra məlum oldu ki, Abbasın özüdür. Üz-gözü və saqqalı toz-torpaq və qan içində olsa da gümrah görünürdü.[1] Ondan soruşdum: "Yaralılar nə yerdə qaldı?" Dedi: "Yolda üçü şəhid oldu və qalanlarını da yardım məntəqəsinə çatdırdım."

---

qaldı." Əkbər Xudabəxşi ilə müsahibədən, Nəhavənd, 24 oktyabr, 2013.

[1] "Maşına 13 nəfər yaralı mindirəndən sonra hələ sipərin kənarından çox da uzaqlaşmamış kənarımıza düşən mərmi nəticəsində başımdan yaralandım, yaralılardan üçü şəhid oldu və maşının təkərləri də partladı. Maşını elə o vəziyyətdə sürərək özümüzü yardım məntəqəsinə çatdırdıq." Abbas Malmirlə müsahibədən, Məşhəd, 26 yanvar, 2014.

Adətən, günəşin baş qaldırması ilə düşmənin hücumları da başlayır, qarşılarını sağ-salamat qalan qüvvələr kəsməli olurdu. Artıq düşmən məntəqəyə tank yeritmişdi və dəstə ilə irəliləyərək sipər və səngərlərimizə birbaşa zərbə endirirdi. Hərdən başım gicəllənərək yıxılanda, yanımdakı rabitəçilər əlimdən tutub qaldırırdılar. Özümü bacardıqca gümrah göstərir, qüvvələrə mənfi təsir göstərməməyə çalışırdım. Abbas arxa cəbhədə olarkən vəziyyətimlə bağlı qərargaha məlumat verəndən sonra diviziya komandiri əlaqə saxlayıb, geri qayıtmağım barədə göstəriş versə də razılaşmamışdım.

Bu ağır döyüşdə sipərin bu tayı yaralı və şəhidlərlə dolu idi və hər yer onların qanına boyanmışdı. Tanklar partladıqca tüstüsü ətrafı bürüyürdü. Hücumlar ardıcıl olaraq dəf edilirdisə də, amma yaralının əlindən tutub yarasını bağlamağa bir nəfər də yox idi. Döyüşçülər arasında ən salamatı mən idim ki, dalğanın təsirindən qıvrılırdım. Vəziyyət nisbi sakitləşəndən sonra qərargahla əlaqə saxlayıb, beşbucaq cəbhəsi barədə ümumi məlumat verdim. Xəbər verdilər ki, tezliklə Loristanın "Əbülfəzl-57" briqadası yardıma gələcək.

Günorta üstü uzaqdan briqadanın qüvvələri görünərkən birdən düşmən təyyarələri başımızın üstünü kəsdi və hər tərəfi bombardman etməyə başladı. Atışma zamanı təyyarələrdən biri məhv edilsə də neçə dəqiqəlik cəbhəmiz od-alova qərq oldu. Kimin sağ, kimin şəhid olduğu məlum deyildi. Odur ki, qardaşım Şirməmməd qışqıraraq deyirdi: "Mirzə, şəhid oldu! Mirzə şəhid oldu!" Amma məni diri görəndən sonra irəli gəlib, əllərini üzümə çəkərkən qulağının dibindən bir şapalaq ilişdirdim. Kənardan yaralılar bu qəribə səhnəyə tamaşa edirdilər. O da bir söz demədən öz

mövqeyinə qayıtdı. Yeni qüvvələr qismən itki versələr də yerimizi əvəz etdilər. Onlar gəlməsəydilər, daha cəbhəni qorumağa qüvvə yox idi.

Ertəsi gün səhər yaralılar arxaya köçürülərkən biz də geri qayıtdıq. O qədər qüvvədən cəmi neçə nəfər sağ qalmışdı.[1] Qərargaha qayıdandan sonra yardım məntəqəsinə getməyib, qüvvələrin kənarında qalmağı məsləhət bildim. Hava qaraldıqca ürəyim sıxılırdı. Şəhidlərin xatirəsi münasibətilə "Aşura" ziyarətnaməsi və rövzə oxuyaraq matəm mərasimi keçirdik. Daha sonra yaralı Abbas və Məhcubla döyüşə qadir ola bilən qalan qüvvələrin hazırlığına dair tədbirlə maraqlandıq.

"Casim" çayı ətrafındakı xurmalıqlar yanvarın 17-si bizim diviziyanın qalan qüvvələrinin ayaq basdığı üçüncü cəbhə idi. Hamı bilirdi ki, ora yollanan bütöv batalyon dəstə və taqım sayında qayıdır. Mən də Mətləb Qeysəri ilə qərargahdan çıxıb, geri qayıdırdım. Tapşırığa əsasən, onun qüvvələri bizdən qabaq həmin məntəqəyə yollanmalı idilər. Qabaqlar batalyonumuzda dəstə başçısı olan Mətləb hal-hazırda batalyon komandiri idi. Aramızda sıx və səmimi rabitə vardı. Hərdən xəlvətdə siqaret çəkərdi. Mən özüm cəbhədə əsgərlərin siqaret çəkməyinə razı deyildim. Mətləb isə öz işindən qalmırdı və yeri gələndə mənim kinayəli sözlərimə də cavab tapırdı. Başımda sanki ağır yük daşıyırdım və o da hər saniyədə bir qullab alıb buraxırdı. Dedim: "A Mətləb, heç siqaret çəkməyi də bacarmırsan! Sən necə komandir olmusan?! Elə bil saman yandırırsan!" O da

[1] Ümmül-qəsrdə 13 gün çəkən ağır döyüşlərdə Şələmçədə bir sutka ərzindəki qədər yaralı və itkiyə məruz qalmamışdıq. Kimi soruşurdumsa, ya yaralanmışdı, ya da şəhid olmuşdu.

hazırcavab idi və söz altında qalmazdı. Dedi: "Sən bu bərbad görkəminlə komandir olduğun kimi!" Mən də dedim: "Bu sən fikirləşdiyin əməliyyatlardan deyil! Elə yerə gedirsən ki, iraqlılar ciyərlərini barıt tüstüsü ilə doldurarlar, daha saman tüstüsünə ehtiyacın olmaz!" Sözümdən sonra siqaretini söndürüb, ciddi şəkildə dedi: "Qabaqlar sənə demişdim ki, uşaqlığım nə qədər çətin keçib! İndi bura Möhsün, Həsənmurad, Hüseyn, Heydər və başqa dostlar kimi muzdumu almağa gəlmişəm! Onu bil ki, Nəhavəndə mənsiz qayıdacaqsan!"[1] Mətləb özü bacarıqlı və layiqli komandir, səmimi və zarafatcıl xasiyyətinə baxmayaraq qətiyyətli və dözümlü bir şəxs idi. Söz və əməlində zərrə qədər riya yox idi. Batini güzgü kimi şəffaf idi və üzərinə dünyanın qubarı çökməmişdi. Yola salarkən onu bağrıma basıb dedim: "Vallah, bilirəm ki, bu dünya adamı deyilsən! Salamımı şəhidlərə yetir və orada bu dadaşı da yaddan çıxarma!" Belə son vidalaşmaların sayı çox idi. Hər dəfə qarşıya gələndə ölüb-dirilirdim.

Onu qüvvələri ilə yola salandan sonra əlaqəmiz düşmən tankları ilə qızğın döyüşlərə girənədək davam etdi. Onlar döyüş məntəqəsində yaranan boşluğu doldurmaqla iki

[1] Hələ dəstə başçısı olarkən hər dəfə məzuniyyətə çıxanda, o da heç bir icazə almadan mənə qoşulub gələrdi. Halbuki çox vaxt növbəsi çatmamış belə edərdi. Başqa kadrlar etirazla "Xeyir ola, hər dəfə Nəhavəndə gedəndə Mətləbi də özünlə aparırsan?!" – deyərkən cavab verirdim ki, vallah, öhdəsindən gələ bilmirəm. Yolda maşına minən zamandan Nəhavəndədək uşaqlıq xatirələrindən, atasını itirməyindən, anasının onu xalça toxumaq və əkinçiliklə böyütdüyündən, uşaqlıqdan kirəmit karxanasında işləməyindən, siqaret çəkməyindən və s. söhbət açardı.

qoşunun birləşərək əlbir olmağına şərait yaratmalı idilər. Bunu yaxşı bilən düşmən bütün var-gücünü həmin səmtə yönəltmişdi. İlkin məlumatlar onların irəliləyişi və düşmənin geriyə çəkilməyindən xəbər verirdi. Amma bir müddətdən sonra rabitəmiz qırıldı. Ürəyimdən keçirdi ki, kaş, mən də az qüvvəmlə onun kənarında olaydım. Ardıcıl rabitələrdən sonra dəstəyi götürənə dedim: "Təcili Mətləbi çağır!" Cavab verdi ki, hal-hazırda geri çəkilmişik və o isə iyirmi metr irəlidə bizimlə düşmən arasında yıxılıb qalıb. Onun şəhadət xəbəri mənə gözlənilməz olmadı və sadəcə hadisənin necə baş verməyini bilmək istəyirdim.

Ertəsi gün səhər çaparlar daha dəqiq məlumat gətirdilər və dedilər ki, canişini Məcid şəhid olandan sonra özü də yaralanıb yerindən tərpənə bilmədi. Düşmənə yaxın olduğu və geri gətirmək mümkün olmadığı üçün elə oradaca qan itirərək canını tapşırdı.[1]

Növbə bizimlə "Müslim bin Əqil" batalyonundan qalan dəstəyə çatdı. Hamımız həmin nahiyəyə ezam olunurduq. Yola düşməzdən qabaq plan-əməliyyat komandiri dedi: "Hal-hazırda cəbhə "əl-Məhdi" qoşunlarının ixtiyarındadır. Qüvvələrinizi yollamazdan qabaq cəbhə xətti ilə tanış olmağınız məsləhətdir." Beləliklə, bizdən mənimlə Şəmsullah, o biri dəstədən də İslam adlı komandirlə cəbhə xəttinə yollandıq. Yol boyu atəşin şiddəti o qədər ağır idi ki, mən öz qüvvələrimi bura necə gətirəcəyim barədə düşünürdüm. O vaxtadək cəbhədən arxadakı yol və ərazilərdə şəhid cənazələrinin torpaq üzərində qaldığının şahidi olmamışdım. "Casim" çayı məntəqəsində 3 km-dək ərazinin önlə arxa

[1] Onun, eləcə də sair şəhidlərin cənazələri dörd gün torpağın üzərində qaldı və düşmən geri çəkiləndən sonra geri köçürüldülər.

cəbhəsi eyni hökmü daşıyırdı. Casim böyük Ərvənd çayının süni balıq yetişdirildiyi kanala doğru axan bir qolu idi. Eni iki-üç metr olmasına baxmayaraq o tayına keçmək üçün nə qədər şəhid vermişdik. Yavaş-yavaş irəliləyərək çayın qarşısını kəsən qala formalı beton divara çatdıq. Bu hündür sipər ön cəbhə xəttimiz sayılırdı. Divar Ərvənddən başlayaraq Casimə paralel şəkildə axıradək davam edirdi. Dərinliyi bir metr, uzunluğu isə üç kilometrə çatan beton kanal həmin qala divarın üzərində salınmışdı. Qüvvələrimiz helikopterlərin raketlərindən qorunmaq üçün onun daxilində gizlənirdilər. Buna baxmayaraq partlayışlar nəticəsində kanalın əksər yerlərində yarıqlar və uçuqlar əmələ gəlmişdi. Burada yenə ön xətt və mehvər komandiri Səid İslami ilə görüşdük. Əynindəki forması tər və toz-torpaqdan elə qartmaq bağlamışdı ki, mıx vursaydın, batmazdı. Gözü mənə sataşan kimi dedi: "Gülümsə görüm, igid!" Od-alovun içində şad və yüksək ruhiyyə bircə onun xisləti idi. Heç vaxt qaş-qabaqlı görünməzdi və hamını təbəssümlə qarşılayardı. Amma qızğın döyüş meydanında belə təmkin və asudəliyi onun dərin dünya görüşü və əqidəsindən doğurdu. Soruşdum: "Bizim yerimiz haradadır?" Əlini ürəyinin başına qoyaraq dedi: "Burada!"

Allah şahiddir, biz kanalın içi ilə əyilə-əyilə gedirdiksə, o isə heç nədən çəkinmədən ayaq üstə gedirdi.[1] Kanalın sonu xurmalıqlara bitişirdi. Bura çatanda Səid dedi: "Gördüyünüz

[1] Komandir İslami buradakı döyüşlərdə iki dəfə yaralandı. Birincisində geri qayıtmadısa, ikinci dəfə ayağından ağır yaralanaraq geri köçürüldü. Üç-dörd ay Tehranda xəstəxanada yatdı. Az qaldı hətta ayağını kəssinlər. Onu yoluxmağa gedəndə, yenə üzündən təbəssüm çəkilmirdi.

kimi iraqlılar tankların hərəkəti üçün xurma ağaclarını qırıblar və məqsədləri kanalın arxasına keçməkdir. Elə bu nahiyədə sipər hazırlayaraq qarşılarını kəsməliyik." Şəmsullahla İslam yaxınlıqdakı səngərlərin birində gözləməli oldular və Səidlə mən isə o ərazi ilə yaxından tanış olmaq üçün bir az da irəli getdik. O qədər irəlilədik ki, xurmalıqlardan o tərəfdə arxlarda batıb qalan düşmənin heybətli tankları müşahidə olundu. Səid dedi: "Gördüyün işdən düşən tanklardır. Bundan qabaq "əl-Məhdi"nin qüvvələri onları bu tərəfə gətirməyə çalışsalar da mümkün olmadı." Soruşdum: "Bəs, Mətləb Qeysərinin cəsədi harada qalıb?" Əli ilə işarə edərək xurmalığın o tərəfini göstərdi. Məntəqə ilə ümumi tanış olandan sonra geri qayıtdıq. Səid öz yerinə, mən də Şəmsullahgilin gözlədiyi səngərə tərəf üz tutdum. Ardıcıl düşən minomyot mərmiləri səngərləri ayırd etməyə imkan vermirdi. Bəlkə də bu, dalğanın təsirindən idi. Çaş-baş halda birindən o birinə baş çəkərkən təsadüfən gözüm onlara sataşdı. Amma həmin anda aramıza düşən mərmi bizi bir-birimizdən ayırdı. İslam yerindəcə, Şəmsullah da səngərin divarına tərəf bir qədər sürünəndən sonra şəhadət kəlməsini deyib, dünyasını dəyişdi. Çiyinlərindən tutub, onu tərpətməyə başladım. Gözümə heç bir yerindən qanaxma və ya yara dəymədi. Yaxasını açıb, sinəsinə baxarkən ürəyinin başına xırda noxud boyda qəlpə girdiyinin şahidi oldum. Yarasından hətta bir damla da qan çıxmırdı. Hər ikisinin cəsədini "əl-Məhdi" qüvvələrinin köməyi ilə arxaya yollayandan sonra düşərgəmizə qayıtdım. Məndən Şəmsullahı soruşanlara deyirdim ki, irəlidədir. Məcbur idim

və bilirdim ki, onun kimi sevimli bir döyüşçünün şəhadəti onlara çox pis təsir edəcək.[1]

Axşamüstü Abbas və Məhcubla qüvvələri cəbhə xəttinə apardıq. Yol boyu partlayışlar zamanı şəhid olanlar başqa yaralı və cənazələrin kənarına qoyulur, beləcə, vaxtaşırı şəhidlər komitəsi tərəfindən arxaya köçürülürdü. Səidin tapşırığı üzrə, gəlib kanalın axırındakı xurmalığın önündə yerləşdik. Bu səmtə üç tərəfdən – qarşı (xurmalığın o tayı), sol (Ərvənd çayı və Ümmüt-təvil adası) və sağdan (balıq yetişdirilmə kanalı) atəş açılırdı. Gələnlərin hamısı şəhadətə hazır idi. Ötən döyüşdə yorulan və ya sarsılanlar bilirdilər ki, daha buradan o tərəfə yol yoxdur. Yarı-yarımçıq torpaq sipərin sağında bir-iki dənə işdən düşmüş traktor və buldozer vardı. Mühəndis qrupundan eşitmişdim ki, cəbhəyə göndərilən hər hansı texnika salamat geri qayıtmır. Zülmət qaranlıqda göz-gözü görmürdü və təsadüfən yaralıların üstünə ayaq qoyulanda ufultu və etiraz səsləri qalxırdı. Kənarımdakı iki rabitəçimə tapşırmışdım ki, dalğadan sonrakı vəziyyətimi arxaya məlumat verməsinlər. Əlimdən bir iş gəlmirdi. Axır, ağrının şiddətinə dözməyərək huşumu itirdim və bir də partlayışların səsinə ayıldım. Elə bildim ki, hava açılıb. Hər yer gün kimi işıqlanmışdı. Xurmalığın sağ tərəfindən güclü projektorların işığı altında yavaş-yavaş irəli gələn tanklar diqqətimi cəlb etdi. Onların və

[1] Şəmsullah Şahbazi Nəhavənd Təlim-Tərbiyə Mərkəzinin işçisi idi. Ürəyə yatan siması vardı. Həmişə cümə namazlarında azan deyərdi. Bir sıra bacarıq və qabiliyyətlərinə görə dəstə komandiri rütbəsinə yüksəlmişdi. Atıcılıq üzrə medal sahibi olduğundan bəzən cəbhədə snayper vəzifəsini yerinə yetirirdi. Heç zaman vaxtını bihudə keçirməzdi. O, öz ailəsinin ikinci şəhidi idi.

qumbaraatanların sərrast atəşi burada canla dəmirin qarşı-qarşıya dayandığını göstərirdi. Rabitəçimin köməyi ilə bir qədər qabağa getdim. Döyüşçülərimiz bağdakı çala-çuxur və təpəciklərin arxasından atəş açırdılar. Batalyonun ruhanisi şeyx Əli Səadət ayağını itirmişdi və neçə nəfər onu sürüyərək arxaya aparırdı. Gün çıxana yaxın Məhcub da sinəsinə dəyən güllə nəticəsində şəhid oldu və bir gecə ərzində çoxlu itki verdik. Mətləbgilin cənazələrinə yeni şəhidlər əlavə oldu və bir-birinin kənarında əbədiyyətə qovuşdular. Düşmən bizdən iki qat artıq tələfata məruz qaldı və qeyd edilən boşluq sağ və sol cinahların birləşə bilməməyi üzündən yenə aradan qalxmadı...

***

Bir daha Nəhavənd matəmə qərq oldu. O gündən sonra əlimi belimə dayayıb yeriyirdim. Ürəyim elə sınmış və kövrəlmişdim ki, şəhid ailələrinə baş çəkməyə üzüm gəlmirdi. Öz ailəm də qaraya bürünmüşdü. Hələ cəbhədə ikən qayınatamın şəhid olmağı və altı aylıq oğlum Hüseynin yaralanmağından xəbərim vardı. Odur ki, yoldaşımın halına lap çox acıyır, bəzən üzünə baxa bilmirdim. Bir zaman içimdə coşub-daşan məhəbbət indi bir o qədər sıxıntıya çevrilmişdi. Sıxıntılar içində vurnuxarkən ikinci əmioğlumun da Şələmçədə şəhid olduğunu xəbər verdilər. Dəfn mərasimi diviziya komandirinin Nəhavəndə gəldiyi günə təsadüf etdiyindən Tehrana gedə bilmədim. Komandir Mehdi Kiyani ilə görüşəndən sonra halım bir az dəyişdi. Daha sonra onunla birgə şəhid ailələrinə baş çəkməyə başladıq. Hansı şəhid evinə gedirdimsə, hər biri ilə yadda qalan xatirələrim vardı. Bununla belə, mən susur, Mehdi Kiyani onların misilsiz rolu və Kərbəla-5 əməliyyatının müharibənin gedişatındakı

əhəmiyyətli təsirindən söz açırdı. Əksər ailələr üz verən hadisəni məntiqli təmkinlə qarşılayır, övladlarının şəhadətini ilahi sınaq hesab edirdilər.

Diviziya komandiri Şələmçəyə qayıdandan sonra bir müddət ailəmin kənarında qalmalı oldum. Həmin ərəfədə Nəhavənd bir daha bombardmana məruz qaldı və şəhər yenə cəbhə bölgəsinə çevrildi. Hər yerdə əhali qırmızı vəziyyətə, həyəcan siqnalı zamanı sığınacaqlara pənah aparmağa adət etmişdi. Bəziləri isə əksinə olaraq, belə hallarda həyəcanla evlərin damına qalxırdılar. Amma əcəl gətirən qəfil bomba nə aşağı enənə, nə də yuxarı qalxana aman verir, ildırım kimi enib, zəlzələ kimi yeri alt-üst edirdi.

İki gün sonra maşınla şəhərdə hərəkət zamanı birdən gözüm buludların arxasından qartal kimi şığıyan qırıcı təyyarəyə sataşdı. Şəhərin üzərindən keçəndən sonra dörd məntəqədə partlayış baş verdi. Dərhal maşını ən yaxın partlayış baş verən səmtə döndərdim. Bomba qızlar məktəbinin yaxınlığına düşmüşdü. Məktəbin müdiri ilə görüşərkən göz yaşları içində dedi: "İkinci rübün imtahanları idi. Birdən zəlzələ baş verdi! Uşaqların çoxu özlərini məktəbin zirzəmisindəki sığınacağa yetirə bilmədilər!" Dərhal yaralananlardan neçəsini maşının arxasına mindirib, xəstəxanaya çatdırdım. Yollarda təcili yardım maşınlarının səsi həyəcan siqnalına qarışmışdı və şəhərin dörd tərəfindən havaya tüstü, toz-torpaq qalxırdı. Evə qayıdanda üst-başım qan içində idi. Bir müddət idi ki, cəbhəyə qayıtmaq üçün bəhanə axtarırdım. Odur ki, arvad-uşağa dedim: "Gördüyünüz kimi cəbhə də eynilə belədir. Bircə fərqi odur ki, burada yalnız başımıza düşür, cəbhədə isə başımıza düşəndə cavabını qaytarırıq. Sizcə hansı yaxşıdır?" Uşaqlar

mənimlə məsum baxışları ilə, yoldaşım da sükutu ilə danışırdı. Bilirdi ki, silahdaşlarımın şəhadəti bir daha könlümə cəbhə şövqünü salıb. Dillənmədikdə dedim:

– Səttar İbrahimi Şələmçədə öz Rəbbinə qovuşdu, eləcə də məndən çox-çox sonra komandir olanların əksəri şəhid oldu. Deməli, Allah onları bəyənib! Heç bilirdin Səttar mənim həcdə səfər yoldaşım idi?

– Bəli.

– Onu da bilirdin ki, neçə dəfə yaralansa da cəbhəni tərk etmədi?

– Bəli.

– Sənə demişdim ki, onun da bizim kimi beş övladı vardı?

– Bəli, demişdin.

– Elə isə səmimi qəlbdən bir-birimiz üçün dua edək!

– Mən öz duamı etmişəm.[1]

Bu qısa söhbətdən sonra ürəyim bir az sakitləşdi. Mənə elə gəldi ki, üzümə bağlanan qapı açılıb və o da taleyimizə razı olduğundan bu dəfə hökmən şəhadət qismətimdir.

---

[1] "Ərim Kərbəla-5 əməliyyatından evə dönərkən beşinci dəfə idi ki, yaralı qayıdırdı. O zaman mən ata və qardaşımı da əldən vermişdim və onun özü və beş övladından başqa heç kimim yox idi. Məndən bir-birimiz üçün dua diləyərkən məqsədi məlum idi. O Allahdan şəhadət istəyirdi, mən də razı deyildim. Cəbhədən əl çəkmirdi və mən də qarşısını ala bilmirdim. Odur ki, üzümü Allaha tutub dedim: İlahi, bu insan özünü bütünlüklə cihada həsr edib və bilirəm ki, yenə yaralanacaq. Elə isə elə yaralansın ki, bir də ora qayıtmağa ayağı olmasın! Elə o cür də oldu və hər iki ayağını itirdi. Amma onu cəbhədən saxlamaq qeyri-mümkün idi. Deyirdi: Biz Əbülfəzl batalyonuyuq və bu, hər şeyi İmamın (ə) yolunda fəda etmək deməkdir." Xanım Pərvin Sulgi ilə müsahibədən, Həmədan, 17 may, 2013.

Şələmçəyə qayıdandan sonra ürəyimdə şəhadətə hazırlaşır, qanadlanıb uçmaq istəyirdim. Bilirdim ki, şəhadətin də dərəcələri var və onun ən yüksəyi Seyyidüş-şühədanın, sonra Allah övliyalarının və səhabələrin, nəhayət, aşağı məqamları bizim kimi adi insanlarındır. Daim Allahdan arzulayırdım ki, ən aşağı məqamda olsa belə, məni onlara qovuşdursun...



Kərbəla-4 əməliyyatı, Ərvənd çayı, dekabr, 1986

Ərvənd çayı sahili, 1986

Əməliyyatdan qabaq, Ümm əl-Rəsas adası, Ərvənd çayı sahili



Əməliyyatdan qabaq, əxlaq ustadı və Mələyerin cümə imamı Ayətullah Fazilian

Kərbəla-5 əməliyyatı, Şələmçə, dekabr, 1986



Şələmçə, 1987

Bubiyan süni su hövzəsi, Şələmçə, 1987



Sağdan: "Şəhid Noje" hərbi hava bazasının komandiri polkovnik Məhəmməd Pərdis, Mirzə Sulgi, Səid Badami, şəhid Əli Çitsazian, Əkbər Kiyani



Sağdan: Rza Zərgəri, Kərbəla-4 əməliyyatından qabaq

İkinci cəbhə xətti, Şələmçə

Sağdan: Hüseyn Kiyani, Həsənmurad Əbruzən

Sağdan: Hüseyn Kiyani, şəhid Hüseyn Xişvənd



Ata-oğulun çiyin-çiyinə döyüşlərdə iştirakı, Kərbəla-5 əməliyyatı



Sağdan: Şəhid Məhəmməd Şüca Qeysəri, şəhid Hüseyn Xişvənd

Onuncu fəsil

İki itirilmiş ayaqla

Şələmçədə gərgin vəziyyətin, hücum və əks-hücumların yerini nisbi sakitlik tutmuşdu. İraq ön cəbhədən arxa cəbhəyədək olan əraziləri kimyəvi silahlarla bombardman edir, nəfəs alanın ciyərləri iprit və s. qazlarla dolurdu. Şələmçəyə Kərbəla-5 əməliyyatından qabaq on batalyonla girən diviziyamız balıq yetişdirilmə məntəqəsində iki batalyondan az birləşmiş qüvvələrlə "Ruhullah" diviziyasının qoşunları kənarında müqavimət göstərirdi.

1987-ci il aprel ayının axırları diviziya komandiri Mehdi Kiyani iki ildən sonra öz yerini Əli

Şadmaniyə verdi.[1] Əli ilə diviziyanın təşkili zamanından tanışlığımız vardı. O da işə başlayandan sonra məni bütün Şələmçə cəbhəsi üzrə mehvər komandiri təyin etdi və batalyonu Mehdi Zəfəriyə tapşırdı. Mehdi də Əlimurad Sulgini özünə canişin seçdi.

Diviziya son əməliyyatlarda əksər qoşunlarını əldən vermişdi və yeni qüvvələrin cəlbi və təlimindən sonra Banə sərhədyanı bölgəsinin o tayında İraqın Süleymaniyyə vilayətindəki cəbhəyə yollanmalı idi. Eyni vaxtda biri cənubda, biri də şimal-qərbdə fərqli iqlimlərə malik ayrı-ayrı cəbhələrdə naqis qüvvə ilə müqavimət göstərmək çox çətin idi. Şələmçədə əlli dərəcə isti vardısa, Banə və İraqın Mavut şəhəri ətrafı yüksəkliklər qarla dolu idi. Diviziya komandiri Şələmçə cəbhəsini mənə tapşırandan sonra Kərbəla-10 əməliyyatının növbəti strategiyası ilə əlaqədar Səid İslamini özünə canişin seçərək Əli Çitsazianla birgə qalan qoşunları şimal-qərbə yönəltdi.[2]

---

[1] Bir ay ərzində iki komandirin dəyişilməsi zamanı Əli Çitsazian diviziyamızın (Ənsar əl-Hüseyn) müvəqqəti komandiri oldu və Mehdi Kiyani də "Vəli-əsr-7" diviziyasına keçdi.

[2] Kərbəla-10 əməliyyatı Banə sərhəd bölgəsindən başlayaraq İraqın Süleymaniyyə vilayətinə doğru böyük ərazini əhatə edirdi. Həmin ərazidə bir çox yüksəkliklər ələ keçmişdi və qüvvələrimiz Mavut şəhəri və Mavut-Süleymaniyyəyə sarı yürüşə hazırlaşırdı.

Artıq Şələmçə cəbhəsi ilə yaxından tanış idim. Gələn hər qüvvəyə ciddi şəkildə səngər və istehkamların əhəmiyyətini tapşırırdım. Çünki düşmənin əsas gücü ağır texnika və artilleriyasında idi və gecə-gündüz endirdiyi zərbələr nəticəsində səngərlərimiz uçub dağılır, biz də daim onların bərpası ilə məşğul olurduq. "Sahib-zaman" mühəndis briqadasının komandiri seyid Həmid Saliki ilə aram yaxşı idi və onun vasitəsilə təşkil edilən avadanlıq sayəsində balıq yetişdirilmə kanalı cəbhəsi basılmaz qalaya çevrildi. Əlbəttə, silah və texnika baxımından qeyri-bərabərlik yerində qalırdı və birini endirərkən onuna məruz qalırdıq. Ona görə də bəzən "Ruhullah" diviziyasının qüvvələri ilə mübahisəm düşür, etiraz edənlərə deyirdim ki, düşmənin hərbi resursu bizimlə müqayisə ediləsi deyil və şəraitə uyğun olaraq itkiyə yol verməməyimiz gərəkdir.

İki aydan sonra Əli Şadmanın göstərişi ilə Şələmçə cəbhəsini başqa komandirə təhvil verib, şimal-qərbə, Banə bölgəsinə yollanmalı oldum. Bu gözlənilməz xəbərdən sonra özümü bir anlıq Əbülfəzl batalyonunun arasında hiss etdim. Yola düşərkən xəbər verdilər ki, batalyonun komandir müavini Əlimurad Sulgi ilə dəstə komandiri Məhəmmədəli

Qapanvəri İraqın Kürdüstan vilayətində şəhid olublar.[1]

Yolum Nəhavənddən keçsə də çox da yubana bilməzdik. Sadəcə sepahın mərkəzi komitəsinə baş çəkdim və qısa hal-əhvaldan sonra üzərində Əbülfəzl batalyonunun gerbi ilə çap edilən İmamın şəkillərindən neçə bağlama götürüb yola düşdük. Sükanın arxasında Kərbəla-5 əməliyyatında ağır yaralanan İrəc Zəfəri[2] oturmuşdu. Vaxtı itirmədən özümüzü Banə məntəqəsində diviziyanın ştabına yetirdik.

Əlüstü günorta yeməyi və namazdan sonra "Şəhid Şükripur" düşərgəsinə yollandıq və sərhəd boyu axan coşqun Çuman çayına çatdıq. Körpünü keçərkən ürəyimdə Allahdan arzulayırdım ki, daha dost və silahdaşlarımın şəhadət xəbərini eşitməyim və ömrümü elə bu cəbhədə sona yetirsin.

Düşərgə aşağısından yol keçən hündür yüksəkliyin yamacında yerləşirdi. Dağın yaşıl döşündəki çadırlarda bahar yeli adamı nəvaziş edirdi. "Nəsr-4" əməliyyatı ilə bağlı diviziya komandirliyinin ilk yığıncağında xəritə üzündən

---

[1] Hər ikisi ilə dost və cəbhə yoldaşı idim və hər biri öz məntəqəsinin qeyrətli igidi sayılırdı.

[2] İrəc Zəfəri 1988-ci il 17 iyunda cənub cəbhəsində şəhadətə qovuşdu.

ötən əməliyyatda (Kərbəla-10) ələ keçən yüksəkliklərlə tanış olduq. Burada yenə cəbhə xətti mənə həvalə edildi və qərara gəlindi ki, plan-əməliyyat üzrə yeni məsul Mehdi Ruhani ilə məntəqəni yaxından müşahidəsi və mehvərin təhvili məqsədilə ön xəttə yollanaq. Hər şeydən əvvəl Əbülfəzl batalyonunun yerləşdiyi nahiyəni öyrəndim. Onlar "Bərdəhuş" adlı yüksəklikdə düşərgə salmışdılar. Sükanın arxasında Mehdi, mən ortada və sağımda da Xəlil İlahitəbar adlı plan-əməliyyat bölümünün bir üzvü əyləşmişdi. Onlara dedim ki, əvvəlcə neçə vaxt ayrı düşdüyüm batalyonuma baş çəkməliyəm.

Batalyon təhlükəsiz bir dərəyə sığınmışdı. Kərbəla-5-dən sonra tərkibinə yeni və cavan qüvvələr əlavə olunmuşdu, onları təcrübəli sabiq üzvlər idarə edirdilər. Hər biri ilə görüşərək üz-gözlərindən öpür, hərəsinə yadigar olaraq İmamın şəklini verirdim. Həqiqətən Əlimuradla Məhəmmədəlinin yeri boş görünürdü. Onlarla görüşüb-danışmaqdan doymaq bilmirdim. Bu hissi hətta evə qayıdan günlərdə belə keçirməmişdim. Qüruba bir şey qalmadığına görə Mehdi məni tələsdirir və deyirdi ki, hava qaralınca müşahidə qülləsindən cəbhə xəttinə nəzər salmalıyıq. Diviziya komandiri tapşırmışdı ki, bölgəyə diqqətlə baxın,

hər şeyi yaxşı-yaxşı nəzərdən keçirin. Bu tapşırıq əməliyyatın yaxın olduğunu bildirirdi. Bundan artıq gözləyə bilməzdik və hamı ilə vidalaşıb yüksəkliklərə sarı yola düşdük. Elə yerə çatdıq ki, artıq ondan yuxarı heç bir nəqliyyatın hərəkəti mümkün deyildi və Bərdəhuşun zirvəsinə piyada qalxmalı idik. Maşını bir kənarda saxlayıb, birnəfəsə zirvəyə qalxdıq. Zirvədən hər yer aydın müşahidə olunurdu. Hərdən səngərlərin o tərəf-bu tərəfinə düşən mərmilər vəziyyətin adi olduğunu göstərirdi. Qarşıda sıra ilə göyə ucalan və yarımdairə şəkilli qayalıqlar İraqın ixtiyarında idi və onlardan yalnız bu zirvə ələ keçmişdi. Hər birini seyr etdikcə Mehdi də bir-bir adlarını (Əspidar, Qəşen, Şuşu, Rut, Darbən, Hezarkanian, Qamu) qeyd edirdi. Bütün zirvələr Bərdəhuşa sayə salırdı. İrəlidə adlarına uyğun (Təpəsəbz, Doqulu, Təpəkeçəl) nisbətən alçaq neçə yüksəklik vardı və plan üzrə birinci onlar fəth edilməli idi. Nəhayət, ümumi tanışlıqdan sonra maşını saxladığımız yola endik. Mehdi ciblərinə əl gəzdirərkən açarı tapmadı. Deyəsən, yuxarıda qüllədə qalmışdı. Elə bu vaxt bir minomyot mərmisi başımızın üstündən vıyıltı ilə keçərək dərəyə düşdü. Bir dəqiqə keçməmiş o birisi lap yanımızdan ötdü. Məlum idi ki, düşmən bizi uzaqdan güdürmüş. Üçüncüsü isə bizə uzanmağa macal vermədi və düz

ayaqlarımızın altında partlayarkən nə baş verdiyini bilmədim.[1]

Başım üstə biri əlləri ilə məni tərpədirdi. Mənə elə gəldi ki, artıq mələkut aləmində şəhidlərə qovuşmuşam. Toz-torpaq yatdıqdan sonra, özümü yerə sərilmiş halda gördüm. Hələ özümə gəlməmişdim və həsrətlə "Ya Əbəlfəz! Ya Əbəlfəz!" – deyə qışqırırdım. Başımın üstündə dayanan dayanmadan deyirdi: "Mirzə! Mirzə! Mənəm, Abbas! Abbas!" Gözlərim dumanlı idi və ətrafı yaxşı seçə bilmirdim. Sonradan bildim ki, o, batalyonun komandir müavini Abbas Malmir imiş. Partlayışdan sonra dərhal özünü bura çatdırmışdı.[2] Yaddaşım

[1] "O gün sanki bir hadisə baş verəcəyi ürəyimə dammışdı. Zirvədən enəndən sonra bir-birimizdən beş-on metr aralı maşının kənarında dayanmışdıq. Təsadüfən neçə mərmi düz yanımızdan sovuşdu və üçüncüsü Mirzənin ayaqları altında partladı. Bir anlıq daş-kəsək, toz-torpaq qalxdı və göz-gözü görmədi. Elə bildim, işim bitib. Özümə gələndən sonra hər yerimə xırda-xuruş qəlpə girdiyini gördüm. Hiss etdim ki, hərəkət edə bilərəm. Mehdi yaralansa da yeriyə bilirdi, amma Mirzə yolun ortasında uzanıb qalmışdı. Yavaş-yavaş ona yaxınlaşdım. Sağ ayağı budunun aşağısından tamam qırılmışdı və sol ayağı da dərisindən asılmışdı. Tələsik çəfyəmlə (boyun şalı) ayağını sarıdım ki, qan itirməsin. Amma o anda daha çox onun yol boyu Əbülfəzl batalyonu və şəhidlər üçün hədsiz yanğısına ürəkdən acıdım." Xəlil İlahitəbarla müsahibədən, Həmədan, 9 iyul, 2013.

[2] "Partlayışdan sonra Mehdi ratsiya ilə xəbər verdi ki, Mirzənin ayaqları qırılıb və maşın da yararsız hala düşüb. Dərhal özümü

tamam pozulmuşdu və heç nəyi ayırd edə bilmirdim. Hətta ayaqlarımın qırıldığını belə hiss etmirdim. Ən çox sinəmdən ağrı və yanğı duyurdum. Axır, tab gətirməyib huşdan getdim.

***

Gözlərimi açıb ətrafa baxdım. Kənarımda neçə ağ xalatlı şəxs dayanmışdı. Əynimin paltarını dəyişmək üçün yorğanı üzərimdən kənara çəkərkən gördüm ki, bir ayağım yoxdur. Komandir Əli Şadmani kənardan mənə tamaşa edərək ağlayırdı. Başıma nə gəldiyini heç cürə xatırlaya bilmədim. Vəziyyətimlə bağlı neçə ağrıkəsici və serum vurulandan sonra gözlərimə bir az işıq gəldi. Gözləri yaşlı komandir başımı tumarlayaraq mənə ürək-dirək verməyə çalışırdı.[1] Xəstəxanada dəridən asılan sol ayağım da

---

hadisə yerinə çatdırdım. Mirzənin bir ayağı yox idi və biri də asılı halda qalmışdı. Tez Mehdi və Xəlilin köməyi ilə onu maşınıma qoyduq. Üz-gözü tamam toz-torpaq və qan içində idi və gözləri açılmırdı, dodaqları isə "Ya Abbas, ya Zəhra" – deyə tərpənirdi. Başqa aləmdə idi və məni onlarla səhv salırdı. Banəyə çatınca huşu özündə deyildi." Abbas Malmirlə müsahibədən, Məşhəd, 27 yanvar, 2014.

[1] "Xəstəxanada Mirzənin hər iki ayağını itirdiyini görəndə, yaman kövrəldim. Ona " Mirzə, nə çox qısalmısan?" – deyə ürək-dirək verirdim. Mənim halım pis idisə, onun simasında qəribə təmkin görünürdü. Sanki uzanıb dincini alırdı. Elə bundan qabaq da onun üzündə həmişə imanından doğan qəribə vüqar görünürdü. Batalyonundan başqa onu heç nə maraqlandırmırdı.

amputasiya ediləndən sonra dizdən aşağı hər ikisini itirdim. Üstəlik bud sümüklərim də qırılmışdı və dizdən yuxarı nahiyəyə xırda qəlpələr girmişdi. Bir saatın içində palatam cəbhə dostlarımla doldu və hamı qan verməyə can atırdı. Birinci Əli Çitsazian, sonra da qan qrupu uyğun gələn neçə nəfər qan verdi. Əli ilə gözlərimiz bir-birinə dikilmişdi. Əgər axırıncı görüşümüz olduğunu bilsəydim, heç vaxt gözlərimi qapamazdım. Hər halda onun kimi igidin qanının damarlarımda cərəyanı məni fərəhləndirirdi. Tez bir zamanda yaralanma xəbərim hətta "Nəcəf" qərargahına belə gedib çıxdı. Diviziyamızın sabiq komandiri Mehdi Kiyani qərargahın komandir müavini idi və məni görməyə gələndə, artıq huşdan getmişdim.

Helikopterin pərləri hərəkətə gələrkən gözlərimi açdım. Ətrafım yaralılarla dolu idi və Mehdi Ruhani də kənarımda uzanmışdı. Ondan soruşdum: "Hara gedirik?" Dedi: "Təbrizə."

Təbrizdə yatdığım müddətdə hər gün qanaxmanın dayandırmaq üçün müxtəlif müayinə

Nəyinsə çatışmazlığından gileyləndiyini görməmişdim. Bütün vücudu ilə əmrə tabe idi. Hər dəfə onunla danışanda, elə bilirdim ki, "Əbuzər" mübarizlər dəstəsinin bir üzvü ilə söhbət edirəm. Başı üzərində dayanıb onun halına həm qibtə, həm də fəxr edirdim." General Əli Şadmani ilə müsahibədən, Həmədan, 11 fevral, 2014.

və müalicələr aparılırdı. Özüm də necə sağ qaldığıma heyrətlə təəccüb edirdim. Hər dəfə yaralarıma baxmaq üçün əyilərkən əzab çəkdim. Həkimlər vəziyyəti təbii qarşıladığımı görüb, ayaqlarımın önünə güzgü qoydular. Hər iki ayağım başı kəsilən qoyunun boynuna bənzəyirdi və ağappaq sümüklərim aydın görünürdü. Ailə üzvlərim yaralanmağımdan xəbərdar olsalar da, yaxşı ki, görüşümə gələ bilməmişdilər. Həkim assistentləri yaramı açıb-bağlamaqda çətinlik çəkirdilər və belə ağır yaraların dava-dərmanı hər kəsin işi deyildi. Odur ki, mənə iki nəfər xüsusi feldşer ayırmışdılar və onlar da gündə üç dəfə yaralarımı müayinə ilə bərabər dezinfeksiya edirdilər. Hər dəfə əlləri bir yerə dəyəndə, sanki neçə volt elektrikə məruz qalır, bütün vücudum gizildəyərkən səsimi çıxarmamaq üçün balışı çeynəyirdim. Onlar sərbəst öz işləri ilə məşğul olur, mən isə əzab çəkir və beldən aşağı nahiyəni tərpədə bilmirdim. Nəhayət, həkim personalı tərəfindən vəziyyətim ağır elan edilərək çoxlu yaralılarla birgə "C-130" təyyarəsində Təbrizdən Tehrana, oradan da "Mehr" xəstəxanasına köçürüldüm.

Yaxınlarımdan özünü birinci Tehrana çatdıran qardaşımla əmioğlum oldu. Hələ batalyonumdan neçəsi hamıdan qabaq xəstəxanada idi və yolumu

gözləyirdilər. Bir-iki günün içində bir taqımadək gəlib baş çəkənlər oldu. Belə vəziyyətdə həkim Fəqihi başını itirmişdi. Könüllülərdən biri hamının adından səmimi ürək sözlərini bir kağıza yazıb, başımın arxasından divara yapışdırmışdı: "Əbülfəzl batalyonunun əziz komandiri qardaş Sulgi, əmin olun ki, həmişəlik komandirimizsən!" Hər dəfə gözüm o kağıza sataşanda xəcalət çəkir və onu dərdimin üzərinə məlhəm qoyurdum. Onun kənarına şöbə tərəfindən başqa bir kağız vurulmuşdu: "Qardaşlar, bura cəbhə yox, xəstəxanadır!" Düzü, həkimlərlə birgə özüm də belə inzibatsızlığa razı deyildim. Amma əlimə düşən yaxşı bəhanə ilə evə xəbər göndərdim ki, hələlik xüsusi görüşlərə icazə verilmir. Hər halda bir-iki dəfə telefonla yoldaşım və uşaqlarımla danışaraq səhhətimin yaxşı olduğunu bildirdim. Bununla belə, vəziyyətimi yaxından müşahidə edəndən sonra tab gətirə bilməyəcəklərindən qorxurdum.

Müalicələr davam etdikcə əsəb və hisslərim təhrik olmağa başlayır, eynilə hadisə vaxtı kimi dərd və ağrıları tamamilə duyurdum. Odur ki, tibb xidməti qrupunun gözündən uzaq baş həkimə gülməli təklif etdim: "Həkim, mən kənd uşağıyam, ailəmə tapşıraram ki, sizə üç kilo xalis kərə yağı göndərərlər, siz də sarğılarımı açıb-bağlayan kobud

tibb işçisinə tapşırın ki, işlərini bir az ehtiyatla görsün!" Həkim qəribə tərzdə soruşdu: "Kərə? Sarğı? Bunların bir-birinə nə dəxli var?" Dedim: "Allah sizə xeyir versin! Əgər adam gündə neçə volt elektrikə məruz qalsa, dözə bilərmi? Doğrusu, hər dəfə yaralarım açıb-bağlanandan sonra növbətinin dərdini çəkirəm!" Həkim özü də cəbhə əhli olduğu üçün sözüm xətrinə dəymədi və mənə güclü ağrıkəsici bir iynə vurdu. Ondan sonra hətta ayaqlarımın kəsildiyini belə vecimə almadım və özümü tam asudə hiss etdim. Ertəsi gün həkim məndən soruşdu:

– İndi halın necədir?

– Düzü, təklifimdən peşmanam!

– Mənə də gülməli gəldi! Eyni halda ürəyim də yandı. Öz-özümə dedim ki, bu kişi şiddətli ağrılardan xilas olmaq üçün hətta bığlarımı xalis yağla yağlamağa razıdır.

– Daha o iynədən vurmayın və ağrılarıma da əhəmiyyət verməyin. Əslində, kişi hər cür dərdə dözməlidir.

– Niyə?

– Çünki iynədən sonra özümü o qədər rahat və asudə hiss edirəm ki, bu ötəri təskinliyə adət etməkdən qorxuram.

Yaralarım açıq qaldığından infeksiyaya məruz qalma, o cümlədən, budun sınıq nahiyələrində müşahidə olunan qanqrenə görə, bir az da yuxarıdan kəsilmə ehtimalı gözlənilirdi. Bu məqsədlə həkimin, eləcə də cəbhəçilərdən birinin xüsusi təkidi ilə növbədən kənar komissiyanın təşkili məsləhət görüldü. Özüm hələ də ailəmin məni bu halda görə bilməyindən nigaran idim. Elə həmin ərəfədə gözlənilməz telefon zəngi məni titrətdi və özünü təqdim edəndə, az qala çarpayıdan atılmaq istədim. Dedi: "Sulgi qardaş, mən Əli Meşkini[1] cəbhəçilərin kiçik xadimiyəm!" Vəziyyətimlə maraqlanandan sonra dözüm və təvəkkülü xüsusi qeyd edərək buyurdu: "Sənin batalyonunun döyüşçüləri mənimlə görüşə gəlmişdilər. Onlardan halınızı soruşanda dedilər ki, iki ayağınızı itirmisiz. Odur ki, halınızla yaxından maraqlanmağı özümə vəzifə sandım. Deyəsən, müalicənizi davam etdirmək üçün tezliklə Almaniyaya göndəriləcəksiz." Verdiyi xəbərdən çox,

[1] İmam Xomeyninin zöhd və ibadətdə, eləcə də şah rejimi ilə mübarizə dövründə seçilmiş şagirdlərindən sayılan Ayətullah Əli Meşkini müharibə illərində şəxsən cəbhə bölgələrinə, o cümlədən, bizim "Kərbəla" qərargahına da baş çəkərdi. Adət üzrə, hər əməliyyatdan qabaq qüvvələrin mənəvi azuqə toplamağı üçün hərdən Quma səfər edib, o böyük şəxslə xüsusi görüş təşkil edərdim. Bu görüşlər nəticəsində məni yaxından tanıyırdı.

gərgin nəfəsi və səsi ürəyimi işıqlandırdı. Mən də dedim: "Əbəlfəzə and olsun, Seyyidüş-şühədanın yolunda iki əlimi də verməyə, tikə-tikə olmağa hazır idim! İndi isə ürəyim əsla istəmədiyi səmtə..." Qəhərlənərək sözüm yarımçıq qalarkən buyurdu: "Bütün əməllərdə xalis niyyət hər şeydən əhəmiyyətlidir. Onu bil ki, əl-ayağın itirilməyi hadisənin zahiri yönüdür." Belə maraqlı söhbətdən sonra əhvalım əməlli-başlı dəyişdi.

Ertəsi gün qardaşım Şirməhəmməd dedi: "Bu gün anamla arvad-uşağın görüşünə gələcəklər!" O dəqiqə vəziyyətimdən xəbərdar olub-olmadıqlarını soruşdum. Dedi ki, xəbərləri var, üstəlik, görməyə də can atırlar.[1] Onların hər birinin məni ayaqsız görərkən hansı reaksiya göstərəcəyini bilmirdim. Daha çox anama görə nigaran idim. Çünki

[1] "Yeddi yaşım vardı və birinci sinif şagirdi idim. Günlərin bir günü məktəbdən evə qayıdanda anamın şiddətlə ağladığının şahidi oldum. Ağlamağının səbəbini soruşdum. "Halı yaxşıdır, ayaqları isə..." – deyərək ardını davam edə bilmədiyini gördüm. Ağlamağı sözünü bitirməyə qoymurdu, bəlkə də hələlik nə baş verdiyini demək istəmirdi. Hər halda o gecə rahat yuxuya getdim. Amma gecənin bir aləmi ayılanda gördüm ki, anam ağlaya-ağlaya Quran oxuyur və atamın qara-yaşıl libasını da ütüləyib bir kənardan asıb. Doğrusu, bilmirdim oyağam, yoxsa yuxuda və sanki atamı həmin libasda görürdüm. Nəhayət, ertəsi gün bacı-qardaşlarım, anam və nənəmlə Tehrana onu görməyə getdik." Zeynəb Sulgi ilə müsahibədən, Həmədan, 6 mart, 2014.

uşaqlıqdan başlayaraq, hətta böyüyəndən sonra da ayaq barmaqlarıma xına qoyardı. Əməliyyatlar qabağı xınayaxdı gecələrində də zikr və salavatla barmaqlarıma sürtdüyü əllərinin nəvazişini hiss edirdim. Həkimdən yaralarımı bağlamasını xahiş etdikdə dedi: "Növbəti əsaslı əməliyyatadək yaralar üzərində sterilizədən başqa bir iş görə bilmərik! Bununla bağlı – qabaqkı neçə cüzi əməliyyatları çıxmaq şərtilə – Almaniyaya köçürüləcəksiz!"

Günorta vaxtı ailə üzvlərim palataya daxil olarkən indiyədək istəmədiyim mənzərənin şahidi oldular. Yoldaşım çarşabının bir tərəfini üzünə çəkərək ağlamağa başladı, anam isə "Bala! Bala! Bala!" – deyərək az qaldı dili tutulsun. Nədənsə, uşaqların çox da vecinə olmadı və çarpayımın ətrafında dolanmağa başladılar. Ağlı nisbətən kəsən Zeynəb çarpayıya yaxınlaşaraq üzərimdən mələfəni çəkmək istədikdə icazə vermədim və əllərindən tutub öpdüm. Özümü gümrah göstərərək onlara ürək-dirək, təsəlli verməyə çalışırdım. Bununla belə, ertəsi gün "Mehrabad" aeroportundan yola düşənədək heç biri məndən ayrılmadı. Təyyarədə məndən başqa hamı adi sərnişin idi və lap arxada əl-ayağı bağlı vəziyyətdə xərəkdə uzanmışdım. Yaxın adamlarımdan mənimlə gedən yox idi və neçə aylar ailə və cəbhədən uzaq düşəcəyimdən xəbərsiz idim.

***

Altı saat uçuşdan sonra Almaniyanın Frankfort şəhərində yerə endik. Hamı yerə düşəndən sonra mən tək qaldım. Bundan sonra kostyumda nurani bir şəxs mənə yaxınlaşdı və alnımın tərini silərək əlimdən öpdü. Kim olduğunu soruşdum. Dedi ki, həmkarınız və uçuş üzrə təhlükəsizlik məmuruyam. O da aşağı enəndən sonra uca boylu və qısa şalvarlı dörd nəfər xərəyə yaxınlaşdı, məni təyyarədən birbaşa təcili yardım maşınına apardılar. Maşında biri almanca məndən tez-tez nə isə soruşur, mən də mat-mat üzünə baxırdım. Sözlərindən birini – "Şmet sen?" yadımda saxladım və sonradan öyrəndim ki, "ağrı hiss edirsən" sualı idi. Yol getdikcə hərdən başımı çevirib pəncərədən ətrafa baxırdım. Hər yer eynilə park kimi yamyaşıl şəhərciyə bənzəyirdi. Arasıra yarımçılpaq görünən qadınları müşahidə edərkən gözlərim yaşla dolurdu. Alman sanitarlar elə fikirləşirdilər ki, ağlamağım ağrılara görədir. Hələ Axen şəhərindəki xəstəxanayadək 400 km qalırdı. Neçə dəfə gəldiyimə peşman olaraq ağlamalı oldum. Vəziyyətim həbsdə düşmənin ağır zərbələrindən çox dözülməz mühitə tab gətirə bilməyən əsirin halına bənzəyirdi.

Axenin tam təchizatla təmin edilən müasir xəstəxanası vardı. Məndən qabaq ağır

yaralılarımızdan neçəsi burada müalicə edilmişdi. Ortopediya şöbəsinə köçürüləndən sonra dərhal əlil arabasında neçə iranlı xəstə palatama daxil oldu. Onlarla bir qədər hal-əhval və söhbətdən sonra, az da olsa qürbət hissini unuda bildim. Birindən sözgəlişi qiblə səmtini və necə təyəmmüm almağı soruşarkən gedib hamar bir daş gətirdi və o gündən etibarən mənim ibadət vəsaitim oldu.

İlk günlər mənə ağrıkəsən və yuxugətirən iynələr vurulduğu üçün daim namazların qəzası məsələsinə görə nigaran idim. Odur ki, bir-iki nəfərlə məni hansı yolla olursa olsun, vaxtında oyatmağı tapşırmışdım və onlar da oyadırdılar. Böyük qardaşımın imam Səccaddan nəql etdiyi – "Hər yerdə Quran və duası olan mömin qərib deyil." hədisi ilə təskinlik tapır, hər birini oxuyaraq neçə min kilometr uzaqdan özümü cəbhə bölgəsinə qovuşdururdum. Getdikcə mühitə adət edir, o diyarın insanları ilə ünsiyyət yaratmağa çalışırdım. Dostlar demişkən, lal dili də bəzən kara gələrmiş. Belə ki, həkim və tibb bacılarını birtəhər əlamət və işarələrlə başa salırdım. Təsadüfən bir gün gözümün qabağında tibb bacı və qardaşı bir-birini qucaqlayarkən başlarına qışqıranda, özlərini itirdilər. Aralarında nə isə danışandan sonra gəlib mənə yuxugətirən bir iynə vurdular.

Bir-iki gündən sonra bir tibb bacısı əlində bir qutu krem və pudra ilə mənə yaxınlaşdı, mələfəni kənara çəkərək dedi: "Masaj, masaj!" Mən isə qətiyyən icazə vermədim. O, mənimlə mehriban danışsa da əsəbiləşərək razı olmadım və hirsimdən gözlərim yaşardı. Mənə "Şmet sen?" – deyə müraciət edərkən başımı yırğalayaraq getməyini istəyirdim. Belə hallarda onlara ən rahat iş həmin iynələrin tətbiqi idi. Gedəndən sonra bu vəziyyətdən xilas olmaq üçün mən də həzrət Əbülfəzlə təvəssül etdim. Bir qədər sonra tibb bacısı siması tanış bir gənclə geri qayıtdı. Özünü Zeynani familiyası ilə təqdim edərək burada ailəsi ilə birgə təhsil aldığını bildirdi. Dediyinə görə, vaxtaşırı bura gələrək yaralılara baş çəkirmiş. O, içəri daxil olduğu zaman mən də içimdə sızlayaraq bir-bir batalyonumu "Hardasınız səqqa igidləri, hardasan Hüseyn, Mətləb, Əlimurad, Möhsün!" – deyə səsləyirdim. Onunla tanışlıqdan sonra, yanıma Avropa Müsəlmanları Cəmiyyətləri İttifaqının qırx-əlliyə yaxın cavan üzvü get-gəl etməyə başladı. Bu görüşlərdə alman dilinin gündəlik işlənən bir sıra müraciət və kəlmələri ilə tanış oldum.

On beş gündən sonra əməliyyat otağına köçürüldüm. Sağ ayağıma uyğun olaraq solu da dizdən aşağı eyni ölçüdə kəsdilər və hər iki

sümüyün başını xüsusi alətlə yandırıb yaramı bağladılar. Ondan sonra gündəlik müayinə ilə birgə yaramın sarğısı da dəyişilirdi. Daha sonra bir gündən bir və getdikcə neçə gündən bir sarğım əvəz edilirdi və bu da get-gedə yaralarımın sağalmağa doğru olduğunu göstərirdi.

Xəstəxanada verilən xörəklərin tamı və çeşidi bizim zövqümüzlə uyğun deyildi və əksər yaralılar bu məsələdən gileylənirdilər. Nisbətən zövqümə uyğun və yeyə bildiyim yemək xuruşlu plov idi. Xuruşda ət tikələri olarkən ayırıb kənara qoyurduq və almanlar da bizim ət yeməklərindən ehtiyat etdiyimizi bilirdilər. Bizə şəkildə donuz ətinin olmadığını göstərərkən şəri yolla kəsilmədiyindən imtina etdiyimizi anlamırdılar və biz də yemirdik. Ət və proteinin yerini yumurta ilə doldururduq. Hər gün səhər yeməyinə suda bişirilən yumurta verilirdi və mən də bəzən bir günüm üçün on dənə götürərək günorta və axşamı onlarla keçirirdim. Həkimim professor Onzinger mehriban bir şəxs idi və assistenti Fostin də özünə bənzəyirdi. Professor tibb işçilərindən mənimlə Mustafanın[1] bütün yeməkləri

[1] Mustafa Talibi "Ənsar əl-Hüseyn-32" diviziyasının yüksək rütbəli zabitlərindən və "Müslim bin Əqil" batalyonunun komandir müavini idi. O da kimyəvi zəhərlənmə ilə əlaqədar neçə ay

yumurta ilə əvəz etdiyimizi biləndə ciddi xəbərdarlıq edərək dedi: "Fil maskel!..."[1] Daha sonra assistentinə tapşırdı ki, şəhərdən iranlıların yeməkxanasından sifarişlə bizə bir həftəyədək yemək verilsin. Bütün xərcləri də özü öhdəsinə aldı və həmin həftəni onun qonağı olduq.

Bir aydan sonra əlil arabasına otura bildim və şöbədə dolanaraq evə də zəng etdim. Yoldaşım mənimlə Nəhavəndin bələdiyyə idarəsindən əlaqə saxlayırdı. Söhbət əsnası ev-eşik, yeni bombardmanlar, növbəti əməliyyatlar və s. barədə söz açırdı. Onun səsi ilə könlüm qanad açaraq kəndimizə uçur, xəyalımdan bir-bir qohum-əqrəbanın, dost-tanışların siması gəlib keçirdi.

Ürəyim sıxılan zamanlarda Möhsün Ümidinin şəhadətdən qabaq hədiyyə etdiyi Quranı açıb oxuyur, birgə keçirdiyimiz günləri yada salaraq təskinlik tapırdım. Eynilə cəbhədəki kimi buradakı yaralılarımız da ciddi, zarafatcıl və s. fərqli xüsusiyyətlərlə bərabər dözüm, mətanət, sarsılmazlıq və digər mənəvi səciyyələrdə yekdil idilər. Kənarımdakı çarpayıda "İmam Hüseyn" diviziyasından Baqir Nejad adlı bir yaralı yatırdı. Əli

---

mənimlə bir palatada yatmalı oldu. Nəhayət, 1992-ci ildə ağır yaraları və zəhərlənmə üzündən şəhadətə qovuşdu.

[1] "Kalorisi həddən artıq çoxdur və əzələləri böyüdür!"

biləyindən kəsilmişdi və çanağı da çox pis zədələnmişdi. Tərpənməməyi üçün əli ilə belini çarpayıya bağlamışdılar və bircə başını sağa-sola çevirə bilirdi. Dua, zikr tərk olmayan dilindən mənəvi-dini paklığı məlum idi. Yazıq ombasındakı yarasından çox pis əziyyət çəksə də "uf" da demirdi.

Bir həftədən sonra əməliyyat otağından palataya huşsuz halda gətirilərkən sayıqlamağa başladı: "Uşaqlar! Kimi gözləyirsiz? Ayağa qalxın! Komandirin cənazəsi düşmənin qarşısında qalıb! Gətirin onu! Haydı görüm, tərpənin! Tez olun, düşün dalımca!..." Kənarındakı həkim və tibb bacıları əl-ayağından tutaraq tərpənməyə qoymurdular. Elə vəziyyətdə sakitləşdirici iynə vurmaq olmazdı. Adətən, belə hallar əməliyyatdan sonra əksər yaralılarda müşahidə olunurdu. Bir qədər sakitləşəndən sonra yenidən başqa hadisəyə keçərək "Uşaqlar, çaşıb başınızı qaldırmayın! Kanalın içi ilə hərəkət edin! Düşmənin atəşindən özünüzü qoruyun!..." – deyir, bəzən mülayim tonla "Sizi and verirəm Zəhraya, yerdə bir cənazə belə qalmasın! Vallah, valideynləri intizar çəkir!" – deyə yalvarırdı. Səs-küyə qonşu palatalardan başqa yaralılar da gəlib çıxdıqda, əməlli-başlı rövzə məclisi yarandı. Mən də hönkür-hönkür ağlayaraq özümü Məcnun adasında hiss edir, Baqirin dediyi cənazəni

də Möhsünün cəsədi təsəvvür edirdim. Axırıncı sözləri bizi düz Kərbəlaya apardı: "Ey Kərbəla yolçuları! Ey imam Hüseynin silahdaşları! Ey qeyrətli oğullar! Məgər İmam özü şəhidləri bir-bir geri gətirmirdimi?! Məgər Qasimi, Əli Əkbəri, Ələmdarı öz əlləri ilə arxaya aparmırdımı?! Bəs biz hansı haqla öz şəhidlərimizi torpaq üstə qoya bilərik?!" Bundan sonra lap şivən qopdu. Ətrafımıza toplaşan alman həkimdən tutmuş adi xəstələrədək onun nə dediyi ilə maraqlanırdılar. Bizim isə onun sözlərini və duyğularımızı başa salmağımız qeyri-mümkün idi. Sadəcə, biz də bir tərəfdən yapışaraq onu sakitləşdirməyə çalışırdıq.

Baqir bir saatdan sonra ayıldıqda, ondan soruşdum: "Heç baş verənlərdən xəbərin vardı?" Dedi: "Onu bilirəm ki, ruhum cismimdən ayrılmışdı və bu dünyada deyildim. Necə qayıtdığımı da bilmirəm." Mən də zarafata salaraq dedim: "Deməli, iynələr öz təsirini qoyubmuş! Özünü itirən əsir kimi hər şeyi açıb dedin! Bir az da davam etsəydin, kanaldan o tərəfə Bəsrəyədək olanların hamısını ifşa edərdin!"[1]

Miladi təqvimilə yeni il bayramı gəlib çatdı. Almanlar bütün salon və koridorları rəngli şar,

[1] Neçə əməliyyatdan sonra Baqir ayağa qalxaraq səhhətini əldə etdi.

lampa, kağız və sairlə bəzədilər, hər palatanın qarşısına üzərində şaxtababanın şəkli olan kiçik yolka qoydular və melodik musiqilər səsləndirməyə başladılar. Yanvarın biri ardıcıl səslənən mülayim hava birdən cəbhələrdə döyüşçülərin qarşılıqlı ünsiyyət tapdığı məşhur məddah Sadiq Ahəngəranın gurultulu marşı ilə əvəz oldu və divarlar dalğanın əks-sədası ilə titrədi:

"Karvan sədaları altda yüklərinizi bağlayın ey yolçular!
Bu qafilə Kərbəlaya yollanır!"

Dərhal əlil arabamla palatadan çölə çıxdım. Gördüm ki, Kazım əlindəki papirosla koridordakı şarları bir-bir partladır. Gedib, ümumi şöbədə hansı yolla kaseti dəyişdiyini bilmədim. Çaş-baş qalan almanlar "Bu İranın milli musiqisidirmi?" – deyə soruşanda, biz də çarəsiz təsdiq edirdik. Onlar qarşıya gələn inzibatsızlıqdan narahat olsalar da bunu öz bayramları ilə həmrəylik kimi başa düşdülər.

Kazım bir az dələduz, zarafatcıl şəhər uşağı idi. Qardaşı müharibədə şəhid olmuşdu. Çarpayısının başı üzərindən divara İmamın sadə araqçınla olan şəklini yapışdırmışdı və almanlar da babası

olduğunu güman edirdilər. Axır, özüm dedim ki, o, hamımızın babası sayılır. Başa düşəndən sonra deyirdilər: "Ayətullah Xomeyni şon! (gözəldir)"

Bir gün məndən soruşdu: "Heç bilirsən bu gün günortaya nə veriləcək?" Dedim ki, yəqin donuz ətinin qızartması olar. Dedi: "Yox canım, qarışdırma! Bu gün doğurdan da öz milli plovumuz olacaq!" Ondan hər iş gözləmək olardı və hətta mətbəxə nüfuz etməsi də mümkün idi. Günorta üstü iranlı tələbələr görüşə gələrkən bütün koridor və palataları ətirli plov iyi bürüdü və neçə aydan sonra doyunca yemək yedik. Amma aramızda bircə Baqir zəhərlənməyə məruz qaldığına görə, o gündən etibarən çöldən içəri yemək gətirməyi qadağan etdilər.

Bir gün yenə Kazımın halı pozulmuşdu və şöbəni başına götürmüşdü. Səbəbini anlaya bilmədim. Həkim və tibb bacıları onun ipinin əlimdə olduğunu bilirdilər. Həmçinin bizdən "moci[1]" kəlməsini də öyrənmişdilər və belə hallarda məni qabağa salaraq deyirdilər: "Sulgi, mocinin əl-ayağını yığmaq lazımdır!" Onunla koridorda üzləşərkən gördüm ki, qoluna qoşulan sistemi çıxarıb və damarından yerə

[1] Moci – kontuziyalı. Qəlpə üzünə dəydiyindən, demək olar, burun nahiyəsini siyirib aparmışdı. Həkimlər ona süni burun hazırlamaq istəyirdilər.

qan süzülür. Heç kimin xəbərdarlığına əhəmiyyət vermirdi və əlində siqaret ağzından çıxanı deyirdi. Soruşdum: "Nə olub, məgər?" "Cinayətkarlar! Xainlər! Əclaflar!" – deyərək sözünə davam etdi. Fikrim birinci almanlara getdi. Çünki müharibədə Səddama kimyəvi silahlar verən onlar idi. Amma "Dovşanlar bura da casusluğa gəliblər!" – deyərkən məqsədini anladım. Burada öz aramızda Mücahidlər Təşkilatı üzvlərini (el arasında münafiqlər) rəmzlə belə adlandırmışdıq və onlar Almaniyada hər bir alçaqlığa əl atırdılar. Tibb işçiləri ondan çəkinərək dərdini məndən soruşurdular. Kazım da deyirdi: "Onlara de ki, dovşanlardan hansı biri gözümə görünsə, burunlarını özümünkü kimi hamarlayacam!" Almanca kəkələyə-kəkələyə bir-iki kəlmə deyə bilsəm də, Kazımın fikrini qətiyyən çatdıra bilməzdim. Sadəcə, birtəhər başa saldım ki, içəri şübhəli adamları buraxmasınlar.

Münafiqlər fəhlə və xidmətçi cildində xəstəxanaya soxularaq yaralıların vəziyyəti ilə bağlı təşkilata məlumat ötürürdülər. Hətta onlarla söhbət və mübahisələrə girərək özlərinə cəlb etməyə çalışır, yaxud baxışlarını cürbəcür şübhələrlə dəyişirdilər. Beləcə, neçə nəfər aldanaraq onlara qoşulmuşdu və demək olar, hər kəsi yoldan çıxarmağa cəhd edirdilər. Mənimlə də belə söhbətləri olmuşdu.

Özünü atası iranlı və anası türkiyəli kimi təqdim edən birisi deyirdi: "İranda bütün xəbərlər senzuradan keçir, xalqın baş verənlərdən dəqiq məlumatı yoxdur... Səddam sülhün tərəfdarıdır, amma mollalar isə hələ – atəşkəs qalsın bir tərəfə – müharibədən əl çəkmək fikrində deyillər!" Mən də cavab verdim: "Doğrusu, senzura burada baş verir və çoxu da sizin əlinizlədir!" Təsadüfən bir dəfə bu haqda feldşerlərdən birindən soruşarkən o da qərbə hakim olan informasiya vasitələrinin, eləcə də münafiqlərin təsiri altına düşdüyündən eyni fikri söylədi: "Bəli, İraq atəşkəsə razıdır, İran isə müharibəni dayandırmaq istəmir!" Sözündən narahat olaraq qarşısında xəritəni açaraq işğal və atəş altında olan şəhərlərimizi bir-bir göstərərək kimin sülh, kimin müharibə tərəfdarı olduğunu anlatmaq istədim. Doğurdan da o, iki ölkə arasındakı coğrafi və hərbi vəziyyətdən tam xəbərsiz idi. Ona izah etməyə çalışırdım ki, indiyədək bombardmana məruz qalmayan şəhərimiz yoxdur və bütün bunlar zalım Səddam və onun cinayətkar partiyasının əli ilə baş verir, düşmən tərəfdən atılan kimyəvi-zəhərli bombalar təkcə cəbhələri yox, sərhədyanı şəhər və kəndləri də əhatə edir, Fars körfəzində üzən qayıqlarımız yalnız su sərhədlərimizi qorumaq məqsədilədir. Bunu ona

görə deyirdim ki, həmin günlərdə Almaniya televiziyasından tez-tez Fars körfəzində Amerika hərbi donanmasının gəmiləri ilə bizim qayıqların konfliktinə dair xəbərlər verilirdi. Münafiqlər deyirdilər ki, İran qonşu ərəb ölkələrinin Səddama himayə və yardımlarını bəhanə edərək müharibəni bütün Orta Asiya miqyasında genişləndirmək istəyir və Amerika da onun qarşısını almaq üçün gəmilərini Hörmüz boğazına yönəldib. Hələ ondan sonra anlayırdım ki, informasiya vasitələrinin, eləcə də münafiqlərlə əlbir olan şəbəkələrin dünya miqyasında nə böyük təsiri varmış. Halbuki, əksər ölkə və xalqların əsil reallıqdan və şantaj altında baş verənlərdən xəbəri yox idi.

Üç ay ardıcıl müalicələrdən sonra ayaqlarım tamamilə sağaldı və artıq əlil arabasında istənilən yerə hərəkət edə bilirdim. Yaranan vəziyyətlə əlaqədar yavaş-yavaş ictimai-siyasi məsələlərlə maraqlanmağa, öz səviyyəmdə mədəni fəaliyyətlərə başladım. Belə ki, Avropa Müsəlmanları Cəmiyyətləri İttifaqının tələbələri tərəfindən Axen şəhəri üzrə müsəlman məscidinə dəvət olunur, onlara və emiqrantlara ölkə daxili və müharibə ilə bağlı hadisə və son xəbərləri çatdırırdım. Cəbhə xəbərləri əvvəl Əbülfəzl batalyonunun komandiri Mehdi Zəfəri tərəfindən yoldaşıma, yoldaşım da

telefonla mənə çatdırırdı. Bəzən məni tribunadan uzun müddət söhbət zamanı ciyərlərimə düşən təzyiqə görə öskürək tuturdu. Həmin məsələni əsas götürərək qərbin, o cümlədən, sakini olduğumuz Almaniyanın Səddamı kimyəvi-bioloji silahlarla təmin etməyinə dair diqqətəlayiq məsələlərə toxunurdum. Təhlükə hiss edən münafiqlər məscidin çölündə müzakirə və mübahisələr təşkil edir, saxta statistik məlumat və təhlillərlə fikirləri yayındırmağa və nifaq salmağa çalışırdılar. Biz yaralıların öhdəsindən gəlmədikdə isə son metodları olan fiziki zor tətbiqinə əl atırdılar. Bir dəfə onlardan biri Fars körfəzində yaranan gərgin vəziyyətlə bağlı söhbət zamanı belə sual verdi: "İran kibrit boyda qayıqlarla Amerikanın hərbi dəniz donanmasının qabağında nə etmək fikrindədir?" Mən də ona Sədidən aşağıdakı beytlə cavab verdim:

Murçeqan ra çu bovəd ettefaq,
Şire jeyan ra bedəranənd pust![1]

Məncə, bu incə təmsil çox gözəl yerinə düşdü və hətta məclisdəki fars dilini bilən almanların

[1] "Qarışqalar müttəfiq olduqları üçün hətta qəzəbli şirin dərisini belə didərlər!"

rəğbətinə səbəb oldu.[1] Zaman keçdikcə, münafiqlərlə aram daha da kəskinləşirdi. Hər yerdə adımı "çolaq" kimi qeyd etsələr də gözlərində tikana çevrilmişdim və qəzəblərini boşaltmaq üçün fürsət axtarırdılar. Onların neçə dəfə yaralı əlillərimizi qəflətən arabasından yıxıtdıqlarının şahidi olmuşdum və öz işimi bilirdim. Odur ki, özümlə həmişə məxsus kəndir gəzdirirdim. Onunla həm idman edirdim, həm də çəkişmə zamanı karıma gəlirdi.

Bir gün gecə yarısı (saat üç olardı) onlardan biri palatamıza daxil oldu. Onu məsciddə görmüşdüm. Kənarımda yaşlı bir qoca yatırdı.[2] Gözlərimin açıq olduğunu hiss etdikdə, özünü xəstəyə baş çəkib, nəyisə yaddan çıxarandan sonra geri qayıdan şəxs kimi göstərməyə çalışdı. Mən də astadan dedim: "Nə axtarırsan, ay satqın! Sən özünü yaddan çıxarmısan, özünü unutmusan!" Yekəbaş və kobudun biri idi və xəstə zad vecinə deyildi. Gecənin bu vaxtı palatayadək necə gəlib çıxdığını bilmədim. Mübahisəmiz qızışdıqdan sonra qoca yuxudan

[1] Yadımda ikən, İrana qayıdandan sonra görüşümə gələn sepahın baş komandanı Möhsün Rzayi ilə söhbət zamanı həmin misalı bir daha qeyd elədim və o da çox bəyəndi.

[2] Qayda üzrə, palatalarda hər yaralının kənarında bir alman xəstəsi yatırdı. Həmin qocadan qabaq ora Baqirin çarpayısı idi. Baqir İrana qayıdandan sonra həmin qocanı onun yerində yatızdırdılar.

oyandı. Mən də dərhal əlimi yastığın altındakı kəndirə atdım və nəzarətçi özünü yetirincə aradan çıxdı. Beləliklə, baş verən hadisədən sonra giriş-çıxışlara nəzarət artdı.

Artıq vətəndən ayrıldığım müddətdən dörd ay keçirdi. Yavaş-yavaş ev və ailə üçün darıxır, geri qayıtmaq istəyirdim. Gündə bir dəfə ayaqlarım Oli adlı kişi feldşer vasitəsilə masaj edilirdi. Zahirən heybətli görünsə də mehriban bir şəxs idi. Bir gün əlindəki bağlamanı mənə verərək dedi: "İrandan göndərilib." Açıb, içindəki məktubla bərabər yoldaşımın uşaqlarla birgə şəklinə baxdım. Həmin gün professor Onzinger səhhətimlə bağlı son rəyini bildirmək üçün tibb personalı ilə içəri daxil oldu. Adətən, naməhrəm qadınların yanında başımı aşağı salırdım. Bunu başa düşən professor əli ilə çənəmin altından tutaraq dedi: "Cənab general, siz iranlılar özünüzlə fəxr etməyə layiqsiz! Amerikanın qarşısında duraraq zülmlə mübarizə aparırsız! Elə isə, başınızı dik tutun![1] Yoldaşımın çadralı formada görən tibb bacılarından biri soruşdu: "Əyninə geyindiyi bu paltar nədir? Yəni ona isti deyil?"

[1] İran səfirliyi nəzdindəki mədəniyyət şöbəsindən mənə hədiyyə olunan bir cild "Məfatih" kitabının üzərinə fars və alman dillərində "General Mirzə Məhəmməd Sulgiyə təqdim edilir" qeyd edilmişdi. Ondan sonra burada hamı mənə general deyə müraciət edirdi.

Almanca azacıq başa düşsəm də danışmağa çətinlik çəkirdim. Ona hicabın dəyəri və hikməti barədə nə deyəcəyimi fikirləşdim. Gözüm boşqabdakı portağala sataşdı. Birini əlimə alıb qabığını soydum, işarələrlə bu meyvənin xarici ilə daxilinin qarşılıqlı rabitəsi və əhəmiyyətini birtəhər başa saldım. O da fikrimi anlayandan sonra "okey, okey" deyərək razı qaldı. Müayinədən sonra professor vətənə qayıtmağa icazə verdi və neçə aydan sonra protez ayaq qoyulacağını bildirdi. Olduqca sevindirici xəbər idi. Vətəni, ailəmi, anamı, cəbhəni və ümumiyyətlə, hər şeyi görmək üçün çox darıxmışdım.

Noyabrın axırları idi, evə qayıtmağa hazırlaşırdım. Amma yoldaşımdan aldığım axırıncı məktub sevincimi kədərə çevirdi. Yazmışdı ki, daha Əli Çitsazı görməyəcəksən, o da sən yaralandığın yerdə şəhid oldu. Altı il ərzində ən yaxın dost və cəbhə yoldaşlarımı itirməyə adət etmişdim. Yoldaşım fikirləşməmişdi ki, bu acı xəbəri qürbətdə məni necə yandırıb yaxacaq. Ürəyim od tutub yandı və bir-iki gün ərzində hamı bildi ki, artıq qabaqkı adam deyiləm. Qayıdarkən yol boyu 1981-dən 1987-yədək birgə keçirdiyimiz günləri yada salır, xəyalımdan gəlib keçən acı və şirin xatirələrimiz qəlbimi dağlayırdı.

***

Nəhavəndə 3-4 km qalmış əhali əllərində gül və şirniyyatla yolların kənarına düzülərək məni qarşılamağa çıxmışdı. Təcili yardım maşınının pəncərəsindən baxırdın, hamı məni salavat və müxtəlif şüarlarla alqışlayırdı.[1] Küçəmizin başında maşından endim. Əlil arabasına əyləşərkən üzərlik tüstüsü və salavat sədaları altında möhtəşəm görüş təşkil edildi. Təqdimatdan sonra tribunanın arxasına keçib, xalqa ürək sözlərimi dedim. İzdiham elə idi ki, hələ də ailəmlə yaxından görüşə bilməmişdim. Onlar cəmiyyətin önündə dayanıb, uzaqdan əllərini yelləyirdilər. Çıxışımdan sonra bir-bir yaxın adamlarla görüşlər başladı. Küçəmizin başından evin qapısınadək "Əbülfəzl" batalyonunun qüvvələri əllərində qırmızı və yaşıl bayraqlarla sıraya düzülmüşdülər.

Ertəsi gündən başlayaraq gün çıxandan axşamadək qapımız açıq idi və görüşə gələnlərin sayı-hesabı yox idi. Müəllimlər şagirdlərlə,

[1] "Mirzənin Almaniyadan qayıtdığı gün Nəhavəndin müasir tarixində ən yadda qalan hadisələrdən biri sayılır. İnqilabdan sonra müxtəlif münasibətlərlə bağlı böyük toplantılar, yığıncaqlar, yürüşlər təşkil edilsə də, heç biri o günə çatmazdı. Böyükdən kiçiyədək bütün əhali, məxsusən şəhid ailələri onu öz övladı kimi sevirdilər." Şirməhəmməd Sulgi ilə müsahibədən, Nəhavənd, 24 oktyabr, 2013.

komandirlər döyüşçüləri ilə, şəhid ailələri, şəhərin məsul işçiləri və vilayət üzrə icra hakiminədək gəlib-gedənlər vardı. Özləri ilə gül, şirniyyat və s. gətirməyən yox idi. Bir həftədən sonra yoldaşım dedi ki, indiyədək əlliyə yaxın hədiyyə adyal gətiriblər, qoymağa yerimiz yoxdur. Mən də batalyonun təminat şöbəsinə xəbər verdim ki, gəlib onları cəbhəyə aparsınlar. Gün ərzində yığılan gülləri hər dəfə bir yerə – məktəblərə, şəhidlər məzarına və s. yerlərə yollayırdıq. O qədər şirniyyatla bizim və qonşu uşaqları üçün hər gün bayram idi.[1] Hər yerdə söhbət məndən getdiyindən hətta məktəblərdə inşa mövzusuna çevrilmişdim. Bu da üzərimə düşən məsuliyyəti bir az da artırırdı. Yenidən Almaniyaya qayıtmazdan öncə cəbhəyə də baş çəkmək fikrim vardı və bu məqsədlə diviziya komandiri Əli Şadmaniyə xəbər göndərmişdim. O da demişdi ki, biz özümüz görüşünə gələcəyik.

İki-üç gündən sonra Əli Şadmani ilə birgə keçmiş komandirim və hal-hazırda "Qüds" qərargahının əməliyyat bölümünün komandir müavini Hüseyn

[1] "Hər gün evimiz gül və şirniyyatla dolurdu. Güllərin çoxu xarab olmasın deyə şəhidlər xiyabanına aparılırdı. O vaxt mən birinci sinifdə oxuyurdum. Əlimə yaxşı fürsət düşmüşdü və hər gün əlimdə bir buta gül məktəbə gedərək müəlliməmə təqdim edirdim." Zeynəb Sulgi ilə müsahibədən, 22 aprel, 2014.

Həmədani,[1] "Müslim bin Əqil" batalyonunun komandiri Hüseyn Tacuk və Həmədan icra hakiminin müavini seyid Məhəmməd Təhayi Nəhavəndə gəldi. Cəbhə ilə bağlı ilk xüsusi yığıncaq bizim evimizdə təşkil edildi. Bundan əvvəl bütün yığıncaqlarda iştirak edən Əli Çitsazianın yeri boş idi. Hamının ikimizin arasındakı qırılmaz rabitədən xəbəri vardı. Bəlkə də yığıncaq mənə baş sağlığı olaraq, onun xatirəsini yad etmək məqsədilə təşkil edilmişdi. Komandirlərin hər biri "Nəsr-4" əməliyyatından sonra Mavut cəbhə bölgəsi ilə bağlı vəziyyəti təhlil edəndən sonra icra hakimi öz müavininə cəbhəyə səfərbərlik və yardım işlərinin intensivliyinə dair təkliflərini bildirdi. Onun cəbhəçilərlə yaxın münasibəti vardı və hətta bir dəfə Məcnun adasında yaralanmışdı. O da lazımı tədbirlər görüləcəyini bildirəndən sonra növbə mənə çatdı. Mən də əlil və yaralıların Almaniyadakı vəziyyətindən, eləcə də Qərbdəki atmosfer və xüsusilə münafiqlərin fəaliyyətindən söz açdım.

[1] İran İslam İnqilabı Keşikçiləri Korpusunun hərbiçisi. İran-İraq müharibəsi və Suriyada terrorçulara qarşı aparılan müharibəsində iştirak etmişdir. Hüseyn Həmadani 2015-ci ilin 7 oktyabr tarixində, Hələb yaxınlığında İŞİD terrorçuları ilə döyüşdə şəhid olub. Ölümündən sonra İran İslam İnqilabı Keşikçiləri Korpusunun General-mayoru rütbəsi verilmişdir.

Həsən Tacukun danışığında qəribə tənhalıq hiss olunurdu. Məncə, onun da bizdən ayrılmaq vaxtı gəlib çatmışdı. Dəfələrlə yaralansa da cəbhədən əl çəkmirdi. Bu görüşümüz də eynilə Əli Çitsazianla olduğu kimi son görüş idi.[1]

***

Almaniyaya növbəti səfərim 1988-ci ilin yanvar ayının axırına təsadüf etdi. Mənimlə birgə kimyəvi şüalanmaya məruz qalan başqa bir hərbçi də vardı və yolda hərəkətimə kömək edirdi. Ümid edirdim ki, Almaniyadan ayaq üstə geri qayıdacağam. Ona deyirdim: "Birinci səfərimdə mənim də ciyərlərimdə narahatçılıq vardı və rahat sağaldım. Çünki Səddama kimyəvi silahları verən elə almanlar olub və şüalanmaya qarşı lazımı dərmanları da istehsal ediblər. Çox da fikir eləmə, sağalıb, qayıdarsan." O isə "Allaha təvəkkül!" – deyərək taleyinə razı olduğunu bildirirdi.

Frankfort aeroportundan Axenə yollanmaq üçün təcili yardım maşınını gözləyirdik. Sən demə, bizi qarşılamağa gələnlər varmış. Yenə bir qrup münafiq başımıza toplaşaraq söhbətə başladılar. Keçən səfərdən onların fəndləri ilə tanış idim. Əvvəl şirin

[1] Həsən Tacuk bir həftə sonra 1988-ci ilin yanvarında Mavut cəbhəsində şəhadətə qovuşdu. Mən bu xəbəri sonradan Almaniyada yoldaşımın göndərdiyi məktubla bildim.

dillə qarşı tərəfi ələ almağa çalışır, nəticə vermədikdə isə çirkin batinlərinə uyğun nalayiq və yaramaz sözlərə, təhqirlərə keçirdilər. Onların məni tanıyıb-tanımadıqlarını bilmədim. Amma səfər yoldaşıma dedim ki, bura mübahisə yeri deyil. Onlar əl çəkməyib söhbəti yersiz məsələlərə yönəldərək dedilər: "Sizi zorla cəbhələrə göndərirlər! Xalqın könüllü səfərbərliyi böyük yalandır və mollaların iddiasıdır! Heç kim onlara inanmır və sizin kimilər də belə deməyə məcbursuz!" Halbuki özləri həqiqəti hamıdan yaxşı bilirdilər. Çünki müharibə zamanı düşmənlə yaxından həmkarlıq edir və onların hərbi radiostansiyalarında dalğalarımızı izləyərək ölkə daxili proseslərdən tam məlumat əldə edirdilər. Sadəcə, müxtəlif şantaj və üsullarla nifaq salır, xalqı hakimiyyətin əleyhinə qaldırmaq istəyirdilər. Mən də qəti olaraq dedim: "Cavanlıqdan özümü cəbhəyə həsr etmişəm! Ailə üzvlərimin hamısı bu yolda qurban getsə belə, İmam Xomeyni və inqilabın prinsiplərindən əl çəkən deyiləm! Onu bilin ki, iki ayağımdan əlavə iki qolumu da itirsəm, yenə cəbhədən əl çəkməyəcək və lap qum kisəsinə bənzəsəm belə atəşlərinizin qabağında dayanacağam!" Mübahisəmiz iki emiqrant və neçə türkiyəli vətəndaşın araya qarışması ilə başa çatdı. Bir daha yoldaşıma tapşırdım ki, özünü gözləsin və

belə ünsürlər hər yerdə peyda olacaq. O isə öskürərək eyni sözü deyirdi: "Allaha təvəkkül, görək, nə olur." Axır, təcili yardım maşını gəlib çıxdı və yola düşdük.

Axenə çatandan sonra bu dəfə bizi "İran evi" mərkəzinə apardılar. Xəstəxananın xərcləri hərdən artıq çox olduğundan həkimlər ilkin müalicə işlərini burada aparır və ağır əməliyyatlara ehtiyac zamanı yaralını xəstəxanaya göndərirdilər. Bədənimdə cərrahiyyə əməliyyatına ehtiyac olmadığı üçün elə orada qaldım. Yoldaşım isə xəstəxananın müvafiq şöbəsinə köçürüldü.

Üçüncü gün həkimlər ayaqlarıma bağlanan mil, qaytan və s. ləvazimatı açdılar. Bu neçə ay ərzində sümüklərimdə azacıq inkişaf görünürdü. Yenidən xəstəxanaya köçürüldüm və həmin hissələr amputasiya edildi. Məndən sonra xəstəxanaya yeni yaralılar gətirilmişdi, Baqir, Kazım və başqalarından xəbər yox idi. Həm də öyrəndim ki, səfər yoldaşımın ciyərləri sıradan çıxdığı üçün canını xilas etmək mümkün olmayıb.

Növbəti gündən etibarən qırx günədək fizioterapiya müalicələri başlandı. Mənimlə vəziyyəti eyni olan iki nəfərlə hər gün İran evindən başqa klinikaya gedib-gəlməli idik. Bu müddətdə münafiqlər mərkəzin qabağına toplaşaraq etiraz

aksiyaları keçirirdilər. Yaralıların əksəri əlil arabası, qoltuq ağacı, və sairlə şir kimi irəli çıxıb onlarla qarşılaşmaq istəyirdilər. Əksəri darvazanın o tərəfindən nalayiq sözlərlə qapı-divarı təpikləyir, biz də bu tərəfdə dayanaraq onlara dözməli olurduq. Belə vəziyyətdə mərkəzin işçiləri qapını açmağa icazə vermirdilər.

Bir dəfə fizioterapiyadan sonra klinikanın daxilində yerdən içi dolu pul kisəsi tapdım. Pullar o qədər çox idi ki, hətta maşın almaq olardı. Onu şöbə müdirinə təhvil verdim və xoşbəxtlikdən, sahibinə çatdırıldı. Hərəkətim şöbə işçilərinə xoş təsir bağışladı. Bu məqsədlə mənə xüsusi hədiyyə vermək istəyirdilər, amma özüm razı olmadım.

İran evində otağıma ayrıca telefon qoyulmuşdu. Xariclə əlaqələrdə qənaət və s. məsələlərə əhəmiyyət verirdim. Çünki hər bir rabitə 600 alman frankına başa gəlirdi və mərkəzin hesabından çıxılırdı. Bəzən həddi aşan başqa yoldaşlarıma xəbərdarlıq etməli olurdum. Telefon danışıqlarının birində yoldaşım dedi ki, dünən Nəhavənd şiddətli bombardmana məruz qaldığına görə əksər qohum-əqrəba kəndə pənah aparıb. Mən də ona kəndə yığışmağı tapşırarkən dedi: "Keçən bir il yarım ərzində atam və qardaşım şəhid olub, balaca Hüseyn yaralanıb, sən də iki ayağını itirmisən. Daha mənə rifah və

rahatlığın mənası yoxdur. Qabaqlar dediyin kimi, cihad meydanında mən də öz savab payımı almaq istəyirəm. Üstəlik, bəzi hərbi təlimlərlə tanış olmaq üçün Nəhavənd qadınlarının könüllü bölümünə getgəl edirəm." Bu bizim aramızda ən çox çəkən söhbət oldu. Fikrindən daşınmadığına bələd olduğum üçün israr etmədim. Hərbi təlim keçməsə də mənim baxışlarım və əhval-ruhiyyəmlə uyğunlaşması üçün münasib fürsət idi.

İki aydan sonra plastmas materialdan protez ayaqlar hazır oldu. Səkkiz aydan sonra ilk dəfə onları ayağıma taxanda çox sevindim. Tələsik ayaq üstə durmaq istəyərkən ilan kimi burulub, başı üstə yerə yıxıldım. Tibb bacıları təşvişlə "Nə edirsən?" – deyərək əl-ayağa düşərkən dedim: "Pinokiyo kimi süni ayaqlarla yeriməyə qadir deyiləm!" Onlar da "Olmaya, birinci gündən qaçmaq fikrin vardır?!" – deyə cavab verdilər. Dərhal əlimə iki qoltuq ağacı verərək 26 ildən sonra bir daha uşaq kimi mərhələ-mərhələ yeriməyi öyrətməyə başladılar.

Hər dəfə çəliklərlə əlbəyaxa olduğumu görən Kazım xasiyyətli təzə gələn yaralılardan biri deyirdi: "Mirzə, əgər bacanaqdan qohum çıxsa maşın olsa, bu protezlərdən də sənə ayaq olar!" Hələ protez ayaqlarla cəbhəyə getmək fikrində idim. Odur ki, ruhdan düşmədən hər gün onlarla əlləşir, mərkəzin

həyətyanı sahəsindəki məhəccərdən tutaraq büdrəyə-büdrəyə məşq edirdim. Get-gedə onlarla dostlaşırdım, adi ayaq kimi corab və ayaqqabı ilə geyinərək sevinirdim. Hətta onları gecələr ayaqlarımdan çıxarmırdım və yavaş-yavaş öz bədən üzvlərim kimi hiss edirdim. Vəziyyəti normal görən həkimlər artıq vətənə qayıtmağa hazır olduğumu deyirdilər.

Yola düşərkən özümə bir cüt tibbi alman ayaqqabısı aldım və neçə ay birgə olduğum yaralılarla bir-bir vidalaşdım. O gün xəstəxananın bütün həkim personalı koridorda sıraya düzülərək məni böyük hörmət və nəzakətlə yola saldılar.

Ayağımı Mehrabad aeroportuna qoyduğum zaman düşmənin qəfil raketləri Tehranı lərzəyə saldı və zenit müdafiə qurğularımız işə düşdü. Qabaqcadan sepahın təcili yardım maşını yolumu gözləyirdi. Ayaq üstə yeriyə bildiyimə görə cəsarətim artmışdı. Onlara dedim: "Gedək, görək hansı yerlər bombardmana məruz qalıb?" Dedilər: "Belə bir icazəmiz yoxdur və sizi Nəhavəndə çatdırmalıyıq!" Birinci qayıdışımdan fərqli olaraq, bu dəfə başqalarını zəhmətə salmamaq üçün səssiz-səmirsiz qayıtdım. Bircə ailəmin, yaxın qohumlarımın və batalyonumdan neçə nəfərin xəbəri vardı. Onlar məni ayaq üstə görəndə

gözlərinin yaşı dayanmırdı. Beş uşağın hərəsi bir tərəfdən yapışaraq başıma dırmaşırdılar.

Bir-iki həftədən sonra yenə hər şey mənim üçün adi qaydaya düşdü. Diviziya komandirliyindən də növbəti əməliyyat barədə məlumat aldım. Özümü qıvraq göstərərək cəbhə bölgəsinə yollanmaq istəyirdim. Halbuki qoltuq ağacı olmadan bir addım da atmağa qadir deyildim. Ona görə də hərdən ikisini də kənara qoyaraq evdə məşq edir, yıxıla-dura özümü zəhmətə salırdım. Axır, bir gün çoxdandan bəri dilimin altında olanı ürəyimdə olanları gizlədə bilməyib yoldaşıma dedim: "Cəbhəyə getmək fikrim var!" O da belə cavab verdi: "Gördüyün kimi, bir otaqdan o birisinə yeriməyə qadir deyilsən! Belə vəziyyətdə üzərinə heç bir məsuliyyət üzərindən düşmür!"[1] Yoldaşımdan əlavə, qohum-əqrəba da Nəhavənddən kənara çıxmağıma razı deyildi. Həmin ərəfədə diviziya komandiri və Həmədan vilayəti üzrə sepahın baş komandanının

[1] "Mirzə Almaniyadan qayıdandan sonra Nəhavənd sepah komitəsinin sədri təyin edildi. Biz də sevindik ki, əlil olduğuna və arxa cəbhədə vəzifə daşıdığına görə daha cəbhəyə getməyəcək. Amma yenə cəbhədən söz salanda, dedim ki, sənin kimi əlilə cihad vacib deyil. O da cavab verdi ki, axsaq və şilə cihad vacib olmasa da vətənin müdafiəsi hamıya vacibdir. Axır ki, öz bildiyini etdi və cəbhəyə gedərək ştab komandiri oldu." Mirzə Sulginin həyat yoldaşı Pərvin xanımla müsahibədən, Həmədan, 17 may, 2013.

razılığı ilə Nəhavəndin sepah komitəsinin sədri seçildim. Bütün bunlar evdə qalmağım üçün yoldaşımın əlinə əsas verirdi. Hər dəfə ayaqlarımı göstərərək şəri cəhətdən vəzifə daşımadığımı söyləyərkən mən də tarixi hadisələri, o cümlədən, Kərbəlada şəhadətə qovuşan 70 yaşlı axsaq Ərəci misal çəkirdim.[1]

Uzun müddətdən sonra ilk dəfə ayaqlarıma çəkmə geyinərək diviziyanın qərargahına yollandım. Qüvvələrimiz iki cəbhədə – ayaqlarımı itirdiyim Mavut məntəqəsi və İraqın Hələbçə şəhərinə yaxın ərazidə düşərgə salmışdılar. Artıq "Vəlfəcr-10" əməliyyatı başlamışdı və sepahın qoşunları sərhədyanı Mərivan, Pavə və Cavanrud bölgələrindən İraqın Hələbçə və s. şəhərlərinə doğru irəliləyirdilər. Əvvəlcə Hələbçə yaxınlığındakı yaşıl düzənliklərdə yerləşən düşərgəyə baş çəkdim və döyüşçülərlə görüşüb, hal-əhval tutdum. Düz doqquz aydan sonra qulaqlarım yenidən mərmi səslərini eşidirdi. Martın 15-i idi və qarşıdan bahar fəsli gəlirdi. Əsən mülayim nəsim yaşıl otlaqların

[1] Abdullah bin Kəsir imam Əlinin (ə) səhabələrindən idi. O, Cəməl döyüşündə ayağından ağır yaralandı və ondan sonra axsamağa başladı. Beləliklə, el arasında Ərəc ləqəbini qazandı. Bu şəxsiyyət qoca yaşlarında imam Hüseynin (ə) karvanına qoşuldu və Kərbəlada şəhid oldu.

başını sığallayırdı. Elə bu vaxt Hələbçə şəhəri İraq təyyarələri ilə kimyəvi bombardmana məruz qaldı. Biz də uzaqdan partlayışlar nəticəsində göyə qalxan kül rəngli toz-torpaq və tüstünün, böyük insan faciəsinin şahidi idik. Şəhərdən qərargaha məlumat gətirən hər kəs əhalinin yol və küçələrə səpələnərək qarışqa kimi qırıldığını deyirdi. O gün Hələbçədə beş minə yaxın insan neçə dəqiqə ərzində kimyəvi qazların qurbanı oldu. Bütün bu silahlar Qərbin – Almaniya, İngiltərə, Fransa, Hollandiya, İspaniya kimi "mədəni" ölkələrin İraqa töhfəsi idi.

Vəlfəcr-10 əməliyyatı məntəqəsində keçirdiyim beş gün müddətində hər yerə maşınla get-gəl edirdim. Əbülfəzl batalyonuna baş çəkdiyim gün sevincimin həddi-hüdudu yox idi. Batalyon komandiri Mehdi Zəfəri ilə görüşüb, son vəziyyətlə maraqlandım. Dediyinə görə, onların qərargahı da bombardmana məruz qaldığı vaxt neçə nəfəri zəhərlənərək közə dönmüşdü.

Nəhavəndə qayıdarkən Kermanşah yolu boyu Qırmızı Aypara cəmiyyəti tərəfindən əksəri kürd millətinə mənsub iraqlı qaçqınlar üçün çadırlar qurulmuşdu. Nəhavənd əhalisi baş verən faciəyə özünü şərik bilərək əlindən gələn yardımı edirdi. Bu xeyirxah səfərbərlikdə sepah və könüllülər komitəsi operativ rol oynayırdı. Yoldaşım da könüllü

qadınlar bölümünün tərkibində yardım işlərinə qoşulmuşdu.

1988-ci ilin apreli üçüncü dəfə olaraq Ənsar əl-Hüseyn diviziyası komandanlığında dəyişiklik baş verdi. Əli Şadmani sepahın xüsusi pasdarlar korpusuna keçəndən sonra yerinə Nəhavənddən Həmid Saliki təyin edildi. Kadr dəyişikliyi zamanı arxa cəbhədə qalmaq fikrim yox idi. Odur ki, mənə Saliki tərəfindən ştabın komandirliyi təklif edilərkən dərhal qəbul etdim. O gündən etibarən əlil bədənlə iki yerdə vəzifə daşıyırdım; həftənin iki gününü Nəhavənddə, qalan günlərini isə Çarzəbərdə diviziyanın ştabında keçirirdim. Qüvvələrimiz ölkənin qərbində yerləşdiyi halda o zaman qızğın döyüşlərin əksəriyyəti cənubda gedirdi.

Aprelin ortalarında İraq kimyəvi bombalardan istifadə edərək geniş miqyaslı hücumlar başladı və Favı geri aldı. Bir müddət sonra Məcnun adalarında da bir çox əraziləri əldən verdik. Həmin ərəfədə əsas fəaliyyətim qərbdə Cavanrud, Qəsri-şirin, Sumar və Mehran boyu cəbhələrə baş çəkməklə keçirdi. Düşmənin Sumar cəbhəsində irəliləyişi daha çox müşahidə olunurdu və ağır texnika sayəsində hər yerdə asudəliklə hərəkət edirdilər. Qeyd edilən bölgələrin ön cəbhələrindəki qüvvələr dövlət qoşunlarına tabe idi. Yaranan vəziyyətlə əlaqədar

ölkə üzrə birləşmiş qoşunların komandirliyinin "Nəcəf" qərargahında yığıncaq təşkil edildi. Bu iclasda mövcud reallıqlarla yanaşı, sepahda olduğu kimi orduda da qüvvə və texnika çatışmazlığı məsələsi müzakirə olundu. Faktiki olaraq cəbhə xəttində döyüş strategiyası düşmənin əlinə keçmişdi. İraq sərhədyanı şəhər və kəndləri kimyəvi silahlarla bombardman etməklə təhlükəli tədbirə əl atmışdı. Azğın Səddam diktaturası ilə müştərək mənafe güdən Amerika da hərbi dəniz donanmasını Fars körfəzinə yeridərək təhlükəsizliyimizə müdaxilə edir, sərnişin təyyarəmizi[1] vuraraq ölkəmizə təzyiqləri artırırdı.

İyul ayının ortaları sepahın baş komandanlığının növbədənkənar iclasına müharibəni idarə edən əksər komandirlər dəvət edildi. Baş komandir Möhsün Rzayi mövcud vəziyyət və çatışmazlıqlarla bağlı İmam Xomeyniyə dəqiq məlumat verildiyini və yaxın zamanlarda müharibənin gedişatında əsaslı

[1] 1988-ci ilin iyul ayının 3-də Bəndər-Abbasdan Dubaya uçan 290 nəfərlik sərnişin təyyarəmiz Amerika hərbi dəniz donanması tərəfindən atəşə məruz qalaraq Fars körfəzi üzərində bütün ekipajı ilə birgə partladı. Bu aşkar cinayəti üzərinə götürməyən Amerika guya onun İranın "F-14" hərbi təyyarəsi ilə səhv saldığını bildirərək hətta həqiqət aşkar olandan sonra da üzrxahlıq və xəsarət əvəzinə əmri yerinə yetirən komandir Rocerzi ləyaqət və fədakarlıq medalı ilə təltif etdi.

dəyişiklik ehtimalını qeyd etdi. Əksər komandirlər müharibə ali komandanı Haşimi Rəfsəncaninin İmama müraciətlə yazdığı məktubun məzmunundan xəbərdar idilər. Məktubda hal-hazırkı şəraitdə dövlətin cəbhələri təmin etməyə kifayət qədər büdcəsi olmadığından söz açılırdı. Möhsün Rzayi bunları dərin hüznlə qeyd edərkən hamımız içimizdən qıvrılırdıq. Dözməyənlər etirazlarını bildirir, içinə salanlar acı-acı ağlayır, hirslənənlər də başını divara döyürdülər. Qüvvə, təchizat və texnikanın çatışmazlığına baxmayaraq bütün sepah komandirləri müharibənin dayandırılmasına qətiyyən razı deyildi və heç biri zərrə qədər də ruhdan düşməmişdi. Arzuolunmaz vəziyyət yaranmışdı. Belə çıxırdı ki, İran BMT-nin 598 saylı qətnaməsinə əsasən, müharibəyə son qoymaq məcburiyyətindədir. Hamı İmamın nə çəkdiyindən və hansı qərara gələ biləcəyindən nigaran idi.

Bu əhəmiyyətli görüşdən sonra yenidən cəbhə bölgəsinə qayıtdım. Cəbhəmiz sərhədyanı Qəsri-şirin məntəqəsindən başlayaraq düşmənin 150 km ərazilərinədək məsafəni əhatə edirdi. İraqın belə bir fürsətdən istifadə edərək hərbi hava donanması vasitəsilə arxa cəbhəmizə qüvvə yeritmə ehtimalı

vardı.[1] Diviziya komandiri daim qərargahlarla əlaqə saxlayırdı və mən də səkkizillik təcrübəmi batalyonların idarəsinə həsr etməli idim. Heç bir döyüşçünün ağlına gəlməzdi ki, bir zaman ştabın yerləşdiyi Çarzəbər ön cəbhə xəttimizi təşkil edəcək və müharibənin taleyi onun iki koridoru arasında yekunlaşacaq. Halbuki bura hələ 1984-cü ildən diviziyamızın sabiq komandiri Hüseyn Həmədani tərəfindən arxa cəbhə təyin edilmişdi. Bu məntəqə neçə strateji əhəmiyyətinə görə xüsusi olaraq fərqlərnirdi. Birincisi, Həmədanla üç-dörd saatlıq fasiləsi olduğundan qüvvələrin səfərbərliyi və təminində mühüm rol oynayırdı. İkincisi, ölkənin qərbi cəbhəsinin, xüsusilə, Sərpol-zəhab və Qəsri-şirin bölgələrinin əsas dayaq nöqtəsi sayılırdı. Bunları nəzərə alaraq ilk növbədə bütün batalyon və qoşun vahidlərinə, o cümlədən, artilleriya korpusuna həmin ərazilərdə mövqe seçməyi tapşırıq verdim. Təchizat və resurs bölümlərinin məsul şəxsləri mənə gülərək deyirdilər: "Bura hara, cəbhə

[1] O vaxt Məcnun adalarında belə hadisənin şahidi olmuşdum. Belə ki, düşmən artilleriya və kimyəvi silahlarla böyük miqyasda bombardmana əl ataraq helikopterlər vasitəsilə səkkizinci qərargah qoşunlarının arxasına qüvvə yeritdi və həmin hadisədə komandirlərin bir qismi əsir düşdü, qərargah komandiri Əli Haşimi ilə birgə digər qismi də şəhid oldu.

hara?!" Kinayə ilə döyüşlərin qərbdə yox, cənubda getdiyini, İraqın bütün gücünü o səmtə yönəltdiyini, Fav və Şələmçədən sonra Məcnun adalarını tamamilə itirəcəyimizi bildirirdilər...



Ənsar əl-Hüseyn diviziyasının komandiri Əli Şadmani, 1366



Ayətullah Meşkini

Almaniya, Axen şəhəri, birinci səfər.

Xalqın neçə kilometrlik izdihamı, Nəhavənd, 1366

Həyat yoldaşım arxa cəbhədə

İkinci səfərdən sonra, ailə üzvlərimlə birgə, Nəhavənd, 1366.

Sağdan: Şəhid Mustafa Talibi, Həsən Tacuk.

Kimyəvi şüalanmaya məruz qalan Mustafa mənimlə eyni vaxtda Almaniyada müalicə olunurdu. Həsənin şəhadət xəbərini xaricdə olarkən eşitdim.

On birinci fəsil

Allah bizimlə idi

1988-ci ilin iyul ayının əvvəllərində Mavut cəbhəsindəki döyüşçülərin bir qismi qayıdıb narahat halda dedilər: "Bir il ərzində aldığımız torpaqları bir gecədə boşaldıb Banə sərhədinə qədər geri çəkildik".

İyulun 18-də radiodan İmam Xomeyninin müraciəti yayımlandı. O, BMT-nin 598 saylı qətnaməsini qəbul etmişdi. Bu xəbər bomba kimi hər tərəfə yayıldı, özümüzü hazırlamış olsaq da, hətta bizi də heyrətə saldı.

Bəsicilərin üz-başlarından qəm-qüssə yağırdı. Hərə bir küncə çəkilib ağlayırdı. Bəziləri palıd ağaclarının altında başlarını bir-birinin çiyninə

qoyub anası ölmüş uşaqlar kimi zarıyırdılar. Qərargahda mənim yanımda bir neçə dəyərli və təcrübəli ruhani vardı. Bir-iki batalyon komandiri dedi ki, onları batalyonlarına şəxsi heyəti sakitləşdirməyə göndərim. Ancaq ruhanilərin özləri də matəmə qərq olmuşdular. Ümumiyyətlə, məsələ moizə və xütbəlik deyildi.

İmam ilk və son sözü deyirdi. Hamı bilirdi ki, onun qərarları boşuna deyil. Ancaq "zəhər camını içmək" məsələsi hamının ürəyinə od vururdu.

Eyni zamanda, imamın müraciəti ümidlə doluydu. Sanki qeyb aləmindən fövqəltəbii bir qüvvə hamını sakitləşməyə çağırır, uşaqların qəlbindəki alova su səpirdi.

Qətnamə qəbul edilsə və qarşılıqlı atəşkəs zamanı təyin olunsa da, iraqlılar qürurdan məst halda hərəkətlərini davam etdirirdilər. Bütün korpus komandirlərinin diqqəti isə cənuba, Əhvaz şəhərinə yönəlmişdi.

İraqlılar 1980-cı ildəki ilk hücumları zamanı olduğu kimi, Əhvaz-Xürrəmşəhr magistralının yaxınlığına çatmışdılar, bu dəfə Xürrəmşəhrdən əlavə, hətta Əhvaz da təhlükə altında idi.

Bir-iki dəfə Nəcəf qərargahına iclasa getdim. Qərargah komandiri Nurullah Şüştəri[1] kimi əsas komandirlər cənubda idilər, biz əməliyyat rəisi cənab Daneşyarla iclas keçirirdik.

Təhlil belə idi ki, məğrur düşmən hücumunu davam etdirəcək, Əhvazı ələ keçirməkdən ötrü əlindən gələni əsirgəməyəcək. Digər tərəfdən, xəbər gəlirdi ki, imamın müraciətindən sonra cənub cəbhələrinə xalq könüllülərindən ibarət döyüşçü seli yola düşüb. Onların çoxu silahlanmağa macal tapmadan soyuq silahlarla Əhvaz-Xürrəmşəhr magistralına gəlirdi. Cənab Daneşyar deyirdi ki, düşmən qərb sərhədlərinin çoxunda fəallaşıb, bəzi cəbhələrdə sərhədi keçib.

Qərargahdan qayıdıb batalyon komandirlərini topladım.

– Biz burada elə-belə qalmışıq. Əsas müharibə Əhvaz-Xürrəmşəhr magistralında gedir. Əbülfəzl və Qasim ibn Həsən batalyonları gərək cənuba getsinlər!

On səkkiz avtobus tapıb iki piyada batalyonu artilleriya və mina batalyonlarının bir qismi ilə birgə

[1] Şəhid Nurullah Şüştəri səkkizillik müqəddəs müdafiə dövrünün dəyərli komandirlərindən idi. O, müharibədən sonra Sistan və Bəlucistan vilayətində xidməti seçdi, orada böyük işlər gördü və 2009-cu ildə terrorçular tərəfindən şəhid edildi.

cənuba göndərdik. Hər birinin 60 nəfərdən artıq şəxsi heyəti olan digər dörd batalyonu da Çarzəbərdə saxladıq ki, Həmədandan köməkçi qüvvələr gələndə təkmilləşsinlər. Fikrim düşmənin Əhvaz-Xürrəmşəhr magistralındakı inanılmaz əməliyyatlarında qalmışdı. Hərdən düşünürdüm ki, eyni hadisə Sərpol Zəhab-Çarzəbər şosesində də baş verə bilərmi?! Ancaq həmin yolun coğrafi vəziyyətini xatırlayanda arxayınlaşırdım. Çünki Pataq dolanbacından bütün Zəhab düzü görünürdü, bizimkilər cəmi bircə tankla aşağını vurub yolu bağlaya bilərdilər.

Digər tərəfdən, fikirləşirdim ki, düşmənin belə sürətlə Əhvaz-Xürrəmşəhr yoluna çatacağına heç kim inanmazdı. Odur ki, hər bir ehtimala hazır olmaq lazım idi. Bu məqsədlə bütün şəxsi heyəti, hətta sürücü və aşpazları da toplayıb dedim ki, silahlansınlar. Topçulara dedim ki, avtomatlar yanınızda olsun, düşməni yaxınlıqda görsəniz, vuruşun. Bu söz onlara bir qədər gülməli gəldi, ancaq əmrə tabe olub silahlandılar.

İyulun 25-də səhər çağı diviziya komandiri Seyid Həmid Saliki cənubdan xəbər yolladı ki, Abadana başqa bir batalyon da göndərim. O, Ənsar əl-Hüseyn diviziyasının komandiri olmaqla yanaşı, korpusun Sahibəzzaman adına mühəndis-istehkam

diviziyasının da rəhbəri idi və mürəkkəb vəziyyətə görə cənuba yerləşmişdi.

Çarzəbərdən başqa bir batalyon da göndərməyə tərəddüd edirdim, ancaq əmr verildiyinə görə, Həzrət Əli Əkbər batalyonuna dedim ki, hazırlaşsın. Bu hazırlıq o qədər uzandı ki, axşama qədər əsas cəbhə cənubdan qərbə yer dəyişdi və batalyonun təcrübəli döyüşçüləri Mirsad əməliyyatında mənim köməkçilərim oldular.[1]

Diviziya komandiri avtobusların gecikdiyini və şəxsi heyətin yola düşmədiyini bilib etiraz etdi və xəbər yolladı ki, tez batalyonu göndərin.

Onları hazırladığım yerdə axşamüstü bir nəfər toz-torpaqlı görkəmdə, narahat halda qərargaha girdi. Əvvəlcə səsini eşidirdim, tövşüyə-tövşüyə deyirdi ki, Hacı Mirzə ilə işim var.

---

[1] Əli Əkbər batalyonunun komandir müavini Əmir Şalbafian deyir: "Batalyonumuzun əksər uşaqları müxtəlif əməliyyatlarda iştirak etmiş təcrübəli döyüşçülər idi. Diviziyamızın qərargah rəisi Hacı Mirzəməhəmməd Sulgi bizə dedi ki, cənuba getməyə hazırlaşaq. Tez uşaqların silah-sursatlarını yoxlayıb hazırlaşdıq. Kirmanşahdan avtobuslar gələcəkdi, ancaq günortadan sonraya qədər onlardan xəbər çıxmadı. Hamımız gözləyirdik. Birdən düşmənin Sərpol Zəhab səmtindən hərəkət etdiyini eşitdik. Avtobusların gecikməsi Allahın gizli lütflərindən idi. Biz Çarzəbərdə qalıb vuruşduq".

İçəri girəndə onu tanımadım. Mənə dedi: "Sərpol Zəhabdan gəlirəm. İraqlılar Qəsri-Şirini və Sərpol Zəhabı tutub Pataq dolanbacına çatıblar".

Bu xəbər o qədər diqqətimi çəkdi ki, onun İmam Xomeyninin Nəcəf qərargahındakı nümayəndəsi Höccətül-İslam Natiqi olduğunu unutdum. Əmmamə və əbanı çıxarıb kürd şalvarı ilə boz köynək geyinmişdi. Ona baxdığımı görüb soruşdu:

– Nə gözləyirsən?

– Yəni dəlidirlər ki, Pataqdan keçələr?! Bəs Əbuzər düşərgəsindəki o qədər döyüşçü ölüb?!

– Mübahisə yeri deyil. Əgər bir iş görməsən, imama, şəhidlərə və tarixə cavab verə bilməyəcəksən. Əgər gec tərpənsən, cəsədlərinizin üstündən keçib Kirmanşaha gedəcəklər".[1]

---

[1] Fəqih rəhbərin Nəcəf qərargahındakı nümayəndəsi Höccətül-İslam Əbülfütuh Natiqi deyir: "İmam Xomeyninin korpusdakı nümayəndəsi Höccətül-İslam Mehdi İraqini görmək üçün Kirmanşahdan qərb cəbhələrinə yollandım. İslamabaddan Sərpol Zəhaba gedəndə şəhərin girişindəki dərənin yaxınlığında jandarmeriya qarovulları önümü kəsib dedilər: "Hacı ağa, irəli getmək olmaz". Komandirləri olan cənab Sərhənginin yanına getdim. O da təkidlə bildirdi ki, iraqlılar Sərpol Zəhaba qədər gəliblər. Onda onların Münafiqlər təşkilatının döyüşçüləri olduqlarını heç kim bilmirdi.

Düşmənin asanlıqda Sərpol Zəhab şəhərinin girişinə qədər gəlməsi çox gözlənilməz idi. Nəhayət, Kirmanşah jandarmeriyasının komandiri ilə birgə durbinlə dərənin yanında

dayanmış düşmən tankını gördük. Vəziyyəti öyrənmək üçün öndən gəlmişdi, arxasındakı saysız-hesabsız münafiq maşınlarını görmürdük.

Bir qədər geridə Pataq dolanbacı adlanan yüksəkliyə çıxdıq. Oradan dərə görünürdü. Birdən başımıza artilleriya və tank atəşləri yağmağa başladı. On beş dəqiqə amansız atəşdən sonra düşmən kolonu Sərpol Zəhab dərəsinin içindən Pataq və Kirində doğru irəliləməyə başladı. Nə baş verdiyini onda bilib Kirmanşah bölgəsinin komandiri və başqa bir neçə nəfərlə birgə tez Kirində getdim.

Yolüstü Kirind korpusuna xəbər verdim ki, gəlirlər. Oradan İslamabada və Kirmanşaha yola düşdük. Çarzəbərə çatanda yadıma düşdü ki, Həmədanın Ənsar əl-Hüseyn diviziyasının düşərgəsi əvvəldən orada yerləşir. Dedim ki, onlara da xəbər verim.

Orada əsas komandir Hacı Mirzə Sulgi idi, diviziya komandiri olmayanda qərarları o verirdi. Onu tanıyırdım, ancaq ruhani geyimində olmadığıma, toz-torpaqlı və həyəcanlı görkəmimə görə məni içəri buraxmırdılar. Nəhayət, səs-küy salandan sonra onu görə bildim.

Protez ayaqlarını uzadıb sakitcə oturmuşdu. Dedim ki, Hacı Mirzə, tərpən, düşmən gəlir. Əvvəlcə ciddi qəbul etməyib dedi: "Bizi ruhlandırmağa gəlmisən, hacı ağa?" Gördüm ki, hər bir saniyə taleyüklüdür. Dedim: "Əgər gec tərpənsən, imama və şəhidlərə cavab verə bilməyəcəksən". Gördüm ki, hələ də soyuqqanlıdır. Axırda elə bir söz dedim ki, qeyrət qanı coşdu.

Kəşfiyyat rəisi Hadi Fəzlini çağırıb vəziyyəti öyrənməyə göndərdi. Hacı Mirzənin həmin axşamkı idarəçiliyinin qiyməti yoxdur. Şəxsən düşünürəm ki, bu gün nəfəs aldığımıza görə bu böyük insana və onun Mirsad əməliyyatındakı silahdaşlarına borcluyuq".

Hacı Natiqi hələ də mat-məəttəl baxır, diviziyanı səfərbər etməyimi gözləyirdi. Yavaş-yavaş hirslənir, dodaqaltı deyinirdi. Mən də dodaqaltı İmam Hüseynlə (ə) danışırdım, o eşitmirdi.

Ayaqlarım kəsiləndən sonra rövzə məclisində bir şeir eşitmişdim. Həmin anlarda onu özümə zəbani-hal bilib pıçıldayırdım: "Ayaqlarımda güc qalmayıb, əlimdən tut!"

Nəhayət, hacının səbir kasası daşdı:

- Gözləyirsən ki, gəlib şalvarlarınızı əyninizdən çıxarsınlar?!

Allaha şükür olsun ki, cavab qaytarmadım. O, məsələnin nəticələrini görürdü. Dərhal Çarzəbərdəki bütün bölük və batalyonlara həyəcan siqnalı verdim, komandirlərə düşmənin gəldiyini söyləyib əməliyyat planı hazırlamağa dəvət etdim.

Hər bir qərardan öncə vəziyyəti öyrənmək üçün irəliyə bir qrup göndərmək lazım idi. Kərbəla briqadasının kəşfiyyat rəisi və qədim kəşfiyyatçılardan olan Hadi Fəzlini çağırdım.[1] Hacı Natiqi vəziyyət barədə ona məlumat verəndən sonra

[1] Ənsar əl-Hüseyn diviziyası Mirsad əməliyyatından öncə iki briqadaya bölünmüşdü. Zülfüqar briqadası cənuba getmiş, Kərbəla briqadası isə Çarzəbərdə qalmışdı. Bu briqadanın kəşfiyyat rəisi Hadi Fəzli idi. O, həmin əməliyyatda şəhadətə qovuşdu.

dedim: "Peşəkar uşaqlarını götür, irəli get, iraqlılara çat".[1]

Hadi iki nəfərlə Toyota pikapına mindi, ardınca da üç-dörd maşın hərəkətə hazırlaşdı. Gedəndə dedim: "Hadi, tez get. Əgər döyüşə girməyə məcbur olsan, orada qal, amma bir nəfəri göndər ki, harayacan irəlilədiklərini bilək".

Kəşfiyyatçılar gedəndən sonra Nəcəf qərargahının əməliyyat rəisi cənab Daneşyar həyəcanla düşərgəyə girib Hacı Natiqinin sözlərini təkrarladı. O, ehtimal edirdi ki, bu müddətdə düşmən Pataqdan keçib Kirind rayonuna girib.

Məndən soruşdu:

– Nə qədər adamın var?

– Şəxsi heyətin çoxu cənubdadır. Qalanını da cənuba göndərəcəkdik, amma vəziyyətə görə qaldılar.

– Cəmi neçə batalyonun var?

– Dörd yarımçıq batalyon. Kəşfiyyatçıları da məlumat öyənməyə göndərdim. Onlar gələndən sonra batalyonları aparacam.

---

[1] Hələ heç kim, hətta xəbəri gətirən Hacı Natiqi də bilmirdi ki, biz Xalq münafiqləri təşkilatının hücumuna məruz qalmışıq. Biz elə bilirdik ki, iraqlılar Xürrəmşəhr və Əhvaz səmtindən hücum edəndən sonra Sərpol Zəhaba doğru da cəbhə açıblar.

Cənab Daneşyar bizim hazırlığımızdan arxayın olandan sonra vilayət rəhbərliyinə məlumat verməkdən ötrü Kirmanşaha qayıtdı.

O vaxta qədər Çarzəbərdə Tehran, Simnan və Kirmanşah vilayətlərinin döyüşçülərindən heç kim yox idi. Mən Hadi Fəzlidən xəbər öyrənəndən sonra dərhal telefonla korpusun Baş komandanının birinci müavini Əli Şəmxaniyə məruzə etdim.

Hələ günəş dağın arxasına keçməmiş Hadi Fəzli tək-tənha qayıtdı. Başından üzünə və paltarlarına qan damırdı. Pikapın ön şüşəsində güllə yerləri vardı. Soruşdum:

– Hadi, nə olub?

– Hacı Mirzə, iraqlılar Kirind və İslamabaddan keçiblər, qulağımızın dibindədirlər.

Təəccübləndim.

– Harda?

– Çarzəbər dərəsinin o tərəfində, Həsənabad dolanbacının aşağısında.

Onlar düşmənin Kirindin yaxınlığında olduğunu düşünüb sürətlə getdikləri yerdə zirehli texnikası ilə üzləşmişdilər.

– Uşaqların qalanı hardadır?

– İrəlidə vuruşurlar.

Hadi yaralanmışdı, ancaq digər kəşfiyyatçıları toplayıb Həsənabad dolanbacındakı döyüş yerinə getməyə icazə istədi.

– Get, ancaq uşaqlarını geri gətir. Biz düşməndən qabaq Çarzəbər yüksəkliklərinə yerləşməliyik. Onlar Çarzəbərə çıxsalar, Kirmanşahı alacaqlar.

Tez batalyonları topladım. Həmin gün səhərə qədər cəmi iki batalyonumuz vardı. Onları cənuba göndərməyə hazırlaşmışdıq, amma xoşbəxtlikdən, avtobuslar gəlməmişdi. Rəzən, Faminin və Qəhavənd rayonlarının döyüşçülərindən yaradılmış və Mahmud Rəcəvinin başçılıq etdiyi üçüncü batalyonu səhər çağı cənuba yollamışdım. Həmin 120 bəsici bu böhranlı şəraitdə bizə çox kömək edə bilərdi. Onların cənuba marşrutu Çarzəbərdən İslamabada, oradan da Əndimeşkə doğru gedirdi. İslamabaddan keçəndə başlarına nə gəldiyini bilmirdim. Bir ehtimal bu idi ki, düşmənlə rastlaşıb vuruşmuşlar. İkinci ehtimal bu idi ki, düşmən üzük yoluna girməzdən qabaq şəhərdən çıxmışlar. İkinci ehtimalın baş verdiyinə ümid bəsləyirdim.

Əli Əkbəripurun başçılıq etdiyi dördüncü batalyon şimal-qərb cəbhəsindən qayıdıb Həmədanda istirahət edirdi. Onlar həmin gün özlərini Çarzəbərə yetirdilər. Biz diviziyanın

Həmədandakı qərargahına xəbər vermədən özləri xilas mələyi kimi gəlmişdilər.[1]

İclasda batalyon komandirlərinə dedim: "Bəlkə də inanmazsız, ancaq iraqlılar bizdən 3-4 km aralıdadırlar. Yalnız biz qalmışıq, bir də Allahımız! Əgər bu gün azca geciksək, sanki on minlərlə şəhidin qanını tapdamış olacağıq. İraqlılar qətnaməni qəbul etməyimizi zəiflik saymışlar. Onlar heç bir müqaviləyə sadiq deyillər və biz Aşura övladları olduğumuzu göstərməliyik".

---

[1] Həbib ibn Məzahir batalyonunun komandiri Əli Əkbəripur deyir: "Şəxsi heyətlə birgə Həmədanda idik. Diviziyanın əməliyyat komandirlərindən Səid Tabloyini orada gördüm. Mənə dedi: "Qardaş Əkbəripur, siz sabah Əhvazda olmalısız, nə üçün getməmisiz?" Dedim: "Bizə belə bir tapşırıq verilməyib, döyüşçümüz də çox deyil".

İran İslam Respublikası 598 saylı qətnaməni qəbul etmişdi, bizdə də canlı qüvvə çatışmazlığı vardı. Həmədan radiosunun Türkcə yayım bürosundan türk dilində müraciət yaymaqdan başqa yol görmədim. Çünki batalyonumuzun əksər döyüşçüləri türkdilli idilər. Həsən Yədullahini göndərdim. O, radiodan dedi ki, batalyon üzvləri bir-birinə xəbər versinlər, 25 iyulda səhər çağı hamı Həmədan korpusunun Ezam şöbəsinə toplaşsın.

Həmin gün təxminən 100 döyüşçü ilə Çarzəbərə diviziyanın qərargah rəisi Hacı Mirzənin yanına yola düşüb günorta saat 3-də Şəhid Şahbazi düşərgəsinə daxil olduq. Hacı Mirzə bizi görüb çox sevindi, dedi ki, sizi Allah yetirib.

Əli Əsgər batalyonunun komandiri Abbas Zamani dedi: "Hacı, bizim hər döyüşçüyə bir daraq patronumuz da yoxdur".

Dedim: "Patronsuz sənsən, yoxsa İmam Hüseynin altıaylıq körpəsi?! Get, həzrət Əli Əsgər kimi boğazını güllənin qabağına ver, dişinlə-dırnağınla döyüş. Patron yoxdursa, gedin Çarzəbər təpələrindən onlara daş atın".[1]

Vəziyyətin həssas olduğunu izah edəndən sonra batalyonların şəxsi heyətinin sayını soruşdum. Magistralın iki tərəfindəki dörd təpənin hamısını tam dolduracaq həddə deyildi. Düşmənin hansı potensialla hücuma keçdiyini də bilmirdik.

Qorxu və ümidsizlik yaradan çatışmazlıq söhbətlərini müharibənin əvvəlindən qəbul etmirdim. Daş və çomaqla vuruşmalı olduqlarını

[1] Əli Əsgər batalyonunun komandiri Abbas Zamani deyir: "Vuruşmaq üçün yetərli sursatımız yox idi. Hacı Mirzə isə qərara gəlmişdi ki, nəyin bahasına olursa-olsun, hətta daşla olsa belə, düşmənin yolunu bağlamalıyıq. O, yaralı canıyla dağ kimi möhkəm idi, səsində zərrə qədər də qorxu əlaməti görünmürdü. Mən illər öncədən həmişə arzu edirdim ki, kaş batalyon komandiri olmaq yerinə onun yanında adi bir döyüşçü olaydım. Artıq bunun zamanı gəlmişdi. O, 1988-ci ildə Çarzəbərdə vuruşduğunu düşünmürdü, özünü aşurada görürdü. Təkcə mən yox, bütün komandirlər inanırdılar ki, o, Kərbəla səhrasında olsaydı, İmam Hüseynin (ə) səhabələri kimi hər şeyini ona qurban verərdi".

söyləsəm də, uşaqları Kirmanşaha silah-sursat gətirməyə göndərməli idim.

– Hacı, mən bir maşın yüngül sursat gətirmişəm, – deyə Əli Əkbəripur bildirdi.

– Mavut cəbhəsindən geri çəkiləndə onları heç kim təhvil almadı, biz də eləcə Həmədana qayıtdıq. Orada da heç kim təhvil almadı və özümüzlə buraya gətirməyə məcbur olduq.

– Hara boşaltmısız?

– Yaxınlıqda bir təpənin döşünə. Məncə, dörd batalyonu iki-üç gün təmin edə bilər.

Bəsici batalyonunun gəlişi təsadüfi ola bilərdi, ancaq o şəraitdə çörəkdən də vacib olan sursatların gəlişini heç cür izah etmək mümkün deyildi. Əmin idim ki, bu məsələlər bizim düşüncələrimizin fövqündə durur və Qurani-kərimin "Siz Allaha yardım göstərsəniz, O da sizə yardım göstərər"[1] vədinin real nümunəsidir.

Günbatana yaxın başqa bir gözlənilməz və qəribə hadisə də baş verdi. Bunun səbəbini də Allahın mərhəmətində axtarmaq lazımdır.

Günbatan çağı Hadi Fəzli yenə yaralı halda gəlib dedi: "Uşaqlar vuruşdular, Əlirza Mirzayi ilə Hacı Abidi Tehrani şəhid oldu. Biz qayıdanda bir avtobus

[1] Məhəmməd surəsi, ayə 7.

peyda oldu, Çarzəbər səmtindən İslamabada gedirdi. Onu saxladıq. Onlar düşmənin Həsənabad dolanbacına gəlib çatdıqlarını bilmirdilər".

– Hansı diviziyadan idilər? Sayları nə qədər idi?

– Bədr diviziyasından tam silahlı təxminən 45 nəfər.

– Nə etdilər?

– Avtobusdan enib düşmənlə vuruşmağa getdilər.

Bədr diviziyası iraqlı mücahidlərdən yaradılmışdı, illər idi bizim yanımızda vuruşurdular. Heç kimin ağlına gəlməzdi ki, onlar kəşfiyyatçılardan sonra magistrala çatıb düşmənin hərəkətini ləngidə, dayandıra bilərlər.

Hadi Fəzli döyüş barədə məlumat verəndə dedi ki, maşınlarının üstündə Münafiqlər təşkilatının loqosu vardı və farsca danışırdılar.

Düşmənin torpaqlarımızın 150 km-liyinə qədər irəliləməsi xəbərindən də acı olan iranlı oğlan və qızlarla vuruşmaq gerçəyi idi.[1]

---

[1] Münafiqlər təşkilatı illərlə Səddam rejiminə xidmət etmişdi, İslam respublikasının 598 saylı qətnaməni qəbul etdiyini görüb, onun dağılmaqda olduğunu düşünmüş, 25.07.88 tarixində qondarma "İran Milli Azadlıq Ordusu" adlı 5 min nəfərlik bir qoşunla Əşrəf qərargahından hərəkətə başlamış, Qəsri-Şirin sərhədindən keçib həmin gün axşamüstü Həsənabada çatmışdı. Plana görə, onlar iki günə Tehrana çatmalıydılar. Hansı ki, 1980-cı

İraqlı mücahidlərin vuruşduğunu eşidəndə bu narahatlıq aradan qalxdı. Fəzliyə dedim: "Hadi, Allahın işini görürsən də; iranlılar Səddamın cəbhəsində vuruşurlar, iraqlılar bizim cəbhəmizdə!"

– Münafiqlərin arxasında bəəsçilərin də olmadığını bilmirik. Görünən budur ki, Səddam münafiqləri irəli verib.

– Mən də elə düşünürəm. Hər halda, sən yaralanmısan. Get, yaranı bağlasınlar.

Hadi Fəzli geri gedə bilərdi, ancaq qaldı. Bəlkə də iki gündən sonra səkkizillik cihadının mükafatını alacağını bilirdi.

Fəzlinin son məruzəsini dinləyəndən sonra dərhal Həmədan korpusuna rəhbərlik edən Həmid Əsgəri ilə əlaqə saxladım, vilayətin bütün imkanlarını səfərbər etməsini istədim.

Təsadüfən, yüksək vəzifəli komandirlərdən olan Əli Şəmxani Həmədanda idi. Dəstəyi alıb bir-birinin ardınca sual verir, vəziyyəti öyrənirdi.

Söhbətimizin sonunda soruşdum: "Qardaş Şəmxani, əgər düşmən insan istehkamından istifadə edib müdafiəsiz İslamabad əhalisini tankların önündən göndərsə, vəzifəmiz nədir?"

---

ildə Səddam Hüseyn də elə bilirdi ki, Xuzistanı ələ keçirib üç günə Tehranda olacaq.

Cənab Şəmxani dedi: "Çalışın, bir yolla camaatı düşməndən ayırın. Səsucaldanla və başqa bir vasitə ilə onları kənara çəkin. Əgər alınmasa, heç kimi dərədən keçməyə qoymayın".

Həmid Əsgəriyə Çarzəbərə canlı qüvvə göndərməsini söyləsəm də, əmin olmaqdan və işi sürətləndirməkdən ötrü diviziyanın Nəqliyyat rəisini çağırıb dedim: "Həmədana get, uşaqlarla Toyota pikaplarının və dövlət idarələrinə məxsus mikroavtobusların qarşısını kəs, de ki, maşınlarını Çarzəbər cəbhəsinə göndərməsələr, düşmən tankları Həmədana çatacaq. Hər maşının sürücüsünə də bir keçid vərəqəsi ver".[1]

Bütün idarə işlərini görəndən sonra batalyonları təpələrə göndərdim. Maşın az idi, bəziləri dərəyə qədər 3-4 km yolu piyada getməyə məcbur oldular.

[1] Ertəsi gün səhər çağı uşaqlar 28 ədəd Nissan, Paykan və Toyota pikapı ilə gəldilər. Pikaplardan düşərgədən Çarzəbərdəki döyüş yerinə canlı qüvvə, yemək və silah-sursat aparmaq üçün istifadə olundu. Həmid Əsgərinin bu işinə görə Həmədan vilayətinin ovaxtkı valisinin etiraz səsi çıxdı. Döyüşün ikinci günündə, vuruşmanın qızğın yerində Həmədan valiliyindən bir nəfər gəlib dedi: "Siz bu işinizlə dövləti zəiflətdiniz". Ona dedim: "Get, valiyə de ki, məgər İslamabadda və Kirinddə dövlətdən bir şey qalıb?! De ki, bunların ayağı Kirmanşaha dəysə, nə bağ qalacaq, nə də bağban!"

Üç saatdan sonra ratsiyadan deyildi: "Biz təpələrin başındayıq. Sakitlikdir".

İclasda batalyon komandirlərinə demişdim ki, mənim gəlməyə ayağım yoxdur. Bəlkə onlar da bunu gözləmirdilər, ancaq mən dərədə baş verənləri dağın arxasında ratsiyadan dinləyə bilməzdim.

Axşam namazımı qıldım. Halım yaxşı idi. Öncəki əməliyyatlarda olduğu kimi, Allaha təvəkkül və məsumlara təvəssül edib sakitləşirdim.

Uzaqdan arabir atəş səsləri gəlirdi. Radionu açdım. Diktor İmam Xomeyninin xalqa müraciətini oxuyurdu. İmam hamını döyüşçülərə kömək etməyə çağırırdı. Yola düşməzdən öncə hər iki protez ayağımı çıxarıb zenit pulemyotu kimi yuxarı qaldırdım və ağlaya-ağlaya dedim: "İlahi! Bizi imamın və şəhidlərin yanında xəcalətli eləmə! İlahi! Bu kəsilmiş ayaqlarımdan başqa bir şeyim yoxdur. Səni həzrət Əbülfəzlin kəsilmiş qollarına and verirəm, əlimdən tut!"

Rabitəçim və dörd döyüşçü bir xərəklə pikapın arxasında oturub mənə baxır və yəqin ki nə dediyimi düşünürdülər.

Yola düşüb bir neçə dəqiqədən sonra birinci dərəyə, yəni üçüncü və dördüncü təpənin yamacına çatdıq. Yolun kənarında maşından enib xərəyin

üstünə uzandım. Hər şeyi təpənin başından görmək istəyirdim.

Dörd döyüşçü xərəyi qaldırıb cığırların və daş-qayaların arası ilə yola düşdü. Maraqlı səhnə idi. Mən xərəklə yuxarı qalxırdım, ilk yaralıları da xərəklə təpədən endirirdilər. Təpənin başındakı döyüşçülərin yanından keçəndə onları gülmək tuturdu.

Durbinlə Çarzəbər dərəsindən Həsənabada qədər əraziyə baxdım. Qaranlıq olsa da, pikap, IFA, tank və zirehli maşınların uzun sırasını görmək olurdu. Bir qədər geridə TIR yük maşınları vardı. Minaatanları və hava hücumundan müdafiə qurğularını onlardan endirirdilər.

Ətrafımdakılar qarşılarındakıların iraqlı olduğunu düşünürdülər, onların münafiq olduqlarını məndən və Fəzlinin uşaqlarından başqa heç kim bilmirdi.

Cəbhəyə qorxunc sükut çökmüşdü. Bəlli idi ki, münafiqlər Hadi Fəzlinin bölüyü və Bədr mücahidləri ilə vuruşandan sonra dərədən keçməyə plan hazırlayırlar.

Təpənin başından bütün batalyon komandirləri ilə rabitə əlaqəsi saxlayıb dedim ki, sayıq olun, bu axşam bir hadisə baş verməsə, sabah çoxlu köməkçi gələcək. Yenə xərəyə uzanıb həmin dörd nəfərlə magistralın başına döndüm, yeni vəziyyəti

Kirmanşahdakı Nəcəf və Həmədandakı Qüds qərargahlarına məruzə etməkdən ötrü qərargaha getdim.

Əxlaq müəllimi və həmədanlı döyüşçülərin mənəvi komandiri olan Hacı Rza Fazilian da oradaydı. Məsələdən xəbəri vardı, oğlu Höccətül-İslam Seyid Həsən Fazilianla birgə Mələyirdən gəlmişdi. Ona dedim:

- Hacı, sizin burda qalmağınız məsləhət deyil, gərək qayıdasız. Bu gecə və sabah nə baş verəcəyini bilmirik. Bilirsiz ki, münafiqlər 1981-ci ildə əvvəl cümə imamları ilə problemlərə başladılar, sonra biz pasdarlarla".

Nə qədər israr edirdimsə razılaşmır, deyirdi ki, bəsicilərin yanında qalmaq istəyirəm. Axırda şəriətdən istifadə etməyə məcbur oldum.

– Hacı ağa, bizə öyrətmisiz ki, cəbhədə komandirin sözü şəriət hökmüdür. Burda komandir mənəm və sizə qayıtmanızı əmr edirəm.

Bunu deyəndən sonra razılaşıb qayıtdı, oğlu Hacı Həsən isə üç gün uşaqların yanında qalıb vuruşdu.

Nəcəf qərargahı ilə əlaqə saxladım. Qərargah komandiri Nurullah Şüştəri hələ cənubda idi. Mənə dedilər: "Komandir yola düşüb, bir qədər sonra çatacaq. Nəcəf qərargahının bəzi pasdarları da Çarzəbərə yola düşüblər".

Həmədanla, Həmid Əsgəri ilə yenə danışdım. Dedi ki, bütün vilayətdən bir neçə batalyon toplanıb, tədricən diviziyaya qoşulacaqlar.[1] Diviziya komandiri Həmid Saliki ilə də əlaqə saxladım. O dedi: "İndiyədək bütün diqqət cənuba yönəlmişdi, indi isə qərbə". Təkidlə tapşırdı ki, dərənin içindəki yolu torpaq istehkamla bağlayın. Dərhal diviziyanın mühəndis-istehkam bölüyü ilə əlaqə saxladım, ikinci təpəyə ekskavator və buldozer göndərdim. Tapşırdım ki, yolun eni, 2 metr hündürlüyündə torpaq istehkamla bağlansın.

Gecə yarısı ratsiya ilə xəbər verdilər ki, istehkam hazırdır. Bundan sonra arxayınlaşdım.

Dizlərimin altı yara olmuşdu, ancaq bağlamağa imkan yox idi. Yenə əvvəlki üsulla, dörd nəfərin köməyi ilə xərəkdə Çarzəbərə qayıtdım.

Münafiqlərlə aramızdakı əkin sahələri yanmışdı, hər tərəfi tüstü və yanıq qoxusu bürümüşdü. Bu qoxu ertəsi gün səhər çağından insanların yanıq qoxusu ilə əvəzlənəcəkdi.

---

[1] Bütün müharibə illərində belə cəld canlı qüvvə yığılmasını görməmişdim. Təkcə Bahar rayonundan Xəlil Əfşarın başçılığı ilə bir batalyon gəldi. Nəhavənd rayonundan da Cəlal Fütuvvətin komandirliyi altında bir batalyon birinci gün özünü Çarzəbərə yetirdi.

Həzrət Əli Əsgər batalyonunun komandiri Abbas Zamani mənim arxamca gəlirdi. Geridəki iki təpənin arasında qurulmuş torpaq istehkamın yanından öndəki dərəyə gedirdik. Dörd köməkçim xərəklə arxamızdan gəlirdi. Hamar asfalt üzərində çəliklə gedə bilirdim, ancaq qaranlıq olduğuna görə bir neçə dəfə yerə yıxıldım.[1]

***

Dərədə məni görən hər kəs bir şey istəyirdi. Ən çox avtomat patronuna və əl qumbarasına ehtiyacları vardı. Bəziləri soyuqdan şikayətlənirdi, bəzilərinin yeməyi yox idi və hələ döyüşə başlamamış su qabları boşalmışdı.

Həzrət Əli Əsgər batalyonunun əməliyyat üzrə komandir müavini İsmayıl Fərcam məni gördü. O, çatışmazlıqlardan danışmayıb dözümlü olacaq qədər çoxlu ağır əməliyyat görmüşdü. Ancaq deyəsən, şəxsi heyəti digər komandirlər kimi ona da təsir etmişdi. O da batalyon komandiri Abbas Zamaninin sözünü dedi: "Sursat yetərincə deyil".

---

[1] Əli Əsgər batalyonunun komandiri Abbas Zamani deyir:

"Hacı Mirzə qərarsız idi. Gecənin yarısı yenə dərəyə gəldi, yolla irəli getdi. O qədər irəlilədik ki, düşmən kolonunu asanlıqla görürdük. O, bir neçə dəfə yıxılıb-qalxdı, ancaq kiminsə onun qolundan tutmasına da qoymadı".

- Bu sözlərin zamanı deyil. Gedin təpənin başına, oradan düşmənə daş və ağac budaqları atın. Bir nəfər də dərədən keçməməlidir!

İsmayıl Fərcam gedib şəxsi heyətini öndəki təpələrin üstündə sağ-sola düzdü. Dörd nəfər əlində xərək dayanıb mənim yenə uzanmağımı gözləyirdi. Ancaq çəliyi götürüb bir qədər onunla getdim.

Diz sümüklərimin ucu dəridən çıxmışdı, ayaqlarımı yandırırdı. Yeriyəndə bütün bədənimin ağırlığını çəliklərin üzərinə salırdım. Ancaq o vəziyyətdə yol yerimək mənə uçmaq qədər imkansız görünürdü.

Həzrət Əli Əsgər batalyonunun uşaqlarını təlimatlandırandan sonra Həzrət Əli Əkbər batalyonunun komandiri Bəhram Mübarəkini gördüm. Yaralı idi, Məcnun adasında qarnını yarmış böyük qəlpədən hələ də əziyyət çəkirdi. Kərbəla-5 əməliyyatında da yaralanmışdı, ancaq yenə qıvraq görünürdü.

Bəhram əsil-nəsəbcə abadanlı idi. Cənub cəbhəsində 50 dərəcə istidə oruc tutub deyirdi: "Bura mənimçün vətən hökmündədir". Onun üzü mənə komandiri Möhsün Ümidini xatırladırdı. Hacı Möhsün kimi onun da yolun sonuna çatdığı hiss olunurdu. Müavini Əmir Şalbafian da yanındaydı. Gözləri mənim ayaqlarımda qalmışdı, qulaqları

ratsiyada. Bilirdim ki, ayağımın yarası diqqətini çəkib, amma mənə mühüm deyildi.

Mən ratsiya ilə qərargahla danışırdım. Onunla Mübarəki iki bölüklərini soldakı yüksəkliklərə yerləşdirmişdilər. Ora isə ən ağır döyüş yerlərindən biri idi.[1]

Öndən xəbərim yox idi, amma təxmin etmək olurdu. Kəşfiyyat bölüyünün uşaqları və iraqlı mücahidlər düşmən qoşununu dayandıra bilmişdilər. Münafiqlər vəziyyəti araşdırırdılar, güman edirdim ki, bizim vəziyyətimizi öyrənmək üçün bəzilərini dərəyə kəşfiyyata da göndəriblər. Odur ki, dərənin sağ və solundakı təpələrə yerləşmiş komandirlərin hamısına düşmən kəşfiyyatçılarına

[1] Həzrət Əli Əkbər batalyonunun komandir müavini Əmir Şalbafian deyir: "Bilmirəm Hacı Mirzə özü bilirdi, yoxsa yox; oyan-buyana getdiyinə görə dizlərinin altı qanayırdı. Mən hacını 1984-cü ildə Əbuzər düşərgəsi dəhşətli şəkildə bombalananda görmüş, uşaqların bədənləri parçalananda, qol və ayaqları kəsiləndə möhkəmliyinə şahid olmuşdum. Burada da düşmənin çoxlu imkan, silah və texnikalarla irəlilədikləri bir şəraitdə eləcə möhkəm və mətanətli idi. Həmin taleyüklü gecədə cəbhənin əsas komandiri o idi. Ata kimi bir an da uşaqları yaddan çıxarmır, təpələrin başındakı komandirlərlə tez-tez əlaqə saxlayıb vəziyyəti öyrənirdi. O bilirdi ki, döyüş uzansa və sursat gəlməsə, düşmən dərədən keçəcək. Odur ki, qərargahla əlaqə saxlayıb patron istəyirdi. Qərargahdan isə deyirdilər: "Bütün sursatları cənuba göndərmişik, əlimiz boşdur".

qarşı sayıq olmağı tapşırıb xərəyin üstünə uzandım və öncəki hekayə, yəni dörd nəfərin məni ikinci təpənin başına çıxarmaq zəhməti təkrar olundu.[1] Hava işıqlaşmağa başlamadan sübh namazımı qıldım. Yanımdakılar da təyəmmüm edib növbə ilə çəkmədə namazlarını qıldılar. Sonra bütün diqqətlərini işıqları yanan maşınlara yönəltdilər ki, heç kim yaxınlaşmasın.

Hava işıqlaşanda gecə gördüyüm yüzlərlə maşın və hərbi texnika qaraltısı aydınlaşdı, arxalarında ya 23 mm çaplı raket, ya dördlü zenit pulemyotu, ya da DŞK olan ağ pikaplar və önlərinə ağ parçada Münafiqlər təşkilatının loqosu bağlanmış IFA və Hino hərbi avtomobillər görünürdü. Həsənabad dərəsindən yuxarıya qədər minə yaxın tank, avtomobil, yüngül və ağır texnika saymaq olardı.[2]

---

[1] Təsadüfən, münafiqlərin kəşfiyyatçılarından biri bizim mövqeyimizə girə bilmiş, ancaq tələyə düşmüşdü. O bizdən olduğunu söyləyirdi, amma ertəsi gün Şəhid Şahbazi düşərgəsindəki qərargaha qayıdanda əsl kimliyini öyrəndim.

[2] Münafiqlər təşkilatından əldə edilmiş sənədlərdə onların avtomobil və texnikalarının sayı belə göstərilirdi:

Təxminən 1000 ədəd pikap və hərbi avtomobil;

Təxminən 70 ədəd zirehli maşın və tank;

Təxminən 50 ədəd qumbaraatan;

Təxminən 100 ədəd zenit pulemyotu;

Təxminən 300 ədəd müxtəlif çaplı minaatan;

Təxminən 100 ədəd 106 mm çaplı silah;

Səhər saat 5:25 dəqiqədə ilk pikap avtomobili yerindən tərpəndi, ardınca bir qədər tank və zirehli maşın Həsənabad dərəsindən Çarzəbər səmtinə enməyə başladı. Onlar Çarzəbərin 2 km-liyinə, birinci və ikinci təpənin arasına çatdılar.

Mən bir qədər geridə üçüncü təpənin başında idim. Abbas Zamani ilə Bəhram Mübarəki düşmən qoşununu daha dəqiq görürdülər.

Təəccüb edirdim ki, görəsən, nə üçün heç bir tərəf atəş açmır. Sanki şahmat kimi hər biri qarşısındakının beynini oxumaq istəyirdi.

Dərənin solunda yerləşmiş uşaqlarla əlaqə saxlayıb dedim: "Nə üçün vurmursuz?" Həzrət Əli Əsgər batalyonunun əməliyyat üzrə komandir müavini İsmayıl Fərcam cavab verdi: "Hacı, bunların iranlı, yoxsa düşmən olduğunu bilmirik. Parça və bayraqları İrana aiddir". Dedim: "Vurun bu axmaq münafiqləri!"

O vaxta qədər qarşılarındakıların kim olduğunu bilmirdilər. Mənim əmrimlə sol yamacdakı uşaqların barmaqları tətiyə getdi və döyüş başlandı. Bəlkə də münafiqlər fikirləşmirdilər ki, sərhəddən, Qəsri-Şirin, Sərpol Zəhab, Kirind və İslamabad kimi şəhərlərdən sürətlə keçəndən sonra qarşılarında

---

Təxminən 60 ədəd DŞK pulemyotu.

maneə yarana bilər. Əlbəttə, sonradan əlimizə keçən sənəd və xəritələrə görə, yolda qısa döyüşlər hesablamışdılar. O cümlədən bilirdilər ki, Ənsar əl-Hüseyn diviziyasının bir hissəsi Çarzəbər dərəsinin arxasındakı Şəhid Mahmud Şahbazi düşərgəsindədir.

Onların təxmininə görə, İslam respublikasının bütün imkanları cənub cəbhəsinə yönəlmişdi, qərbdə başlayan hər bir əməliyyat bir saat ərzində yolları açıb Kirmanşaha doğru hərəkətə zəmin yaradacaqdı.[1]

Onlar yollarındakı hər bir maneəni asanlıqla aradan qaldırır, məqsədlərinə nail olmaqdan ötrü heç bir cinayətdən çəkinmirdilər; İslam respublikasının tərəfdarı olan mömin insanları öldürmüş, İslamabad xəstəxanasındakı yaralıları güllələbaran etmişdilər.

Atışma başlayandan sonra münafiqlərin hərbi düzülüşü pozuldu. Geri qayıtmaq istəyən yeddi-səkkiz avtomobil toqquşdu, bir neçəsi aşdı, bir neçəsi qumbaraatanla vuruldu. Digərləri də qorxub geri çəkildilər, uzaqdan tank və raketlə atəş açmağa başladılar.

[1] Sənədlərə və münafiq əsirlərin açıqlamalarına görə, onlar sərhədi keçəndən düz iki sutka sonra Tehrana çatmağı planlamışdılar.

Bu mərhələdə yeddi şəhid verdik, altmış dörd nəfər yaralandı. Qərara gəldim ki, düşərgəyə qayıdıb canlı qüvvə və silah-sursat təmin etmək üçün yenə Kirmanşah və Həmədanla əlaqə saxlayım. Ancaq bu zaman təpənin başında artilleriya batalyonunun komandir müavini Abbas Nurianı gördüm. Ratsiya ilə danışır, yeganə mini-katyuşanın atəşlərini yönləndirirdi. Məni görüb təəccüblə süzdü və sevincək dedi:

– Axır ki işə düşdü.

– Nə?

– Mini-katyuşa.

Dedi ki, bütün raketləri cənuba göndərib, Çarzəbərdə yalnız bir xarab mini-katyuşa qalıbmış. Uşaqlar onu təmir edib atəş açmağa başlamışdılar.

Enmək fikrimdən daşınıb onun yanında oturdum. Hədəfi təyin etmək üçün planı və kompası da yox idi. Bir əli durbində idi, o biri əli ratsiyanın dəstəyində. Ona bir neçə hədəf göstərdim, o da vurdurdu.

Mini-katyuşa bizdən arxada, düşərgənin ərazisində idi, hədəflər də qarşıda bir düz xətt üzrə yerləşmişdi. Odur ki, atəşi idarə etmək çətin deyildi. Həmin gün həmin mini-katyuşa xariqələr yaratdı.

Səhər saat 8-də qayıtdım. Yolda təxminən 80 nəfəri gördüm. Yaşıl korpus geyimində dərəyə

girirdilər. Mən xərəyin üstündə uzanmışdım, elə bildilər ki, yaralıyam. Xərəkdən qalxıb dedim: "Mən Ənsar əl-Hüseyn diviziyasının qərargah rəisi Mirzəməhəmməd Sulgiyəm. Siz hardan gəlmisiz?"

– Kirmanşahdan.

– Bizim uşaqlarımız dərənin sağ-solunu bağlayıblar. Yolda torpaq istehkam da qurmuşuq, düşmən nə edəcəyini bilmir.

Münafiqlərin vəziyyətini bacardığım qədər izah etdim. Ancaq vaxt az idi; həm onlar tələsirdilər, həm də mən. Odur ki, yoluma davam etdim. Qayıdanda yolda çoxlu döyüşçü görürdüm. Piyada, ya da avtomobillə özlərini dərəyə yetirirdilər. Simnanın Qaim briqadasından idilər.

Qərargaha çatanda 10-12 döyüşçü gördüm. Tehranın "Məhəmməd rəsulullah (s)" diviziyasının uşaqları idi, Kuzəran düşərgəsindən gəlmişdilər, silah-sursat istəyirdilər. Onlara dedim: "Mən öz uşaqlarımıza demişəm ki, gərək silah-sursatı düşməndən alasınız". Beləliklə, tehranlılar da döyüşə əliboş getdilər.

Münafiqlərin mərmiləri düşərgənin içinə, təxminən boş çadırların yanına düşürdü. Bu onu göstərirdi ki, özlərini ağır bir döyüşə hazırlayırlar.

Bir-iki dəfə ratsiya ilə düşmənə daha yaxın komandirlərlə əlaqə saxladım. Bəhram Mübarəki ilə

Abbas Zamani deyirdilər: "Önlərini kəsmişik. Ancaq sursat istəyirik". Onlar bildirirdilər ki, münafiqlər ətrafa səpələniblər, sağ-soldan dərəni keçmək istəyirlər.

Bəhram Mübarəkiyə dedim: "Sizin bir-iki bölüyünüzə əl dəyməyib. İrəliləyib Çarzəbərlə Həsənabad dərəsinin arasına girin, onların arxasına keçməyə çalışın".

Elə də oldu. Mübarəki bir bölük götürüb irəli getdi.

Saat 9 oldu. Ayaqlarım gizildəyir, yaralardan qan və çirk axır, yuxusuzluqdan gözlərim bağlanırdı. İki sutka idi bir dəqiqə də yatmamışdım. Gözlərim bağlı ikən bir nəfər gəlib xəbər verdi ki, ekskavator sürücüsü dərədəki istehkamı ikiqat etdi.

Dərənin bağlanmasından arxayın oldum, amma sursatın bitməsindən və döyüş yerindəki canlı qüvvənin azalmasından qorxurdum. İstirahətin xeyrindən keçib qərargahdan çıxdım. Gördüm ki, göydə bir neçə İraq təyyarəsi fırlanır, amma heç bir yeri bombalamır.

Təyyarələr gedəndən sonra helikopter səsi gəldi. Dedim: "İlahi! Özün kömək elə! Bizim bütün gücümüz bundan ibarətdir".

Getməyə ayağım yox idi. Ətrafımda bir kəs də yox idi deyim ki, iraqlılar helikopterlə düşərgənin

arxasına döyüşçü endirmək istəyirlər və dərəni arxa tərəfdən də bağlamaq lazımdır. Keçən həftə əsas işim düşmənin helikopterlə piyada endirmə əməliyyatına qarşı plan hazırlamaqdan ibarət olsa da, canlı qüvvə azlığından hətta əşya və ərzaq xidmətindəki qocaları da döyüşə göndərməyə məcbur olmuşdum. Orada yalnız artilleriya uşaqlarından bir neçəsi vardı, yuxarı bucaq qrupu ilə atəş açırdılar.

Helikopterin səsi yaxınlaşdı. Ümmülqəsr magistralında İraq helikopterlərinin başımız üstə fırlandığı zaman keçirdiyim hisslər yadıma düşdü.

Birdən helikopterin özümüzünkü olduğunu gördüm. Sevincimdən uçmağa qalmışdım. Helikopter qərargahın önündə yerə oturdu, pərləri dayananda ürəyim sakitləşdi.

Müdafiə nazirliyinin Quru Qoşunlarının komandanı Şəhid Polkovnik Səyyad Şirazini görəndə sevincimdən yerə-göyə sığmırdım. Məni çoxdan, Vəlfəcr və Qadir əməliyyatlarından çox yaxşı tanıyırdı, hələ adımı unutmamışdı. Ordu və korpus komandirlərindən yanında heç kim yox idi.

Soruşdu: "Hacı Mirzə, vəziyyət necədir?"

Canlı qüvvənin dərəyə yerləşməsi, dərənin içində istehkamın qurulması və başlanmış döyüş barədə məruzə edib dedim: "Cənab polkovnik, uşaqlar

buraya qədər dişləri-dırnaqları ilə vuruşublar. Ancaq bundan sonra canlı qüvvə və silah-sursat lazımdır. Yerdən və havadan atəş dəstəyimiz də yoxdur".

Polkovnik Səyyad Şirazi ayaqlarımın protez olduğunu bilmirdi. Helikopterdən bir xəritə gətirib yerə sərdi, göydən gördüyünü izah etməyə başladı. Mən oturanda protez ayaqlarımı uzatdım. Soruşdu: "Qardaş Sulgi, ayaqlarına nə olub?"

Güldüm.

- Məni bir ilə yaxın cəbhədən uzaq saxladı.

- Mən münafiqlərin qoşununun önünə qədər ərazini göydən araşdırdım. Onlar əsasən burda, Həsənabad dərəsi ilə Çarzəbərin arasındadırlar. Həsənabaddan İslamabada qədər yolda pərakəndə şəkildə bir qədər maşın var. İslamabaddan geridə də bir şey yoxdur. Mən istehkamın arxasındakı və təpələrdəki uşaqlarınızı gördüm.

Səyyad Şirazi helikopterin ratsiyası ilə Hərbi Hava Qüvvələrinin Dezful və Həmədandakı bazaları və Quru Qoşunların Kirmanşahdakı aviabazası ilə əlaqə saxladı. Sağollaşanda mənə dedi: "Bura Allahın pusqu qurduğu yerdir. Bu dərə münafiqlərin bu dünyadakı cəhənnəmi olacaq".

Helikopter havaya qalxdı. Namazdan qabaq diviziyanın cənubdakı komandiri ilə əlaqə saxladım,

vəziyyəti məruzə edəndən sonra dedim ki, Həzrət Əbülfəzl və Qasim ibn Həsən batalyonlarını cənubdan Çarzəbərə göndərsin. O, köməkçi göndərəcəyini söz verdi və bildirdi ki, özü də sabah gələcək.

Hələ dəstəyi yerinə qoymamış bütün səngər titrədi, düşmən təyyarələri düşərgəni bombalamağa başladılar. O saat Polkovnik Səyyad Şirazinin helikopteri yadıma düşdü; fikirləşdim ki, görəsən, salamat qayıda bildi, yoxsa yox.

Səngərdən çıxdım. Yüksəkliklərdən qara tüstü qalxır, yeganə zenit raketimiz MiQ-lərə atəş açırdı. Təyyarələr əl çəkmək bilmirdi. Bir qədər sonra Mahidəşti bombalamağa başladılar. Orada bizim artilleriyamız vardı.

Hadisələri yaxından izləmək üçün dərəyə getməyə hazırlaşanda Həmədan vilayətinin Əsədabad və Bahar rayonlarından bir neçə avtobus gəldi. Əkinçilərdən və məktəb şagirdlərindən ibarət təxminən iki batalyon bəsici idi. Bahar batalyonuna Xəlil Əfşar rəhbərlik edirdi.

İyul ayının axırları, tarlalarda iş zamanı idi. Əkinçilər cəbhədə iştirak etmək üçün həmişə payız və qış fəsillərini seçirdilər. Belə bir zamanda onların gəlişi yeni bir şey idi. Özü də təxminən bir sutka ərzində toplaşmışdılar, çoxu ilk dəfə idi cəbhəyə

gəlmişdi. Əkinçilərin biri deyirdi: "Mən məhsulumu Allaha tapşırıb gəlmişəm ki, canımı Allah yolunda qurban verim. Mənə silah verin".

Əsədabadlı uşaqların batalyonuna Məhəmmədrza Xüzayi komandirlik edirdi, müavini də Məhəmmədkazim Səidi idi. Öncəki batalyonlara nisbətən bu iki batalyonun daha yaxşı imkanları vardı. Öndən gələn atəş səslərini eşidib döyüşə tələsirdilər.

Züheyr batalyonunun komandir müavini Məhəmmədkazim Səidi sakit adam idi, üzündə həmişə təbəssüm olurdu. Məndən soruşdu: "Hacı Mirzə, yəni düşmən həqiqətən, bu yaxınlığa qədər gəlib?"

– Hə.

– Hardadırlar?

– Bu təpələrin arxasında. Şüarları da xalqın İran Azadlıq Ordusu tərəfindən xilas edilməsidir.

– Əcəb azadlıq ordusudur; azadlıq üçün əkinçilərlə və onların uşaqları ilə vuruşur! Kordurlar?! Bizim döyüşçülərimizin kim olduqlarını görmürlər?!

Haçan idi gülümsəyən halda qalmışdım. İfadəsindən xoşum gəldi, özü kimi də cavab verdim: "Nə qədər ki əkin sahələrinizə çatıb oraqlarınızı

əlinizdən almayıblar, sağdakı təpəyə çıxıb mövqe seçin".[1]

Səkkizillik müharibənin son günləri idi, ancaq Çarzəbərə o qədər canlı qüvvə gəlirdi ki, elə bil, əvvəlidir. Günortaya qədər digər rayon və vilayətlərdən o qədər könüllü gəldi ki, vəziyyət birdən-birə dəyişdi.

Öndən xəbər gəldi ki, münafiqlər bir neçə dəfə dərənin yaxınlığına qədər gəliblər, amma keçə bilməyiblər. Onların bir avtomobili birinci istehkamı keçməyə çalışıb, ancaq bütün sərnişinləri vurulub.

Polkovnik Səyyad Şirazinin gedişindən bir saat ötməmiş göydə ilk İran təyyarəsi göründü. F-5 qırıcısı idi, Dezfuldan qalxmışdı. Dərhal münafiqlərin avtomobillərini bombalamağa başladı.

Günorta namazını qılandan sonra yenə arxadan helikopter səsi gəldi. Polkovnik Səyyad Şirazinin söz verdiyi Kobra helikopterləri idi. Onlar alçaqdan

[1] Züheyr batalyonunun komandir müavini Məhəmmədkazim Səidi deyir: "Hacı Mirzə döyüş yerindən gəlmişdi, təzə gələnləri təlimatlandırırdı. Onu görən hər kəs ruhlanırdı. Yanında bir əsgər vardı. Ona dedim: "Bilirsən ki, Hacı Mirzənin ayaqları protezdir?" Dedi ki, hə, bilirəm. Dedim: "Onda diqqətli ol, qolundan tut". Əsgər dedi: "Deyəsən, hələ Hacı Mirzəni tanımırsan". Soruşdum ki, necə məgər? Dedi: "Hacı Mirzə mənə əmr edib ki, Çarzəbərdən bir addım geri çəkilsə, onu güllə ilə vurum".

uçur, bir-bir dərəyə yaxınlaşır, bombalarını töküb qayıdırdılar.

Bir qədər sonra düşərgəyə Bell 214 helikopteri gəldi. Düşərgənin səmasını münafiqlərin hədəfində idi. Helikopterə doğru üç raket atıldı, amma Allahın köməyi ilə salamat otura bildi.

Şəhid Polkovnik Səyyad Şirazi bu dəfə Qüds qərargahının əməliyyat üzrə komandir müavini Hacı Hüseyn Həmədanini gətirmişdi. Onu görəndə sanki çiynimdən ağır bir yük götürüldü, düşündüm ki, daha mənlik iş yoxdur. Hacı Hüseynin yanında bu hissi dəfələrlə yaşamışdım. Ümumiyyətlə, onu görmək yorğunluğumu çıxarırdı. Onu hələ də öz komandirim bilirdim.

- Hacı, necə də vaxtında gəldin! – deyib vəziyyəti ona məruzə etdim.

Onlar helikopterdən hər şeyi görmüşdülər, məlumatları məndən az deyildi. Mən dedim:

- Keçmişdə olduğu kimi, yenə sənin şagirdinəm. İndi ki gəlmisən, özün komandirliyi üzərinə götür.

- Mirzəməhəmməd, sizin komandiriniz cənab Salikidir. Mən Qüds qərargahı tərəfindən gəlmişəm, diviziyanın işlərinə qarışmaq istəmirəm.

Ağıllı və diqqətli adam idi; həm dərənin vəziyyətini nizama salmağa gəlmişdi, həm də komandirlik məsələsində etikadan kənara çıxmırdı.

Hər halda, onun təcrübəsi böyük düyünləri açdı. Əvvəlcə Kirmanşah və Həmədan valiliyi ilə əlaqə saxladı. Yolların maşın və qaçqınlarla bağlandığını helikopterdən görmüşdü. Onlara dedi ki, yol polisləri köməkçi batalyonların gəlişi üçün yolları açsınlar.

Öz-özümə düşündüm ki, gör hacı haradan başlayır.

Onun ciddi və cəsur səs tonu vardı. Danışıb qurtarandan sonra dedim: "Vallah, siz elə məsələləri düşünürsünüz ki, yüz il də ötsə, mənim kimilərin ağlına gəlməz". Bir söz deməyib əmri altındakı qərargah və diviziyalarla əlaqə saxladı, onlara dedi ki, Həsənabad dərəsinin arxası, yəni düşmənin geriyə yolu bağlanmalıdır.

Bu razılaşdırmalardan sonra getdi. Mən elə bildim ki, Kirmanşaha qayıdır.

Diviziyanın Şəhid Şahbazi düşərgəsindəki qərargah səngəri taktika qərargahına çevrildi. Əvvəllər batalyon komandiri olmuş Hacı Möhsün Türkaşvənd dərədə istiqamət komandirliyinə və münafiqlərin hücumlarını dəf etməyə başladı.

Mən qərargah səngərində ratsiya və rabitəçilərin yanında idim. Uşaqlar münafiqlərin danışıqlarını tutur, mən də qulaq asırdım.

Birinci gün günortadan sonra bizim təyyarə və helikopterlərin güclü bombardmanları ilə yadda qaldı. Onlar yorğun piyadaların işini yüngülləşdirirdilər. Hər dəfə Çarzəbərin səmasında görünəndə münafiqlər ratsiyadan təkrarlayırdılar: "Fırtına başladı! Fırtına başladı!"

Hərdən ratsiya arxasından qadınların qışqırıq səsi gəlirdi; farsca söyür, "dəccal pasdarlar" sözünü çox təkrarlayırdılar.

Rabitəçi uşaqlar onların İmam Xomeynini söydüklərini eşidəndə hirslənib cavab vermək istəyirdilər. Onlara deyirdim: "Uşaqlar, biz onlar kimi deyilik. Diqqətli olun, əxlaqsız söz işlətməyin!"

Bir-iki dəfə dəstəyi götürüb dedim: "Əmin olun ki, hətta bir nəfəriniz də dərədən sağ çıxmayacaq. Bura sizin qətlgahınızdır. Dərinizi soyacağıq!"

Partlayışlar bir qədər səngiyəndə ayaqlarımı protezdən çıxardım ki, bir qədər hava dəyib yaranın üstünü qurutsun. İki sutkadan sonra orada yuxuya getdim.[1]

---

[1] Qüds qərargahının əməliyyat üzrə komandir müavini Hüseyn Həmədani deyir: "Helikopterlə Çarzəbərə Şəhid Şahbazi düşərgəsinə getdik. Mirzəməhəmməd Sulgi ağır gecə keçirmişdi, ancaq sakit və soyuqqanlı görünürdü. O, münafiqlərlə döyüşün ilk gecəsində Ənsar əl-Hüseyn diviziyasının, daha doğrusu, İran İslam Respublikasının nümayəndəsi olmuşdu. Mənim kimi, Şəhid

Kimsə məni silkələyirdi. Yuxudan oyandım. İki pasdar və bir sürücü idi. Kimin tərəfindən gəldiklərini bilmirdim. Palçığa boyanmış ağ bir Peykanla məni Kirmanşaha aparmağa gəlmişdilər. Nə qədər israr etdilərsə, getmədim. Deyirdim ki, əgər buranı tutsalar, Kirmanşahı da tutacaqlar. Odur ki, buranın Kirmanşahla və ya Həmədanla fərqi yoxdur.

Pasdarların biri dedi:

– Hacı, siz bu vəziyyətdə ələ keçsəniz...

– Mənim başqaları ilə fərqim yoxdur.

Bu fikir çoxlarının, o cümlədən Nəhavənddəki həyat yoldaşımın beyninə gəlmişdi. Hamı qorxurdu ki, birdən düşmən dərənin arxasına keçib diviziyanın düşərgəsinə girər və mən əsir düşərəm.

Günbatan çağı ayaqlarımı taxıb qərargahın motosikletçi çaparına dedim: "Dərəyə gedirik".

Səyyad Şirazi kimi çoxları Çarzəbərə gedəndə vəziyyəti ondan öyrənirdilər.

Nəcəf qərargahının komandiri Nurəli Şüştəri cənubda idi, oradakı canlı qüvvəyə Mirzəməhəmməd başçılıq edirdi. İki protez ayaqla təpəyə o qədər çıxıb-düşmüşdü ki, protezlərin içi qanla dolmuşdu, amma ağrı hiss etmirdi. Səyyad Şirazi helikopterlə qayıdanda Sulgi yorğunluqdan yatmışdı. Qərara gəldim ki, özünə demədən onu Kirmanşaha istirahətə və müalicəyə göndərim. Çarzəbər dərəsinə girəndə isə onu orada, döyüş yerində görüb heyrətə gəldim. O vəziyyətdə, yaralı ayaqlarla ən öndə idi.

Düşərgədən dərəyə qədər qısa məsafəni getmək üçün motosiklet ən yaxşı nəqliyyat vasitəsi idi. Səhərdən fərqli olaraq, döyüşə o qədər adam gəlmişdi ki, onların arasından güclə keçib orta istehkama çata bildik.

Yolun sağ-solu təpələrə qədər adamla dolu idi. Motosikletçiyə dedim ki, istehkamın yanındakı ensiz yerdən keç və birinci təpəyə qalx. Bu zaman bir nəfər qışqırdı: "Sulgini hara aparırsan?"

Gözlərimə inanmırdım. Hacı Hüseyn Həmədani idi, mənimlə sağollaşandan sonra dərəyə gəlibmiş.

Dedim ki, irəli gedirəm. Dedi: "Qayıt! İndi ki Kirmanşaha getməmisən, onda burda qal".

Bildim ki, ağ Peykanı da o göndəribmiş. Qayıtmadığıma görə sevindim.

Onun və başqa bir neçə komandirin yanında qaldım.[1] İnanırdım ki, Allahın Quranda söz verdiyi mələklər bunlardır.

Yolun sağ-solundakı oğlan və qızların cəsədlərini görmək üçün durbinə ehtiyac yox idi. İstehkamın önündən başlayaraq münafiqlərin avtomobil və texnikaları yanıb yolu tam bağlamışdı. Çarzəbərdən

[1] Həmin komandirlərin biri Əhmədimüqəddəm idi, dərədə adi bəsici kimi vuruşurdu. Qarnına avtomat gülləsi dəymişdi, amma geri qayıtmırdı. O, hazırda DİN-nin polis qüvvələrinin komandanıdır.

keçmək üçün onların təpələri ələ keçirməkdən və ya dövrə vurmaqdan başqa yolları yox idi.

***

Ölkə rəhbərliyinin və yüksək vəzifəli müharibə komandirlərinin bütün diqqəti Çarzəbərə yönəlmişdi. Hamı ya Kirmanşahda idi, ya da korpusun Quru Qoşunlarının komandanı Mustafa İzədi kimi dərəyə qədər gəlmişdi.

Nəcəf qərargahının komandiri Nurullah Şüştəri və Qüds qərargahının komandiri Əziz Cəfəri Kirmanşahda idilər, hərbi birləşmələrini cənubdan və şimal-qərbdən gətirir, Həsənabad dolanbacının arxasına helikopterlə canlı qüvvə endirməkdən ötrü plan hazırlayırdılar.

Yeni könüllülər gələndən sonra dərənin sağ və sol təpələri daha da gücləndi. Bizim bir-iki batalyonumuz geri qayıtdı, Müslim ibn Əqil batalyonu yolun orta istiqamətinə köməyə getdi.

İyulun 26-da səhər saat 7-dən qırıcı və helikopterlərimizin hücumlarının yeni mərhələsi başlanmışdı, münafiqlər düzənliyə səpələnir, təpələrə yaxınlaşmaqdan ötrü hər bir cığırdan istifadə edirdilər.

Həzrət Əli Əkbər batalyonu yolun sol istiqamətində, düşmənə daha yaxın mövqedə idi. Batalyon komandiri Bəhram Mübarəki o qədər irəli

getmişdi ki, münafiqlərlə üz-üzə vuruşurdu. Günorta çağı ratsiyadan öyrəndim ki, şəxsi heyətinin bir qismi ilə münafiqlərin mühasirəsinə düşüb, qarnından yaralanıb və onu bir ağacın altına qoyublar. Soruşdum ki, nə üçün geri gətirmirsiz? Dedilər: "Mümkün deyil. Çox irəli gedib. Yanında bir neçə yaralı da var".

Bir neçə dəqiqəliyə rabitə əlaqəsi kəsildi. Ratsiya ilə onun döyüşçülərindən kiminlə danışırdımsa, cavab verməkdən qaçırdı. Axırda biri dəstəyi alıb ağlaya-ağlaya dedi: "Münafiqlər Mübarəkinin başı üstə gəldilər, süngü ilə qarnını kəsib-doğradılar".

Batalyon komandirlərinin məzlumcasına şəhadəti döyüşçüləri ağır qəm-qüssəyə saldı. Geri gələn hər bir döyüşçü onun məzlumluğundan danışır, çoxu ağlayırdı.

İkinci gün günortadan sonra göydə üç İraq təyyarəsi göründü. Təpələrdə və çöllərdə o qədər döyüşçümüz vardı ki, hara bomba düşsəydi, ağır itki verəcəkdik. Bu zaman xəbər gəldi ki, təyyarələr səhvən münafiqləri bombalayıb qaçıblar.

Bunu eşidəndə yanımdakılara dedim: "Bu bombalar Allahın qəzəb alovunun əlamətidir. Onun hikməti belə imiş ki, münafiqlər cinayətlərinin cəzasını öz kafir dostlarından alsınlar".

Üçüncü axşamdan səhərə qədər köməkçi qüvvələr daha da çoxaldı. Korpusun Baş komandanı Möhsün Rzayi İslamabada yaxın bir kəndə yerləşmişdi, digər komandirlərlə birgə əməliyyat planı hazırlayırdı.[1]

Yeni döyüşçülərin gəlişi susuzluqdan qurumuş bitki köklərinə su effekti verirdi. Öndə vuruşan yorğun şəxsi heyət geri gəlir, yeni batalyonlar onları əvəzləyirdi.

İki gün ərzində Bahar rayonundan 300 nəfərdən ibarət batalyon yaradılıb döyüş yerinə göndərilmişdi. Əkinçilərin biri oraqla gəlmişdi. Qərargah uşaqları bu batalyonun adını Əkinçilər batalyonu qoydular.

160-cı batalyon, yaxud Əkinçilər batalyonu dərəyə gedib batalyonların birini əvəzlədi. Onlar dərəyə çatan kimi münafiqlərlə əlbəyaxa döyüş başlandı.

[1] Mirsad əməliyyatında korpusun hərbi birləşmələrinin bir hissəsi bunlar idi: Bədr, "Məhəmməd rəsulullah (s)", Aşura, Sarəllah, əl-Mehdi, Əli ibn Əbu Talib, Ənsar əl-Hüseyn diviziyaları, 6 saylı xüsusi təyinatlı Pasdarlar və 55 saylı xüsusi təyinatlı Şəhidlər diviziyası, Qaim, Nəbi-əkrəm, Əmirəlmöminin, Müslim ibn Əqil, Əbülfəzl briqadaları və Vəliəmr qvardiyasına məxsus birləşmələr. Korpusun Baş komandanı Mirsad əməliyyatından sonra Həmədan vilayətinin döyüşçülərini təşəkkürnamə ilə təltif etdi.

Mirsad dərəsində döyüş üçüncü gündə pik həddə çatdı. Ən qızğın döyüş yolun sol istiqamətində nasosxananın ətrafında gedirdi.

Münafiqlər iki istiqamətə bölünmüşdülər: Bir istiqamət soldakı ilk təpəni dövrə vurmağa çalışır, ikinci istiqamət də nasosxananın ətrafında vuruşub döyüşçülərimizin Həsənabad dolanbacına keçmələrinə mane olurdular.

160-cı batalyon üçüncü gün günortaya qədər üç şəhid verdi, amma münafiqlərə ağır zərbələr vurdu və onların hücumlarını dəf etdi.

Günortadan sonra Abadandan Qasim ibn Həsən batalyonu gəldi. Komandiri Mehdi Məliki, birinci müavini də Fərəhbəxş Nurəli idi. Dedilər ki, Çarzəbərə çatmaqdan ötrü çox əziyyət çəkmiş, əvvəlcə Qız körpüsündən İslamabada getmişlər. Orada münafiqlərin İslamabada yolunu bağlamış korpus komandirləri onları məcbur etmişdilər ki, qayıdıb Nəhavənd yolundan getsinlər.

Bu batalyon sol tərəfdəki ilk təpəyə yola düşdü. Düşmən orada ciddi müqavimət göstərirdi. Onlar münafiqlərin təpənin harasına qədər gəldiklərini dəqiq bilmirdilər. Komandir müavini Fərəhbəxş Nurəli sonralar deyirdi:

- Mehdi Məliki mənə dedi ki, təpənin başından bir qədər enim, düşmən olmasa, uşaqları irəli aparım.

Sağa-sola diqqətlə baxdım, heç kim yox idi, onların təpənin altında olduqlarını isə bilmirdim. Silahı qaldırdım. Uşaqlara bildirmək istəyirdim ki, heç kim yoxdur və gələ bilərlər. Bu zaman əlimə bir güllə dəydi və elə bildim ki, əlim kəsildi. Silahım yerə düşdü və damarım parçalandı. Əlimin damarını tutdum, qayıtmaq istəyəndə belimə də bir güllə dəydi. Ancaq yenə birtəhər yuxarı qalxıb uşaqlara dedim ki, ayağımızın altındadırlar. Uşaqlar tez zirvəyə çıxdılar və döyüş başlandı. Hər tərəfdən güllə yağırdı. Bizi hətta 23 mm kalibrli zenit pulemyotu ilə də vururdular. Həmin gün axşama qədər 43 şəhid verdik. Onlardan biri də komandirləri Mehdi Məliki idi.

Qasim ibn Həsən batalyonunun fədakar müqaviməti ağır itkilərlə ötüşsə də, düşməni növbəti dəfə təpənin başına çıxmaqdan məyus etdi. Düşmən geri çəkildi, ancaq onların geriyə yolları da tam bağlanmışdı, hər iki tərəfi düyünlənmiş bir torbanın içində qalmışdılar; nə geriyə yolları vardı, nə də irəli.

Həzrət Əbülfəzl batalyonu, mənim köhnə döyüş yoldaşlarım dördüncü gün Abadandan Çarzəbərə çatdılar. Bu batalyonun adı məni ruhlandırırdı. Gəncliyim, həyatımın ən şirin çağı orada keçmişdi və ilk dəfə idi ki, onlarla getməyə ayağım yox idi.

Bütün yorğunluğuma, ayağımın ağrı və yarasına baxmayaraq, özümü gümrah göstərməyə çalışdım. Sağollaşanda uşaqlara dedim: "Siz Səddam Hüseynin, Adnan Xeyrullanın qabağından geri çəkilməmisiz, bir ovuc münafiq oğlan və qızla vuruşmaq sizinçün tənəffüs zəngidir".

Batalyonu Hacı Mehdi Zəfəri apardı. Onlar münafiqlərə zərbə vurmaq, onları məhv etmək üçün əməliyyatı davam etdirdilər, bir qədər əsir tutdular.

Əsirlərin çoxu qadın idi. Onların biri ayaq barmağından yaralanmışdı, qışqırırdı. Soruşdum ki, haradan gəlmisən?

– Almaniyadan.

Almaniyanın adını eşidəndə münafiqlərin əzab-əziyyətləri yadıma düşdü.

Tibb bölüyünün uşaqlarına dedim ki, yarasını bağlasınlar. Dedi: "Üç-dörd gün öncə ərimlə birgə Frankfurtdan birbaş Bağdada uçub təşkilata qoşulmuşuq. Biz elə bilirdik ki, üç günə Tehrana çatacağıq". Onu digər əsirlərlə birgə Kirmanşaha göndərdim.

Beşinci gün səhər çağı bütün ratsiyalar münafiqlərin tamamilə məhv edildiyini söyləyirdi. Bir komandir avtomobili və bir neçə rabitəçi ilə birgə dərəyə getdim. Uşaqlar sağlam avtomobilləri geri

gətirir, buldozerlər yanmış texnikanı yolun kənarına yığırdı. Hər tərəf cəsədlə dolu idi.

İrəlilədikcə qız və oğlanların cəsədləri çoxalırdı. Münafiqlər asfalt yolun altındakı körpünü yaralı və ölüləri yığmağa ayırmışdılar. Şişmiş, yanmış cəsədlərin üfunət iyi adamın burnunu göynədirdi.

Həsənabad dolanbacından keçib İslamabad şəhərinə çatdıq. Şəhərdə qohumlarımdan birini gördüm, münafiqlərin şəhəri ələ keçirdikləri üç gündə fərqli paltarda şəhərə çıxırmış.

Qohumumuz münafiqlərin birinci gündən əhalinin əmlakını qarət etməsindən, kollektiv edamlardan, şəhərin xəstəxanasındakı yaralı əsgər və döyüşçülərin qətliamından danışırdı.

İslamabaddan Kirində və Sərpol Zəhaba getdik. Dağ və düzlərə qaçmış əhali evinə qayıdırdı. Münafiqlərin bir qismi qaçanda camaat onları əsir tutmuşdu.[1]

Şəhidlərin dəfnindən ötrü Nəhavəndə qayıtdım. Əhali Mirsad əməliyyatının qaliblərini və şəhidlərini qarşılamaq üçün şəhərin girişinə toplaşmışdı.

---

[1] Mirsad əməliyyatı 29.07.88 tarixində günbatan çağı sona çatdı. Münafiqlər təşkilatının 5000 döyüşçüsündən 1000-dən azı qaçıb canını qurtara bildi. Onların komandirlərindən biri İraqa çatanda ratsiyadan belə demişdi: "Axır ki Çarzəbər cəhənnəmindən salamat qaça bildik!"

Şəhidləri dəfn edəndən sonra əhali məni qolları üstə qaldırıb gəzdirməyə başladı. İzdihamın qolları üzərində atılıb-düşəndə protez ayaqlarımın hər ikisi çıxdı.

İnsanların qolları üzərində özümü yaxşı hiss etmirdim. Bir saat öncə şəhidlərin tabutu onların qolları üzərində idi, mən xalqdan və şəhidlərdən xəcalət çəkirdim. Müharibə bitmişdi, karvandan geri qalmaq həsrəti canımı yandırırdı. Yalvarırdım ki, məni yerə qoyun.

Ayaqlarımı taxıb tribunaya çıxdım. Qarşımdakıların çoxu bazar adamları və Mirsad əməliyyatında iştirak etmiş əkinçilər idi. Sanki bütün əhali Əbülfəzl batalyonunun döyüşçüləri idi, müharibə davam etsəydi, səkkiz ildən sonra bir neçə Əbülfəzl batalyonu meydana çıxacaqdı.

Nə deyəcəyimi bilmirdim. Şəhidlər bir-bir gözlərim önündən keçirdi. Gözlərim ağlamaq istəyir, qəhər məni boğurdu.

Özümü toparlayıb batalyonun şəxsi heyəti önündə danışdığım kimi danışmağa çalışdım. Ancaq o gün əməliyyat günü deyildi. Nəhavəndin 850 şəhidinin 450 nəfəri Əbülfəzl batalyonunun bayrağı altında vuruşmuşdu. Onlar həzrət Əbülfəzlin yanında idilər, mənsə karvandan geri qalmış qəmli birisi.

Peyğəmbərin bir müharibədən sonra buyurduğu hədisini söylədim: "Kiçik cihadı sona çatdıran və qarşılarında böyük cihad duran insanlara eşq olsun!"[1]

Başqa bir söz demədim, başımı aşağı salıb yerə səcdə etdim.

Müharibədən sonrakı günlər ağır günlər idi. Mən şəhidlərin xatirələri ilə yaşayır, evlərinə baş çəkir, Şəhidlər gülzarı məzarlığına gedirdim. Korpus mənim evim olmuşdu.

Buna baxmayaraq, müharibə uşaqları, hətta bir çox komandirlər mənə baş çəkməyə gəlirdilər.[2]

---

[1] Bu hədisdə böyük cihadda məqsəd nəfsə qarşı cihad etmək, mübarizə aparmaqdır.

[2] Qüds qərargahının əməliyyat üzrə komandir müavini Hüseyn Həmədani deyir: "Mirzəməhəmməd Sulgi Mirsad əməliyyatının qəhrəmanı idi. Onunla işləyən bütün komandirlər şəxsiyyətinə və əxlaqına vururdular. O, cəsarət və dözümlülükdə misilsiz idi. Səkkizillik müqəddəs müdafiə əzəmətli və qürur dolu Mirsad əməliyyatı ilə başa çatdı və məncə, Mirzəməhəmməd bu əməliyyatın namsız-nişansız qəhrəmanıdır.

Əməliyyatdan bir neçə gün sonra Nəhavəndə onu görməyə getdim. Çox darıxırdı. Tanıdığım zamandan onu ilk dəfə idi elə darıxan görürdüm. Bu illərdə onun dostları, döyüş yoldaşları şəhadətə qovuşmuşdu. Ona dedim: "Hacı Mirzə, xoş halına! Sənin müharibədə parlaq qovluğun var, şəhidlərin və Allahın yanında üzüağsan. Bunun sübutu güllə və qəlpə dolu bədənin və kəsilmiş ayaqlarındır". Əlini ürəyinin başına qoydu, dərindən köks ötürüb

Bəzən yaxın dostlarla başlarımızı bir-birimizin çiyninə qoyub şəhidləri yada salır, ağlayırdıq. Uşaqlarım çox kiçik idilər, hələ bunun mənasını başa düşmürdülər. Özüm də uşaqlıqda elə idim; atam Həzrət Əbülfəzl üçün məşk atası rövzəsini oxuyanda sadəcə baxırdım.[1]

həsrətlə dedi: "Ürəklərinin qanını İmam Hüseyn (ə) məktəbinə qurban vermiş insanların xoş halına!"

[1] Hacı Mirzənin döyüş yoldaşı Cəmşid Talibi deyir: "Hacı Mirzə ilə müsahibə düz bir il çəkdi. 2013-cü ilin rəcəb ayında onunla və həyat yoldaşı ilə birgə Kərbəla ziyarətinə getdik. Hacı Mirzə İmam Hüseynin (ə) məqbərəsində, onun məzarı başında sol tərəfdə stulda oturub namaz qılırdı. Mən ondan iki metr arxada namaza başladım. Namazını bitirəndən sonra bir qoca ərəb yaxınlaşıb hacıdan stulu istədi. Hacı Mirzə ayağının olmadığını söyləmədən qalxdı və qoca oturdu. Bu zaman Hacı Mirzə bərk daşların üstünə yıxıldı. Qoca təəccüblə gözlərini onun sallanan ayaqlarına dikmişdi, o isə dodaqaltı deyirdi: "Ya Əbülfəzl!"

Çarzəbər döyüşünün birinci günündə Şəhid Əli Səyyad Şirazi Hacı Hüseyn Həmədani ilə birgə helikopterlə diviziyanın qərargahına gəldi. Onları görəndə ayaqlarımın yarası yadımdan çıxdı.

Çarzəbər, 1988



Protez ayaqlarla yenə cəbhəyə yollandım, özüm istəmədən diviziyanın bütün batalyonlarına rəhbərlik mənim üzərimə düşdü.



Həzrət Əli Əkbər batalyonunun komandiri Şəhid Bəhram Mübarəki

O, illərlə cihaddan sonra müharibənin son günlərində mükafatını aldı.

Kəşfiyyat-diversiya rəisi Şəhid Hadi Fəzlini İslamabada kəşfiyyata göndərdim. Qayıdanda yaralı idi, ancaq yenə döyüş yerinə qayıtdı.



Münafiqlərin Kirmanşahdan Həmədana qədər əməliyyat planı

Münafiqlərdən əldə edilmiş sənədə görə, onlar Ənsar əl-Hüseyn diviziyasının harada yerləşdiyindən xəbərdar idilər, amma bununla yanaşı, Çarzəbərdə pusquya düşdülər.



Çarzəbər dərəsindən Həsənabad dolanbacına qədər hər yerdə münafiqlərin yanmış avtomobil və texnikaları yolu bağlamışdı.



Nəhavəndin inqilabçı Əbuzər qrupunun müəllimi Hacı Məhəmməd Talibian nəhayət, münafiqlər tərəfindən şəhadətə yetirildi.

Həmin gün Quranın altından keçdi və bir daha geri qayıtmadı.

Birinci övladım Mustafa uşaqlıqdan korpus forması geyinib pasdar olmaq istəyirdi.

Mustafa müharibədən sonra pasdar oldu, amma çox tezliklə aramızdan getdi.

Ən böyük iftixarım Həzrət Əbülfəzl nökərlərinə nökərlik etməkdir.

Müharibədən sonra Nəhavəndin Şəhidlər gülzarı məzarlığında Şəhid Hacı Möhsünün məzarı başında

Salam olsun sənə, ya Əbülfəzl!

Mündəricat

Birinci fəsil 4
Şeyx Əli Məhəmmədin övladı 4
İkinci fəsil 22
İlahi rəng 22
Üçüncü fəsil 58
Abbas (ə) bayrağı altında 58
Dördüncü fəsil 137
Səqqalar batalyonu 137
Beşinci fəsil 180
Məcnun adası 180
Ölüm-dirim savaşı 180
Altıncı fəsil 213
Aşura gecəsi 213
Ənsar əl-Hüseyn briqadası 213
Yeddinci fəsil 287
Fav 287
Salam olsun susuzluğa! 287
Səkkizinci fəsil 358
Dirilik suyu 358
Doqquzuncu fəsil 407
Biz Əbülfəzl batalyonuyuq 407
Onuncu fəsil 453
İki itirilmiş ayaqla 453
On birinci fəsil 506
Allah bizimlə idi 506